**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

## İKİNCİ CİLD

**Bakı – 2012**

**Seyyid Əliəkbər  Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, “Qələm” nəşriyyatı, 2011.474 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor:     Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın “Qurani-kərimdə xitablar” mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 07 aprel 2012-ci il tarixli DK-156/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir

# QURANDA KİTAB ƏHLİNƏ XİTABLAR (YEDDİNCİ NÜMUNƏ)

## Peyğəmbərlərin zəruriliyi

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَ
الْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَ نْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا
وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَ
لَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ

Allah-təala Qurani-Kərimdə müxtəlif xitabları bəyan edir və bunların bəzisi insana, bəzisi camaata (ümum insanlara), bəzisi müxalifətdə olanlara, bəzisi isə möminlərə yönəlib. Ötən bəhslərdə bu haqda kifayət qədər söhbət etmişik. Xüsusilə həmin xitablardan ikisi barədə ətraflı danışılmışdır. Onlardan biri insana, (Ey insan!), digəri isə ümum camaata (Ey insanlar!) olan xitablardır. Həmçinin Quranda Allah-təala müxalif insanlara, xüsusilə kitab əhlinə müəyyən xitabları da bəyan edir. Qeyd olundu ki, müxaliflər Allaha, yaxud peyğəmbərə, qiyamətə və dinin hər hansı bir prinsipinə etiqad və iman gətirməyən kəslərdir. Məsələn, ola bilsin ki, bir insan Allaha iman gətirib, lakin Peyğəmbəri(s) qəbul etmir və ya peyğəmbəri Allahın oğlu hesab edir. Ya-xud bir peyğəmbəri qəbul edib, digərini qəbul etmir. Bu şəxs müxaliflər sırasında dayanmış həmin kitab əhlidir. Allah-təala bütün müxalifətdə olan insanlarla söhbət edir və onlara xitab edərək müəyyən sözləri başa salır.

Quranda kitab əhlinə olan xitablar on yeddi ayədən ibarətdir. Ötən bəhslərimizdə həmin xitablardan altı nümunəni oxuyub doqquz ayə barədə ətraflı şəkildə söz

açdıq. İndi isə bəhsimizin davamı olaraq "Maidə" surəsinin 15,16 və 19-cu ayələri ilə söhbətimizə başlayaq. Bu ayələrdə Allah-təala kitab əhlinə xitab edərək buyurur:

يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ كَثِيرًا مِّمَّا كُنتُمْ تُخْفُونَ مِنَ الْكِتَابِ وَيَعْفُو عَن كَثِيرٍ قَدْ جَاءكُم مِّنَ اللّهِ نُورٌ وَكِتَابٌ مُّبِينٌ

-Ey kitab əhli, şübhəsiz, sizə Bizim peyğəmbərimiz gəlib ki, o, sizin üçün öz kitabınızdan (İslam peyğəmbərinin xüsusiyyətləri və Onun peyğəmbərliyinin nişanələri kimi) gizlətdiklərinizin bir çoxunu bəyan edir və bir çoxuna (Allahın cism olması barəsindəki sözlərə və peyğəmbərlərə günah nisbət verilməsinə də hələlik) göz yumur. Həqiqətən, Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib.[1]

يَهْدِي بِهِ اللّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلاَمِ وَيُخْرِجُهُم مِّنِ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

-Allah (iman gətirib) Onun razılığına tabe olanları o (nur və kitabın) vasitəsilə (üsuliddin və füruiddinin yolu olan) salamatlıq yollarına hidayət edir. Onları Öz köməyi ilə qaranlıqlardan (küfr, nifaq və itaətsizlik zülmətlərindən) nura tərəf çıxarır və doğru yola hidayət edir.[2]

يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ عَلَى فَتْرَةٍ مِّنَ الرُّسُلِ أَن تَقُولُواْ مَا جَاءنَا مِن بَشِيرٍ وَلاَ نَذِيرٍ فَقَدْ جَاءكُم بَشِيرٌ وَنَذِيرٌ

---

[1] Maidə,15

[2] Maidə,16

وَاللّٰهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

-Ey kitab əhli, həqiqətən (qiyamət günü) «bizə heç bir müjdə verən və qorxudan gəlmədi», - deməməyiniz üçün Bizim peyğəmbərimiz sizin yanınıza gəldi və o, peyğəmbərlər silsiləsinin arası kəsildiyi dövrdə (İsa ilə Məhəmmədin – səlləllahu əleyhi və alihi və səlləm – peyğəmbərlik dövrləri arasındakı zaman fasiləsində dini maarifi) sizə bəyan edir. Deməli, doğrudan da sizə müjdə verən və qorxudan gəldi. Allah hər şeyə qadirdir.[1]

Bu ayələrdə beş mühüm mətləb bəyan olunur. Burada çox yaxşı olar ki, həmin mətləblərin xülasəsi ilə tanış olduqdan sonra nümunə üçün onlardan biri barədə ətraflı söz açaq.Qeyd olunan mətləblər isə aşağıdakılardan ibarətdir:

1.İslam Peyğəmbərinin (s) göndərilməsi və xüsusiliyi;

2.Peyğəmbərin (s) vəzifəsi haqq-həqiqəti bəyan etməkdir;

3.Kitab əhlinin gizlətdiyi həqiqətlərə, xüsusilə İslam Peyğəmbərinin(s) nişan və əlamətlərini gizlətmələrinə toxunmaq;

4.Allahın razılığını əldə etmək və bunun faydaları;

5.Höccəti tamamlamaq.(Kitab əhli sonradan deməsin ki, bizi başa salan olmayıb və Peyğəmbər gəlməyib.)

## Nübüvvətin zəruriliyi və İslam Peyğəmbərinin(s) göndərilməsi

Qeyd edilən ayələrdəki birinci mətləb İslam Peyğəmbərinin(s) barəsində bəyan olunur. Həmin ayələrdə Allah-təala kitab əhlinə xitab edərək ilk növbədə Peyğəmbərin(s) göndərilməsi məsələsini açıqlayır. Burada çox yaxşı olar ki, İslam Peyğəmbərindən(s) əvvələ qayıdaraq ondan əvvəlki

[1] Maidə,19

peyğəmbərlər və bütövlükdə nübüvvət barədə söz açaq. Bir qədər araşdırma aparıb baxaq görək insanlara peyğəmbərlərin göndərilməsinə nə kimi ehtiyac var. Bəziləri «Peyğəmbərlər bizim üçün nə iş görüblər?» - deyə iddia edirlər. Onda təbii olaraq ortaya belə bir sual da çıxır: Peyğəmbər gəlib insanlar üçün nə etməli və hansı işləri görməliydi? Bu sualın cavabını bildikdən sonra baxaq görək peyğəmbər öhdəsinə düşən vəzifəni yerinə yetirb, yaxud yetirməyib? Bütün bu kimi bəzi sualların cavabını aydınlaşdırmaq üçün ilk növbədə bir neçə müqəddiməyə ehtiyac duyulur. Bunlar aydınlaşdırıldıqdan sonra gələcək bəhslərimizi başa düşmək də asan olacaqdır.

### 1. İnsanın yaradılışında məqsəd

Birinci müqəddimə insanın yaradılışının məqsədi ilə bağlıdır. Yəni ilk növbədə baxaq görək insan nə üçün yaradılmışdır. Tövhid məsələsindən sonra Allah-təalanın insanı nə üçün yaratması sualı ortaya çıxır. Uzun illər boyu biz öz ağlımıza, elm və biliyimizə, ən əsası isə Quranın bizə buyurduqlarına əsasən başa düşmüşük ki, Allah-təala insanları təkamül və kamilliyə çatmaq üçün yaratmışdır. Yəni insanın yaradılışında əsas məqsəd onun kamilliyə çatmasıdır. İnsanın yaradılışı başqa mövcudatlardan tamamilə fərqlidir. İnsan nə taxta kimi, nə heyvan kimi, nə də mələklər kimidir. İnsan tamamilə fərqli bir məxluqdur. Məsələn, arıya nəzər salsaq görərik ki, onun çox böyük mühəndisliyi və peşəkarlığı vardır. Arı Allahın yaratdığı canlılardan biridir. Allah arını yaratdığı gündən indiyədək onlarda nə isə bir inkişaf və ya geriləmək baş verməyib. Minlərlə il bundan öncə arılar necə var idilərsə, bu gün də elədir. Arıların mühəndisliyi və peşəkarlığı illərlə bundan öncə necə idisə, indi də olduğu kimidir. Onlarda azacıq da olsa heç bir dəyişiklik olmayıb. Yəni onların instinktliyində,

hərəkətində və elmində artım, yaxud azalma nəzərə çarpmayıb. Arılar necə yaranıblarsa, eləcə də qalırlar. Amma insan arı kimi deyildir və insan daim həm maddi, həm də mənəvi cəhətdən inkişaf və hərəkətdədir. Belə də ola bilməz ki, insan maddi cəhətdən inkişaf etsin, amma mənəvi baxımdan geridə qalsın. İnsanın bu iki cəhəti bir quşun qanadlarına bənzəyər ki, bir qanadı kəsildikdə digər qanadı ilə çırpınıb öz yerində dövrə vurar. Əgər insanın mənəvi cəhəti geriləyərsə maddi (dünyəvi) cəhətinin ətrafında, maddi cəhəti geriləyərsə mənəvi cəhətinin ətrafında çırpınacaq. Bir sözlə desək, əgər insan mənəviyyatı bir kənara qoyub yalnız maddiyyatı tutarsa, o zaman onun digər canlılardan heç bir fərqi olmayacaqdır. Çünki maddiyyat yemək, içmək və dünyada yaşamaq üçün zəruri olan vasitələrdir ki, digər canlılar da bunlardan istifadə edirlər. Mənəviyyat isə insanların kamilliyə yüksəlməsi üçün zəruri olan vasitədir. Bu baxımdan ibadət insanların mənəviyyatında ən əsas yeri tutur. Lakin elmsiz və kor-korana ibadət etmək də insanı kamilliyə çatdırmaz. Həzrət Əli(ə) nadan abidi dəyirman uzunqulağına bənzədərək belə buyurmuşdur: «Bilməyib anlamadan ibadət edən dəyirman uzunqulağına bənzər.»

Məlumdur ki, keçmişdə dəyirman daşını əllə hərəkətə gətirərdilər. Dəyirman daşı iri olduqda isə uzunqulağı ona bağlayardılar. Uzunqulaq bir neçə saat öz yerində hərəkət etdikdən sonra baxıb görərdi ki, hey fırlanmasına baxmayaraq həminki yerdədir. Buna görə də daha hərəkət etməz və yerə oturardı. Buna görə də uzunqulağın dayanmamasından ötrü onun gözlərini bağlayardılar. Bütün bunlara baxmayaraq uzunqulaq nə qədər hərəkət etsə də belə yenə də öz durduğu yerdə hərəkət edirdi.

Odur ki, Həzrət Əli(ə) elmsiz nadan abidləri bax beləcə tənqid edir və onları dəyirman uzunqulağına bənzədirdi.

İbadət edən cahil adamlar da öz dayandıqları yerdə hərəkət edər, amma heç bir yerə çatmazlar. Yəni insanın mənəvi cəhətinin qarşısını alsalar, o, öz maddi cəhəti ətrafında dövrə vurar və heç bir nəticəyə də yetişə bilməz. Həmçinin onun maddi cəhətinin qarşısını alsalar, o, öz mənəvi cəhəti ətrafında dövrə vurar və yenə də bunun heç bir nəticəsi olmaz. Deməli, Allah- təala insanı kamilliyə yetişmək üçün yaratmışdır. Odur ki, insan bu kamilliyə öz ixtiyarı və iradəsi ilə çatmalıdır. Əgər o, məcburiyyət qarşısında olsa belə yenə də bunun heç bir nəticəsi olmayacaqdır. Nəticədə biz görürük ki, Allah-təala insanların səadət və kamala çatmasında qərarlıdır. İnsan da yalnız və yalnız öz ixtiyarı ilə bu səadətə və kamilliyə yetişə bilər. İxtiyar olan yerdə isə yol əlbəttə ki, bir deyil, kifayət qədərdir. Deməli, seçim qarşısında qalan insanın kamala çatması da onun öz şəxsi seçimindən asılıdır. Əgər hər bir işdə yalnız bir yol olsa, o zaman seçim etmək də mümkün olmayacaq. Seçimi o vaxt edərlər ki, müxtəlif yollar olmuş olsun. Məsələn, fərz edək ki, masanın üstündə yalnız bircə kitab vardır. Kimdənsə xahiş edirsən ki, onun üstündəki kitabı sənə versin. Həmin şəxs isə deyir: Hansı kitabı? Masanın üstündə yalnız bir kitab olduğundan artıq hər hansı bir suala da ehtiyac yoxdur. Əgər masanın üstündə bir neçə kitab olsaydı, o zaman hansı kitabın istənilməsindən də söz açıla bilərdi. Deməli, bircə yol olmuş olsa, o zaman insan seçim qarşısında da qalmaz. Seçim o yerdə olur ki, hər hansı bir məsələ ilə bağlı bir neçə yol olmuş olsun. Yollar çox olduğuna görə insan həmin yollardan birini özü üçün seçməlidir. Allah-təala “Bələd” surəsinin 10-cu ayəsində buyurur:

وَهَدَيْنَاهُ النَّجْدَيْنِ

-Və ona iki yolu (maddi və mənəvi cəhətdən xeyir və şər yolunu) göstərmədikmi?!

“İnsan” surəsinin 3-cü ayəsində belə buyurulur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

-Həqiqətən, onu düz yola yönəltdik – istər şükr edən olsun, istərsə də nankor.

Biz burada açıq-aydın şəkildə görürük ki, Allah-təala insanlar üçün iki yol müəyyən etmişdir. Onlardan biri düz, digəri isə əyri yoldur. Bu yolların hər birini seçməkdə insan ixtiyar sahibidir. İstər düz yolu seçib şükür edənlərdən olsun, istərsə də əyri yolu seçib nankor olsun. İnsan bu yollardan birini seçməkdə sərbəstdir. İnsan seçim qarşısında olduğundan həmin yollardan birini seçməlidir.

## 2. Yolları tanımaq və düzgün seçim

İkinci müqəddimə budur ki, insan bir neçə yolun üzərində seçim qarşısında qaldıqda mütləq həmin yolları tanımalıdır. İnsan üçün müəyyən olunmuş həmin yolların hər biri barədə araşdırma aparmalı, onları dəqiqləşdirməli və birini seçməlidir. Allah-təala peyğəmbərləri göndərməklə bu yolları bizə tanıtdırır. Yəni peyğəmbərlər həmin yolları insanlara aydınlaşdırmaq üçün gəlmişlər. Əgər Allah-təala bu yolları tanıtdırmaq üçün peyğəmbərlər göndərməsə, bu ona bənzəyər ki, bir nəfəri evinə dəvət edirsən, amma ünvanı ona vermirsən. Allah-təala hər bir işində tədbirli və mükəmməl olduğundan həm həmin yolları göstərir, həm də onları tanıtdırmaq üçün peyğəmbərlər göndərir.

## 3. Ağıl və hissiyyatın kifayət etməməsi

Üçüncü müqəddimə isə budur ki, insan öz ağlı ilə bir çox məqsədlərinə nail ola bilir. Lakin bu yolların seçimində ağıl kifayət etmir. Doğrudur, Allah-təala insana ağıl verib və bu ağıl insana xeyir-şəri görüb müəyyənləşdirmək imkanı yaradır. İnsan öz ağlının vasitəsilə pisi yaxşıdan seçə bilir.

Ağıl insan üçün çox əhəmiyyətli bir şeydir. Lakin bununla belə ağıl insana kifayət etmir. Yəni ağıl müəyyən həddə kimi nəyisə dərk edə bilir. Məsələn, insan gecə vaxtı fənərlə yol gedir. Aydındır ki, həmin fənər yolu müəyyən məsafəyədək işıqlandırmaq imkanına malikdir. Lakin insanın ixtiyarında uzaq məsafəni işıqlandırmaq imkanına malik projektor olmuş olsa, insan onun işığının köməyilə bir neçə kilometr yolu görə bilər. Kiçik fənərlə projektor arasındakı fərq çox olduğu kimi, peyğəmbərlə insanların ağlı arasındakı fərq də bir o qədər çoxdur. İnsanın ağlı ona bu gününü və sabahını görmək imkanı yaradır. Peyğəmbərlər isə insanlara qiyamətədək olan yolu göstərirlər. Əgər insanların peyğəmbərlərə imanı olsa, peyğəmbərlər onlara cənnəti, cəhənnəmi, məadı və daha uzaqları işıqlandırıb göstərə bilərlər. Ağıllı insanlar bu gününü, sabahını və uzağı gördükləri kimi, imanlı insanlar qiyaməti də görüb başa düşürlər. Elm öyrənməyib özlərini müxtəlif mənəviyyatdankənar əməllərə düçar edən şəxslər nə bu gününü, nə də sabahını görməyən insanlardır, öz ağıllarından istifadə etməyənlərdir. Belə insanlar bu dünyada hansı yolla olursa-olsun yalnız öz dünyəvi mənfəətlərini düşünür və onların gələcəkdən əsla xəbərləri olmaz. Eləcə də imanı olmayan insanlar da qiyaməti görə bilməzlər. Ağıllı insanlar otuz-qırx il sonranı düşünüb bu yolda səy göstərdikləri kimi, peyğəmbərlərə iman gətirən insanlar da qiyaməti yolunda çalışar və əllərindən gələnləri əsirgəməzlər.

İmam Sadiq(ə) buyurur: “Bir gün Həzrət Peyğəmbər(s) sübh namazından sonra məsciddə rəngi saralmış, arıq cavan bir oğlanın əyləşdiyini gördü. Həzrət(s) ona yaxınlaşıb soruşdu: Gecəni necə keçirmisən. Oğlan dedi: Ya Rəsulallah, mən gecəni Allaha tam yəqinliklə səhərə çatdırdım. Həzrət(s) buyurdu: Hər yəqinliyin bir həqiqəti vardır. Bəs sənin Allaha yəqinliyinin həqiqəti və əlaməti

nədir? Oğlan dedi: Ya Rəsulallah, mənim yəqinliyimin əlaməti budur ki, yəqinlik məni qəmgin edib, gecələr yatmağa qoymur. Məni dünyaya rəğbətsiz və meyilsiz edib. Dünyanın ləzzətində, mal-dövlətində əsla gözüm yoxdur. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil Allahın ərşini gözlərimlə görürəm. Elə bil qiyamət gününün qopduğunu, camaatın hesab-kitab çəkmək üçün məhşər ayağına gəldiyini və özümün də onların içərisində olduğumu görürəm. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil cənnət əhlinin cənnətdə ləzzətli nemətlərlə ruziləndiklərini və çəkdikləri keyfi gözlərimlə görürəm. Cəhənnəm əhlinin cəhənnəmdə necə əzaba düçar olub nalə etdiklərini görürəm. Həzrət Peyğəmbər(s) buyurdu: Bu elə bir bəndədir ki, Allah-təala onun qəlbini imanla nuranilәşdirib.

Peyğəmbərlər pərdəarxası məsələlərlə əlaqəli olduqlarından insanlara orada nə baş verəcəyini öncədən xəbər verirlər. Hər kim onlara iman gətirirsə, deməli, ölümdən sonra pərdəarxasında nələr baş verəcəyindən də xəbərdar olurlar. Məsələn, teatr səhnələrində səhnə təşkilatçısı və aktyorlar pərdəarxasında nələrin baş verdiklərindən tam xəbərdardırlar. Bütün bunların səhnə kənarında baş verməsinə baxmayaraq, onlar pərdəarxasında nələr olduğunu tam dəqiqliklə bilirlər. Çünki onlar özləri pərdəarxasından gəlmişlər. Əgər onların pərdəarxası məsələlərlə əlaqələri olmasa, yaxud bütün baş verənləri onlara göstərən olmasa, oradan necə xəbər verə bilərlər? Başqa sözlə desək, mühüm dövlət məmuru hava limanına yola salınarkən qulaqlarına qulaqcıqlar taxmış mühafizəçilər davamlı olaraq bir-biriləri ilə nəsə danışırlar. Kənardan bu cür görünməsinə baxmayaraq, onlar hava limanına qədər bütün yol boyunca dayanmış digər mühafizəçilərlə davamlı olaraq əlaqə saxlayır və onlara bu barədə müxtəlif göstərişlər verirlər.

Uzaq məsafədə olmalarına baxmayaraq, onlar hava limanında nələrin baş verməsindən tam dəqiqliklə xəbərdardırlar. Çünki onların hava limanındakı adamları vəziyyətlə əlaqədar tez-tez xəbərlər çatdırırlar. Peyğəmbərlər və imamlar da insanları bütün pərdəarxası məsələlərdan agah edirlər. Onların pərdəarxasında əlaqə saxladıqları şəxslər vardır ki, bütün xəbərləri çatdırır, hətta orada olanları görürlər. Həzrət Peyğəmbər(s) oraları tez-tez görür və gördüklərini də camaata çatdırırdı. Peyğəmbərdən(s) sonra isə imamlar insanları pərdəarxası məsələlərlə məlumatlandırmışlar.

Həcc ziyarəti zamanı İmam Sadiqin(ə) yaxın səhabələrindən biri Kəbəni təvaf edən camaatın izdihamını görüb dedi: Ey Peyğəmbər(s) övladı, maşallah, bu il nə çox hacı var. Həzrət(ə) buyurdu: Xeyr, hay- küy çoxdur, hacı isə çox azdır. Sonra Həzrət(ə) barmağının arası ilə Kəbəni təvaf edənləri həmin səhabəyə göstərdi. Səhabə deyir: İmamın(ə) barmaqları arasından ziyarətə gələnlərə baxdım. Onların arasında çox az insan gördüm ki, Kəbənin ətrafında təvaf edir.

## Üç mühüm mətləb

Qeyd olundu ki, ağıl insan üçün mühüm amillərdən biridir. Ağıl insanın gələcəyini göstərən bir vasitədir. Lakin insanın təkamülə yetişməsi üçün ağıl kifayət etmir. Peyğəmbərlərin insanlara başa salıb göstərdiyini insan ağlı göstərə bilmir. Yuxarıda qeyd olundu ki, insan təkamülə çatmaq üçün yaranmışdır. İnsanın kamal və təkamül zirvəsinə yetişməsindən ötrü üç mühüm və əsas amilə, yaxud mətləbə çox böyük ehtiyac vardır. Burada həmin mətləblərə diqqət yetirək.

## 1. Elm

İnsanın kamala çatması üçün lazım olan amillərdən biri elmdir. Təkamül zirvəsini fəth etmək istəyən şəxsin mütləq mükəmməl elmi olmalıdır. Çünki insanın qarşısında olan yolları seçib birini müəyyən etməsindən ötrü onun elmi mükəmməl olmalıdır. Amma çox təəssüflər olsun ki, insanın elmi bu işi görməkdə acizdir. Nə üçün insanın elmi bu işi görməyə kifayət etmir? Cavab belədir ki, insanların elmində iki əsas nöqsan vardır. Onların elmindəki nöqsanlardan biri budur ki, həmin elm çox məhdud və natamamdır. Böyük alimlər də kitablarında belə yazmışlar: "Bizim bilmədiklərimiz böyük bir dərya, bildiklərimiz isə həmin dəryadan bir damladır."

Deməli, bizim bu aləmdə bildiklərimiz və elmimiz bircə damla, bilmədiklərimiz və cəhalətimiz isə bir dəryadır. Belə olduqda insan bircə damla ilə hansı zirvəni fəth edə bilər? Alimlər digər bir ifadədə belə yazmışlar: "Bizim bildiklərimiz əlifba, bəşəriyyətə lazım olan elm isə qalın kitablar və ensiklopediyadır." Həmçinin alimlər insanların ağlı ilə peyğəmbərlərin ağlı arasında müqayisə apardıqda belə bir misal çəkmişlər: Ağıl bir məntəqəyə bənzəyir ki, elm oranı işıqlandırır. Bizim o məntəqənin kənarından isə xəbərimiz yoxdur. Çünki elm yalnız həmin məntəqəni işıqlandıra bildiyi üçün onun ətrafından xəbərsizik. Bizim ağlımız güclü işığa, amma peyğəmbərlərin ağlı isə səmavi vəhy aləmini işıqlandıran bir günəşə bənzəyir. Kim deyə bilər ki, mənim əlimdə işıq var və günəşə ehtiyacım yoxdur? Yaxud belə bir iddia edən şəxsin sözünü kim qəbul edər?"

Burada qarşıya belə bir sual çıxır: Peyğəmbərlərin bizə gətirdiyi kitablar, verdikləri göstərişlər iki haldan xaric deyil. Peyğəmbərlərin gətirdikləri ya bizim ağlımızla düz gəlir, ya

da düz gəlmir. Əgər onların gətirdikləri və söylədikləri ağlımızla düz gəlirsə, başa düşürüksə, onda peyğəmbərə nə ehtiyacımız var? Yox, əgər onların gətirdikləri və göstərişləri ağlımızla düz gəlmirsə və ağlımız bunu dərk etmirsə, bu zaman ağlımızın dərk etmədiyi bir şeyi nə üçün qəbul etməliyik? Belə olduqda ağlımızın dərk etmədiyi bir şeyi heç kəsdən qəbul edə və özümüzü heç bir kəsin ixtiyarında qoya bilmərik. Nə üçün ağlımızı sözlərini qəbul etmədiyimiz bir şəxsin ixtiyarına buraxmalıyıq?

Bu sualın cavabı belədir ki, peyğəmbərlərin gətirdikləri və söylədikləri iki yox, üç haldan xaric deyil. Peyğəmbərlərin gətirdikləri ya bizim ağlımızla uyğun gəlir, ya uyğun gəlmir, ya da ağlımızla uyğun gəlir, lakin biz onu başa düşmürük. Ağlımızla düz gələnə «məntiqi», düz gəlməyənə «mücərrəd» və düz gəlib başa düşmədiyimizə isə «məchul» deyilir.

Peyğəmbərin gətirdiyi elə bir şey yoxdur ki, insan ağlı onu qəbul etməsin. Əgər kimsə peyğəmbərlik iddiası edərək bir söz desə və insan ağlı onun sözlərini qəbul etməsə, deməli həmin şəxs peyğəmbər deyil. Ağlın qəbul etdiyi hər şeyi şəriət də qəbul edir və həmçinin şəriətin bəyan etdiyi hər bir şeyi də ağıl qəbul edir. Əsas məsələ buradadır ki, bizim bilmədiyimiz şeylər bildiklərimizin qarşısında həddindən artıq çoxdur. Peyğəmbərin buyurduğu çox şeylərin ağılla uyğun gəlməsinə baxmayaraq, bizim üçün məchul və qaranlıqdır. Bu da onu bildirir ki, elmimiz məhdud olduğuna görə həmin şeyi dərk etməkdə acizik. Əgər elmimiz hansısa bir şeyin həqiqətinə çatmırsa, bu həmin həqiqətin həqiqət olmadığına dəlalət etmir. Belə olduqda ağılla uyğun gələn, lakin kiminsə elm və ağlı çatmadığı bir həqiqəti nə üçün qəbul etməyək? Məsələn, bir uşaq deyir: Atamın dediyi sözlər ya ağlımla düz gəlir, ya da düz gəlmir. Əgər ağlımla düz gəlirsə, bunu atamın deməsinə

heç bir ehtiyac yoxdur. Yox, əgər onun dediyi sözlər ağlımla düz gəlmirsə, onun sözlərinə qulaq asmayacağam.

Amma atanın öz uşağına dediyi sözlərin içərisində elə ağıllı sözlər olur ki, onun ağlı hələ bunları dərk edə bilmir. Həmin ağıllı sözlərə və məsləhətlərə uşağın ağlı çatmadığına görə riayət olunmamalıdırmı? Xeyr, bütün ağıllı sözlərə riayət olunmalıdır, uşağın ağlı bunları qəbul etməsə də belə. Başqa bir misalla desək, İslam Peyğəmbəri(s) buyurmuşdur ki, yemək yedikdən sonra dişlərin dibini təmizləmək müstəhəbdir. Odur ki, nar ağacının çöpü istisna olmaqla bütün digər ağacların çöpü ilə dişləri təmizləyə bilərsiniz. Həzrət(s) bu sözü buyurarkən çox insan bunu başa düşmədi. Yəni çoxunun ağlı qəbul etmirdi ki, nə üçün nar ağacının çöpü ilə diş təmizləmək olmaz. Üstündən min dörd yüz il keçdikdən sonra hansısa bir alim təcrübələr əsasında bu qənaətə gəlir ki, insan bütün ağacların çöpü ilə dişlərini təmizləsə ziyanı yoxdur. Lakin nar ağacının çöpü ilə diş təmizləmək dişlərin dibinə ziyandır.

Buna görə də Peyğəmbərin(s) gətirdiyi şəriətdəki bir çox incəliklərin və Həzrətin(s) buyurduğu bir sıra kəlamların sirri hələ elm aləminə və insan ağlına məlum olmayıbsa, bu o demək deyil ki, həmin şəriəti qəbul etmək lazım deyil. Peyğəmbərin(s) gətirdiyi hər bir hökm, hər bir kəlam insan ağlına uyğun gəlir, lakin onların bəzisini dərk edə bilmirik. Həmçinin Peyğəmbərin(s) gətirdiyi kitab və şəriəti dərk etmək üçün ağıl mükəmməl olmalıdır. Əgər Həzrətin(s) buyurduqları ağla batmırsa, deməli ağlın özündə nöqsan vardır. Məsələn, bir uşaq məktəbdə əlifbanı oxuyub hərfləri öyrəndikdən sonra deyir: Mən artıq əlifbanı öyrənmişəm və müəllimə ehtiyacım yoxdur. Kim həmin uşağın dediyi sözü qəbul edər? Buna görə də bizim elmimiz və ağlımız Peyğəmbərin(s) gətirdiyinin müqabilində bir əlifbadır.

Əlifbadan sonrakı mərhələləri də öyrənmək hər bir kəsə lazımdır və müəllimə də həmişə ehtiyac vardır.

Burada bir mətləbə də diqqət yetirək. Həmin mətləb budur ki, heç bir kəs insana demir ki, aparıb özünü kiminsə ixtiyarına buraxsın. Həzrət İmam Baqir(ə) buyurur:

قَالَ البَاقِرُ(ع): مَن اَصْغَى اِلى نَاطِقٍ فَقَد عَبَدَهُ فَإِن كَانَ النَّاطِقُ يُؤَدِّى عَنِ اللهِ عَزَّوَجَلّ فَقَد عَبَدَ اللهَ وَاِنْ كَانَ النَّاطِق يُؤَدِّى عَنِ الشّيْطَان فَقَد عَبَدَ الشّيْطَان

-Kim bir söz danışana qulaq asarsa, ona bəndəlik etmişdir. Əgər danışan Allah kəlamını söyləyərsə, eşidən şəxs həqiqətdə də Allaha ibadət etmişdir. Əgər danışan şeytan tərəfindən danışsa, eşidən şəxs həqiqətdə şeytana ibadət etmişdir.[1]

Allah-təala da icazə vermir ki, insan öz ixtiyarını başqasının öhdəsinə versin. Lakin əsas söz budur ki, Peyğəmbər(s) başqası deyil. Allah-təala insanlara başa salır ki, Peyğəmbərin(s) bütün sözlərinə qulaq asıb itaət etsinlər. Çünki Peyğəmbər(s) Allahın sözlərini insanlara çatdırır. Peyğəmbər(s) özgəsi deyil ki, insanlar ondan uzaq düşsünlər. O, Allah tərəfindən məmur olmuş bir şəxsiyyətdir. O, Allahla insanlar arasındakı vasitəçidir. O, Allahın buyurduqlarını insanlara yetirir. Buna görə də insanlar onun bütün sözlərinə və qadağalarına riayət etməlidirlər. Ona görə ki, o, başqası yox, Allahın göndərdiyidir. Allah-təala Quranda belə buyurur:

---

[1] Mizan,7-ci cild, səh. 3420.

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

-Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif və malları) götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.[1]

Bu ayədən açıq-aydın şəkildə görürük ki, Allah-təala insanlara Peyğəmbərə(s) itaət etməyi vacib buyurur. Belə olduqda kimsə deyə bilərmi ki, mən özümü Peyğəmbərin(s) ixtiyarına verə bilmərəm. Kimsə bu sözü desə, onun sözləri mənasız və əsassızdır. Peyğəmbərlər Allah tərəfindən göndərilmiş həkimə bənzəyirlər. Onlar insanların ruhunu müalicə edib, onlara sağlamlıq bəxş etmək üçün göndərilmişlər. Xəstənin vəzifəsi isə özünü həkimin ixtiyarında qoymaqdır. Həzrət Əli(ə) "Nəhcül-bəlağə"nin 107-ci xütbəsində Peyğəmbərin(s) tərif və şənindən söz açdıqdan sonra buyurur:

طَبِيبٌ دَوَّارٌ بِطِبِّهِ، قَدْ اءَحْكَمَ مَرَاهِمَهُ، وَ اءَحْمَى مَوَاسِمَهُ، يَضَعُ مِنْ ذَلِكَ حَيْثُ الْحَاجَةُ إِلَيْهِ، مِنْ قُلُوبٍ عُمْيٍ، وَ آذَانٍ صُمٍّ، وَ اءَلْسِنَةٍ بُكْمٍ، مُتَتَبِّعٌ بِدَوَائِهِ مَوَاضِعَ الْغَفْلَةِ، وَ مَوَاطِنَ الْحَيْرَةِ...

...مَا لِي اءَرَاكُمْ اءَشْبَاحا بِلاَ اءَرْوَاحٍ، وَ اءَرْوَاحا بِلاَ اءَشْبَاحٍ، وَ نُسَّاكا بِلاَ صَلاَحٍ، وَ تُجَّارا بِلاَ اءَرْبَاحٍ، وَ اءَيْقَاظا نُوَّما، وَ شُهُودا غُيَّبا، وَ نَاظِرَةً عَمْيَاءَ، وَ سَامِعَةً صَمَّاءَ، وَ نَاطِقَةً بَكْمَاءَ.

[1] Həşr,7

-Öz tibbi və müalicəsilə *(ölümsaçan xəstəlikləri və cürbəcür dərdləri müalicə etmək üçün xalqın arasında)* həmişə gəzən *(ruhani)* bir təbibdir. Məlhəmlərini *(elm və maarifini nadanlıq və azğınlıq qılıncı ilə yaralanmış ürəklərin yarası üçün)* gücləndirərək hazırlamış, alətlərini *(pis işləri qadağan etməyin və ilahi əzabla qorxutmağın atəşində)* qızdıraraq basmışdır. Lazım olan hər bir yerdə məlhəmlərini, dağ çəkən alətlərini müalicəyə ehtiyacı olan yaralı yerlərin üstünə qoyar: *(elmdən)* kor qəlblərə, *(haqqı eşitməyən)* kar qulaqlara, *(doğru söz danışmayan)* lal dillərə. Bu ruhani təbib öz dərman və müalicələri ilə qəflət, nadanlıq, heyrət və sərgərdanlıq xəstəliklərinə əlac edir.

…Nə olub ki, sizləri cansız bədən və bədənsiz can görürəm və *(sizləri)* pəhrizkarlıq olmadan ibadət edən *(dəyanətsiz müharibə edən)*, xeyirsiz tacir *(məğlub olan)*, yuxulu kimi oyaq, yoxmuş kimi mövcud, kor tək görən, lal tək danışan *(kimi görürəm.)*

Peyğəmbər(s) insanları bu acınacaqlı xəstəliklərdən müalicə etmək üçün gəlmişdir. İnsanların ruhu elə bir xəstəliyə düçar olmuşdur ki, haqq sözləri eşidirlər, lakin kar kimidirlər. Qəlblər kor, qulaqlar kar, dillər isə laldır. İmam Əlinin(ə) dövründə bir dəstə insan imtahandan çıxa bilmədilər. Onlar Həzrət Əlinin(ə) sözlərinə qulaq asmadıqları üçün ziyan çəkdilər. Həzrət Əli(ə) üzünü onlara tutub buyurdu:

أَيَّتُهَا النُّفُوسُ الْمُخْتَلِفَةُ، وَالْقُلُوبُ الْمُتَشَتِّتَةُ، الشَّاهِدَةُ أَبْدَانُهُمْ، وَالْغَائِبَةُ عَنْهُمْ عُقُولُهُمْ، أَظْأَرُكُمْ عَلَى الْحَقِّ وَأَنْتُمْ تَنْفِرُونَ عَنْهُ نُفُورَ الْمِعْزَى مِنْ وَعْوَعَةِ الأَسَدِ

-Ey bədənləri görünən və ağılları isə özlərinə gizlin olan *(bir-birilə həmrəy olmayan)* dağınıq qəlbli cürbəcür insanlar!

Sizi böyük mehribanlıqla haqqa doğru yönəldirəm, siz isə ondan (mənim haqtələb səsimdən) keçinin şirin nərilti səsindən qaçdığı kimi qaçırsınız.[1]

Həzrət Peyğəmbər(s) insanları Allaha tərəf dəvət edirdi. Bəzi nadanlar Həzrəti(s) daşlayır, bəziləri təhqir edir, bəziləri isə döyürdülər. Lakin Peyğəmbər(s) öz dəvətindən əl götürmürdü. Çox vaxt ürəyi bu nadan insanların halına acıyırdı. Peyğəmbər(s) onların təhqirləri qarşısında bəzən ağlayar, bəzən də gülərdi. Həzrətdən(s) ağlamağının və gülməyinin səbəbini soruşduqda buyurardı: Çox qəribədir ki, mən onları cənnətə, səadətə, insaniyyətə, izzət və şərafətə tərəf dəvət edirəm, amma onlar mənə daş atıb təhqir edirlər. Ühüd müharibəsində Peyğəmbərin(s) dişini sındırdılar. Onun mübarək üzü qana boyandı. Həzrət(s) əli ilə üzündəki qanı təmizləyə-təmizləyə buyurdu:

كَيفَ يُفْلِح قَومٌ خَضَبُوا وَجهَ نَبِيِّهِم بِاالدَّم

وَ هُوَ يَدعُوهُم اِلى رَبِّهِم

-Öz peyğəmbərlərinin üzünü qana boyayan bir qövm necə nicat tapa bilər? Halbuki o (Peyğəmbər) onları Allaha sarı çağırır.[2]

Peyğəmbər(s) insanları qəflətdən oyadır. İnsanlara başa salır ki, bu qəflət yuxusundan gözlərini açıb ətraflarına baxsınlar. Harada olduqlarını dərk etsinlər. Hədislərdə belə nəql olunmuşdur ki, haradan gəldiyini, harada olduğunu və hara gedəcəyini bilən kəsə Allah rəhmət etsin. İnsan hərdən öz-özü ilə danışıb bu dünyaya nə üçün gəldiyini, nə

---

[1] Nəhcül-bəlağə. Xütbə 131.
[2] Əd-dürrül Mənsur, 6-cı cild, səh. 250.

edəcəyini düşünməlidir. Başa düşməlidir ki, bu dünyada yaşadığı hər bir dəqiqəsinin öz qiyməti var. Bilməlidir ki, bu dünyada vaxtını boş-boş şeylərə sərf etməməlidir. Qiyamət günündə hər bir saniyəyə görə cavab verəcəyini, məhşər ayağında hesab-kitaba dayanacağını bilməlidir. Ölüm əvvəl-axır hər bir kəsi haqlayacaq. Bir vaxt ömründən gözəl və sərfəli istifadə edənləri də, günü-günə satanları da. Peyğəmbərlərin gördüyü işlərdən biri də qəflətə düşmüş sərgərdan insanları yuxudan oyatmaq olmuşdur.

Odur ki, Peyğəmbərin(s) və imamların gözəl və təsirli çıxışları, sözləri və münacatları insanların qəlbinə təsir göstərirdi. Onlar yer üzünə Allah-təala tərəfindən təyin olunmuş təbiblərdir və insanlara şəfa verirlər. Müşriklər camaata imkan vermirdilər ki, onlar Peyğəmbərə(s) qulaq assınlar. Onlar bilirdilər ki, Həzrətin(s) sözləri mütləq insanların qəlbinə öz təsirini göstərəcəkdir. Odur ki, Peyğəmbər(s) çıxış edərkən çox vaxt müşriklər gəlib camaatın içərisində səs-küy yaradırdılar. Yəni onların məqsədi bu idi ki, Həzrətin(s) sözləri camaatın qulağına çatmasın. Bilirdilər ki, Peyğəmbərin(s) sözlərini eşidən hər bir kəs onun təsiri altına düşəcək və İslam dinini qəbul edəcəkdir. Həzrətin(s) məlahətli səsi, gözəl və ürəyəyatan sözləri insanların ruhunu cilalayırdı. Böyüklü-kiçikli onun sözlərini eşidən hər bir kəs valeh olur və Həzrətdən(s) ayrılmaq istəmirdi.

Həyatımızda kifayət qədər günaha batmış və tamamilə Allah yolundan çıxmış, eləcə də özünü mənəvi xəstəliklərə düçar etmiş elə insanlara rast gəlirik ki, bircə təsirli kəlmə ilə qəflətdən oyanıb hidayət olmuşlar. Bəziləri isə hansısa alimdən Peyğəmbərin(s) və imamların hədisini və tutarlı kəlamını eşitməklə təsir altına düşmüş və bütün çirkablardan çıxaraq nicat tapmışlar. Yəni elə hidayət olunmuşlar ki, onların Allahla olan münacat səsləri insanın ruhunu dəyişir.

İnsanlar bu adamların  Allahla münacatından və Quran oxumaqlarından ləzzət alırlar.  Əlbəttə ki, heç bir musiqi də namaz səsinin ləzzətini verə bilməz.

Mən Almaniyada səfərdə olarkən 23 yaşlı cavan bir oğlanla tanış olmuşdum. Çox mömin və təqvalı bir insan idi. Gecə yarısı onun ibadət səsinə yuxudan ayılırdım. Elə gözəl və məlahətli səslə münacat edirdi ki, insanın qəlbini oxşayırdı. Quran ayələrini elə gözəl avazla oxuyurdu ki, qulaq asmaqdan doymurdum. Yuxudan ayılıb onun səsinə qulaq asırdım. Yerimdən durmurdum ki, bir az da onun səsini dinləyim. Onun həzin səsi insanın qəlbinə güclü təsir göstərir və  ruhunu cilalayırdı.

Adi cavan bir oğlanın münacat səsi insana bu qədər ləzzət bəxş edirsə, görəsən, Həzrət Əlinin(ə) münacat səsini eşidən şəxs hansı hallara düşər? Həzrətin(ə) Allahla şirin və həzin münacatı hamıya bəllidir. İmam Əlinin(ə) münacat səsi gecələr xurma bağlarından eşidilirdi. Həzrət(ə) münacat edərkən Allah qarşısında ilan kimi qıvrılıb ah-nalə edirdi. Gözlərinin yaşı axıb saqqalından sinəsinə tökülərdi. Allahın əzəmətinin qarşısında haldan düşənə qədər ağlayardı. Onun hər bir gecəsi Allahla minacat etməklə keçərdi. Bir gecə Həzrət Əli(ə) xurma bağlarında Allahla o qədər minacat edib ağladı ki, qəşş edib özündən getdi. Gəlib onu bu vəziyyətdə görürlər. Tez gedib Xanım Zəhraya(s.ə) xəbər verirlər ki, Əli(ə) xurmalıqda dünyasını dəyişib. Xanım Zəhra(s.ə) isə buyurub: “Xeyr, o, minacat edərkən Allaha olan eşqindən özündən gedib."

Kumeyl duası Həzrət Əlinin(ə) dualarından biridir. Çox dərin məzmunlu, təsirli və arifanə bir duadır. Həzrətin(ə) həmin duada Allah-təalaya etdiyi xahişlərdən biri belədir:

يا رَبِّ يا رَبِّ يا رَبِّ، قَوِّ عَلى خِدْمَتِكَ جَوارِحى وَاشْدُدْ عَلَى الْعَزِيمَةِ جَوانِحِي وَهَبْ لِيَ الْجِدَّ في خَشْيَتِكَ، وَالدَّوامَ فِي الاْتِّصالِ بِخِدْمَتِكَ، حَتّى اَسْرَحَ اِلَيْكَ في مَيادينِ السّابِقينَ وَأُسْرِعَ اِلَيْكَ فِي الْبارِزينَ (الْمُبادِرينَ) وَاَشْتاقَ اِلى قُرْبِكَ فِي الْمُشْتاقينَ وَاَدْنُوَ مِنْكَ دُنُوَّ الْمُخْلِصينَ، وَاَخافَكَ مَخافَةَ الْمُوقِنينَ، وَاَجْتَمِعَ فى جِوارِكَ مَعَ الْمُؤْمِنينَ.

-Ey Rəbbim, ey Rəbbim, ey Rəbbim! Əzalarımı sənə xidmət üçün qüvvətli et, iradəmi bu fədakarlıqlar üçün artır. Mənə elə bir hal əta et ki, sənə təzim edib ciddi və çalışqan olum. Sənə xidmət etmək məndə davamlı olsun ki, nəticədə sabiqlərin meydanlarında Sənə doğru tələsəm. Mübarizlər zümrəsində Sənin görüşünə tələsəm, Sənin qürbünə müştaq olanlar arasında müştaq olam, müxlislərin sənin dərgahına yaxınlaşdıqları kimi yaxınlaşam, yəqin əhlinin Səndən xoflu olduqları kimi xoflu olam. Sənin qonşuluğunda möminlərlə birgə olam.

Həzrət Əli(ə) bu münacatı ilə Allahdan bir sıra xahişlər etdikdən sonra Allahın cənnətdə möminlər üçün təşkil etdiyi ziyafətdə olmağı diləyir. Həzrət(ə) həmin ziyafətin şövqü ilə Allaha yalvarıb xahiş edir.

Məsələn, bir ölkənin prezidenti böyük bir ziyafət təşkil edir. Tanınmış şəxslərdən birini isə həmin məclisə dəvət etmirlər. O, çox narahat olur və öz-özünə düşünür ki, görəsən onu nə üçün bu ziyafətə  çağırmayıblar? Əgər camaat bilsə və onu həmin ziyafətdə görməsələr, biabır olacaqdır. Buna görə də müəyyən vasitəçilərdən xahiş edir ki, onun dəvəti üçün bir iş görsünlər. Əgər bu iş də alınmasa,

o zaman tez-tələsik səfərə çıxır. Ondan “nə üçün məclisə gəlməmişdin”, – deyə soruşduqda isə belə cavab verir: Məni də çağırmışdılar, lakin mən səfərdə olduğum üçün gələ bilmədim.

Allah-təala cənnətdə möminlər üçün böyük bir ziyafət təşkil edəcək. Həzrət Əli(ə) həmin ziyafətdə iştirak etməkdən ötrü Allaha yalvarıb münacat edir. Bu ziyafətə dəvət almaq üçün Allahdan xahiş edir. Diqqətlə insanlara baxsaq görəsən bu dünyada kim Allahın həmin ziyafəti haqda düşünür? Bu dünyada kim həmin məclisə dəvət qazanmaq üçün çalışır? Oranın ziyafəti bu dünyanın ziyafəti kimi olmayacaqdır. Orada insanların puluna, mal-dövlətinə, şan-şöhrətinə deyil, təqvasına və əməlinə baxacaqlar. Bu dünyada isə böyük bir ziyafətə müxtəlif xarici və bahalı maşınlara malik olan dövlət işçiləri və səfirlər dəvət olunurlar. Hamı bir-bir maşınlara baxır. Filan maşın filan səfirindir. Digər bir maşın filan ölkənin nümayəndəsinindir. Hey bu kimi sözlər danışır və ziyafətə gələn qonaqlara baxırlar. Onların mindikləri maşınların markalarına və növlərinə diqqət edirlər.

Amma cənnətdə Allahın təşkil etdiyi ziyafətdə bütün bunların heç biri olmayacaqdır. Orada yalnız Allahın sevimli bəndələri iştirak edəcəklər. Mümkündür ki, orada elə bir insanı da görmüş olsunlar ki, dünyada həmin şəxsi heç saya salmazdılar. Dünyada arada gəzib dolanan bir insanı orada gördükdə təəccüb edəcəklər. Dünyada heç bir kəsin məhəl vermədiyi, adam yerinə qoymadığı bu insan sən demə Allahın ən xalis bəndəsi imiş. Hədislərdə belə nəql olunur ki, bu dünyada ömrünü hədər yerə sərf edənlər və eyş-işrət içində olanlar heç bir ilahi vəzifəni yerinə yetirmədikləri və günü-günə satdıqları üçün çox təəssüf edəcəklər. Onların aqibəti sonu faydasız peşmançılıqla nəticələnəcəkdir.

Odur ki, peyğəmbərlər insanlara səadətin və həqiqi xoşbəxtliyin yolunu göstərmək üçün gəlmişlər. Onların gətirdikləri kitablar və şəriət tamamilə insan ağlına uyğundur. Lakin insanların bəşəriyyətə bəxş etdikləri elmin də nöqsanları olduğundan onlar bir sıra məsələləri dərk edə bilmirlər. Buna görə də hər bir insan Peyğəmbərin(s) buyurduqlarına əməl etməli və bilmədiklərini öyrənərək özünü cəhalətdən qurtarmalıdır.

İnsanların elminin ikinci nöqsanı budur ki, onlar daimi olaraq elmi cəhətdən bir-biri ilə ixtilafdadırlar. Hər bir alim mümkündür ki, öz elminə söykənərək bir söz demiş olsun. Lakin bir çox hallarda onların elmi bir-biri ilə üst-üstə düşmür. Məsələn, xəstəxanada yatan bir xəstəni iki həkim müayinə edir. Həkimlərdən biri öz elmi və təcrübəsinə əsasən xəstəyə müəyyən dərmanlar yazır və ona duzlu, yağlı yeməklər yeməməyi tapşırır. İkinci həkim isə öz elm və təcrübəsinə əsaslanaraq yenə də həmin xəstəyə başqa dərmanları məsləhət görür və yağlı yeməyin ona ziyanı olmadığını deyir. Halbuki onların heç biri  öz peşəsində xəyanətə yol verməyiblər və təcrübəli həkim olmalarına baxmayaraq, onların fikirləri bir-biri ilə düz gəlmir. Xəstə də bilmir ki, hansı həkimin məsləhətinə qulaq assın. Məsələn, dəfələrlə şahidi olmuşuq ki, həkimlər uzun illər boyu hansısa xəstəliklərin müalicəsi zamanı müəyyən preparatlardan istifadə ediblər. Lakin sonralar elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq artıq həmin preparatların insan orqanizminə zərərli olduğu ortaya çıxmışdır. Biz görürük ki, həyatımızın hər bir sahəsində çalışan insanlar arasında müxtəlif ixtilaflar mövcuddur. İnsanların bəşəriyyətə bəxş etdikləri elmin nöqsanlarından biri də onun ixtilaflı olmasıdır və insan belə bir elmlə heç bir yerə gedib çata bilməz. Məsələn, müəyyən bir şəhərə getmək istəyən şəxs iki adamdan həmin şəhərin yolunu soruşur. Onlardan biri bir

tərəfi, digəri isə o biri tərəfi göstərir. Şəhərə yetişmək istəyən şəxs bilmir ki, bu yolların hansı onu lazım olan yerə çatdıra biləcək. Qeyd olunduğu kimi, həyatımızın bütün sahələrində insanlar arasında elmi ixtilaflar mövcuddur. Təbabət, fizika, kimya və hətta ədəbiyyat kimi elmi sahələrdə alimlər arasında müxtəlif ixtilaflara rast gəlmək mümkündür. Mühəndislərin də bir-biri ilə elmi ixtilaflarına çox rast gəlmək olur. Məsələn, biz mütəmadi olaraq Qərb mühəndislərinin elmi ilə Şərq mühəndislərinin elmi arasında müəyyən ixtilafların mövcudluğunun şahidi oluruq. Misal üçün, bir nəfər bina tikdirmək istədikdə həm Qərb, həm də Şərq mühəndislərini dəvət edir. Hər iki mühəndis binanın tikiləcəyi yeri yoxladıqdan sonra Qərb mühəndisi həmin yeri 5 metr dərinliyində qazmağı və yastıq atıb özül tökdürməyi tapşırır. Lakin Şərq mühəndisi bildirir ki, yeri bu qədər qazmağa və yastıq atmağa ehtiyac yoxdur. Binanı tikdirmək istəyən şəxs bilmir ki, onlardan hansına inansın.

Görürük ki, hətta bir binanın tikilməsində belə mühəndislər arasında elmi mübahisələr yaranır. Bina tikdirmək istəyən şəxs onların hər birinin sözünə əməl etsə, bütün işləri bərbad olacaq. Odur ki, məcburiyyət qarşısında qalıb yalnız onlardan birinin fikrinə əsasən binanı tikdirir. Lakin hansı mühəndisin sözünün daha doğru olduğunu bilmir.

Belə olduqda əgər iki alimin elmi rəyində fikir müxtəlifliyi yaranarsa, onların heç birinin sözünə etimad və etibar etmək olmaz. Xüsusilə insanların həyatında böyük təsiri ola biləcək məsələlərdə ixtilaf yaranarsa, insan öz taleyini qətiyyən etibar etməməlidir. Məsələn, fərz edək ki, bir yerə qonaq gedirsən. Gecə vaxtı bir otağı sənin üçün hazırlayırlar. Həmin evdəki uşaq isə gəlib deyir ki, dünən bu otaqda bir ilan görmüşdüm. Uşağın atası da onun sözlərnə fikir verməməyi məsləhət görür. Lakin artıq sənin ürəyində həmin otaqda ilanın varlığı ilə bağlı ehtimalın xofu yaranır.

Yüz nəfər də gəlib sənə desə ki, həmin otaqda ilan yoxdur, yenə də ürəyində bir narahatçılıq hissi keçirəcəksən. Hey düşünəcəksən ki, bəlkə uşağın sözü doğrudur və gecə yarısı birdən ilan gəlib məni vura bilər.

Gunlərin birində bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: Mən özümdən sonrakı həyata, qiyamətə, hesab-kitaba inanmıram. Belə fikirləşirəm ki, bu dünya müvəqqətidir və odur ki, yeyib-içib kef etmək lazımdır. Öləndən sonra torpaq olub aradan gedəcəyik. İmam Sadiq(ə) onu çox gözəl və məntiqli sözlərlə başa salaraq buyurdu: Sən ölümə inanırsanmı? Dedi: Bəli, çünki dünyada yaşayan hər bir insan mütləq ölür. Atam, anam və qohum-əqrəbamın çoxu gözümün qarşısında dünyadan gediblər. Heç bir kəs onların ölümünün qarşısını ala bilməyib. Buna görə də ölümə inanıram. İmam(ə) buyurdu: Sən də bu dünyada yaşayırsan, mən də. Sən də yeyib-içirsən, mən də. Sən dünyanın haramlarından ləzzət alırsan, mən isə halallarından. Sən ibadət etmirsən, mən isə ibadət edirəm. Sən halal-haram bilmirsən, mən isə bilirəm. Hər halda bu dünyada yaşayırıq. Fərz edək ki, sən deyən kimi hamımız ölüb torpaq olaraq aradan getdik. Belə olduqda mən burada nə itirmiş oluram? Dedi: Heç bir şey. İmam(ə) buyurdu: Amma birdən mənim dediyim kimi, qiyamət, hesab-kitab, tərəzi, cənnət və cəhənnəm olsa, o zaman sənin halın necə olacaq?

Odur ki, əgər insan öz biliyinin və elminin əleyhinə bir şey eşitsə, ən azından həmin xəbər onu narahat edəcək. Hətta bir uşaq belə sənin yatacağın otaqda ilan gördüyünü deyirsə, səni əsla yuxu aparmaz. Tez-tez ayılıb ətrafına baxar, sonra isə başını yastığa qoyarsan. Çünki qorxursan ki, birdən həqiqətən də ilan gələr və səni vura bilər. Odur ki, əgər irəli sürülən fikirlərin ikisi də bir-biri ilə uyğunluq təşkil etməsə, insanda yəqinlik və etibar hasil olmayacaqdır.

## Peyğəmbərlərin elmi mükəmməl elmdir

İnsanların məqsədə çatmasından ötrü peyğəmbərlər ən gözəl vasitədir. Çünki onların elmi mükəmməl və ixtilafsızdır. Onların hamısının sözləri bir-birini təsdiqləyir. Əgər yüz iyirmi dörd min peyğəmbər bir yerdə əyləşib söhbət etsələr, onların arasında heç bir ixtilaf yaranmaz. Ona görə ki onların hamısı bir mənbədən sərçeşmə almışlar. Bütün peyğəmbərlər insanları tövhidə və übudiyyətə dəvət etmişlər. Heç bir peyğəmbər yoxdur ki, digər peyğəmbərin sözünün əksini demiş olsun. Heç bir peyğəmbər yoxdur ki, şərabın halal olduğunu söyləsin. Yaxud biri halal, digəri haram olduğunu desin. Bütün peyğəmbərlər insanları Allaha ibadət etməyə dəvət etmişlər və onları bütpərəstlikdən, bəndələrə pərəstiş etməkdən çəkindirməyə çalışmışlar. Hətta bəzi insanlar İslam Peyğəmbərinə(s) səcdə etmək fikrinə düşdükdə Həzrət(s) onları bu pis işdən çəkindirmişdir.

Məsələn, Nəcran xristianları Peyğəmbərlə(s) söhbət etmək üçün Əbu Rafenın rəhbərliyi ilə bir nümayəndə heyəti təşkil etdilər. Bu adamlar Peyğəmbərin(s) onların əməlləri ilə müxalif olduğunu bildikləri üçün öncədən qərara aldılar ki, Həzrətin(s) hüzuruna gedib ona səcdə etmək istədiklərini desinlər. Yəni hər bir şeyi öz arşınları ilə ölçdüklərinə görə elə başa düşürdülər ki, Peyğəmbərə(s) səcdə etməklə onu dilə tuta biləcəklər. Özləri İsanı(ə) Allah hesab etdikləri üçün elə başa düşürdülər ki, İslam Peyğəmbərinə(s) də səcdə etməklə Həzrətin(s) qəlbini ələ ala biləcəklər. Beləcə məsləhətləşib birlikdə Peyğəmbərin(s) hüzuruna gəldilər. Dedilər ki, ey Allahın Peyğəmbəri, icazə versəydin biz sənin özünə də səcdə edib pərəstiş edərdik. İsanı allahlıq məsələsində bərabər tutduğumuz kimi, sənə də belə pərəstiş edərdik. Həzrət Peyğəmbər(s) onların sözünü

eşitdikdə buyurdu: "Bu işə icazə verməkdən Allaha pənah aparıram. Allahdan başqasına səcdə etmək haramdır. Səcdə yalnız və yalnız Allaha məxsusdur."

Elə oradaca Allah-təala bu ayəni nazil etdi:

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ...

-Heç bir bəşərə yaraşmaz və mümkün deyil ki, Allah ona (səmavi) kitab və hikmət, yaxud mütləq hökm etmək səlahiyyəti və peyğəmbərlik versin, sonra o, insanlara “Allahın yerinə mənim bəndələrim (qullarım) olun!” desin.

Adəm Peyğəmbərdən(ə) sonuncu peyğəmbərə kimi olan bütün peyğəmbərlərin sözləri və fikirləri arasında heç bir ixtilaf yoxdur. Heç bir peyğəmbər digərinin əleyhinə olan bir söz söyləməyib. Çünki onların elmi mükəmməl və qüsursuzdur. Amma insanların elmi qüsurludur. Qeyd edildiyi kimi, insanların elminin iki böyük nöqsan və çatışmazlığı olduğundan onlar qüsursuz və eyibsiz elmdən bəhrələnməli və itaət etməlidirlər. Çünki insana insaniyyətin kamillik zirvəsini fəth etməsindən ötrü lazım olan amillərdən biri mükəmməl elmdir. Peyğəmbərlərin hamısı mükəmməl elmlə insanlara göndərilmişdir.

## 2. Tərbiyəçi (əxlaq müəllimi)

Yuxarıda qeyd olundu ki, insanın kamala çatması üçün üç mühüm amil və mətləbə ehtiyacı var. Həmçinin qeyd edildi ki, həmin amillərdən biri mükəmməl elmdir. İnsanın təkamülə yetişməsindən ötrü lazım olan amillərdən ikincisi isə mükəmməl tərbiyəçidir. İnsanın məqsədə çatması üçün mükəmməl, ağıllı və elmli bir tərbiyəçiyə ehtiyacı var. Əgər insanın tərbiyəçisi olmasa, o əsla təkamül zirvəsini fəth edə bilməyəcək.

## Əxlaq elmdən yaranırmı?

Burada qarşıya belə bir sual çıxır: Görəsən, əxlaq elmdən yaranırmı? Bu sualın cavabının verilməsində alimlərin fikrini iki hissəyə ayırmaq olar. Bir qisim alimlərin etiqadına görə əxlaq elmin bəhrəsidir. Sokrat və Aristotel kimi böyük alimlər deyiblər ki, əxlaq elmdən törəyir. Yəni əgər bir insan yaxşını və pisi tanısa, heç bir vaxt pisliyə tərəf getməz. Əgər bir insan pisin həqiqətən də pis olduğunu bilsə, heç bir vaxt ona sarı meyl etməz. Həmçinin bir şeyin həqiqətən də yaxşı olduğunu bilsə, həmişə ona sarı gedər.

Sokrat və Aristotelin dedikləri sözlərdən belə çıxır ki, əgər insanın elmi olsa, əxlaqı da olar. Çünki əxlaq elmin törəməsidir. Məsələn, əgər bir insan spirtli içkilərin pis olduğunu bilsə, heç bir vaxt onu içməz. Yaxud bir insan zinanın pis olduğunu bilsə, heç bir vaxt zina etməz. Əgər bir insan yalan danışmağın da pis olduğunu bilsə, yalan danışmaz. Başqa sözlə desək, əgər insan hansısa əməlinin pis olduğunu başa düşsə, daha həmin pis işləri görməyəcək. Eləcə də yaxşılığın nə olduğunu dərk etsə, həmişə onun ardınca gedəcək.

İkinci qisim alimlər isə deyirlər ki, əgər belə olsa, deməli siz insanı yaxşı tanımamısınız. Çünki insanın şəxsiyyəti iki hissədən ibarətdir. Bir hissəsi elmdən, ikinci hissəsi isə nəfsani istəklərdən təşəkkül tapmışdır. Yəni insanın şəxsiyyətinin yarısı elm, yarısı isə onun daxilindəki "qərizə"lərdir. Qərizə - insanın daxilində olan qeyri-şüuri və qeyri-iradi xüsusiyyət və istəklərdir. Yəni bunlar elə keyfiyyətlərdir ki, heç bir kəs insanı bu sahədə öyrətmir. Bu

xüsusiyyətlər insanın daxilində istər-istəməz vücuda gəlir. Necə deyərlər, insan hələ yaranarkən onun xəmiri bu kimi xüsusiyyətlərlə yoğrulmuşdur. Bu kimi xüsusiyyətlər insanın daxilində kifayət qədərdir. Məsələn, insanın daxilində şəhvət, övlada məhəbbət, mal-dövlət hərisliyi, vəzifə-pərəstlik, öz namusunu qorumaq, intiqam almaq, qorxu və qəzəb hissləri və s. kimi xüsusiyyətlər mövcuddur. Bütün bunları insana heç bir kəs təlqin etməyib. Məsələn, əgər valideyn övladını sevirsə, bu sevgi onun daxilindən gələn bir meyl və istəkdir.

İnsanın daxilində olan həmin meyllər onun şəxsiyyətinin iki qismə ayrılmasına səbəb olur. Bir hissəsi elm, bir hissəsi isə həmin bu xüsusiyyətlərdir. Çox insanları tanıyırıq ki, elmli olmalarına baxmayaraq, içərisindəki xüsusiyyətlərin tüğyan etməsinin qarşısını ala bilmir və yanlış adətləri nəticəsində qeyri-məqbul işlərə əl atırlar. Yəni insan hansısa bir şeyin pis olduğunu bilir, lakin əməlində buna heç bir məhəl qoymur və həmin şeyə tərəf gedir. Məsələn, birisi bilir ki, başqasının namusuna baxmaq pis işdir. Lakin başqasının namusuna baxır. Həmin şəxsdən “sənin bu əməlin yaxşı əməldir, yoxsa pis? – deyə soruşduqda isə başını aşağı salır. Başını aşağı salmasının mənası da budur ki, o, gördüyü işin pis olduğunu bilir, lakin ona tərəf gedir.

Deməli, hər hansı bir şeyin pis və yaxşı olmasını bilmək insanın əxlaqlı olmasına dəlalət etmir. Çox insan bilir ki, başqasına zülm etmək yaxşı iş deyil, lakin bunu edirlər. İnsanların böyük əksəriyyəti orucun gözəl əməl olduğunu bildiyi halda oruc tutmur. Məsələn, biz dəfələrlə bir çox alimin və təcrübəli həkimlərin orucun insan orqanizmi üçün nə qədər faydalı olduğunu söyləmələrinin şahidi olmuşuq. Bəzilərinin oruc barəsində bir çox faydalı şeylər bilmələrinə baxmayaraq, onlar da oruc tutmurlar. Həmçinin spirtli içkilərin insan orqanizminə nə qədər ziyanlı bir şey

olduğunu dəqiqliklə bilmələrinə baxmayaraq, həmin içkilərdən yenə də içirlər. Digər tərəfdən elə insanlar da var ki, orucun tibbi baxımdan faydalarını bilmirlər, ancaq oruc tuturlar. Habelə bəzi insanlar isə içkinin nə qədər ziyanlı olduğunu bilmirlər, amma heç bir içkiyə tərəf də getmirlər. Beləlǝri sadəcə olaraq Allah-təalanın içkini qadağan etdiyini eşitdiyi üçün içmirlər. Onlar orucun Allah-təala tərəfindən vacib buyurulduğunu eşitdiklərindən oruc tuturlar.

Deməli, insanın bir şeyin pis olduğunu başa düşməsi heç də onun həmin işi görməyəcəyinə zəmanət vermir. Eləcə də bir şeyin yaxşı olduğunu bilməsi heç də onun həmin işi görməyəcəyinə təminat vermir. Belə bir nəzəriyyəni irəli sürən Sokrat və Aristotel kimi mütəfəkkirlər insandakı keyfiyyətlərin bir hissəsini qəbul edib, digər hissəsini isə qəbul etmirlər. Çünki onlar elə düşünürlər ki, əxlaq elmdən törəyir. Əgər bir insanın pisi və ya yaxşını ayırd edən elmi olsa, o, pisliyə tərəf getməz və yaxşı işləri yerinə yetirər. Belə olduqda onlar insanın daxilindəki nəfsi istəkləri nəzərə almırlar. Ona görə ki nəfsi istəklər və xüsusiyyətlər insanın daxilində tüğyan edən zaman elm insanı nəzarətdə saxlaya bilməz.

## Tərbiyənin ən gözəl yolu hansıdır?

Burada qarşıya belə bir sual çıxır: Görəsən, insanın tərbiyəsinin ən yaxşı yolu hansıdır? İnsan hansı yollarla tərbiyəni əldə edə bilər? Cavab olaraq qeyd edilməlidir ki, tərbiyədə ən ümdə yeri tutan məsələ nəfsani istək və meylləri nəzarət altında saxlamaqdır. Yəni əgər insan nəfsani istək və meyllərini ram edə bilsə, o zaman tərbiyənin yolunu da tapacaqdır. Əks-təqdirdə insanın elmi nə qədər çox olursa-olsun tərbiyənin yolunu tapa bilməyəcək. Həm də

insanın tərbiyəsi üçün hər zaman mükəmməl tərbiyəçiyə ehtiyac vardır. İnsan məhz həmin tərbiyəçininköməkliyi ilə tərbiyə olunmalıdır. Sual oluna bilər ki, bəs, ən mükəmməl tərbiyəçi kimdir? İnsanın daxilindəki meyl və istəkləri ram edə bilən o kəs kimdir? Cavab isə belədir ki, tərbiyəçidə iki əsas cəhətin mövcudluğu mütləq şərtdir. Birincisi, tərbiyəçinin elmi olmalıdır. Yəni tərbiyəçi insanda olan bütün xüsusiyyətləri dərindən bilməlidir. İkincisi, əməldir, yəni tərbiyəçi insanın bütün xüsusiyyətlərini bilməklə yanaşı, özü də onlara əməl etməlidir. Əgər o, bunlara əməl etməsə, heç bir vaxt kiməsə tərbiyə verə bilməz. Hər bir tərbiyəçinin insanın ruh və mənəviyyatına aid məsələlərlə əlaqəsi varsa və əgər onun özü də buna əməl edirsə, həmin insana təsiri olacaq. Yox, əgər tərbiyəçinin əməli olmasa, o, heç bir kəsə tərbiyə verə bilməyəcəkdir.

Nəticədə biz görürük ki, hər hansı bir insanın tərbiyəsi ilə məşğul olan tərbiyəçi ilk növbədə yaxşı və pisi dərindən bilməli, insanın daxilindəki meyl və istəkləri başa düşməli, həm də özü əxlaqi cəhətdən mükəmməl bir insan olmalıdır. Belə bir xüsusiyyətə malik tərbiyəçi hər hansı bir insana təsir göstərə bilər.

## Peyğəmbərlər ən gözəl tərbiyəçidirlər (əxlaq müəllimidirlər)

Psixoloqlar insanın xüsusiyyətlərindən biri barədə belə bir gözəl fikir söyləmişlər. Onlar demişlər: İnsan ruhunun əsas xüsusiyyətlərindən biri budur ki, onun daxilində bir həmrənglik hissi vardır. Yəni insan həmişə özünü kiməsə bənzətmək istəyir. Bu xüsusiyyət böyüklərlə müqayisədə uşaqlarda daha çox və tez-tez müşahidə olunur. Böyüklər uşaqlarla müqayisədə daha ağıllı olduqlarına görə onlar bu hissi büruzə vermirlər. Lakin uşaqlarda bu halı daha tez-tez

müşahidə etmək mümkündür. Məsələn, ata ayaqqabılarını cütləyib rəfə qoyur. Uşaq da öz atasına baxıb ayaqqabılarını çıxarır və onları atasının ayaqqabılarının yanına qoyur. Yaxud qız uşaqları xoşlayırlar ki, analarının ayaqqabılarını geyməklə özlərini onlara bənzətsinlər. Bir sözlə desək, insan həmişə özünü çox sevdiyi və etibar etdiyi şəxsə bənzətmək istəyir.

Mərhum ustad Mütəhhəri deyir: Biz Ayətullah Bürucirdinin dərsinə gedirdik. O zamanlar Ayətullah Bürucirdinin doxsana yaxın yaşı var idi. Şagirdlərdən biri onu o qədər çox istəyirdi ki, hətta öz yerişini onun yerişinə bənzətmişdi. Ustadımız yaşlı olduğundan əbasının ayaqlarına dolaşmaması üçün onun ətəyindən tutub gəzirdi. Həmin şagird də özündən asılı olmadan çox vaxt əbasının ətəyini tutub gəzirdi.

Deməli, insan psixologiyası bunu göstərir ki, o, bir fərd olaraq çox sevdiyi şəxsin xüsusiyyətlərini əxz etməyə meyllidir. Belə olduqda peyğəmbərlərin insanların tərbiyəsində rolu əlbəttə ki, hər bir kəsdən daha çoxdur. Çünki Allahın peyğəmbərləri insanlara qarşı çox mehriban və sevimli idilər. Hər kəs onlara iman gətirirdisə, böyük təsir altına düşüb əxlaqi cəhətdən yüksəlirdilər. Xüsusilə İslam Peyğəmbərinin(s) həyatına nəzər saldıqda görürük ki, Həzrətdən(s) ömrünün axırına qədər heç bir nalayiq hərəkət müşahidə olunmayıb. Peyğəmbərə(s) iman gətirənlər Həzrəti(s) o qədər sevirdilər ki, onun yolunda canlarını belə qurban verməyə həmişə hazır idilər. Həqiqətən də İslam Peyğəmbəri(s) çox sevimli bir insan idi. Ona iman gətirənlərin hamısı Həzrəti(s) ürəkdən sevirdilər. Öz övladının şəhid olmasından narahatlıq keçirməyən bir ana Peyğəmbərin(s) başından bir tükün belə əskik olmasını istəmirdi. Yəni oğlunun şəhid olmasından deyil, Peyğəmbərə(s) bir xətər toxunacağından narahat olurdu.

İslam tarixində baş verən müharibələrə nəzər saldıqda görürük ki, birinin atası və ya qardaşının şəhid olması xəbərini gətirdikdə ilk növbədə Peyğəmbərin(s) salamat olub-olmadığını soruşardılar. Peyğəmbərin(s) sağ-salamat olduğunu eşitdikdə bütün narahatlıqlar aradan qalxırdı.

Nə üçün insanlar Peyğəmbəri(s) bu qədər çox sevirdilər? Ona görə ki, Peyğəmbər(s) camaata hər nə buyururdusa, hər nə göstəriş verirdisə, ilk növbədə dediklərinə özü əməl edirdi. Camaata namaz qılmağı tapşırırdı. Özü hamıdan gözəl namaz qılırdı. Gecə namazını camaata tövsiyə edirdisə, gecə namazını özü hamıdan yaxşı qılırdı. Peyğəmbərin(s) bütün hərəkətləri insanlar üçün təlim-tərbiyə xarakteri daşıyırdı. Peyğəmbərin(s) bütün hərəkətləri insanlara böyük təsir göstərir və onlara nuraniyyət bəxş edirdi. Ürəyi sağlam olan və qəlbi ölməyən insanlar Peyğəmbərin(s) vücudundan tərbiyə almışlar.

Peyğəmbərdən(s) sonra insanlar müdrik və böyük şəxsiyyətlərdən tərbiyə almışlar. Əgər bir insan özündə nuraniyyət yarada bilsə və öz əxlaqını gözəlləşdirə bilsə, o, yavaş-yavaş insanları özünə cəlb edər. Belə olduqda o, insanlar üçün ən mükəmməl tərbiyəçi rolunu oynaya bilər.

Burada çox yaxşı olar ki, mərhum Ayətullah Məhəmməd Tağı Cəfərinin başına gələn əhvalatlardan birinə nəzər salaq. O, əslən Təbrizdəndir. Uzun müddət Nəcəf şəhərində dini təhsil almış, sonradan vətəninə qayıtmış və ömrünün axırına qədər Tehranda yaşamışdır. Neçə illər bundan öncə Azərbaycana qonaq gəlmişdi. Bu böyük ustad "Nəhcül-bəlağə"yə 27 cilddən ibarət bir şərh də yazmışdır. O deyir: "Cavan vaxtlarım idi. Nəcəfdə mədrəsədə dərs oxuduğum zaman günlərin birində imamlardan birinin mövludu idi. Hamı bayram əhval-ruhiyyəsində idi. Yay günləri olduğundan hava çox isti idi. Mənim otağım güney tərəfdə olduğu üçün Novruz bayramından payız aylarına qədər

həmin otağa girmirdim. Hərdənbir kitab lazım olanda götürüb tez çıxırdım. Həmin gün axşamçağı on-on beş tələbə böyük bir otağa toplaşıb bayram edirdik. Şərbət və şirniyyat süfrəsi açılmışdı. Bayram günü olduğuna görə tələbələrdən biri zarafat üçün qəzetdən kəsdiyi bir şəkli göstərib dedi: Bu şəkli görürsünüzmü? Şəkilin altında belə bir cümlə yazılmışdı: "Əsrin ən gözəl qadını." Həmin tələbə dedi: Bu şəkli sizə ötürürəm. Bir-bir baxın və bir sualıma cavab verin. Kimə bu qadınla halal yolla milyon il yaşamaq, yoxsa bircə an Həzrət Əlinin(ə) camalını görmək daha yaxşıdır? Onun yanında əyləşən tələbə şəkli alıb baxdı və zarafatla dedi: Həzrət Əlinin(ə) camalını görmək də müstəhəbdir. Bunu dedikdə hamı onun fikrini bilib güldü. Sonra digər tələbə şəklə baxdı. Onun 5-6 yaşlı oğlu da yanında idi. O da belə dedi: Əgər yanımda uşaq olmasaydı, fikrimi bildirərdim. Onun da fikri hamıya bəlli oldu və güldülər. Üç-dörd nəfər baxıb hərəsi bir söz dedikdən sonra şəkli mənə ötürdülər. Mən şəkli alıb baxmadan üzü üstə yerə qoyub dedim: Siz nə danışırsınız? Həzrət Əlinin(ə) bir an camalını görmək mənim üçün yer kürəsində min il min belə qadınla yaşamaqdan və bütün nemətlərin hamısından daha üstündür. Bu sözləri deyəndən sonra halım dəyişdi. Hisslərimi nə qədər cilovlamağa çalışdımsa, xeyri olmadı və orada əyləşə bilmədim. İxtiyarsız olaraq məclisi tərk edib, aylarla girmədiyim otağıma qalxdım. Əyləşəndə birdən gördüm ki otağın görünüşü tamamilə dəyişib. Gözümün önündə gözəl bir səhnə yarandı. Gördüm ki, Həzrət Əli(ə) əyləşib və iki nəfər də mənim ətrafımda dayanıb. Onlar mənə dedilər: "Şeyx Məhəmməd, özüdür, istədiyin qədər baxa bilərsən." Doyunca Həzrət Əlinin(ə) camalına tamaşa etdim. Birdən yenə də otağın görünüşü əvvəlki vəziyyətinə qayıtdı. Gördüm ki, yenə də həmin isti otaqdayam. Otaqdan çıxıb yenidən məclisə qayıtdım. İçəri girəndə gördüm ki, həmin

şəkil doqquzuncu tələbənin əlindədir. Həmin şəkil doqquzuncu adama çatana qədər mən gedib öz məqsədimə çatdım və qayıtdım.

Mədrəsənin müdiri ağsaqqal bir müəllim idi. O, mənə baxıb dedi:  Sənin halında yaman dəyişiklik var. Sənə nə olub belə? Dedim: Xahiş edirəm, mənimlə işiniz olmasın. Qoyun öz halımda qalım. Onlar xahiş etdilər, mənsə imtina etdim. Çox üz vurduqdan sonra axırda başıma gələn hadisəni onlara danışdım və dedim: Sizin hansı məqsədə çatdığınızı bilmirəm, amma onu bilirəm ki, mən öz istəyimə nail oldum. Onlar sözlərimə qulaq asıb, tutduqları işdən peşman oldular. Mədrəsənin müdiri əsəbiləşib qəzeti gətirən tələbəyə acıqlandı və dedi: Onu yığışdır buradan. Bizi çox çətin imtahana çəkdilər. Biz bu imtahandan çıxa bilmədik.”

Mərhum Ustad Məhəmməd Tağı Cəfəri deyir: “O andan sonra bütün işlər mənim üçün asanlaşdı. Allah mənə xüsusi mərhəmət inayət etdi. Gecələrin birində yuxuda Həzrət Əlini(ə) gördüm. Həzrət(ə) əlində tutduğu bir kasa südü mənə verdi. Mən kasanı onun əlindən alıb içdim. Yuxudan ayıldıqdan sonra özümdə dəyişiklik hiss etdim. Bu hadisənin üstündən az bir müddət keçdikdən sonra böyük ustadların biri ilə rastlaşdım. O mənə dedi: Səni yuxuda görmüşəm. Gördüm ki, sənin yaşadığın yerdə izdiham var. Bir nəfərdən soruşdum ki, görəsən camaat nə üçün bura yığışıb? Mənə belə cavab verdi: Bütün bu adamlar Şeyx Məhəmməd Tağı Cəfərinin evindən süd alıb içirlər.”

Ustadın yuxusu sanki mənim yuxumu tamamladı. Belə hallar bir neçə dəfə başıma gəldikdən sonra elm öyrənmək mənim üçün asanlaşdı. Allah-təala Həzrət Əlinin(ə) vücudu sayəsində sinəmi elmlə doldurdu. Günlərin birində otaqda tək əyləşib “Nəhcül-bəlağə”nin şərhini yazırdım. Birdən gördüm ki, arxadan çiynimə bir əl qoyuldu. Qorxdum və tez arxaya çevrildim. Arxaya baxanda heç bir kəsi görmədim.

Lakin mənə dedi: Yaz, əllərin ağrımasın. Tez ayağa qalxıb otaqdan çıxdım. Ürəyim elə çırpınırdı ki, sanki ağzımdan çıxıb yerə düşəcəkdi. Bir az gəzişdim, ancaq təsiri olmadı. Süpürgəni götürüb həyəti süpürməyə başladım ki, bəlkə bu hal məndən uzaqlaşsın. Yenə də xeyri olmadı. Dəstəmaz aldım, əl-üzümü yudum, xeyri olmadı ki, olmadı. Birdən yadıma düşdü ki, Quran ürəklərin şəfasıdır. Quranı götürüb oxumağa başladım. Oxuduqca ürəyim sakitləşməyə başladı. Halım tamamilə düzəldikdən sonra gəlib yazımı davam etdirməyə başladım. Heç özüm də bilmirdim ki, kim deyir, kim yazır. Beləliklə, "Nəhcül-bəlağə"nin şərhini yazıb qurtardım.

Allah-təala peyğəmbərləri insanlar üçün tərbiyəçi göndərmişdir. Onlar insanların əxlaqını gözəlləşdirmək üçün gəlmişlər. Onlar mükəmməl insanlardır və insanları kamillik zirvəsinə tərəf çəkirlər. Buna görə də kamala çatmaq istəyən hər bir insan onlara iman gətirməli, inanmalı və etibar etməlidir. Əgər insan Allahın göndərdiyi Peyğəmbərə(s) etibar və etimad edib ona söykənərsə, heç bir vaxt yıxılmayacaq. Hər kəs Peyğəmbərə(s) söykənərsə, yıxılacağından narahat olmasın. Çünki Peyğəmbərə(s) arxalanan heç bir vaxt yıxılmaz. Amma insan Peyğəmbərdən(s) başqasına etibar edib ona arxalansa, o zaman yıxılma ehtimalı yaranacaqdır.

## 3. Qanun

Qeyd olundu ki, insanın kamala çatması üçün üç mühüm amil və mətləbə ehtiyac var. Həmin amillərdən birincisi mükəmməl elm, ikincisi mükəmməl tərbiyəçi və üçüncüsü isə qanundur. Ötən bəhslərdə elm və tərbiyəçi (əxlaq müəllimi) haqda lazımi qədər danışıldı. Həmçinin qeyd olundu ki, insanların elminin iki əsas nöqsanı olduğundan

qüsursuz elmdən, yəni peyğəmbərlərin elmindən istifadə edilməlidir. Tərbiyə məsələsinə gəldikdə isə, deməliyik ki, peyğəmbərlər insanlar üçün ən mükəmməl tərbiyəçidirlər. Əgər elmin kənarında tərbiyə və əxlaq olmasa, həmin elm təklikdə insanı kamilliyə çatdıra bilməz. İnşallah, bu bəhsimizdə insanın kamilliyə yetişməsi üçün lazım olan üçüncü amildən, yəni qanundan bəhs edəcəyik. İlk növbədə qanunla bağlı üç kiçik müqəddiməyə ehtiyac duyulur. Hər bir müqəddimədən də bir nəticə götürmək olar.

## İnsan ictimai məxluqdurmu?

Bəli, birinci müqəddiməni belə bir sualla başlayırıq. İnsan ictimai məxluqdur, yoxsa fərdi? İnsanın ictimai məxluq olduğunu heç bir kəs inkar etmir. Əlbəttə, insan mütləq cəmiyyətdə yaşamalıdır. Yenə sual oluna bilər ki, əgər insan ictimaidirsə, o zaman bunun səbəbi nədir? İnsanın ictimai məxluq olması haradan sərçeşmə alır? Bu sualın üç cavabı vardır və hər bir cavab da özünəməxsus şəkildə düzgündür.

Birinci cavaba uyğun olaraq bəzi alimlər demişlər ki, insanın daxilində şəhvət, şöhrətpərəstlik və s. kimi xüsusiyyətlər (meyllər) olduğundan onun ictimai mühitdə yaşaması da bir növ həmin keyfiyyətlərdəndir. Şəhvəti, övlad sevgisini insana heç bir kəs öyrətmədiyi kimi, onun ictimai mühitdə yaşaması da təbiidir. Yəni insanın cəmiyyətdə yaşaması qeyri-iradi və qeyri-şüuri bir istəkdir. Alimlər insan barədə apardıqları təhqiqat və tədqiqatları nəticəsində belə bir qənaətə gəlmişlər: "İnsan təbiətən və fitrətən mədəni (ictimai) məxluqdur."

İkinci cavaba uyğun olaraq bir sıra alimlər demişlər ki, insanların ictimai mühitdə yaşaması onlarda özünü büruzə verən bir xüsusiyyət deyildir. Əksinə, onun daxilindəki

başqa bir xüsusiyyət və meyllər insanın cəmiyyətdə yaşamasına səbəb olur. İnsan həmin xüsusiyyətlərini təmin etmək üçün ictimai mühitdə yaşamağa məcburdur. Həmin xüsusiyyət və meyl bunlardan ibarətdir ki, insanların hamısı təbiətən kimdənsə və nədənsə istifadə etmək istəyirlər. Yəni insan belə yaranmışdır ki, öz xeyir və mənfəəti naminə digər insanlardan da istifadə etmək istəyir. Məsələn, insan ağaclardan, heyvanlardan istifadə etdiyi kimi, digər insanlardan da bir növ öz mənafeyi üçün istifadə etməyə meyllidir. Məlumdur ki, insanlar ağacın yarpağından, meyvəsindən, taxtasından, kökündən və hətta külündən belə istifadə edirlər. Yaxud qoyunun ətindən, yunundan, dərisindən, qursağından, kəllə və ayaqlarından, içalatından, bir sözlə, hər bir üzvündən istifadə edir. Beləcə ağaclardan, heyvanlardan və s. əşyalardan istifadə etdiyi kimi, insanlardan da bəhrələnmək istəyir. İnsanlardakı bu xüsusiyyət onda mövcud olan şəhvət, qorxu və s. kimi xüsusiyyətlərdən biridir. Bu meyl və xüsusiyyətlərini təmin etmək istəyən insan cəmiyyətdə yaşamaq məcburiyyətindədir. O, bu xüsusiyyətlərini yalnız ictimai mühitdə yaşamaqla təmin edə bilər. Çünki əgər insanda bu hiss və meyl vardırsa, deməli, digər insanlarda da həmin istəklər mövcuddur. Əgər bir insan digərindən istifadə etmək və ondan bəhrələnmək istəyirsə, digəri də eynilə ondan istifadə etmək və bəhrələnmək fikrindədir. Beləcə bir-birindən istifadə etmə və bəhrələnmə qarşılıqlı olacaqdır. Deməli, təbii olaraq cəmiyyət yaranır və nəticədə insan ictimai bir varlığa çevrilir.

Üçüncü cavaba əsasən isə alimlər söyləmişlər ki, insan fitrətən və təbiətən kamilliyə doğru can atır. Kamala çatmaq üçün öz həyatı boyu dünyada mövcud olan bütün imkanlardan bacardığı qədər istifadə etmək və bəhrələnmək istəyir. Bütün imkanlardan istifadə etmək üçün isə ona başqa

insanlarla birgə çalışmaq lazımdır. Çünki insan təklikdə bütün mövcud imkanlardan istifadə edə bilməz. İnsanın həyatında əkinçilik, dərzilik, bənnalıq, həkimlik, mühəndislik, aşpazlıq və s. kimi sənətlərə ehtiyac duyulduğu qədər müasir texniki avadanlıqlara da böyük tələbat vardır. Aydın məsələdir ki, bütün bunlar bir nəfərin gücü və bacarığı daxilində deyildir. Buna görə də həyatda hər bir sahənin öz mütəxəssisi olmalı və insanlar bir-birindən hər bir sahədə bəhrələnməlidirlər. Odur ki, hər bir insan cəmiyyətdə yaşamalı, hər biri müəyyən bir sahəni öz öhdəsinə götürməli və yaşamaq üçün özlərinə lazımi şərait yaradaraq həmin şəraitdə kamilliyə çatmalıdır.

Beləcə, irəli sürülən sualın hər üç cavabı öz növbəsində doğru və düzgündür. Yəni hər üç dəlilə görə, insanın cəmiyyətdə yaşaması vacibdir.

## İnsanın qanunlara olan ehtiyacı

İkinci müqəddimə budur ki, insan cəmiyyətdə yaşadığı andan etibarən qanunlara ehtiyac duyur. Əgər insan fərdi olaraq yaşayarsa, o zaman onun heç bir qanuna da ehtiyacı olmaz. Məsələn, fərz edək ki, bir insan heç kəsdən asılı olmayaraq tək yaşayır. Amma əgər iki nəfər bir yerdə yaşamalı olsa, burada mütləq qanunlar və normalar olmalıdır. Tutaq ki, iki nəfər bir otaqda yaşayır. Otaqda hava isti olduğundan onlardan biri pəncərəni açmaq istəyir. Təbiidir ki, həmin şəxs pəncərəni açmazdan öncə öz otaq yoldaşından icazə almalıdır. Bəlkə o, pəncərənin açılmasına razı deyil. Deməli, hər bir insanın öz hüququ olduğundan burada qarşılıqlı razılaşma olmalıdır.

Məlumdur ki, insanların sayı çoxaldıqca onların hüquqları da artır. Əgər bir cəmiyyətdə on milyon insan yaşayırsa, deməli oradakı bir nəfər həmin on milyondan biri hesab olunur. Belə olduqda heç bir kəsin ixtiyarı yoxdur ki, öz istəyinə görə milyonlarla insanın hüququnu ayaqlar altına atsın. Heç bir kəsin belə bir ixtiyarı yoxdur və heç kim də bu ixtiyarı kiməsə verə bilməz. Belə olan halda insan fərdiliyindən ayrılır və ictimai olur. Əgər on milyon, yuz milyon insan bir yerdə yaşayırsa, yaxud yer kürəsində milyardlarla insan birgə yaşayırsa, o zaman onların münasibətlərini tənzimləyən qanunlara və normalara ehtiyac vardır. Bəs nə üçün cəmiyyətdə qanunlara və normalara ehtiyac vardır? Bu suala cavab olaraq deyə bilərik ki, aşağıda qeyd edilən üç səbəbə və dəlilə görə cəmiyyətin qanunlara və normalara ehtiyacı vardır:

1.İnsanların hədd və vəzifələrinin müəyyən edilməsi;

Kim insanlara hədd müəyyən edə bilər? Kiməsə icazə verilməmişdir ki, insanlara hədd qoysun. İnsanların həddini və vəzifəsini müəyyən etmək üçün mütləq qanunlar və normalar olmalıdır. Çünki hər bir kəs yalnız və yalnız qanunlar qarşısında susur.

2.Müəyyən olunmuş qanunlara nəzarət edilməsi;

Əgər qanunlar və normalar qoyulursa, deməli onlara nəzarət edən də olmalıdır. Əgər nəzarətçi olmasa, qanunlara kim əməl edər? Məsələn, tutaq ki, bir yolda “əks-istiqamətdə hərəkət etmək qadağandır” - nişanı qoyulmuşdur. Həmin nişan nəqliyyat vasitələri üçün bir növ qanundur. Əgər bu qanuna nəzarət edən olmasa, heç bir sürücü ona məhəl qoymayacaqdır. Deməli, qanunun icrası üçün nəzarət lazımdır.

3.Qanunu pozanlar üçün cəza tətbiq olunması və qanuna riayət edənlərin mükafatlandırılması.

Qanunlar və normalar müəyyən edildikdən sonra nəzarətçi təyin olunmalı və müvafiq qanuna riayət etməyənlərin qarşısını almaq üçün cəza tətbiq edilməlidir. Hətta qanunlara riayət edənlərin mükafatlandırılması məsələsi də irəli sürülməlidir. Qanuna riayət olunmadıqda isə cəza tətbiq etmək məqsədilə ortaya məhkəmə məsələsi də çıxır. Məhkəmələrin mövcudluğu da məhz qanunlara riayət etməməyin nəticəsidir.

Qeyd etdiyimiz iki müqəddimənin nəticəsində görürük ki, əgər cəmiyyətdə qanunlar və normalar olmasa, o zaman insanların hədd və vəzifələri də müəyyən olunmayacaqdır. Heç kim öz vəzifəsinə nəzarət etməyəcək və beləcə hər bir kəs istədiyi kimi vəzifəsindən boyun qaçıracaqdır. Son nəticədə isə cəmiyyətdə hərc-mərclik və özbaşınalıq yaranacaqdır.

## Ən yaxşı qanunverici kimdir?

Beləcə öyrəndik ki, insan ictimai bir varlıqdır. İnsanların yaşadığı hər bir cəmiyyətə, artıq qeyd olunduğu kimi, üç səbəbə görə qanunlar və normalar lazımdır. Qanunlar barədə üçüncü müqəddiməni belə bir sualla başlayırıq: Ən yaxşı qanunverici kimdir? İnsan cəmiyyəti üçün kim qanunları müəyyən etməlidir? Hansı parlament insanların bütün incə xüsusiyyətlərini öyrənə və onlar üçün müvafiq qanunlar müəyyən edə bilər? Cavab isə belədir ki, hər bir yerindən duran şəxsin qanunlar müəyyən etməyə ixtiyarı yoxdur. Çünki qanun verən şəxsin bir neçə şərti və xüsusiyyəti olmalıdır:

1.Qanun müəyyən edənin birinci şərti belədir ki, o, insanları çox yaxşı tanımalı və onların hər bir incəliyindən xəbərdar olmalıdır. İnsanları tanımayan və onların

incəliklərindən xəbərdar olmayan hər hansı bir şəxs hansı qanunları irəli sürə bilər? Məsələn, bir nəfər mağazadan bir televizor alır. Evdə televizor qoyulan qutunu açdıqda görür ki, onun içərisində bir kitabça da var. Kitabçada isə həmin televizordan necə istifadə olunmasına dair qaydalar yazılmışdır. Televizorun içindən və onun incəliklərindən xəbərdar olmayan bir kəs həmin kitabçanı yaza bilərmi? O kitabçanı yalnız həmin televizoru ixtira edən yaza bilər. Çünki onun bütün incəliklərini yalnız o özü bilir. Deməli, insanlar üçün müəyyən qayda-qanunlar verən kəs mütləq insanları yaxşı tanımalı və onların bütün incə xüsusiyyətlərindən xəbərdar olmalıdır. İnsanı kim tanıyıb? Avropalı alimlər tanıyıblarsa, desinlər ki, tanımışıq. Amerikanın görkəmli alimləri tanıyıblarsa, desinlər ki, tanımışıq. Dünyanın hər hansı bir ölkəsinin alimləri insanı tanıyıblarsa, desinlər ki, tanımışıq. Əksinə, onlar etiraf etmişlər ki, biz insanı tanımamışıq. Qərbin böyük alimləri insan barədə ingilis dilində bir kitab yazmışlar: "İnsan tanınmamış bir varlıqdır."

İnsan elə bir məxluqdur ki, həddindən artıq çoxlu incəliyə malikdir. Onun həm cismi, həm də ruhi cəhətdən elə incəlikləri vardır ki, hər bir incəliyi böyük bir aləmdir. Məsələn, insanın gözləri böyük bir dünyadır. Gözün ağı bir aləm, qarası isə başqa bir aləmdir. İnsanın bütün bədən üzvlərinin hər biri böyük bir aləm və dəryadır. Bu varlığın hər bir bədən üzvü üçün xüsusi bir həkim nəzərdə tutulur. Yəni həkim insan orqanizminin hər bir üzvünü öyrənmək üçün illərlə oxumalı, təcrübə aparmalı və son nəticədə qənaətə gəlməlidir. Bizə adi gələn bir ürəyin neçə cür mütəxəssisi vardır. Hər bir ürək həkimi onun üzərində cərrahiyyə əməliyyatı apara bilməz. İnsan cismi yetərincə incəlik və xüsusiyyətlərə malikdir. İnsan ruhunun incəliklərinə gəldikdə isə, deməliyik ki, cismin incəlikləri

onun yanında cüzi bir şeydir. Əgər Allah-təala Quranda insanı tərif edirsə, bu onun ruhuna görədir. Allah-təala insana ruhuna görə qiymət, şərafət və izzət bəxş edib. Cism və bədənə qaldıqda isə digər canlıların da cismi vardır. Əgər cismə görə olsaydı, o zaman digər canlılar barədə də insan üçün sadalanan şərafətlər bəyan edilərdi. İnsanın ruhu o qədər şərif, nəcib, əzəmətli və qiymətlidir ki, Allah-təala ondakı incəliklərə görə bu varlığı belə yüksək təriflə təltif etmişdir.

Odur ki, insan üçün qanunlar müəyyən edən bir kəs mütləq insanı yaxşı tanımalı və onun bütün xüsusiy-yətlərindən xəbərdar olmalıdır. Yüksək keyfiyyətlərə və saysız-hesabsız incəliklərə malik olan insanı tanımayan bir kəs onun üçün necə qanunlar müəyyən edə bilər?

2.Qanunları müəyyən edənin ikinci şərti budur ki, o, gələcəkdə insanın başına gələ bilən bütün hadisələrdən xəbərdar olmalı və bunun üçün öncədən tədbirlər gör-məlidir.

3.Qanunvericinin üçüncü şərti budur ki, qanunları tərtib edərkən və insanlardan ötrü qanunlar müəyyən edərkən öz şəxsi mənfəətini nəzərə almamalıdır. Halbuki dünyanın əksər ölkələrində qanunlar müəyyən edilərkən ilk növbədə qanunvericilərin daha çox öz mənfəət və xeyirlərini güdərək qanunlar tərtib etdiklərinin şahidi oluruq. Həmin qanunların digər insanlara xeyirli və ya zərərli olub-olmaması isə onlar üçün o qədər də maraqlı deyil. Qanunları müəyyən etməkdə əsas məqsədləri öz istək və mənfəətlərinə çatmaqdır. Halbuki qanunları bu cür müəyyən etmək olmaz. Əgər qanun yazılırsa, kimliyindən asılı olmayaraq hər bir kəsə eyni qaydada şamil olunmalıdır.

4.Qanunlar müəyyən edən şəxsin dördüncü şərti budur ki, o, səhv və xətaya, yaxud unutqanlığa yol verməməlidir. Axı bir şəxs qanun tərtib edərkən səhvə yol verərsə milyonlarla

insanı pis vəziyyətə sala bilər. Yəni insanları tərtib etdiyi səhv qanuna riayət etməyə məcbur etdikdən sonra həmin qanunun yanlış olduğu ortaya çıxır və nəticədə milyonlarla insan bir qanunvericinin xətasına görə cəhənnəmə düşür.

Buna görə də cəmiyyətdə qanunlar müəyyən etmək insanların taleyini həll etmək kimi bir şeydir. Kiçik bir xəta insanların bədbəxt olmasına gətirib çıxara bilər. Ona görə də insanların taleyi ilə bağlı heç cür səhvə yol vermək olmaz. Qanunları müəyyən edən kəslər mütləq və mütləq səhv və xətalardan uzaq olmalıdırlar. Yəni belə olmamalıdır ki, qanunları tərtib edənlər milyonlarla insanları illər boyu bədbəxtliyə sürüklədikdən sonra səhvlərini başa düşüb üzr istəsinlər.

5.Qanunları müəyyən edən şəxsin beşinci şərti budur ki, o, heç bir qüdrətli dövlətdən və ya vəzifəli şəxslərdən qorxmamalı və eyni zamanda insanlara qarşı səmimi və mehriban olmalıdır.

Nəhayət, sual oluna bilər ki, bəs bu gün görəsən hansı qanunvericidə bu şərtlər var? Cavab olaraq yəqinliklə deyə bilərik ki, Allah və Peyğəmbərindən başqa aləmdə heç bir kəsdə belə şərtlər və ixtiyar yoxdur. Allah Özü də heç bir kəsə bu qüdrəti verməmişdir. Yəni Allah yer üzündə heç bir insana kimlər üçünsə qanunlar müəyyən etməyə icazə və ixtiyar verməmişdir. Hər kim insanlar üçün qanunlar tərtib edirsə bunu mütləq Allahın kitabı və Peyğəmbərin(s) söylədikləri əsasında həyata keçirməlidir. Bundan əlavə insanlar arasında da ağlabatan razılaşma yolu ilə cüzi və məqbul sayılan qanunlar da mövcuddur ki, onlar özləri bir araya gəlib həmin qanunları müəyyən edirlər. Amma bu, tamam başqa bir məsələdir və bunların əsas qanunlara heç bir aidiyyatı yoxdur.

Deməli, nəticə etibarilə bizə aydın olur ki, insan ictimai varlıqdır və hər bir cəmiyyətin də qanunlara ehtiyacı vardır.

Qanunların müəyyən olunması şərtlərinə görə isə Allah və Peyğəmbərdən(s) başqa heç bir kəs insanlar üçün qanunlar qoya bilməz. Bu baxımdan da insanları hidayət etməkdən ötrü peyğəmbərə ehtiyac duyulur. Peyğəmbər Allah tərəfindən gəlməli və onun üçün müəyyən olunmuş qanunları insanlara öyrətməli, onları hidayət etməlidir. Allah-təala insanı kamala çatmaq üçün yaradıb və buna görə də ona kamala çatmağın yolunu öyrətmək üçün peyğəmbər göndərib. Çünki insanların bu yolda qanunlara və mənəvi xəstəliklərdən sağalmaq üçün təbibə ehtiyacı vardır.

قَالَ رَسُولُ اللهِ(ص): يَا عِبَادَ اللهِ اَنتُم كَالْمَرضَى وَ رَبُّ العَالَمِينَ كَالطَّبِيب, فَصَلاحُ الْمَرضَى فِيمَا يَعلَمُ الطَّبِيب

Həzrət Peyğəmbər(s) buyurur: "Ey Allahın bəndələri, sizlər xəstə, bütün aləmləri yaradan isə həkim kimidir. Xəstənin xeyri öz istəklərinə deyil, həkimin tədbirlərinə əməl etməkdədir. Buna görə də nicat tapmaq üçün Allahın əmrinə təslim olun."

Odur ki, insan mütləq Allahın əmrlərinə və qanunlarına riayət etməlidir. Təkcə dildə “müsəlmanam” deməklə insan heç bir məqama nail ola bilməz. İslamı qəbul etdikdən sonra onun hökmlərinə riayət olunmalı və buyurulan göstərişlərə əməl edilməlidir. İnsanın nicat yolu da məhz bundadır. Əgər həkim xəstəni müayinə etdikdən sonra dərman yazırsa, deməli xəstənin vəzifəsi həkimin göstərişinə əməl etmək və yazılan dərmanları vaxtlı-vaxtında qəbul etməkdir. Əks-təqdirdə xəstə sağalmayacaqdır. Xəstə təkcə həkimin yanına getməklə sağalmır. Sağalmaq üçün həkimin göstərişinə əməl etmək və yazılan dərmanlardan istifadə etmək lazımdır. Əgər bir insan müsəlmanlıq iddiası edirsə və bununla bərabər İslamın qanunlarına riayət etmirsə, onun adının müsəlmanlar

sırasında getməsinə baxmayaraq, özü əsla müsəlmanların içərisində deyildir.

## Lütf və mərhəmət üslubu

Bu bəhsimizə başlamazdan öncə ötən bəhslərdə oxuyub öyrəndiklərimizə qısaca nəzər salaq. Allah-təalanın Quranda kitab əhlinə etdiyi xitablardan biri İslam Peyğəmbəri(s) barədədir. Allah-təala o Həzrəti(s) insanları hidayət etmək üçün göndərdiyini və kitab (Quran) nazil etdiyini bəyan edir. Hamıya vacibdir ki, Allahın göndərdiyi Peyğəmbərə(s) və nazil etdiyi kitaba iman gətirsin. Həmçinin müxtəlif dəlil və sübutlar əsasında nübüvvətin zəruriliyi və vacibliyi barədə söhbət olundu.

Məntiq və fəlsəfə elmində dəlil iki növdür. Biri əqli, digəri isə nəqli dəlildən ibarətdir. Əqli dəlil odur ki, onun heç bir ayəyə, hədisə və kitaba ehtiyacı yoxdur. Yəni insan öz ağlının vasitəsilə bir məsələnin həqiqətini dərk edə bilir. Məsələn, insan Allahın varlığını, peyğəmbərlərin nübüvvətini, imaməti və dinin başqa prinsiplərini əqli dəlillərin köməyi ilə başa düşə bilir. Dinin əsas prinsiplərinə üsuliddin deyilir. Üsuliddində heç bir kəsi təqlid etmək olmaz. İnsan bu prinsipləri ağlı ilə özünə sübut etməlidir. İslamın qaydalarına görə üsuliddində təqlid etmək haram və qadağan hesab olunur. Çünki bunlar elə bir məsələlərdir ki, insan öz ağlı ilə və dəlil-sübuta söykənərək müəyyən bir nəticəyə gələ bilir.

Şəriət məsələlərinə gəldikdə isə hər bir müsəlman bu məsələlərdə təqlid etməlidir. Məsələn, insan xəstələndikdə ağıl tələb edir ki, həkimə müraciət etsin. Hamı bilir ki, insan xəstələndikdə onu həkimə aparmaq lazımdır. Lakin həkimə

getdikdən sonra onun hansı dərmanlardan istifadə edəcəyini həkim söyləyir. Həkimin sözlərinə təqlid və əməl etmək xəstənin borcudur. Çünki xəstə öz ağlı ilə heç cürə başa düşə bilməz ki, onun xəstəliyinin dərmanı nədir. Deməli, insan xəstələndikdə həkimə müraciət edəcəyini öz ağlı ilə başa düşə bilir, lakin həkimin yanına getdikdən sonra hansı dərmanlardan istifadə edəcəyini həkimdən öyrənməlidir.

Məsələn, həkim bir xəstəni müayinə etdikdən sonra dərman yazır və deyir ki, bu dərmanı həftədə altı gün qəbul et, bir gün isə qəbul etmə. Yaxud deyir ki, filan dərmanı gündə üç dəfə, başqa bir dərmanı isə gündə bir dəfə qəbul et. Xəstə əgər sağalmasını istəyirsə, mütləq həkimin dediyi kimi etməlidir. Əgər o, həkimin göstərişinə əməl etməsə, sağalmayacaq. Həmçinin həkimə "nə üçün bu dərmanı gündə üç dəfə, digər dərmanı isə gündə bir dəfə qəbul etməliyəm" - kimi suallar da verməməlidir. Çünki o, həkimdir və xəstənin hansı dərmandan necə istifadə edəcəyini də o müəyyən edir.

Bir sözlə desək, xəstənin vəzifəsi həkimin göstərişinə əməl etməkdir. İslam dinində də buyurulur ki, dinin əsasları ilə bağlı məsələlərdə əqli dəlillərə söykənilməli, şəriət məsələlərində isə təqlid edilməlidir. Dinin əsaslarında təqlid etmək haram, şəriət məsələlərində isə təqlid etmək vacibdir. Şəriət məsələlərinə riayət etmək üçün insan ya özü müctəhid olmalı, ya da müctəhidi təqlid etməlidir. Necə ki, insan oxuyub həkim olduqdan sonra özünü müalicə edir, yaxud həkimə müraciət etməklə dərdinə çarə qılır.

Nəqli dəlilə gəldikdə isə, insan Quran ayələrinə, Peyğəmbər(s) və məsum imamların hədislərinə söykənərək hər hansı bir məsələnin müzakirəsində ortaya dəlil-sübut çıxarmalıdır. Məsələn, bir mətləbi iddia edərkən Quran ayəsindən dəlil gətirir. Yəni Allahın kitabından, Peyğəmbər(s) və məsum imamların buyurduqlarından dəlil gətirilirsə, buna nəqli dəlil deyilir. Ötən bəhslərimizdə əqli

dəlillər əsasında peyğəmbərin zəruriliyi və vacibliyi haqda söhbət etdik.

Burada bəhsimizə əlavə olaraq bir mətləbə toxunmaq istərdim. Həmin mətləb budur ki, peyğəmbərlərin insanlar üçün göndərilməsi Allahın lütf və mərhəmətidir. Bu lütf və mərhəmət üçün bir qayda-qanun düşünərək adına da mərhəmət üslubu demişlər. Yəni lütf və mərhəmətin də özünəməxsus üslub və qaydası vardır. Bu mətləbi daha açıq-aydın şəkildə başa düşmək üçün bir misala müraciət edək. Məsələn, tutaq ki, bir nəfər evində qonaqlıq təşkil verir və tanış bir şəxsi həmin qonaqlığa dəvət edir. Dəvət etdiyi şəxsə öz ünvanını da verir ki, yolu tapa bilsin. Evi rahat tapmaq üçün hətta evin telefon nömrəsini də ona verir. Dəvət edən şəxs öz ünvanını tam dəqiqliklə həmin şəxsə təqdim edir. Deməli, dəvət edənin vəzifəsi budur ki, öz ünvanını dəqiqliklə dəvət olunana versin. Dəvət olunan şəxs ünvanı tapa bilmirsə, deməli özü təqsirkardır. Lakin dəvət edən öz-özünə fikirləşir ki, birdən qonaq gəlib evin ünvanını səhv sala bilər. Bunun üçün mərhəmət göstərərək dəvət etdiyi şəxsə deyir ki, səni qarşılamaq üçün tanıdığın bir adamı da yaşadığımız məhəllədə qoyacağam. Sən gələndə o, evin ünvanını sənə göstərəcək. Dəvət edən şəxs daha çox mərhəmət göstərərək həmçinin bildirir: Mən sənin tanıdığın bir şəxsi də bu qonaqlığa dəvət etmişəm. Bizim evi yaxşı tanıdığı üçün ona tapşıraram ki, səni də öz maşını ilə gətirsin. Əgər ev sahibi dəvət olunanın xətrini daha çox istəyirsə, onun ardınca maşın da göndərir. Bu, dəvət edən şəxsin çox böyük lütfü və mərhəmətidir. Əgər dəvət olunan bütün bu mərhəmətlər sayəsində həmin qonaqlığa gələ bilmirsə, deməli, bu onun öz nöqsanıdır.

Allah-təala bizi yaratmış və bizə ağıl vermişdir. Bu ağlın vasitəsilə biz Allah-təalanı tapıb tanıya bilərik. Ağıl sanki bir ünvana bənzəyir. Ağılda elə bir qüdrət və qabiliyyət vardır

ki, insan onun vasitəsilə Allahı tapıb tanıya bilər. Həzrət Peyğəmbərin(s) dövründə savadsız bir qarı cəhrədə yundan ip əyirirdi. Həzrət Peyğəmbər(s) ona yaxınlaşıb soruşdu: Sən Allahın varlığını necə başa düşürsən? Qarı işlətdiyi cəhrədən əlini çəkdi və cəhrə dayandı. Sonra isə üzünü Peyğəmbərə(s) tutub dedi: Ya Rəsulallah, bu kiçik bir cəhrədir və bunun hərəkətə gəlməsi mənim vasitəmlə olur. Mən əlimi onun dəstəyindən çəkən kimi dayandı. Bu kiçik cəhrəni hərəkətə gətirən mənəmsə, necə ola bilər ki, bu böyüklükdə, bu əzəmətdə olan kainat öz-özünə hərəkət etsin? Buradan başa düşmüşəm ki, bütün bu aləmi yaradan və kainatı hərəkətə gətirən bir qüvvə var. Mən də bu qüvvəyə Allah deyirəm.

Görürük ki, ağılda dərk etmə və başa düşmə qabiliyyəti vardır. İnsan öz ağlının vasitəsilə aləmləri yaradanı tapıb tanıya, peyğəmbərin nübüvvətini və s. əqidə məsələlərini başa düşə bilir. Qayda budur ki, Allah-təala bizə ağıl vermiş və biz də bu ağlın vasitəsilə Onun varlığını başa düşə bilirik. Əgər Allah bizə peyğəmbər göndərməsəydi, biz yenə də öz ağlımızla Onun varlığını sübut edə bilərdik. Lakin insan əzəmətli və şərəfli məxluq olduğu üçün Allah-təala ona peyğəmbər göndərir. Allah-təala insanı çox əzəmətli bir varlıq olaraq xəlq etmişdir. İnsan yaradılışın mehvəridir. Yəni Allah-təala aləmdə olan hər bir şeyi insan üçün yaratmışdır. Allah-təala insan kimi əzəmətli və şərəfli bir varlığa lütf və mərhəmət göstərərək ona peyğəmbərlər də göndərmişdir.

## İnsanın təfsiri və tərifi

Bəzi alimlər və tədqiqatçılar insan barədə müxtəlif fikirlər irəli sürmüşlər. Lakin onların bütün bu söylədiklərində

insanın əzəmətliliyinə və onun üstün bir varlıq olduğuna dair heç bir fikir yoxdur. Yalnız Allah-təala insanın qədir-qiymətini, əzəmət və şərafətini olduğu kimi tanıtdırır. Bəziləri insanın cəmiyyətdəki rolunu bir maşın kimi təqdim edir və onunla bağlı bütün həqiqətləri maddiyyat baxımından izah edirlər. Digər bir dəstə isə insanı şəhvətpərəst bir varlıq kimi təqdim edərək, onun kamala çatmasını da şəhvətdə görürlər.

Allahın dini olan İslamda isə insan bütün yaradılışın mehvəri və kainatın, varlıqların əşrəfi hesab olunur. Allah insanı digər məxluqlardan fərqli olaraq üstün etmişdir. Aləmdə olan hər bir şeyi insanın ixtiyarına vermişdir. “Loğman” surəsinin 20-ci ayəsində belə buyurulur:

أَلَمْ تَرَوْا أَنَّ اللَّهَ سَخَّرَ لَكُم مَّا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَأَسْبَغَ عَلَيْكُمْ نِعَمَهُ ظَاهِرَةً وَبَاطِنَةً

-Məgər Allahın göylərdə və yerdə olanları (onlardan öz mənfəətləriniz üçün istifadə edəsiniz deyə) sizin üçün ram etdiyini və Öz aşkar və gizlin (bədənlərinizin istifadə etdiyi görmə, eşitmə və s. beyinlərinizin bəhrələndiyi əql, şüur, fəhm və s.) nemətlərini sizə bol və geniş şəkildə bəxş etdiyini görmürsünüzmü?!

Allah-təala insanı kəramətli və şərəfli bir məxluq olaraq yaratmışdır. Allah “İsra” surəsinin 70-ci ayəsində belə buyurur:

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ

-Həqiqətən, Biz Adəm övladlarına kəramət və şərafət bəxş etdik.

Ayələrdən açıq-aşkar başa düşürük ki, bu aləmdə insandan şərəfli və əziz bir vücud yoxdur. Allah yerdə və göylərdə olanların hamısını insan üçün yaratmışdır. İnsan

çox əzəmətli bir varlıqdır. Bu əzəmətli varlığın da üç cəhət və tərkibi vardır: maddi, ictimai və mənəvi cəhətlər. Deməli, insan həm maddi, həm mənəvi və həm də ictimai bir varlıqdır. İnsanın başqa varlıqlardan üstün olması onun mənəvi cəhəti ilə bağlıdır. Çünki maddi cəhətdən müqayisə etdikdə görürük ki, insan da başqa canlı varlıqlar kimidir. İnsanın ailə qurması, yemək yeməsi və su içməsi kimi digər canlı varlıqlar da cütləşir, yeyir və içirlər. İnsanlara daldalanmaq üçün ev lazım olduğu kimi digər canlıların da yuvaya ehtiyacı var. Hər bir canlı varlıq özünəməxsus şəkildə özü üçün bir yuva qurur. Maddi cəhətdən də insan digər canlı varlıqlar kimidir. İctimai cəhətə gəldikdə yenə də görürük ki, digər canlılar da ictimai şəkildə yaşayırlar. Arılar, qarışqalar və s. kimi canlılar da təbiətdə ictimai şəkildə yaşayırlar. Əgər bir arını, yaxud qarışqanı bir qabın içinə qoyub tək saxlamaq istəsək, o, ya artıb çoxalacaq, ya da öləcək.

Beləcə biz görürük ki, digər canlı varlıqlar da maddi və ictimai cəhətdən insanlarla müştərəkdirlər. İnsanı digər canlı varlıqlardan fərqləndirən əsas və üstün cəhəti onun mənəviyyatıdır. Buna görə də ola bilməz ki, Allah insana belə bir mənəvi üstünlük versin, amma bu yolda onun yardımçısı olmasın. Allah-təala heç bir vaxt yaratdığını özbaşına buraxmaz. O, hər bir məxluquna öz lütf və mərhəmətini inayət edir. O cümlədən də insana bütün cəhətlərinə görə lütf və mərhəmət göstərir. Allah-təala peyğəmbərləri göndərməklə insana mənəvi cəhətdən köməklik göstərir və ona mərhəmət edir. İnsan öz əziz qonağını qarşılamaq üçün bir adamı göndərdiyi kimi, Allah-təala da insanların mənəvi dərəcələrə çatması üçün onlara kömək məqsədilə peyğəmbərləri göndərir. Çünki əgər insan kamillik zirvəsinə çatmaq istəyirsə, bu, insanın mənəvi cəhətidir. Ola bilməz ki, Allah-təala bu yolda insana bir

yardımçı və ya yol göstərən göndərməsin. Allah-təalanın insana lütf və mərhəməti kifayət qədər çox olduğundan ona bu yolda daha çox köməklik göstərir.

# Quranda lütf və mərhəmətin qaydası

Biz öz ağlımızla başa düşürük ki, Allah-təalanın yaratdığı insan kamilliyə çatmaq əzmindədir. Yəni insan onun üçün müəyyən olunmuş kamilliyi fəth edə bilər. Həmçinin bilirik ki, insan kamilliyə məhz mənəvi cəhətdən yüksələ bilər. Allah-təala insanı mənəvi cəhətinə görə şərəfləndirmiş və hər bir şeyi onun ixtiyarında qoymuşdur. Heç bir vaxt ola bilməz ki, Allah-təala öz yaratdığı və əzəmət, şərafət, izzət bəxş etdiyi insanı başlı-başına buraxsın. Ağlımızla başa düşürük ki, Allah-təala heç bir vaxt insanı özbaşına buraxmaz və odur ki, onun üçün bir peyğəmbər göndərir. Bu bir mərhəmət qanunudur.

Eynilə həmin bu qanunu Allah-təala Qurani-Kərimdə də bəyan etmişdir. Quran bizə nəqli dəlil hesab olunduğu üçün mərhəmət qanununu həm ağlımızla başa düşürük, həm də nəqli dəlillərin vasitəsilə öyrənirik. Quranda olan bu qəbil ayələr iki cürdür. Birincisi, Allah-təala mərhəmət edərək yolu insana göstərir və hamarlayır. İkincisi, insanın kamala çatmasının qarşısını kəsən maneələri aradan qaldırır. Nümunə üçün bir neçə ayəyə diqqət yetirək. “Ləyl” surəsinin 12-14-cü ayələrində belə buyurulur:

إِنَّ عَلَيْنَا لَلْهُدَى. وَإِنَّ لَنَا لَلْآخِرَةَ وَالْأُولَى. فَأَنذَرْتُكُمْ نَارًا تَلَظَّى

-Şübhəsiz, hidayət etmək Bizim öhdəmizdədir. Və şübhəsiz, axirət də, dünya da Bizə məxsusdur və Bizim iradəmizə tabedir. Beləliklə, (Mən) sizi şölələnən oddan çəkindirdim.

Ayələrdə göstərilən dəlillər həmin dəlillərdir ki, biz ağlımızla da onu başa düşürük. Allah-təala peyğəmbərin vasitəsilə yolu bizə göstərir və bizi oddan çəkindirir. “Taha” surəsinin 134-cü ayəsində belə oxuyuruq:

وَلَوْ أَنَّا أَهْلَكْنَاهُم بِعَذَابٍ مِّن قَبْلِهِ لَقَالُوا رَبَّنَا لَوْلَا أَرْسَلْتَ إِلَيْنَا رَسُولًا فَنَتَّبِعَ آيَاتِكَ مِن قَبْلِ أَن نَّذِلَّ وَنَخْزَى

-Əgər Biz onları bundan (Məhəmmədin(s) peyğəmbərliyə göndərilməsindən və ya Quranın nazil olmasından) qabaq həlak etsəydik, mütləq “ey Rəbbimiz, nə üçün bizə bir peyğəmbər göndərmədin ki, zəlil və xar olmamışdan qabaq Sənin ayələrinə tabe olaydıq” - deyərdilər.

Allah-təala beləcə peyğəmbər göndərməklə onların sözlərini və bəhanələrini kəsir. Allah tərəfindən peyğəmbərlər göndərilir ki, insanları bütün həqiqətlərdən agah etsinlər. Peyğəmbərlər də insanlara hər bir şeyi başa salıb öyrətmişlər. Kimsə peyğəmbərləri başa düşməyib və həqiqətləri öyrənmək istəməyibsə, onların hesab-kitabları çox çətin olacaqdır. Çünki açıq-aydın dəlillərlə Allah tərəfindən göndərilmiş peyğəmbərləri təkzib edib onları yalançı sanırdılar. Qurani-Kərimdə qiyamət səhnəsində belə insanların aqibəti haqda bir çox ayələrə rast gəlmək mümkündür.

Qeyd olundu ki, Allah-təala insan üçün yolu açıb hamarlamaqla yanaşı, onun kamala çatmasının qarşısını alan bütün maneələri də aradan qaldırmışdır. Deməli, insanın kamilliyə çatması üçün Allah-təala onun yolunun üstündə heç bir maneə qoymayıb. “Əl-haqqə” surəsinin 44-46-cı ayələrində bu məsələyə belə işarə olunur:

وَلَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ الْأَقَاوِيلِ. لَأَخَذْنَا مِنْهُ بِالْيَمِينِ.ثُمَّ لَقَطَعْنَا مِنْهُ الْوَتِينَ

-Və əgər o (göndərdiyimiz peyğəmbər), bəzi sözləri nahaqdan Bizə isnad etsəydi, şübhəsiz, onu bütün qüdrətimizlə yaxalayardıq, yaxud sağ əlini tutub əzaba

çəkərdik. Sonra da şübhəsiz, onun ürəyinin şah damarını qopardardıq.

Tam ciddiyyətlə və açıq-aydın şəkildə bunun şahidi oluruq ki, əgər göndərilən peyğəmbər camaata Allahın sözündən başqa bir söz desəydi, Allah-təala onun şah damarını qoparıb əzaba düçar edərdi. Çünki heç bir peyğəmbərin ixtiyarı yoxdur ki, Allahın sözündən başqa bir söz desin, yaxud özündən bir söz deyib Allaha isnad etmiş olsun. Qeyd olunan ayə buna dəlalət edir ki, əgər hətta peyğəmbər də insanların kamala çatmasının qarşısında maneə olmuş olsaydı, Allah-təala həmin maneəni aradan qaldırardı. Buna görə də peyğəmbərlər ilahi vəhyləri olduğu kimi insanlara çatdırmış, onları Allaha tərəf dəvət etmişlər.

Belə olduqda qarşıya bir sual çıxır: Lütf və mərhəmət qayda-qanununa əsasən, Allahın insanın qarşısına çıxan maneələri aradan qaldırması vacibdir. Bəs görəsən nə üçün cəmiyyətimizdə insanları yoldan çıxaran bu qədər fasiqlər və ya hər bir yerdə maneələr vardır? Əgər Allah-təala insanın kamilliyə çatmasının qarşısında olan bütün maneələri aradan qaldırırsa, bəs onda insanları yoldan çıxaranları nə üçün yolun üstündən götürmür? İnsan hansı tərəfə baxırsa, qarşısında maneələr görür. Məsələn, cəmiyyətimizdəki azğınlıqlar, nəfsi istəklər, cinayətkarlar, şeytan və s. kimi maneələrin şahidi oluruq. Bəs bu maneələr nə üçün aradan qaldırılmayıb?

Bu sualın cavabı belədir: -Bəli, Allah-təala insan üçün yolu açıb hamarlamış və onun qarşısında olan bütün maneələri aradan qaldırmışdır. Allah-təala insanları xəbərdar etmiş və sözlərini onlara çatdırmışdır. Əgər bir kəs Allahın buyurduqlarından xəbərsizdirsə, bu başqa məsələdir. Lakin elə bir insan yoxdur ki, Allahın sözlərini eşitməmiş və xəbərdar olmamış olsun. Əgər bir insan Allahın sözlərini eşidibsə, yolun əyri və düzlüyünü ona bildiriblərsə, ancaq

sonradan başqasının sözlərinə aldanıb yoldan çıxıbsa, bu onun öz günahıdır. Allah-təala şeytanı yaratmış və onun Adəm övladının düşməni olduğunu da bəyan etmişdir. Allah-təala şeytanın açıq-aşkar düşmən olduğunu dəfələrlə insanlara eşitdirmişdir. Əgər bir insan Allahın sözlərinə məhəl qoymayıb şeytanın ardınca gedirsə, bu onun öz günahıdır. Məsələn, ucqar bir kənd yolunda sel axıb yolu xarab edir. Həmin kəndin yolu tamamilə bağlanmış, gediş-gəliş əlaqələri də kəsilmişdir. Televiziya və radio vasitəsilə bunu camaata elan edirlər. Bir nəfər də eşidir ki, həmin kəndin yolu sel nəticəsində xarab olub. Lakin bütün bunlara məhəl qoymadan maşını sürüb həmin kəndə tərəf yola düşür. Yolda həmin təhlükə ilə üzləşdikdə bilməlidir ki, öz günahı ucbatından belə bir çətin vəziyyətə düşmüşdür.

Bu sürücü yolun bağlı olduğunu bilməsəydi belə digər sürücülərdən soruşa bilərdi. Əgər araşdırma aparsaydı, yenə də yolun vəziyyətindən xəbərdar ola bilərdi. Bu halda yolun bağlı və təhlükəli olduğu məlum olsaydı, heç şübhəsiz, yola da çıxmazdı. Təsəvvür edin ki, evdə oturduğunuz halda televizor və ya başqa bir informasiya vasitəsilə gedəcəyiniz yolun yararsız olduğundan xəbərdar olmusunuz. Amma sizə edilən bu lütfə etinasızlıq göstərib "heç nə olmaz, boş sözdür. Gəl yola çıxaq", - deyərək bilərəkdən maşına minib yola düşürsünüz. Bu halda əgər yolda hansısa bir təhlükə ilə rastlaşsanız, bilin ki, öz günahınızdır.

Allah-təala insanı hər bir şeydən xəbərdar edir. İnsana aid olan elə bir incə məsələ yoxdur ki, xəbərdar etməsin. Allah biz insanlara "şeytan sizin ən böyük düşməninizdir", - deyə xəbərdarlıq edib. Aqil adamların bundan başqa bir sözə heç bir ehtiyacı yoxdur. Əgər insanın fitrətində olan nəfs onun kamala çatmasına mane olursa, Allah insanı bundan da xəbərdar edərək nəfsinə uyub, günaha batmamağı məsləhət görür. Allah buyurub ki, Peyğəmbər(s) hər nə desə, ona

əməl edin, nədən çəkindirsə, ondan çəkinin. Peyğəmbər (s) də insanlara Allahın bütün əmrlərini çatdırıb. Həzrət(s) insanlara hansı əməllərə riayət etməyi və hansı işlərdən çəkinməyi mükəmməl şəkildə başa salmışdır. Əgər bir insan onun buyurduqlarına heç bir əhəmiyyət vermirsə, o zaman özünü qınamalıdır.

Allah-təala Qurani-Kərimdə Peyğəmbər(s) barədə insanlara belə əmr verir:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا

-Bizim Rəsulumuz sizə nə verirsə, götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin.[1]

وَلَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ الْأَقَاوِيلِ. لَأَخَذْنَا مِنْهُ بِالْيَمِينِ.ثُمَّ لَقَطَعْنَا مِنْهُ الْوَتِينَ

-Və əgər o (göndərdiyimiz peyğəmbər), bəzi sözləri nahaqdan Bizə isnad etsəydi, Şübhəsiz, onu bütün qüdrətimizlə yaxalayardıq, yaxud sağ əlini tutub əzaba çəkərdik. Sonra da şübhəsiz, onun ürəyinin şah damarını qopararardıq.[2]

وَمَا يَنطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

-O, əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (Allah tərəfindən) ona göndərilən vəhylərdir.

Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, Allahın göndərdiyi peyğəmbər heç bir vaxt özündən bir söz demir. Hər nə gətirirsə, hər nə buyurursa, Allah tərəfindən olan əmr və göstərişlərdir. Məsələn, həmin əmrlərdən biri insanların

---

[1] Həşr, 8.

[2] Əl-haqqə, 44-46.

Həzrət Əliyə(ə) itaət etməsidir ki, Allah-təala ona itaət etməyi vacib buyurmuşdur.

"Nisa" surəsinin 59-cu ayəsi nazil olarkən Həzrət Peyğəmbər(s) dərhal onu camaata oxudu:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

-Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin.[1]

Bir qrup müsəlman Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, Allaha və sənə itaət etməyi bilirik. Lakin əmr sahibləri kimlərdir ki, Allah bizə onlara itaət etməyi vacib edib?" Həzrət(s) buyurdu: "Əli və onun on bir övladı." Sonra Həzrət(s) on iki imamın adını bir-bir onlara sadaladı.

Hər kəs Peyğəmbərin(s) Əli(ə) barədə buyurduqlarını eşitdikdən sonra öz bildiyini edirsə, bu onun öz işidir. Məgər Peyğəmbər(s) Əlinin(ə) vilayət və şərafəti barədə müsəlmanları dəfələrlə agah etmədimi? Məgər Peyğəmbər(s) özündən sonra Əlini(ə) müsəlmanların rəhbəri təyin etmədimi? Məgər Peyğəmbər(s) onun barəsində bu kəlamları buyurmadımı?

حُبُّ عَلِيٍ يَأْكُلُ الذُّنُوبَ كَمَا تَأكُلُ النَّارُ الْحَطَب

-Atəş taxtanı yediyi kimi, Əlini sevmək də günahları yeyir.[2]

عُنْوَانُ صَحِيفَةِ الْمُؤمِن حُبُّ عَلِيّ ابنِ اَبِى طَالِب

[1] Nisa, 59.
[2] Mizan, 1-ci cild, səh. 252.

-Möminin əməl dəftərinin (Qiyamət günü möminin taleyini həll edəcək dəftər) başlıq və sərlövhəsi Əli ibn Əbu Talibin məhəbbətidir.[1]

يَا عَلِيّ لاَ يُحِبُّكَ اِلاّ مُؤمِن وَلا يُبْغِضُكَ اِلاّ مُنَافِق

Həzrət Peyğəmbər(s) Əliyə(ə) buyurdu: "Ya Əli, mömindən başqası səni sevməz və münafiqdən başqası səninlə düşmənçilik etməz."[2]

حُبُّ عَلِيٍّ إِيْمَانٌ وَ بُغْضُهُ كُفْرٌ

-Əlini(ə) sevmək iman, onunla düşmənçilik etmək küfrdür.[3]

عَلِيٌّ مَعَ الْحَقِّ وَ الْحَقُّ مَعَ عَلِيٍّ يَدُورُ حِيثُ مَا دَارَ

-Əli(ə) haqq islədir, haqq da Əli(ə) ilə. Əli hansı tərəfə fırlansa, haqq da onunla birgə dövrə vurar.

Yəni Həzrət Əli(ə) harada olsa, haqq da onunladır. Əli(ə) bir tərəfdə, digər bir şəxs başqa tərəfdə olduqda, mümkün deyil ki, haqq həmin şəxsin yanında olsun. Haqq mütləq Əlinin(ə) yanında olmalıdır. Çünki haqq Əlidən(ə), Əli(ə) də haqdan heç bir vaxt ayrı olmayıb.

Əmmar Yasir deyir: Günlərin birində Həzrət Peyğəmbər(s) mənə buyurdu: "Ey Əmmar, əgər camaatın hamısının bir tərəfə və təkcə Əlinin başqa bir tərəfə getdiyini görsən Əli ilə ol."

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Yenə orada.

قَالَ رَسُولُ اللهِ(ص): هَذا عَلِيٌّ مَعَ الْقُرْآنِ وَالْقُرْآنُ مَعَ عَلِيٍّ لا يَفْتَرِقا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوضِ

Həzrət Peyğəmbərin(s) ömrünün son günləri idi. Möminlərdən bir neçəsi onun hüzuruna gəldi. Həzrət Peyğəmbər(s) Əlinin(ə) əlindən tutub qaldıraraq buyurdu: "Əli Quranladır və Quran da Əli ilə. Onlar qiyamət gününə qədər bir-birindən ayrılmayacaqlar."[1]

Həzrət Peyğəmbər(s) bütün bunları insanlara çatdırmışdır. İndi hər kəs bu göstərişlərə məhəl qoymayıb öz bildiyi kimi hərəkət edərək yoldan çıxarsa, nöqsanı və günahı özündə axtarsın. Peyğəmbərin(s) Əli(ə) haqda buyurduqlarına məhəl qoymayıb öz məsləhətləri ilə hərəkət edənlər görəsən nəyə istinad etmişlər? Peyğəmbər(s) Əlini(ə) təyin etmişdir. Bəziləri isə öz məsləhətlərini Peyğəmbərin(s) buyurduqlarından üstün tutaraq işlər görmüşlər. Onların məsləhətlərini Allahın və İslamın adına yazmaq olmaz. Bu onların öz istək və nəfslərinin tələbidir, Allahın yox. Belə çıxır ki, Əlini(ə) qəbul etməyən Peyğəmbəri(s) də qəbul etmir. Əgər bir kəs Peyğəmbəri(s) qəbul edirsə, o zaman o Həzrətin(s) bütün göstərişlərinə də əməl etməlidir.

Odur ki, əgər bir insan kamilliyə çatmağın qarşısında şeytanı, nəfsi istəklərini və s. maneələri görürsə, Allah onu bütün bunlardan xəbərdar etmişdir. Allah-təala buyurmuşdur ki, şeytan sizin açıq-aşkar düşməninizdir. Maneə o vaxt ola bilər ki, Allah insanı həmin şeylər barəsində xəbərdar etməmiş olsun. Allah-təala lütf və mərhəmət göstərərək insanları xəbərdar etmiş, onların öz yollarını azmaması üçün peyğəmbərlər göndərmişdir.

---

[1] Yənabiul-məvəddə, 5-ci cild,.səh.285.

## Hədislərdə lütf və mərhəmətin qaydası

Qeyd olundu ki, lütf və mərhəmətin qaydasını insan öz ağlı ilə başa düşə bilir. Bu haqda Qurani-Kərimdən bir sıra ayələri də oxuduq. Eynilə bu mətləb barəsində müxtəlif hədislərə də rast gəlirik. Nümunə üçün bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ عَلِي(ع): وَلَمْ يُخلِ سُبحَانَه خَلقَه مِن نَبِيٍّ مُرسَلٍ اَو كِتَابٍ مُنزَلٍ اَو حُجَّةٍ اَو مُحَجَّةٍ قَائِمَةٍ رُسُلٌ لا تُقَصِّر بِهِم قَلَّةُ عَدَدِهِم وَلاكَثرةُ الْمُكَذِّبِين لَهُم.

-Allah-təala bəndələri göndərilmiş peyğəmbərlərdən, ya nazil edilmiş kitabdan, ya qəti dəlillərdən və ya möhkəm yoldan məhrum etmədi *(və peyğəmbərlər)* elə elçilər idilər ki, dostlarının azlığı və onlara qarşı çıxanların çoxluğu onları *(risalətin təbliğindən)* çəkindirmədi.[1]

Hüşam ibn Həkəm deyir: "Günlərin birində dinsiz bir şəxs İmam Sadiqin(ə) hüzuruna gəlib belə bir sual verdi: Peyğəmbərləri hansı yolla mənə sübut edə bilərsiniz?

İmam Sadiq(ə) buyurdu: Bizi yaradan bir varlığın vücuduna inanırsanmı?

Dedi: Bəli, inanıram.

Buyurdu: Bizi yaradanın hikmət sahibi və üstün bir vücud olduğunu bilirsənmi?

Dedi: Bəli, bilirəm.

---

[1] Nəhcül-bəlağə (birinci xütbədən).

Buyurdu: Bizim onunla fiziki baxımdan görüşməyimiz və danışmağımızın qeyri-mümkün olduğunu bilirsənmi?

Dedi: Bəli, başa düşürəm.

Həzrət(ə) buyurdu: Bura qədər bilirsənsə, peyğəmbərlərin göndərilməsinin zəruriliyi də sənə sübut olunacaq. Yəni belə olduqda vacibdir ki, Allahın sözlərini bəndələrinə çatdırmaq üçün elçisi olsun. Həmin elçi də Allahın göndərdiyi peyğəmbərlərdir. Peyğəmbərlər də insanlara nəyin məsləhət və xeyirli olduğunu başa salsınlar.[1] (Belə olduqda artıq insanlar öz məsləhətlərini deyil, Allahın insanlarla bağlı gördüyü məsləhətlərə əhəmiyyət verməlidirlər. Allah nəyi məsləhət görürsə, insanlar ona riayət etsinlər və özlərindən məsləhət düzəltməsinlər.)"

Hüşam ibn Həkəm deyir: "Bir gün İmam Musa ibn Cəfər(ə) mənə belə buyurdu:

يَا هُشَام اَنَّ لِلّهِ عَلَى النَّاسِ حُجَّتَين. حُجّةً ظَاهِرَةً وَ حُجَّةً بَاطِنَةً. فَأَمَّا الظَّاهِرَة فَالرُّسُول وَ الأَنبِيَاء وَ الأَئِمَّة وَ اَمّا البَاطِنَة فَالعُقُول

-Ey Hüşam, Allahın yer üzündə iki höccəti vardır, biri zahiri höccət, digəri isə batini (daxili) höccət. Zahiri höccət peyğəmbərlər və imamlardır. Batini höccət isə insanın ağlıdır.[2]

Odur ki, Allah-təala insanların hidayət olunması, onların kamilliyə çatması, yollarını azmaması və cənnətə getmələri üçün peyğəmbərlər göndərdi. Peyğəmbərlərin göndərilməsi Allahın insanlara olan xüsusi lütfü, mərhəmət və inayətidir."

---

[1] Üsuli-kafi, 6-cı cild, səh. 252.

[2] Tühəfül üqul, səh. 406.

# Peyğəmbərlərin hədəfi

Ötən bəhslərdə peyğəmbərlərin göndərilməsinin zəruriliyi barədə söhbət etdik. Həm əqli, həm də nəqli dəlillər vasitəsilə Allah-təalanın insanları hidayət etmək üçün peyğəmbərlər göndərdiyindən bəhs edildi. Bu bəhsimizdə çox yaxşı olar ki, peyğəmbərlərin məqsəd və amalından söz açaq. Bu barədə Quranda bir çox ayələr mövcuddur. Əgər bu barədə olan ayələrin hamısından söz açsaq, o zaman mövzudan çox uzaqlaşacağıq. Buna görə də həmin ayələrdən nümunə üçün yalnız bir neçəsinə müraciət edəcəyik.

## 1. Allaha pərəstişə (ibadətə) dəvət

Allah-təala "Nəhl" surəsinin 36-cı ayəsində peyğəmbərlərin hədəfi ilə bağlı belə buyurur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

-Əlbəttə, Biz hər bir ümmətin içərisindən bir peyğəmbər seçdik ki, Allaha ibadət edin və (şeytan və insan) tağut-(ların)dan uzaq olun.

Bu mübarək ayədə Allah-təala peyğəmbərlərin əsas məqsədini bəyan edir. Peyğəmbərlər ilk növbədə insanları bütpərəstlikdən və tağutpərəstlikdən uzaqlaşdırıb Allaha pərəstiş etməyə dəvət etmişlər. Burada əlavə olaraq bir mətləbə də diqqət yetirək. Qeyd olunduğu kimi, insanlarda bir sıra qeyri-iradi və fitri xüsusiyyətlər və istəklər vardır. İnsanın daxilində olan həmin xüsusiyyət və istəklərdən biri də Allaha ibadət və pərəstiş etməkdir. Məlum məsələdir ki, bu ibadət Allah üçündür. Lakin insanları Allaha tərəf yönəldən olmasa, onlar müxtəlif şeylərə ibadət edə bilərlər. Hər halda bu xüsusiyyət insanın daxilində olan fitri bir məsələdir. Yəni pərəstiş fitri bir hissdir. Məsələn, övladı

sevmək bütün insanların daxilində olan fitri bir hissdir. Məkanından və zamanından asılı olmayaraq bütün insanlar öz övladlarını sevmiş, sevir və sevəcəklər. Bu, insanın fitrətində qoyulmuş qeyri-iradi bir hissiyyatdır. Həmçinin pərəstiş və ibadət etmək də insanın daxilində olan fitri istəklərdən biridir. Övladı sevmək fitri olduğu kimi, pərəstiş etmək hissi də fitridir. İnsan özündən asılı olmayaraq nəyəsə, yaxud kiməsə pərəstiş etmək istəyir. Buna görə elə bir dövr və zaman olmayıb ki, həmin dövrün adamları nəyəsə pərəstiş etməsinlər.

Burada məsələ onların İslam dininə etiqad edən insanlar kimi tək olan Allaha və ya batil yolda olan digər insanlar kimi bütə, aya, günəşə və s. şeylərə pərəstiş etməsinin hansının düzgün olub-olmaması barəsində deyil. Məsələ bundadır ki, bütün dövr və zamanlarda yaşayan insanlarda pərəstiş etmək hissi olmuşdur. Elə bir tarixi dövr yoxdur ki, insanlar nəyinsə qarşısında pərəstiş etməsinlər. Bütün əsrlərdə və bütün ölkələrdə insanlar nəyəsə, yaxud kiməsə pərəstiş etmişlər. Bütün tarixçilər öz kitablarında yazmışlar ki, insanlar hər bir zaman nəyəsə ibadət etmişlər. Bəzən insanlar nəyə ibadət edəcəklərini itirmiş, kimin qarşısında səcdə edəcəklərini belə səhv salaraq yollarından azmışlar. Bütün bunlarla yanaşı, pərəstiş etməyin özü həmişə mövcud olmuşdur.

Tarixə nəzər saldıqda insanların müxtəlif bütlər qarşısında səcdə etdiyinin şahidi oluruq. Bəzən bir insanın qarşısında səcdə etməklə onu müqəddəs bir varlıq kimi özlərinə məbud seçmişlər. Bəziləri şahların qarşısında səcdə etməklə onlara pərəstiş etmişlər. Hətta müsəlman olmayan tarixçilər belə insanların pərəstiş etdiklərini kitablarında yazmışlar. Məsələn, Vil Dürant böyük və tanınmış tarixçilərdən biridir. O, Amerikanın ən görkəmli tarixçilərindəndir. Qustabluvon da Fransanın tanınmış tarixçilərindən biridir. Həm bu

tarixçilər, həm də  başqa tarixçilər kitablarında insanların pərəstiş etmələri barədə yazmış və bununla bağlı tədqiqatlar belə aparmışlar. Onlar deyirlər ki, insan yaradılışından bu günədək pərəstiş etmiş və bu gün də pərəstiş edirlər. Elə qəbilələr vardır ki, daşdan özləri üçün büt düzəldib və onun qarşısında səcdə edərək ibadət etmişlər. Bəzi qəbilələr daşları yona bilmədiyindən xurma ağaclarından bir heykəl düzəldərək onu özləri üçün məbud seçmiş və pərəstiş etmişlər. Bəzi tarixi mənbələrdə yazırlar ki, bir qisim insanlar da palçıqdan heykəllər düzəldib günün altında qurudaraq ona pərəstiş etmişlər. Tarixi mənbələrdə qeyd olunur ki, hətta elə azğın və murdar qəbilələr də olub ki, gili öz sidikləri ilə palçıq edib heykəl düzəltmiş və həmin heykəlin qarşısında səcdə edərək ona pərəstiş etmişlər.

İnsanın fitrətində pərəstiş etmə hissiyyatı olduğu üçün o, haqqı və düzgün yolu tapa bilmədikdə, bir şey tapıb onun qarşısında ibadət və pərəstiş edəcəkdir. Bu, insanın daxilində olan qeyri-ixtiyari bir hissiyyatdır. Müəyyən tarixi dövrlərdə bəzən pərəstiş və ibadət etməyin insanlara yasaq və qadağan edildiyinin də şahidi oluruq. Görəsən həmin dövrlərdə nə üçün insanlara pərəstiş etməni qadağan etmişlər? Cavab olaraq deyə bilərik ki, digər fitri məsələlər də belədir. Məsələn, övladı sevmək insanların fitri hissiyyatıdır və onlar həmişə öz övladlarını seviblər, indi sevirlər və gələcəkdə də sevəcəklər.

Deyə bilərlər ki, bəs nə üçün bir zamanlar, yəni cahillik dövründə insanlar öz doğma qızlarını diri-diri torpağa basdırırdılar? Hər kəsin qız övladı dünyaya gəlsəydi, özünü bədbəxt və üzüqara bir adam kimi hiss edirdi. Necə ola bilər ki, insan istədiyi və məhəbbət bəslədiyi övladını göz görə-görə torpağa basdırsın? Cahillik dövründə insanların əqidəsinə görə qız övladı olan hər bir kəs bunu özünə ayıb sayırdılar. Buna görə də  onu aparıb çöldə diri-diri

basdırırdılar. Əgər övladı sevmək fitridirsə, bəs nə üçün qız uşaqları dünyaya gələn kimi onu aparıb öldürürdülər? Bəli, övladı sevmək insanın fitrətində qoyulmuşdur. Lakin bir zamanlar insanlar nadanlıq və cahillik ucbatından fitri bir məsələni digər fitri məsələyə qurban etmişdilər. Elə başa düşürdülər ki, qız uşaqlarını diri-diri basdırmaqla öz abırlarını bərpa etmiş olacaqlar. Camaat arasında üzüqara olmamaları üçün bu cinayəti törətmişlər. Elə zamanlar olub ki, insanlar iki fitri məsələ ilə qarşı-qarşıya qaldıqda, onlardan birini daha mühüm hesab edərək digərini ona qurban vermişlər.

İnsanlar öz dinlərini, vətənlərini və övladlarını çox sevirlər. Bir qisim insanlar da vardır ki, özlərini, yaxud övladlarını öz dininin və ya vətəninin uğrunda qurban verirlər. Çünki başa düşürlər ki, dinin və vətənin şərafəti övladın şərafətindən daha üstündür. Kiçik şərafəti böyük şərafətə qurban edirlər. Eynilə fitri məsələlər də belədir. Cahillik dövründə də hər kəsin qızı dünyaya gəlsəydi, özünü bədbəxt, üzüqara və başıaşağı hiss edirdi. Buna görə də həmin xəcalətdən qurtarmaq üçün və həm də istəməyərəkdən öz qızlarını aparıb torpağa basdırardılar.

Tarixi mənbələrin birində yazılmışdır: “Bir nəfərin qızı dünyaya gəlmişdi. Qızın anası uşağı qonşuda gizlədərək, həyat yoldaşına uşağın ölü dünyaya gəldiyini söyləyir. Bu hadisənin üstündən 3-4 il keçdikdən sonra kişi evdə bir qız uşağının olduğunu görür. Bu uşağın kim olduğunu soruşduqda, qadın deyir ki, qonşunun uşağıdır. Bir müddətdən sonra kişi başa düşür ki, qadın onu aldadıb və həmin qız uşağı onun öz övladıdır. Uşağı götürüb çölə aparır və yeri qazmağa başlayır. Uşaq atasının yeri qazdığını və tərlədiyini gördükdə əli ilə onun üzündəki toz-torpağı və təri silir. Bütün bunlara baxmayaraq atası onu qazdığı yerə qoyur və gözü görə-görə torpağı da üstünə töküb evə qayıdır. Ata

qəlbində övladına olan məhəbbətə baxmayaraq, xəcalətdən qurtarmaq üçün uşağını diri-diri torpaqlar altına atır.”

Bəli, belə bir acınacaqlı vəziyyətdə İslam Peyğəmbəri(s) zühur etdi və bu pis adət-ənənənin qarşısını aldı. Allah-təala belə bir zamanda Peyğəmbərə(s) Fatiməni(s.ə) əta etdi. Hamı Peyğəmbərin(s) öz qızı ilə necə rəftar etdiyini görüb heyran qalırdı. Fatimə(s.ə) kiçik yaşlarında belə məscidə, yaxud atasının otağına daxil olarkən Həzrət(s) hörmət əlaməti olaraq ayağa qalxar, qızının üzündən, əllərindən öpər və onu öz yerində əyləşdirərdi. İslam Peyğəmbəri(s) bütün bu kimi hərəkətləri ilə insanlara başa salırdı ki, övlad qız, yaxud oğlan olmasından asılı olmayaraq müqəddəsdir.

Beləcə məlum olur ki, insanların qarşısına iki fitri məsələ çıxdıqda məcburiyyət qarşısında qalaraq birini digərinə qurban etmişlər. İbadət və pərəstiş etmək də insanın fitri məsələlərindən biridir. Əgər bir zamanlar pərəstiş etməyi qadağan etmişlərsə, bu ondan irəli gəlir ki, məcburiyyət qarşısında digər bir fitri məsələni ondan daha önəmli hesab etmışlər.

## Allaha ibadət etməyə dəvət

Pərəstiş və ibadət tarixin bütün dövrlərində olmuşdur. İnsanlar müxtəlif məbudlara ibadət etməklə məşğul olmuşlar. Allah-təala peyğəmbərləri ona görə göndərmişdir ki, insanların bu fitrətini haqq və düzgün olan yola yönəltsinlər. Yəni bütün tağutları bir kənara qoyaraq yeganə olan Allaha ibadət etsinlər. Allah-təala insanları istiqa-mətləndirmək üçün peyğəmbərləri göndərdi. Bütün peyğəmbərlərin hamısı da insanları yeganə olan Allaha tərəf dəvət etmişlər.

فَبَعَثَ مُحَمَّدًا صَلَّي اللَهُ عَلَيْهِ وَ ءَالِهِ بِالْحَقِّ لِيُخْرِجَ عِبَادَهُ مِنْ عِبَادَةِ الاوْثَانِ إِلَي عِبَادَتِهِ، وَ مِنْ طَاعَةِ الشَّيْطَانِ إِلَي طَاعَتِهِ؛ بِقُرْءَانٍ قَدْ بَيَّنَهُ وَ أَحْكَمَهُ. لِيَعْلَمَ الْعِبَادُ رَبَّهُمْ إِذْ جَهِلُوهُ، وَ لِيُقِرُّوا بِهِ إِذْ جَحَدُوهُ، وَ لِيُثْبِتُوهُ إِذْ أَنْكَرُوهُ.

Həzrət Əli(ə) İslam Peyğəmbərinin(s) məbus olması barədə belə buyurur: "Allah Məhəmmədi *(səlləllahu əleyhi və alih)* haqqa və doğruluğa seçdi ki, bəndələrini bütlərə pərəstişdən çəkindirsin və Ona ibadətə, itaətə vadar etsin. Şeytanın ardınca getməyi qadağan edərək, Ona itaətə yönəltsin. Bəndələrini nadan olduqları halda Allahlarını tanısınlar deyə, inkar etdikdən sonra Onu etiraf və inanmadıqdan sonra varlığını sübut etmələri üçün onu *(bütün üfüqlərdə)* aydın, möhkəm və güclü etdiyi Quranla göndərdi. Sonra özü görünmədən, onlara göstərdiyi güc və qüdrətilə özünü kitabında onlara aşkar etdi."[1]

Həzrət Əli(ə) xütbənin bu hissəsində incə bir məsələyə toxunaraq buyurur ki, Allah İslam Peyğəmbərini(s) insanları bütpərəstlikdən çəkindirib, Ona ibadət etməyə yönəltmək üçün göndərmişdir. Yəni Həzrət(s) insanlara pərəstiş etməyi öyrətmək üçün deyil, insanları Allaha pərəstiş etməyə yönəltmək üçün gəlmişdir. Çünki pərəstiş etmək insanların fitrətində olduğundan peyğəmbərlər onları haqqa ibadət etməyi başa salmışlar. Ümumiyyətlə, insanın fitri məsələlərinə aid olan göstərişlərdə məqsəd fitrəti düzgünlüyə yönəltmək olmuşdur. Bunu başa düşmək üçün bir misala işarə edək. Quranda və hədislərdə övlad barədə kifayət qədər

[1] Nəhcül-bəlağə. 147-ci xütbə.

bəyan olunmuşdur. Amma heç bir yerdə göstəriş verilməyib ki, övladı sevin. Çünki övladı sevmək insanın fitrətində vardır. Yəni artıq bu sevgi və məhəbbət bütün insanların daxilində olan fitri bir qabiliyyətdir. İslamda övladın qayğısına qalmaq, onun tərbiyəsi ilə məşğul olmaq, ona nəvaziş göstərmək və s. kimi məsələlərlə bağlı söhbətlər yetərincədir. Lakin bu kitab valideynə övladı sevməyi və ona məhəbbət bəsləməyi bəyan etmir. Ona görə ki, övlad dünyaya gəldikdən sonra istər-istəməz valideynin ona qarşı məhəbbəti özünü büruzə verir. İslamın ən əsas tövsiyəsi də övladadır və burada deyilir ki, övlad valideyninə məhəbbət bəsləməli, onunla mehriban və xoşrəftar olmalıdır. Quranda ayələrə diqqət yetirdikdə görürük ki, insana Allaha itaətdən sonra, valideynə qarşı mehriban olmaq və yaxşılıq etmək tövsiyə edilir. İnsanın övladına məhəbbəti də fitri məsələ olduğu üçün Allah-təala bu sevginin həddini müəyyən edir və övladı hansı dərəcədə sevməyi başa salır. Həmçinin ibadət etmək də fitri məsələ olduğundan Allah-təala peyğəmbərlərin vasitəsilə insanların bu fitrətini düzgünlüyə tərəf yönəldir. Peyğəmbərlər insanları həm bütpərəstlikdən çıxarıb, Allaha pərəstiş etməyə yönəldirlər, həm də şeytana pərəstiş etməkdən çəkindirirlər. Onlar başa salırlar ki, şeytan insanın açıq-aşkar düşmənidir.

İslam Peyğəmbəri(s)  zühur etdikdən sonra ilk növbədə qohum- əqrəbasını, sonra isə ətrafındakıları Allaha ibadət etməyə dəvət etdi.  Həzrət(s) İslam cəmiyyəti yaratdıqdan sonra bu ilahi vəzifəni digər ölkələrin padşahlarına da çatdırdı. Müxtəlif məktublar və elçilərin vasitəsilə onları yeganə olan Allaha ibadət etməyə çağırdı. Nümunə üçün həmin məktublardan birinə diqqət yetirək. Onu da vurğulamalıyam ki, o zamanlar əsas iki ən böyük padşahlıq var idi. Onlardan biri Bizans, digəri isə İran padşahlığı idi. Həzrət Peyğəmbər(s) İran padşahı Yəzdgürdə məktub

yazaraq onun yanına nümayəndə göndərdi. Elçi məktubu padşaha təqdim etdi və Yəzdgürd məktubu oxuduqdan sonra öz-özünə fikirləşdi ki, görəsən Məhəmməd(s) hansı məqsədlə məktub yazıb. O, Peyğəmbərin(s) məktubunun siyasi xarakter kəsb etdiyini düşünməyə başladı. Elə güman edirdi ki, İslam Peyğəmbəri(s) şahlığa can atır və hansısa məsələlərdə onunla razılığa gəlmək və əlaqələr yaratmaq istəyir. Sonra üzünü elçiyə tutub dedi: Peyğəmbərinizin məqsədi nədir?

Elçi üç cümlə ilə Peyğəmbərin(s) məqsədini açıqlayaraq dedi:

لِيُخْرِجَ العِبَادَ مِنْ عِبَادَةِ العِبَاد اِلَى عِبَادَةِ اللهِ، وَمِن ضِيقِ الدُّنيَا إِلَى سعَةِ الآخِرَة، وَ مِن جَورِ الأَديَان إِلى عَدلِ الإِسلام

-Onun məqsədi budur ki, Allahın bəndələrini bəndələrə ibadət etməkdən saxlayıb, Allaha ibadət etməyə və dünyanın darlığından axirətin genişliyinə, (keçmiş və təhrif olunmuş) dinlərin zülmündən İslamın ədalətinə yönəltsin.

## Cəmiyyətdə ədalətin bərpası və icrası

İnsanları Allaha ibadətə tərəf yönəltmək peyğəmbərlərin ən əsas məqsədi olmuşdur. Onların ikinci məqsəd və hədəfləri isə cəmiyyətdəki insanlar arasında ədaləti bərpa etməkdir. Elə bir ədaləti ki, hamı onu xoşlayır və bu ədalət hər bir insanın şüarıdır.Yəni elə bir insan yoxdur ki, ədalətdən xoşu gəlməsin. Lakin maddi xeyir və mənfəət əldə etmək niyyəti həmin ədaləti dərhal ayaqlar altına salır. İnsanların çox uzaq düşdüyü bu ədaləti peyğəmbərlər bərpa edib camaata göstərmək üçün gəlmişlər. Onlar öz hərəkətləri ilə insanlara uzaq düşdükləri ədalətin nə olduğunu başa

saldılar. Allah-təala “Hədid” surəsinin 25-ci ayəsində buyurur:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ

-Şübhəsiz, Biz Öz peyğəmbərlərimizi aydın dəlillərlə (məntiq və möcüzə ilə) göndərdik və onlarla birlikdə insanların (dünya həyatında) ədalət və insafa əməl etmələri üçün (səmavi) kitab və (mənaları seçmək, haqq ilə batili bir-birindən ayırd etmək və əşyaları çəkmək üçün) ölçü vasitəsi nazil etdik.

İslam Peyğəmbəri(s) ədalətin həqiqətini insanlar arasında bərpa etdi. Onun bütün hərəkətləri ədalət çərçivəsində idi, hətta camaatla söhbət edərkən hamıya eyni qaydada baxıb söhbət edərdi. Məsələn, beş-altı nəfər Peyğəmbərin(s) hüzuruna gəlib onunla söhbət edərkən Həzrət(s) onların hamısına eyni qaydada yanaşırdı. Məclis başa çatdıqdan sonra heç kim Peyğəmbərin(s) kiməsə çox, kiməsə az baxması haqda düşünmürdü. Bundan əlavə onlar bir yerdə əyləşdikdə məclisin yuxarısı və aşağısı olmasın deyə hamı dairəvi şəkildə əyləşərdi. Bu nümunələri qeyd etməkdə məqsədim odur ki, İslam Peyğəmbəri(s) hətta ən incə və xırda məsələlərdə belə ədaləti nümayiş etdirib bərpa edirdi. Həzrət Peyğəmbər(s) bu hərəkətləri ilə ədalətli insanlar tərbiyə edirdi. Həzrətin(s) tərbiyə etdiyi insanların hamısının başında isə möminlərin əmiri olan Həzrət Əli(ə) dayanırdı. Elə bir insan yoxdur ki, Həzrət Əlinin(ə) ədalətindən xəbərdar olmasın.

## Həzrət Əlinin(ə) ədaləti

Həzrət Əli(ə) elə bir şəxsiyyətdir ki, nəinki müsəlmanlar, hətta qeyri müsəlmanlar belə onun barəsində çoxlu kitablar yazmışlar. Həzrət Əli(ə) öz ədaləti ilə bəşər aləmini heyrətdə qoymuş və qoymaqdadır. Tanınmış xaçpərəst yazıçısı Corc Cordak Həzrət Əli(ə) haqqında "İnsan ədalətinin səsi" adlı bir neçə cilddən ibarət kitab yazmışdır. Yazıçı bu əsərdə Həzrət Əli(ə) barədə çox dəyərli bir ifadə işlədərək deyir: "Əlini ibadət mehrabında ədalətinin şiddətinə (çoxluğuna) görə öldürdülər."

Ədaləti özlərinə qəbul etdirə bilməyən nanəcib insanlar Həzrət Əlini(ə) namaz qılarkən zəhərli qılıncla vurub şəhid etdilər. Onlar istəyirdilər ki, hansı yolla olursa-olsun varlanıb öz həyatlarını sürsünlər. Rüşvətlə, haramçılıqla və camaatın malını mənimsəməklə öz güzəranlarını firavan keçirmək istəyirdilər. Lakin Həzrət Əli(ə) heç kəsə belə bir hərəkət etməyə imkan vermirdi. Onun fikrincə, müsəlmanların malları bərabər səviyyədə bölünməli və hər bir kəsin haqqı layiqincə verilməli idi. Burada çox yaxşı olar ki, Həzrət Əlinin(ə) ədalət və hökmlərindən bir neçə nümunəyə diqqət yetirək.

## Həzrət Əlinin(ə) qardaşı ilə rəftarı

Əqil İmam Əlinin(ə) qardaşı idi. Lakin imanı zəif bir insan idi. Harada öz xeyrini görürdüsə, o tərəfə əyilirdi. Həzrət Peyğəmbər(s) onun barəsində belə buyurmuşdu: "Əqilə həm atasına, həm də balasına görə hörmət edin." Əqilin atası həm Peyğəmbərin(s) əmisi, həm Əlinin(ə) atası Əbu Talib, oğlu isə Müslim ibn Əqil idi.

Həzrət Əlinin(ə) xilafəti dövründə bir gün Əqil qardaşının evinə qonaq gəlmişdi. Həzrət Əli(ə) oğlu Həsənə(ə)

buyurdu: Əminə öz malından bir hədiyyə ver. İmam Həsənin(ə) yaxşı bir əbası var idi. Onu gətirib əmisinin çiyninə saldı. Sonra onun üçün süfrə açdılar. Süfrədə duz-çörəkdən başqa bir şey yox idi. Əqil süfrədə olanlara baxıb dedi: Süfrə bundan ibarətdirmi? Həzrət Əli(ə) buyurdu: Bəli, məgər bunlar azdırmı? Əqil bir neçə tikə yedikdən sonra dedi: Ya Əmirəlmöminin, sənin yanına bir xahiş üçün gəlmişəm. Ağır borca düşmüşəm. Səndən xahiş edirəm ki, mənə borclarımı ödəyəcəyim qədər pul verəsən. Həzrət(ə) buyurdu: Sənin nə qədər borcun var? Əqil dedi: on min dirhəm. Həzrət(ə) buyurdu: Ayın axırına az qalıb. Bir neçə gün səbr elə, maaşımı alıb bir hissəsini sənə verərəm. Hamısını verə bilməyəcəyəm. Çünki mənim evimə də duz və çörək kimi ərzaq lazımdır. Əqil dedi: Sənin maaşın mənə kifayət etməz. Sən müsəlmanların əmirisən. Bütün müsəlmanların mal-dövləti sənin ixtiyarındadır. Beytülmalda minlərlə qızıl-gümüş var. Yaxşısı budur ki, beytülmaldan verəsən. Həzrət Əli(ə) onu başa salmaq üçün buyurdu: Axşam düşüb, qaş qaralmağına az qalır. Gözlə, dükan-bazarlar bağlansın. Hamı gedəndən sonra get bazara və dükanların birinin damını söküb oradakı pulları çıxar. Sonra həmin pulları götürüb borclarını verərsən. Əqil çox təəccüblə dedi: Ya Əli, sən mənə oğurluq təklif edirsən? Həzrət(ə) buyurdu: Mən sənə bir adamın dükanını oğurlamağı təklif edirəm, sən qəbul etmirsən. Amma sən mənə minlərlə insanın malını oğurlamağı təklif edirsən. Mən bu işi necə görə bilərəm? Camaatın haqqını kəsib sənə verməyimi istəyirsən?

Həzrət Əli(ə) sonra Əqilə dedi: sən də qılıncını götür, mən də götürüm. Yaxınlıqda bir bazar var. Ora gedib dükanların birini soyaq və pulunu sənə verim. Əqil yenə təəccüblə dedi: Ya Əli, yenə də oğurluq təklif edirsən? Həzrət Əli(ə) buyurdu: Mən sənə bir nəfərin dükanından

oğurluq etməyi təklif edirəm, sən qəbul etmirsən. Amma istəyirsən ki, mən minlərlə insanın malından oğurlayıb sənə verim? Bu qədər insanın haqqını boynuma götürümmü?

Sonra Həzrət Əli(ə) Əqili başa saldı ki, bu beytülmal mənim ixtiyarımda olmasına baxmayaraq, nə sənindir, nə də mənim. Bütün bunlar müsəlmanlarındır. Əgər paylanırsa, bərabər səviyyədə paylanmalıdır. Odur ki, heç bir kəsin haqqını kəsib digərinə vermək olmaz.

## Həzrət Əlinin(ə) qızı ilə rəftarı

Əli ibn Əbu Rafe Həzrət Əlinin(ə) mühasibi idi. İmam Əli(ə) beytül-malın açarlarını ona tapşırmışdı. Bayram günlərinin birində Həzrət Əlinin(ə) qızı Ümmi Gülsüm Əbu Rafenin yanına gəlib dedi: "Bu gün bayram günüdür. Beytülmalda olan qızıl boyunbağılardan birini bir günlüyünə mənə əmanət ver. Əgər xarab olsa, düzəldib gətirərəm. Söz verirəm ki, sabah onu beytülmala qaytaracağam. Əli ibn Əbu Rafe Ümmi Gülsümün həm Əlinin(ə) qızı olmasını, həm də onun əmanəti vaxtında qaytaracağını nəzərə alıb beytül-maldakı boyunbağılardan birini ona verdi. Axşam Həzrət Əli(ə) qızının boynundakı boyunbağını görüb soruşdu: Qızım, bu boyunbağını haradan əldə etmisən? Qız dedi: Atacan, Əbu Rafedən xahiş etdim ki, bunu bir günlüyünə mənə əmanət versin. Həzrət Əli (ə) Əbu Rafeni çağırıb boyunbağı barədə soruşdu. Əbu Rafe hadisəni olduğu kimi danışdı. Həzrət Əli(ə) buyurdu: Qızım, bu saat boyunbağını açıb Əbu Rafeyə qaytar. And olsun Allaha, əgər bunu başqa niyyətlə beytülmaldan əldə etsəydin, yaxud əmanət kimi almasaydın, sənin əlini kəsərdim. Bununla da hamı görərdi ki, (beytülmala xəyanətə görə) Bəni-Haşimdə birinci əli kəsilən şəxs Əlinin öz qızıdır."

Sonra Həzrət Əli(ə) qızının başına sığal çəkərək buyurdu: "Qızım, atan bütün müsəlmanların rəhbəridir. Onların hamısının məsuliyyəti atan Əlinin boynundadır. Məgər həmin müsəlmanların qızlarının boyunbağısı varmı? Pullu, imkanlı adamların olduğu üçün onlar boyunlarına qızıl-gümüş taxıblar. Kasıblar görsələr ki, Əlinin qızı da boynuna bahalı boyunbağı taxıb, nə deyərlər? Əgər onlar görsələr ki, sən də boynuna qızıl-gümüş taxmısan, çox narahat olarlar. Kasıbların narahat olmasına səbəb olan işləri heç bir vaxt

görmə. Qoy onlar səni olduğun kimi görüb ürəkləri rahat olsun.”

## Həzrət Əlinin(ə) Təlhə və Zübeyrlə rəftarı

Günlərin birində Təlhə və Zübeyr Həzrət Əlinin(ə) yanına şəxsi iş üçün gəlmişdilər. Həzrət Əli(ə) beytülmalı hesablamaqla məşğul idi. Salam-kəlamdan sonra Əli(ə) onların şəxsi məsələ üçün gəldiklərini başa düşdükdə, tez şamı söndürüb, özünün evdə şəxsi istifadə etdiyi şamı yandırdı. Soruşdular: Ya Əli, nə fərqi var? Həzrət(ə) buyurdu: “Bayaq yandırdığım şam beytülmalı hesablamaq üçün büdcədən alınmış və ümumi mala aid şamdır. Siz mənimlə şəxsi görüşə gəldiyiniz üçün mən özümə məxsus olan şamı yandırdım ki, beytülmaldan istifadə olunmasın.”

## Həzrət Əlinin(ə) oğru ilə rəftarı

İmam Əlinin(ə) xilafəti zamanında bir qara qulu Həzrətin(ə) hüzuruna gətirib dedilər: Ya Əli, bu qulam oğurluq edib. Həzrət Əli(ə) soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. Həzrət(ə) bir də soruşdu: Ey qulam, oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. İmam(ə) istəyirdi ki, qulam bu sözləri dili ilə təsdiq etməsin. Ona görə də bir daha buyurdu: Ey qulam, əgər bir dəfə də dilinlə təsdiq etsən, hökm verəcəyəm ki, sənin əlini kəssinlər. Oğurluq etmisən? Qulam dedi: Bəli, mənim ağam. Həzrət(ə) hökm verdi ki, onun əlini kəssinlər. Qulamın sağ əli kəsildi. O, kəsilmiş əlini sol əli ilə götürüb yarasından qan axa-axa bazara girdi. Həzrət Əlinin(ə)

düşmənlərindən biri olan İbn Kəvva qulamı bu halda görüb yaxınlaşaraq soruşdu: Sənin əlini kim kəsib belə? İbn Kəvva özü də bilirdi ki, onun əlini Əli(ə) kəsib. Bundan istifadə edərək qulamı Həzrətin(ə) əleyhinə danışdırmaq istəyirdi. İstəyirdi ki, qulam bazarda camaatın içərisində Əli(ə) barədə nalayiq sözlər desin. Qulam onun bu hiyləsini başa düşüb dedi: İbn Kəvva, doğrudan da bilmək istəyirsən ki, mənim əlimi kim kəsib? Yoxsa hansısa məqsədlə soruşursan? İstəyirsən ki, deyim mənim əlimi İmam Əli(ə) kəsib və Həzrətin(ə) əleyhinə nalayiq sözlər danışım. İmama(ə) qarşı məndən istifadə etmək istəyirsən? Buna görə də dedi: "İbn Kəvva, elə isə qulaq as, mən sənə deyim ki, əlimi kim kəsib. Mənim əlimi kəsən Məkkənin balasıdır. Mədinənin balasıdır. Allahın yer üzərində olan höccətidir. Peyğəmbərin(s) özüdür. Zəhranın həyat yoldaşıdır. Onun əli Allahın əlidir. Onun gözü Allahın gözüdür. Onun dini Allahın dinidir. O, bütün möminlərin ağasıdır. O, Peyğəmbərin(s) vəsisidir..."

Qulamın əlindən qan tökülə-tökülə Həzrət Əlinin(ə) şəninə bu sözləri dedi. Bütün aləmi sözlərilə məftun etdi. Hamı onun sözlərinə heyran qaldı:

- Mən günah bir iş görmüşəm. Əli(ə) Allahın hökmünü icra edərək əlimi kəsib. Sən istəyirsən ki, bundan istifadə edib mənim dilimlə Əliyə(ə) nalayiq sözlər dedizdirəsən? Mən bir günah etmişəm, əlimi kəsiblər. İstəyirsən ki, bir günah da edib, Allahın yer üzündəki höccətinə nalayiq sözlər deyim? Sən bunu görməyəcəksən.

İbn Kəvva qulamın bu sözlərindən pərt oldu.

Bəzi kitablarda yazırlar ki, İmam Həsən(ə) və İmam Hüseyn(ə) bazardan keçərkən əli kəslimş, lakin Həzrət Əlinin(ə) barəsində gözəl və tərifli sözlərlə çıxış edən həmin qulamı gördülər. Onlar gəlib hadisəni atalarına söylədilər və xahiş etdilər ki, heyifdir belə imanlı bir insan bu vəziyyətdə qalsın. Həzrət Əli(ə) həmin qulamı yanına çağırtdırıb

kəsilmiş əlini yerinə birləşdirdi və mübarək əlini onun üstünə çəkdi. Allahın izni ilə qulamın əli birləşib əvvəlki vəziyyətinə düşdü.

Həzrət Əlinin(ə) belə ədalətli olmasına çoxları dözə bilmirdi. Onun evinə gəldikdə görürdülər ki, süfrədə duz, çörək, su və bəzən süddən başqa heç bir şey yoxdur. Buna görə də ondan üz çevirib Müaviyənin süfrəsinə tərəf qaçırdılar. Onların bəzisi birbaşa deyərdi ki, Müaviyə, sən bilirsən ki, sənin süfrənə görə gəlmişik. Müaviyə elə bir insan idi ki, onun üçün halal-haram fərq etmirdi. Beytülmalı istədiyi kimi dağıdıb talayırdı. Müaviyə öz süfrəsinin bər-bəzəyi ilə çoxlarını aldatmağa nail olmuşdu. Lakin sırf ədalət tərəfdarları, imanı güclü insanlar heç bir vaxt bər-bəzəyə aldanmırdılar. Onlar həmişə Həzrət Əlinin(ə) kənarında olar, onun ədalətinə can-başla razı olardılar.

Odur ki, peyğəmbərlərin əsas məqsədlərindən biri insanlar arasında ədaləti bərpa edərək bunu əməli surətdə göstərmək və ədalətli insanlar yetişdirmək idi. İslam Peyğəmbəri(s) insanları elə tərbiyə etmişdi ki, əgər bir nəfər ictimai günah edirdisə, Həzrət Əlinin(ə) hüzuruna gəlib etdiyi qəbahətli əməli etiraf edər və cəzalanmasını istəyərdi.

Peyğəmbərlər həmişə çalışmışlar ki, tərbiyə etdikləri insanlar həm fərdi, həm də ictimai hallarda ədalətli olmaqla yanaşı, həm də ədaləti bərpa etsinlər. Burada olan incəliklərdən biri odur ki, ədalətli olmaqla ədaləti bərpa etməyin fərqi vardır. Mümkündür ki, bir insan şəxsən öz-özlüyündə adil və ədalətli olsun, lakin ədaləti icra və ya bərpa etməsin. Belə bir insandan hamının xoşu gələr və heç bir kəsin onunla işi olmaz. Məsələn, birisi namaz qılır, oruc tutur, yalan danışmır, günah işlər görmür, Allah yolunda əlindən gələn yaxşılıqları edir. Bir sözlə desək, öz-özlüyündə adil və ədalətli insandır. Bütün bunlarla yanaşı, ədaləti bərpa etməklə heç bir əlaqəsi yoxdur. Belə bir insandan hamının,

hətta pis insanların da xoşu gəlir. Ədalətli bir insana cəmiyyətdə hamı inanar, hətta düz yolda olmayanlar belə ona etibar edərlər. Əgər biri ona əmanət tapşırarsa, ürəyi rahat və xatircəm olar. Çünki başa düşürlər ki, ədalətli insandan heç bir vaxt ziyan gəlməz. Amma cəmiyyətdə çox insan, hətta öz dostlarının bəzisi belə o kəsin əleyhinə çıxır ki, həmin şəxs adil və ədalətli olmaqla yanaşı, həm də cəmiyyətdə ədalətin bərpasını istəyir və bu yolda Allahın istədiyi kimi hərəkət edir. Həzrət Əlinin(ə) dövründə bir çox şeyxlər və abidlər var idi ki, məscidlərdə ibadətlə məşğul idilər. Heç bir kəsin onlarla işi yox idi. Hətta Müaviyə kimi hiyləgər və cinayətkar bir insan bunu çox gözəl bilirdi. Bilirdi ki, onlar ədalətli və adil insanlardır, amma cəmiyyətdə ədalətin bərpasına cəhd göstərmirlər. Buna görə də o, oğlu Yezidə də tapşırmışdı ki, Abdullah ibn Zübeyr kimi insanlar sənə beyət etsələr, bu sənin xeyrinədir, amma beyət etməsələr, bundan sənin hakimiyyətinə heç bir ziyan gəlməyəcək. Çünki onlar gedib məscidin bir küncündə əyləşəcək və axşama qədər səcdə etməklə, ibadətlə məşğul olacaqlar. Daha onlar üçün hakimiyyətin kimin əlində olmasının heç bir fərqi yoxdur. Buna görə də onlar sənə beyət etsələr də, etməsələr də onlara toxunma.

Corc Cordakın yazdığı "Əlini ibadət mehrabında ədalətinin şiddətinə görə öldürdülər" fikri Həzrətin(ə) təkcə adil şəxs olduğuna görə deyildi. Həzrət Əli(ə) ədalətli olmaqla yanaşı, həm də ədalətin bərpaedicisi və icraçısı idi. Həzrət Əlinin(ə) bu xüsusiyyəti bir çoxlarının xoşuna gəlmirdi. Onlar istəmirdilər ki, etdikləri nahaq əməllərinə görə kimsə onlara söz desin və ya onların bu kimi əməllərinin qarşısı alınsın. Həzrət Əli(ə) onların nadürüst əməlləri qarşısında ədaləti yerinə yetirir və heç bir kəsi ədalət çərçivəsindən çıxmağa qoymazdı. Həzrət Əlinin(ə) adil olmasına heç bir kəsin şübhəsi yoxdur. Həzrət Əli(ə) elə

bir şəxsdir ki, buyurmuşdur: "Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlk edim, etmərəm."

Hamı, hətta onu öldürənlər də bilirdilər ki, Əli(ə) ədalətli bir insandır. Əlini(ə) ədalətli olduğuna görə öldürmədilər. Həzrəti(ə) ədalətin icraçısı və onun bərpaedicisi olduğuna görə ibadət mehrabında qanına qəltan etdilər. Onun ədaləti icra etməsi çoxlarının ürəyincə deyildi. Onlar istəyirdilər ki, kiməsə zülm etdikdə, kiminsə haqqını əlindən aldıqda heç bir kəs onların qarşısını kəsməsin. Lakin Həzrət Əli(ə) heç bir kəsdən çəkinmədən ədaləti icra edirdi. Qılıncı bağlayıb şəhərdə və bazarda gəzib dolaşırdı. Hər kəs ədalət çərçivəsindən kənara çıxırdısa, onu cəzalandırıb cızıqdan çıxmağa qoymazdı. Özü də buyurardı ki, Əbu Talibin oğlu Əlinin əllərinin ədalət cızığından çıxdığını görsəniz, qılıncınızı götürüb onun əllərini düzəldin.

Əli(ə) kimi həm ədalətli, həm də ədalətin bərpaedicisi olan bir kəslə eyni bir zamanda yaşamaq bir çoxlarına əlbəttə ki çətin idi. Çünki belə bir insan qızına da imkan verməzdi ki, beytülmaldan qızıl boyunbağını götürüb boynuna salsın. Belə bir insan Əqil kimilərinin qarnını doyurmaz. Onun kimi insan əgər hər bir işdə İslamın mənafeyini hər şeydən önəmli tutursa, heç bir vaxt zalımların üzünə gülməz. Heç bir vaxt hansısa bir zalıma məqam və mənsəbə yetişmək üçün razılıq verməz. Buna görə də çoxları Həzrətdən(ə) uzaq gəzirdi. Həzrətə(ə) beyət edənlərin bəzisi maddi maraq üçün beyət edirdilər. Halbuki Həzrət(ə) hamıya eyni gözlə baxırdı. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də belə buyurur: "Sizin mənimlə beyətiniz fikirləşmədən və düşüncəsiz deyildi. Mənimlə sizin işiniz bir deyil. *(Çünki)* mən sizi Allah *(dini qaydaların yayılması)* üçün, sizsə məni özünüz *(dünyanızın bəhrələrini əldə etmək)*

üçün istəyirsiniz. Ey camaat, öz nəfsinizlə mübarizədə mənə kömək edin *(nəfsi istəklərinizin ardınca getməyib, mənə itaət edin)*. Allaha and olsun, məzlumların haqqını zalımlardan almaq üçün ədalət və insafla hökm verəcəyəm. Zalımı *(dəvənin burnuna həlqə keçirib cilovunu çəkdikləri kimi)* burnunun həlqəsindən dartıb, ona meyli olmasa belə, haqqın su arxına çatdırana qədər gətirəcəyəm *(zülmkarı zəlil və xar edəcəyəm ki, zavallıların haqqını ondan alım)*."

## İnsanlar arasında hökm vermə və hakimlik

Peyğəmbərlərin ən əsas hədəflərindən biri insanları Allaha ibadət etməyə yönəltmək və insanlar arasında ədaləti bərpa və bərqərar etməkdir. Onlar bu yolda çalışmış, ilahi vəhyi insanlara çatdırmaqla yanaşı, həm sözlərində, həm də əməllərində hamıya ədalətin nə olduğunu göstərmişlər. Həmçinin onlar insanları ədalət əsasında tərbiyə edərək ədalətli insanlar kimi olmağa dəvət etmişlər. Bundan əlavə peyğəmbərlərin işi Allahın izni ilə insanlar arasında hökm vermək və hakimlik etmək olmuşdur. Yəni bir qazi kimi məhkəmə təşkil edib hökm verirdilər. Burada qeyd etmək lazımdır ki, peyğəmbərlər insanların həm əqidə və etiqadları, həm də camaatın ümumi məsələləri barədə hökm verərək və hakimlik edərək məhkəmə əsasında insanların problemlərini həll edərək öz yoluna qoyurdular. Aydın məsələdir ki, insanların problem və məsələlərinə aydınlıq gətirmək üçün təşkilat yaradılmalı idi. Çünki İslam cəmiyyəti böyüdükcə insanların sayı da çoxalırdı. Hər bir fərdin məsələsinə baxmağa Peyğəmbərin(s) vaxtı çatmırdı. İslam Peyğəmbəri(s) bu işlər üçün bir islam təşkilatı qurdu ki, ona da dini hökumət deyilir. Həzrət Peyğəmbər(s) insanlar

arasında hökm vermək və hakimlik etmək üçün bu təşkilatı Mədinədə qurub yaratdı. Həzrət Peyğəmbərdən(s) sonra da bütün xəlifələr bu yolu davam etdirdilər.

Allah-təalanın izni ilə Peyğəmbər(s) camaat arasında hökmlər verirdi. Əgər Həzrətin(s) vaxtı çatmırdısa, Allahın izni ilə bu işləri görə biləcək ədalətli hakimləri təyin edirdi. Quranda bu məsələyə dair bir neçə yerdə işarə olunmuşdur və nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək. “Maidə” surəsinin 42-ci ayəsində belə oxuyuruq:

سَمَّاعُونَ لِلْكَذِبِ أَكَّالُونَ لِلسُّحْتِ فَإِن جَآؤُوكَ فَاحْكُم بَيْنَهُم أَوْ أَعْرِضْ عَنْهُمْ وَإِن تُعْرِضْ عَنْهُمْ فَلَن يَضُرُّوكَ شَيْئًا وَإِنْ حَكَمْتَ فَاحْكُم بَيْنَهُمْ بِالْقِسْطِ إِنَّ اللّهَ يُحِبُّ الْمُقْسِطِينَ

-Onlar yalana çox qulaq asaraq onu qəbul edən və haram yeyənlərdir (onlar öz alimlərindən yalanı qəbul edirlər və alimləri camaatdan rüşvət alırlar). Buna görə də əgər sənin yanına gəlsələr, istəsən onların arasında hökm et, yaxud onlardan üz döndər. Əgər üz döndərsən, sənə əsla bir ziyan vura bilməzlər. Əgər hökm etsən, aralarında haqq-ədalətlə hökm et, çünki Allah ədalətliləri sevir.

“Bəqərə” surəsinin 188-ci ayəsində buyurulur:

وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقًا مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ

-Mallarınızı öz aranızda haqsız yerə yeməyin və camaatın mallarının bir qismini günah və haqsız yolla yemək üçün (əməlinizin haram olmasını) bilə-bilə onu (rüşvət kimi) qazılara (hakimlərə) tərəf yönəltməyin.

Allah-təala bu ayədə açıq-aydın şəkildə bildirir ki, bir-birinizin mallarınızı haqsız yerə yeməyin. Həmçinin məbada

rüşvətxorluq məhkəmələrə və hakimlərə yol tapsın. Əgər rüşvət məhkəmələrə yol tapsa, həmin cəmiyyətin evi yıxılacaq. Belə olduqda heç bir kəsə etibar, inam və əmin-amanlıq qalmayacaq. Çünki belə olduqda kimin pulu çoxdursa, aparıb hakimlərə verər və istədiyi cinayəti törədər.

"Maidə" surəsinin 48-ci ayəsində isə Allahın nazil etdiyinə əsasən hökm verməyi əmr edir. Yəni insanlar arasında hökm çıxararkən camaatın razılığını deyil, Allahın razılığını əsas tutaraq hökm etməlisiniz. Bu işdə məhz Allahın razılığı olmalıdır. Kimin xoşuna gəlsə də, gəlməsə də əsas meyar Allahın razılığı olmalıdır.

فَاحْكُم بَيْنَهُم بِمَا أَنزَلَ اللّهُ وَلاَ تَتَّبِعْ أَهْوَاءهُمْ عَمَّا جَاءكَ مِنَ الْحَقِّ

-Buna görə də onların arasında Allahın (sənə) nazil etdiyinin əsasında hökm et və heç bir vaxt sənə gəlmiş haqdan dönərək onların (nəfsi) istəklərinə tabe olma.

Hər bir kəs camaat arasında Allahın nazil etdiyinə əsasən hökm etməsə, çox pis tənqidə məruz qalacaq və aqibəti acınacaqlı olacaqdır. "Maidə" surəsinin 44-45 və 47-ci ayələrində belə buyurulur:

وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْكَافِرُونَ

-Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır kafirlər!

وَمَن لَّمْ يَحْكُم بِمَا أنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

-Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır zalımlar!

وَمَن لَّمْ يَحْكُم بِمَا أَنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ

-Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır fasiqlər!

## Qiyamət günü ərşin kölgəsində daldalananlar

Hər bir kəs camaat arasında hökm edərkən Allahın nazil etdiyinə və Onun razılığına əsasən hökm verməsə, həm kafirdir, həm zalımdır və həm də fasiqdir. Amma hər kəs camaat arasında əlində Allahın razılığını və nazil etdiyini əsas tutaraq hakimlik edərsə, bu insan qiyamət günü heç bir kölgənin olmadığı halda Allahın ərşinin kölgəsində daldalanacaq. Qiyamət elə bir gün olacaq ki, oranın istisindən beyinlər qaynayacaq. Orada artıq gördüyümüz günəşdən əsər-əlamət qalmayacaq. Qiyamətin səhnəsi çox dəhşətli bir səhnə olacaq. Orada bu dünya səhnəsindən əsər-əlamət qalmayacaqdır. Bütün insanlar həmin səhnədə hazır olacaqlar. Hamının bir-birindən qaçdığı bu qızmar səhnədə bir neçə dəstə insan Allahın ərşinin kölgəsində daldalanacaq. Burada çox yaxşı olar ki, Həzrət(s) Peyğəmbərdən bu barədə olan bir hədisə nəzər salaq:

قَالَ رَسُولُ اللهِ(ص): سَبْعَةٌ ظِلِّ عَرشِ اللَّهُ عَزَّوَجَلّ يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلُّهُ:

١ – الإِمَامٌ عَادِلٌ،

٢ – وَشَابٌّ نَشَأَ فِى عِبَادَةِ الله عَزَّوَجَلّ،

٣ – وَرَجُلٌ تَصَدَّقَ بيمينه فأَخْفَاه عَن شِمَالُهُ،

٤ – وَرَجُلٌ ذَكَرَ اللَّهَ عَزَّوَجَلّ خَالِيًا فَفَاضَتْ عَيْنَاهُ من خشية الله،

٥ – وَرَجُلٌ لقى اخاه المؤمن فقال: انى احبك فى اللهِ عَزَّوَجَلّ،

٦ – وَرَجُلٌ خرج من المسجد و فى نيته ان يرجع اليه،

٧- وَرَجُلٌ دعته امْرَأَةٌ ذَاتُ وَجَمَالٍ الى نفسها فَقَالَ إِنِّ أَخَافُ اللَّهَ رَبَّ العَالَمِين.

-Həzrət Peyğəmbər(s) buyurur: “Allahın ərşinin kölgəsindən başqa heç bir kölgə olmadığı bir gündə (qiyamət günündə) yeddi qisim insanlar Allahın ərşinin kölgəsində daldalanacaq:

1. Adil və ədalətli rəhbər (imam). (Düz hökm edən, düz hökm çıxaran hakim);

2.Cavanlıqdan Allahın ibadətilə məşğul olub, Allahın ibadətindən zövq alanlar;

3.Sağ əlinin verdiyi sədəqədən sol əlinin xəbəri olmayan kəslər (yəni heç bir kəsin xəbəri olmadan gizlicə sədəqə verən kəslər);

4.Xəlvətlikdə də ibadət edərkən Allahı zikr edib, Onun qorxusundan ağlayan kəslər;

5.Mömin qardaşıyla görüşəndə ürəyində “mən səni yalnız Allaha görə sevirəm, bu sevgiyə görə səndən heç bir təmənnam yoxdur” - deyən kəslər;

6.Məsciddən çıxarkən niyyətində “İnşallah yenə də bu məscidə gələrəm”, - deyə məscidlə əlaqəsini kəsməyənlər;

7.Qadın onu zinaya dəvət edərək (zina etmək üçün) hər bir şəraitin olduğunu görüb “mən aləmlərin rəbbi olan Allahdan qorxuram” - deyən kəslər. (Yəni Allahın qorxusundan bu işi etməyən kəslər.)”

Odur ki, hər kəs camaat arasında hakimlik etsə və onun etdiyi hakimlik ədalətli olarsa, o, qiyamət günü Allahın ərşinin kölgəsində yer alacaq. Hamı bilməlidir ki, insanlar arasında hakimlik etmək elə də asan iş deyil. Hakimlik edərkən hər iki tərəfi diqqətlə dinləməli, aralarında heç bir fərq qoymadan dindirilməli və s. incəliklərə dəqiqliklə riayət olunmalıdır.

Ömərin xilafəti zamanında bir məclis təşkil olunmuşdu. Həzrət Əli(ə) və Ömər həmin məclisdə iştirak edirdilər. Bir nəfər Ömərin yanına gəlib "Mənim Əli ibn Əbu Talibdən şikayətim var",- deyə ondan hakimlik etməsini istədi. Ömər üzünü Həzrət Əliyə tutub onu ləqəbi ilə çağıraraq dedi: "Ey Əbulhəsən, gəl, şikayətçinin yanında əyləş. Həzrət(ə) gəlib əyləşdikdən sonra hər ikisinin sözünü dinlədilər. Məsələ aydınlaşdıqdan və məhkəmə bitdikdən sonra Həzrət Əli(ə) öz yerinə qayıtdı. Ömər Əlinin(ə) üzündə narahatlıq və narazılıq əlaməti gördü. Buna görə də soruşdu: Hansısa səhvə yol verdimmi? Sənin narahatlığına səbəb olan bir hadisə baş verdimi? Həzrət(ə) buyurdu: Bəli. Sən nə üçün məni ləqəbimlə çağırdın? Nə üçün onunla mənim aramda fərq qoydun? (Məni ləqəbimlə çağırmağın ondan üstün saymağına səbəb oldu. Bu hərəkətin ədalətsizlikdir. Onu necə çağırırsansa, məni də gərək elə çağıraydın. Gərək hakimlik məsələsində tərəflər arasında heç bir fərq qoymayasan.) Ömər oradaca Həzrət Əlini(ə) qucaqlayaraq bağrına basıb alnından öpdü və dedi: Atam sənə qurban olsun. Allah bizi sizin vücudunuzla zülmətdən nura tərəf hidayət edib."[1]

Həzrət Əli (ə) Ömər müxtəlif yerlərdə düzgün hökm etmədiyi üçün onun səhvini düzəldib. Buna görə də Ömər dəfələrlə demişdir: "Əgər Əli (ə) olmasaydı, Ömər həlak olardı."

## Ədalətsiz hakimlik və nahaq (yalançı) şahidlik

[1] Fəraidüs-simteyn,1-ci cild,səh.349.

Qeyd olundu ki, insanlar arasında hakimlik etmək elə də asan iş deyil. Ədalətli hakim hər bir incə məsələdən də xəbərdar olmalı, heç vaxt nahaq yerə hökm verməməlidir. Həmçinin hər hansı bir məsələdə şahidlik edən insan məsələni olduğu kimi danışmalı və yalançı ifadə verməməlidir. Bu barədə də bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək.

Müaviyə Siffeyn müharibəsindən Şama təzəcə qayıtmışdı. Bir nəfər öz dəvəsiylə Kufədən Şama gəldi. Şamlı bir şəxs onun dəvəsinin cilovundan tutub dedi: Bu mənim dəvəmdir.

Kufəli kişi dedi: Ola bilsin səhv edirsən. Mən Kufədən yenicə bu şəhərə gəlmişəm.

Şamlı dedi: Sən nə danışırsan, bu dəvə mənimkidir. Siffeynə gedəndə onu sənə vermişdim. İndi isə geri qaytarmalısan.

Onların arasında hay-küy düşdü. Nəhayət, hər ikisini Müaviyənin yanına apardılar.

Müaviyə əhvalatı soruşduqda şamli kişi dedi: Bu kişi mənim dəvəmi alıb və indi də qaytarmır. Kufəli kişi isə “yalan danışır, dəvə özümündür”,- deyə onun sözünü rədd etdi.

Müaviyə şamlıya dedi: “Sənin şahidin varmı?”

Kişi “bəli”,- dedikdə, Müaviyə “get şahidini gətir”- dedi.

Şamlı kişinin öz yaşadığı şəhər olduğu üçün gedib əlli nəfər yalançı şahid gətirdi. Şahidlərdən biri dedi: -Bəli, dişi dəvə bu kişinindir. Hamı bir-bir bu sözü təkrar və təsdiq etdilər. Şamlı kişi dəvəni alıb apardı. Küfəli kişi bu işlərə mat-məəttəl qalmışdı. O, Müaviyəyə dedi: Bu hakimlik düzgün olmadı.

Müaviyə dedi: Nə üçün düzgün olmadı?

Kufəli kişi dedi: Çünki mənim dəvəm dişi yox, erkək idi.

Müaviyə isə öz səhvini düzəltməkdənsə belə dedi: “Mən hakimlik etdimsə qurtardı. Bu məsələ burada bitdi.”

Sonra Müaviyə həmin kufəliyə dəvənin pulunu və üstəlik bir az da əlavə pul verərək dedi: “Kufəyə getdikdə Əliyə de ki, bu yaxında erkək dəvə ilə dişi dəvəyə fərq qoymayan 100 min nəfərlik ordu ilə onun üstünə (döyüşə) gələcəyəm.”

Qiyamət günü həm ədalətsiz hakimlik edənlər, həm də yalançı şahidlik edənlərin aqibəti çox acınacaqlı olacaqdır. Nahaq hakimlik edənləri və yalançı şahidlik edənləri cəhənnəmin dərinliklərinə atıb əzaba düçar edəcəklər.

قَالَ رَسُولُ اللهِ(ص): مَن شَهِدَ شَهَادَة زُور عَلى رَجُلٍ مُسلِمٍ اَو ذِمّيٍ... عَلَّقَ بِلِسَانِهِ يَومَ القِيَامَةِ وَ هُوَ مَعَ الْمُنَافِقِينَ فِي الدَركِ الأَسفَلِ مِن النّار

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs bir müsəlmana və yaxud müsəlmanlar arasında yaşayan qeyri müsəlmana qarşı yalançı şahidlik (ifadə) edərsə, qiyamət günü həmin şəxs münafiqlərlə birgə dilindən asılacaq və cəhənnəmin dərinliklərinə vasil olacaqdır.”

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَم يَحكُم بِمَا اَنزَل الله كَانَ كَمَن شَهِدَ شَهادة زور يُقذَفُ بِهِ فِي النَّار وَ يُعَذِّب بِعَذَابِ شَاهد الزور

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs Allahın nazil etdiyinə əsaslanmadan hökm versə, o, yalançı şahid kimidir. Allah belə insanı cəhənnəm oduna atar və yalançı şahidlərə əzab verdiyi kimi əzaba düçar edər.”

## İlahi maarif və paklaşmanın yolları

Ötən bəhslərdə qeyd etdik ki, peyğəmbərlər bir neçə məqsədlə insanlar üçün göndərilmişlər. Biz artıq onların məqsədlərindən bir neçəsini vurğuladıq. Bu bəhsimizdə isə əlavə olaraq onların digər əsas bir məqsədi barədə söhbət açacağıq. Peyğəmbərlərin göndərilməsinin məqsədlərindən biri də ilahi maarifi öyrədib insanların tərbiyə və paklaşdırılması ilə məşğul olmaqdır. Paklaşdırmada məqsəd tərbiyə və paklıqdır ki, peyğəmbərlər müxtəlif yollarla insanların paklaşması ilə məşğul olmuşlar. Bu barədə müxtəlif surələrdə ayələr nazil olmuşdur ki, nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək. Allah-təala "Cümə" surəsinin 3-cü ayəsində buyurur:

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ

-Ayələrini onlara oxumaq, onları (əqidədə, əxlaqda və əməldəki çirkinliklərdən) pak etmək, onlara (səmavi) kitab, dini və əqli mərifətlər öyrətmək üçün ümmilərin (çoxusu savadsız olan camaatın) arasından özlərindən olan bir peyğəmbər seçən Odur.

Bu ayədə Allah-təala İslam Peyğəmbəri(s) barədə söhbət açır və onun insanlar üçün göndərilməsinin məqsədini bəyan edir. Qeyd olunan ayədə Allah-təala insanları çirkinlikdən paklaşdırmaq, dini və əqli maarifi onlara öyrətmək üçün peyğəmbər göndərdiyini vurğulayır. Həmçinin "Ali-İmran" surəsinin 164-cü ayəsində oxuyuruq:

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلالٍ مُّبِينٍ

-Şübhəsiz, Allah möminlərin boynuna onlara (mələklərdən və cinlərdən deyil) özlərindən Onun ayələrini onlara oxuyan, onları paklaşdıran və onlara (səmavi) kitabı, şəriət hökmlərini və əqli maarifi öyrədən bir peyğəmbər göndərən zaman haqq (minnət) qoydu. Həqiqətən, onlar bundan əvvəl açıq-aydın bir azğınlıqda idilər.

Bu ayədə də Allah-təala peyğəmbəri göndərməklə insanlara minnət və haqq qoyur. Ümumiyyətlə, Qurana nəzər saldıqda heç bir ayədə Allahın insanlara minnət qoyması məsələsi ilə rastlaşmırıq. Yalnız bircə İslam Peyğəmbərini(s) göndərməkdə insanların boynuna minnət qoyur. Bu ona işarədir ki, Həzrətin(s) göndərilməsi xüsusi bir inayətə və böyük əhəmiyyətə malikdir. İslam Peyğəmbərinin(s) göndərilməsi o qədər mühüm bir məsələdir ki, Allah-təala insanlara minnət qoyur. Yəni Allah- təala mələklərdən, yaxud cinlərdən deyil, insanların özlərinin içindən onları paklaşdırmaq, tərbiyə etmək və onlara ilahi maarifi öyrətmək üçün peyğəmbər seçdi.

Quranda bu cür ayələr çoxdur. Əsas mətləbə keçmək üçün iki ayəni xatırlatdıq. Burada qeyd etmək lazımdır ki, paklaşdırma və tərbiyə etmək təkcə İslam Peyğəmbərinin(s) deyil, bütün peyğəmbərlərin vəzifəsi olmuşdur. Bütün peyğəmbərlərin vəzifəsi Allahın risalətinin insanlara çatdırılmasından ibarətdir. Peyğəmbərlər Allahla insanlar arasında vasitəçidirlər. Allahın bütün sözlərini və göstərişlərini insanlara çatdıran məhz peyğəmbərlərdir. Nümunə üçün keçmiş peyğəmbərlər barədə olan ayələrə diqqət yetirək. “Əraf” surəsinin Həzrət Nuh Peyğəmbər(ə) barədə 59-62-ci ayələrində belə buyurulur:

لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ. قَالَ الْمَلأُ مِن قَوْمِهِ إِنَّا

لَنَرَاكَ فِي ضَلاَلٍ مُّبِينٍ. قَالَ يَا قَوْمِ لَيْسَ بِي ضَلاَلَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ. أُبَلِّغُكُمْ رِسَالاَتِ رَبِّي وَأَنصَحُ لَكُمْ وَأَعْلَمُ مِنَ اللّهِ مَا لاَ تَعْلَمُونَ.

-Həqiqətən, Biz Nuhu öz qövmünə tərəf göndərdik. O dedi: “Ey mənim qövmüm, Allaha ibadət edin ki, sizin üçün Ondan başqa bir məbud yoxdur. Şübhəsiz, mən sizin üçün böyük günün əzabından qorxuram”. Qövmünün böyükləri və başçıları dedilər: “Həqiqətən, Biz səni açıq-aşkar bir zəlalətdə görürük”. Dedi: “Ey mənim qövmüm, mən zəlalətdə deyiləm, əksinə mən aləmlərin Rəbbi tərəfindən (göndərilmiş) bir peyğəmbərəm. Rəbbimin tapşırıqlarını sizə çatdırır, sizin xeyrinizi istəyir və Allah-təala tərəfindən sizin bilmədiyiniz şeyləri bilirəm.”

“Əraf” surəsinin 65-68-ci ayələrində Hud Peyğəmbər(ə) barədə belə buyurulur:

وَإِلَى عَادٍ أَخَاهُمْ هُوداً قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ أَفَلاَ تَتَّقُونَ. قَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ وِإِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَ. قَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ. أُبَلِّغُكُمْ رِسَالاتِ رَبِّي وَأَنَاْ لَكُمْ نَاصِحٌ أَمِينٌ

-Və Ad qövmünə onların (qəbilə yaxud qan) qardaşı Hudu (göndərdik). O, dedi: “Ey mənim qövmüm, Allaha ibadət edin, sizin üçün Ondan başqa bir məbud yoxdur, məgər (Onun qəzəbindən) qorxmursunuz?” Qövmünün kafir olan böyükləri və başçıları dedilər: “Doğrudan da biz səni səfehlik və nadanlıq içərisində görürük və həqiqətən, səni yalançılardan hesab edirik.” Dedi: “Ey mənim qövmüm,

məndə heç bir səfehlik yoxdur, əksinə mən aləmlərin Rəbbi tərəfindən (göndərilmiş) bir peyğəmbərəm ki, Rəbbimin tapşırıqlarını sizə çatdırıram və mən sizin üçün inanılmış bir nəsihətçiyəm."

Bu mübarək ayədə Hud Peyğəmbər(ə) öz qövmünə başa salır ki, mən Allah tərəfindən göndərilmiş peyğəmbərəm. Allahın tapşırıqlarını sizə çatdırır və əminliklə, sadiqliklə sizə nəsihət edirəm. Yəni mənim sözlərimdə heç bir yalan, başqa bir plan yoxdur. Yalnız və yalnız Allahın buyurduqlarını deyir və sizi haqqa dəvət edirəm. Burada incə bir məqam vardır ki, nəsihət vermək və inandırmaq iki cürdür. Bir nəsihət və inandırmaq odur ki, insan öz şəxsi mənfəətinə görə yalandan və inandırıcı sözlərlə tərəf müqabilinin başını tovlayır. Məsələn, qardaşları Yusifi öldürmək qərarına gəldikdə atalarından onu özləri ilə çölə aparmağa icazə verməsini istədilər. Atalarına yalandan söylədilər ki, biz Yusifi qoruyacaq, ondan muğayat olacaq, onunla çöldə oynayacağıq. Onlar bütün bu aldadıcı nəsihətlər və yalan sözlərlə öz niyyətlərini həyata keçirmək istəyirdilər. Qarşılarına qoyduqları məqsədə də çatdılar və Yusifi quyuya atdıqdan sonra onun köynəyini də qana bulayıb atalarına apararaq dedilər ki, onu canavar yedi.

Amma Allahın peyğəmbərləri heç bir vaxt insanlara hiylə və yalançı məqsədlərlə nəsihət etmədilər. Onlar Allah tərəfindən göndərilmişlər və insanlara sidq ürəklə, təmiz niyyətlə nəsihət edərək Allaha tərəf dəvət edir və Allahın buyurduqlarını çatdırmaqla insanları maarifləndirirdilər. Qeyd olunan ayədə də Hud öz qövmünə bildirir ki, “Ey mənim qövmüm, məndə heç bir səfehlik yoxdur, əksinə mən aləmlərin Rəbbi tərəfindən (göndərilmiş) bir peyğəmbərəm ki, Rəbbimin tapşırıqlarını sizə çatdırıram və mən sizin üçün inanılmış bir nəsihətçiyəm."

Ümumiyyətlə, bütün peyğəmbərlər insanların həqiqətə çatması, onların paklaşması və ilahi mərifətə yiyələnməsi üçün əllərindən gələni əsirgəməmişlər. Həmçinin sonuncu Peyğəmbər(s) də eyni qaydada insanları Allaha tərəf yönəltmiş və Allahın buyurduqlarını onlara çatdırmışdır. "Maidə" surəsinin 99-cu ayəsində belə oxuyuruq:

مَّا عَلَى الرَّسُولِ إِلاَّ الْبَلاَغُ وَاللّهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ

-Bizim peyğəmbərimizin vəzifəsi yalnız (dinin hökmlərini) çatdırmaqdır. Allah aşkar etdiklərinizi də, gizlətdiklərinizi də bilir.

"Nur" surəsinin 54-cü ayəsində buyurulur:

قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِن تَوَلَّوا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُم مَّا حُمِّلْتُمْ وَإِن تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

-De: "(Bütün hökmlərdə) Allaha itaət edin və (işlərin ixtiyar sahibi kimi verdiyi göstərişlərdə) bu Peyğəmbərə itaət edin. Beləliklə əgər üz döndərsəniz (bilin ki,) onun borcu yalnız boynuna qoyulmuş vəzifəni (ilahi tapşırıqları) çatdırmaq, sizin borcunuz isə boynunuza qoyulmuş vəzifə(ni qəbul edərək ona əməl etmək)dir. Əgər ona itaət etsəniz, doğru yolu taparsınız. Peyğəmbərin vəzifəsi yalnız aşkar (tapşırığı) çatdırmaqdır."

Həmçinin Allah-təala Həzrət Əli(ə) barədə Peyğəmbərə(s) göstəriş verir ki, sənə nazil etdiyimi insanlara təbliğ et (çatdır). Əgər bu işi etməsən, peyğəmbərlik vəzifəni yerinə yetirməmiş olacaqsan. "Maidə" surəsinin 67-ci ayəsində bu məsələ ilə bağlı oxuyuruq:

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

-Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz.

## Peyğəmbərlik və imamət vəzifəsi

Diqqətinizə təqdim olunan mübarək ayələrdə açıq-aydın şəkildə göstərilir ki, Peyğəmbərin(s) vəzifəsi Allah tərəfindən nazil olan ayə və göstərişləri insanlara çatdırıb onların vəzifəsini aydınlaşdırmaqdır. Söhbətimiz bura qədər aydındır. Burada incə bir mətləbə də diqqət yetirməyi zəruri hesab edirəm. Həmin mətləb budur ki, keçmiş peyğəmbərlərin iki vəzifəsi olduğu kimi, İslam Peyğəmbərinin(s) də iki mühüm vəzifəsi var idi. Onlardan biri peyğəmbərlik (ilahi risaləti çatdırmaq), ikincisi isə imamət (ilahi hökmləri icra etmək) vəzifəsidir. Yəni Allah-təala peyğəmbərliklə yanaşı, imamət vəzifəsini də İslam Peyğəmbərinin(s) öhdəsinə qoymuşdu. Onlardan hər birinin də öz mənası və xüsusiyyətləri vardır. Nübüvvət odur ki, Peyğəmbər(s) Allah tərəfindən nazil olanları, Onun göstəriş və fərmanlarını insanlara çatdırsın. İmamət isə Allahın hökmlərini insanlar arasında icra etmək vəzifəsidir. İslam Peyğəmbəri(s) ilahi hökmləri camaata çatdırmaqla peyğəmbərlik vəzifəsini, hökmləri camaat arasında icra etməklə isə imamət vəzifəsini yerinə yetirirdi. İmamət məqamı Peyğəmbərin(s) xüsusi hakimiyyətidir və onu Allahın izni ilə bir vəzifə olaraq yerinə yetirirdi.

Həzrət Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra Allah-təala imamət məqamını onun öhdəsinə qoydu. İmamət odur ki, Peyğəmbər(s) cəmiyyətdə insanlara rəhbərlik etsin

və ilahi hökmləri camaat arasında yerinə yetirsin. Burada incə bir mətləbə diqqət yetirək. Allahın qanunlarından biri budur ki, insanlar arasında heç bir kəsin digərinə rəhbərlik etməsinə ixtiyarı və haqqı yoxdur. Allah-təala insanları bərabər yaratmışdır. Mütləq hakim yalnız Allahın Özüdür. Yəni hakimiyyət Allaha məxsusdur. Allah-təala bütün aləmlərə hakim olmaqla yanaşı, bu haqqı kimə verərsə, o da insanlara hakim ola bilər. Məsələn, bir nəfər öz şəxsi malından digər insana hədiyyə edir. Həmin hədiyyə artıq hədiyyə olunan şəxsə aid edilir. Əgər o da həmin hədiyyəni istədiyi kəsə vermək istəsə verə bilər. Allah-təala hakimiyyət haqqını Öz peyğəmbərlərinə vermişdir. Yəni peyğəmbər də Allahın izni ilə insanlar arasında hakimiyyətə malikdir. “Nisa” surəsinin 64-cü ayəsində buyurulur:

وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ

-Biz hər bir peyğəmbəri yalnız Allahın izni ilə itaət olunmaq üçün göndərmişdik.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, Allah-təala itaət və hakimiyyəti Peyğəmbərə(s) vermişdir və insanlar da Allahın icazəsilə ona itaət etməlidirlər. Quranda insanların Allaha itaət etdiyi kimi, Peyğəmbərə(s) də itaət etmələri barədə göstəriş verilir. Yəni Allaha və Onun Rəsuluna(s) itaət edin. Peyğəmbərin(s) sözü Allahın sözü, Peyğəmbərə(s) itaət etmək isə Allaha itaət etməkdir. Əgər Allah- təalanın icazəsi olmasa, heç bir kəsin Peyğəmbərə(s) itaət etməyə ixtiyarı yoxdur. Deməli, insanlar əgər Peyğəmbərə(s) itaət edirlərsə, Allahın icazəsi və əmrinə əsasən itaət edirlər. Buna görə də Allah-təala Peyğəmbərə(s) bu ixtiyarı vermişdir ki, insanlar ona itaət etsinlər. Həmçinin insanlara da vacib buyurmuşdur ki, Peyğəmbərin(s) hər bir sözünə itaət və əməl etsinlər. İslam Peyğəmbərinə(s) də həm bir peyğəmbər kimi

ilahi hökmləri insanlara çatdırmağı, həm də bir imam kimi həmin hökmləri camaat arasında icra etməyi göstəriş verir.

Burada qarşıya belə bir sual çıxır: Peyğəmbər(s) ilahi hökmləri insanlar arasında necə icra etməlidir? Fərdi şəkildə, yoxsa ictimai şəkildə? Məlum məsəldir ki, hökmləri icra etmək üçün İslam cəmiyyəti qurulmalı və Allahın hökmləri bu cəmiyyətdə icra olunmalıdır. Yəni İslam cəmiyyəti mükəmməl şəkildə formalaşdırıldıqdan sonra İslam hökuməti qurulmalıdır. İslam hökuməti qurulduqdan sonra isə ilahi hökmlərin yerinə yetirilməsinə başlanılır. İslam cəmiyyətinin təməli illər keçdikdən sonra Mədinə şəhərində quruldu. Peyğəmbər(s) İslamın ilk günlərində bazarlarda, küçələrdə, Məscidül-həramda, Minada, Səfa dağında, eləcə də münasib toplantılarda və s. kimi müxtəlif yerlərdə bu dini təbliğ edir və camaatı İslama dəvət edirdi. Yəni imkan daxilində fürsətdən istifadə edib Allahın buyurduqlarını camaata çatdırırdı.

Beləcə, müsəlmanlar İslam dini ilə ilk tanışlıq əldə etməyə başladılar. İslamla tanış olmaq birbaşa dini bir cəmiyyətin təşkil olunması demək deyildi. Çünki İslamın dörd əsas vücudu vardır ki, bunlardan hər hansı biri olmadıqda tamamlanmayacaq. Yəni İslamın əsasını dörd vücud təşkil edir. Yaxşı olar ki, bu məsələni qısaca izah edək. Birincisi budur ki, camaat İslamın adı ilə tanış olur. Yəni camaat İslamın adı və terminləri ilə tanış olduqda İslamın adı meydana gəldi. Məsələn, müsəlmanlar namaz, oruc, həcc, cihad, dəstəmaz, qüsl və s. kimi əməllərin adını öyrənib onlarla tanış oldular. Peyğəmbərin(s) gətirdiyi bu din sözdə vücuda gəldi.

İslamın ikinci vücudu budur ki, müsəlmanlar həmin əməllərin adları ilə tanış olduqdan sonra Peyğəmbər(s) onların mənasını izah edib açıqladı və camaat da İslamın adı, terminləri və onların mənası ilə tanış oldular. Məsələn,

namazın, orucun adını eşitdikdən sonra Peyğəmbərin(s) yanında dayanıb namaz qılmağın, oruc tutmağın və s. məsələlərin qaydasını öyrənməyə başladılar.

İslamın üçüncü vücudu şəxsiyyətlərin meydana gəlməsidir. Yəni bu dinin adını eşidib, mənası ilə tanış olduqdan sonra hökmlərini yerinə yetirdikdə İslam dinini təmsil edən şəxsiyyətlər meydana gəldi. Məsələn, Həzrət Əli, Abuzər, Miqdad və başqa səhabələr namazın adını eşidib mənası ilə tanış olduqdan sonra Peyğəmbərdən(s) necə namaz qılmağı öyrənərək namaz qılmağa başladılar. Həmçinin İslamın qüsl, dəstəmaz, oruc və s. kimi hökmlərinə də əməl etməyə başladılar. Belə olduqda İslamın üçüncü vücudu da əmələ gəldi. Yəni İslamın və dinin əməllərinin adlarını eşidib, onların mənası ilə tanış olduqdan sonra əməli surətdə həyata keçirdilər.

Nəticədə İslam dinini təmsil edən şəxsiyyətlər meydana gəldi. Artıq İslamın adını və hökmlərini öyrənmək də kifayət etmirdi. Əgər bir insan İslam dininə məxsus olan namazın, orucun və s. əməllərin adını eşidib mənasını bilirsə, həmin insana hələlik İslam şəxsiyyəti demək olmaz. Məsələn, əgər bir insan həkim sözünü eşidirsə, ona həkim demək olarmı? Kosmonavtın adını eşitməklə insan kosmonavt olurmu? Həkim və ya kosmonavt olmaq üçün həmin sahəni öyrənməli və praktiki cəhətdən mükəmməl mütəxəssis olmalısan. Həmçinin bir insan İslamın adını eşidib, mənasını başa düşüb hökmlərinə əməl edərsə, bu insana İslam şəxsiyyəti deyilir. İslamın ad və mənasını eşitməklə yanaşı, onun hökmlərinə də riayət etməklə İslam şəxsiyyəti meydana gəlir. Peyğəmbər(s) İslamın adını və mənasını başa saldıqdan sonra bir sıra insanlar onun hökmlərinə əməl etməyə başladılar. İslam şəxsiyyətlərinin sayı günü-gündən artmağa başladı. Beləliklə İslamın üç vücudu Məkkədə yarandı. Lakin dördüncü və əsas vücud hələ təşəkkül

tapmamışdı. Həzrət Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra İslam şəxsiyyətlərini ətrafına toplayıb onları bir-birnə qardaş edərək İslam təşkilatı qurdu və bir İslam cəmiyyəti yaratdı. Peyğəmbərin(s) Mədinədə yaratdığı bu cəmiyyət İslamın dördüncü vücudunu əmələ gətirdi. İslamın adı, mənası, İslam şəxsiyyətləri və İslam cəmiyyəti. İslam cəmiyyəti dinin ən mükəmməl vücudu idi ki, Mədinədə meydana gəldi. Həzrət Peyğəmbr(s) çox böyük zəhmət və əziyyətlər çəkərək, nəhayət, bu dördüncü vücudu da Mədinədə ərsəyə gətirdi. Beləliklə Həzrət Peyğəmbər(s) İslam hakimiyyəti qurub müxtəlif ölkələrə nümayəndələr göndərməklə, eləcə də hakimlik etməklə hökumət işlərini icra etməyə başladı. Peyğəmbərin(s) bu işi peyğəmbərlik deyil, imamət vəzifəsinə aid olan məsələlərdir. Ümumiy-yətlə, peyğəmbərlərə Allah- təala icazə verməmişdi ki, təşkilat yaradıb nümayəndələr göndərsin və digər hökumət işləri ilə məşğul olsunlar. Onların işi yalnız Allahın buyurduqlarını insanlara çatdırmaqla peyğəmbərlik vəzi-ələrinə əməl etməkdən ibarət idi. Lakin İslam Pey-ğəmbərinə(s) isə peyğəmbərliklə yanaşı, imamət (hökumət) vəzifəsini də tapşırmışdı. Yəni Peyğəmbər(s) Allah-təala tərəfindən nazil olanları camaata çatdırmaqla yanaşı, onların arasında ilahi hökmləri də icra etməli idi. İlahi hökmləri icra etmək üçün isə mütləq İslam cəmiyyəti qurulmalı idi. Peyğəmbər(s) də bu işin öhdəsindən layiqincə gəldi və nəzərdə tutulan təşkilatı yaratdı.

Həzrət Peyğəmbər(s) Allahın əmri ilə qurub-yaratdığı bu hökumətə şəxsən özü başçılıq edirdi. Bu ilahi vəzifənin öhdəsindən gəlmək və İslam cəmiyyətinin ərsəyə gətirilməsi üçün Həzrət Peyğəmbər(s) müsəlmanlarla çiyin-çiyinə çox əzab-əziyyətlər çəkdi, yaxınlarını itirdi, müharibələr etdi, yaralandı və işgəncələrə, təhqirlərə, tənqidlərə məruz qaldı. Bütün bu çətinliklərə baxmayaraq, nəhayət, Peyğəmbər(s)

İslam hökumətini yaratdı. Dünyadan gedərkən peyğəmbərlik vəzifəsinə son qoyuldu, lakin imamət vəzifəsini Allahın əmri ilə Həzrət Əliyə(s) tapşırdı. Heç bir vaxt ola bilməzdi ki, İslam Peyğəmbəri (s) bütün bu kimi çətinliklərlə və şəhidlərin qanı bahasına yaradılmış olan İslam hökumətini başlı-başına buraxıb dünyadan getsin. Hökumət işlərini və ilahi hökmləri insanlar arasında yerinə yetirmək üçün mütləq kiməsə tapşırmalı idi. Allahın əmr və göstərişinə əsasən, həmin işləri öhdəsinə götürə bilən ən ləyaqətli şəxsiyyət Həzrət Əli(ə) idi. Həzrət Peyğəmbər(s) dünyadan gedərkən nübüvvət məqamı xətm olundu. Lakin imamət məqamını Əliyə(ə) tapşırdı. Bütün müsəlmanlara da elan etdi ki, məndən sonra Əlini(ə) sizin aranızda imam təyin edirəm. Allah "Maidə" surəsinin 55-ci ayəsində buyurur:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

-Həqiqətən, sizin başçınız və işlərinizin ağası yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir. (Hər iki məzhəb tərəfindən nəql edilmiş rəvayətlərə əsasən, cəm halda buyurulan bu ayənin yeganə nümunəsi Əli əleyhissalam və onun rüku halında üzük bağışlamasıdır.)

Bəziləri sual verirlər ki, nə üçün Allah-təala Həzrət Əlinin(ə) adını Quranda çəkməyib və onun imamətini açıq şəkildə bəyan etməyib? Cavab belədir ki, Allah-təala Həzrət Əlinin(ə) adını Quranda birbaşa çəkməməsinə baxmayaraq, ayənin onun barəsində nazil olduğu açıq- aydındır. Burada şərt deyil ki, məhz adı çəkilməlidir. Qeyd etdiyimiz ayədə yer kürəsində Əlidən(s) başqa rüku halında üzüyünü zəkat olaraq yoxsul bir adama verən ikinci bir şəxs yoxdur. Bunu daha aydın başa düşmək üçün bir misalı nəzərinizə

çatdırıram. Məsələn, məscidə daxil olmaq istəyən bir kəs məsciddən çıxandan soruşur: Məsciddə camaat namazında iştirak etmək istəyirəm. İçəridə adam çoxdurmu? Deyir: Bəli. Soruşur: Orada pişnamaz kimdir? Mən kimə iqtida edib namazımı qılım? Həmin şəxs deyir: Orada başında qara əmmaməli bir alim var. Sən ona iqtida edə bilərsən. Çünki məscidin imam camaatı da elə odur. Həmin şəxs məscidə girdikdə görür ki, həqiqətən başında qara əmmamə olan bircə nəfər var. Digərlərinin başında isə qara əmmamə yoxdur. Burada həmin şəxs üçün daha heç bir şübhə yeri qalmır. Əgər məsciddə başında qara əmmaməsi olan üç nəfər olsaydı, şübhə etmək olardı. Lakin qara əmmaməli bir nəfər olduğu üçün heç bir şübhənin də yeri yoxdur.

Allah-təala Quranda bizə açıq-aydın şəkildə buyurur ki, həqiqətən, sizin başçınız və işlərinizin ağası yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir. Firqəsindən asılı olmayaraq bütün mənbələrdə yazılır ki, rüku halında Əlidən başqa zəkat verən olmayıb. Hamı yekdilliklə təsdiq edir ki, yalnız Əli(ə) namazda rüku halında üzüyünü zəkat vermişdir.

Bu qədər açıq-aydın olan bir məsələdə daha heç bir şübhəyə də yer yoxdur. Allah-təala Həzrət Əlini(ə) müsəlmanlara rəhbər təyin edirsə və bunu inkar etsələr də, etməsələr də o, Allahın yer üzündə höccəti, insanların rəhbəri və Peyğəmbərin(s) canişinidir. İndi əgər bir nəfər desə ki, düzdür, Allah-təala bu ayədə Həzrət Əlini(ə) rəhbər təyin etmişdir, amma... Burada “amma”lara heç bir ehtiyac yoxdur və bunlar ancaq bəhanələrdir. Çünki Allah-təala Həzrət Əlini(ə) hər hansı bir “amma”larsız bu müqəddəs vəzifəyə təyin edib. Hər kəs burada şəkk-şübhəyə yol verirsə, yaxud lazımsız sözlər işlədərək “amma”lara əl atırsa, deməli bütün bunlar əsassız və yersiz söhbətlərdir.

Qeyd etdiyimiz misaldakı kimi, məscidə daxil olan şəxs məsciddən çıxandan orada namazı kimə iqtida edib qıla bilərəm? – deyə soruşur. Cavabında isə ona deyirlər ki, orada adam çoxdur, yalnız bircə qara əmmaməli şəxs var və sən ona iqtida edə bilərsən. O, məscidə daxil olduqda həqiqətən də bircə nəfərin qara əmmaməli olduğunu görür. Öz- özünə deyir: Düzdür, mənə dedilər ki, yalnız qara əmmaməli şəxsə iqtida edə bilərsən. Bəli, buranın imam camaatı odur, amma... Burada “amma”nın əsla heç yeri yoxdur. Çünki nöqtəsi qoyulmuş, möhürü vurulmuş məsələlərə “amma”nı əlavə etmək nəfsin istəkləri, şeytanın hiyləsi və başqa-başqa söhbətlərdir.

Odur ki, Peyğəmbərin(s) öhdəsində iki vəzifəsi var idi. Biri Peyğəmbər(s) olaraq Allahın hökmlərini camaata çatdırmaq, digəri isə imam olaraq həmin hökmləri camaat arasında yerinə yetirməkdir. Dünyadan gedərkən isə nübüvvəti özü ilə aparıb, imaməti Həzrət Əliyə(ə) tapşırdı. Peyğəmbərdən(s) sonra yaranmış ixtilaf da məhz bu imamət məqamı ilə bağlı idi. Əgər təkcə hökmləri camaata demək, Allahın sözlərini söyləmək məsələsi olsaydı, burada heç bir ixtilaf baş verməzdi. Əgər Peyğəmbərdən(s) sonra əhkam söyləmə məsələsi olsaydı və hakimiyyət məsələsi olmasaydı, heç bir kəsin davası düşməyəcəkdi. Əgər İmam Hüseynin(ə) təkcə şəriət hökmlərini camaata öyrətmək məsələsi olsaydı, Yezidin onunla nə ixtilafı olacaqdı? İmam Hüseyn(ə) sübh namazının iki rükət olduğunu söyləyirdisə, Yezid də bilirdi ki, sübh namazı iki rükətdir. Şəriət məsələlərini söyləmək və öyrətmək qadağan deyildi. Ən əsas ixtilaf və münaqişə məhz imamət və hakimiyyət məsələsinə görə yarandı.

Peyğəmbər(s) ümmətinə Həzrət Əlini(ə) və onun on bir övladını təyin edib dünyadan getdi. Bəziləri bu hakimiyyətin onlara nəsib olmadığını gördükdə müxtəlif hiylələrlə camaatı aldada bildilər. Gördülər ki, əgər Peyğəmbərin(s) qoyduğu

bu hakimiyyətə Əli(ə) başçılıq edərsə, onların əlləri bir yerə çatmayacaq. Buna görə də fürsətdən istifadə edib hakimiyyəti əllərinə keçirdilər və müsəlmanlar arasında ixtilaflar saldılar.

Beləliklə, Allah-təala İslam Peyğəmbərini(s) insanların paklaşması və tərbiyə olunması üçün göndərdi. İnsanları paklaşdırmaq üçün isə mütləq İslam cəmiyyəti yaradılmalı və həmin cəmiyyət də tərbiyə olunmalı idi. Həzrət Peyğəmbər(s) bu işin öhdəsindən gəldi. Amma insanların paklaşdırılması üçün təkcə Allahın buyurduqlarını söyləməklə istənilən nəticəni əldə etmək mümkün olmayacaqdı. Çünki Allahın hökmlərini camaata söylədikdə biri qəbul edəcək, digəri isə müxalifətçilik edəcəkdi. Belə olduqda insanları paklaşdırmaq mümkün olmayacaqdı. Nuh Peyğəmbər(ə) doqquz yüz əlli il qövmünü Allaha tərəf dəvət etdi, Allahın hökmlərini onlara çatdırdı, lakin onlar Nuhun(ə) sözlərini eşitməmək üçün qulaqlarına pambıq tıxadılar. Bu doqquz yüz əlli il ərzində cəmi səksən nəfər ona iman gətirdi. Hesab etdikdə görürük ki, Nuhun(ə) qövmündən təxminən on iki ilə bir nəfər iman gətirmişdi.

Odur ki, əgər Peyğəmbər(s) insanların paklaşması və tərbiyəsi ilə məşğul olmaq istəyirdisə, deməli bunun üçün müvafiq şərait də hazırlanmalıydı. Həmin şəraiti yaratmağın birinci şərti isə İslam cəmiyyətini bərqərar etməkdir. Yalnız belə olduqda insanları tərbiyə etmək və paklaşdırmaq mümkün olardı.

## İnsanların paklaşdırılması Peyğəmbərin(s) əsas işlərindəndir

Aydın oldu ki, peyğəmbərlər Allah-təala tərəfindən bir neçə məqsədlə göndərilmişlər. Peyğəmbərlərin gəlişinin məqsədini Allah-təala Quranda bizim üçün çox dəqiq və açıq-aydın şəkildə bəyan etmişdir. Ötən bəhslərdə onlardan bir neçəsi barədə müəyyən qədər söhbət etdik. Bütün peyğəmbərlərin, xüsusilə İslam Peyğəmbərinin(s) məqsəd və hədəflərindən dördüncüsü insanların paklaşması və onların tərbiyəsi ilə məşğul olmaqdır. Peyğəmbərlər insanları murdarçılıqlardan, çirkinliklərdən, çirkablardan və günahlardan təmizləyərək, onları paklığa və nuraniyyətə çıxarmaq üçün gəlmişlər. Bu mətləb barədə olan ayələrdən bir neçəsini nəzərinizə çatdırdım. İnsanların paklaşması ilə məşğul olmaq Peyğəmbərin(s) ən əsas işlərindən biri idi. Allah “Bəqərə” surəsinin 151-ci ayəsində Peyğəmbərin(s) əsas işlərindən biri olan paklaşma barədə belə buyurur:

كَمَا أَرْسَلْنَا فِيكُمْ رَسُولاً مِّنكُمْ يَتْلُو عَلَيْكُمْ آيَاتِنَا وَيُزَكِّيكُمْ وَيُعَلِّمُكُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُعَلِّمُكُم مَّا لَمْ تَكُونُواْ تَعْلَمُونَ

-Sizin aranızda (mələk və cinlərdən deyil) özünüzdən (cins və dili sizinlə bir olan), sizə daim Bizim (tövhid) nişanə və ayələrimizi oxuyan, sizi(n ruhunuzu) paklaşdıran, inkişaf etdirən, sizə (səma) kitabı(nı) və hikməti (şəriət hökmlərini və əqli maarifi), eləcə də əvvəllər bilmədiyiniz şeyləri öyrədən (insanı) peyğəmbər göndərdiyimiz kimi (nemətdir).

Allah-təala insanları yaradarkən onlara təmiz və pak ruh vermişdir. İnsan dünyaya gəldikdən sonra öz çirkin əməlləri və günahları sayəsində həmin ruhu çirkləndirmişdir. Peyğəmbərlərin gəlişində məqsəd də məhz insanları bütün bu kimi günahlar çirkabından çıxarıb tərtəmiz və pak edərək öz əvvəlki vəziyyətinə qaytarmağa səy göstərmək olmuşdur.

Hədis və rəvayətlərdə qeyd olunmuşdur ki, bir nəfər Musa Peyğəmbərin(ə) hüzuruna gəlib ərz etdi: Ya Musa, comərdlik nədir? Mən bu sözü camaat arasında tez-tez eşidirəm, amma mənasını dərk edə bilmirəm. Xahiş edərdim ki, comərdliyin mənasını mənim üçün açıqlayasan. Həzrət Musa(ə) comərdliyin (fütuvvət) mənasını Allah-təaladan soruşdu. Allah-təala onun cavabında buyurdu: "Mən səni yaradarkən bir ruh vermişəm. O ruhu sənə verəndə pak, təmiz və şəffaf idi. Bir gün sən o ruhu Mənə qaytaracaqsan. Fütuvvət odur ki, həmin ruhu Məndən aldığın kimi Özümə qaytarasan. Əgər onu mənə təmiz və pak halda qaytara bilsən, comərd adamsan."

Odur ki, hər bir kəs Allahın ona verdiyi tərtəmiz, pak ruhu olduğu kimi qaytara bilsə, həmin şəxsə comərd insan deyilir. Belə bir şəxs şərafətli, nəcib, pak, sözü və əməli təmiz insandır. Peyğəmbərlər ona görə gəlmişlər ki, bizi yaradılan gün pak olduğumuz vəziyyətə qaytarsınlar. Sual oluna bilər ki, Allahın bizə bəxş etdiyi bu ruh hansı səbəbə görə murdarlanır və çirklənir. Cavab belədir ki, hər bir günah insanın ruhunu qaraldıb çirkləndirir. Ardıcıl və mütəmadi olaraq baş verən günahlar insanın ruhunu bütünlüklə bürüyub onu bədbəxtliyə sürükləyir.

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إِلا فِي قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِي النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السَّوادُ وَ إِنْ تَمَادَى فِي الذُّنُوبِ زَادَ ذَالِكَ السَّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطَّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

-Həzrət İmam Baqir(ə) bu ayənin təfsirində buyurur: "Hər insanın qəlbində ağ bir nöqtə vardır. İnsan günah etdikdə orada qara bir nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə (günah) pozular. Əgər günaha davam edərsə, həmin qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və qəlb tamamilə qaralar. Qəlbin ağlığı aradan qalxdıqdan və tamamilə qaraldıqdan sonra həmin qəlb sahibi bir daha xeyirə və səadətə çatmaz." Bu, Allahın sözüdür: "Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür."[1]

Günahlar insanı murdarlayıb çirkinləşdirir. Günah elə bir şeydir ki, insanın ruhunu qaraldıb onu bədbəxt edir. Peyğəmbərlər gəlmişlər ki, insanların ləkələyib çirkləndirdikləri həmin pak və təmiz ruhu əvvəlki vəziyyətinə qaytarsınlar. Bu prosesi biz paklaşdırma adlandırırıq. Hər bir kəs özünü günahlardan təmizləyib, ruhunu saflaşdırsa, o, nicat tapacaq. Hər kəs ruhunu günahlar çirkabına aludə etsə, o, bədbəxt olacaq. "Şəms" surəsinə diqqət yetirdikdə görürük ki, Allah-təala on bir dəfə and içdikdən sonra bu mühüm məsələyə toxunur. Allah-təala and içməklə həm bizim mədəniyyətimizi nəzərə alır, həm də məsələnin çox mühüm olduğuna işarə edir. Yəni insanlar öz aralarında bir məsələnin mühüm olduğu üçün tərəf müqabilini inandırmaqdan ötrü and içirlər. Bu andiçmə insanların mədəniyyətidir ki, Allah-təala onlarla öz mədəniyyətlərinə uyğun söhbət edir. Bəzi surələrdə bir and içdikdən sonra əsas mətləb bəyan edilir. Bəzi surələrdə iki, bəzi surələrdə üç, bəzi surələrdə isə on bir dəfə and içdikdən sonra əsas məsələ insanların qarşısına qoyulur. Bu mübarək

[1] Kafi, 3-cü cild, səh. 375.

surənin üstünlüklərindən biri odur ki, Allah-təala on bir dəfə and içdikdən sonra həmin mühüm məsələni bəyan edir.

بِسمِ اللهِ الرّحمنِ الرَّحِيم. وَالشَّمْسِ وَضُحَاهَا. وَالْقَمَرِ إِذَا تَلَاهَا. وَالنَّهَارِ إِذَا جَلَّاهَا. وَاللَّيْلِ إِذَا يَغْشَاهَا. وَالسَّمَاء وَمَا بَنَاهَا. وَالْأَرْضِ وَمَا طَحَاهَا. وَنَفْسٍ وَمَا سَوَّاهَا. فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا. قَدْ أَفْلَحَ مَن زَكَّاهَا. وَقَدْ خَابَ مَن دَسَّاهَا

-Bağışlayan və mehriban Allahın adı ilə. And olsun günəşə və onun şüasının vüsətinə. And olsun (günəşin) ardınca çıxmaqda olan aya. And olsun yeri işıqlı, havanı nurlu və günəşi görünən edən zaman gündüzə. And olsun günəşi örtməkdə, üfüqləri və havanı qaranlıq etməkdə olan gecəyə. And olsun göyə və onu bina edən (O qüdrətli varlığa, vücuda), And olsun bu yerə və onu döşəyənə (O qüdrət sahibinə). Və and olsun (insanın) nəfs(sin)ə və ona doğru – düzgün biçim verənə. (Bədən üzvlərini bir-birinə mütənasib və xüsusiyyətlərini isə həm bədən, həm də xarici mühitlə uyğun yaradana). Sonra da günahlarını və təqvalı olmağını ona ilham etmiş və onu iş görməyə qadir etmişdir. Nəfsini (etiqad və əxlaq kamallarında) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs şübhəsiz nicat tapmışdır! Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır!

Ruhun təmizliyi və paklığı insan üçün o qədər əhəmiyyətlidir ki, Allah-təala on bir dəfə and içdikdən sonra bu məsələni açıqlayır. Adəmdən(ə) tutmuş Xatəmə(s) qədər bütün peyğəmbərləri insanların ruhunu paklaşdırmaq üçün göndərmişdir. Peyğəmbərlər insanlara maşın düzəltməyi, digər texnologiyaların yolunu öyrətməyə deyil, onların

ruhlarını təmizləmək üçün gəlmişlər. Allah-təala insanlara ağıl vermiş, bu ağlın vasitəsilə illər keçdikcə elmi inkişaflar sayəsində dünya həyatında lazım olan vasitələri özü əldə edə bilir. Allah-təala insanın ağlını elə yaratmışdır ki, insanlar ondan səmərəli istifadə edərək müxtəlif vasitələr düzəldə və kosmosa səyahət edə bilərlər. Lakin ruhun təmizlənməsi üçün mütləq və mütləq peyğəmbər lazımdır. Ruhun təmiz və paklaşma yollarını insana öyrədən və başa salan yenə də Allahın peyğəmbərləridir. Cəmiyyətdə ən çətin və ağır iş insanın ruhunun təmizliyidir ki, bu ağır vəzifə yalnız peyğəmbərlərin öhdəsinə düşmüşdür. Hər kəs ruhunun təmizlənməsini, paklaşmasını istəyirsə, gərək peyğəmbərlərlə həmkarlıq etsin. Peyğəmbərlər pak olmağın yolunu insanlara öyrədir və onları başa salırlar. İnsanlar da gərək həmin göstərişlərə əməl edib paklaşsınlar. Nəfsin paklaşması və yolları barədə Peyğəmbər(s) və imamlarımızdan çoxlu hədis və rəvayətlər nəql olunmuşdur. Nümunə üçün onlardan bir neçəsini nəzərinizə çatdırıram:

قَالَ رَسُولُ اللهِ(ص): بِتَزكِيَةِ النَّفس يَحصُل الصَّفَاء

-Həzrət Peyğəmbər(s) buyurur: "(Qəlbin) səfa(sı) nəfsin paklaşması ilə hasil olur.[1]

كَانَ رَسُولُ اللهِ(ص) اِذَا قَرَأَ هَذِهِ الآيَة (قَدْ أَفْلَحَ مَن زَكَّاهَا) وَقَفَ ثُمَّ قَالَ: اَللّهُمَّ آتِ نَفسِى تَقوَاهَا, وَلِيُّهَا وَ مَولاهَا وَ زَكِّها اَنتَ خَيرُ مَن زَكَّاهَا

-Həzrət Peyğəmbər(s) həmişə bu ayəni "Nəfsini təkamülə çatdıran və onu təmizləyən kəs, şübhəsiz, nicat tapmışdır!"

---

[1] Mizanül-hikmə, 5-ci cild, səh. 2198.

oxuyarkən dayanıb belə dua edərdi: "İlahi, mənim nəfsimə təqva inayət et, nəfsimi pak elə! İlahi, mənim nəfsimin ağası Sənsən, nəfsimi təmizlə. Çünki ən gözəl paklaşdıran Sənsən."

# NƏFSİ VƏ RUHU PAKLAŞDIRAN AMİLLƏR

Bura qədər bizə aydın oldu ki, peyğəmbərlər insanların paklaşdırılması üçün gəlmişlər. Sual oluna bilər ki, onlar insanın ruhunu və nəfsini hansı yollarla paklaşdırmağa çalışmışlar? Bir sözlə desək, insan nəfsini hansı amillərlə təmizləyə bilər? Peyğəmbərlərin öyrətdiyi hansı yollarla insan özünü günahdan və çirkabdan təmizliyə çıxara bilər? İnsanın təqvasının çoxalmasının və paklaşmasının müəyyən səbəbləri və amilləri vardır. Həmçinin bir sıra əməllər də vardır ki, insanın təqvasının azalmasına səbəb olur və paklaşmanın qarşısını alır. Yəni bəzi əməllər insanın paklaşmasına səbəb olur, bəzi əməllər də bu işə maneə yaradır. Bu bəhsimizdə çox yaxşı olar ki, hər iki amil barədə söz açaq və hərəsindən bir neçə nümunə öyrənək. İlk növbədə insanın paklaşmasına səbəb olan amillərin bir neçəsi ilə tanış olaq.

## 1.Mərifət

Nəfsin və ruhun paklaşmasına səbəb olan ən birinci amil mərifət və Allahı tanımaqdır. Nə qədər ki, insan Allahı tanımayıb, heç bir vaxt həmin şəxsin qəlbində nuraniyyət yaranmayacaq.

قَالَ عَلِيّ(ع): اَلْمَعرِفَةُ نُورُ القْلَب

-Həzrət Əli(ə) buyurur: "Mərifət (Allahı tanımaq) qəlbin nurudur."

قَالَ رَسُولَ اللهِ(ص): ضِيَاءُ القُلُوب فِى الْمَعرِفَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəlblərin ziyası (işığı) mərifətdədir. (Allahı tanımaqdadır)"

Mərifət odur ki, insan Allahı tanıyıb Ona iman gətirsin. İman gətirdikdən sonra yaradanın qarşısında öhdəsinə düşən vəzifəsini düzgün şəkildə öyrənsin. Əgər bir insan yaradanı tanıdıqdan sonra həm fərdi, həm ictimai, həm də ilahi vəzifəsini olduğu kimi öyrənib əməl edərsə, o, mərifət tapacaq. İnsan mərifət tapdıqda Allahın həmişə onun başı üzərində nəzarətçi olduğunu hiss edəcəkdir. İnsan mərifət tapdıqdan sonra başa düşəcək ki, Allah ona yaxındır, onun bütün əməllərini görür, ürəyindən keçənləri bilir və həmişə nəzarət altındadır. Mərifətli insanlar heç bir vaxt özlərini tək hiss etmirlər. Başa düşürlər ki, xəlvətdə də, aşkarda da Allahın hüzurundadırlar. Əgər bir insan başa düşsə ki, harada olduğundan asılı olmayaraq Allah ona nəzarət edir, heç bir vaxt günah etməz. Necə ola bilir ki, insan kiçik bir uşağın qarşısında günah etmir. Necə ola bilir ki, insan yaşlı və əldən düşmüş bir qocanın qarşısında günah etməkdən utanır. Belə isə bəs nə üçün Allahın ona daim nəzarət etdiyini bildiyi halda günah işlədir? Əgər insan günah edirsə unutqanlığına görə, Allahı tanımadığına görə günah edir. Allahı tanıyan və Onu həmişə nəzarətçi bilən kəs heç bir vaxt günah işlətməz.

Həzrət Peyğəmbərin(s) Abuzərə müxtəlif vəsiyyət və tövsiyələri də olmuşdur. Həmin tövsiyələrdən biri belədir:

قَالَ رَسُولَ اللهِ(ص): أُعْبُدُاللهَ كَأَنَّكَ تَرَاهُ فَإِنْ لَمْ تَراهُ فَإِنَّهُ يَراكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allaha elə ibadət et ki, elə bil Onu görürsən. Əgər sən Onu görmürsənsə (bil ki,) O, səni görür."

Bəzi alimlərin həyatlarında müşahidə etmişəm ki, sübh namazını qılmaq üçün qalxanda yatdığı paltarlarla namaz qılmazdılar. Onlar əyinlərinə tərtəmiz paltarlar geyinib ətirlənər, özlərini hazırladıqdan sonra namaza başlayardılar. Çünki onlar kimin qarşısında dayandıqlarını dərk etmişlər.

Xanım Zeynəb(s.ə) buyurur: "Gecə yarısı gördüm ki, İmam Səccad(ə) yuxudan ayılıb, əmmaməsini düzəldir, paltarlarını səliqəyə salır və harasa gedən insanlar kimi hazırlıq işləri görürdü. Soruşdum: Gecənin bu aləmində hara gedirsən? Həzrət(ə) buyurdu: Bibican, özümü Allahın ibadətinə hazırlayıram."

Bu çox yaxşıdır ki, insan namaza hazırlaşarkən təzə və təmiz paltarlarını geyinsin və özünə ətir vursun. Namaza hazırlaşarkən özünü bütün fikirlərdən azad etsin. Özünü Allah-təalanın hüzurunda dayanmaq üçün tam hazır vəziyyətə gətirsin. İnsan namaz qılarkən qəşəng, fikri dağınıq olmadan və təmiz qılmalıdır. Hədislərdə nəql olunur ki, qiyamət günü insan iki rükət Allah bəyəndiyi namazı gətirə bilsə, Allah onu bağışlayar. Bu sözün mənası belə deyil ki, insan cəmi ömründə iki rükət namaz qılmalıdır. Xeyr, vacib namazlar öz yerində, mütləq qılınmalıdır. İnsanın bütün namazlarının içində iki rükət Allahın bəyəndiyi namaz olmuş olsa, Allah həmin şəxsi bağışlayacaq. Əgər insan Həzrət Əli (ə) kimi namazın təkbirini (Allahu Əkbər) dedikdən sonra, yalnız Allahı düşünüb, fikrini bu dünyadan çəksə, bilsə ki, Allah hər zaman onu görür, onda dünyanın hər bir çətinliyi onun üçün asan olar.

Odur ki, əgər insan başa düşüb Allahın onunla olduğunu dərk etsə, onu gördüyünü və ona nəzarət etdiyini bilsə, onun üçün dünyada heç bir problem olmaz. Dünyanın bütün çətinliklərini asan qəbul edər və bütün acıları şirin bal kimi dadar. Məsələn, təsəvvür edin ki, evdə oturduğunuz və heç bir kimlə işiniz olmadığı halda kimsə hər gün zəng edərək sizi söyür, təhqiramiz sözlərlə narahatlığınıza səbəb olur. Bu vəziyyət günlərlə davam edir. Nəhayət, siz bu cür əziyyətə dözməyib, məsul orqanlara müraciət edirsiniz. Onlar isə sizdən həmin şəxsin zəng etdiyi vaxtı səsini yazıb

gətirməyinizi istəyirlər. Yalnız bu cür sübut olunduğu zaman onun şikayətinə baxacaqlarını bildirirlər. Həmin vaxt sizin əsas nigarançılığınız o olar ki, birdən həmin şəxs bir daha zəng etməsə, o zaman onun sözünə inanan, yaxud şikayətinə baxan olmayacaq. Buna görə də siz həmin şəxsin zəngini səbirsizliklə gözləyirsiniz ki, söyüş söydüyü vaxt onun səsini yazaraq lazımi orqanlara verəsiniz. İstəyirsiniz ki, həmin şəxs zəng edərək daha çox söyüşlər söysün. Sizin indiki narahatlığınız onun zəng etməməsi və ya zəng etsə də tutarlı söyüşlər söyməməsidir. Əgər belə olmasa, deməli, siz düz demirsiniz. Həmin şəxsin nə qədər çox zəng edərək sizi narahat etməsi onun özünün ziyanınadır.

Buna görə də insan bu dünyadakı müvəqqəti həyatın imtahan üçün verildiyini, bütün kainatın, dünyada olan hər bir şeyin, bu aləmdə baş verən hər bir hadisənin Allahın qarşısında baş verdiyi üçün bütün bəndələrin əcr və mükafatlarının, zalımların cəzasının və s. Allah tərəfindən veriləcəyini unutmasa, onda əzab-əziyyətlərə dözmək onun üçün asan olar. Əgər insan başa düşsə ki, bu dünyadakı əzab-əziyyətlərə, çətinliklərə səbr etmək onun axirətdə rahatlığına səbəb olacaqdır, onda Allahdan istəyər ki, bu əzab və çətinliklər daha çox olsun. Kərbəla hadisəsinə nəzər saldıqda şahid oluruq ki, düşmənlər qoşunu İmam Hüseynin (ə) körpə altıaylıq balasını oxladılar. O körpə balanı atasının qucağında qanına qəltan elədilər. Bu, elə bir hadisədir ki, heç bir valideyn belə bir müsibətə tab gətirə bilməzdi. Balaca, altıaylıq körpənin başı üzüldüyü və qanı İmam Hüseynin(ə) mübarək barmaqlarının arasından süzüldüyü halda Həzrət(ə) bu müsibətə səbr edərək üzünü uca Yaradana tutub dedi: "İlahi, bütün hadisələr Sənin qarşında və razılığın əsasında baş verdiyi üçün bu müsibətlərə dözmək mənim üçün çox asandır."

Bir nəfər deyir: “Günlərin birində iki yoldaş səfərə çıxmışdıq. Uzaq mənzillərin birində yolu azdığımız üçün yorulub əldən düşmüşdük. Yaxınlıqda bir çadır var idi. Çadıra yaxınlaşıb onun sahibini səslədik. İçəridən yaşlı bir qadın çıxdı və nə istədiyimizi soruşdu. Mən dedim: Uzaq yoldan gəlmişik. Yol bizi yoraraq əldən salıb. İstirahət etmək üçün bizə daldanacaq verməsini xahiş etdik. Havanın qaralmasına da az qalırdı. Qadın çadırı təmizləyib bizi içəri dəvət etdi və dedi: Siz buyurun əyləşin, indilərdə oğlum da gəlib çıxacaq. Sonra bizim üçün süfrə açıb yemək hazırladı. Özü çadırdan çıxıb oğlunun gələcəyi anı gözləyirdi. Elə bu zaman uzaqdan oğlunun dəvəsinin gəldiyini gördü. Lakin dəvənin üstündə oğlu deyil, başqa bir kəs idi. Qadın bu hadisəni gördükdə öz-özünə dedi: İlahi, bu işlərin axırını xeyirli et. Oğlumun dəvəsi gəlir, lakin özü yoxdur. Dəvəni gətirən şəxs yaxınlaşdıqda qadın ondan soruşdu: Bəs oğlum haradadır? Həmin şəxs dedi: Başınız sağ olsun, oğlunuz rəhmətə getdi. Dəvələrə su verərkən sıxlıq yarandı və dəvələrdən biri ona toxunub quyuya saldı. Quyu dərin olduğu üçün nə qədər çalışdımsa onu çıxara bilmədim. Allah rəhmət etsin. Həm onun dəvəsini gətirdim, həm də bu xəbəri sizə çatdırmaq üçün indi buradayam. Qadın onun sözlərini dinlədikdən sonra dedi: Allah tərəfindən gəlmişik, Ona tərəf də qayıdacağıq. Sonra çadıra daxil olub həmin şəxsə dedi: Sən qonaqlara qulluq et, mən indi gəlirəm. Qadın çadırdan çıxıb üzü qibləyə dayandı, dua etdikdən sonra qayıdıb bizə baxdı və dedi: Aranızda Quran oxuya bilən varmı? Dedim: Bəli, mən oxuya bilirəm. Qadın dedi: Elə isə bir neçə ayə mənim üçün oxuyun. Qoy ürəyim Allahın kəlamı ilə şəfa tapıb sakitləşsin. Mən Quranı açıb oxumağa başladım. Təsadüfən bu ayəyə rast gəldim: Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq. Quranın ayələrini oxuduqca qadın sakitləşdi və səcdəyə gedib Allaha belə münacat etdi:

İlahi, Sən buyurmusan ki, hər kəsə müsibət üz verdikdə bu ayəni oxuyarsa, onun dərdinə dərman edərsən. Mən bu ayəni oxumaqla öz vəzifəmə əməl etdim. Sən də Öz vədini mənim barəmdə inayət et və ürəyimə məlhəm qoy.”

Allahı tanımaq, Ona iman gətirmək belədir. Hər kəs Allahı tanıyarsa, Ona iman gətirərsə, Onun qarşısında olan vəzifəsini dərk edib əməl edərsə, dünyanın heç bir çətinliyi onun üçün ağır olmaz və dünyanın ləzzətlərini ləzzət bilməz. İnsan başa düşməlidir ki, Allah onu görür. Hər kəs Allahın onu gördüyünü başa düşərsə, deməli mərifət tapmışdır.

Böyük alimlərdən biri belə deyir: “Müqəddəs Nəcəf şəhərində təhsilimi bitirib, vətənimə qayıdanda ustadımdan son olaraq mənə nəsihət etməsini istədim. O, mənə bu ayəni oxudu: “Məgər insan bilmir ki, Allah onu görür?” Həmçinin bildirdi ki, həmişə bu ayəni yadında saxla.”

İslam aləmində tanınmış böyük bir şəxsiyyət barədə belə yazırlar ki, həmin şəxs bir günah etmiş və buna görə də etdiyi əməldən peşman olub tövbə etmişdi. Amma bununla belə hər dəfə etdiyi günah yadına düşəndə xəcalət çəkir, narahatlıq hissi keçirir və ağlayırdı. Ona dedilər: Siz həmişə camaata deyirsiniz ki, tövbə etdikdən sonra Allah adamı bağışlayır. Sən bircə günah iş gördün və tövbə etdin. Məgər Allah səni bağışlamayıb? Dedi: Allah məni bağışlayıb, lakin Allahın qarşısında həmin günahı etdiyim an yadıma düşəndə xəcalət çəkirəm.

Bu, həqiqi tövbə edən, Allahı daim öz əməllərinə hazır və nazir bilən bir alimin sözləri idi. Bütün insanlar bilməlidirlər ki, Allah onları boş yerə yaratmayıb və nəzarətsiz buraxmayıb. İnsanın öləndən sonra torpaq olub aradan gedəcəyini iddia edənlər səhv düşüncədədirlər. Çünki insan əbədi bir məxluqdur. Allah-təala qiyamət günü bütün insanları qəbirlərindən qaldıracaq və onları sorğu-sual üçün məhşərə gətirəcək. Hər bir insan dünyasını dəyişən zaman

gözləri açılacaq və həqiqət aləmini görəcəkdir. Allaha ibadət edənlər, bu dünyanın keşməkeşli anlarını, çətinliklərini özünə qəm-qüssə bilməyənlər, dünyada Allah rizasına görə fəaliyyətdə olanlar, çətin vəziyyətdə Allahı unutmayanlar dünyadan köçərkən son anlarında mütləq Onun mərhəmətinin şahidi olacaq və etdikləri ibadətlərin nəticə və bəhrəsini görəcəklər.

Mənim dostlarımdan biri öz dostunun başına gələn bir əhvalatı belə danışır: “O, pak və təmiz bir insan idi. Ticarətlə məşğul olurdu. O deyir ki, məni cərrahiyyə əməliyyatından çıxarıb evə gətirmişdilər. Bütün bədən üzvlərim bərk ağrıyırdı. Bədənimdə elə ağrılar var idi ki, kimsə azacıq toxunsaydı, ağrıdan gözlərim yaşarırdı. Xəstə halda uzanıb son anlarımı yaşayırdım. Hamı başımın üstündə əyləşib ağlayırdı. Birdən bədənimdə olan ağrılar yavaş-yavaş çəkilməyə başladı. Ayağımdan başlayan bu rahatlıq yavaş-yavaş sinəmə tərəf gəldi və ruhum bədənimdən çıxdı. Hiss etdim ki, artıq dünyanı dəyişmişəm. Məni götürüb sürətlə göylərə apardılar. Özümü çox rahat və xoşbəxt hiss edirdim. Elə bil bütün qəm-qüssədən azad olmuşdum. Belə bir rahatlığı ömrümdə heç bir vaxt dadmamışdım. Birdən yadıma düşdü ki, dünyada bir nəfərə borcum qalıb. Bunu heç kəsə deməmişəm, uşaqlarıma vəsiyyət etməmişəm və heç bir yerə də yazıb qoymamışam. Öz-özümə fikirləşdim ki, kiminsə haqqı boynumda qala-qala dünyadan köçdüm. Bu məni çox narahat etdi. Əgər onu vəsiyyətimdə yazsaydım, heç bir narahatlığım olmayacaqdı. O halda Allahla münacat edib dedim: “İlahi, nə olardı mənə icazə verəydin, qayıdıb o borcumu qaytaraydım.” Elə bu sözü demişdim ki, birdən dayandım və geri qayıtmağa başladım. Öz cəsədimi və yanımda əyləşib ağlayanların hamısını görürdüm. Ruhum bədənimə daxil olan kimi yenə də həmin ağrıların hamısını hiss etməyə başladım. Bildim ki, Allah məni geri qaytarıb.

Gözümü açıb yuxarıdan seyr etdiyim və başımın üstündə ağlaşan həmin adamları gördüm. Gözlərimi açdığımı gördükdə hamı sevindi ki, ölməmişəm. Mən onlara dedim: Mən həqiqətən də ölmüşdüm. Lakin Allah məni geri qaytardı."

Həmin şəxs hələ də yaşayır. O deyir: "Canım bədənimdən çıxdığı dəqiqələrdə aldığım ləzzət həmişə yadıma düşəndə yenidən ölümü arzulayıram. Ölümün ləzzətini gördüyüm üçün həmişə həmin dəqiqələri yaşamaq arzusundayam. O dəqiqələr yadıma düşdükdə həmin ləzzəti xatırlayıram."

Dünya başdan-başa qəm-qüssədir. Elə bir insan yoxdur ki, dünyada qəm-qüssə və çətinlik çəkməsin. Pulu olanlar da, olmayanlar da, vəzifəli və ya sadə insanlar da, şahlar və rəiyyət də problem və qəm-qüssə içindədirlər. Dünyanın qəm-qüssəsinin müvəqqəti və ötəri olduğunu yalnız Allahı tanıyanlar və Ona ibadət edənlər daha yaxşı başa düşürlər. Çünki bilirlər ki, bütün bunların sonu çatacaq və insan əbədi bir həyata köçəcəkdir. Allah-təala dünyanın hamısını belə yaratmışdır. Heç bir kəs bu qanunu poza bilməz. Allah insanı əziyyətdə və çətinlikdə yaratmışdır. İnsan bu dünyada daim əziyyət və zəhmətin içindədir. Ölümün həqiqətini dərk edənlər isə həmişə onun arzusunda olmuşlar. Həzrət Əli(ə) ölüm barədə belə buyurmuşdur: "And olsun Allaha, Əbu Talib oğlunun ölümə meyli südəmər uşağın anasının döşünə olan meylindən daha artıqdır."

Odur ki, ibadət mehrabında Həzrətin(ə) mübarək başına qılıc zərbəsi dəyərkən buyurdu: "And olsun Kəbənin Rəbbinə ki, rahat və azad oldum."

Əlbəttə, Allahı tanıyan, Onun qarşısında ibadət edən, buyurduqlarını tam incəliklə yerinə yetirən insanın ölümdən heç bir qorxusu olmaz. Allaha mərifəti olan, Onun qarşısında günah etməyən, Peyğəmbər(s) və Əhli-beytin(ə) eşqi ilə yaşayan kəsin heç bir qorxusu, qəm-qüssəsi olmaz. Belə bir

insan dünyanın çətinliklərini özünə çətinlik bilməz. Allaha məhəbbəti olan, Onu tanıyan və qarşısında baş əyən kəsin nə qəm-qüssəsi ola bilər? Allahı tanımaq, Onun qarşısında insanın öhdəsinə düşən vəzifələrə əməl etmək insanın qəlbini nurlu və ziyalı edər. Belə insanlar heç bir kəsdən, heç nədən qorxmaz.

## 2. Təfəkkür və düşüncə

Paklaşmanı gücləndirən və ruhu paklaşdıran amillərdən ikincisi təfəkkür və düşüncədir. Belə ki, insan daim fikirləşib düşünməli və ibrət götürməlidir. Hansı fikir və düşüncənin içində ibrət olmuş olarsa, həmin şəxs paklaşmağa yaxınlaşar və ruhunun paklaşmasına səbəb olar. Amma əgər insanın fikir və düşüncəsinin içində ibrət olmazsa həmin şəxsin paklaşması çox çətin məsələdir.

قَالَ الصادق(ع): اَلفِكرَةُ مِرآتُ الْحَسَنَات وَ كَفَّارَةُ السَّيِّئات وَ ضِيَاءٌ لِلقَلب

-İmam Sadiq(ə) buyurur: "Düşüncə (düşünüb ibrət almaq) yaxşılıqların güzgüsü, günahların kəffarəsi, qəlb üçün ziya və işıqdır."[1]

İnsanın həyat yolunda müsbət və mənfi əməllər vardır və hər bir kəsin həmin əməlləri görmək üçün bir güzgüyə ehtiyacı var. Bəzi ölkələrdə yol hərəkəti qaydalarına əsasən bir sıra sərt döngələrdə yolun kənarına yumru güzgü qoyulur. Bu güzgünü ona görə qoyurlar ki, enişli-yoxuşlu bu sərt döngələrdə hərəkət edən maşınları görmək mümkün olsun. Yəni yuxarı döngədən aşağı döngəyə dönmək istəyən sürücü həmin güzgü vasitəsilə aşağıdan maşın gəlib-

[1] Misbah, səh. 169.

gəlmədiyini görsün və təhlükə ilə üşləşməmək üçün lazımi tədbirlərə əl atsın. Sürücülər bu güzgüdən əsasən gündüz vaxtları istifadə edirlər. Axşamlar isə həmin döngələrdən gələn maşının işığından istifadə edərək maşını necə idarə edəcəklərini bilirlər. Fikir və düşüncə də eynilə həmin güzgü kimidir ki, insanın görə bilmədiyi hadisələri ona göstərir. Əgər insan düşünüb ibrət ala bilsə, tarixdə və keçmişdə olan hadisələrə ibrət gözü ilə baxıb düşünsə, bu düşüncə həmin şəxsə yaxşılıqları göstərər və pisliklərdən onu xəbərdar edər. Həmçinin əgər insanın ibrət gözü açıq olsa və hər bir şeydən ibrət ala bilsə, günahlarının kəffarəsi sayıla bilər. Bununla yanaşı düşünüb ibrət almaq, yəni hər düşüncədə ibrət gözü olarsa, insanın ruhunu nurlandırar. Buna görə də peyğəmbərlər insanları paklaşdırmaq üçün gətirdikləri amillərdən biri də düşünüb ibrət almaqdır.

قَالَ عَلِيّ(ع): مَن عَمَّرَ قَلبَهُ بِدَوامِ الفِكْر حَسُنَت اَفعَالُهُ فِى السِّرّ وَ الجَهر

-İmam Əli (ə) buyurur: "Hər kəs fikir və düşüncələrində davamlı olarsa (daim qəlbini ibrətli düşüncələrə vadar edərsə), gizli və aşkarda olan əməlləri gözəlləşər."

Həzrət Əli(ə) bu kəlamı ilə bizləri başa salır ki, insan həmişə düşünməli, aqibətini fikirləşməli və dünyada baş verənlərdən, keçmişdə olanlardan ibrət almalıdır. Ayda bircə dəfə fikirləşib düşünmək insanı məqsədə çatdırmaz. İnsanın paklaşması üçün mütləq davamlı şəkildə düşünüb fikirləşmək lazımdır. Ümumiyyətlə, fikirləşib ibrət almaq insan üçün gözəl ibadətlərdən biri hesab olunur. Hədislərdə Abuzər Ğəffari barədə belə rəvayət olunur ki, onun çox ibadəti təfəkkür və düşüncə idi. Yəni namazlardan və səcdələrdən əlavə düşünməklə, fikirləşib ibrət almaqla ibadət edirdi. İnsan elə başa düşməsin ki, ibadət təkcə namaz

qılmaq, rüku və səcdə etməkdən ibarətdir. Onlar öz yerində olmaqla yanaşı, insanın bəzi hərəkətlərinə də ibadət yazılır. O cümlədən təfəkkür və düşünüb ibrət götürmək də insan üçün ibadətdir. Əgər insan kim olduğunu, haradan gəlib, hara gedəcəyini, nə üçün yarandığını düşünsə, həmin sualların cavabını tapıb, nə məqsədlə yarandığını, heyvandan nə ilə fərqləndiyini bilsə, ömrü abad olar və vaxtını boş yerə sərf etməz. İnsanın evi, məhəlləsi, kəndi, şəhəri, ölkəsi abad ola bildiyi kimi, ömrü də abad olar. İnsanın ömrünün abad olmasının şərti isə ona verilən bu müvəqqəti həyatı boş-boşuna və mənasız keçirməməkdir. Bunu daha dəqiq başa düşmək üçün videokassetlərə diqqət yetirmək kifayət edər. Məsələn, bir operatorun səhvən əlinin düyməyə toxunması nəticəsində kasset yazmağa başlayır. Bir neçə dəqiqədən sonra baxıb görür ki, kasset boş-boşuna yazılıb. Mümkündür ki, bəzi kassetlər boş-boşuna yazılmış olsun, bəziləri isə əvvəldən-axıradək lazımi şeylərlə dolmuş olsun. Bəzən görürsən ki, yarımsaatlıq bir film çəkilib, amma onun içində beş dəqiqə dərdə dəyən faydalı moizələr, yaxud kadrlar vardır. İnsanın da ömrü belədir. Hər kəs diqqətli olsa, ömrünü boş keçməyə qoymaz. İnsan başa düşməlidir ki, onun ömrünün hər bir anını lentə çəkirlər. Elə adam var ki, altmış il yaşamasına baxmayaraq, ömrü boyu beş-on dərdə dəyən iş görüb, ya görməyib. Lakin elə insanlar da var ki, ömrünü boş-boş şeylərlə doldurmayıb. Hər bir dəqiqəsində dərdinə dəyən əməlləri yerinə yetirib. Əgər insan ömrünü boş-boş əməllərlə keçirərsə, onun ömrü abad ola bilməz. Ömrün abadlığı ondadır ki, insan onun hər bir anında özü üçün yaxşı bir şey qazanmış olsun. Çünki bir zaman (qiyamət günü) insanın bütün əməlləri qarşısına qoyulacaq. Onun hər bir anı barədə sorğu-sual olunacaq. Kim nə yığıbsa, hamısını ona qaytaracaqlar.

Uşaqlıqda demək olar ki, hamımızın saxsı qabdan daxılımız olardı. İldə bir dəfə daxılı sındırar, həvəslə içindəki pulları sayardıq. Hər kəs dayısından, əmisindən, ata-anasından aldığı pulu daxıla atsaydı, ilin axırında onun daxılı dolu çıxardı. Amma aldığı pulu xərcləyən, daxıla atmayan uşağın daxılı boş çıxdığı üçün pərt olub ağlayardı.

Qiyamət günü də belə olacaq. Hər kimin əməl dəftəri yaxşı əməllərlə dolu olduğu üçün sağ əlinə verilsə, sevinəcək. Amma əksinə, əməl dəftəri sol əlinə verilənlər, axirəti üçün heç bir azuqə toplamayanlar ağlayaraq təəssüflənəcəklər. Çox böyük peşmançılıqla üzləşdiklərinin şahidi olacaqlar. Quranda bu məsələyə aid bir çox ayələrə rast gəlmək olur. Məsələn, "Yasin" surəsinin 51-52-ci ayələrində belə buyurulur:

وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُم مِّنَ الْأَجْدَاثِ إِلَى رَبِّهِمْ يَنسِلُونَ. قَالُوا يَا وَيْلَنَا مَن بَعَثَنَا مِن مَّرْقَدِنَا هَذَا مَا وَعَدَ الرَّحْمَنُ وَصَدَقَ الْمُرْسَلُونَ.

-Sura (ikinci dəfə) üfürülər, onda onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər.

Deyərlər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? (Bəli,) bu Rəhman (olan Allahın dünyada) bizə vəd verdiyi həmin (ölümdən sonrakı həyat)dır. Onun peyğəmbərləri doğru deyirmişlər."

Qiyamət günü peşman olanların peşmançılığı onlara heç bir fayda verməyəcək. Onlar deyərlər: "Ey Rəbbim, məni (dünyaya) qaytar, bəlkə (dünyada) qoyduğum şey (dünya malı və ömür günləri) barəsində yaxşı bir iş gördüm. Xeyir, bu, onun dediyi (boş) sözdür (gerçəkləşməyəcəkdir)."

Ömrün abadlığı odur ki, insan qiyamət günü əliboş olmasın. İnsanın əməl dəftəri bihudə və boş əməllərlə dolmasın. Əgər bir kişi altmış yaşında dünyadan gedibsə, qiyamət günü on beş ili həddi-büluğa yetişmədiyi üçün

çıxılacaq, yerdə qalan illər saniyəsinə qədər sorğu-sual olunacaqdır. İnsandan əməlləri barədə bir-bir hesab çəkiləcək.

Gündəlik həyatımızda bəzi idarələrdə mühasiblər bir sıra işçilərə müəyyən qədər pul verərək bildirirlər ki, ayın axırı birdəfəlik əyləşib hesablaşarıq. Məsələn, ona min manat pul verir ki, idarə üçün lazım olan işləri görsün. Ay qurtardıqdan sonra mühasib həmin şəxsi çağırır və deyir: Mən sənə nə qədər pul vermişdim? Həmin şəxs deyir: Min manat. Mühasib soruşur: Həmin min manatı nə etmisən? Həmin şəxs deyir: Yüz manatı filan yerə xərclədim və çekini aldım. Əlli manata filan şey aldım və çekini aldım. Beləliklə xərclədiyi bütün pullar barədə hesabat verir. Əgər pulun artığı qalmış olsa, mühasib ondan həmin pulları tələb edir. Pulu alan şəxs nə qədər faktura və çek gətirib xərclədiyi pulun hesabını versə, bir o qədər canı qurtaracaq. Yox, əgər kəsiri gəlmiş olsa, pulun qalanı onun boynunda qalacaq.

Qiyamət günündə də belə olacaq ki, insanın ömründən həddi- buluğa çatdığı günədək çıxılacaq və qalan günləri barədə bir-bir hesab- kitab olunacaq. İnsan ömrünün hər saniyəsi barədə hesabat verməlidir. Hansı yerdə insanın ömrü Allah-təalanın buyurduğu yerə sərf olunubsa, bu həmin şəxs üçün faktura və çekdir. Əgər bir kəs etiraz edib etdiyi əməli boynuna almasa, həmin əməli də ona göstərəcəklər. Çünki onun bu dünyada etdiyi bütün böyük-kiçik əməlləri yazılıb saxlanmışdır.

Dünyada texnologiya inkişaf etdikcə müəyyən cihaz və qurğular kəşf edilmişdir. Hazırkı dövrdə demək olar ki, bütün küçələrə və binalara təhlükəsizlik kameraları quraşdırılır. Həmçinin yol hərəkəti qaydasını pozanlar üçün bu kameralardan istifadə edirlər. Almaniyada əgər bir sürücü yol hərəkəti qaydasını pozarsa, həmin şəxsə xəbərdarlıq edib cərimələyirlər. Məsələn, işıqforun qırmızı işığında

dayanmayıb yolu keçən sürücüyə beş avro cərimə tətbiq edilir. Əgər həmin sürücü etdiyi xətasını boynuna almasa, onu aparıb hörmətlə əyləşdirirlər və hansı yerdə qayda pozuntusu baş veribsə ona göstərirlər. O, çıxılmaz vəziyyətdə qaldığından cəriməni ödəməyə məcbur olur. Bundan əlavə onu gətirib çəkilişi göstərdikləri üçün əlavə on avro da alırlar.

Qiyamət günündə də insanın bütün əməllərini əvvəldən axıra qədər onun qarşısına qoyacaqlar. Həmin gün elə bir gün olacaqdır ki, heç bir kəs öz əməlini dana bilməyəcəkdir. Əgər etdiyi əməli boynuna almasa, o zaman müxtəlif şahidlərin köməyi ilə bunu ona sübut edəcəklər. Qiyamət günü hesab-kitab günü olduğu üçün hər şeyi mühasibə edəcəklər. Həmin gün insanın bütün əməllərini (hətta gizlində və aşkarda etdiyini) onun qarşısına qoyacaqlar. Ömrünü boş və mənasız işlərlə keçirən şəxslər həsrət və peşmançılıq içində olacaqlar. Dünyada hər bir insan adi bir çəkiliş zamanı özünü videokameranın qarşısında düzəldir ki, pis düşməsin. Əgər insan yəqin etsə ki, Allah onun bütün əməllərini görür və qiyamət günü həmin əməlləri bütün insanların qarşısında açıb göstərəcəklər, onda heç vaxt özünü pis aparmaz, artıq-əskik hərəkət etməz, puç sözlər danışmaz. İnsan necə razı ola bilər ki, onu pis vəziyyətlərdə və nalayiq hərəkətlər zamanı çəksinlər?

Odur ki Həzrət Əli(ə) buyurur: ”Hər kəs fikir və düşüncələrində davamlı olarsa (daim qəlbini ibrətli düşüncələrə vadar edərsə), gizli və aşkarda olan əməlləri gözəlləşər."

## Qəflət

İnsanı qəflətdən oyadan əməllərdən biri həmin qeyd etdiyimiz təfəkkür və düşüncədir. İbrətamiz düşəncələr qəflətə düşmüş insanı oyada bilər. Hər kəs qəflət yuxusundan ayılmaq istəyirsə, mütləq düşünməli və ibrət götürməlidir. Qəflətdə olan insanlar o kəslərdir ki, ömrlərini bihudə keçirir və heç bir vaxt düşünüb ibrət almırlar.

قَالَ عَلِيّ(ع): كَفَى بِالْمَرءِ (بِالرَّجُلِ) غَفلةً اَن يُضَيِّعَ عُمرَهُ فِيمَا لا يُنجِيه

Həzrət Əli(ə) buyurur: "İnsanın qəflətə düşməsi üçün ömrünü ona nicat verməyən işlərlə (bihudə və zay əməllərlə) keçirməsi kifayət edər."[1]

Hər kəs ömrünü boş-boşuna, bihudə işlərlə keçirirsə, deməli qəflətə düşmüş insandır. Özünü tezliklə qəflətdən oyatmayan kəs o vaxt ayılacaq ki, sonu peşmançılıqdan başqa bir şey olmayacaqdır. Elə bir vaxt ayılacaq ki, artıq iş-işdən keçmiş və əl-əldən üzülmüşdür. Əzrayılı(ə) başı üzərində gördükdə qəflət içində yaşadığını başa düşüb ayılacaqdır. Lakin belə ayılmağın sonu yalnız peşmançılıqla qurtaracaq.

قَالَ لُقمَانُ: يَا بُنَيَّ لِلغَافِلِ ثَلاثُ عَلامَات: اَلسَّهو وَ اللَّهو وَ النِّسيَان

[1] Mizanül-hikmə, (qəflət mövzusu).

Həzrət Loğman oğluna nəsihət edərək belə buyurdu: “Oğlum! Qafil insanın üç əlaməti var: səhvi, başının qarışıq olması və unutqanlığı.”[1]

Qəflətdə yaşayan insanın əlamətlərindən biri qeyd etdiyimiz kimi unutqanlıqdır. Unutqanlıq elə bir şeydir ki, insanı Allahdan ayırır və onu qəflətə salır. Qafil insanın əlaməti budur ki, bu dünyaya nə üçün gəldiyini unudur. Allah-təala insandan Ona ibadət edəcəyi, şeytana itaət etməyəcəyi və başqa əməlləri edəcəyi barədə  söz almışdır. İnsan dünyaya gəldikdən sonra həmin vədlərini unudaraq nə üçün bu dünyaya gəldiyini yadından çıxardı. Peyğəmbərlər də ona görə gəlmişlər ki, insanların unutduqları həmin vədləri yadlarına salsınlar. Şübhəsizdir ki, fasid və fasiq insanlara itaət edən insanlar, məscidi və Allaha zikr olunan yerləri tərk edən şəxslər qəflətə düşəcəklər.

قَالَ الإِمَامُ الْحَسَن(ع): اَلغَفلَةُ تَرْكُكَ الْمَسجِد وَ طَاعَتُكَ الْمُفسِد

-İmam Həsən(ə) buyurur: "Qəflət odur ki, (namaz qılmaq üçün) məscidi tərk edəsən və pozğun adama tabe olasan."[2]

Qəflətə düşmüş insanlar heç vaxt məscidlərə getməz, dini mərasimlərdə iştirak etməz, Allaha itaət etmək əvəzinə pozğun insanlara itaət edərlər.

## Qəflətin nəticəsi

[1] Mizanül-hikmə, (qəflət mövzusu).
[2] Mizanül-hikmə, (qəflət mövzusu).

Qəflətə düşən insanın qəlbi paslanar. Həmçinin qəflət insanın qəlbinin ölməsinə, axirətin unutqanlığına və bəsirət gözünün kor olmasına səbəb olar.

قَالَ عَلِيّ(ع): اِيَّاكَ وَ الغَفلَة فَفِيهَا تَكُون قَسَاوَة الْقَلب

-Həzrət Əli(ə) buyurur: "Qəflətdən çəkinin. Qəflət insanın qəlbini qaraldıb paslandırar."[1]

قَالَ عَلِيّ(ع): مَن غَلَبت عَلَيهِ الغَفلَة مَاتَ قَلبه

-Həzrət Əli(ə) buyurur: "Hər kəsə qəflət qələbə çalsa, həmin şəxsin qəlbi ölər."[2]

قَالَ رَسُولُ الله(ع): اِنّ اَخوَفُ مَا اَخَاف عَلى اُمَّتِي اِثنَان. اَلهَوى وَ طُولُ الأَمَل. اَمّا الْهَوى فَإِنَّهُ يَصُدّ عَنِ الْحَقّ. وَ اَمّا طُولُ الأَمَل فَيَنسَى الآخِرَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətim üçün ən çox iki şeydən qorxuram. Nəfsi istəklər və uzun-uzadı arzular. Nəfsi istəklər insanı haqdan döndərib uzaqlaşdırar. Uzun-uzadı arzular isə axirəti insana unutdurar."[3]

قَالَ عَلِيّ(ع): دَوَامُ الغَفلَة يعمَى البَصِيرَة

-Həzrət Əli(ə) buyurur: "Daim qəflətdə yaşamaq insanın bəsirət gözünü kor edər."[4]

---

[1] Mizanül-hikmə, (qəflət mövzusu).
[2] Mizanül-hikmə, (qəflət mövzusu).
[3] Biharul-ənvar, 70-ci cild, səh. 75.
[4] Tühəfül-üqul, səh. 146.

## Allah insanları qəflətdən çəkindirir

Allah-təala bizi qəflət yuxusuna düşməkdən çəkindirir. Bu barədə olan Quran ayələrindən bir neçəsinə diqqət yetirək. “Yunis” surəsinin 7-8-ci ayələrində buyurulur:

إَنَّ الَّذِينَ لاَ يَرْجُونَ لِقَاءنَا وَرَضُواْ بِالْحَياةِ الدُّنْيَا وَاطْمَأَنُّواْ بِهَا وَالَّذِينَ هُمْ عَنْ آيَاتِنَا غَافِلُونَ. أُوْلَئِكَ مَأْوَاهُمُ النُّارُ بِمَا كَانُواْ يَكْسِبُونَ

-Həqiqətən, Bizim görüşümüzə ümidi (axirət aləminə imanları) olmayan və dünya həyatına şad olaraq ona (dünyaya) ürək bağlayan, həmçinin Bizim ayələrimizdən qafil olan kəslər onların qalacaqları yer qazandıqlarının (qəlbləri ilə qazandıqları nalayiq əqidələrin və əlləri ilə qazandıqları günahların) cəzası olaraq oddur.

“Əraf” surəsinin 205-ci ayəsində isə belə buyurulur:

وَاذْكُر رَّبَّكَ فِي نَفْسِكَ تَضَرُّعاً وَخِيفَةً وَدُونَ الْجَهْرِ مِنَ الْقَوْلِ بِالْغُدُوِّ وَالآصَالِ وَلاَ تَكُن مِّنَ الْغَافِلِينَ

-Səhərlər və axşamlar öz qəlbində yalvarıb-yaxararaq, qorxu ilə və səsini ucaltmadan Rəbbini yada sal və qafillərdən olma.

“Qaf” surəsinin 22-ci ayəsində isə belə buyurulur:

لَقَدْ كُنتَ فِي غَفْلَةٍ مِّنْ هَذَا فَكَشَفْنَا عَنكَ غِطَاءكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ

-(Ona deyiləcəkdir:) Həqiqətən, sən bundan (bu gündən) qafil idin. Biz pərdəni (qəflət pərdəsini) sən(in təfəkkürünün

önün)dən kənara çəkdik. Odur ki, bu gün gözün iti görür (məhşərin vəziyyətini, öz əməllərini və onların cəzasını görəcəksən).

İnsan gözlərinin qarşısında olan qəflət pərdəsini dünyada olarkən götürməlidir. Qiyamət günü istər-istəməz hamının gözündən pərdələr götürüləcək və hamı haqq-həqiqəti görəcəkdir. Orada haqqı görməyin və qəflətdən oyanmağın isə heç bir faydası olmayacaqdır. İnsan dünyada başa düşməli idi ki, bir gün Allahın hüzurunda hesab-kitab çəkiləcəkdir. Peybəmbərin(s) "vətəni sevmək imandandır" hədisi barədə bəzi təfsirçilər yazmışlar ki, insanın həqiqi vətəni axirət günüdür. İnsan axirətini sevməli və oranı abad etmək üçün çalışmalıdır. Bu dünya bir körpüdür ki, insan onun üzərindən keçib gedir.

Allah Həzrət Peyğəmbəri(s) Meraca aparanda ona belə buyurdu:

يَا أَحْمَدُ! اجْعَلْ هَمَّكَ هَمّاً وَاحِداً! فَاجْعَلْ لِسَانَكَ لِسَاناً وَاحِداً! وَاجْعَلْ بَدَنَكَ حَيّاً لاَ تَغْفُلُ عَنِّي؛ مَنْ يَغْفُلْ عَنِّي لاَأُبَ إِلى بِأَيِّ وَادٍ هَلَكَ

-Ya Əhməd! Fikrini bir yerə cəmlə ki, bölünüb dağılmasın. Dilini (və sözünü Allahın zikri ilə) bir elə. Bədənini (Allaha itaət etməklə) diri saxla (ölü bədən Allaha ibadət etməyən bədəndir). Ayıq yaşa, Məndən qafil olma. Məndən qafil olanlar başlarına gələn bəlaları (Məndən yox) özlərindən görsünlər.[1]

## İnsan bu dünyada ibrət almalıdır

[1] Mizanül-hikmə. Hədis-15148.

İnsan bu dünyada düşünüb ibrət almaq üçün keçmişlərə nəzər salmalı, tarixə baxmalı, keçmişdə olanların əhvalatı ilə maraqlanmalıdır. İnsanların həyatı başdan-ayağa ibrət dərsləridir. "Nəhcül-bəlağə" kitabına nəzər saldıqda Həzrət Əlinin(ə) nə qədər ibrətli sözlər və xütbələr buyurduğunun şahidi oluruq. Həzrət(ə) tarixin keçmiş səhifələrini bizə xatırladaraq buyurur:

وَ إِنَّ لَكُمْ فِى الْقُرُونِ السَّالِفَةِ لَعِبْرَةً! أَيْنَ الْعَمَالِقَةُ وَ أَبْنَاءُ الْعَمَالِقَةِ؟ أَيْنَ الْفَرَاعِنَةُ وَ أَبْنَاءُ الْفَرَاعِنَةِ؟ أَيْنَ أَصْحَابُ مَدَائِنِ الرَّسِّ الَّذِينَ قَتَلُوا النَّبِيِّينَ، وَ أَطْفَؤُوا سُنَنَ الْمُرْسَلِينَ، وَ أَحْيَوْا سُنَنَ الْجَبَّارِينَ؟

-Sizin üçün keçən dövrlərdə ibrət vardır *(ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız)*. Haradadır Əmaliqə və onların övladları.[1] Haradadır *(Misir şahları olmuş)* Fironlar və övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini söndürən *(məhv edən)* və zalımların ənənələrini diriİdən *(həmin əsasda davranan)* Rəss şəhərlərinin əhalisi?[2]

Dünyada yaşayan bütün insanlar bir gün gəlib, bir gün də gedəcəklər. Heç bir kəs bu dünyanı tutub qalmayacaq. Hər kəsin öz dövranı olmuşdur. Kimi bu dövrandan yaxşıca istifadə edib cənnəti qazanır, kimi ömrünü bihudə keçirərək

---

[1] Əmaliqə İmliq ibn Lavəz ibn İrəm ibn Sam ibn Nuhun övladlarından ibarət bir dəstə olublar və onlar çox böyük bir dövlətlə Yəmən və Hicazda padşahlıq ediblər. Sonralar onların kökü kəsilib.
[2] Rəss böyük bir quyunun adı idi ki, insanlar onun ətrafına toplaşaraq "şah ağac" dedikləri və Yafis ibn Nuhun əkdiyi küknar ağacına ibadət edirdilər. Allah onları məhv etdi.

axirətini bərbad qoymuşdur. Buna görə də insan həmişə düşünməli, keçmişdəkilərdən və həyatdan ibrət almalıdır.

Bir gün Həzrət Davud Peyğəmbər(ə) evdən çıxaraq "Zəbur"u oxuya-oxuya yola düşür. Dağların birinin kənarından keçəndə sızıltı və münacat səsləri eşidir. Ətrafına baxdıqda bir nəfərin Allaha ibadət etdiyini görür. Yaxınlaşıb ondan kim olduğunu soruşur. Həmin şəxs deyir: Mən Allahın peyğəmbəriyəm. Davud(ə) soruşur: Sən hansı peyğəmbərsən? Həmin şəxs deyir: Mən Hizqil peyğəmbərəm. Həzrət Davud(ə) onun yanında əyləşib onunla söhbət etməyə başlayır. Söhbət əsnasında Davud(ə) Hizqildən(ə) soruşur: "Heç səndə dünyaya qarşı rəğbət və bir meyl yaranıbmı? Hizqil(ə) deyir: Bəli, hərdən məndə bu hal baş verir. Davud(ə) soruşur: Belə olan halda sən nə edirsən? Hizqil(ə) yaxınlıqdakı dərəni ona göstərib deyir: Bu hal məndə yaranan kimi gedib həmin dərənin içinə baxıram. Davud(ə) soruşur: O dərənin içərisində nə var? Hizqil(ə) deyir: Qalx ayağa, gedək sənə də göstərim."

Onlar birlikdə dərənin kənarına gəldilər. Hizqil Peyğəmbər(ə) dərənin dibinə düşüb dəmirdən olan bir lövhəni, çoxlu insan skeletini və viran qalmış həmin məkanı ona göstərib dedi: "Bütun bunlar filan dövrdən qalmış bir hadisədir. Bu məntəqənin əhalisi neçə illər bundan əvvəl yaşamış, səltənət sahibi olmuş və nəhayət, belə bir vəziyyətə düşmüşlər. Görürsənmi, ilanlar da onların sümüklərinin içərisində özlərinə məskən salmışlar. Ürəyimdə dünyaya azacıq bir meyl və rəğbət hissi yaranan kimi gəlib bu xarabalığa baxıram. Bununla da həmin rəğbət hissi və istəklər qəlbimdən çıxır."

Odur ki, insan daim düşünüb-daşınmalı və keçmişi yada salıb ibrət götürməlidir. Qəbiristanlığa gedərkən torpaq altında yatanları xatırlamalı və bilməlisən ki, bir gün ölüm sənin də qapını döyəcəkdir. İnsan özünü ölümə hazırlamaq

üçün Allahın buyurduqlarını yerinə yetirməli və axirət günündən ötrü azuqə toplamalıdır. Dünyasını dəyişmiş insanlar əsl həqiqətdə diridirlər. Onların cisminin torpaq altında olmasına baxmayaraq, bu dünya ilə əlaqələrini kəsməmişlər. Allah-təala onların bəsirət gözünü açmışdır. Onlar əbədi həyata səfər etdikləri üçün hər bir şeyin həqiqətini hiss edib görürlər.

Ərdəbil şəhərində "Daşkəsən" adında bir qəbiristanlıq var. Orada yaşlı bir kişi xidmətçi işləyirdi. Onun üçün orada yaxşı bir ev tikmişdilər. Həm həyat yoldaşı ilə birgə orada yaşayır, həm qəbiristanlığa keşik çəkir, həm də meyitləri yuyurdu. Mənim dostlarımdan biri deyir: Bir gün həmin qoca ilə görüşüb söhbət edirdim. Ondan bu qəbiristanlıqda neçə il xidmət etdiyini soruşdum. Qoca dedi: Otuz ildir ki, burada işləyirəm. Soruşdum: Burada işlədiyin müddətdə sənin başına maraqlı və ya yazılası bir əhvalat gəlibmi?

Qoca dedi: "Mən burada çox hadisələrin şahidi olmuşam. İstəsən onlardan birini sənin üçün danışaram. Bir gün xəstəxanadan mənə zəng vurub dedilər ki, qəbiristanlığa bir həkim gəlir, onun işini yoluna qoymaq lazımdır. Öz-özümə dedim: Allah xeyir eləsin. Bu neçə ildə bura ölüdən başqa heç bir kəsi gətirməyiblər. Qəbiristanlıq hara, həkim hara? Nə isə, nəhayət, həkim gəldi. Əlində də iki icazənamə var idi. Biri baş həkimdən, biri də Ərdəbil şəhərinin imam-cüməsi Ayətullah Mürəvvicdən. Hər iki məktubda qəbirlərdən birinin açılıb, kəllə sümüyünün bir həftə müddətinə müayinə olunması və təcrübədən keçirilməsi üçün həmin həkimə verilməsi barədə razılıq bildirilirdi. Həm tibbi, həm də şəri cəhətdən buna icazə verilmişdi. Mən həmin razılıq məktubuna əsasən iyirmi il əvvəl dəfn edilmiş bir qəbri açaraq orada dəfn olunan adamın kəllə sümüyünü götürüb həkimə verdim. Sümüyü götürəndə həmin kəllə sahibinin iri və cüssəli olduğunu hiss etdim. Həkim söz verdi

ki, bir həftədən sonra qaytarıb gətirəcəyəm. Mən də ona dedim ki, bunu sənə əmanət olaraq verirəm. Qaytardıqdan sonra onu mütləq yerinə qoymaq lazımdır. Həkim mənə həmin kəlləni qaytaracağına söz verib getdi. Bu hadisənin üstündən on gün keçmişdi. Amma nə həkimdən, nə də həmin kəllə sümüyündən bir xəbər yox idi. Bir həftənin ötdüyü tamamilə yadımdan çıxmışdı. Bir gün yuxuda gördüm ki, ucaboylu, cüssəli və gözəl simalı bir oğlan mənim yanıma gəlib dedi: Hacı Abdullah, şəriət baxımından sənə buyurulanı yerinə yetirdim. Mənim başımı bir həftəlik aparmışdılar. Lakin on gündən artıqdır ki, gətirməyiblər. Səhər mənim başımı onlardan alıb yerinə qoyarsan. Yuxudan ayılıb səhər tezdən həkimə zəng vurdum. Dedim ki, siz həmin kəllə sümüyünü bircə həftəlik alıb aparmışdınız. Amma on gündür ki, qaytarmırsınız. Həmin kəllənin sahibi yuxuma girib, sizdən xahiş edirəm ki, onu geri qaytarasınız. Həkim dedi: Əlbəttə, biz müayinə və təcrübə işlərimizi artıq qurtarmışıq. Bu gün həmin əmanəti mütləq sizə çatdıracağıq. Elə həmin gün kəlləni geri qaytardılar və mən də onu aparıb sahibinin qəbrinə qoydum."

Bu kiçik əhvalatı danışmaqda məqsədim odur ki, dünyasını dəyişmiş insanların bu dünya ilə əlaqəsi qırılmayıb. Onlar görürlər, hiss edirlər. Onların ruhu əbədiyyət aləminə qovuşub, lakin dünya ilə əlaqələri qırılmayıb. Bu, sadəcə bir yuxu olmasına baxmayaraq, hədis və rəvayətlərimizdə bizə bu haqda çoxlu məlumatlar verilmişdir. Onlar bizi görür, etdiyimiz hərəkətlərə baxırlar. Həmçinin biz də onların qəbirlərinə, yaşayıb dünyadan getmiş insanların həyatlarına bir nəzər salaraq qəflət yuxusundan ayılmaq üçün ibrət götürməliyik.

## 3. Hikmət

İnsanın paklaşmasını gücləndirən, onu təqvaya çatdıran və ruhunu paklaşdıran amillərdən üçüncüsü hikmətdir. Hikmət barədə kifayət qədər söhbət etmək olar. Bütün peyğəmbərlərin həyatına nəzər saldıqda görürük ki, onlar hikmət barədə insanları xəbərdar etmiş və hikmətin insan üçün böyük faydalarını söyləmişlər. Həzrət İsa Peyğəmbər(ə) hikmət barədə buyurmuşdur:

اِنَّ الشَّمسَ نُورُ كُلُّ شَيئٍ وَاِنَّ الْحِكْمَةَ نُورُ كُلُّ قَلبٍ

-Həqiqətən, günəş hər bir şeyin nurudur. Bütün qəlblərin nuru isə hikmətdir.(Yəni bütün qəlblərin nuru hikmətdən sərçeşmə alır.)

Başqa bir hədisdə isə belə buyurulur:

إِنَّ الصِّقَالَةَ تُصلِحُ السَّيفِ وَتجلوه، كَذَلِكَ الْحِكمَةُ لِلقَلب تُصقِلهُ وَتجلُوهُ، وَهِيَ لِلقَلب الْحَكِيم مِثلُ الْمَاءِ فِي الأَرضِ الْمَيتَة تُحيَ قَلبَهُ كَمَا يُحيَ الْمَاءِ الأَرضِ الْمَيتَة، وَهِيَ فِي قَلبِ الْحَكِيم مِثلُ النُّور فِي الظُّلمة يَمشِي بِهَا فِي النَّاس.

-Cilalayıcı paslanmış qılıncı təmizləyib parıldatdığı kimi, hikmət də insanın qəlbini cilalayıb ona parlaqlıq verir. Hikmət insanın qəlbində ölmüş (susuz və bitki olmayan) yer üçün su kimidir. Su ölmüş yeri diriltdiyi kimi, hikmət də eləcə insanın qəlbini dirildir. Həmçinin hikmət insanın qəlbində başqa insanların qaranlıqda yol getməsi üçün istifadə etdiyi nura bənzəyir.[1]

[1] Tuhəfül-üqul, səh. 551.

## Hikmətin mənası

Hikmətin tərif və mənasına gəldikdə isə qeyd etməliyik ki, bu barədə lüğətdə belə yazılıb: "Elm və ağlın vasitəsilə haqqa çatmağa hikmət deyilir." Yəni insan elm və əqlin vasitəsilə haqq-həqiqəti tapa bilərsə, buna hikmət deyilir.

Hikmətin lüğətdə olan ikinci mənası və tərifi belədir: "Hikmət atın ağzına vurulan noxtaya bənzəyər ki, insan onun vasitəsilə özünü pis işlərdən, azğınlıqdan və tüğyan etməkdən saxlayar."

Atı əhlilləşdirmək və idarə etmək üçün onun ağzına noxta vurub yüyənləyirlər. Əgər atın ağzında noxta olmasa, özbaşına qalar və tüğyan edər. Həzrət Peyğəmbər(s) buyurmuşdur ki, Quran mömininin noxtasıdır. Əgər insanın da noxtası olmasa, tüğyan edib həddi aşar. Buna görə də mömin həmişə noxtalı olmalıdır. Əgər hər hansı bir mömininin noxtası olmasa, bilinir ki, həmin insan imandan çıxmışdır. Quranda Allah-təala iman gətirənlər üçün müəyyən hədləri saydıqdan sonra buyurur: "Bunlar Allahın (insan üçün təyin etdiyi) hədlərdir." Allahın insan üçün müəyyən etdiyi hədləri aşan hər bir kəs noxtanı qırmış və imandan çıxmışdır.

Odur ki, hikmət də insanın əməllərinin həmişə nəzarətdə saxlanılması üçün bir vasitədir. Təbiətə nəzər saldıqda da ən azından televiziya vasitəsilə dənizlərin, təbiətin, küləyin, hətta heyvanların da coşub tüğyan etdiklərini dəfələrlə görmüşük. Bəzən dəniz elə coşub tüğyan edir ki, onun hündür ləpələri bir və ya bir neçə şəhəri ağuşuna alaraq götürüb aparır. Həmçinin küləyin və tornadaların tüğyan etməsi nəticəsində şəhərlər xarabaya çevrilir. Bütün bu tüğyan etmələrin hamısı bir yana, insanın tüğyan etməsi tamamilə fərqli və dəhşətlidir. Külək tüğyan edərkən uzağı bir neçə evin damını uçurdur. Dəniz tüğyan etdikdə uzağı bir

şəhəri su basır. Heyvanlardan məsələn, at tüğyan etdikdə uzağı öz sahibini öldürür. Lakin insan tüğyan edərsə, milyonlarla insanı bədbəxt edər. İnsanın tüğyan etməsi atın, dəvənin, filin və s. heyvanların coşmasına bənzəməz. Əgər insan tüğyan etsə, milyonlarla insanı yoldan çıxarıb pozğunlaşdırar və onları cəhənnəmə aparar. Tarixdə belə tüğyan edənlər çox olub. Nəmrud, Firon, Əbu Cəhl, Əbu Ləhəb, Müaviyə və Yezid kimilər nə qədər insanı bədbəxt edib yoldan çıxarmışlar. Əgər insan tüğyan etsə, insanları qanına qəltan edər, qocaya, cavana, hətta altıaylıq körpəyə də rəhm etməz.

Kərbəla faciəsinə nəzər saldıqda görürük ki, otuz mindən beş yüz minədək adam əl-ələ verib tüğyan edərək Kərbəlada Peyğəmbərin(s) balalarını qanlarına qəltan etdilər. Onların beyinləri elə qızmışdı ki, İmam Hüseyni(ə) və onun ən yaxın adamlarını qanlarına boyamamış əl çəkmək istəmirdilər. Bütün bunlar tarixdə olan faktlardır. Onun üstünü müxtəlif bəhanələrlə və ya yozumlarla örtmək mümkün deyil. Heç bir kəs tarixin səhifəsindən həmin tuğyan edənlərin qara əməllərini silib təmizləyə bilməyəcəkdir. Onların xəmirləri haramla yoğrulduğu üçün daxillərində olan bu tüğyanı, kin-küdurəti ört-basdır etmək mümkün deyildir. Onlar cəhənnəmin odun və yanacaqlarıdır.

Əgər insan coşub tüğyan etsə, adam öldürər, qətllərə və cinayətlərə əl atar, qan tökər, baş kəsər və milyonlarla insanı bir “uf” belə demədən bədbəxt edər. İnsan tüğyan edən zaman onun qarşısında heç nə ilə dayanmaq mümkün olmaz. Buna görə də insan tüğyan etməmək üçün həmişə özünü nəzarətdə saxlamalı və yüyəni əlində olmalıdır.

## Hikmətin fayda və əlamətləri

Hikmətin bir çox fayda və əlamətləri vardır. Bu barədə çoxlu hədis və rəvayətlər vardır ki, nümunə üçün onlardan bəzisini diqqətinizə çatdırıram.

قَالَ السَّجَّاد(ع): رَأسُ الْحِكْمَة مَخَافَةُ الله

-İmam Səccad(ə) buyurur: "Hikmətin əsası Allahdan qorxmaqdır."[1]

Əgər bir insan xəlvətdə və ya aşkarda Allahdan qorxub günah etmirsə, deməli hikmətdən pay götürmüşdür. Yəni hikmətli insan xəlvətdə və aşkarda həmişə Allahı başı üzərində nəzarətçi və özünə yaxın bilir.

قَالَ عَلِيّ(ع): ثَمَرَةُ الْحِكْمَة اَلتَّنَزّه عَنِ الدُّنيَا وَ الْوَلَه بِجَنَّةِ الْمَأوَى

-Həzrət Əli(ə) buyurur: "Hikmətin faydası odur ki, insanı dünyaya qarşı rəğbətsiz edər və Məva cənnətinə həvəsləndirər."[2]

Həmin dünya ki, insanlar onun üstündə bir-birini ayaqlarının altına salır. Hikmət sahibləri isə heç bir vaxt dünyaya rəğbət bəsləməzlər. Çünki onlar bu dünyanın oyun-oyuncaqdan başqa bir şey olmadığını çox gözəl bilirlər. Hikmətli insanlar bu dünyaya və bu dünyanın üstündə bir-birini qıran, öldürən, ayaqlar altına atanlara məhəl qoymazlar. İki uşaq xırda bir oyuncaq üstündə dalaşdıqda ağsaqqal bir insanın onlara baxıb başını buladığı kimi, hikmət sahibləri də dünya malı üstündə bir-biri ilə dalaşanlara elə o cür baxarlar. Görəsən dünyada bu qədər insanın qanı nəyin üstündə tökülür? Görəsən insanlar bir-

[1] Biharül-ənvar,78-ci cild, səh. 412.
[2] Ğürərül-hikəm.

birinə nəyə görə zülm edirlər? Əllərinə beş-on manat pul gəlməsi üçün olmayan cinayətlərə əl atırlar. Beş-on il vəzifədə qalmaq üçün milyonlarla insanın haqqını tapdalayır və onlara zülm edirlər. Başa düşmürlər ki, həmin vəzifəni, yığdıqları mal-dövləti, tikdirdikləri imarətləri özləri ilə apara bilməyəcəklər. Ölüm yetişdikdə bütün bunları dünyada qoyub gedəcək, etdiyi zülm və nahaq əməlləri özü ilə aparacaq. Onlar elə başa düşürlər ki, zülm etməklə, insanların haqqını kəsməklə yığdıqları mal-dövlət onlara ölümdən nicat verəcək. Onlar qiyaməti və ölümü çox uzaqda görürlər. Lakin ölüm addım-addım onların ardınca gəlir. Allah-təala "Məaric" surəsinin 6-7-ci ayələrində belə buyurur:

إِنَّهُمْ يَرَوْنَهُ بَعِيدًا. وَنَرَاهُ قَرِيبًا

-Onlar onu (o günü) uzaq görürlər (mümkünsüz bilərlər). Biz isə onu (mümkün, ya baş verməyə) yaxın görürük.

Məgər insanların ölümü onlar üçün ibrət deyilmi? Məgər gün ərzində neçə insanın dünyasını dəyişdiyini görmürükmü? Müxtəlif qəzalar, müxtəlif faciələr nəticəsində ölənləri görmürükmü? Bəzi insanlar yol gedərkən, su içərkən, süfrə kənarında əyləşərkən və s. kimi hallarda belə dünyalarını dəyişirlər. Məgər bütün bu hallar gözümüzün qarşısında baş vermirmi? Ətini və qanını haramla möhkəmləndirən, zülm etməklə mal-dövlət toplayanlar ölümü çox uzaqda görürlərmi? Elə güman edirlər ki, yığdıqları pullar, tutduqları məqam və vəzifə onları ölümdən xilas edəcək? Tarix boyu səltənət sahiblərinin, vəzifəli insanların, mal-dövlət sahiblərinin son aqibətini görmüşük. Hamısı bir-birinin ardınca dünyadan gediblər.

## Bəhlul danəndə və Harun ər-Rəşid

Günlərin birində Harun ər-Rəşid öz sarayında əyləşib yeməyə hazırlaşırdı. Bu zaman Bəhlul onun yanına girmək istəyir, lakin qapıçı onun qarşısını kəsib soruşur: Hara belə?

Bəhlul: Bu mehmanxanaya.

Qapıçı: Səhv gəlmisən, bura mehmanxana deyil.

Bəhlul: Bəs bura haradır?

Qapıçı: Bura Harunun sarayıdır.

Bəhlul özünü bilməməzliyə vurub təəccüblə dedi: Harun buradamı yaşayır?

Qapıçı: Bəli.

Bəhlul: Harundan qabaq burada kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Bəs ondan qabaq kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Bəs ondan qabaq kim yaşayıb?

Qapıçı: Filankəs.

Bəhlul: Elə isə mən düz gəlmişəm. Bir yerə ki, o gəlib, bu gedib, elə mehmanxanadır.

Haruna xəbər çatdırırlar ki, bir nəfər qapıda dayanıb belə sözlər danışır. Harun bilir ki, bu Bəhluldur. Qapıçılara onu içəri buraxmağı əmr verir. Bəhlul içəri girəndə görür ki, Harun əyləşib yemək yeyir. Deyir: Harun, sənə bir sualım var.

Harun dedi: Bu nə sualdır elə?

Bəhlul dedi: Harun, yeməyin şərti nədir?

Harun dedi: Sualın elə budur? Bunu soruşmağa gəlmisən?

Bəhlul dedi: Məgər bu kiçik sualdır? Cavabını bilirsənsə, de.

Harun dedi: Yeməyə başlayarkən "Bismillah" demək.

Bəhlul dedi: Xeyr.

Harun dedi: Yeməzdən əvvəl əlləri yumaq.

Bəhlul dedi: Xeyr.

Harun dedi: Duzla başlayıb duzla da qurtarmaq.

Bəhlul dedi: Xeyr.

Beləcə Harun iyirmi yeddi müstəhəb əməl saydı. Bəhlul heç birini qəbul etmədi və dedi: Harun, yeməyin bir şərti var. O da budur ki, yeməyi əlinə götürüb yediyin zaman bax gör sənindirsə və halaldırsa ye. Amma sənin deyilsə və haram yeməkdirsə, qoy kənara və ondan çəkin. Yeməyin əsas şərti onun halal olmasıdır. Əgər halal olmasa, nə qədər "Bismillah" desən də xeyri yoxdur.

Həmçinin günlərin birində Harunun qarşısına yemək gətirib qoyurlar. Harun yeməyə baxıb xidmətçilərə deyir: "Bu yeməyi aparıb Bəhlula verin. Xidmətçilər Bəhlulu axtarıb bir xarabalıqda tapırlar. Yeməyi gətirib onun qarşısına qoyurlar. Bəhlul yeməyə baxıb deyir: Bu nədir? Xidmətçilər deyirlər: Bu, Harunun şəxsi yeməyidir, sənin üçün göndərib. Bəhlul xarabalığa göz gəzdirib orada sülənən bir neçə iti görür. Sonra üzünü Harunun xidmətçilərinə tutub deyir: Bu yeməyi aparın o itlərə verin. Xidmətçilərdən biri həyəcanla deyir: Nə danışırsan, bu, Harunun öz yeməyidir! Bunu sənin üçün göndərib! Bəhlul barmağını dodaqlarına yaxınlaşdırıb deyir: Sus, itlər də bilsə ki, bu yeməyi Harun göndərib, onlar da yeməzlər."

Buna görə də Həzrət Əli(ə) buyurur ki, hikmət insanda elə bir hal yaradar ki, dünyanı çox kiçik görər və ona meyl göstərməz. Hikmətli insan heç bir vaxt dünyaya görə, harama görə insanları ayaqlamaz. Hikmət elə bir şeydir ki, insanın cənnətə düşməsinə səbəb olar. Əgər insan hikmət sahibi olmasa, cənnəti necə əldə edə bilər? Hikmət insanı haramlardan və günahlardan qoruyur. Hamı cənnətə getmək istəyir, amma bu yolda çalışmasa, necə gedə bilər? Cənnətə düşmək üçün bu dünyada çalışmaq, Allahın buyurduqlarını yerinə yetirmək lazımdır. Dünyaya başı qarışmış, yalnız

mal-dövlət toplamaqla məşğul olan insanlar cənnəti necə qazana bilərlər?

Şairlərdən biri çox gözəl şeir yazmışdır. Həmin şerin bir bəndi belədir.

دنيا طلبديم و به جای نرسيديم, آيا چه شود آخرت نا طلبده

-Dünyanı sevib istəyərək bir yerə çata bilmədik (heç nə əldə edə bilmədik). Tələb etmədiyimiz (istəmədiyimiz) axirətdə nə əldə edəcəyik?

## Hikmətli insanın əlamət və xüsusiyyətləri

Hikmətli insanın müəyyən əlamətləri və xüsusiyyətləri vardır. Hikmət sahibi olan şəxs bu dünyada qarşısına çıxan hər bir hadisədə özünü itirməz. Hikmətli insan önünə çıxan bütün hadisələrin qarşısında dağ kimi möhkəm olar. Heç bir hadisə onu əsla dəyişdirə bilməz. Kərbəla hadisəsinə nəzər saldıqda görürük ki, başda İmam Hüseynin(ə) özü olmaqla onun bütün yaxın tərəfdarlarının da ürəyi buz kimi sərin idi. Düşmən qoşununun çoxluğu zərrə qədər də olsa onlara təsir göstərə bilmədi. Aşura gecəsi onlar bilirdilər ki, səhər qanlarına qəltan ediləcəklər. Onların ürəyində zərrə qədər də olsa qorxu hissi qalmamışdı. Çünki sabah gedəcəkləri yeri artıq görmüşdülər. Otuz mindən beş yüz minədək adam toplaşıb onları öldürmək üçün Kərbəlaya gəlmişdilər. Lakin İmam Hüseyn(ə) və onun vəfalı səhabələri bilirdilər ki, sabah Həzrət Peyğəmbərin(s) ziyarətinə gedəcəklər. Heç bir nigarançılıq və qorxuları yox idi. Buna görə də bəzi səhabələr həmin gecə bir-biri ilə zarafatlaşır və deyib gülürdülər.

Bureyr İmam Hüseynin(ə) şərafətli səhabələrindən biri idi. O, Kərbəlada İmam Hüseynin(ə) yanında şəhid oldu.

Əbdürrəhman Ənsari deyir: “Aşura gecəsi gördüm ki, Bureyr səhabələrlə zarafat edib gülür. Öz-özümə təəccüb etdim ki, axı Bureyr zarafatcıl insan deyil. Necə ola bilər ki, bu gecə onu belə bir halda görürəm? Yaxınlaşıb dedim: Bureyr, mən səni indiyə qədər zarafat edən və deyib gülən görməmişdim. Bu gecə şən olmağının səbəbi nədir belə? Bureyr dedi: And olsun Allaha ki, mən heç cavanlığımda belə zarafat etməzdim. Bunu mənim qohum-əqrəbam yaxşı bilir. Amma bu gecə zarafat gecəsidir. Çünki bizimlə cənnətin nemətləri və hurilər arasında bircə ölüm pərdəsidir. Bir neçə saatdan sonra cənnətdə həmin nemətlərə qovuşacağıq.”

Odur ki, hikmətli insan heç bir vaxt qarşısına çıxan hadisələrdə özünü itirməz. Dünyanı başına çevirsələr də belə yenə də ürəyi buz kimi sərin və dağ kimi möhkəm olar. Çünki hikmətli insan həmişə Allahın buyurduğuna əsasən hərəkət edər və öhdəsinə düşən dini vəzifəsini tam incəlikləri ilə yerinə yetirər.

Hikmətli insanın əlamətlərindən biri də budur ki, hər nə iş görərsə, sonda gördüyü işdən razı qalar. Yəni işlərini düz və qayda-qanunla yerinə yetirdiyi üçün heç bir problemlə qarşılaşmaz.

Hikmətli insanın əlamətlərindən biri də odur ki, harada olmasından asılı olmayaraq gecə vaxtı çıraq insana yolu göstərdiyi kimi, insanlara yol göstərər və onları hidayət edər. Harada olsa ətrafını işıqlandırıb oradakı insanları haqqa tərəf yönəldər.

قَالَ رَسُولُ اللهُ(ص): يَا عَلِيّ! لأَن يَهدِيَ اللهُ عَلَى يَدَيكَ عَبدًا مِن عِبَادِ اللهِ خَيرٌ لَكَ مِمَّا طَلَعَت عَلَيْهِ  الشَّمس مِن مَشارِقِهَا وَ مَغَارِبِهَا

-Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: “Ya Əli, əgər Allah- təala Öz bəndələrindən bircə bəndəni sənin əlinlə

hidayət edərsə (Allahın bircə bəndəsini düz yola qaytarıb hidayət etsən), bu sənin üçün günəşin məşriq və məğribdə olanların üzərinə nur saçmasından daha xeyirlidir.”[1]

Əgər insan bir nəfəri Allah yoluna gətirib onu hidayət etsə, onun bu əməli dünyada olanların hamısından daha xeyirli və yaxşıdır. Hədislərdə belə nəql olunmuşdur ki, Allah yolunda cihad edən insanın savabı həddindən artıq çoxdur. Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulallah! Allah yolunda cihad edən insanın savabı nə qədərdir? Həzrət(s) buyurdu: Allah yolunda cihada getmək istəyən kəs miniyinə minib hərəkət edərkən mələklər gəlib onun qulağına deyərlər: Sən cəhənnəmdən nicat tapdın. Həmin mücahid meydana girib mübarizəsinə başladıqda mələklər onun qulağına deyərlər: İndiyədək etdiyin bütün günahların silindi. Yaralanıb miniyindən yerə düşdüyü zaman mələklər onun qulağına deyərlər: Cənnət sənə mübarək olsun. Şəhid olduqdan sonra qiyamət günü nurdan ata minmiş halda bütün peyğəmbərlərin qarşısından keçib birbaşa cənnətə daxil olacaqsan. Heç kəsin, hətta mələklərin belə ona “hara gedirsən?” - deməyə ixtiyarı çatmayacaq.”

Həzrət Peyğəmbər(s) bu sözləri söylədikdən sonra buyurdu: “Əgər bir bəndə sənin vasitənlə hidayət olub Allaha səcdə etsə, sənin bu əməlinin (onu hidayət etməyinin) savabı həmin mücahidin savabından daha çoxdur.”

Hər kim belə bir savaba nail olmaq istəyirsə, mütləq Allahın bəndələrini bacardığı qədər hidayət etməlidir. “Əmr be-məruf” (yaxşılığa dəvət) etməklə yoldan çıxmış bəndələri başa salıb düz yola qaytarmalıdır. Düşmənlər həmişə əlbir olub İslam dinini insanların nəzərindən salmaq istəyirlər. Onlar məqalələrin, televiziya verilişlərinin, çıxışların və

---

[1] Biharül-ənvar,1-ci cild, səh. 216.

müxtəlif vasitələrin köməyi ilə özlərini haqq tərəfdarı kimi qələmə verərək, İslamın pis, özlərinin isə yaxşı olduqlarını insanların beyninə yeridirlər. Onlar özləri cəhənnəmlik olduqlarından istəyirlər ki, digər insanları da özləri ilə bərabər cəhənnəmə aparsınlar. Belə bir zamanda hər bir kəs öz dostunu, yaxın adamlarını bütün çirkinliklərdən, zülmətdən xilas edib aqibətini xeyirli edirsə, bu onun üçün ən yaxşı əməllərdəndir və bunun böyük savabı vardır. Hikmətli insanın xüsusiyyətlərindən biri budur ki, ətrafını işıqlandıraraq dövrəsində olan insanları haqq yola yönəldir.

Hikmətli insanın əlamət və nişanələrindən biri də budur ki, heç bir vaxt kiminsə onu tərifləməsini sevməz. Yəni kimsə onu tərifləyəndə üzündə və qəlbində heç bir dəyişiklik olmaz və onu tərifləmələrindən xoşhal olmaz.

قَالَ عَلِيّ(ع): وَ لا بِحَكِيمٍ مَن رَضِىَ بِثَنَاءِ الْجَاهِلِ عَلَيه

-İmam Əli (ə) belə buyurur: ”Hikmətli insana cahillərin onu tərifləməsinə razı olmaq yaraşmaz.”[1]

Hikmət sahibi olan insanı belə bir əlamətlə də tanımaq olar ki, onu tərifləyəndə üzündə əsla heç bir dəyişiklik baş verməz. Əgər insan başqalarının tərifi ilə haldan-hala düşürsə, xoşhal olursa, yaxud bundan ləzzət alırsa, deməli həmin şəxsin qəlbində hikmət yoxdur. Ümumiyyətlə, başqalarının tərifinin təsiri altına düşən insanın çəkisi də çox yüngül olar. Belə ki, tariflər sayəsində çaş-baş qalar və öz-özünə fərəhlənməyə başlayar. Belə insanlar sanki ağcaqanada bənzəyərlər və azacıq külək əsdikdə onları da götürüb özü ilə aparar. Ağcaqanad heç bir vaxt küləyin əks-istiqamətində uça bilmir. Çünki onun çəkisi çox yüngül olduğundan külək onu əsdiyi istiqamətə aparar.

[1] Biharül-ənvar,1-ci cild, səh. 216.

Ağcaqanadlar nə qədər çox olsalar da, küləyə gücləri çatmaz. Buna görə də təriflərdən xoşhal olan, təriflərin təsiri altına düşən insanın qəlbində hikmət olmaz. Hikmətli insan möhkəm dağa bənzəyər ki, heç bir külək (tərif) onu yerindən oynada bilməz.

## İnsanda hikmət yaradan amillər

Yuxarıda hikmətin mənası və hikmətli insanın əlamət və xüsusiyyətləri barədə müəyyən qədər söz açdıq. Bu bəhsimizdə hikmət bəhsinə əlavə olaraq bir mətləbi də artırmağı məsləhət görürəm. Həmin mətləb budur ki, görəsən hansı əməllər insanın qəlbində hikmətin yaranmasına səbəb ola bilər?

Bu sualın cavabı belədir ki, insanın qəlbində hikmətin əmələ gəlməsinin ən əsas və birinci səbəbi nəfslə mübarizə və onunla müxalifətçilik etməkdir.

### 1. Nəfslə mübarizə

Quran ayələrində və hədislərdə mənəviyyatdan, nuraniyyətdən, təmizlikdən, paklıq və təqvadan söhbət açıldıqda ilk növbədə nəfsi istəklərlə mübarizə məsələsi qarşıya çıxır. Yəni buradan başa düşülür ki, nəfsi istəklər insanın ən birinci və qəddar düşmənlərindən biridir. Əgər insan hər hansı yollarla təqva və paklığa çatmaq istəsə, yaxud Allaha yaxınlaşmaq istəsə, həmin yolların əvvəli nəfslə mübarizə etməkdir. Nəfs insanın daxilində olan elə bir qüvvədir ki, əgər insan onunla mübarizə etməsə, o, insanı şərafətə və izzətə çatmağa qoymaz. Əgər insan nəfsi istəklərinin qarşısını almasa, heç bir nuraniyyətə, izzət və şərafətə çata bilməz.

Yəhya Peyğəmbərin(ə) dövründə bir nəfəri günah iş gördüyünə görə daşqalaq etmək istəyirdilər. Günahkar şəxs Yəhya Peyğəmbərə(ə) dedi: "Ey Yəhya(ə), mən öz günahımı boynuma alıram və məni daşqalaq etməyə də razıyam. Amma səndən xahişim budur ki, məni daşqalaq edənlərin özləri mən etdiyim günahdan etmiş olmasınlar. Əgər mənə daş vuranlar mənim kimi günahkardılarsa, onda bizim nə fərqimiz var?"

Yəhya Peyğəmbərin(ə) bu sözlərdən çox xoşu gəldi. Üzünü camaata tutub buyurdu: "Kimin bunun etdiyi günah kimi günahı varsa, o, daş atmasın." Camaat bu sözü eşidən kimi əllərindəki daşları yerə atıb öz evlərinə dağılışdılar. Yəhya Peyğəmbər(ə) həmin günahkarın yanına gəlib dedi: "Elə bil sənin qəlbində təqva və nuraniyyət var. Mənə nəsihət et." Günahkar şəxs Yəhya Peyğəmbərə(ə) üç nəsihət etdi. Onun bu nəsihətlərini imamlarımız da təsdiqləmişlər. Günahkar şəxsin Yəhya Peyğəmbərə(ə) etdiyi nəsihətlərdən biri bu idi: "Ey Yəhya(ə), mən öz nəfsi istəklərimə tabe oldum və günaha batdım. Əgər istəyirsənsə Allah sənə qiymət, şərəf, izzət versin və heç bir vaxt zillətə düşməyini, mənim kimi alçalıb xar olmağını, Allah və mələklərin yanında abrının getməsini istəmirsənsə, o zaman nəfsani istəklərinə tabe olma."

Odur ki, hər kəs qəlbində hikmət yaranmasını istəyirsə, ilk növbədə nəfsi ilə mübarizə etməlidir. Nəfs insanın daxilində olan elə bir qüvvədir ki, həmişə rahatlıq istəyir. Məsələn, orucluq ayında insanı daxildən nə isə yemək yeməyə həvəsləndirir. Nəfs sübh azan verilərkən insanı yatmağa vadar etmək istəyir. İman və ağıl insanı oruc tutmağa və namaz qılmağa, nəfs isə onların əksinə əməl etməyə səsləyir. Naməhrəmlə qarşılaşdıqda iman insana ona baxmamağı tövsiyə edir. Nəfs isə içəridən insanı naməhrəmə baxmağa çağırır. Həmçinin spirtli içkini tərgidən bir insanı

bir daha içməyə həvəsləndirir. Beləliklə ağıl və iman insanı səadətə tərəf, nəfs isə bədbəxtliyə tərəf dartır. Bir sözlə desək, nəfs elə bir şeydir ki, insanı harama, günaha, Allaha itaətsizliyə tərəf sürükləməyə cəhd göstərir. Buna görə də qəlbində hikmət və nuraniyyət yaranmasını istəyən hər bir kəs ilk növbədə nəfsi ilə mübarizə etməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): جَاهِدُوا اَنفُسَكُم عَلَى اَهوائِكُم تَحِلُّ قُلُوبَكُم الْحِكْمَةَ

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Öz nəfsi istəklərinizlə mübarizə aparın ki, qəlbləriniz hikmətlə dolsun."

İnsan nəfsini ayağının altına qoymayınca qəlbinə hikmət daxil olmaz. Qəlbdə nəfslə hikmət bir yerə sığmaz. Buna görə də hikmət axtaran kəs mütləq nəfsi ilə mübarizə aparıb onu məğlub etməlidir. Hədislərdə deyilir ki, “qəlb Allahın hərəmidir. Allahdan başqasını ora daxil olmağa qoymayın.” Əgər qəlb Allahın hərəmidirsə, bəs nə üçün insan ora daxil olmağa başqasına icazə verməlidir. Əgər insan başqalarının (mal-dövlət, dünya və s.) məhəbbətini qəlbinə doldursa, bu zaman orada Allaha məhəbbət qalmayacaq. Buna görə də insan nəfsi istəklərini qətiyyən qəlbinə daxil olmağa qoymamalıdır. Allah-təala “Sad” surəsinin 64-cü ayəsində buyurur:

وَلَا تَتَّبِعِ الْهَوَى فَيُضِلَّكَ عَن سَبِيلِ اللَّه

-Və nəfsi istəklərə tabe olma ki, o, səni Allahın yolundan azdırar.

Nəfsi istəklərin xüsusiyyəti budur ki, insanı həvəsləndirərək yavaş-yavaş Allahın yolundan çıxardar. Buna görə də insan əvvəlcədən onun qarşısını almalı və güclənməyə qoymamalıdır. İnsan həmişə diqqətli olmalıdır ki,

nəfs insana qələbə çalmasın. Nəfs hansı yerdə qələbə çalırsa, insanı bədbəxt edir.

Hikmət elə bir şeydir ki, hər adamın qəlbinə daxil olmaz. Məsələn, bazarda hər şeyin satıldığını görürük. Hər bir şeydən müxtəlif ölçülərdə tapmaq olar. Lakin hikmətin bazarı çox kasaddır. Kasadlıq o vaxt olur ki, bir şeyin müştərisi az olsun. Dünyanın bər-bəzəyini, pulunu, var-dövlətini gördükdən sonra hikmət fikrinə düşənlər çox az tapılar. Həmçinin hikməti hər bir insana verməzlər. Hikmət əldə etmək istəyən kəs mütləq onun şərtlərinə də riayət etməlidir. Hikmət seçilmiş, saf, təmiz və təqvalı insanlara verilər. Alma ağacında əgər bir dənə saf alma varsa, bu, minlərlə qurd yemiş almadan daha yaxşıdır. Ağacda min dənə qurd yemiş almadansa bir alma olsun, amma şirin, gözəl və yetişmiş olsun. Allah-təala insanı yaradarkən mələklər dedilər: "İnsan gəlib yer üzündə qan tökəcək, fəsad yaradacaq." Allah-təala Fatimeyi Zəhranın(s.ə) ibadətini mələklərə göstərib buyurdu: "Mən insanı yaradarkən siz etiraz edirdiniz. Baxın mənim bəndəmə! Görün Mənə necə ibadət edir? Bütün insanları bircə bu bəndəmə xatir yaratmışam. Qoyun kim qan tökür töksün, kim nə istəyir etsin. Amma bilin ki, bəndələrimin içərisində Zəhra(s.ə) kimi bəndəm də var."

Əgər bağban ağacları və gülləri suvarırsa, həmin güllərin sayəsində otlar və alaqlar da su içirlər. Bircə gülün sayəsində nə qədər acı və heyvan yeməyən alaq otlar da su içirlər. Bütün bu aləm, dünya, yer, göy və yaradılışın hamısı insan üçündür. İnsanların içərisində də Allah bir neçə nəfərə görə hamya nemətlərini verir. Məsələn, bir məktəbdə minlərlə şagird oxuyursa, onların içərisindən beş nəfəri böyük alim olur və dünyada tanınırlar. Məktəbdə oxuyanların hamısı alim olmur. Həmin beş nəfər alimin yetişməsi üçün minlərlə tələbə olmalıdır ki, onların içərisindən ortaya çıxsınlar.

İnsanların hamısı şərafətə, izzətə, nuraniyyətə çatmır. Onların içərisində elələri də vardır ki, Quran onları heyvandan daha alçaq hesab edir. Qəlbində nuraniyyət və hikmət yaranmasını istəyən hər bir kəs ilk növbədə nəfsini ayağının altına qoyub sındırmalıdır.

## 2. İxlas

İnsanın qəlbində hikmətin yaranmasının ikinci amili ixlasdır. İxlas niyyətin saf və pak olmasına deyilir. İnsan nəfsini sındırdıqdan sonra növbə ixlasa yetişir. Hikmətin müştərisi mütləq niyyətini saflaşdırmalı və ixlaslı olmalıdır. Allah-təala da insanlardan əməllərini sırf Ona xatir olanlarını qəbul edir. Əgər insan Allaha xatir etdiyi əməlin niyyətində başqasını da şərik qoşarsa, Allah həmin əməli qəbul etmir. İxlas insan üçün çox mühüm amillərdən biridir. İxlas barədə bir çox hədis və rəvayətlər vardır. Hər kəsin niyyəti pak olarsa, Allah-təala həmin şəxsin qəlbini hikmətlə doldurar.

قَالَ رَسُولُ اللهِ(ص): مَا مِن عَبدٍ يَخلُصُ لِلّٰهِ العَمَلَ اَربَعِينَ يَومًا اِلّا ظَهَرت يَنابِيعُ الْحِكمَة مِن قَلبِهِ عَلَى لِسَانِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs əməllərini qırx gün sırf Allaha xatir (ixlasla) yerinə yetirərsə, hikmətin mənbələri həmin şəxsin qəlbindən dilinə axıb gələr."

Beləliklə hər kəs ibadətlərini, xırda və böyük hərəkətlərini, hətta uşağı üçün hədiyyə almasını, valideyninə qulluq etməsini və s. əməllərini sırf Allaha xatir yerinə yetirərsə, belə bir insanın qəlbində yavaş-yavaş hikmət nuru əmələ gələr. İnsanın qəlbində hikmət nuru yarandıqda isə adi insanların görmədiyi, hiss etmədiyi şeyləri görüb hiss edər. Lakin bunu qəlbində bir sirr olaraq saxlamalı və lazım olmayan yerdə açıb söyləməməlidir.

Böyük ustadların biri mədrəsədə dərs deyirdi. O, hikmətli insanlardan biri idi. Günlərin birində tələbələrdən biri dəstəmazsız halda dərsə gəlmişdi. Həmin ustad ona buyurdu: “Nə üçün dərsə dəstəmazsız gəlmisən? Get dəstəmaz al, sonra dərsdə iştirak elə.” Tələbə pərt halda sinfi tərk etdi. Yazırlar ki, Allah həmin ustaddan bəsirəti və səlahiyyəti aldı. Çünki camaatın içində həmin şagirdi pərt etmiş və gizli saxlamalı olduğu bir şeyi açıb ağartmışdı. Əgər insanın qəlbinə hikmət dolsa, Allah-təala onun gözlərini açar və ona başqalarının görmədiyi şeyləri görmək səlahiyyəti verər.

## 3. Təqva

İnsanın qəlbində hikmət yaradan amillərdən üçüncüsü təqvadır. Yuxarıda qeyd etdiyimiz iki amil insanın daxilinə aid olan məsələlərdir. Lakin təqva və bundan sonra gələcək amillər isə insanın zahirinə və əməllərinə aid məsələlərdir. Təqva barədə də çox söhbətlər etmək və hədislər söyləmək olar. Təqvanın mənası hədislərdə belə buyurulmuşdur:

-İmam Sadiqdən(ə) təqvanın mənasını soruşduqda, Həzrət(ə) cavab verərək belə buyurdu:

قَالَ الصَّادِقُ(ع): أَنْ لا يَفْقُدَكَ اللهُ حَيْثُ أَمَرَكَ وَ لا يَرَاكَ حَيْثُ نَهَاكَ

-Təqva odur ki, Allah sənin harada olmağını əmr etdikdə səni orada itirməsin və harada olmamağını əmr edibsə, səni orada görməsin.

Təqva odur ki, insan tikanlıqda ayaqyalın gəzdiyi kimi, halal-harama da riayət edərək ehtiyatlı yaşasın. Yəni insan tikanlıqda ehtiyatla yeriyir ki, tikan ayağına batmasın. Əməllərində də harama düşməmək üçün ehtiyatlı olmalıdır. Yeməyində, gəzməyində, baxmağında, danışığında və bütün hərəkətlərində diqqətli olmalıdır. Təqva odur ki, insan

Allahın əmrlərini lazım olduğu kimi yerinə yetirib, qadağan etdiyi şeylərdən də çəkinsin. Təqva odur ki, insan Allahın onun üçün müəyyən etdiyi cızıq və xətləri keçməsin.

## 4. Az yemək və az danışmaq

Hikmət sahibi olmaq istəyən hər bir kəs, hikmət bazarında müştəri olmaq istəyən hər bir şəxs az yeməli və az danışmalıdır. Burada söhbət haram yeməklərdən və haram danışıqlardan getmir. Haram yemək və haram danışmaq təqva məsələsidir və biz bunu artıq yuxarıda qeyd etdik. Burada söhbət halal yeməkdən və halal danışmaqdan gedir. Qəlbində hikmət yaratmaq istəyən insan az yeməklə və az danışmaqla kifayətlənməlidir. Qarnını yeməklə dolduran və çox danışan insanın qəlbində hikmət yaranmaz.

Həzrət Əli(ə) hikmətin mənbəyi və bu xüsusiyyətin bariz nümunəsidir. Özü də buyurmuşdur: “Allah mənə haramlardan çəkinməyi əmr etdi, mən halallardan da çəkindim. Allah Adəmə buyurmuşdu ki, buğdanı yeməsin. Lakin Adəm yedi. Mənə isə buğdanı halal buyurmasına baxmayaraq, mən ömrümün axırına qədər buğda çörəyi yemədim.”

Allah-təala Merac gecəsi Peyğəmbərə(s) hikmət barədə belə buyurdu:

يَا اَحمَد! اِنَّ العَبدَ اِذَا اَجاعَ بَطنَه وَ حَفِظَ لِسَانَهُ عَلمتُه الْحِكمَة

-Ey Əhməd! Həqiqətən, bəndə qarnını ac saxlayıb dilini qorusa, Mən ona hikmət öyrədərəm.[1]

Hikmətli olmaq istəyən insan gərək qarnını tox saxlamasın və çox danışmasın. Burada söhbət insanın varlı və yaxud kasıb olmasından getmir. Ola bilsin ki, bir insanın

---

[1] Biharül-ənvar, 77-ci cild, səh. 29.

halal var-dövləti də çox olmuş olsun. Lakin həmin insan hikmət axtarırsa, çox yeməməlidir. Həzrət Süleyman(ə) həm peyğəmbər idi, həm də padşah. Hər gün onun sarayında qazanlar qaynayır və yeməklər bişirilirdi. Hər gün minlərlə insan onun süfrəsində əyləşib yemək yeyirdi. Lakin onun özünə gəldikdə isə azacıq quru çörək tikəsi ilə kifayətlənirdi. Bu o demək deyildi ki, Süleymanın(ə) yeməyə heç nəyi yox idi. Minlərlə insana yemək verirdi, lakin özünə çox yeməyi qadağa qoymuşdu. Bilirdi ki, çox yeyən insanın qəlbində hikmət olmaz. Həzrət Süleyman(ə) həm peyğəmbər olduğu üçün, həm də hikmət sahibi olduğundan az yeyər və az danışardı.

Günlərin birində bir nəfər yolda həzrət Loğmanla rastlaşır. Diqqətlə ona baxıb deyir: "Sən filankəsin qulu deyildinmi?

Loğman deyir: Bəli, onun qulu idim.

Həmin şəxs deyir: Bəs necə oldu ki, Loğman oldun?

Loğman deyir:

-Danışanda düz danışdım (heç vaxt yalan söz söyləmədim);

-Heç vaxt əmanətə xəyanət etmədim (əmanəti olduğu kimi sahibinə qaytardım);

-Mənə xeyri olmayan işlərdən çəkindim;

-Gözümü naməhrəmə baxmaqdan yumdum;

-Dilimi haram danışıqlardan saxladım;

-Haram yeməklərdən çəkindim.

Hər kəs bunlara riayət etməsə, məndən aşağı səviyyədədir. Bundan daha çoxuna əməl edən məndən üstün, eynilə bunlara riayət edən isə mənimlə eyni səviyyədədir."[1]

[1] Biharül-ənvar,13-cü cild, səh. 426.

## Hikmətin fayda və nəticəsi

Beləliklə, hikmət axtaran insan buyurub mənəviyyat bazarına təşrif gətirə bilər. Sadalanan bütün şərt və xüsusiyyətlər əsasında hikmət sahibi ola bilər. Hikmət təkcə peyğəmbərlərə verilmir. Hər kəs hikmətin müştərisi olsa, müəyyən olunmuş qiymət əsasında ona da verilər. Hər kəs hikmət sahibi olsa, bütün məsələlər onun üçün aydın olacaq və heç bir çətinliyə düşməyəcək. Çünki hikmət verilən insan haqq ilə batili bir- birindən ayırd edə bilər. Allah-təala "Ənfal" surəsinin 29-cu ayəsində buyurur:

يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ إَن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً وَيُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

-Ey iman gətirənlər, əgər Allahdan qorxsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər, sizin (kiçik) günahlarınızı təmizləyər və sizi bağışlayar. Allah böyük lütf və ehsan sahibidir.

Bazarda ticarətlə məşğul olan insanlardan biri başına gələn hadisəni belə danışır: "Biz iki yoldaş ticarətlə məşğul idik. Bir gün məscidə getmişdim. Gördüm ki, İslam aləmində böyük alimlərdən biri olan Ayətullah Şahabadi moizə edir. Əyləşib ona qulaq asmağa başladım. Moizənin sonunda gileylənərək dedi: "Siz adam olan deyilsiniz, məni boş yerə danışdırırsınız."

Onun bu sözlərindən çox təəccübləndik. Öz-özümə dedim ki, çox heyiflər olsun. Belə böyük bir alimin danışığına bax. Onun sözləri mənə şox təsir etmişdi. Bir gün vaxtı müəyyən edib onun yanına getdik. Onun məsciddə söylədiyi sözün mənasını soruşmaqdan utandım. Lakin üstüörtülü şəkildə dedim: "Biz sənin yanına adam olmağa

gəlmişik.” O buyurdu: “Çox gözəl. Əgər belədirsə, mən sizi qəbul edirəm. Kağız-qələm götürüb dediklərimi yazın. Birincisi, bu saatdan etibarən vacib namazlarınızı vaxtlı-vaxtında camaatla qılacaqsınız. İkincisi, hər il qazandığınız malın xüms və zəkatını verəcəksiniz. Üçüncüsü, alver edərkən malın üstünə çox pul qoymayacaq və insafla alver edəcəksiniz. Bunlara üç ay riayət etdikdən sonra yanıma gələrsiniz.”

Biz onun buyurduqlarına əməl edəcəyimizə söz verib otaqdan çıxdıq. Elə həmin gündən onun buyurduğu proqram əsasında hərəkətə başladıq. Biz onun yanına rəcəb ayında getmişdik. Rəcəb ayı keçdi, şaban ayı da qurtardı. Ramazan ayı artıq girmişdi. Bizim üç ayımızın tamam olmasına hələ qalırdı. Harada azan səsi eşidirdiksə, gedib həmin məsciddə namazımızı camaatla birgə qılırdıq. Alverdə də camaatla təmiz və insafla rəftar edirdik. Beləliklə iki ay keçdi. Günlərin birində işlə əlaqədar başqa yerə getmişdim. Günorta vaxtı birdən azan səsini eşitdim. Ətrafımda olanlardan məscidin yerini soruşdum. Mənə məscidin yolunu göstərdilər. Həmin məscidə daxil olduqda gördüm ki, camaat namaza hazırlaşır. Mən də qabaq cərgələrin birində əyləşdim. Bir nəfər ruhani həmin məsciddə pişnamazlıq edirdi. O, keçib mehrabda dayandı və namaza başladı. Hamımız ona iqtida edib namaza qoşulduq. Namazın ortalarında birdən gördüm ki, pişnamaz yoxa çıxdı. Bir neçə saniyə keçmişdi ki, yenidən qayıtdı. Bir az keçmişdi ki, pişnamaz bir də yoxa çıxdı və yenə qayıtdı. Bu hadisəni gördükdə öz-özümə təəccübləndim. Namaz qurtardıqdan sonra ona yaxınlaşıb soruşdum: Ağa, siz namazın üstündə iki dəfə hara gedib qayıtdınız? O, mənim sözlərimi dinləyib başını aşağı saldı. Başa düşdü ki, mən onun bu işindən xəbərdar olduğumu hiss etmişəm. Sonra mənə dedi: Sən hər şeyi olduğu kimi görmüsən. Bu gün

evdən çıxanda çox narahat idim. Namaz qılanda iki dəfə fikrim başqa yerə getdi və qayıtdı. Sənin bəsirətin açıq olduğu üçün bunu gördün.

Həmin gündən sonra daha Ayətullah Şahabadinin yanına getmədik. Elə həmin proqramla davam etməyə başladıq. Allah-təala bu əməlimizin müqabilində bizə hər nə lazım idisə inayət etmişdi. Həmin inayətlərdən birincisi pişnamazın namaz halında fikrinin yayınaraq gözümün önündən yoxa çıxması və yenidən qayıtması idi.”

Ayətullah Mərəşi Nəcəfinin zamanında bir nəfər polis işçisi başına gələn əhvalatı danışaraq belə deyir: “Mən Qum şəhərində Xanım Məsumənin(s.ə) hərəminin kənarında yolda nəzarətçi işləyirdim. O zamanlar İsfahan maşınları gəlib hərəmin kənarında dayanardı. Bəzi yerlərdə maşın saxlamağa icazə verilmirdi. Mən həmin icazə verilməyən yerlərdə maşınlardan rüşvət olaraq pul alır və onları ora buraxırdım. Gecələrin birində boynuma qüsl düşmüşdü. Öz-özümə fikirləşdim ki, sübh azanında hamam açılan kimi gedib qüsl verərəm. Elə həmin vaxt bir maşın gəldi. Mən onu yerbəyer etdikdən sonra mənə beş qran pul verdi. Pulu cibimə qoyub fikirləşdim ki, hamamçıya verərəm. Ayətullah Nəcəfinin evi hərəmin yanında idi. O, hər gün sübh namazından əvvəl hərəmə gəlib ibadətlə məşğul olurdu. Sübh azanına yaxın gördüm ki, Ayətullah Nəcəfi tindən çıxıb hərəmə sarı gəlir. Mən yolun o biri tayında idim. Həmişə yolun kənarı ilə gəlib hərəmə daxil olardı. Bu dəfə isə gördüm ki, yolu keçib mənə sarı gəlir. Hiss etdim ki, mənə yaxınlaşır. Mən də hörmət əlaməti olaraq ona sarı gedib görüşüb salamlaşdım. O, salamımın cavabını aldıqdan sonra cibindən bir tümən çıxarıb mənə verdi və buyurdu: “Qazandığın pulla yox, bu pulla qüsl verərsən.” Mən başa düşdüm ki, Ayətullah Nəcəfi mənim boynumda qüsl

olmasından və gecə maşınlardan pul almağımdan belə xəbərdardır."

Odur ki, insan əgər özünü günahlardan qorusa, özünü öz qiymətindən ucuz satmasa, Allah-təala həmin şəxsi hikmətli edər. Əgər insan onun üçün qoyulan şərtlərə dəqiqliklə riayət etsə, öz qiymətini tapar və Allah ona xüsusi mərhəmət və inayət göstərər.

## Haqqa itaət etmək

Peyğəmbərlərin əsas məqsədləri insanların ruhunu təmizləyib paklaşdırmaq, günah çirkabından çıxarmaq, onlara şeytanın hiylə və tələlərindən nicat vermək olmuşdur. Peyğəmbərlər insanları Allahın yoluna, nura-niyyətə, paklığa, təqvaya, pak ruha hidayət etmək üçün çalışmışlar. Bütün peyğəmbərlər, şəxsən İslam Peyğəmbəri(s), həmçinin məsum imamlar insanın ruhunun paklaşması üçün onlara müəyyən amilləri buyurmuşlar. Yəni nəfsini təmizləyib ruhunu paklaşdırmaq istəyən hər bir insan mütləq bu amilləri öyrənib dəqiqliklə onlara riayət etməlidir. Ötən bəhslərimizdə bu amillərdən bir neçəsi ilə tanış olduq. Paklaşmağın yollarından, insanları təqvaya çatdıran və ruhlarını paklaşdıran amillərdən dördüncüsü haqqa itaət etməkdən ibarətdir. Ruhunu paklaşdırmaq istəyən hər bir şəxs mütləq haqqın qarşısında boyun əyməli və ona itaət etməlidir.

Dünyada haqq ilə batil üz-üzə dayanmışlar və onların hər birinin tərəfdarları, başçısı və danışmağa sözü vardır. Haqq ilə batil hərəsi bir yoldan ibarətdir və onların hansını seçmək lazım olduğuna gəldikdə isə, bu seçim insanın öz ixtiyarındadır. Bu iki yolun ayrıcında dayanan insan onlardan birini mütləq seçməlidir. Peyğəmbərlər haqq yolu

göstərmək və yönəltmək üçün insanlara həmişə kömək etmişlər. Allah- təala insanın bu seçimində heç bir kəsi məcbur etmir. Allah-təala Qurani-Kərimdə buyurur ki, biz insana iki yolu göstərdik. Digər ayədə isə insana hidayət yolunun hansı olduğunu göstərdiyini bəyan edir. Lakin insan bu yolları seçməkdə azaddır.

Allah-təala peyğəmbərləri insanlara düz yolu göstərmək üçün göndərdi. Onlar haqq-həqiqət yolunu insanlara başa salıb onları bu yola dəvət etmişlər. Şeytan da insanı batil yola tərəf dəvət edir. Həmçinin insanın daxilində ağıl və nəfs kimi qüvvələr də mövcuddur ki, biri insanı haqqa, digəri isə batilə tərəf dəvət edir. Burada insanın onlardan hansının dəvətini qəbul edib yolu təyin etməsi öz ixtiyarındadır.

İnsanın hidayət olunması və düz yola qədəm qoyması zəngli saatın müəyyən vaxt üçün qurulmasına bənzəmir. Yəni insanın hidayət olunması və ya zəlalətə düşməsi üçün müəyyən bir vaxt təyin olunmur. Çünki həm Allahın feyz və rəhməti anbaan nazil olur, həm də insanların həmin feyzdən bəhrələnməsi, haqq və batil yolu müəyyənləşdirməsi hər an diqqət altına alınır. Yəni insan bu yolların seçimində çox diqqətli olmalıdır.  Bu, insanın seçim nöqtəsi, izzət və ya zillət tapan yeridir. Bu iki yolun ayrıcında seçim nəticəsində insan ya xoşbəxt, ya da bədbəxt olur.

Bu yol ayrıcında insan ya pərvaz edib ərşi-əlaya səyahət edir, ya da tənəzzülə uğrayıb cəhənnəmin dibinə yönəlir. Buna görə də Allah-təala insana hər gün namazlarda on dəfə "İhdinəs-siratəl müstəqim", yəni "bizi doğru yola hidayət et" deməyi vacib etmişdir. İnsan ölənə qədər hər an iki yolun ayrıcında qərar tutur. Mümkündür ki, bir gün insan üçün yaxşı gün olmuş olsun, ikinci gün ayağı sürüşmüş olsun. Mümkündür ki, bir saat haqq yolda olmuş ola, ikinci

saat ayağı həmin yoldan sürüşmüş olsun. Bir sözlə desək, bu iki yol hər an insanın qarşısındadır. Ola bilsin ki, insan bir cəhətdən yaxşı olsun, digər cəhətdən isə ayağı sürüşsün. Yəni hər bir insanın sürüşən bir yeri ola bilər. Mümkündür ki, qarşısına külli miqdarda haram pul çıxmış olsun və o, gözünü həmin pullardan çəksin, amma qarşısına naməhrəm çıxdıqda gözünü çəkə bilməsin.

Buna görə də insan hər an Allaha yalvarıb yaxarmalı, onu hidayət yolunda sabitqədəm etməsini diləməlidir. Allah-təala da insana mərhəmət göstərərək vacib edir ki, hər gün on dəfə onu hidayət etməsini diləsin. Çünki əgər insan haqdan ayrı düşsə, o, bədbəxt olar və hər şey onun əlindən çıxar. Yəni haqdan ayrı düşən insan nə qədər uzaq düşsə bir o qədər izzətdən, şərafətdən və insaniyyətdən uzaqlaşmışdır. Məsələn, Lənkərana getmək istəyən bir şəxs Quba yolunu tutub gedir. Nə qədər sürətlə getsə də, əsas məqsəddən bir o qədər uzaqlaşır. Əgər yolun yarısında yolu səhv getdiyini başa düşüb geri qayıdarsa və nə qədər asta-asta gəlsə də, nəhayət, məqsədə çatacaq. Buna görə də insan hər an diqqətli olmalıdır ki, haqdan ayrı düşməsin. Əgər insan bir anın içində haqdan ayrı düşsə, o, bədbəxtliyə tərəf üz götürəcəkdir. Odur ki, ruhunu saflaşdırmaq və qəlbini cilalandırmaq istəyən hər bir insan mütləq haqqa tabe olmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): فِی القلبِ نُورٌ لا يُضِيئُ اِلّا فِی اِتِّبَاعِ الْحَقّ وَ قَصدِ السَّبِيل وَ هُوَ مِن نُورِ الأَنبِياء مُودَعٌ فِی قُلُوبِ الْمُؤمِنِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəlbdə bir nur vardır ki, yalnız haqqa itaət etməklə işıqlanar və yolu insana göstərər. (Haqq yoldan çıxanlar üçün şölələnib yolu göstərməz).

Həmin nur peyğəmbərlərin nurundandır ki, Allah möminlərin qəlbində əmanət qoymuşdur."[1]

Deməli, Allah-təala insanın qəlbinə hidayət və haqq yolunu getmək üçün nur qoymuşdur. Hər kəs haqdan ayrılsa, Allah həmin nuru o insanın qəlbindən çıxaracaq. Haqdan ayrılan insan isə zəlil və xar olacaqdır. Hər kəs bu haqq yolu tanıdığı halda bilərəkdən ondan uzaqlaşsa və haqqı bildiyi halda nahaq danışsa, haqqın üzərinə pərdə çəksə, həmin nur ondan alınacaq. Belə olduqda həmin şəxs hidayətdən çıxmış olar və paklıq, təmizlik, mənəviyyat onun dilinin şüarına çevrilər. Yəni dildə həqiqətdən, təmizlikdən, ədalətdən, mənəviyyatdan danışmağına baxmayaraq, qəlbində onların heç biri qalmayacaq. Şüarçılıq və lağlağılığın heç bir qiyməti yoxdur. Yezid, atası Müaviyə, babası Əbu Süfyan da haqqın kim tərəfdə olduğunu çox yaxşı bilirdilər. Lakin bütün bunlara baxmayaraq, onlar hidayətin qapılarını öz üzlərinə bağladılar və nuraniyyət çıraqlarını sındırdılar.

Odur ki, Həzrət Peyğəmbər(s) buyurur ki, hidayət və haqq yolunu getməsi üçün Allah-təala insanın qəlbinə əmanət olaraq bir nur qoymuşdur. Elə bir nur ki, o, peyğəmbərlərin nurundandır. Əgər insan bu nuraniyyəti qoruyub saxlaya bilsə, onun üçün təyin olunmuş məqsədə çatacaq. Əgər saxlaya bilməsə, onun mənəviyyatdan, haqq- həqiqətdən danışdığı bütün sözlər boş və bihudə sözlərdir. İzzətə, şərafətə, insaniyyətə çatmaq istəyən şəxs mütləq haqqa itaət etməlidir. Əgər haqqa itaət etməsə, zillət altına düşəcəkdir. Burada üçüncü yol yoxdur ki, onu tutub getsin. İnsanın qarşısında olan bu yolların biri izzət, digəri isə zillət yoludur. Zillət yolunu tutan izzət yolundan, izzət yolunu tutan isə

[1] Misbahüş-şərifə,13-cü fəsil, səh. 333.

zillət yolundan uzaqlaşacaq. Yəni izzətin yolunu tərk edən insan istər-istəməz zillətin yoluna düşəcəkdir.

قَالَ الإِمَامُ العَسكَرِى: مَا تَرَكَ الحْقّ عَزِيزٌ اِلاّ ذَلَّ وَ لا أَخَذَ بِهِ ذَلِيلٌ اِلّا عَزَّ

-İmam Həsən Əskəri(ə) buyurur: "Elə bir izzət sahibi olmaz ki, haqdan əl çəkdikdən sonra zəlil olmasın. Elə bir zəlil və aciz olmaz ki, haqqı tapdıqdan sonra əziz və qüdrətli olmasın."[1]

İmamın bu hədisindən açıq-aydın şəkildə görürük ki, hər bir kəs haqqa itaət etsə, o, izzət tapacaq. Haqdan üz çevirənlər isə zillətə düşəcəklər. Harada zahirən qiymətsiz və zəlil insanın haqq tərəfdarı olduğunu, haqqı müdafiə etdiyini gördükdə bilmək lazımdır ki, o, izzətli insandır. Hər kəs özünü haqqa yapışdırsa, haqqın tərəfdarı olsa, haqqa boyun əysə, necəliyindən asılı olmayaraq izzətə çatacaq. Hər kəs özünü haqdan kənarlaşdırsa, haqq-həqiqətin üzərinə pərdə çəksə, nahaq insanların tərəfdarı olsa, zəlil və xar olacaq. Əgər tarixə nəzər salsaq hər iki dəstənin (haqq və batil tərəfdarlarının) aqibətinin şahidi olarıq. Demək olar ki, bu barədə gün ərzində minlərlə hadisə yaranır və tarixə yazılır. Hər gün gözümüzün qarşısında minlərlə haqq tərəfdarları izzətə çatır, batil tərəfdarları isə zillətə düşürlər. Tarixdən misallar gətirəsi olsaq o qədər çoxdur ki, günlərlə bu barədə söhbət etmək olar. Nümunə üçün keçmiş tarixin səhifəsindən birinə diqqət yetirək:

-Züleyxa qocalıb əldən düşmüş, gözlərinin nurunu itirmişdi. Elə bir vəziyyətə gəlib düşmüşdü ki, küçələrdə dilənçilik edirdi. Züleyxa Misirdə tanınmış, görkəmli saray

[1] Mizanül-hikmə, səh.1230.

xanımlarından biri idi. O, Misirdə böyük şəxsiyyət idi. Axırda elə bir vəziyyətə düşdü ki, zəlil və xar oldu. Şah sarayının xanımı indi küçələrdə əl açıb dilənirdi. Günlərin birində küçədə əyləşib dilənirdi. Hiss etdi ki, həmin küçədə izdiham və hay-küy var. Bir nəfərdən soruşdu ki, bu nə səs-küydür belə? Ona dedilər ki, Yusif bu küçədən keçəcək. O zaman Yusif Misirin padşahı olmuşdu. Bütün səltənət onun ixtiyarında idi. Züleyxa dedi: O, keçəndə mənə də xəbər edin. Yusif saray adamları ilə həmin küçədən keçərkən Züleyxaya xəbər verdilər. Züleyxanın gözləri görmürdü, ayağa qalxıb nə qədər əlini yellədisə, Yusif onu görmədi. Bir neçə müddətdən sonra başqa küçədə dilənərkən səs-küy eşitdi. Soruşdu: Burada nə baş verib belə? Dedilər ki, bu gün Yusif buradan keçəcək. Züleyxa dedi: Xahiş edirəm, bizim qarşımızdan keçəndə mənə də xəbər edin. Yusif oradan keçərkən Züleyxaya xəbər verdilər. Züleyxa yenə də ayağa qalxdı və əlini qaldırıb havada yellədi. Lakin bu dəfə də Yusif onu görmədən ötüb getdi. Gecələrin birində Züleyxa yaşadığı çadırda xəyala dalmışdı. Züleyxa bütpərəst bir qadın idi. Onun Sənəm adlı bir bütü var idi. Bir xeyli düşündükdən sonra həmin bütü götürüb qarşısına qoydu, əli ilə axtarıb yerdən bir daş parçası tapdı və bütü sındırmağa başladı. Sənəmi sındıra-sındıra gözəl bir söz dedi. Onun bu cümləsini İmam Sadiq(ə) təsdiqləyərək bizlər üçün nəql edir. Züleyxa bütü sındırdıqdan sonra dedi:

سُبْحَانَ الَّذِى جَعَلَ العَبِيدَ مُلُوكاً لِطَاعَتِهِم وَ جَعَلَ الْمُلُوكَ عَبِيداً لِمَعْصِيَتِهِم

- Pak və qüsursuzdur o Allah ki, qulları itaət və bəndəliklərinə görə padşah və padşahları da günahlarına görə qul etdi.

Bu sözlərdən sonra həqiqi Allahı tapıb, ona ibadət etməyə başladı. Bütpərəstlikdən əl çəkib Allaha səcdə edirdi. O, yenə də günlərin birində küçədə əyləşib dilənirdi. Birdən səs-küy eşitdi. Bir nəfərdən soruşdu: Burada nə olub? Dedilər ki, bu gün Yusif bu küçədən keçəcək. Züleyxa heç kəsə bir söz demədi. Öz-özünə fikirləşdi ki, Yusifin tanıdığı Allahı mən də tanımışam. Daha Yusif mənə lazım deyil. Yusif böyük izdihamla həmin küçədən keçərkən Züleyxa ayağa qalxmadı və ona fikir vermədi. Lakin Yusif onu gördü, amma onun Züleyxa olduğunu bilmədi. Xidmətçilərini çağırıb dedi: Orada əyləşən dilənçi qadına istədiyini verib onu razı salın. Xidmətçilər Züleyxanın yanına gəlib dedilər: Sən kimsən və nəyə ehtiyacın var? Züleyxa dedi: Siz kimsiniz? Dedilər: Biz şahın xidmətçiləriyik. Bizi göndərib ki, ehtiyacını ödəyib səni razı salaq. İstəyini de. Züleyxa dedi: Şahla görüşmək istəyirəm. Xidmətçilər dedilər: Bu mümkün deyil. Əgər ehtiyacın varsa, dinardan, dirhəmdən sənə verə bilərik. Amma şahla görüşmək olmaz. Züleyxa dedi: Mən sizi çağırmamışam. Özünüz gəlmisiniz və deyirsiniz ki, şah məni razı salmağınızı sizə tapşırıb. Mən də buna razı olaram ki, şahla görüşüm. Əgər mümkün deyilsə, gedə bilərsiniz. Sizə ehtiyacım yoxdur. Xidmətçilər gəlib Yüsifə dedilər: Bir qoca arvaddır, dilənçilik edir. Onun istəyi səninlə görüşməkdir. Bundan başqa heç nəyə razı olmadı. Yusif dedi: Bəli, mən onu razı salmağa söz vermişəm. Əgər mənimlə görüşüb razı qalacaqsa, çağırın gəlsin. Görüş vaxtını təyin etdilər. Yusif taxtda əyləşmişdi. Züleyxanı onun hüzuruna gətirdilər. Yusif diqqətlə baxanda onun Züleyxa olduğunu gördü və dedi: "Züleyxa, bu sənsən? Züleyxa dedi: Bəli, mənəm. Yusif dedi: Sən hələ yaşayırsan? Züleyxa dedi: Yusif, nə üçün mənim ölməyimi arzu edirsən? Yusif dedi: Xeyr, mən sənin ölməyini arzu etmirəm. Sadəcə təəccübləndim ki, nə əcəb bu vaxta qədər ölməmisən."

Bu hadisənin uzun bir hekayəsi vardır ki, müxtəlif kitablarda qeyd olunmuşdur. Züleyxa Yusifdən öz istəklərini aldı. Bilirdi ki, həm padşahdır, həm də Allahın peyğəmbəridir. Çox yaxşı bilirdi ki, Allah- təala Yusifin dualarını qəbul edir. Həm də Yusifin dilindən onu razı salmaq sözü çıxdığına görə ondan layiqli istəklər istədi. Həmin istəklərdən biri belə idi: Mən istəyirəm ki, cənnətdə səninlə birlikdə olum. Bilirəm ki, əgər sən Allahdan istəsən, bu baş verəcək. Həzrət Yusif(ə) ona dua etdi və söz verdi. Züleyxa isə qalan ömrünü axıra qədər Allaha ibadət etməklə məşğul oldu.

Züleyxa bütpərəstlikdən əl çəkib haqq yolunu tapdı. Haqqı tapdıqdan sonra ona tabe oldu. Bir zamanlar demək olar ki, şahlıq kürsüsündə əyləşmiş xanım batil yolun nəticəsində zillətə düşdü. Sonra haqqı tapıb itaət edərək izzətə və səadətə çatdı.

## Haqqı müdafiə etmək

Hər kəs haqqa boyun əyərsə, həmişə haqq söz danışıb bütün hərəkətləri ilə haqqı müdafiə edərsə, haqq-həqiqət əsasında hərəkət edərsə, o, izzət və şərafət tapacaqdır. Hər kəs bütün bunların əksinə əməl edərsə, o, zəlil və xar vəziyyətə düşəcək. İzzətə, şərafətə, səadət və xobəxtliyə çatmaq istəyən hər bir kəs bütün hallarda haqqa əməl edib riayət etməlidir. Belə olmamalıdır ki, insanın kefinin yaxşı vaxtında və yaxud qəzəbləndikdə haqdan çıxsın. Hər bir halda haqqa riayət olunmalıdır. İnsan öz halını haqqa uyğunlaşdırmalıdır, nəinki haqqı öz halına uyğun o tərəfə, bu tərəfə döndərməlidir.

قَالَ عَلِيّ(ع): يَا بُنَيَّ أُوصِيكَ بِتَقوَى اللهِ فِي الغِنَى وَ الفَقرِ وَ كَلِمَةِ الْحَقِّ فِي الرِّضا وَ الغَضَبِ

-İmam Əlinin(ə) oğlu Hüseynə(ə) tövsiyələrindən biri belə idi: “Sənə dövlətli və yoxsul vaxtında Allahdan qorxmağı, şad və qəzəbli olanda da haqqı deməyi tövsiyə edirəm.”[1]

Əgər haqqı söyləmək zahirdə insanın xeyrinə və ya zərərinə olmuş olsa da belə söyləməlidir. Bəzi hallarda insan elə güman edir ki, haqqı söyləmək onun zərərinə olacaq. Lakin başa düşmür ki, bu, zahirən insanın ziyanına qurtarmasına baxmayaraq onun xeyrinədir. Allah-təala “Nisa” surəsinin 135-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ إِن يَكُنْ غَنِيًّا أَوْ فَقَيرًا فَاللّهُ أَوْلَى بِهِمَا...

-Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa da belə, həmişə və tam şəkildə ədalətə əsaslananlardan və Allaha görə şahidlik edənlərdən olun.

Allah-təala bu ayədə açıq-aydın şəkildə bildirir ki, insan heç bir vaxt haqdan kənara çıxmamalıdır. Hətta valideynlərinin xeyrinə və ya ziyanına olmuş olsa da belə haqdan kənarlaşmamalıdır. Valideynə ehtiram və yaxşılıq etmək vacibdir. Lakin bu o demək deyil ki, insan onlara görə haqdan uzaqlaşmalı və haqqı söyləməməlidir.

---

[1] Mizanül-hikmə, səh.1234.

قَالَ الإِمَامُ الكَاظِم(ع): قُلِ الْحَقّ وَ اِن كَانَ فِيهِ هَلاكُكَ فَإِنَّ فِيهِ نجَاتُك... وَ دَعِ البَاطِل وَ اِن كَانَ فِيهِ نجاتُكَ فإِنَّ فِيهِ هَلاكُكَ

-İmam Kazım(ə) buyurur: "(Zahirdə) Sənin məhvinə səbəb olsa da haqqı de. Çünki (həqiqətdə) sənin nicatın ondadır… və batildən imtina et, hərçənd sənin nicatın onda olsa belə. Çünki (əslində) sənin məhvin ondadır."[1]

قَالَ رَسُولُ الله(ص): اَتقَى النَّاس مَن قَالَ الْحَقّ فِيمَا لَهُ وَ عَلَيه

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Ən təqvalı insan odur ki, istər lehinə və istərsə də əleyhinə olmuş olsa da haqqı söyləsin."[2]

İmam Sadiq(ə) buyurur: "Üç şəxs Allaha hamıdan çox yaxındır... Həmin insanlardan biri o kəsdir ki, istər lehinə və istərsə də əleyhinə olmuş olsa da haqqı söyləsin."[3]

Peyğəmbərlərdən biri Allahla münacat edərkən belə dedi: “İlahi, mənə ən acığın gəldiyi insanı göstər.” Allah-təala buyurdu: “Filan yerdə dayanarsan. Orada sənin yanından keçən birinci adamı görsən, bil ki, hamıdan çox ondan acığım gəlir.” Həmin peyğəmbər Allahın buyurduğu yerə gedir və orada gözləyir. Azacıq keçməmiş görür ki, nurani bir insan gəlib oradan keçdi. Onu tanıdığı üçün öz-özünə təəccübləndi. Allahdan soruşdu: “İlahi, bu insan həmişə Sənə inanır və gecə-gündüz ibadətlə məşğul olur. Nə üçün ondan acığın gəlir?” Allah-təala buyurdu: “Onun namaz və ibadətinin yaxşı olmasına baxmayaraq, Mənim ona görə

---

[1] Mizanül-hikmə, səh. 3 və səh. 1232.
[2] Mizanül-hikmə, səh. 3 və səh. 1232.
[3] Mizanül-hikmə, səh. 3 və səh. 1232.

ondan acığım gəlir ki, indiyə qədər haqqın yolunda onun heç rəngi də qızarmayıb. (Batil haqqın üzərinə gəldikdə, haqq əzildikdə heç bir vaxt narahat və üzündə etiraz nişanəsi olmayıb. Haqqın əzildiyini, aradan getdiyini gördükdə vecinə də almırdı.)”

Görürük ki, haqqı tanıyıb qarşısında baş əyən, onu müdafiə edib haqq söz söyləyən Allaha ən yaxın insan olduğu kimi, haqqı müdafiə etməyən və haqqın əzildiyini görüb ən azından narahat olmayan kəs Allahdan ən uzaq düşmüş insandır.

İmam Baqir(ə) buyurur: “Atam Əli ibn Hüseynin (ə) vəfat anı çatanda məni bağrına basıb buyurdu: “Oğlum! Mən indi sənə atamın dünyadan köçərkən mənə etdiyi tövsiyəni tövsiyə edirəm. Atam həmin şeyləri də ona öz atasının tövsiyə etdiyini buyurmuşdur: “Oğlum, hərçənd acı olsa da, haqqa səbr et.”[1]

## Haqqı tanımağın meyarı

Bu bəhsimizə əlavə olaraq bir mətləbi də artırmaq istərdim. Həmin mətləb haqqı tanımağın meyarı və haqqı tanımağın yollarıdır. Burada qarşıya belə bir sual çıxır: Görəsən haqqın meyarı nədir? Onu insanların hərəkəti ilə ölçürlər, yoxsa insanları haqqın vasitəsilə tanıyırlar? Yəni haqqın tanınması üçün insanları əsas qərar verməliyik, yoxsa insanları tanımaq üçün haqqı əsas meyar qərar verməliyik? Bu sualın cavabı belədir ki, haqqı camaatın əməli ilə ölçməzlər. Haqqın özünü tanıdıqdan sonra camaatın əməlini haqq ilə ölçərlər.

[1] Mizanül-hikmə , səh. 3 və səh. 1232.

قَالَ عَلِيّ(ع): اِنَّ الْحَقَّ لا يُعرَف بِالرِّجَال اِعرِفِ الْحَق تَعرِف أَهلَه

-Həzrət Əli (ə) buyurur: "Haqq şəxsiyyətlərlə tanınmır. Haqqın özünü tanı ki, onun yolçularını da tanıyasan."[1]

Deməli, haqqı tanıdıqdan sonra kimih haqq əhli olduğunu da bilmək olar. Əgər həmin şəxs haqqa itaət edirsə, deməli haqq əhlidir. Yox, əgər haqqa tabe olmursa, deməli kimliyindən asılı olmayaraq batil əhlidir.

Cəməl hadisəsində Haris ibn Hut İmam Əlinin(ə) yanına gələrək deyir: “Elə bilirsən mən Cəməl əhlinin azğınlıqda olmasını güman edirəm? İmam Əli(ə) ona buyurdu:

يَا حَارِث اِنَّکَ نَظرتَ تَحتَکَ وَلَم تَنظُر فَوقَکَ فَحِرتَ. اِنَّکَ لَم تَعرِفِ الْحَقَّ فَتَعرِفَ مَن أَتَاهُ وَلَم تَعرِفِ البَاطِلَ فَتَعرِفَ مَن أَتَاه

-Ey Haris! Sən öz altına (aşağı) baxdın *(onların batil və səhv sözlərini qəbul etdin)*, amma üstünə və yuxarı baxmadın *(mənim haqq və doğru sözlərim barəsində isə düşünmədin)*, beləliklə çaş-baş və avara qaldın! Sən haqqı tanımadığın üçün onun əhlini də tanımadın, batili tanımadığın üçün onun davamçılarını və arxasınca gedənlərini də tanımadın.”[2]

---

[1] Mizanül-hikmə, səh. 3 və səh. 1236.
[2] Mizanül-hikmə, səh. 3 və səh.1236. Nəhcül-bəlağə.

# İmam Əli(ə) haqqın meyarıdır

Haqqın özünü tanımağa gəldikdə İslam Peyğəmbəri(s) ümumi bir qayda olaraq hamının haqqı tanıması üçün belə buyurmuşdur: "Əli haqq ilə, haqq da Əli ilədir." Bu kəlamı o kəs bizə buyurur ki, Qurani-Kərim ona nazil olub. Bu kəlamı bizlərə o kəs buyurur ki, Allah Quranda onun barəsində belə buyurur: "O əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (yuxarı aləmdən) ona ilham olunan vəhydir." Həzrət Peyğəmbər(s) dəfələrlə buyurmuşdur: “Əli Quranladır və Quran da Əli ilədir.”; “Əli haqq ilə, haqq da Əli ilədir.”; “Əli ən böyük siddiqdir.”

Əli(ə) bütün müsəlmanların xəlifəsidir. Quran onu pak-pakizə və məsum bir insan kimi bizə tanıtdırır. Həzrət Əli(ə) haqqın ölçüsüdür. O haradadırsa, haqq da oradadır. Əli(ə) hansı tərəfə dövr edirsə, haqq da onunla birgə dövr edir. Onun hər bir hərəkəti, rəftarı və kəlməsi haqdan başqa bir şey deyil.

İmam Hüseyn(ə) buyurur: "Hətta Peyğəmbərin(s) sağlığında münafiq və möminləri Əli (ə) və onun övladlarına qarşı olan məhəbbət və kin- küdurətləri ilə tanıyardıq." (Hər kəs Əlini(ə) sevirsə mömin, hər kim sevmirsə münafiqdir.)

Sonra İmam Hüseyn(ə) belə buyurdu: “Bəzi abidlər və zahidlər var ki, peyğəmbərdən sonra Həzrət Əlinin şərafət və fəzilətinin hamıdan artıq olduğuna inanmır və bunu danırlar. Bu danmaq və inkar onların ürəyində bir oda bənzəyir ki, külək əsdikcə artıb bütün bitkiləri yandırdığı kimi, onların bütün ibadətlərini yandırıb külə çevirir. (Çünki onlar haqdan ayrı düşmüşlər.)”

Hər kəs haqdan ayrı düşsə, onların heç bir namaz və oruclarının faydası olmayacaqdır. Od-alov bitkinin çox və ya az olmasına baxmaz. Qarşısına çıxanı yandırar. İnsan haqqı

dandıqda yaxşı əməlləri nə qədər çox olsa da belə bir o qədər yandırıb külə çevirəcək. Görürük ki, ibadətin də qəbulunun səbəbi haqqı tanımaq, ona itaət etməkdədir.

İbn Hazim adlı bir şəxs İmam Səccadın(ə) yanına gəlib dedi: "Ey Peyğəmbər(s) övladı, mənə namaz barədə danışın. İmam Səccad(ə) onun üçün namaz barədə xeyli söhbət etdi. İbn Hizam dedi: Namazın qəbul olunmasının şərti varmı? İmam(ə) buyurdu: Bəli, onun qəbul olunmasının şərti bizim vilayətimizi qəbul etməkdir."

Beləliklə insan bütün hərəkətlərində haqqa itaət etsə, onu müdafiə etsə və haqqı söyləsə, o, izzətə çatar və ruhu paklaşar. Haqqın kiçiyi və ya böyüyü olmaz. Suyun azı və çoxu yaş olduğu kimi, haqq da elə haqdır. Dənizin suyunun yaşlığı ilə, bir damla suyun yaşlığında fərq olmadığı kimi, haqqın azı da haqdır, çoxu da haqdır. Həmçinin izzət və şərafətin hamısı haqqa bağlıdır. Allah-təala Özü haqq olduğu üçün bütün haqq-həqiqətlər Ona bağlıdır. Hər kəs haqqa bağlı olarsa, deməli izzətə, şərafətə çatmışdır. Çünki izzət və şərafət də məhz haqqa bağlıdır.

## 5. İnsanın özünü tanıması

Nəfsin təmizlənməsinin və ruhun paklaşmasının əsas yollarından beşincisi insanın özünü tanımasıdır. Əgər insan aləmdə olan bütün məxluqatdan şərafətli və üstün olduğunu başa düşsə, o, heç bir vaxt ruhunu çirklənməyə qoymaz. İnsanın özünü tanıması onun təmizlənməsinə və hidayət olunmasına səbəb olar. Buna görə də hər bir insanın özü barədə araşdırma aparıb mütaliə etməsi vacibdir. İnsan özü böyük bir kitabdır. Həzrət Əli(ə) buyurmuşdur ki, insan bütün kitabların hamısından böyük olan bir kitabdır. İnsan müxtəlif şairlərin, yazıçıların və alimlərin əsərlərini oxuduğu

halda bəs nə üçün özünü oxuyub mütaliə etmir? Nə üçün özü barədə düşünüb daşınmır?

Alimlərin, şairlərin, yazıçıların və başqalarının yazdıqları əsərlərin hamısı insana aid olan yazılardır. Əgər yaradılış aləmindən insanı götürsələr, şair nə yaza bilər və ya kimin üçün yaza bilər? Əgər bir şair gül barədə bir şey qələmə alırsa və həmin gül insana aid olduğundan güldən danışır. Əgər bülbüldən, ceyrandan və s. varlıqlardan yazırsa, bütün bunlar da insana aid olduğu üçün yazır. Bəs nə üçün şair qara qarğadan yazıb onu da tərifləmir? İnsanın bülbüldən, güldən və ceyran balasından xoşu gəldiyi üçün şair də onları qələmə alaraq nəzmə çəkir.

Əgər bütün bu aləmdə, təbiətdə, heyvanlarda, yerin altında və üstündə, habelə göylərdə olanlar barədə əsər yazılırsa, deməliyik ki, yenə də insanın bütün bunlardan xoşu gəldiyi və yaxud insanın özünə aid olduğu üçün yazılıb tərif olunur. Əgər bütün varlıq aləmində olan məxluqatın içərisindən insanı götürsələr, yerdə heç bir şey qalmayacaq. Çünki bütün bu milyardlarla yaradılışın hamısı hər bir cəhətdən insan üçündür. Əgər ilanın zəhəri mövcuddursa, müxtəlif növ canlı varlıqlar, dünyada olan acı və şirinliklər varsa, bütün bunların hamısı insana görədir. Buna görə də insan özünü oxuyub öyrənməli və tanımalıdır. Əgər insan özü haqda maraqlansa və kitabı qarşısına qoyub mütaliə etdiyi kimi, özünü də mütaliə edərək başa düşsə, bu, onun üçün ən böyük bilikdir.

Əgər insan yaradılış aləmində özünün ən şərafətli və üstün olduğunu başa düşsə, heç bir vaxt özünü günaha batırıb çirkləndirməz. Məsələn, varlı, imkanlı və vəzifəli bir insan küçədə kiməsə yalvarıb ondan beş-on manat pul istəyərmi? Əgər həmin adam yolda da qalmış olsa, qüruru buna yol verməz ki, kiməsə beş-on manata görə ağız açsın. Əgər belə bir şəxs küçədə kiməsə ağız açıb pul istəsə, o,

özünü sındırmış olar. Hamı onu dilənçi hesab edər. Əgər insan onun ruhunun bütün ruhlardan üstün olduğunu və aləmdəki bütün yaradılanların ona görə yaradıldığını, Allahın insanı Özünə görə xəlq etdiyini başa düşsə, o, heç bir şeyin qarşısında özünü sındırmaz. Burada sual oluna bilər ki, insan hansı dəlillərə görə üstün və şərafətlidir? Cavab olaraq demək olar ki, insan üç səbəb və dəlilə görə məxluqatın ən üstünü və şərafətlisi sayılır.

## İnsanın əbədi olması

İnsanın üstün məxluq olmasının birinci səbəbi onun əbədi olması ilə əlaqəlidir. Yəni insan beş-on günlük məxluq deyildir. Əsl həqiqətdə aləmdə olanların heç biri yox olub aradan getmir. Bütün alimlər təsdiqləmişlər ki, aləmdə olan mövcudatın hamısı bir haldan başqa hala düşür, amma yox olub aradan getmir. Məsələn, adicə siqaretə nəzər yetirək. Siqareti çəkərkən onun bir hissəsi tüstüyə, digər hissəsi isə külə çevrilir. İnsan öldükdən sonra onu torpağa basdırırlar və orada yox olub aradan getmir. Onun bədəni yavaş-yavaş torpağa qarışaraq torpaq olur. Yaxud bir heyvanı duz anbarına atdıqdan bir neçə il sonra gəlib görürük ki, həmin heyvan artıq duza çevrilmişdir. Yəni aləmdə olan bütün varlıqlar bir haldan başqa hala çevrilir. Elmi baxımdan da hər bir kəs bu məsələni qəbul etmişdir. Bütün bunlar cismə aid olan söhbətlərdir. Yəni aləmdə olan cisimlər bir haldan başqa hala çevrilir. Lakin insanın ruhu əbədi yaşayan bir varlıqdır. Cisimlər haldan-hala düşüb yox olmadığı halda, ruh isə heç bir vaxt yox olub aradan getməyəcək. Allah-təala "Möminun" surəsinin 115-ci ayəsində belə buyurur:

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

-Yoxsa güman edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və (bir də) heç vaxt Bizə tərəf qaytarılmayacaqsınız?

Aydın məsələdir ki, Allah-təala Qurani-Kərimi insanlar üçün göndərmişdir. Quranın bütün ayələri insana aid olduğu üçün Allah-təala bizimlə danışır. Qeyd olunan ayədə bildirir ki, insan əbəs yerə yaradılmayıb və onun həm cismi, həm də ruhu həmişə yaşayacaqdır. Qiyamət günündə, əbədiyyət aləmində Allah-təala həmin torpaq olub haldan-hala düşmüş insanın cismini dirildib məhşərə gətirəcəkdir. Allah bu ayədə qiyamət gününü inkar edənlərə həmin günün mütləq olacağını xatırladaraq qiyamət günündə insanları öz cismi ilə dirildəcəyini bildirir. Bu məsələ elm aləmində sübut olunmuşdur. Alimlər qeyd edirlər ki, insanın hüceyrələri səkkiz gündən bir dəyişir. Deməli, bir insan cismani cəhətdən bir ay bundan əvvəlki olmasa da, ruh və mənəviyyat cəhətindən həminkidir. Çünki cismani hüceyrələr dəyişsə də, ruh əbədi və dəyişməz qalır. Əlbəttə, bu geniş bir mövzudur və biz bu barədə çox söhbətlər edə bilərik. Əsas sözümüz insanın əbədi məxluq olmasındadır. İnsanın ruhunun əbədi olması onun digər məxluqlardan üstün və şərafətli olmasına əsasdır.

اِعرَف نَفسَک اَیُّهَا الإِنسَان تَعرِف رَبَّک ظَاهِرُکَ لِلفَنَاء وَبَاطِنُکَ لِلبَقَاء

Hədisi-qüdsdə Allah-təala belə buyurur: “Ey insan, özünü tanı ki, Rəbbini də tanıyasan. Sənin zahirin (cismin) fani, batinin (ruhun) isə əbədidir.”[1]

İnsan nə qədər ki özünü tanımayıb, Allahı da tanıya bilməyəcək. Allahı tanımaq üçün insan ilk növbədə özünü

[1] Kəlimətullah, səh. 316.

oxumalı və yaxşı-yaxşı tanımalıdır. İnsan əbədi bir varlıq olduğunu başa düşməli və əbədiyyət üçün azuqə toplamalıdır.

قَالَ عَلِيٌّ(ع): عَجِبتُ لِعَامِرِ دَارَ الفَنَاء وَتَارِکِ دَارَ البَقَاء

-Həzrət Əli (ə) buyurur: "Yoxluq evini abadlaşdıran *(dünya üçün çalışan)*, varlıq evini *(axirəti)* isə buraxan *(onun üçün azuqə tədarük görmək fikrində olmayan)* kəsə təəccüb edirəm."[1]

Bu dünya müvəqqəti və fani bir dünyadır. Əsas əbədi dünyamız qabaqdadır ki, oranı abadlaşdırmaq lazımdır. Məsələn, insan bir həftəlik gəzməyə, yaxud başqa bir yerə dincəlməyə gedərkən heç bir vaxt oranı abadlaşdırmaq, təmtəraqlı etmək üçün çalışmır. Bilir ki, orada həmişəlik deyil, cəmi bircə həftə qalacaq. Heç kim bir həftə qalacağı yer üçün ömrünün hamısını sərf edib xərcləməz. Sadəcə olaraq insana bir həftə müddətində lazım olan azuqə və geyimləri özü ilə götürür. Bəs əgər belədirsə, görəsən insan bu dünyada nə qədər qalacaq ki, ömrünün hamısını ona sərf edib xərcləyir. Məgər müvəqqəti olan bu dünyaya görə əbədiyyəti heç əldən verərlərmi? Bu dünya əbədi dünyaya çatmaq üçün bir vasitədir. Hədis və rəvayətlərdə bu dünyanı bir bazara bənzətmişlər ki, kimisi xeyir götürür, kimisi isə ziyana uğrayır.

## İnsan öz qiymətini bilməlidir

İnsanın şərafətli və üstün olmasının ikinci səbəbi onun qiymətinə görədir. Yəni bir insan öz qiymətini bilsə, digər

---

[1] Nəhcül-bəlağə, 121-ci hikmət.

məxluqlardan üstün olduğunu başa düşər. İnsan payızda xəzan olan bahar bitkilərinə bənzəməz və insan digər əşyalar kimi, özünü alıb satmaz. İnsanın xüsusi bir qiyməti vardır və o, özünü ondan ucuz satsa, ziyana düşəcək. Dünyanın qiyməti insan üçün çox az və müqayisə olunmazdır. Əgər bir insan özünü bu dünyaya və dünyada olanlara satsa, çox ziyana düşəcəkdir. Özünü tanıya və öz qiymətini bilən insanlar heç bir vaxt bu dünyaya rəğbət bəsləməzlər.

قَالَ عَلِيٌّ(ع): أَلا حُرٌّ يَدَعُ هَذهِ اللُّمَا ظَةَ لِأَهلِهَا؟ اِنَّهُ لَيسَ لِأَنفُسِكُم ثَمَنٌ اِلّا الجْنَّة فَلا تَبِيعُوهَا اِلّا بِهَا

-Həzrət Əli(ə) buyurur: “Bir azad kişi yoxdurmu ki, ağızda qalmış (çeynənilmiş) bu artığı (alçaq dünyanı) öz əhlinin ixtiyarına buraxsın? Sizin canlarınızın qiyməti və dəyəri ancaq cənnətdir. Buna görə də onları həmin qiymətdən başqa heç nəyə satmayın.”[1]

Bu hədisdə işlənmiş “lüməzə” kəlməsi “ağızda qalmış” və ya “çeynənilmiş” tikəyə deyilir. Həzrət Əli(ə) bu dünyanı həmin tikəyə bənzədərək buyurur ki, elə bir azad insan vardırmı ki, onu öz əhlinə versin? Burada ilk növbədə azad insandan söz açılır. Yəni günahların və haramların nəticəsində əl-qolunu zəncirləməyən insan nəzərdə tutulur. Bu dünyada insan özünü müxtəlif şeylərə bağlayaraq həbs edir. Bir tərəfdən övlada, bir tərəfdən pula, şəhvətə, bir tərəfdən də vəzifəyə bağlanan insan həqiqətdən uzaqlaşır və onların içərisində boğulur. İpəkqurdunun bir xüsusiyyəti var ki, barama toxuya-toxuya özü onun içində qalır. Özü üçün kiçik bir yer qoyur və axırda həmin yeri də bağladıqdan sonra onun içərisində qalır və boğularaq ölür. Əgər insan bu

[1] Nəhcül-bəlağə, 448-ci hikmət.

dünyada özünə bağladığı həmin zəncirləri qıra bilsə, azad bir insan olar. Azad insan olduqdan sonra bu dünyanın “lümazə” olduğunu başa düşər və ona bir daha meyl göstərməz. Ağızda çeynənilmiş tikəni yalnız digər canlılar xoşlayarlar. Heç bir insan digərinin, hətta öz ağzında belə çeynəyib çıxardığı tikəyə meyl etməz. İmam Əli(ə) insanlara başa salır ki, sizin qiymətiniz cənnətdir. Özünüzü ondan ucuz qiymətə satmayın.

قَالَ عَلِيّ(ع): لَبِئْسَ الْمَتْجَرُ أَنْ تَرَى الْدُّنْيا لِنَفْسِكَ ثَمَناً، وَ مِمَّا لَكَ عِنْدَ اللَّهِ عِوَضاً

-Digər bir hədisdə buyurur: “Özünü və Allahın sənin üçün yaratdığı cənnəti satıb, onun qiymətinə dünyanı almaq necə də uğursuz ticarətdir.”[1]

Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərkən belə buyurdu:

وَ أَكْرِمْ نَفْسَكَ عَنْ كُلِّ دَنِيَّةٍ وَ إِنْ سَاقَتْكَ إِلَى اَلرَّغَائِبِ فَإِنَّكَ لَنْ تَعْتَاضَ بِمَا تَبْذُلُ مِنْ نَفْسِكَ عِوَضاً

-Nəfsin (özünü) səni saysız nemətlərə çatdırsa da, onu bütün alçaqlıq və rəzilliklərdən üstün tut, əzizlə. Çünki nəfsindən sərf etdiyin şeyin müqabilində, onu əvəz edəcək bir şey tapa bilməyəcəksən. Başqasına qul olma *(mal və məqam tamahı ilə heç bir kəsə baş əymə)*. Allah səni azad yaradıb. Pisliklə *(başqasının yanında abır tökməklə)* qazanılan xeyrin *(mal və məqamın)* harası xeyirdir?! Çətinliklə əldə edilən asanlığın nə xeyri var?! [2]

---

[1] Nəhcül-bəlağə, 32-ci xütbə.
[2] Nəhcül-bəlağə, 31-ci məktub.

# İnsanın qiyməti

İnsanın üstün və şərafətli məxluq olmasının səbəblərindən biri də budur ki, o, çox qiymətli və daha dəyərlidir. Əgər insan bunu dərk etsə, o zaman başa düşər ki, məxluqatın ən üstünü və şərafətlisidir. Belə olduqda heç bir vaxt özünü ucuz qiymətə satmaz. Allah-təala "Bəqərə" surəsinin 207-ci ayəsində buyurur:

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

-İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır. Allah bəndələrə qarşı çox şəfqətli və mehribandır.

Özlərini Allahın razılığı üçün satan insanlar bu həyatda çox az tapılar. Onlar özlərini yalnız Allahın razılığı üçün satarlar. Bundan başqa özlərini heç bir şeyə satmağa razı olmazlar. Əgər onlara bütün yer kürəsinin hamısını versələr, yenə də özlərini ona satmazlar. Çünki onlar öz qiymətlərini çox gözəl bilirlər. Bilirlər ki, özlərini Allahın razılığı üçün satsalar, heç bir vaxt uduzmazlar. "Tövbə" surəsinin 111-ci ayəsində belə buyurulur:

إِنَّ اللّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ أَنفُسَهُمْ وَأَمْوَالَهُم بِأَنَّ لَهُمُ الجَنَّةَ

-Həqiqətən, Allah möminlərin canlarını və mallarını insanlardan cənnətin onların olması bahasına alıb.

Odur ki, bəzi möminlər Allahla alver edərək öz canlarını və mallarını Onun rizasına satarlar. Harada Allahın razılığı varsa, orada ölməyə, doğranmağa və hər şeylərindən keçməyə hazırdırlar.

Bir gün İranda televiziya idarəsində işləyən tanışlarımdan biri mənə dedi: "İstəyirik ki, filan alimin namaz qılmasını çəkib televiziyada göstərək. Sənin onunla yaxın münasibətlərin olduğundan xahiş edirəm ki, ondan bu işlə əlaqədar olaraq icazə alasan. Bir gün həmin alimin yanına

gedib televiziya idarəsi işçilərinin sözlərini ona çatdırdım. O, bir az fikirləşib dedi: Mən sizə xəbər edərəm. Üstündən bir neçə gün keçmişdi ki, televiziya idarəsində işləyən həmin tanışım mənə dedi: Nə oldu, razılıq ala bildinmi? Mən yenə həmin alimin yanına gedib, onların sözünü çatdırdım. Həmin alim dedi: Mən çox düşünüb daşındım, özümü heç cür bu işi görməyə razı sala bilmədim. Bir televiziya çəkilişinə görə mən namazımı xarab edə bilmərəm. Necə ola bilər ki, Allaha xatir qıldığım namazı televiziya çəkilişinə qurban verim? Mən buna heç cür razı ola bilmərəm. Gedin başqa birini tapın."

Həmin alim razı olmadı ki, hətta iki rükət namazına belə Allahdan başqa bir niyyət qarışsın. Çünki o, yalnız Allahla alver edir və bütün əməllərini Ona satır. Allah-təala da möminləri ticarətə dəvət edir və onların can və mallarına müştəridir. Hər kəs canını, malını və əməllərini satırsa, Allah xiridardır. Özü də bəri başdan cənnət bahasına aldığını bəyan edir.

Bəzi möminlər o qədər diqqətlidirlər ki, burada olan bir sıra incə məqamları tutur və bu yolda hərəkət edirlər. Məsələn, Allah möminlərdən canlarının və mallarının müqabilində cənnəti onlara verməyə razıdır. Həmin möminlər deyirlər ki, əgər Allah məndən canımı və malımı cənnətin müqabilində almağa razıdırsa, o zaman mən özümü Allahın razılığı üçün satıram. Əgər Allah mənə cənnəti verməyə razıdırsa, mən də onun razılığına hazıram. Hədislərdə deyilir ki, cənnətdə bir qrup insan olacaq ki, Allah-təala həmin insanlara lütf göstərəcəkdir.

قَالَ عَلِي(ع): قُلُوبُ العِبَاد الطَّاهِرَةُ مَواضِعُ نَظَرِاللهُ سُبْحَانَهُ فَمَن طَهَّرَ قَلْبَهُ نَظَرَ اِلَيهِ

İmam Əli(ə) buyurur: “Bəndələrin pak qəlbləri Sübhan Allahın baxdığı yerlərdir. Kim qəlbini paklaşdırarsa, Allah ona nəzər salar.”

Allahın nəzərinin və baxmasının nə qədər əhəmiyyətli olduğunu biz dərk edə bilmirik. Çünki bunu dərk etmək bizim səviyyəmizdən çox yuxarı olan bir məsələdir. Lakin onun əhəmiyyətinin nə qədər böyük olduğunu hədis və rəvayətlərdən hiss edirik. Məsələn, Allah-təala dünyanı yaratdıqdan sonra bu günə qədər bircə dəfə də olsa dünyaya nəzər etməyib. Çünki bu dünyanın Allah yanında zərrə qədər də olsa qiyməti yoxdur. Bu hədisdən Allah-təalanın nəzərinin nə qədər mühüm olduğunu başa düşürük. Yəni Allahın nəzəri dünya və dünya əhlinə şamil olmaz. Yalnız və yalnız pak qəlblər Allahın nəzər etdiyi yerdir.

Həmçinin Allahın nəzərinin nə qədər mühüm və əhəmiyyətli olduğu haqda bir rəvayətə də diqqət yetirək. Həzrət Peyğəmbər(s) o qədər ədəbli və gözəl əxlaqlı bir insan idi ki, heç bir vaxt kiminsə sözünü kəsməzdi. Çöldə yaşayan və mədəniyyətdən çox geri qalmış bir ərəb də gəlib Peyğəmbərlə(s) söhbət edəndə Həzrət(s) onun sözlərini axıra qədər dinləyərdi. Halbuki belə insanlar ağzını açıb Peyğəmbərlə(s) danışmaq istədikdə Həzrət(s) onların nə demək istədiyini bilirdi. Lakin Həzrət(s) çox ədəbli olduğundan hamının sözünü axıra qədər dinləyərdi. Merac gecəsində Allah-təala Peyğəmbərə(s) təlim və dərs keçirdi. Allah-təala ona buyurdu: “Ey Əhməd, bir dəstə insan var ki, onlar cənnətə daxil olduqdan sonra Mən gündə yetmiş dəfə onlara nəzər salacağam.” Peyğəmbər(s) bunu eşitdikdə axıra qədər dözə bilməyib Allahın sözünü kəsib ərz etdi: “İlahi, o insanlar kimlərdir?”

Görün Allahın nəzəri necə mühüm bir məsələdir ki, ədəb və əxlaq nümunəsi olan, hətta köçəri bir ərəbin sözünü kəsməyib axıra qədər dinləyən Peyğəmbər(s) Allahın sözünü

kəsdi və Onun nəzər yetirdiyi insanların kimlər olduğunu soruşdu. Allahın nəzərinin insan üçün əhəmiyyətli olduğunu Peyğəmbər(s) hamıdan daha çox bildiyi üçün dözə bilməyib həmin insanları xəbər aldı. Bu hədislərdən başa düşürük ki, Allahın nəzəri nə qədər mühüm və əhəmiyyətlidir. Lakin Allah-təala bizim səviyyəmizə uyğun olaraq cənnətin ağaclarından, bulaqlarından, meyvələrindən, huri və qılmanlarından söz açır. Çünki bizim başa düşdüyümüz bu kimi şeylərdir. Məsələn, kiçik bir uşağı başa salmaq üçün ona şirniyyat və ya oyuncaq alacaqlarını deyirlər. Çünki uşaq şirniyyatdan və oyuncaqdan başqa bir şey başa düşmür. Əgər ona desələr ki, filan işi görsən, böyüyəndə səni universitetə qəbul etdirəcəyəm. Sən oxuyub böyük alim və professor olacaqsan. Axı uşaq nə başa düşür ki, alim nədir, professor nədir.

Günlərin birində Peyğəmbər(s) məscidə gedərkən yolda uşaqlar Həzrətin(s) əbasının ətəyindən yapışıb onlarla oynamağı ondan xahiş edirlər. Peyğəmbər(s) onlarla bir az oynadıqdan sonra yoluna davam etmək istəyir. Lakin uşaqlar onu buraxmaq istəmirlər. Onlar bilirdilər ki, Peyğəmbər(s) heç bir vaxt əsəbiləşmir, narahat olmur və uşaqlara qarşı çox mehribandır. Həzrət(s) onlara buyurur: "Sizə hədiyyə versəm, məni buraxarsınızmı?" Uşaqlar onunla razılaşırlar. Həzrət(s) məsciddən Salmanı çağırtdırıb ona deyir: "Get bizim evdən uşaqlar üçün bir şey gətir." Salman gedib Peyğəmbərin(s) evindən bir neçə qoz gətirir. Həzrət(s) uşaqların hərəsinə bir qoz verdikdən sonra uşaqlar ondan əl çəkib gedirlər. Peyğəmbər(s) məscidə daxil olub həmin hadisəyə işarə edərək deyir: "Qardaşım Yusifi də ucuz satdılar, məni də. Onu böyüklər, məni isə uşaqlar satdılar."

Bizim səviyyəmiz yüksək olmadığı üçün Allah-təala cənnəti tərifləyərkən onun ağaclarından, meyvələrindən, huri və qılmanlarından danışır. Çünki bizim ağlımıza bundan

artıq bir şey batmır. Lakin Allah-təala Peyğəmbərlə(s) danışarkən cənnətdə möminlərə lütf və mərhəmət göstərəcəyi və onlara nəzər edəcəyi haqda söz açır. Peyğəmbər(s) də Onun mərhəmətinin, lütfünün və nəzərinin mənasını çox gözəl bildiyi üçün Allahdan kimlərə lütf nəzəri ilə baxacağını soruşur.

Beləliklə, əgər insan özünü tanıyıb əbədi olduğunu, qiymətinin dünya ilə bir olmadığını və onun qiymətinin Allahın rizayət və kəraməti ilə bərabər olduğunu başa düşsə, heç bir vaxt özünü nəyinsə, kiminsə qarşısında sındırıb ucuz qiymətə satmaz. Əgər insan bütün bunları dərk etsə, bir naməhrəmə, pula və dünyanın bərbəzəyinə görə öz şərafətini əlindən verməz.

Odur ki, insanın ruhunun təmizlənməsi və paklaşmasının əsas yollarından biri də onun öz qiymətini bilib, özünü ondan ucuz qiymətə satmamasıdır.

## 6. Haram qidalardan qorunmaq

İnsanın nəfsini təmizləyən və ruhunu saflaşdıran amillərdən altıncısı haram qidalardan çəkinməkdir. Hər bir kəs ruhunun pak olmasını, təmizlənməsini istəyirsə, mütləq boğazını və qarnını haram yeməklərdən qorumalıdır. İnsan tibbi və zahiri cəhətdən bədəninin sağlamlığını qorumaq üçün özünü ziyanlı yeməklərdən qoruduğu kimi, ruhunun təmizlənməsini də istəyirsə, mütləq haram yeməklərdən imtina etməlidir. Əgər insan öz ağzını qıfıllayıb bu qıfılın açarını heç bir kəsə verməyib özündə saxlasa və şəriətin icazə verdiyi şeylərdən başqa bir şey yeməsə, bu əməl onun ruhunun paklaşmasına səbəb olar. Məsələn, bir nəfər mağazadan çörək alır və evdə yadına düşür ki, həmin çörəyin pulunu verməyib. Əgər aparıb pulu verməsə və həmin çörəyi yesə, onun ruhuna bir cür təsir göstərəcək,

ancaq həmin çörəyin pulunu aparıb versə və yalnız bundan sonra çörəyi yesə, tamamilə başqa cür təsir edəcəkdir. Təbiidir ki, çörək həmin çörəkdir, sadəcə olaraq çörəyin pulunu verib onu yeməyin insanın ruhuna təsiri bir cür, çörəyin pulunu verməyib yeməyin isə başqa cür təsiri olacaqdır. Yəni həmin çörəyin pulunu verib onu yeyərsə, o zaman çörək halaldır və müsbət təsir göstərəcək. Yox, əgər çörəyin pulunu verməyib onu yeyərsə, o zaman haramdır və mənfi təsir göstərəcəkdir. Əgər insan ağzını, boğazını və qarnını haram yeməklərdən qoruya bilsə, onda təmizlənməyə və paklaşmağa səlahiyyət qazanacaqdır. Pərdənin arxasını görmək istəyən və nuraniyyət əldə etmək istəyən şəxs qarnını haram qidalardan qorumalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): ضِيَاءُ القُلُوب فِى عِفَّةِ البَطن

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəlblərin ziyası və nuru qarnın təmizliyindədir (paklığındadır)."[1]

İnsan hər bir adamın süfrəsində əyləşib yeməməlidir. Çünki süfrədə zahiri gözəl olan yeməklərin batininin necə olduğunu kim bilir? Əgər insan bilsə ki, həmin yeməklər məzlumların, yetimlərin boğazından kəsilərək götürülən tikələr olub, müxtəlif insanlardan qəsb olunaraq bu süfrəyə gətirilib, heç bir vaxt bu yeməkləri yeməz.

Bir gün Harun ər-Rəşid yaşıllıq və səfalı bir yerdə əyləşib səmaya baxırdı. Buludların ötdüyünü görüb dedi: "Ey buludlar, hara gedirsiniz? İstəyirsiniz gecə gedin, istəyirsinizsə gündüz. Bilin ki, nə qədər getsəniz də, mənim məmləkətimdən kənara çıxa bilməyəcəksiniz."

Elə bu zaman Bəhlul gəldi və Harunun belə sözlər danışdığını gördükdə dedi: "Harun, məgər bu məmləkət

---

[1] Tühəfül-üqul, səh.106.

səninkidirmi? Harun dedi: Bəs kimindir? Bəhlul dedi: Aləmdə gördüyün hər bir şey, tikdirib oturduğun sarayın da zindana saldığın və əl-qolunu zəncirlə bağladığın seyidindir. Bütün bunları sən qəsb etmisən. Sənin tikdiyin binanın hər bir kərpici də məzlumların ah-naləsinin odu ilə bişib hazırlanıb. Bu sarayı tikdirmək üçün bilirsənmi nə qədər insana zülm etmisən? Sən elə başa düşürsən ki, bütün bunlar sənindir.”

Əgər insan boğazını və qarnını haram yeməklərdən saxlaya bilsə və mədəsinə haram qidaların getməsinin qarşısını alsa, o, yavaş-yavaş təmizlənməyə və paklaşmağa səlahiyyət qazanar. Nuraniyyəti hər bir  insana verməzlər. Müxtəlif yollardan və mərhələlərdən keçdikdən sonra insanı sınağa çəkərək ona nuraniyyət bəxş edilməsi üçün icazə verilər. Həmçinin insanlar elə düşünməsinlər ki, nuraniyyəti yalnız müctəhidlər əldə edə bilər. Xeyr, adi insanlar da şəriət məsələlərinə dəqiqliklə riayət etsələr, Allah-təala onlara da elə bir məqam inayət edər ki, nuraniyyət əldə etmiş olarlar.

Bir nəfər dərviş deyir: “Dünya malından heç bir şeyim yox idi. Anamla birgə yaşayırdım. Anam çox əsəbi bir insan idi. Evlənmək istəsəm də anamın xasiyyəti münasib olmadığından və onun rahatlığı naminə bu fikirdən daşındım. Bilirdim ki, əgər evlənsəm, anam həyat yoldaşımla yola getməyəcək. Öz-özümə dedim ki, qoy işləyib anama qulluq edim. Ona qulluq etməklə yanaşı, Allahıma da ibadət edərəm. Allahla öz aramda bir qərar qəbul edib dedim: "İlahi, mən belə başa düşürəm ki, anama görə evlənməyin xeyrindən keçməliyəm. Gedib işləyib qazandığım pulla anamı dolandırmağı qərara aldım." Həmin gündən sonra evlənməyi başımdan çıxartdım və bundan sonra həm anama qulluq edirdim, həm də Allaha ibadət etməklə məşğul olurdum.

Bir müddət keçdikdən sonra yavaş-yavaş hiss etməyə başladım ki, hidayət olunmağa doğru gedirəm. Başa düşdüm ki, namaz qılıb oruc tutduğuma görə deyil, məhz anama qulluq etməyi qərara aldığıma görə Allah məni hidayət edib. Çünki bu fikrə düşməzdən öncə də namaz qılıb oruc tuturdum. Əgər məndə belə bir hal yaransaydı, o zamanlar da yaranardı. Lakin həm ibadət, həm də anama qulluq etdiyimə görə qəlbimdə nuraniyyət hiss etməyə başladım. Elə bil ki, mənə bəzi şeyləri görməyə və hiss etməyə icazə verirdilər. Sanki mənəviyyat pərdəsinin arxasını görə bilirdim. Beləliklə Allah-təala məni hidayət etdi və nuraniyyət mərhələsinə çıxartdı. Hər gecə mən anamın ayağının altında yer salıb orada yatırdım. Su içmək üçün saxsıdan bir səhəngimiz, bir də saxsı stəkanımız var idi. Gecələrin birində səhəngin suyunu boşaldıb təzə su tökdüm ki, gecə anam su istədikdə ona təmiz su verim. Həmin gecə anam yuxudan ayılıb məndən su istədi. Mən yerimdən qalxıb səhəngdən stəkana su tökənə qədər bir neçə saniyə çəkdi. Azacıq gecikdiyimə görə anam suyu içib stəkanı başıma vurdu. Mən ona heç bir söz demədim. Gülümsəyib onu sakitləşdirdim. Elə həmin gündən ürəyimdə nuraniyyətin qığılcımını hiss edirdimsə artıq günəşi hiss etməyə başladım. Qəlbim nuraniyyət aləminə qərq oldu. Allah-təala bu hərəkətimə görə mənə xüsusi inayət və mərhəmət göstərdi.

Deməli, insan imtahanlardan üzüağ çıxdıqca qabiliyyətinə görə nuraniyyəti də artar. İnsanı müxtəlif sınaqlara çəkdikdən sonra qabiliyyətinə görə ona nuraniyyət verərlər. İnsanın qarşısına gün ərzində yüzlərlə halal-haram yeməklər çıxa bilər. Nuraniyyət axtaran, təmizlənmək istəyən hər bir insan mütləq özünü həmin haramlardan qorumalıdır.

قَالَ عَلِيٌّ(ع): ضِيَاءُ القَلب مِن اَكلِ الْحَلال

-Həzrət Əli(ə) buyurur: "Qəlbin ziya və nuraniyyəti halal yeməklərdən yaranar."[1]

İnsan bu hala yalnız halal yeməklərlə nail ola bilər. Bir tikə haram yemək insanın nuraniyyətini tamamilə əlindən alar. Nə üçün bizim ibadətə eşqimiz yoxdur? Hansı səbəbə ariflər, abidlər kimi gecə yarısı ibadət eşqi bizi yuxudan oyatmır? Nə üçün gecələr Allaha dua edib yalvarmağa könlümüz yoxdur? Çünki biz simi simə qoşa bilmirik. Qəlbimizi Allaha bağlaya bilmirik. Daxildə bizə lazım olan nuraniyyəti məhv edib dağıtmışıq. Halalın mənasını harama, haramın mənasını isə halala qarışdırmışıq. Rüşvət, haram ticarətlər, yalan, sələmçilik və s. qəbahətli əməllərlə qazanılan pullar insanın nuraniyyətini əlindən alar və onu bədbəxt edər. Dildə “halalın olsun” - deməklə bir şeyi insan halal edə bilməz. Kiməsə haram yedizdirməklə və “halalın olsun” - deməklə həmin şey dönüb halal olmur. Gərək həmin şeyin özü zatən halal olmuş olsun.

Duanın qəbul olunmasının birinci şərti də məhz halal yeməklərdən irəli gəlir. Haram yeyən insanın duası qəbul olunmaz. Haram yemək, qarını haramla doldurmaq insanın bütün üzvlərinin nuraniyyətini əlindən alar. Əgər gözün nuraniyyəti əldən gedərsə, İmam Zamanı(ə.c) necə görə bilər?

## 7. Gecələr namaz qılıb ibadət etmək

İnsanın təmizlənməsi və ruhunun paklaşmasının yollarından biri gecələr Allaha ibadət etməkdən ibarətdir. Əgər insan gecələr səhərə qədər yatsa və gecə yarı oyanıb Allahla münacat etməsə, həmin şəxsdə nuraniyyət yaranmayacaq. Nuraniyyətin, təmizlənmənin və təqvanın

[1] Tühəfül-üqul, səh.106.

müştərisi olan kəs həmin şeyi gecələr Allaha ibadət edib münacat etməkdə axtarsın. Məsələn, bazarda elə şeylər satırlar ki, yalnız səhərlər olur. Onu almaq üçün mütləq sübh tezdən gedib növbəyə durmalısan. Əgər geciksən, həmin şeyi tapa bilməyəcəksən. Əgər insan istədiyi qədər yeyib, istədiyi qədər yatsa, ona qalan elə yeyib yatmaq olacaq. Belə insan nuraniyyət və təmizliyə çata bilməz.

قَالَ عَلِيّ(ع): نُورُ القَلبِ بِالصَّلوةِ فِى الظُلَم

-Həzrət Əli(ə) buyurur: "Qəlbin nuraniyyəti gecə yarısı namaz qılıb ibadət etməklə hasil olar."

قَالَ رُسُول الله(ص): إنّ العَبدَ إذا تَخَلّى بسَيِّدِهِ في جَوفِ اللَّيلِ المظلِمِ و ناجاهُ أثبَتَ اللَّهُ النُّورَ في قَلبِهِ

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Bəndə gecə yarısı durub öz Allahı ilə xəlvəti əlaqə yaratdıqda və razü-niyaz etdikdə, Allah-təala həmin bəndənin qəlbində nuraniyyəti möhkəmləndirər."[1]

İmam Səccad(ə) Allahla münacat edərkən belə dua edərdi: "İlahi, Səndən Sənin məhəbbətini, Sənin sevdiyin şeyləri və məni Sənə yaxınlaşdıran bütün əməlləri istəyirəm."

## 8. Allahın qorxusundan ağlamaq

Təmizlənmə və ruhun paklaşmasına səbəb olan əməllərdən səkkizincisi Allahın qorxusundan göz yaşı axıtmaqdır. Allahı sevən və Onunla münacat edən insanın ürəyində qorxu yaranar. Bu qorxunun nəticəsində də gözlər yaşarar. Əgər insan Allahla münacat edərkən gözləri dolsa,

---

[1] Tühəfül-üqul, səh.63.

ağlasa başa düşsün ki, yavaş-yavaş nuraniyyət mərhələsinə qədəm qoyur.

قَالَ عَلِيّ(ع): اَلبُكاءُ من خَشيَةِ اللهِ يُنِيرُ القَلب وَيَعصِمُ عَنِ الْمُعَاوَدَةِ الذَّنب

-Həzrət Əli(ə) buyurur: “Allahın qorxusundan ağlamaq qəlbi nurlandırar və insanı günaha düşməkdən saxlayar.”

قَالَ البَاقِر(ع): فِي وَصِيَّتِه الْجَابر... واسْتَجْلِبْ نُورَ القَلْبِ بِدَوَام الحُزْنِ

-İmam Baqir(ə) Cabirə vəsiyyət edərkən buyurur: “Ey Cabir! ...Qəlbinin nuraniyyətini istəyirsənsə, həmişə (qəlbində) hüznlü ol (qəlbin şad olmasın).”[1]

Mömin insanın qəlbi həmişə hüznlü və kədərli olar. Lakin zahirdə isə bu kədəri üzə vurmaz. Həzrət Əli(ə) buyurur: "Möminin kədəri ürəyində, sevinci isə üzündə olar." Mömin insanın ürəyi həmişə kədərli və hüznlü olar. Aşiq insanın ürəyi həmişə dağlı və yaralıdır. Aşiq eşqinə çatana qədər ürəyi gülüb şad olmaz. Aşiq olan insanlara diqqət yetirdikdə onların həmişə fikirli, hüznlü və qəmli olduqlarının şahidi oluruq.

Nəcəf şəhərində yaşayan böyük arif və alimlərdən biri xəstələnmişdi. Qohumları onu yaxşı bir həkimə apardılar və həkim onu müayinə edib baxdıqdan sonra dedi: “Mən bu xəstəyə baxdım, dərman da yazacağam. Amma bir şey başa düşdüm, bilmirəm deyim, yoxsa deməyim.” Həmin alimin qohumları elə güman etdilər ki, həkim onun xəstəliyinin çox ağır olduğunu və ya öləcəyini söyləyəcəkdir. Buna görə də

---
[1] Tühəfül-üqul, səh.257.

dedilər: “Hər nə varsa gizlətmə, bizə söylə. Həkim dedi: Düzdür, mən ona müalicə yazmışam. Amma onun ürəyini yoxlayanda bildim ki, o, aşiq olmuş bir adama oxşayır. O, xəstə deyil, kiməsə aşiq olub. Onlar həkimə dedilər: Sən düz başa düşmüsən, o aşiqdir. Amma sən bildiyin aşiqdən deyil. O, Allahın aşiqidir.”

Eşq həmin eşqdir. Heç bir fərqi yoxdur ki, insan istər bir camala aşiq olsun, istər dünyaya aşiq olsun, istər pula aşiq olsun və istərsə də Allaha aşiq olsun. İstər mənəvi, istərsə də dünyəvi eşqin xüsusiyyəti insanı yandırıb külə çevirməkdir. Hədislərdə deyilir ki, Allahın məhəbbəti oddur. Hər kəsin ürəyinə düşsə, onu yandırıb külə döndərər. Allaha aşiq olan insan gecə-gündüz Onun eşqi ilə yaşayar. Allaha aşiq olan Onunla münacat etməkdən, Ona ibadət etməkdən yorulmaz. Hər bir şeyi Onun eşqinə qurban verər.

Xorasanda Bəhlul adlı böyük bir şəxsiyyət yaşayırdı və onun yüzdən çox yaşı var idi. Son illər o, köçüb Tehranda yaşamağa başlamışdı. Çox böyük abid və alim insan idi. Otuz il Əfqanıstanda zindanda yatmış, neçə il Rza şahla mübarizə aparmışdır. O qədər möhkəm və imanlı insan idi ki, dəfələrlə Məkkə ziyarətinə piyada getmişdi. Mən dəfələrlə onun söhbətlərində və məclislərində iştirak etmişəm. Yaxın dostlarımdan biri deyir: “Bir gün şah Əbdüləzimin ziyarətinə getmişdim. Birdən gözüm Bəhlula sataşdı. O da ziyarətə gəlmişdi. Kənarda dayanıb ona tamaşa etdim. Sonra ona yaxınlaşıb salam verdim. O, mənim salamımı aldı və hiss etdim ki, məni tanımadı. Mən ona tanışlıq verib kim olduğumu dedikdən sonra məni tanıdı. Bir az söhbət edib hal-əhval tutduq. Sonra dedim: Sizdən bir xahiş edə bilərəmmi? O dedi: Buyur. Səndən xahiş edirəm ki, bir gecə bizə qonaq gələsən. O, bir az fikirləşdikdən sonra dedi: Mümkündür. Ziyarətgahdan çıxıb yolun kənarında taksi gözləməyə başladıq. Bir az dayandıq, lakin

yolda taksi görünmürdü. Bəhlul mənə dedi: Gəl piyada gedək. Dedim: Ağa, yolumuz çox uzaqdır. Piyada getsək, iki-üç saata çatarıq. Dedi: Nə olsun? Gedərik. Dedim: Bir az da gözləyək, yəqin bir maşın tapılar. Azacıq gözləmişdik ki, bir maşın bizə yaxınlaşdı. Amma taksi maşını deyildi. Qapını açıb bizi maşına əyləşməyi təklif etdi. Nə o bizi tanıyırdı, nə də biz onu tanıyırdıq. Sürücüdən soruşdum: Nə əcəb maşını bizim üçün saxladın? Dedi: Bu kişinin nurani insan və böyük şəxsiyyət olduğunu hiss edib saxladım. Mən sürücüyə bildirdim ki, bu kişi Bəhluldur. Mən onu tanıtdırdıqdan sonra sürücü də onu tanıdı. Sürücü mənə dedi: Ağadan iki xahişim var. İstəyirəm ki, ona həm bir hədiyyə verim, həm də bir gün bizə qonaq gəlsin. Mən sürücünün xahişini Bəhlula dedim. Bəhlul dedi: Fikirləşib cavabını sənə deyərəm. Sürücü bizi mənzil başına çatdırdıqdan sonra Bəhlul mənə dedi: Mən maşında istəmədim ki, onun xətrinə dəyim. Mən onun xahişini qəbul edə bilmərəm. Sabah mənim sözlərimi ona çatdırarsan. Nə isə, evə keçib süfrə düzəltməyə başladım. Onunla gecə yarısına qədər söhbət etdim. Sonra dedim: Ağa, sizin üçün yatmağa yer hazırlamışam. İstəyirsinizsə gedin dincəlin. Onu yerbəyer etdikdən sonra mən də öz otağıma keçib uzandım. Özüm də ayıq yatmışdım ki, bəlkə qonağın bir sözü olsa eşidə bilim. Üstündən bir-iki saat keçmişdi ki, gördüm yuxudan ayıldı. Dəstəmaz alıb həyətə düşdü və namaz qılmağa başladı. Mən də onun ardınca həyətə düşüb bir ağacın altında əyləşərək onun ibadət etməsinə tamaşa edirdim. Qunut tutarkən münacat etməyə başladı. Təxminən bir saat yarım qunut halında münacat edib ağlayırdı. İki saata az qalırdı ki, hələ qunutu qurtarmamışdı. Mən ayağa qalxıb öz otağıma keçdim.”

Odur ki, insan məhrəmlərin sırasına qoşulmaq üçün özünü və şəraitini hazırlamalıdır. Məhrəm ola-ola

naməhrəmlər sırasında qalmaq acizlikdir. Allaha məhrəm və yaxın olan insan həmişə Onun eşqindən, xofundan ağlayıb sızıldayar. Allaha aşiq olan insanın qəlbi həmişə hüznlü və kədərli olar. Bu hüzn və kədər, Allah qorxusundan münacat edib ağlamaq insanın təmizlənməsinə səbəb olar.

## 9-10. Ölümü xatırlamaq və Quran oxumaq

İnsanın ruhunun paklaşmasının və təmizlənməsinin yollarından biri ölümü xatırlamaq, biri də Quran oxumaqdan ibarətdir. Əgər insan hər gün ölümü yada salsa və Quran oxusa, qəlbinin pası aradan gedər və nuraniyyət tapar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ هَذِهِ الْقُلُوبُ تَصْدَأُ كَمِا يَصْدَءُ الْحَدِيْدُ إِذَا أَصَابَهُ الْمَاءُ

قِيْلَ: وَمَا جَلاؤُهَا؟ قَالَ(ص): كَثْرَةُ ذِكْرُ الْمَوْتِ وَتَلاوَةُ الْقُرْآنِ,

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Həqiqətən, bu qəlblər dəmirə su dəydikdə paslandığı kimi paslanar. Dedilər: “Ya Rəsulallah, onun əlacı nədir? Həzrət(s) buyurdu: Ölümü yada salmaq və Quran oxumaq.”[1]

İnsan başa düşməlidir ki, bu dünyada həmişəlik qalmayacaq. Bütün canlılar üçün gələn ölüm bir gün onun da qapısını döyəcək. Əgər insan hər gün ölümü yada salıb xatırlasa və özünü ölümə hazırlasa, o zaman nəfsini sındırar və qəlbi təmizlənər.

Həzrət Əli (ə) İmam Həsənə (s) buyurur:

وَذَلِّلْهُ بِذِكرِالْمَوت

[1] Tühəfül-üqul, səh.103.

-Ölümü yad edib xatırlamaqla (içəridəki) nəfsini zəlil edib sındır.

Mən neçə dəfə təcrübə etmişəm, bəzi adamlarla söhbət edəndə ölümdən söz açan kimi söhbəti dəyişir və araya söz qatırlar. Ölümdən danışmağı istəmirlər. Onlar ölümdən deyil, öz axirətlərini pis günə qoyduqları üçün qorxurlar. Onların başları yalnız dünya həyatına və pula qarışdığı üçün ölümün adı gələndə qorxub ölümdən danışmaq istəmirlər. Başa düşmürlər ki, bu ölüm bir gün onları da haqlayacaq. Ölümün adı gəldikdə qulaq asmaq istəmirlər. Çünki bilirlər ki, ölüm gəlsə, dünyada yığdıqları hər bir şey əllərindən çıxacaq.

Ümumiyyətlə, ölümü xatırlayıb yad edənlər iki qisimdir. Bir qismi o insanlardır ki, ölümün adı gəldikdə yığıb topladıqları dünya malının əllərindən çıxacağını görüb ölmək istəmirlər. Belə insanlar ölümün adını eşitməkdən və ölümdən danışmaqdan çox narahat olurlar.

سُئِلَ الْحَسَن ابنِ عَلِيّ(ع) مَا بَالُنَا نَكره الْمَوت وَلا نُحِبُّه؟ فَقَالَ(ع): اِنَّكُم اَخرَبتُم آخِرَتَكُم وَعَمَّرتُم دُنيَاكُم فَاَنتُم تُكَرهُونَ النَّقلة مِن العمران اِلى الْخَراب؟

-Bir nəfər İmam Həsəndən(ə) soruşdu: “Nə üçün bizim ölümdən xoşumuz gəlmir? İmam Həsən(ə) buyurdu: Çünki siz dünyanızı abad edib, axirətinizi xaraba qoymusunuz. Kim abad yerdən xaraba yerə getmək istəyər?"

Ölümü xatırlayıb yad edənlərin ikinci dəstəsi o kəslərdir ki, ölümü yad etməklə onların imanı güclənir və ruhları təmizlənir. Allaha və Peyğəmbərə(s) imanı olan insan başa düşür ki, ölümü çox xatırlamaq insanın ruhunu təmizləyir. Həmçinin özlərini ölümdən sonrakı həyat üçün hazırlayıb lazımi tədarükləri götürürlər. Bir sözlə desək, axirət evini

abad edib gözəlləşdirən şəxsin ölümdən acığı gəlməz. Əksinə çox istəyər ki, ölüm vaxtı gəlib çatsın və əbədi səadətə qovuşsun. Məsələn, bir nəfər xarici ölkələrə səfərə çıxır. Təyyarəyə minib yola düşür. Əgər bu insan həmin ölkəyə çatan kimi onu fəlakət gözlədiyini bilsə, təyyarə həmin ölkəyə yaxınlaşdıqca ürəyi həyəcanla döyünər və qorxusundan nə edəcəyini bilməz. Yox, əgər bilsə ki, həmin ölkədə onu gül-çiçəklə qarşılayıb pişvazına çıxacaqlar və onun üçün gözəl istirahət yerləri hazırlayıblar, oraya çatmaq üçün daha da tələsər və təyyarə yaxınlaşdıqca sevinər. Buna görə də insan bu dünyada hər nə qədər xeyir işlər görüb axirət dünyasına göndərsə, öləndən sonra onların hamısını ona qaytaracaqlar.

Hədislərdə belə nəql olunmuşdur ki, əgər bir insanın övladı özündən əvvəl rəhmətə getsə, onun valideyni öldükdən sonra həmin övlad onları qarşılamağa gələcək. Əgər insan bilsə ki, öləndən sonra valideynləri, övladları və s. qohumları onu qarşılamağa gələcəklər, nə qəm-qüssəsi olar? Kim istəməz ki, atası, babası, övladı və s. onu qarşılamağa gəlməsin? Əgər insan bilsə ki, öləndən sonra onu mələklər qarşılayıb pişvazına çıxacaqlar, o zaman ölümdən qorxarmı? Buna görə də insan ilk növbədə axirət evini abad etməlidir ki, dünyadan gedən zaman onu gül-çiçəklə və təmtəraqla qarşılasınlar. Axirət evi üçün azuqə toplayan şəxs heç bir vaxt ölümdən qorxmaz.

Aşura günü İmam Hüseyn(ə) hiss etdi ki, bəzi səhabələrin ürəyində həyəcan vardır. Həzrət(ə) onları bir yerə toplayıb xütbə oxudu və onların ürəyini buz kimi sərinlətdi. İmam Hüseyn(ə) üzünü onlara tutub buyurdu:

صَبْرًا يَا بَنِى الكِرام فَمَا الْمَوتُ اِلاّ قَنْطَرَة تّعبُّرِ بِكُم عَنِ الْبُؤْسِ وَ الضَّراءِ اِلى الْجِنانِ الْواسِعَة وَ النَّعِمِ الدّائِمَة فَأَيُّكُم يَكْرَه اَنْ يَنْتَقِلَ مِن

سِجْنِ اِلَى قَصْرٍ وَما هُوَ لِأَعْدائِكُم اِلاّ كَمَن يَنْتَقِلُ مِن قَصْرٍ اِلَى سِجْنٍ وَ عَذاب

-Ey kəramətli insanların övladları, səbr edin. Ölüm körpüdən başqa bir şey deyildir. İnsanlar bu körpüdən çətinliklə də olsa geniş və nemətləri tükənməyən əbədi bir cənnətə daxil olurlar. Sizlərdən kim istəməz ki, zindandan çıxıb cənnətə getsin? Sizin düşmənləriniz də bu körpüdən keçəcəklər. Lakin onlar cənnətdən zindana gedəcək və əzaba düçar olacaqlar.

## 11. Tövbə

Ötən bəhslərdə qeyd etdik ki, peyğəmbərlər müəyyən məqsədlər əsasında insanlar üçün göndərilmişlər. Onların əsas məqsədlərindən biri irqindən asılı olmayaraq bütün insanları təmizliyə çıxarmaqdan ibarət olmuşdur. Həmçinin qeyd etdik ki, insanın saflaşması və ruhunun paklaşmasının müəyyən amilləri və səbəbləri vardır və peyğəmbərlər həmin amilləri insanlara öyrətmişlər. Yuxarıda həmin amillərdən onu barədə lazım olan qədər söhbət etdik.

Bu bəhsimizdə isə nəfsin paklaşmasında və ruhun təmizlənməsində ən böyük rolu olan tövbə haqda söhbət açacağıq. Tövbə insanın saflaşması üçün ən mühüm məsələ və amillərdən biridir. Ümumiyyətlə, insanı saflaşdıran amillərə diqqət yetirsək görərik ki, tövbə onların hamısından öndə qərar tutur. Yəni sıra etibarı ilə götürsək, insan ilk növbədə tövbədən başlamalıdır.

Odur ki, ruhunu paklaşdırmaq istəyən hər bir kəs nəfsini saflaşdıran amillərdən öncə mütləq bir məsələyə çox diqqət yetirməlidir. Həmin məsələ qeyd etdiyimiz kimi tövbə ilə bağlıdır. Nə qədər ki, insan keçmişdə etdiyi pis və qəbahətli əməllərindən tövbə etməyib, onun saflaşması da qeyri-

mümkündür. Məsələn, bir insan otuz il nadanlar, cahillər və pis insanlar kimi həyat sürür. Otuz ildən sonra tutduğu işlərin pis olduğunu başa düşür və düz yola qayıdır. Bunun üçün keçmişdə etdiyi əməllərindən peşman olmalıdır. Tövbə elə bir əməldir ki, insanın qəlbində olan bütün qara ləkələri və günahları yuyub təmizləyir. Belə olduqda insanın qəlbi paklaşır və nuranilәşir.

إِنَّ الْمُؤْمِنَ إِذَا أَذْنَبَ كَانَتْ نُكْتَةٌ سَوْدَاءُ فِي قَلْبِهِ ، فَإِنْ تَابَ وَنَزَعَ وَاسْتَغْفَرَ ، صُقِلَ مِنْهَا قَلْبُهُ فَإِنْ زَادَ زَادَتْ حَتَّى تَعْلُوَا قَلْبَهُ ، فَذَلِكَ الرَّانُ " قَالَ اللَّهُ تَعَالَى : كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِمْ مَا كَانُوا يَكْسِبُونَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Mömin günah edən zaman onun qəlbində qara bir nöqtə əmələ gəlir. Əgər tövbə və istiğfar edərsə, həmin qara nöqtə qəlbindən silinər. Yox, əgər günaha davam edərsə, həmin qara ləkə daha da böyüyər. Bu, həmin pas və ləkədir ki, Allah buyurmuşdur: “Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.”[1]

قَالَ الصَّادِقُ(ع): ...وَ كَذلِكَ خَلَقَ اللهُ القَلبَ طَاهِراً صَافِياً وَجعَلَ غَذاءَهُ الذِّكر وَالفِكر وَالْهيبَة وَالتَّعظِيم. وَإِذَا شِيبَ القَلب الصَّافِي فِي تَغذِيتِهِ بِالغَفلَة وَالكَدَر صُقِلَ بِمَصقَلَةِ التوبَة، وَنُظِفَه بِمَاءِ الإنَابَة لِيَعُود مِنهُ الثوب عَلى حَالَتِهِ الأولى وَجوهرته الأصلِة الصَّافِية

-İmam Sadiq(ə) buyurur: “Allah-təala qəlbi təmiz və saf yaratmışdır. (Allaha) zikr, təfəkkür, heybət və (Allaha) təzim etməyi onun üçün qida qərar vermişdir. Ona qəflət və kədər

[1] Mizanül-hikmə, 8-ci cild, səh.235.

yedizdirdikdə çirklənib bulaşar. Onun çirkinliyi və natəmizliyi tövbə ilə aradan gedər, (günahdan) peşman olmaqla yuyulub təmizlənər və əvvəlki kimi saf və pak halına qayıdar.”[1]

Bu hədislərdən başa düşürük ki, qəflətə düşərək günah vasitəsilə çirkləndirdiyimiz ruhu ilk növbədə tövbə etməklə təmizlədikdən sonra saflaşmağa başlaya bilərik. Çünki əgər tövbə və peşmançılıq olmasa və qəlb günah çirkabından təmizlənməsə, ruhun paklaşması üçün nəzərdə tutulmuş amillər fayda verməyəcəkdir. Tövbə barədə Qurani-Kərimdə bir çox ayələrə rast gəlmək olur. Həmin ayələrdən bir neçəsinə diqqət yetirək. “Zumər” surəsinin 53-cü ayəsində buyurulur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-De: “Ey Mənim *(günah vasitəsi ilə)* özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah *(tövbə ilə)* bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!”

“Ənam” surəsinin 54-cü ayəsində isə belə oxuyuruq:

وَإِذَا جَاءكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلاَمٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلَى نَفْسِهِ الرَّحْمَةَ أَنَّهُ مَن عَمِلَ مِنكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِن بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَّحِيمٌ

- Bizim ayələrimizə iman gətirənlər sənin yanına gələndə onlara “salam olsun sizə! Rəbbiniz Özünə (bəndələrə qarşı) rəhmli olmaq qərarını vermişdir ki, sizdən kim nadanlıq

---

[1] Misbahuş-şərifə, səh.69.

üzündən pis bir iş görsə, ondan sonra tövbə edib (öz işini) düzəltməklə məşğul olsa, şübhəsiz, Allah çox bağışlayan və mehribandır” - de.

## Nəsuh tövbəsi

İnsan günah etdikdən sonra həqiqətən peşman olub tövbə edərsə, Allah-təala həmin şəxsin günahını bağışlayar. Lakin tövbə edərkən onun şərtinə də əməl etmək lazımdır. Tövbənin ən əsas şərti nəsuh tövbəsidir. Yəni insan tövbə etdikdən sonra bir daha həmin günaha qayıtmamalıdır. Allah-təala “Təhrim” surəsinin 8-ci ayəsində möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَّصُوحًا عَسَى رَبُّكُمْ أَن يُكَفِّرَ عَنكُمْ سَيِّئَاتِكُمْ وَيُدْخِلَكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ

-Ey iman gətirənlər, Allaha nəsuh bir tövbə edin, ümid edilir ki, Rəbbiniz sizin günahlarınızı örtsün və sizi *(evlərinin və ağaclarının)* altından çaylar axan cənnətlərə və bağlara daxil etsin.

Bir gün Həzrət Əlidən(ə) soruşurlar: “Ya Əmirəlmöminin(ə), nəsuh tövbəsi nədir? Həzrət(ə) buyurur: Ürəkdən peşman olmaq, dildə Allahdan bağışlanmaq diləmək və bir daha həmin günaha (tərəf) qayıtmamaq.”[1]

İmam Sadiqdən(ə) nəsuh tövbəsi nədir? – deyə soruşduqda İmam(ə) misal çəkərək belə cavab verir: “Nəsuh tövbəsi odur ki, heyvanın döşündən sağılan südün bir daha

[1] Biharul-ənvar, 71-ci cild, səh.48.

geri qayıtması mümkün olmadığı kimi, insan da günahdan əl çəkdikdən sonra bir daha həmin günaha qayıtmasın."

## Nəsuh tövbəsinin izahı

Nəsuh tövbəsi barədə əxlaq alimlərinin kifayət qədər açıqlamaları vardır. Bu sahənin böyük mütəxəssisləri insanların daha aydın başa düşməsi üçün mövzu ilə bağlı müxtəlif kitablar yazmışlar. Onlar həmçinin bildirmişlər ki, tövbə məsələsində iki mühüm və əsas şərt vardır. Hər kəs bu iki məsələdə diqqətli olarsa, həmin şəxs tövbənin həqiqətini dərk edə bilər. Onlardan biri tövbədən öncə, digəri isə tövbədən sonra diqqət yetiriləsi məsələlərdir. Tövbədən öncəki məsələnin üç əsası, tövbədən sonrakı məsələnin isə dörd əsası vardır. Hər kəs tövbə edərək hər iki şərtə riayət edərsə, həmin şəxsin tövbəsi qəbul olunmuşdur və düzgündür.

## Tövbədən öncə riayət olunası mühüm məsələlər

### 1. İntibah

İntibah elə bir haldır ki, insanı qəflət yuxusundan oyadıb etdiyi pis əməllərdən peşman edir. Məsələn, başı dünyaya, günaha, eyş-işrətə və avaraçılığa qarışmış bir insan hansısa sözün təsirinə düşərək qəflətdən oyanır. Elə bununla da etdiyi bütün əməllərinin çirkinliyini başa düşür. Tarix boyu bir kəlmə sözün sayəsində qəflətdən oyanıb böyük şəxsiyyətə çevrilən insanların şahidi olmuşuq. Nümunə üçün bir əhvalatı diqqətinizə çatdırıram.

Keçmişdə Ayaz adlı bir pozğun, quldur, yolkəsən və oğru yaşayırdı. Hamı onu çox yaxşı tanıyır və ondan çəkinirdi. Onun ürəyində rəhm deyilən bir şey yox idi və quldurluğu da o dərəcədə idi ki, bəzi vaxtlar evlərə oğurluğa gedərkən qapı açıq olsaydı da belə çəpərdən içəri keçməyi xoşlayardı. Heç bir kəsdən qorxusu-hürküsü yox idi. Ev sahibi onu çəpərin üstündə görsəydi belə Ayaz zərrə qədər də çəkinməzdi. Günlərin birində o, bir evə oğurluğa gedirdi. Çəpərə çıxıb üstündə oturdu. Elə bu zaman qulağına həzin bir səs gəldi. Diqqətlə qulaq asdıqda gördü ki, həmin evin sahibi Quran oxuyur. Yenə də diqqətlə qulaq asmağa başladı. Elə bu zaman ev sahibi bu ayəni oxudu:

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَن تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِن قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ وَكَثِيرٌ مِّنْهُمْ فَاسِقُونَ

-Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yada salmaq və haqdan nazil olan şey üçün təvazökar, müti olmasının və onların özlərindən qabaq (səmavi) kitab verilmiş, beləliklə (ömür) müddətləri uzadılmış, qəlbləri sərtləşmiş və çoxu itaətsiz olan kəslər kimi olmamalarının vaxtı çatmayıb?![1]

Ev sahibinin oxuduğu bu ayə Ayazın qəlbinə ox kimi sancıldı. Sanki bu sözlər onu qəflətdən oyatdı. Bir an yerindəcə donub qaldı və fikrə getdi. Sonra çəpərin üstündən düşüb geri qayıtdı. Etdiyi bütün əməllərə görə çox peşman oldu. Oğurluqla əldə etdiyi bütün əşya və pulları qaytardı.

---

[1] Hədid,16.

Hətta əyninə geydiyi paltarları belə çıxarıb verdi. Çünki artıq hər şeyi düzgün və olduğu kimi başa düşmüşdü.

İnsanın qəflətdən oyanıb tövbə etməsinə intibah halı deyilir. Günahkar insanda nə qədər ki, bu hal yaranmayıb, onun tövbəsinin faydası olmayacaq. Çünki insan etdiyi əməllərdən və qəflətdən ayılmasa, əməllərinin pis olduğundan necə xəbərdar ola bilər? Yəni insan bir şeyin həqiqətinə özü çatmayınca həmin şeyi dərk edə bilməyəcək. Günahkar insan kiminsə danlaması və yaxud nəsihət etməsi ilə bərabər özü etdiyi əməllərinin pis olduğunu başa düşməsə, tövbənin həqiqətini də əldə edə bilməyəcək.

## 2. Zəcr

Tövbədən öncə riayət olunası ikinci məsələ zəcrdən ibarətdir. Zəcr insanda olan elə bir haldır ki, etdiyi hər hansı bir pis əməlindən acığı gəlsin. Zəcr elə bir haldır ki, insanı zəlalət evindən çıxarıb düz yola təhrik edir. Zəcr odur ki, insan qəflətdən ayıldıqdan sonra etdiyi günahlar yadına düşdükdə xəcalət çəksin və etdiyi pis əməllərdən acığı gəlsin.

## 3. Hidayət

Tövbədən öncə riayət olunası üçüncü məsələ isə hidayətdir. Hidayət düzgün yolu tapmağa və həmin yola qayıtmağa deyilir. Əgər insan qəflətdən oyanıb, etdiyi əməllərin qəbahətini başa düşsə, üçüncü yol hidayət yoludur ki, ona qədəm qoymalıdır. Yəni insan yolunun səhv olduğunu bildikdən sonra düzgün yolu qarşısına məqsəd qoymalıdır.

Beləliklə tövbə etmək istəyən hər bir kəs mütləq tövbədən əvvəl bu üç şərtə riayət etməlidir. Həm qəflətdən oyanmalı,

həm keçmişdə etdiyi günahlardan acığı gəlməli, həm də düzgün yolu tapıb getməlidir.

Tarixə nəzər saldıqda görürük ki, Hürr ibn Yəzid ibn Riyahi tövbə edənlər üçün ən bariz nümunədir. Aşura gecəsi Hürr çox narahat halda idi. Hey öz-özünə fikirləşir, düşünüb daşınırdı. Mühacir ibn Ovs deyir ki, mən Hürrə baxırdım. Hiss etdim ki, Ömər Səddən ayrılandan sonra İmamın(ə) qoşununa tərəf hərəkət edir. Elə heyrətamiz bir halda idi ki, Hürrü heç bir vaxt belə görməmişdim. Elə şücaətli, qüvvətli bir adamın dizlərinin belə titrək hala düşdüyünü heç vaxt ağlıma belə gətirə bilməzdim. Öz-özümə təəccübləndim və Hürrün yanına gedib soruşdum: Niyə belə qəribə haldasan? Əgər bizdən soruşsaydılar ki, ərəblərin içərisində ən qüdrətli adam kimdir? Mən səni göstərib deyərdim ki, Hürr ibn Yəzid ibn Riyahi. Nə olub sənə? Niyə bu günə düşmüsən? Hürr ona baxıb dedi: Mühacir, bilirsən niyə bu haldayam? Mühacir soruşdu: Niyə? Hürr dedi: Mən özümü cənnətlə cəhənnəmin arasında görürəm. Amma bil ki, and olsun Allaha, cəhənnəmə tərəf getməyəcəyəm. Artıq öz yolumu müəyyənləşdirmişəm. Bundan sonra Hürr öz qalxanını çevirib tərsinə bağladı.[1] Çəkmələrinin iplərini bir-birinə bağlayıb boynundan asdı. Əllərinin ikisini də göyə qaldırdı. Başını aşağı salıb torpağa baxa-baxa, xəcalət çəkə-çəkə İmamın(ə) çadırlarına tərəf yollandı. O, İmam Hüseynə(ə) yaxınlaşanda düşüb yerin üstündə sürünə-sürünə getməyə başladı. Həzrət(ə) ona baxıb buyurdu: “Başını yuxarı qaldır.”[2] Hurr dedi: “Ağa, mən həmin adamam ki, birinci dəfə yolu sənin üzünə

[1] Onun bu əməli o deməkdir ki, mən döyüşmürəm. Təslim oluram.

[2] Bu mənada ki, görüm kimsən? İmam bilirdi ki, o Hürrdür. Lakin özünü elə göstərirdi ki, onun kim olduğunu tanımır.

bağlamışdım. Bu işin və bütün bu çətinliklərin yaranmasına mən səbəb olmuşam. İndi isə belə bir halda sənin yanına gəlmişəm. Ağa, mən doğrudan da bilmirdim ki, bunlar işi bu yerə gətirib çıxaracaqlar. İndi gəlmişəm ki, səndən üzr istəyim və Allaha tövbə edim. Ey Peyğəmbər balası, mənim tövbəm qəbul olunarmı?” Həzrət (ə) buyurdu: “Bəli, Allah sənin tövbəni qəbul edər və səni bağışlayar.” Hürr dedi: “Ağa, elə isə mənə izn ver, dayanmadan döyüş meydanına gedim.” İmam(ə) ona icazə verdi. O, İmamdan(ə) izn alandan sonra Züheyrlə birgə döyüş meydanına daxil oldu. Hürr meydana daxil olanda bir neçə rəcəz[1] oxuyaraq üzünü düşmənə tutub dedi: “Heç utanmırsınız, Fəratın suyu çöllərə axıb gedir, amma Hüseynin(ə) körpə balaları üç gündür ki, əl-ətəş deyib susuzluqdan yanırlar.” O, bu sözləri deyib döyüşə girdi. Tarixi mənbələrdə yazırlar ki, o, düşmən ordusundan qırx nəfərə qədər adamı öldürdü. Sonra atdan düşüb bir neçə nəfəri də cəhənnəmə vasil etdi və nəhayət, onu da yaraladılar.

## Tövbədən sonra riayət olunası mühüm məsələlər

Qeyd olundu ki, tövbə insanın saflaşması və ruhunun paklaşması üçün mühüm və önəmli amillərdən biridir. Tövbə insanın nicat qapısı və Allah qarşısında olan üzrüdür. Lakin tövbədə iki əsas mətləbə diqqət yetirilməli və riayət edilməlidir. Əgər tövbə edən insan bu iki mətləbə riayət etməsə, tövbənin həqiqətinə çata bilməyəcək. Həmin mətləbdən biri tövbədən öncə, digəri isə tövbədən sonra

[1] Rəcəz- döyüş meydanında oxunan şerə deyilir. Ərəblərdə adət idi ki, meydana daxil olduqda rəcəz oxuyardılar.

riayət olunası məsələlərdir. Ötən bəhslərdə tövbədən öncə diqqət yetiriləsi mətləb barədə müəyyən qədər söz açdıq. Həmçinin qeyd etdik ki, tövbədən öncə lazım olan mətləb üç sütunun üzərində dayanır. Tövbə etmək istəyən şəxs mütləq bu mətləbin hər üç sütununa riayət etməlidir. Onlardan birinin adı intibah, ikincisinin adı zəcr, üçüncüsünün adı isə hidayətdir. Ümumiyyətlə, tövbə edən şəxs bu mətləblərin hər hansı bir sütununa və əsasına riayət etməsə, tövbənin təsiri olmayacaq.

Ötən bəhslərimizdə bu barədə lazımi qədər söhbət olundu. Bu bəhsdə tövbədən sonra riayət olunması gərək olan mətləb barədə söhbətimizə davam edək. Tövbədən sonra riayət olunması tələb olunan bu mətləb dörd sütun və əsasın üzərində dayanır. Hər bir kəs bu mətləbin hər hansı bir əsasına riayət etməsə, tövbənin həqiqətinə çata bilməyəcək. Yəni bu mətləbdə olan dörd əsasdan hər hansı birinə riayət olunmasa, həmin mətləb öz xüsusiyyətini itirəcəkdir. Belə olduqda tövbə edən şəxs dildə tövbə etməsinə baxmayaraq, tövbənin həqiqətini əldə edə bilməyəcək. Yəni tövbədən əvvəl və sonrakı gərəkli məsələlərə riayət etməyən şəxs istənilən nəticəni əldə edə bilməyəcək. Belə olduqda qəlbdə nuraniyyət yaradan tövbə öz xüsusiyyətini həmin şəxsə bəxş etməyəcək. Tövbə o zaman insanın qəlbində nuraniyyət yaradar ki, ondan əvvəlki və sonrakı məsələlərə riayət olunmuş olsun.

Burada söhbət namaz qılıb, onuc tutmaqdan getmir. Namaz küfrlə imanın arasında olan sərhəddir. Kimsə elə düşünməsin ki, namaz qılmaqla peyğəmbərlərin dərəcəsinə yüksələcək, mələklərlə görüşəcək, yaxud Allah cənnətdən onun üçün meyvə göndərəcəkdir. Namaz vacib olan əməllərdən biridir. Hədislərdə deyilir ki, namaz qılmayan insanın İslamda haqqı yoxdur. Namaz küfrlə İslam arasında olan sərhəddir. Əgər bir insan namaz qılarsa, müsəlmanların

cərgəsinə qoşulmuş olar. Nuraniyyət və saflaşma tamamilə başqa şeydir. Namaz insan üçün çox mühüm amillərdəndir. İnsan namaz vasitəsilə yüksək dərəcələrə nail ola bilər. Bir şərtlə ki, qılınan namaz həqiqətən namaz olmuş olsun. Namaz qılan şəxsin namazı həqiqi namaz olarsa, onun qıldığı bu namaz onu çirkinliklərdən paklaşdırar. "Ənkəbut" surəsinin 45-ci ayəsində belə oxuyuruq:

إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنكَرِ

-Həqiqətən, namaz (insanı) böyük günahlardan, xoşagəlməz hallardan çəkindirir.

Əgər bir insan namaz qılırsa və çirkin işlərdən, xoşagəlməz hallardan çəkinmirsə, deməli onun qıldığı namaz həqiqi namaz deyil. Əgər namaz namaz olsa, insanı çirkin işlərdən çəkindirib yüksəklərə ucaldar. Bunu daha aydın başa düşmək üçün bir misala diqqət yetirək. Əbu Əli ibn Sinaya xəbər verdilər ki, filankəs dünyasını dəyişib. Əbu Əli ibn Sina dedi: "Çox təəccüb edirəm. Çünki o, hər gün bir qaşıq bal yeyərdi." Bal elə bir şeydir ki, insan üçün şəfadır. Balın elə xüsusiyyətləri vardır ki, kim hər gün bal yesə, uzun müddət yaşamaq şansı qazana bilər. Bir şərtlə ki, bal həqiqi bal olmuş olsun. Bazarda müxtəlif şirələr və şəkər tozu qarışmış ballar satılır. Həqiqi balı çox nadir hallarda tapmaq olur. İnsan şirə qatılmış, yaxud çox hissəsi şəkər tozundan hazırlanmış baldan hər nə qədər yesə də o balın heç bir xəstəliyə faydası olmayacaq. Çünki o bal həqiqi bal deyildir.

Beləliklə, namaz qılıb çirkin işlərdən əl çəkməyən insanın qıldığı namazın keyfiyyəti də çox azdır. Çünki namaz qılanın namazı həqiqi namaz olarsa, mütləq çirkin işlərdən və pozğun əməllərdən qorunacaq. Əgər bir maşının mühərriki xarabdırsa, həmin maşını necə apara bilər? Xarab mühərrikli maşın insanı yarı yolda qoyar. Beləliklə mühərrikdə qüsur olduqda maşın insanı məqsədə çatdıra

bilmədiyi kimi, namaz da həqiqi namaz olmasa, insanı çirkin işlərdən saxlaya bilməyəcək.

Tövbə də eynilə buna bənzəyir. Hər kəs tövbənin həqiqətini dərk etmək istəyirsə, tövbənin onun ürəyində nuraniyyət yaratmasını istəyirsə, mütləq tövbədən əvvəl və sonrakı məsələlərə riayət etməlidir. Tövbə edən şəxs əgər bu məsələlərdə diqqətli olmasa, istənilən nəticəni əldə edə bilməyəcəkdir.

İmam Səccaddan(ə) belə bir rəvayət nəql olunmuşdur: “Dəryada üzən bir gəmi batır və gəmidə olanların hamısı qərq olur. Lakin cavan bir qadın nicat taparaq sahilə çıxır. Sahildə bir cavan oğlan həmin qadını görür və ona qarşı pis fikrə düşür. Qadına yaxınlaşmaq istəyəndə görür ki, qadın qorxudan tir-tir əsir. Oğlan ondan soruşur: “Niyə əsirsən və nədən qorxursan? Burada bizi heç bir kəs görmür.” Qadın deyir: “Düzdür, burada heç kim yoxdur, lakin bizim bu hərəkətimizi Allah görür. Sən Allahın bəndələrindən qorxub həya etdiyin halda, mən Allahın özündən necə qorxub həya etməyim?”

Qadının bu sözləri oğlanın qəlbinə təsir edir və o, qadına toxunmayıb elə oradaca sidq ürəklə tövbə edir. Sonra qadından ayrılıb öz yolu ilə gedir. Yolda qoca bir abidlə rastlaşır. Onunla abidin gedəcəkləri yer eyni olduğundan yol yoldaşı olurlar. Onlar günəşin qızmar şüaları altında əzab-əziyyətlə yol gedirlər. Abid deyir: “Sən dua et, mən də amin deyim ki, Allah bizim başımızın üstünə bir bulud göndərsin, günəşin qızmar şüalarından bizi qorusun.”

Oğlan deyir: “Mən günahkar bir insanam. Mən dua etsəm, Allah mənim dualarımı qəbul etməz. Gəl, sən dua et, mən də sənin dualarına amin deyərəm. Çünki sən neçə illərdir ki, Allaha ibadət etmisən və Allah yanında sənin hörmətin vardır.” Abid onunla razılaşıb dua edir, yenicə tövbə etmiş oğlan da onun dualarına amin deyir. Bir neçə dəqiqə

keçməmiş Allah-təala onların başı üzərinə bir bulud göndərir. Onlar yol getdikcə bulud onları müşayiət edərək, günün qızmar şüalarının istisindən qoruyur. Onlar gəlib iki yolayrıcına çatırlar və ayrılmalı olurlar. Bir-biri ilə xudahafizləşib ayrıldıqdan sonra bulud yenicə tövbə etmiş oğlanı günəşin şüalarından qorumaq üçün onun ardınca gedir."

Sonra İmam Səccad(ə) əlavə edərək buyurdu: "Allah-təala abidin dualarına görə yox, yeni tövbə etmiş cavan oğlanın dualara amin deməsinə görə o buludu göndərdi."

Həmin cavan oğlan tövbənin həqiqətini tapdığı üçün onun qəlbində nuraniyyət yaranmışdı. Onun tövbəsi qəbul olunduğu üçün Allah-təala onun "amin"ini qəbul etmişdi. Əgər bir insan tövbənin həqiqətini tapsa, etdiyi həmin tövbə onun ürəyini nurani edər. Lakin bəzi insanlar tövbə edib vacib əməlləri yerinə yetirməsinə baxmayaraq, fikirləri etdikləri günahların yanında qalmışdır. Deməli, bu insanlar tövbənin həqiqətinə çatmamışlar. Tövbənin həqiqətini dərk etmək üçün və qəlbində nuraniyyət yaratmaq üçün tövbədən sonra mühüm bir mətləbə də riayət edilməlidir. Qeyd olunduğu kimi, bu mətləbin dörd əsas məsələsi vardır. Əgər bu məsələlərin hər hansı birinə diqqət yetirilməzsə, tövbədən istənilən nəticəni əldə etmək mümkün olmayacaq. Burada həmin mətləbin əsaslarını nəzərinizə çatdırıram.

### 1.Röyət

Tövbədən sonra diqqət yetiriləsi məsələlərdən biri də röyətdir. Filosoflar bu məsələnin adını "röyət" qoymuşlar. "Röyət" ərəb dilində "görmək" deməkdir. Etika elmində röyət ona deyilir ki, insan həmişə öz əməllərinə tənqidi gözlə baxsın. Yəni öz əməllərindən (ibadətlərindən) heç vaxt razılıq etməsin. İnsan həmişə öz əməllərinə tənqidi gözlə

yanaşmalı, etdiyi hər bir əməli bəyənməməlidir. İki gün çox salavat deməklə, artıq namaz qılmaqla elə güman etməməlidir ki, artıq hansısa məqam əldə etmişdir. Ümumiyyətlə, insan tövbə etdikdən sonra heç bir əməlinə və ibadətinə arxayınlaşmamalıdır. Belə olduqda insan hər gün öz eyb və nöqsanlarını araşdırmağa başlayar. Öz əməllərindən narazı olduğu üçün eyib və nöqsanlarının çox olduğunu başa düşər. Röyətin mənası digər ifadə ilə belə izah oluna bilər ki, insan öz eyib və nöqsanlarını görüb düzəltməyə çalışsın. Başqalarında eyib axtarmaqdansa öz eyblərini görsün və üzərində islahatlar aparsın. Bu barədə bir çox hədis və rəvayətlər vardır. Nümunə üçün bir neçəsinə nəzər salaq.

قَالَ عَلِيّ(ع): طُوبَى لِمَن شَغَلَهُ عَيبُهُ عَن عُيُوبِ النَّاس

-Həzrət Əli(ə) buyurur: "Xoş o kəsin halına ki, öz eybləri başını qarışdırıb və başqalarında eyb axtarmır. (Yəni öz eyblərini düzəltməklə məşğuldur və başqalarının eyblərini axtarmağa cəhd etmir.)"[1]

قَالَ الصَادِقُ(ع): اَنفعُ الأَشيَاءِ لِلمَرءِ سَبقُهُ النَّاسَ اِلى عِيبِ نَفسِهِ

-İmam Sadiq(ə) buyurur: "İnsan üçün ən mənfəətli şey odur ki, öz eybini axtarmaqda hamıdan qabağa keçsin.[2] (Yəni camaat onun eybini deməzdən öncə özü başa düşüb eyblərini düzəltsin.)"

قَالَ عَلِيّ(ع): مَن بَحَثَ عَن عُيُوبِ النَّاس فَليَبدأَ بِنَفسِهِ

[1] Mizanül-hikmə, 9-cu cild, səh. 4214.
[2] Mizanül-hikmə, 9-cu cild, səh. 4214.

-Həzrət Əli(ə) buyurur: "Camaatın eybini axtarmaq istəyən kəs ilk növbədə özündən başlamalıdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): ثَلَاثُ خِصَالٍ مَنْ كُنَّ فِيهِ أَوْ وَاحِدَةٌ مِنْهُنَّ كَانَ فِي ظِلِّ عَرْشِ اللَّهِ يَوْمَ لَا ظِلَّ إِلَّا ظِلُّهُ رَجُلٌ أَعْطَى النَّاسَ مِنْ نَفْسِهِ مَا هُوَ سَائِلُهُمْ وَ رَجُلٌ لَمْ يُقَدِّمْ رِجْلًا وَ لَمْ يُؤَخِّرْ رِجْلًا حَتَّى يَعْلَمَ أَنَّ ذَلِكَ لِلَّهِ رِضًا وَ رَجُلٌ لَمْ يَعِبْ أَخَاهُ الْمُسْلِمَ بِعَيْبٍ حَتَّى يَنْفِيَ ذَلِكَ الْعَيْبَ عَنْ نَفْسِهِ فَإِنَّهُ لَا يَنْفِي مِنْهَا عَيْباً إِلَّا بَدَا لَهُ عَيْبٌ وَ كَفَى بِالْمَرْءِ شُغُلًا بِنَفْسِهِ عَنِ النَّاسِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəsdə bu üç xüsusiyyətin hamısı və ya biri olsa, Allahın ərşinin kölgəsindən başqa kölgə olmayan bir gündə (qiyamətdə) Allahın ərşinin kölgəsində daldalanacaq. 1)O kəs ki, camaatdan özü üçün umduğunu, camaatın da ondan umduğunu vermiş olsun. (Camaatın onunla necə rəftar etməsini istəyirsə, özü də camaatla eləcə rəftar etsin.) 2) O kəs ki, atdığı hər bir addımda və etdiyi hər bir hərəkətdə Allahın razılığı olmuş olsun. 3) O kəs ki, müsəlman qardaşında gördüyü eybi ilk növbədə özündə görüb uzaqlaşdırsın. Çünki elə bir kəs yoxdur ki, bir eybini düzəldib qurtarmamış digər eybi üzə çıxmasın. Beləliklə öz eyblərini düzəltmək başını o qədər qarışdırır ki, başqalarında eyib axtarmır.”[2]

---

[1] Mizanül-hikmə, 9-cu cild, səh. 4214.
[2] Mizanül-hikmə, 9-cu cild, səh. 4216.

## 2. Riayət

Tövbədən sonra diqqət yetiriləsi məsələlərdən ikincisi riayətdir. Tövbədən sonra riayət olmasa, tövbə edən insan tövbənin həqiqətini dərk etməyəcək. “Riayət” odur ki, insan tövbə etdikdən sonra zahirini təmiz saxladığı kimi, daxilinin təmizliyinə də riayət etsin və təmiz saxlasın. Yəni insan zahirin təmizliyinə riayət etdiyi kimi, daxilin (ruhun) təmizliyinə də riayət etsin. Başqa sözlə desək, insan tövbə edərkən həm zahiri, həm də daxili cəhətdən tövbə etmiş olsun. Zahiri cəhətdən tövbə odur ki, insan günahdan əl çəksin və bir daha həmin günahı etməsin. Batini və daxili tövbə isə odur ki, insan keçmişdə etdiyi günahlar yadına düşdükdə onlardan ləzzət hissi keçirməsin. Əgər bir insan tövbə etdikdən sonra keçmişdəki günahlarını yadına salıb ləzzət hissi keçirirsə, deməli, zahirdə tövbə etməsinə baxmayaraq, batində tövbənin həqiqətinə çatmamışdır. Alimlər belə buyurmuşlar: “Tövbənin həqiqəti odur ki, insan tövbədən sonra keçmişdə etdiyi günahları yadına salıb ləzzət almasın.”

Alimlərdən biri belə deyir: “Tövbənin həqiqəti odur ki, insan etdiyi günahlarına görə geniş dünyanı özünə dar hesab etməlidir.”

Deməli, tövbənin həqiqəti odur ki, insan tövbədən sonra keçmişdə etdiyi günahları yadına salıb ləzzət almasın və bu geniş dünyanı özünə dar hesab etsin. Tövbə edən insan belə bir hisslə yaşamalıdır.

Təfsir alimləri “Tövbə” surəsinin 118-ci ayəsinin nazil olması səbəbi barədə belə yazmışlar: “Həzrət Peyğəmbər(s) Təbuk müharibəsinə yola düşərkən müsəlmanlardan üç nəfər sözləşib getməmək üçün qaçıb gizləndilər. Onlar Mərarət ibn Rəbi, Kəb ibn Malik və Hilal ibn Üməyyədən ibarətdir. Bu adamlar Peyğəmbərin(s) səhabələrindən idilər. Lakin

tənbəllik üzündən Təbuk müharibəsinə getməkdən boyun qaçırdılar. Həzrət Peyğəmbər(s) döyüşdən qayıtdıqdan sonra onlar gəlib Peyğəmbərdən(s) etdikləri bu əməllərinə görə üzr istədilər. Peyğəmbər(s) onlarla bir kəlmə də olsa danışmadı və bütün müsəlmanlara onlarla əlaqəni kəsməyi, danışmamağı əmr etdi. Çünki həmin üç nəfərin müharibədə iştirak etməməyə ixtiyarları yox idi. Beləcə, Mədinə şəhərində heç bir kəs onlarla danışmadı. Hətta iş o yerə gəlib çatmışdı ki, öz evlərində həyat yoldaşları belə onlarla danışmırdı. Arvadları isə onlardan boşanmaq üçün Peyğəmbərdən(s) icazə istədilər. Peyğəmbər(s) onlara belə bir icazəni verməsə də, əmr etdi ki, onlarla soyuq münasibət saxlasınlar.

Belə bir vəziyyətdə Mədinə şəhərinin ab-havası həmin üç nəfəri sıxmağa başladı və onlar şəhərdən çıxmaq qərarına gəldilər. Xüsusən bir hadisə onlara çox ağır gəldi. Kəb ibn Malik deyir ki, bir gün mən Mədinə şəhərində bazarın qarşısında əyləşmişdim. Şəhərdə heç bir kəs mənimlə danışmırdı. Çox narahat bir halda idim. Birdən gördüm ki, Şam şəhərindən bir nəfər xristian gəlib məni axtarır. Məni görüb yaxınlaşdı və dedi: “Biz sizin barənizdə belə bir şey eşitmişik ki, müsəlmanlar sizinlə danışmır, sizdən uzaq gəzirlər. Qəssan şəhərinin padşahı sizə məktub göndərib. Sizi ölkəmizə dəvət edir və gəlib bizim ölkədə yaşamağınızı məsləhət görür.”

Kəb ibn Malik deyir: “Mən öz-özümə düşündüm ki, gör biz nə günə qalmışıq ki, düşmən bizə ümid bəsləyir və bizim böyük günah iş gördüyümüzü bilərək bizdən istifadə edir. Bu hadisə bizə çox ağır gəldi.”

Burada qeyd etmək lazımdır ki, düşmən həmişə istəyir ki, zəif insanlardan İslamın əleyhinə istifadə etsin. Elə bu səbəbdən də Qəssan şəhərinin padşahı bu üç nəfərin

imanının zəif olmasından istifadə edib onları öz şəhərlərinə dəvət edirdi.

O üç nəfər bu dəvəti qəbul etmədilər. Müsəlmanların onlardan üz döndərdiyini və şəhərdə heç bir kəsin onlarla danışmadığını görüb qərara aldılar ki, (döyüşdə iştirak etmədiklərinə görə) özləri də bir-biri ilə danışmasınlar və bir-birindən uzaq gəzsinlər. Bəlkə Allah onların bu günahını bağışlasın. Onlar bir-birindən ayrılıb hərəsi bir kənara çəkildi. Etdikləri əməldən çox peşman olmuşdular. Əlli gün peşmançılıq çəkərək Allaha yalvarıb tövbə etdikdən sonra Allahın onları bağışlamasını gözlədilər. Allah-təala onların tövbələrini qəbul etdi və “Tövbə” surəsinin 118-ci ayəsini nazil etdi.

وَعَلَى الثَّلاَثَةِ الَّذِينَ خُلِّفُواْ حَتَّى إِذَا ضَاقَتْ عَلَيْهِمُ الأَرْضُ بِمَا رَحُبَتْ وَضَاقَتْ عَلَيْهِمْ أَنفُسُهُمْ وَظَنُّواْ أَن لاَّ مَلْجَأَ مِنَ اللّهِ إِلاَّ إِلَيْهِ ثُمَّ تَابَ عَلَيْهِمْ لِيَتُوبُواْ إِنَّ اللّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ

-Həmçinin (Təbuk döyüşündən) geri qalmış (döyüşdə iştirak etməmək üçün qaçıb gizlənmiş) üç nəfərin də (tövbələrini qəbul etdi). Belə ki, gen dünya onlara dar olmuş, ürəkləri (qəm-qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara tövbə etmək üçün tövbə nəsib etdi. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!

Bu ayədə görürük ki, tövbənin həqiqətinə çatmaq üçün insan etdiyi günahlara görə dünyanı özünə dar hesab etməlidir. İllər boyu yer üzərində günah etdikdən sonra tövbə etmiş şəxs etdiyi günahlar yadına düşdükdə qəm-qüssə çəkməli və özünü danlamalıdır. Tövbə edən şəxs tövbə etdikdən sonra zahirdə təmizliyə riayət etdiyi kimi, daxilinin

təmizliyinə də diqqət göstərməlidir. Məsələn, tövbə etməmişdən öncə içki içməkdən ləzzət apardı. Tövbə etdikdən sonra içki içmədiyi üçün zahirdə ləzzət aparmadığı kimi, daxilində də etdiyi günahları yadına salıb ləzzət aparmamalıdır. Yaxud cavan vaxtlarında zina etməkdən ləzzət aparırdısa, tövbə etdikdən sonra zina etməməyi bir tərəfə, vaxtı ilə etdiyi həmin günahlar yadına düşdükdə də ləzzət aparmamalıdır. Həmişə etdiyi günahların qəm-qüssəsini daşımalı, peşmançılıq hissi ilə yaşamalıdır. Odur ki, əgər hər kəs tövbədən sonra keçmişdə etdiyi günahlara görə zahirdə və batində ləzzət aparmasa və daim yadına düşdükcə peşmançılıq çəksə, tövbənin həqiqətini dərk etmiş olar.

İmam Rzadan(ə) “nəsuh tövbəsi nədir?” - deyə soruşduqda Həzrət(ə) belə cavab verdi: "İnsanın batini zahiri kimi olsun. Hətta zahirindən də üstün və gözəl olmalıdır."[1]

Nəcəf şəhərində yaşayan böyük alimlərdən biri kitabında belə yazır:

-Günlərin birində evdən çıxıb mədrəsəyə gedirdim. Yolda bir qadın qarşımı kəsdi. Həmin qadın şəhərdə əxlaqsız bir qadın idi. Hamı onun pis yolda olduğunu bilirdi. Mən də onun haqqında eşitmişdim. Qadın qarşımı kəsdikdə ondan soruşdum: Sizə nə lazımdır? Qadın dedi: Səni gördükdə beynimə bir sual gəldi. Həmin sualın cavabını eşitmək istərdim. Dedim: Sualını ver. Qadın dedi: Mən elə bir insanam ki, hamı mənim hansı yolda olduğumu çox gözəl bilir. Mən zahirdə əxlaqsız bir insanam. Hamı mənim necə bir insan olduğumu yaxşı bilir. Zahirdə necəyəmsə, daxilim də elədir. Mənim daxilim də zahirim kimi pislikdə eynidir. Sən ki, zahirdə bu qədər təmiz, gözəl və nurani görünürsən,

[1] Biharul-ənvar, 6-cı cild, səh.22.

daxildə də o cür gözəlsən? Sənin içərin də zahirin kimi gözəldir, yoxsa fərqlidir?

Həmin alim deyir: Qadının bu sözləri mənə çox təsir etdi. O qadın əxlaqsız olmasına baxmayaraq, dediyi sözlər mənim üçün çox böyük moizə, öyüd və nəsihət oldu.

Beləliklə, tövbə edən şəxs tövbə etdikdən sonra keçmiş günahlarına görə peşmançılıq çəkməli, etdiyi günahlar hər dəfə yadına düşdükdə ləzzət hissi keçirməməlidir. Tövbədən sonra zahirdə həmin günahı etmədiyi və ləzzət aparmadığı kimi, daxildə də ləzzət aparmamalıdır.

## 3. Mühasibə

Tövbədən sonra riayət və diqqət olunası məsələlərdən üçüncüsü mühasibədir. Mühasibə odur ki, insan öz-özünü hesab-kitaba çəksin. Yəni insanın öz-özü ilə hesab çəkməsinə mühasibə deyilir. Əgər insan tövbə etdikdən sonra öz-özü ilə hesab-kitab çəksə, etdiyi tövbə onun üçün öz həqiqətini tapacaq. Məsələn, insan dini mərasimlərdə, moizə məclislərində, yaxud böyük ustadların dərslərində, dəfn mərasimlərində iştirak etdikdə təsirlənir. Bu təsirin nəticəsində etdiyi günahlara görə tövbə edir və şeytanı özündən uzaqlaşdırır. Həmin mərasimlərdə qəlbində yaranmış təsir günlərlə qəlbində qalır. Günlər keçdikcə qəlbində yaranmış bu təsir yavaş-yavaş aradan gedir və şeytan həmin şəxsi özünə tərəf çəkməyə başlayır. İnsan şeytanı özündən uzaqlaşdırdıqda vəziyyəti, əhvalı yaxşılaşır və nuraniyyəti artır. Lakin şeytanı özündən uzaqlaşdırmadıqda əhval-ruhiyyəsi pisləşir və nuraniyyəti azalır.

"Üsuli-Kafi" əsərində gözəl və qiymətli hədislərin birində rəvayətçi deyir: "Mən İmam Baqirin(ə) hüzurunda idim. Gördüm ki, Hümran ibn Əyan bir neçə nəfərlə Həzrətin(ə) hüzuruna gəlib əyləşdilər. Hümran İmamdan(ə) bir neçə sual

soruşduqdan sonra dedi: Ey Peyğəmbər övladı, biz sənin hüzurunda olarkən və səninlə söhbət edərkən ürəklərimiz rahatlıq tapır və yumşalır. Nə qədər sənin yanında oluruq ruhlarımız rahatlaşır, dünyaya rəğbətsiz oluruq və camaatın əlində olan var-dövlətə qarşı etinasız oluruq. Lakin səndən ayrıldıqdan sonra camaatla oturub-durarkən, uşaqlarımızı gördükdə və öz ailəmizlə əyləndikdə sənin yanında bizə gələn hal aradan gedir. Yəni sənin yanında bizə gələn hal səndən uzaqlaşdıqdan sonra o da bizdən uzaqlaşır. Belə bir xüsusiyyət bizim üçün qorxulu və xətərli deyilmi?

İmam Baqir(ə) ona bir cümlə ilə cavab verərək Həzrət Peyğəmbərin(s) hüzurunda olan hadisəni onlar üçün açıqladı. Həzrət(ə) buyurdu: "Bəzən qəlblər çox möhkəm, paslı və qəsavətli olar. Bəzən də çox yumşaq, aram və sakit olar. Bu, qəlbin hallarıdır və qəlblər həmişə bir qaydada olmur. Bəzən paslanır, bəzən də təmizlənir."

Sonra İmam(ə) Həzrət Peyğəmbərin(s) hüzurunda olan hadisəni belə söylədi: "Səhabələrdən bir neçə nəfər Peyğəmbərin(s) yanına gəlib dedilər: Ya Rəsulallah, elə bil ki, bizim qəlbimizdə münafiqlik və ikiüzlülük yaranıb. Biz bu haldan çox qorxuruq və narahat oluruq ki, bizdə nə üçün belə bir hal yaranıb. Elə ki sənin yanında oluruq və sən bizə Allahı xatırladırsan və bizimlə söhbət edib bizi haqqa, mərifətə və cənnətə dəvət edirsən bizim qəlbimizin pası və qaralığı təmizlənir, ruhlarımız rahatlaşır. Dünyanın, mal-dövlətin, əhli-əyalımızın məhəbbəti qəlbimizdən çıxır. Biz sənin yanında olarkən elə bil axirəti, cənnəti və cəhənnəmi gözümüzlə görürük. Lakin səndən ayrılıb uzaqlaşdıqda, öz övladlarımızı gördükdə və dünya işlərinə başımız qarışdıqda sənin yanında bizə gələn o hal aradan gedir. Elə bil sənin hüzurunda cənnət-cəhənnəmi görən adamlar deyilik. Ya Rəsulallah, bu bizim üçün nifaq və münafiqlik deyilmi?

Peyğəmbər(s) buyurdu: “Xeyr, belə deyildir. Bu, şeytanın hiyləsidir. Şeytan sizi dünyaya tərəf çəkmək istəyir. Siz mənim yanımda olarkən qəlbləriniz rahat və aram olur. Çünki mənim yanımda şeytan yoxdur və sizin qəlbinizə daxil olub sizi yoldan çıxara bilmir. Lakin məndən ayrıldıqda şeytan sizin qəlbinizə girib sizi yoldan çıxarmaq istəyir. Əgər mənim yanımda sizə gələn halı həmişə özünüzdə saxlasanız, mələklər sizinlə görüşə gələrlər və siz suyun üzərində gəzə bilərsiniz.”

## Həzrət İbrahim(ə) və Nəmrudun qızı

Həzrət İbrahimi(ə) odun içinə atdılar, Allahın əmri ilə od onun üçün zərərsiz və təsirsiz oldu. Hətta belə nəql edirlər ki, Həzrət İbrahim(ə) od-alovun içində gül-çiçəklər arasında əyləşmişdi. Bu vaxt Nəmrud sarayın eyvanında durub edamın gedişatını izləyirdi. Nəmrud özü İbrahimin(ə) peyğəmbər olduğunu bilirdi. Lakin camaatı və öz ailəsini aldatmışdı ki, İbrahim(ə) onların düşmənidir. Nəmrudun uşaqları da inanmışdılar ki, İbrahim(ə) atalarının düşməni olduğuna görə onu edam edirlər.

Nəmrudun Rəzə adlı bir qızı vardı. O qız eyvanda durub İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə tamaşa edirdi. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır. Eyvandan Həzrət İbrahimi(ə) səslədi və dedi: “Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?”

Həzrət İbrahim(ə) buyurdu: “Hər kim “Bismillahir-Rəhmanir-Rəhim” - deyib bu tonqalın içinə daxil olsa, alov onu yandırmaz.”

Qız eyvandan düşüb ürəkdən “Bismillahir-Rəhmanir-Rəhim” - deyərək tonqalın içərisinə daxil oldu və gedib

Həzrət İbrahimin(ə) yanında əyləşdi. Hədislərdə belə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) o qızı öz oğlanlarının biri ilə evləndirdi, həmin ailədən bir neçə peyğəmbər dünyaya gəldi.

Həzrət İbrahim(ə) Allahın ən sevimli bəndələrindən biri idi. O, Allaha olan eşqinə hər şeyini qurban verməyə həmişə hazır idi. Allah- təala onun hörmətinə xatir tonqalı gülüstana çevirdi. Nəmrudun qızı ona iman gətirib sidq ürəklə "Bismillahir-Rəhmanir-Rəhim" - deyib tonqalın içərisinə daxil oldu və od onu yandırmadı. Nəticədə görürük ki, əgər insanın qəlbi həmişə imanla dolu olsa və şeytanı özündən uzaqlaşdırıb heç vaxt Allahı unutmasa, Peyğəmbər(s) buyurduğu kimi, mələklər onunla görüşə gələr, o, suyun üzərində gəzə bilər, hətta od, alov ona təsir göstərməz.

## Nə üçün qəlbimiz darıxır və bir yerdə qərar tutmur?

Sual oluna bilər ki, bəs nə üçün biz Peyğəmbərin(s) buyurduğu həmin hal və nuraniyyəti həmişə özümüzdə saxlaya bilmirik? Nə üçün qəlblərimiz bir yerdə qərar tutmur? Cavab belədir ki, ruhu bu halı özündə saxlamağa öyrəşdirmək lazımdır. Ruhu mənəviyyata öyrəşdirmək gərəkdir. Bir az çox ibadət edərkən darıxıb hövsələsizlik edirik. Nə üçün çoxumuz namaz qılarkən darıxırıq. İstəyirik ki, namazı tez qılıb qurtaraq. Bu hal ondan irəli gəlir ki, insan hələ Allahla munis, dost və aşiq olmayıb. Yəni həmin şəxsdə eşq və məhəbbət lazımınca öz yerini tapmayıb.

Əgər insanın qəlbində olan məhəbbət həqiqi məşuquna bağlı olsa, heç bir vaxt darıxmaz və sıxılmaz. Əks-təqdirdə ibadət zamanı darıxacaq və ibadəti tez yerinə yetirib

qurtarmaq üçün tələsəcəkdir. Məsələn, bir şəxs münasibəti açıq, yaxud bir o qədər də yaxşı olmayan tanıdığı tanışı və ya qohumu ilə görüşür. Salamlaşıb hal-əhval tutur və danışmağa daha başqa heç bir söz tapmır. Çünki münasibəti bir o qədər də yaxşı olmadığı və aralarında pərdə olduğu üçün çox söhbət edə bilmirlər. Buna görə də onunla birlikdə olmaqdan darıxır və həmin şəxsdən tez ayrılmaq istəyir. Lakin iyirmiillik dostunu gördükdə səhərə qədər onunla söhbət etməyə söz tapılır. Bu misalı çəkməkdə məqsədim odur ki, əgər bir insan Allahla özü arasında münasibəti yaxşılaşdırıb Onunla dost ola bilsə, söhbət etməyə həmişə söz tapar.

Allaha aşiq olan şəxs həmişə Onun üçün darıxar və gecəni səhərə qədər səcdə etsə belə yorulmaz. Üveys Qərəni Həzrət Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. Onun ibadəti barədə yazırlar ki, saatlarla səcdədə qalıb Allah-təalaya zikr edirdi. Belə ki, hətta quşlar onu daş hesab edib üstünə qonardı. Bu hadisəni eşidəndə ola bilsin ki, bəzilərinə çox təəccüblü gəlsin və etiraz etsinlər. Yəni insan bu qədər səcdədə qala bilərmi? Əlbəttə ki, qala bilər. Bunu Allahla ünsiyyət quranlar və uzun-uzadı səcdə edənlər çox yaxşı bilərlər. Allahla əlaqə yaradanların, Ona aşiq olanların danışmağa sözü çoxdur. Həyatda aşiqlə məşuqa fikir verdikdə görürük ki, həmişə bir-biri ilə söhbət edər, nə yorularlar, nə də sözləri qurtarar. Əgər Məcnunla Leyli əyləşib illərlə söhbət etsələr, yenə də sözləri qurtarmaz. Çünki aşiqlə məşuq heç vaxt bir-birindən ayrılmaq istəməz və sözü qurtarmaz. Leyli qarabəniz bir qız idi. Məcnuna dedilər: Sən bu qara qızda nə görmüsən ki, onu bu qədər çox sevirsən? Bu qız qapqara bir qızdır. Sən hara, o qız hara? Məcnun onların cavabında dedi: "Hər aşiq istəyər ki, məşuqəsinin xalı olsun. Mən çox sevinirəm ki, mənim məşuqəm başdan-ayağa xaldır."

Ümumiyyətlə, insanın halı dəyişkən olur. Bəzən əhvalı gözəl və nurani, bəzən isə halı pis və ürəyi paslı olur. Məsələn, bəzən görünür ki, insan bir həftə gözəl və eşqlə ibadət edir, lakin dünya öz təsirini göstərdiyi üçün müxtəlif amillər səbəb olur ki, həmin şəxsdə olan hal və nuraniyyət əlindən gedir. Nuraniyyəti əldə saxlamaq elə də asan iş deyil. Belə bir halı əldə saxlamaq üçün çox diqqət, çox zəhmət və çox səy göstərmək lazımdır. Bu haldır ki, insana nicat verir və onu yüksək məqamlara çatdırır. Namaz, oruc və s. ibadətlər haramlardan çəkinmək və insan mənəviyyatı üçün çox yaxşı və mühüm məsələlərdir. Lakin insan nuraniyyətini qoruyub saxlamaq üçün çalışıb əlindən gələni əsirgəməsə, qiyamət günü hiss edəcək ki, ömrünü hədər yerə sərf etməyib. Əgər insan qəlbində nuraniyyət yarada bilsə, dünyanın özündə belə xeyir və mənfəətini görəcəkdir. Əgər insan hər an etdiyi tövbəsini yadında saxlaya bilsə, etdiyi tövbəni köhnəlməyə qoymasa, nuraniyyətinin aradan getməsinə səbəb olan işləri görməsə, əldə etdiyi həmin nuraniyyəti şəxsən özü hiss edəcək. Nuraniyyət elə bir şeydir ki, onu yalnız əldə edənlər başa düşə bilərlər. Nuraniyyəti danışmaqla kiməsə başa salmaq olmur. Hər kəs onu daddıqdan sonra hiss edər və faydasını görə bilər.

Böyük alimlərdən biri on ikinci İmamın(ə.c) ziyarətinə nail olmuşdu. Həzrəti(ə.c) ziyarət etməyin ləzzəti onun qəlbində çox böyük təsir qoymuşdu. Günlərin birində oğlu ona dedi: Atacan, İmamı(ə.c) ziyarət etməyin və nə hisslər keçirməyin haqda mənə danış. Atası dedi: Oğul, bu ləzzət elə bir şeydir ki, onu danışmaqla başa salmaq olmur. Mənim danışmağımla sən o ləzzəti hiss edə bilməzsən. O nuraniyyəti dadmaq üçün gərək İmamı(ə.c) özün görəsən.

Qəlbdə yaranmış nuraniyyət həmin qəlbin sahibi ilə dostdur və yalnız o, bunu hiss edə bilər. Nuraniyyət əldə etdikdən sonra o, başqasına danışılarsa, qəlbdən çıxa bilər.

Əgər insan qəlbində yaranmış nuraniyyəti bütün hallarda qoruyub saxlaya bilsə, onun xeyrini bu dünyada da müşahidə edəcək.

Mərhum Seyid Məhəmməd Əstərabadi böyük alim və fəqihlərdən biri idi. Ömrünün axır illərində Məkkəyə köçüb orada yaşayırdı. O deyir: "Günlərin birində Kəbəni təvaf edirdim. Kəbənin ətrafında elə də çox insan sıxlığı yox idi. Bir yerdə dayanıb Allahla münacat etməyə başladım. Elə bu zaman nurani və gözəl bir oğlan mənə salam verdi. Mən onun salamının cavabını aldıqdan sonra mənə bir ədəd gül verdi. Mən gülü ondan alıb gözlərimi yumaraq iylədim və salavat çevirdim. Mən ömrümdə indiyə qədər belə ətirli gül iyləməmişdim. Ondan soruşdum: Belə gözəl ətirli gülü haradan gətirmisən? O dedi: Xərabaddan[1]. Mən gülü bir də iyləyib gözlərimi açdıqdan sonra mənə göl verən həmin cavanı görmədim. Sonradan başa düşdüm ki, həmin şəxs İmam Zaman(ə.c) imiş."

Nuraniyyət elə bir şeydir ki, əgər insan onu qoruyub saxlamaq üçün səy göstərsə, öz-özünü unutmasa, dünyaya başı qarışmasa, əlbəttə ki, əldə etdiyi nuraniyyətin bəhrəsini görəcək. Nuraniyyət halını saxlamaq elə də asan iş deyil. İnsan bu yolda çox diqqət, səy, fəaliyyət və zəhmət çəkməlidir. Amma belə insanlarla rastlaşmaq mümkündür. Həm keçmişdə, həm də öz dövrümüzdə nurani insanlara rast gəlmək olur. Onlar alim olmaqla yanaşı, Allah yanında uca məqamlara nail olmuşlar.

Mərhum Ayətullah Şeyx Murtəza Ənsari böyük alim və arif insanlardan biri idi. Onun yazdığı «Kifayə» kimi bir sıra kitablar elmi mərkəzlərdə dərslik kimi istifadə olunur. O böyük şəxsiyyətin dərsində dörd yüzdən çox müctəhid dərs

[1] Xərabad -On ikinci İmamın(ə.c) yaşadığı yerdir.

almışdır. Onun atası deyir: "Uşaq vaxtlarından mən onu Murtuz deyə çağırardım. Oğlum neçə il idi ki, qərib yerdə dərs oxuyurdu. Uzun bir müddətdən sonra günlərin birində onun yanına getdim. Baxıb gördüm ki, böyük-böyük alimlər onun dərsində əyləşiblər. Təəccüblə ona baxıb ətrafımdakılardan soruşdum: Bu, mənim Murtuzumdur belə? Dedilər: Bəli, bu Şeyx Murtəza Ənsaridir."

Şeyx Murtəza dərs oxuduğu gündən otuz ilə qədər ona göndərilən məktubları açıb oxumadı. Hamısını yığıb bir qutunun içində saxlamışdı. Otuz ildən sonra bir-bir onları açıb oxudu. Bir məktubda əmisinin, digər məktubda yaxın qohum-əqrəbasının rəhmətə getdiyini və yaxud filan qohumunun toyu olacağını yazmışdılar. O deyir: "Əgər hər məktub gəldikdə açıb oxusaydım və hər rəhmətə gedən, yaxud hər hansı bir xeyir iş üçün vətənimə qayıtsaydım, bu gün mən belə bir dərəcəyə çata bilməyəcəkdim. Çünki vaxtım yollara sərf olunacaqdı və dərslərimdən çox geri qalacaqdım."

O, elə bir şəxsiyyət idi ki, həm elmi, həm də mənəvi baxımdan yüksək mərhələlərə nail olmuşdu. Elmi cəhətdən çox insanlar yüksəklərə ucalmışlar. Lakin ən mühümü mənəvi cəhətdən yüksəklikləri fəth etməkdir ki, bu böyük şəxsiyyət mənəvi aləmi də fəth etmişdi. Əgər insan elmin yüksək mərhələsinə mənəviyyatla çatarsa, bu elmin insana çox böyük faydası olacaq. Yox, əgər elmin kənarında mənəviyyat olmazsa, bu elm insan üçün faydasız və zərərlidir. Məsələn, hər hansı bir ədədin önündə müsbət işarəsi olsa, həmin ədəd nə qədər çoxaldıqca bir o qədər çox olacaq. Çünki onun əvvəlində müsbət işarəsi var. Yox, əgər hər hansı bir ədədin önündə mənfi işarəsi olarsa, ədəd çoxaldıqca onun mənfiliyi daha da çoxalacaq. Elm də eynilə belədir. Əgər elmin kənarında təqva olmasa, həmin elm

çoxaldıqca təhlükəsi də çoxalacaq. Elmi dərəcə qiymət verən müsbət əlamətdir ki, o da insanın təqvası və paklığıdır.

Şeyx Ənsarinin şagirdlərindən biri deyir: “Mən onun dərsinə gedirdim. Son vaxtlar nədənsə dərsi anlaya bilmirdim. Nə qədər oxuyurdumsa, beynimə bir şey batmırdı. Axırda İmam Əlinin(ə) hərəminə gedib Həzrətə(ə) təvəssül etdim. Ağlaya-ağlaya yalvarıb dedim ki, ya Əmirəlmöminin(ə), mən neçə vaxtdır buradayam. Son zamanlar dərsləri anlaya bilmirəm. Mənə öz nəzərini inayət et. Dərs oxumadan mən öz vətənimə necə qayıdım? Həmin gecə Həzrəti(ə) yuxuda gördüm. Məni yanına çağırıb qulağıma “Bismillahir-Rəhmanir-rəhim” dedi. Səhər dərsdə iştirak etdikdə gördüm ki, ustadların dediklərini mükəmməl şəkildə anlaya bilirəm. Bu minvalla dərslərimi oxuyurdum. O həddə gəlib çatmışdım ki, Şeyx Ənsari kimi ustadın dərsində yerimdən cavab verirdim. Dərsin arasında ustad soruşmadıqda belə dillənib cavab verirdim. Bir gün dərsdən sonra Şeyx Ənsari məni yanına çağırıb buyurdu: Mən dərs deyərkən yerdən icazəsiz danışma. Onu bil ki, sənin qulağına “Bismillahı” deyən mənim qulağıma “vələzzallinə” qədər deyib.”

Şeyx Ənsari deyir: “Gecələrin birində həyat yoldaşımın hamiləlik dövrü başa çatdığından vəziyyəti ağırlaşdı. Həmin günlərdə maddi imkanımız demək olar ki, sıfr dərəcəsində idi. Hətta yoldaşımı həkimə aparmaq üçün də yol pulumuz belə yox idi. Amma mənə əmanət pul vermişdilər. Öz-özümə fikirləşdim ki, həmin puldan götürüb bu çətinliyi həll edim və sonradan pulu yerinə qoyaram. Sonra fikirləşdim ki, o pula əl vurmaq olmaz. Yeddi dəfə həmin pula tərəf gedib geri qayıtdım. Amma əmanətin bircə qəpiyinə də dəymədim. Allahın lütfü ilə həmin gecə problemimiz aradan qalxdı. Səhər qapı döyüldü. Açıb gördüm ki, tələbələrimdən biridir. O, mənə dedi: Gecə səni yuxuda gördüm. Amma yozması

mənim üçün çox qaranlıq qalıb. Gördüm ki, şeytan sənin qapında dayanıb. Qəzəbli halda əlində qalın kəndirlər tutmuşdu. Ondan soruşdum: Sənin Şeyxin qapısında nə işin var? O dedi: Bu kəndirlərlə yeddi dəfə Şeyxi bağlayıb ardımca aparmaq istədim. Amma o, yeddisini də qırdı. Buna görə də çox qəzəblənib geri qayıdıram.

Sizin yanınıza gəlməkdə məqsədim budur ki, həmin müəmmalı yuxunu mənim üçün izah edəsiz. Şeyx Ənsari gülümsəyib həmin gecə başına gələnləri danışdı."

Seyid Əli Şüştəri Şeyx Ənsari ilə bir dövrdə yaşayan böyük alim və müctəhidlərdən biri idi. Seyid Əli ilə Şeyx Ənsari dost idilər. Onun oğlu deyir: "Atam bərk xəstələnmişdi. Onun halı demək olar ki, son anlarını yaşayan insanın halı kimi idi. Atamın belə bir vəziyyətdə olduğunu Şeyx Ənsariyə xəbər verməmişdim. Gecə yarı atamın vəziyyətinin daha da pisləşdiyini görüb Şeyxə xəbər vermək fikrinə düşdüm. Çünki əgər atamın başına bir iş gəlsəydi, sabah Şeyx məni danlayardı ki, nə üçün mənə xəbər verməmisən? Sakitcə lampanı götürüb Şeyxi çağırmaq üçün qapıdan çıxmaq istəyəndə atam gözlərini açıb soruşdu: Oğlum, hara gedirsən? Mən ona yalan danışa bilmədiyim üçün dedim: Şeyxi çağırmağa. Atam dedi: Çağırmağa ehtiyac yoxdur. Bir azdan özü gələcək. Mən keçib bir tərəfdə əyləşdim. Azacıq keçmişdi ki, qapı döyüldü. Atam dedi: Oğlum, Şeyx gəldi, dur qapını aç. Qapını açdıqda Şeyx Ənsarini görüb çox təəccübləndim. O, gəlib atamın yanında əyləşdi. Hal əhval tutduqdan sonra atam dedi: Şeyx, deyəsən vəziyyətim çox ağırdır. Şeyx dedi: İnşallah, yaxşı olarsan. Atam dedi: Yox, mənə elə gəlir ki, dünyadan köçmək zamanıdır. Şeyx dedi: İnşallah, sağalarsan. Atam dedi: Əlamətdən nə başa düşürsən? Şeyx dedi: Əlaməti budur ki, sənin mənə cənazə namazı qılmağını indidən görürəm.

Sonra mənə işarə etdilər ki, onları tək buraxım. Mən otaqdan çıxdım və onların bir-biri ilə nə söhbət etdiklərini eşitmədim. Bir neçə gündən sonra atam tamamilə sağaldı. Bu hadisənin üstündən neçə il keçdikdən sonra atama xəbər verdilər ki, Şeyx rəhmətə gedib. Atam onun cənazə namazını qılarkən onların həmin gecədəki söhbətləri yadıma düşdü."

Nə qədər ki, insan şeytanın qurduğu toru və kəndirləri qırmayıb, onun nuraniyyətə çatması müşkül məsələdir. İnsan yüksək dərəcələri fəth etmək üçün bir ömür çalışmalı, vaxt sərf etməli, şeytanın bütün kəndirlərini qırmalıdır. Biz elə başa düşməməliyik ki, bu, çox asan bir işdir. Həyatımızda gün ərzində yüzlərlə, minlərlə günahla qarşılaşırıq. Yeməyimizdə, hərəkətlərimizdə, baxışlarımızda, danışığımızda və s. əməllərimizdə müxtəlif günahlar qarşıya çıxır. İnsan bütün günahlardan uzaqlaşmasa, nuraniyyət əldə edə bilməyəcək. Həmçinin elə güman etməsinlər ki, təkcə namaz qılmaqla bütün işlər düzələcək. Namaz çox gözəl əməldir və böyük nemətdir. Namaz insanın Allahla olan rabitə və əlaqəsidir. Namaza çatan şəxsi Allah xüsusi hidayət etmişdir. Lakin bu, insanın təkamülünün ilk mərhələsidir. Allah-təala insanda elə qabiliyyət yaratmışdır ki, insaniyyətin və kamilliyin ən yüksək mərhələsinə ucala bilər. Mənəviyyət aləminə qədəm qoyduqdan sonra yavaş-yavaş aşiqlik hissləri oyanar və Allaha eşqlə ibadət edər. Əgər insan Allahı sevsə, aşiq olsa, Onunla ünsiyyət yaratsa, ibadətdən və səcdədən doymaz. İnsan mənəviyyat aləminə qədəm qoyduqdan sonra yavaş-yavaş ibadətin şirinliyini dadacaq. İbadətin şirinliyini dadan şəxs isə heç vaxt səcdə etməkdən yorulmaz. Əgər insan namaz qılarkən namazın tez qurtarmasını istəyirsə, oruc tutarkən ürəyi darıxırsa, bilsin ki, hələ mənəviyyat aləmində təzədir. Bu problemi həll etmək üçün proqram düzəldib ruhu öyrənənə qədər özünü ibadətə və mənəviyyata öyrəşdirsin. Ruhu öyrəndikdən və ibadətə

alışdıqdan sonra insan səcdənin şirinliyini tapacaq. Belə olduqda ibadət edərkən Allahdan başqa heç bir şey düşünməyəcək. Tarixdə belə şəxsiyyətlərin şahidi olmuşuq. Həzrət Əli(ə) namaz qılarkən yalnız Allahı düşünər, ruhu göylərə pərvaz edər və ətrafda nə baş verməsindən xəbəri olmazdı.

# İslam Peyğəmbərinin(s) şirinliyi

Allah-təala Həzrət Məhəmmədi(s) çox şirin və məlahətli yaratmışdı. Hər kəs onunla söhbət etsəydi, məftun olurdu. Hər kəs onunla əyləşsəydi, ayrılmaq istəmirdi. Onun insanlarla rəftarı çox gözəl və ədəbli idi. Qocalığından və cavanlığından asılı olmayaraq hamı Həzrətə(s) heyran idi. Hamı onu çox sevir və ondan ayrılmaq istəmirdi. Hətta uşaqlar da Həzrətin(s) yanında olanda ondan ayrılmaq istəmirdilər.

Mədinənin kənarında cavan bir oğlan əmisi ilə yaşayırdı. Onun atası dünyasını dəyişmişdi. Atasından qalan çoxlu mal-dövlət əmisinin əlində idi. Amma əmisi ona çatan irsi mənimsəmək fikrində deyildi. Sadəcə oğlan böyüyüb boya-başa çatdıqdan sonra həmin mal-dövləti ona qaytarmaq niyyəti ilə özündə saxlayırdı. Ayda bir dəfə həmin uşağı Mədinə şəhərinə çörək almağa göndərərdi. Həmin cavan oğlan da hər ay Mədinəyə gedib çörək alıb qayıdardı. Günlərin birində xəbərdar oldu ki, cümə günü Peyğəmbər(s) Mədinə məscidində söhbət edəcək. Heç vaxt Peyğəmbərin(s) üzünü görməmiş və sözlərini eşitməmişdi. Maraqlanmaq üçün məscidin qapısında dayanıb Peyğəmbərə(s) qulaq asdı. Peyğəmbərin(s) mübarək camalını və şirin sözlərini eşidib məftun oldu. Həzrətin(s) sözlərinə aşiq oldu və evlərinə qayıdıb baş verən hadisəni heç kəsə demədi. Bütün günü Peyğəmbərin(s) haqqında düşünür və yenə də onun sözlərinə qulaq asmaq istəyirdi. Bir gün əmisinə dedi: “Əmican, olarmı mən ayda iki dəfə gedib çörək alım? Əmisi dedi: Nə üçün? O dedi: Çünki çörək nə qədər təzə olsa, bir o qədər yaxşı olur.” Əmisi onun sözlərindən bir şey hiss etmədi və icazə verdi. Oğlan beləcə hər ay iki dəfə Mədinə məscidinə

gedər və Peyğəmbərin(s) xütbələrinə qulaq asdıqdan sonra çörək alıb evə qayıdardı.

Günlərin birində yenə də əmisinə dedi: “Əmican, olarmı mən həftədə bir dəfə gedib çörək alım? Əmisi dedi: Bala, yol uzaqdır, nə üçün özünü artıq əziyyətə salmaq istəyirsən? Oğlan dedi: Əmi, çörək təzə olanda adam onu iştahla yeyir. Mənim üçün heç bir zəhməti yoxdur.” Əmisi yenə də onun sözlərindən bir şey başa düşmədi və ona həftədə bir dəfə çörək almağa icazə verdi.

Üstündən bir müddət keçəndən sonra yenə də əmisinə dedi: “Əmi, mən istəyirəm ki, həftədə bir neçə dəfə evə çörək alım.” Əmisi bu dəfə ondan şübhələnib soruşdu: “Sənin tez-tez Mədinəyə getməkdə məqsədin nədir? Oğlan dedi: Əmican, mənimlə işin olmasın. Mənə istədiyim vaxt Mədinəyə getməyə icazə ver. Əmisi dedi: Bunun sirrini bilməsəm, səni heç yerə buraxmayacağam. Cavan oğlan bütün olanları əmisinə danışdı və Peyğəmbərin(s) sözlərinə qulaq asmaq üçün tez-tez Mədinəyə getdiyini söylədi. Əmisi hirslənib dedi: Əgər bundan sonra sən bir daha Mədinəyə getsən və Peyğəmbərin(s) sözlərinə qulaq assan, atandan qalan mirası sənə verməyəcəyəm. Oğlan dedi: Əmi, onların hamısını sənə bağışlayıram. Amma icazə ver, mən istədiyim vaxt Peyğəmbərlə(s) görüşüm. Əmisi dedi: Sən onunla görüşsən, bizim qohum-əqrəba arasında abrımız gedər. Əgər mənim sözümə baxmasan, sənin bütün paltarlarını əlindən alacağam. Oğlan əynindəki paltarları çıxarıb əmisinə verib dedi: Bunları da sənə bağışlayıram. Əmisi dedi: Əgər sən Mədinəyə gedib Peyğəmbərlə(s) görüşmək istəsən, səni yerə yıxıb şallaqlayacağam. Oğlan dedi: Əmi, nə edəcəksən tez et ki, Peyğəmbərin(s) xütbəsinin başlamasına çox az qalıb.” Əmisi onu danladıqdan sonra oğlan yenə də evdən çıxıb Mədinəyə sarı qaçmağa başladı. Miniksiz və paltarsız halda özünü məscidə çatdırdı. Həzrət Peyğəmbər(s) xütbəyə təzəcə

başlamışdı ki, o, qapını açıb içəri daxil oldu. İçəri girən kimi gözləri Peyğəmbərin(s) gözlərinə sataşdı. Həzrət Peyğəmbər(s) onu görüb səslədi. O, həmişə məscidə gələndə sadəcə bir tərəfdə əyləşib qulaq asardı. Bu dəfə gələndə isə Peyğəmbər(s) bildi ki, o, hər şeyindən keçib məscidə gəlmişdir. Buna görə də onu yanına çağırdı. O da Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, sən hər nə buyursan, mənim üçün qəbuldur. Həzrət(s) buyurdu: İndi ki, belə oldu, sən kəlmeyi-şəhadətini de. Oğlan Allahın vəhdaniyyətinə və Peyğəmbərin nübüvvətinə şəhadət verib, İslamı qəbul etdi. Həzrət Peyğəmbər(s) ona buyurdu: Sən müsəlman olub Allahın dinini qəbul etdin. Allah sənin keçmişdə olan bütün günahlarını bağışladı. İndi hər nə istəsən, Allah sənin dualarını qəbul edəcək. Oğlan dedi: Ya Rəsulallah, sənin hüzurunda gətirdiyin bu dinin yolunda şəhid olmağı və son nəfəslərimdə sənin mübarək camalını görməyi Allahdan arzu edirəm. Bundan başqa Allahdan heç bir istəyim yoxdur."

Bu hadisənin üstündən bir müddət keçəndən sonra orucluq ayında müharibə oldu. Müharibədən qayıdarkən həmin oğlan yolda şəhid oldu. Şəhid olarkən son nəfəslərində gözlərini açdıqda gördü ki, Peyğəmbər(s) onun başını dizi üstünə alıb. Peyğəmbərin(s) mübarək camalına baxıb salam verdi və gözlərini əbədi olaraq yumdu.

Günlərin birində Peyğəmbər(s) səhabələrlə əyləşib söhbət edirdi. Bir nəfər Həzrətin(s) hüzuruna gəlib on dəvəni Peyğəmbərə(s) hədiyyə etdi. Həzrət Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: "Hər kim iki rükət namaz qılsa və namazda əvvəldən axıra qədər heç bir şey fikirləşməsə, bu dəvələri həmin şəxsə verəcəyəm. Kim bu işi görə bilər?" Həzrət Əli(ə) ayağa qalxıb ərz etdi: "Ya Rəsulallah, mən bu işi görə bilərəm." Sonra "Allahu Əkbər" deyib namaza başladı. Namazı qılıb qurtardıqdan sonra Peyğəmbər(s)

soruşdu: “Ya Əli, qıldığın bu iki rükət namazda fikrin bir an da olsa belə başqa yerə yayınmadı?” Həzrət Əli(ə) ərz etdi: “Ya Rəsulallah, yalnız bircə dəfə bir an fikrimdən keçdi ki, Peyğəmbər(s) dəvələri mənə versəydi, filan fəqirlərə paylayardım.” Həzrət Peyğəmbər(s) gülümsəyərək buyurdu: “Ya Əli(ə) namazda üzüyünü fəqirə zəkat verdiyin kimi, bu namazda fikirləşdiyin də ibadətdir.”

Bu hədisləri qeyd etməkdə məqsədim odur ki, insan əgər Allaha aşiq olsa, mənəviyyat aləminə qədəm qoysa, yavaş-yavaş ünsiyyəti çoxalar və namaz qılanda ürəyi sıxılmaz, ibadətdən doymaz.

## Mühasibə

Qeyd olundu ki, insan tövbə etdikdən sonra hər gün öz-özü ilə hesab-kitab etməlidir. Nəfsi özbaşına buraxmaqla insan tövbənin həqiqətini dərk etməyəcək. İnsan öz ixtiyarını tam əlində saxlamalı, hər gün etdiyi əməlləri qarşısına qoyub özünə hesabat verməlidir. Əks- təqdirdə insan üçün çox çətin olacaq. Çünki insan başqa varlıqlardan və canlılardan tamamilə fərqli bir məxduqdur. İnsan etdiyi hər bir hərəkətə, danışdığı hər bir sözə görə cavabdehdir. Yəni insan bütün hərəkətlərindən sorğu-sual olunacaq. Sorğu-suala çəkilmə-mişdən öncə insan öz-özü ilə sorğu-sual etməli və hesab-kitabını qaydasına salmalıdır. İnsan öz ixtiyarını nəfsinin əlində qoymamalıdır. İmkan verməməlidir ki, nəfsi onu istədiyi yerə sürükləsin.

قَالَ عَلِيّ(ع): قَيِّدُوا اَنفُسَكُم بِالْمُحَاسِبَة وَ اَمِلكُوهَا بِالمخَالِفَة

-Həzrət Əli(ə) buyurur: "Öz nəfslərinizi mühasibə etməklə qandallayın. Onunla müxalifət etməklə ona sahib çıxın. (Nəfsinin noxtası öz əlində olsun.)"[1]

İnsan başa düşməlidir ki, bir gün ondan etdiyi əməllərin hesab- kitabını alacaqlar. Belə deyil ki, hər kəs bu dünyada kefi istədiyini etsin və axırda da torpaq olub aradan getsin. Qiyamət günü hətta insan aldığı nəfəsləri barədə də sorğu-sual olunacaq. Yaşadığı ömrün dəqiqələri barədə, haradan qazanıb harada xərclədiyi haqda hesab- kitab olunacaq. Bir sözlə, atalar demişkən, qatıqdan tük çəkəcəklər. Buna görə də hesaba çəkilməmişdən öncə insan öz-özü ilə hesab- kitab çəkməlidir. İnsan şərafətli məxluqdur. Şərafətli varlığı heç bir vaxt özbaşına buraxmazlar.

قَالَ رَسُولُ اللّهِ(ص): حَاسِبُوا اَنفُسَكُم قَبلَ اَن تُحَاسَبُوا وَزِّنُواهَا قَبلَ اَن تُوزَنُوا وَ تَجَهَّزُوا لِلعَرضِ الأَكبَرِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hesaba çəkilməmişdən əvvəl özünüzdən hesab çəkin. Əməlləriniz ölçülməmişdən əvvəl özünüz əməllərinizi ölçün. Özünüzü böyük hesab üçün hazırlayın."[2]

قَالَ الصَّادِقُ(ع): فَحَاسِبُوا اَنفُسَكُم قَبلَ اَن تُحَاسَبُوا فَإِنّ أَمكِنَةَ القِيَامَة خَمسُونَ مَوقَفاً كُلُّ مَوقَفٍ مَقامُ اَلفِ سَنَةٍ

[1] Mizanül-hikmə, hədis-3833.
[2] Mizanül-hikmə, hədis-3838.

-İmam Sadiq(ə) buyurur: "Hesaba çəkilməmişdən əvvəl özünüzdən hesab çəkin. Qiyamətin əlli dayanacağı var ki, hər bir dayanacaq əlli il çəkəcək." [1]

Beləliklə, insan bilməlidir ki, o, bütün əməlləri barədə sorğu-sual olunacaqdır. Bəziləri elə güman etməsinlər ki, bu dünyada yeyib-içib kef etmək üçün yaranmışlar, axırda da ölüb torpağa qarışacaqlar və onlardan heç bir hesab-kitab çəkən olmayacaq. İnsan bilməlidir ki, onun bütün əməlləri, aldığı nəfəslərinin sayı, danışdığı bütün sözlər yazılıb saxlanılır. Təkcə sağda və solda əyləşən mələklərin qeydə aldığı deyil. İnsanın əməlləri bir neçə kitabda qeyd olunur və heç bir şey yaddan çıxmır. Qiyamət günü bütün kitablar açılacaq və insan bütün əməllərinin hamısının orada yazıldığını gördükdə gözləri bərələcək. Oranın hesab-kitabından rahat keçmək üçün insan gərək bu dünyada özü ilə hesab aparsın. Əgər insan hər gün özü ilə hesablaşsa, etdiyi tövbənin həqiqətini dərk edəcək. Yox, əgər özü ilə hesab-kitab çəkməsə və tövbədən sonrakı şərtlərə riayət etməsə, şeytan yavaş-yavaş həmin şəxsi yolundan azdıracaq və etdiyi tövbənin pozulmasına səbəb olacaq.

## Mühasibənin növləri

Yuxarıda mühasibənin nə olduğu barədə bəzi hədisləri qeyd etməklə məsələyə müəyyən qədər aydınlıq gətirdik. Burada bilmək lazımdır ki, mühasibənin iki növü vardır. Biri əməldən əvvəl, digəri isə əməldən sonradır. Ümumiyyətlə, hamı bilməlidir ki, insanın bu dünyada əsas işi özü ilə hesabat aparmasıdır. Məsələn, bir uşağı məktəbə qoyurlar.

[1] Mizanül-hikmə, hədis-3839.

Onun üçün çanta, dəftər-kitab, qələm və s. alınır. Məktəb uşağının işi nədən ibarət olmalıdır? Aydın məsələdir ki, hər bir məktəblinin işi-gücü dərs oxumaqdır. Müəllim şagirddən "nə üçün dərsini oxumamısan?" - deyə soruşduqda, həmin şagird deyir: Vaxtım yox idi. Təəccüblüdür ki, işi-gücü dərs oxumaq olan bu şagirdin başı hansı işlərə qarışıb ki, əsas məqsəddən uzaqlaşıb? Şagirdin dərs oxumaqdan savayı başqa işi olmamalıdır. İnsanlar da bu dünyaya ibadət və mənəviyyata çatmaq üçün gəlmişlər. İnsan bu dünyada özünü təmizləməli və saflaşdırmaqla məşğul olmalıdır. Mərhum Ayətullah Behcət belə buyurardı: "Bizim bu dünyada işimiz özümüzü saflaşdırmaqdır. Lakin bunu yaddan çıxarmışıq. Başqa işlərə başımız o qədər qarışıb ki, saflaşmaq üçün vaxtımızı əlimizdən alıb."

## Əməldən əvvəlki mühasibə

Aydın oldu ki, mühasibə iki qisimdir. Onlardan biri əməldən əvvəlki hesab-kitabdır. Yəni insan bir işi görməmişdən öncə ölçüb biçməlidir. Hər hansı bir əməli etmək istəyərkən kimin buyuruğunu yerinə yetirdiyini və onun niyyəti, məqsədi haqda düşünməlidir. Bir sözlə desək, insan görmək istədiyi işin hesabatını öncədən aparmalıdır ki, sonradan peşmançılığa səbəb olmasın. Buna görə də gördüyü işə qarşı diqqətli olmalıdır. Həmçinin başa düşməlidir ki, Allah-təala insana hər şeydən yaxın və onun bütün əməllərindən xəbərdardır. "Qaf" surəsinin 16-cı ayəsində belə buyurulur:

وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ وَنَعْلَمُ مَا تُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

-Şübhəsiz, insanı Biz yaratdıq və nəfsinin onu nə ilə şirnikləndirdiyini bilirik. Biz ona şah damarından da yaxınıq.

قَالَ رَسُولُ اللهِ(ص): اِذا اَرَدتَ أَمرًا فَتَدَبَّر عَاقِبَتَهُ فَإن كَانَ رُشدًا فَأَمضِيهِ وَإن كَان غَيًّا فَانتَه عَنهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər hansı bir işi görmək istədikdə onun axırını fikirləş. Əgər görəcəyin iş (in aqibəti müsbət və) yaxşıdırsa, onu yerinə yetir. Yox, əgər pis işdirsə, onu etməkdən çəkin."[1]

İnsanın gördüyü işlərdə ən əsas meyar Allahın razılığı olmalıdır. Hər hansı bir işdə Allahın razılığı varsa, o işi görmək lazımdır. Yox, əgər Allahın razılığı yoxdursa, həmin işdən çəkinmək gərəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): اَلكَيِّسُ مَن دَانَ نَفسَهُ وَ عَمِلَ لِمَا بَعدَ الْمَوت, وَالأَحمَقُ مَن اِتَّبَعَ نَفسَهُ هَواهَا وَ تَمَنَّى عَلَى اللهِ الأَمَانِي

-Həzrət Peyğəmbər(s) buyurur: "Zirəklərin ən zirəyi odur ki, öz nəfsinin hesab-kitabını apara, ölümündən sonrası üçün çalışa. Axmaqların axmağı isə odur ki, öz nəfsinə tabe ola və Allahdan diləklər diləyə."[2]

Deməli, hər bir halda insan bir işi görməmişdən öncə axırını düşünməlidir. Hədislərdən alınan nəticədə görürük ki, insan hər bir işi gördükdə ölümdən sonra həmin iş barədə hesaba çəkiləcəyini düşünməlidir. Belə olduqda hər bir işi görərkən aqibətini düşünüb qiyamət gününün hesab-kitabında özü üçün çətinlik yaranmasına səbəb olan işlərə əl atmaz.

---

[1] Mizanül-hikmə, hədis-3837.
[2] Mizanül-hikmə, hədis-3837.

## Üç növ divan və məhkəmə

Yeri gəlmişkən, burada çox yaxşı olar ki, bir mətləbi də əziz möminlərin nəzərinə çatdırım. Həmin mətləb budur ki, qiyamət günü insanın bu dünyada etdiyi hər bir (hətta kiçik) əmələ görə üç divan açılıb məhkəmə qurulacaq. Hər divanın öz adı və sualı vardır.

**1-ci divan:** (Nə üçün etdin?) (لم فعلت هذا؟)

**2-ci divan:** (Necə etdin?) (كيف فعلت هذا؟)

**3-cü divan:** (Kimin üçün etdin?) (لمن فعلت هذا؟)

Birinci divanda insandan hər hansı bir əməli nə üçün etdiyini soruşacaqlar. Yəni insanın gördüyü iş nəfsi istəklərinə görə olmuşdur, yoxsa Allahın əmrinə xatir? İnsan ilk növbədə bu suala cavab verməlidir.

قَالَ الإِمامُ زينُ العَابِدِين: ثَلاثٌ مَن كُنّ فِيهِ مِنَ المؤمِنينَ كَانَ فِي كَنَفِ اللهِ... وَ رَجُلٌ لَم يُقَدِّم يَدًا وَلا رِجلاً حَتّى يَعلَم أَنَّهُ فِي طَاعَةِ اللهِ قَدَّمَهَا اَو فِي مَعصِيَتِهِ

İmam Zeynalabidin(ə) buyurur: "Möminlərdən hər kəsdə bu üç xüsusiyyət olsa (qiyamət günü) Allahın pənahında olacaq... Həmin əməllərdən biri budur ki, bir kəs əlini tərpədib və ya qədəm atıb hər hansı bir işi görmək istədikdə baxıb görsün ki, görəcəyi bu işdə Allahın razılığı var, yoxsa yox. Əgər Allahın razılığı varsa, yerinə yetirsin. Yox, əgər Allahın razılığı yoxdursa, həmin işi görməkdən çəkinsin."

İnsan yəqin bilsin ki, etdiyi hər bir işə görə onun üçün divan açılacaq. Gəzməyi, danışmağı, yeməyi, hərəkəti və bütün əməlləri üçün birinci divanda ondan "Nə üçün etdin?" - deyə soruşulacaq. Buna görə də insan bir işi yerinə yetirməmişdən öncə ilk növbədə öz-özündən hesab istəsin. Belə olduqda qiyamət günü sorğu-sualı asanlaşar.

İnsan üçün qurulacaq ikinci divanda hansısa əməli necə yerinə yetirməsi haqda sorğu-sual ediləcək. Məsələn, bir nəfər Məkkəyə yollanır. İlk növbədə nə üçün ora getməsi haqda düşünməlidir. Sonra Həcc əməllərini yerinə yetirməsi haqda fikirləşməli və dəqiqliklə ona əməl etməlidir. Çünki ikinci divanda qeyd etdiyimiz kimi, insan bütün əməlləri necə yerinə yetirdiyi haqda sorğu-sual olunacaqdır. Yəni görəsən o, hər hansı bir işi Allahın buyurduğu kimi yerinə yetirib, yoxsa öz nəfsinin istəyinə görə? Həcc zamanı əgər Minada qalmaq lazımdırsa qalmalı, Ərəfatdan hansı saatda çıxmalıdırsa elə də etməlidir. Əgər Həcc əməllərini, yaxud digər vacib əməlləri öz bildiyi kimi edərsə, Allah həmin əməlləri qəbul etməyəcək. Qiyamət günü əgər əməllər qəbul olacaqsa, yalnız Allahın buyurduğu kimi yerinə yetirilən əməllər qəbul olunacaq. Əgər bir insan namaz qılırsa, mütləq Allahın buyurduğu kimi qılmalı və öz bildiyini həmin əmələ qarışdırmamalıdır. Buna görə də hər bir müsəlmana vacibdir ki, şəriət məsələlərini öyrənib onları dəqiqliklə yerinə yetirsin. Oruc tutan şəxs mütləq orucun hökmlərini dəqiqliklə bilməlidir. Namaz qılan şəxs mütləq namazın hökmlərini öyrənməli və onlara riayət etməlidir. İnsan bilməlidir ki, onun üçün qurulacaq üç məhkəmənin ikincisində ondan əməlləri necə yerinə yetirdiyi haqda soruşulacaq.

Üçüncü divanda isə insanın gördüyü əməlləri kimin üçün yerinə yetirdiyi haqda sorğu-sual olunacaq. Məsələn, insan bir işi yerinə yetiribsə, həmin işi Allaha xatir edib, yoxsa

riyakarlıq məqsədilə bunu etmişdir? Namaz qılanda kiminsə tərifinə görə qılıb, yoxsa sırf Allahın razılığına görə? Hədislərdə belə nəql olunur ki, hər kəs Allaha xatir olan bir əməldə kimisə şərik qoşsa (kiminsə xoşu gəlsin deyə yerinə yetirsə) Allah-təala həmin əməli qəbul etməyəcək. İbadətdə riyakarlıq Allaha şərik qoşmaq deməkdir. İnsan bir əməli Allaha görə yerinə yetirirsə, fikrində yalnız Allah olmalı, kiminsə tərifinə məhəl qoymamalıdır. Həmçinin hədislərdə nəql olunur ki, hər kəs ibadətdə Allahdan başqa kimisə nəzərdə tutub Ona şərik edərsə, Allah-təala həmin əməli şərik tutulana verər.

قَالَ عَلِيّ(ع): حَاسِبُوا اَنفُسَكُم بِأَعمَالِهَا وَ طَالِبُهَا بِأَدَاءِ الفَرَائِضِ عَلَيهَا وَ الأَخذِ مِن فَنَائِهَا لِبَقَائِها.

-Həzrət Əli(ə) buyurur: "Öz nəfslərinizi etdiyiniz əməllərə görə hesaba çəkin. Nəfsinizdən Allahın vacib etdiklərini tələb edin. Özünüzə bu fani vaxtdan (dünyadan) həmişə qalacağınız vaxta (axirətinizə) bir şey əldə edin."[1]

## İnsanın əməlləri onun niyyətindən asılıdır

İnsan etdiyi əməllərə görə mütləq cavabdeh olacaq. Qeyd olunan məhkəmələrdə kiçikdən böyüyə qədər olan bütün əməllər haqda insan sorğu-sual ediləcəkdir. Ola bilsin ki, bir insan zahirdə savab bir iş görmüş olsun, lakin bu savabı görməkdə niyyəti başqa şey də ola bilər. Allah-təala o əmələ savab yazar ki, insanın niyyəti saf və xalis olmuş olsun. Dünyada insanın gördüyü bütün əməllər onun niyyətindən

[1] Mizanü-hikmə, hədis-3832.

asılıdır. Allah insana niyyətlə də şəfa verir. Allahın insanı hidayət etməsi də niyyətlədir. Allahın insana savab və əcr verməsi də niyyətlədir. Məsələn, məclisə bir nəfər ağsaqqal daxil olur. Cavanlardan birinin isə həmin məclisdə çox əyləşdiyi üçün beli ağrıyır. Ağsaqqalın içəri girdiyini görən cavan öz-özünə deyir ki, qoy mən öz yerimi ona verim, həm belimin ağrısı keçsin, həm də camaat elə bilsin ki, mən ağsaqqala hörmət etdim. Həmin cavanın bu əməlinə və niyyətinə görə ona heç bir savab yazılmaz. Əgər həqiqətən də Allaha xatir ağsaqqala hörmət etmək naminə ayağa qalxıb yerini ona versəydi, Allah həmin cavana savab yazardı. Peyğəmbərdən(s) belə rəvayət olunmuşdur ki, böyüklərinizə ehtiram göstərin. Əgər bir insan böyüklərə Peyğəmbərin(s) buyurduğuna əsasən hörmət və ehtiram edərsə, Allah- təala həmin şəxsə savab inayət edər.

Odur ki, hər bir əməl insanın niyyətindən asılıdır. Allah-təala insana niyyətinə görə savab verir. Hətta niyyətin təmiz və saf olduğuna görə Allah-təala insanın sağalmayan xəstəliyinə belə şəfa vermişdir. Əlbəttə ki, insanın niyyəti xalis olarsa, Allah-təala mərhəmət qapılarını həmin şəxsin üzünə açar.

Tarixi mənbələrdə belə oxumuşam ki, qədimdə səhralarda uzaq yol gedənlər üçün çay-çörək, yemək və dincəlmək üçün mənzillər olardı. O zamanlar insanlar at, dəvə ilə yol gedər, yorulduqda müəyyən mənzillərdə istirahət edərdilər. Həmin mənzillərdə yaşayan bir kişi belə deyir: “Mən yolçular, tacirlər və səyahətçilər üçün otaq hazırlamışdım. Həmin otağı bir neçə gecəliyə onlara kirayə verib, qazandığım həmin pulla ailəmi dolandırırdım. Gecələrin birində qapı döyüldü. Qapını açdıqda beş-altı nəfər cavan oğlanın dayandığını gördüm. Onlar gecələmək üçün otaq istəyirdilər. Onlar iri cüssəli cəngavərlərə bənzəyirdilər. Onlar üçün şərait yaratdım və soruşdum ki, ay mənim balalarım, gecənin

bu aləmində siz haradan gəlirsiniz belə? Onlar dedilər ki, biz Allah yolunda cihad (çalışan) edən insanlarıq. Mən onların sözünü eşitdikdə fərəhləndim və süfrə açdım. Onların Allah yolunda cihad edən olduqlarını eşitdikdən sonra yaxşıca qulluq etməyə başladım.

Mənim evdə xəstə bir uşağım var idi. O, iflic xəstəliyindən əziyyət çəkirdi. Həmin cavanlar gecəni qaldılar və səhər kirayə haqqını ödəyib getdilər. Mən onların süfrəsindən artıq qalmış qırıntıları təbərrük üçün uşağa yedizdirdim. Bu niyyətlə ki, Allah yolunda cihad edən, canından keçən cavanların artığı ilə bəlkə Allah bu uşağa şəfa verər. Dua edib xalis niyyətlə dedim: "İlahi, bu cavanlar Sənin yolunda canlarını fəda etməyə hazırdırlar. Onların artıq qalmış yeməklərindən bu uşağa yedizdirdim. Sən Özün bu uşağa şəfa ver."

Allah-təala uşağa şəfa verdi. Uşağın şəfa tapdığını görüb səcdəyə düşdüm. Allaha şükr edib dedim ki, İlahi, həmin cavanları mənim qapıma göndərməkdə lütf və mərhəmət göstərdin.

Həmin gün axşam oldu. Gecənin bir aləmində həmin cavanlar yenə də qapını döydülər. Onları gördükdə çox sevindim və evə dəvət etdim. Onları qucaqlayıb öpdüm və yaxşıca qulluq etməyə başladım. Onlardan biri məni sevinc içində görüb soruşdu: Nə əcəb bu gün səni şad və fərəh içində görürük? Dedim: Allah sizi mənim qapıma göndərməkdə mərhəmət edib. Siz Allah yolunda çalışan, cihad edən cavanlarsınız. Özünüzü Allaha qurban etməyə hazırsınız. Səhər sizin süfrənizdən artıq qalanları uşağa yedizdirdim. Allah-təala uşağa şəfa verdi. Onlar uşağın yatağında yatdığını görmüşdülər. Bu dəfə gələndə isə uşağın sağlam olduğunu gördülər. Həmin cavanlardan biri mənim sözümü dinlədikdən sonra ağlamağa başladı. Soruşdum: Nə üçün ağlayırsan? Dedi: Məsələ sən fikirləşdiyin kimi deyil.

Biz Allah yolunda cihad edən deyilik. Biz bir dəstə qulduruq ki, karvanların qarşısını kəsib onları soyuruq. Neçə ildir ki, bu işlə məşğuluq. Səhər sənin evindən çıxıb yenə də yol kəsməyə getdik. Bu gün yaxşıca pul əldə etmişik. Sənə demişdik ki, biz Allah yolunda cihad edənlərik. Amma sən pak niyyətlə bizi qəbul edib, yeməyimizin artığını uşağa verdiyin üçün Allah ona şəfa verdi.

Sonra həmin cavanlar səcdəyə düşüb Allaha yalvarmağa başladılar ki, onları əfv etsin. Allahla münacat edib belə dedilər: "İlahi, Sən bizim süfrəmizin qırıntısı və bu kişinin təmiz niyyəti ilə uşağı sağaltdın. Biz də bu uşağın ehtiramına görə tövbə edir, bütün çirkin əməllərdən peşman olduğumuzu bildiririk. Sabahdan əldə etdiyimiz haram malları sahiblərinə qaytaracağıq."

Allah doğrudan da insana hər şeyi niyyətinə görə verir. O kişi həmin cavanların yolkəsən olduğunu bilmirdi. Amma onların mücahid sözü həmin kişinin o cür saf niyyətlə dua etməsinə səbəb oldu. Allah da onun saflığına görə uşağa şəfa verdi. Odur ki, insan hər bir əməli xalis niyyətlə və sırf Allaha xatir yerinə yetirirsə, Allah həmin əməli və duanı ondan qəbul edir. Əgər insan namazda Allahdan başqasını niyyətində tutsa, namazı batildir. Əgər insan Allah yolunda ölümə də getsə, niyyəti Allahdan başqası olarsa, Allah onun əməlini qəbul etməz.

Odur ki, əməldə niyyət çox mühüm və önəmlidir. Niyyət əməldən qabaqdır. İnsan hər bir işi yerinə yetirərkən ilk növbədə niyyətini düzəltməlidir. Əgər insan əməllərini xoş niyyətlə, Allahın razılığı ilə yerinə yetirsə, Allah-təala ona həm dünyada, həm də axirətdə nuraniyyət, xeyir-bərəkət verər və onu cənnətin əziz qonaqlarından edər.

## Əməldən sonrakı mühasibə

Ötən bəhslərdə vurğuladıq ki, insanın öz-özü ilə hesab-kitab aparması iki qisimdir. Bir qismi əməldən qabaq, digəri isə əməldən sonra olan mühasibədir. Əməldən öncəki hesab-kitab barədə müəyyən qədər söhbət etdik. Mühasibənin ikinci qismi əməldən sonrakı hesab-kitabdır. Bu hesab-kitab da insan üçün çox mühüm məsələdir. Odur ki, hər bir insan üçün mühüm və gərəklidir ki, hər gün etdiyi əməlləri qarşısına qoyub öz-özü ilə hesab-kitab aparsın. Əgər gün ərzində etdiyi əməllərin yaxşı olduğunu görsə, şükür edib Allahdan yaxşı əməllərini daha da artırmağı istəsin. Yox, əgər gün ərzində etdiyi əməllər pis və günah olubsa, tövbə edib Allahdan onu bağışlamağı diləsin. Əgər günahlarından tövbə etməsə, bağışlanmasını diləməsə, günbəgün üst- üstə yığılacaqdır. Yəni bu günün işini sabaha qoymaq olmaz. Hər kəs bu günün işini sabaha qoyarsa, işi ağırlaşacaq. Çünki sabah məcbur olub keçmiş günün işlərini də görməlidir. Allah-təala Qurani-Kərimin “Həşr” surəsinin 18-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنظُرْ نَفْسٌ مَّا قَدَّمَتْ لِغَدٍ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

-Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs (özünün) sabah(ı) üçün qabaqcadan nə göndərdiyinə nəzər salmalıdır. Allahdan qorxun ki, Allah etdiklərinizdən xəbərdardır!

İnsanın etdiyi bütün əməllərin hamısı axirət dünyasında cəm olur. Axirətdə insanın bütün əməllərini ona qaytaracaqlar. Əgər orada bizim əməllərimiz yığılıb qalacaqsa, gərək nə göndərdiyimizə diqqət yetirək. Məsələn, bir nəfər tətil zamanı uzaq bir gəzintiyə çıxmaq istəyir. Həmin gəzintiyə çıxmazdan öncə gedəcəyi yerdə öz şəraitini bəri

başdan hazırlamalıdır. Orada lazım olacaq yemək və əşyaların siyahısını  tutmalıdır. Belə olmamalıdir ki, uzaq yola çıxdıqdan sonra hansısa bir şey üçün məəttəl qalsın. Bir sözlə desək, səfərdə insana nə lazım olacaqsa, bəri başdan tədarük görməlidir.

Tanıdığım bir şəxs günlərin birində yanıma gəlib dedi:

-Səndən bir xahişim var. Dedim: Buyur. Əlindəki bağlamanı mənə göstərib dedi: Bu, bir kəfəndir. Özüm üçün alıb indidən tədarük görmüşəm. Bilirəm ki, sənin filan müctəhidlə münasibətin yaxşıdır. Xahişim isə budur ki, bu kəfəni onun yanına aparasan. Çox istərdim ki, öz dəst-xətti ilə üzərinə mənim üçün bir söz yazsın. Onun xahişini qəbul edib kəfəni ondan aldım. Bir neçə müddətdən sonra həmin alimin yanına getmişdim. Söhbəti qurtardıqdan sonra kəfəni ona göstərib həmin şəxsin xahişini ərz etdim. Həmin alim ayağa qalxıb çox ehtiram və diqqətlə kəfəni alıb qələmi götürdü. Onun bütün hərəkətləri məni təəccübləndirdi. Həmişə böyük şəxsiyyətlərə, prezidentə belə məktub yazarkən tez yazıb qurtarardı. Lakin kəfənin üzərinə bir neçə kəlmə söz yazması çox uzun çəkdi. Yazıb qurtardıqdan sonra mən təəccübümü gizlətməyərək soruşdum: “Ağa, siz həmişə böyük şəxsiyyətlərə məktub yazarkən tez yazıb göndərərdiniz. Lakin kəfənin üzərinə bir neçə kəlmə sözü yazarkən çox diqqət və ehtiyatla yazdınız.” Həmin alim mənə buyurdu: “Kəfənin üzərinə yazılan sözlər prezidentin yanına getməyəcək. Bu kəfəni axirət günündə mələklər açacaq. Bu yazılar orada oxunacaq. Bu yazıları qəbirdə oxuyacaqlar. O biri aləm bu dünya kimi deyil. Orada hər bir şey diqqət altında olacaqdır. Buna görə də yazıb göndərəcəyim sözlərdə çox diqqətli olmalıyam.”

Odur ki, Allah-təala qeyd etdiyimiz ayədə buyurur: "Hər kəs (özünün) sabah(ı) üçün qabaqcadan nə göndərdiyinə nəzər salmalıdır." İnsan bilməlidir ki, axirəti üçün nə

göndərir. “Ali-İmran” surəsinin 135-ci ayəsində belə buyurulur:

وَالَّذِينَ إِذَا فَعَلُواْ فَاحِشَةً أَوْ ظَلَمُواْ أَنْفُسَهُمْ ذَكَرُواْ اللّهَ فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ وَمَن يَغْفِرُ الذُّنُوبَ إِلاَّ اللّهُ وَلَمْ يُصِرُّواْ عَلَى مَا فَعَلُواْ وَهُمْ يَعْلَمُونَ

-Və o kəslər ki, çirkin bir iş (böyük günah) gördükdə və ya (kiçik bir günahla) özlərinə zülm etdikdə, Allahı yada salar və günahları üçün bağışlanmaq istəyərlər. Günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdikləri işdə bilərəkdən israr etməzlər.

Bu ayə möminlər barədədir ki, əgər bir mömin günah edərsə, tez Allahı yada salıb tövbə edər və Allahdan günahının bağışlanmasını diləyər. Yəni günah etdikdən sonra etinasızlıq etməməli və pis iş gördüyünü başa düşməlidir. Günah etdikdən sonra Allaha qarşı etinasızlıq etmək daha pisdir. Məsələn, avtobusda bir nəfər bilməyərəkdən digərinin ayağını tapdalayır. Sonra dönüb üzr istəyir. Həmin şəxs də onun üzrünü qəbul edir. Amma əgər bir nəfər digərinin ayağını tapdalayıb üzr istəmədən keçib gedərsə, bu, onun etinasızlığı və diqqətsizliyidir. Buna görə də insan günah etdikdən sonra tez tövbə edib Allaha üz tutarsa, Allah onu bağışlayar.

Həzrət Əli(ə) buyurur: "Xoş o kəsin halına ki, onun əməl kitabında hər bir günahının altında bir “əstəğfirullahə rəbbi və ətubu ileyh” sözü yazılmış olsun."

Mömin bir şəxs mümkündür ki, şeytanın hiyləsinə aldanıb hərdən bir günah etmiş olsun. Lakin etdiyi əməlin çirkinliyini başa düşüb tez tövbə edər və Allahdan bağışlanmasını diləyər. Günahdan tövbə etməmək etinasızlıq

və diqqətsizlikdir. Buna görə də insan unutqanlıq üzündən günah edərkən tez tövbə edib özünü bağışlatdırmalıdır.

قَالَ عَلِيٌّ(ع): مَا اَحَقَّ الإِنسانَ اَن يَكُونَ لَهُ سَاعَةٌ لا يَشغَلُهُ شَاغِلٌ يُحاسِبُ فِيهَا نَفسَهُ فَيَنظُرُ فِيمَا اكتَسَبَ لَهَا وَ عَلَيهَا فِى لَيلِهَا وَ نَهَارِهَا

-Həzrət Əli(ə) buyurur: "Çox yaxşıdır (lazımlıdır) ki, insan etdiyi işlərə görə özündən hesaba almaq üçün bir saat (vaxt) ayırsın. Baxıb görsün ki, həmin gün gecə və gündüz nə işlər görüb. Ayırdığı vaxtda gün ərzində gecə və gündüz etdiyi əməllərin hesab-kitabını aparsın."[1]

قَالَ الصَّادِقُ(ع): حَقٌّ عَلَى كُلِّ مُسلِمٍ يَعرِفُنَا اَن يَعرَضَ عَمَلَهُ فِى كُلِّ يَومٍ وَ لَيلَةٍ عَلَى نَفسِهِ فَيَكُونَ مُحَاسِبَ نَفسَهُ فَإِن رَأى حَسَنَةً اِستَزَادَ مِنهَا وَ اِن رَأى سَيِّئَة اِستَغفَرَمِنهَا لِئَلّا يَخزى يَومَ القِيَامَة

-İmam Sadiq(ə) buyurmuşdur: "Bizi tanıyan və sevən hər bir müsəlmana zəruridir ki, hər gün gecə və gündüz etdiyi əməllərə görə nəfsindən hesab çəksin. Əgər yaxşı bir əməl edibsə, ondan daha çoxunu əməl etmək üçün Allahdan uğur diləsin və buna görə Allaha şükür etsin. Əgər bir pis iş görübsə (günah edibsə), qiyamət günü xar olmamaq üçün Allahdan bağışlanmağını istəsin və tövbə etsin."[2]

Qiyamət günündə əməllərin üstü açıldıqda hamı bir-birinin pis işlərindən xəbərdar olduğu üçün xar olacaqlar. Həmin gün xar və zəlil vəziyyətə düşməmək üçün insan

---

[1] Mizanül-hikmə, hədis-3842.
[2] Mizanül-hikmə, hədis-3843.

mütləq bu dünyada etdiyi əməllərə görə özünü hesaba çəkməli və özünü düzəltməlidir. İnsan heç bir vaxt nəfsini boş buraxmamalıdır. Onunla hesab-kitabı möhkəm etməlidir. Hədislərdə deyilir ki, möminlər aralarında hesab-kitab edərkən bir-birilərini çox da çətinliyə salmasınlar. Məsələni dərinləşdirib bir-birilərini incitməsinlər. Lakin hər bir mömin (öz əməllərinə görə) nəfsi ilə hesab- kitab çəkdikdə möhkəm və dəqiq olmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): لا يَكُون الرَّجلُ مِنَ الْمُتَّقِين حَتَى يُحاسِبَ نَفسَهُ أَشَدَّ مِن مُحَاسِبَةِ الشَّرِيکَ شَرِيكَهُ. فَيَعلَمَ مِن اَينَ مَطعَمُهُ وَ مِن اَينَ مَشرَبُهُ وَمِن اَينَ مَلبَسُهُ. أَمِن حلٍ ذَلک أَم مِن حَرامٍ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər bir adam təqvalı olmaq istəyirsə, gərək öz nəfsi ilə iki şərikin hesablaşdığından daha dəqiq hesab alsın. Yediyinin, içdiyinin və geydiyinin haradan olduğunu bilsin. Bütün bunların halal və yaxud haram olduğunu bilməlidir (yəni haram olmamalıdır.)" [1]

Hər kəs təqvalı olmaq istəyirsə, mütləq nəfsi ilə hesab-kitab çəkməlidir. Əgər nəfslə hesabı əldən buraxsa və yaxud boş tutsa, üst-üstə yüklənib insanı çətin vəziyyətə salacaq. Həmçinin əgər insan bu dünyada etdiyi əməllərin hesabını özü-özü ilə çəkməsə, mütləq qiyamət günü ondan hesab-kitab tələb edəcəklər.

Günlərin birində Həzrət Peyğəmbər(s) buyurdu: “Zirəklərin ən zirəyi və axmaqların ən axmağının kim olduğunu sizə deyimmi?

Dedilər: Bəli, ya Rəsulallah.

---

[1] Mizanül-hikmə, hədis-3847.

Həzrət(s) buyurdu: Zirəklərin ən zirəyi odur ki, öz nəfsinin hesab-kitabını apara, ölümdən sonra üçün çalışa. Axmaqların axmağı isə odur ki, öz nəfsinə tabe ola və Allahdan diləklər diləyə.”

Bir nəfər soruşdu: “Ya Rəsulallah, adam öz nəfsi ilə necə hesab çəkməlidir?

Həzrət(s) buyurdu: Elə ki, axşam oldu, insan öz nəfsinə belə desin: Ey nəfs, bu gün artıq keçdi və sona çatdı. Bu gün bir daha qayıtmayacaq. Qiyamət günü Allah səndən hər keçən gün barədə sorğu-sual edəcək. Bu gün nə iş gördün. Buna görə də de: Ey mənim nəfsim, bu gün

1.Allahı yad edib şükür etdinmi?

2.Mömin qardaşının haqqını əda etdinmi?

3.Onun ürəyindəki qəmlərdən götürərək qəlbini şad etdinmi?

4.Özü olmayanda onun ailəsinə bir köməyin dəyərək yardım göstərə bildinmi?

5.Mömin qardaşın öldükdə onun ailəsinə, uşaqlarına köməyin dəydimi?

6.Mömin qardaşının qeybətini etdikləri zaman bu işə etiraz etdinmi?

7.Hansısa bir müsəlmana yardım etdinmi?”

Həzrət Peyğəmbər(s) bunları bir-bir sadaladıqdan sonra belə buyurdu: “Əgər görsən ki, (bu kimi) xeyir işləri yerinə yetirmisənsə Allaha şükür et. Əgər həmin gün günaha mürtəkib olduğunu görmüsənsə tövbə et. Qarşına məqsəd qoy ki, bir daha günah işlər etməyəcəksən.” [1]

## Nəfsi ilə hesab-kitab edənlərə Allah və

[1] Mizanül-hikmə, hədis-3848.

## Peyğəmbərin(s) yardımı

İnsan mütləq gün ərzində etdiyi əməllərin hesab-kitabını öz-özü ilə aparmalıdır. Məlum məsələdir ki, bütün əməllərin hesabını çəkmək mümkün olmayacaq. Hər halda insan bacardığı qədər bu işi hər gün yerinə yetirib etdiyi əməlləri qarşısına qoymalı, pisi yaxşıdan ayırmalıdır. Belə olduqda Allah və Peyğəmbər(s) də həmin şəxsə yardımçı və köməkçi olacaq. Çünki bütün bu işlərin hamısını insan özü təkbaşına görə bilməz. Əgər insanın öz nəfsi ilə hesab-kitab etməyə marağı olsa, bu işə qədəm qoysa, Allah və Peyğəmbər(s) ona bu işdə yardımçı olar.

Günəş yarandıqdan bu günə qədər bir dəfə istisna olmaqla heç vaxt geri qayıtmamışdır. Həmin istisna hal Allahın izni ilə Həzrət Əlinin(ə) əsr namazını fəzilətli vaxtında qılması üçün baş vermişdi. Həzrət Əli(ə) həmişə namazlarını fəzilətli vaxtında qılardı. Bir gün Həzrət Peyğəmbər(s) Həzrət Əlini(ə) bir iş üçün göndərmişdi. Əli(ə) getdi və həmin işi yerinə yetirib qayıtdıqda əsr namazının vaxtı idi. Elə bu an Peyğəmbərə(s) vəhy gəldi. Həzrət(s) başını Əlinin(ə) dizi üstünə qoyub özündən getdi. Əli(ə) gördü ki, əsr namazının fəzilətli vaxtı keçmək üzrədir. Lakin Peyğəmbərin(s) başını dizinin üstündən götürüb yerə qoymadı. Elə o haldaca gözləməyə başladı. Peyğəmbər(s) özünə gəldikdən sonra soruşdu: “Ya Əli, əsr namazını qılmısanmı? Dedi: Xeyr, ya Rəsulallah. Sənin başını torpaqlar üstünə qoyub dura bilmədim.” Həzrət Peyğəmbər(s) dua edib Allahdan günəşin əsr namazının fəzilətli vaxtı olan yerə qayıtmasını istədi. Allahın əmri ilə günəş əsr namazının fəzilətli vaxtına qədər geri qayıtdı və Həzrət Əli(ə) əsr namazını qıldı.

Burada sual oluna bilər ki, görəsən bizim üçün də Allah günəşi geri qaytararmı? Həzrət Əli(ə) həyatı boyu bütün

namazları əsl və fəzilətli vaxtında qılmışdı. Yalnız bircə dəfə Peyğəmbərə(s) vəhy nazil olan zaman başını onun dizinin üzərinə qoyduğundan əsr namazının fəzilətli vaxtından azacıq keçdiyinə görə Allah-təala ona yardım edərək günəşi geri qaytardı. Bu istisna bir haldır. Çünki Həzrət Əli(ə) ixtiyari şəkildə bu işi görməmişdi. Amma bizlər nə qədər olub ki, ixtiyari şəkildə namazlarımızı fəzilətli vaxtından sonra qılmışıq. Göz görə-görə, ixtiyar özündə ola-ola namazı fəzilətli vaxtından ötürən insan üçün günəşi geri qaytarmazlar. Allah və Peyğəmbər(s) o zaman insana yardımçı olar ki, insan ixtiyarsız, bilməməzlik üzündən hansısa xətaya yol vermiş olsun. Heç olmasa insan bu yolda çalışıb öz nəfsi ilə hesab-kitab çəkməlidir ki, ona kömək olunsun.

Tanıdığım ruhani, möhtərəm bir şəxs mənim üçün belə bir söhbət etdi: “Bir gün Tehranda küçələrin birində ruhani libasında taksi gözləyirdim. Birdən bir maşın qarşımda dayandı. Sürücü qapını açıb mənə dedi: Buyurun əyləşin. Görkəmindən taksi sürücüsünə oxşamırdı və maşını da taksi deyildi. Ona dedim: Çox sağ olun. Zəhmət çəkməyin, mən taksi gözləyirəm. Təkidlə məndən maşına əyləşməyi xahiş etdi. Mən də onun maşınına əyləşdim. Yol əsnasında ona dedim: Mən sizə zəhmət vermək istəməzdim. İstəmirəm ki, mənə görə öz işinizdən qalasınız. Sürücü mənə dedi: Siz nə danışırsınız? Mənim üçün heç bir zəhməti yoxdur. Əksinə mən çox şadam ki, sizin kimi bir alim və ruhaniyə əlimdən gələn köməyi göstərə bilirəm. Mənim bir xatirəm var. Harada ruhani alim görürəmsə həmin xatirə yadıma düşür. Həmişə yolda bir ruhani alim gördükdə bacardığım qədər öz ehtiramımı ona bildirməliyəm. Əgər onlara hörmət etməsəm, ruhum sakitləşmir. Ondan soruşdum: O nə xatirədir elə? Əgər sirr deyilsə mənə də söyləyin. Sürücü başına gələn əhvalatı danışmağa başladı: Mən şah zamanında vəzifədə

işləyirdim. Təbrizdən mərhum Ayətullah Hacı Seyid Məhəmməd Sadıq ağanı sürgün elədikdə qulluq sahibi olduğumuz üçün onu Kürdüstana aparmağı bizə tapşırmışdılar. Onu apardığımız maşında bir sürücü, bir mən, bir də komandirim var idi. Sürgünə apardığımız Seyid Məhəmməd Sadıq çox möhtərəm, nurani, əzəmətli bir şəxsiyyət idi. Onun üzünə baxdıqda sanki Peyğəmbəri(s) görürdük. O qədər nurani, alicənab bir insan idi ki, adam gözünü onun camalından çəkmək istəmirldi. Yol əsnasında həmin seyid mənə baxıb dedi: Maşını saxlayın, günorta namazını qılım. Mən komandirə baxıb nə deyəcəyini gözlədim. Gördüm işarə etdi ki, “yox, davam edək.” Bir dəqiqə keçdikdən sonra seyid yenə dedi: Namazın vaxtı keçir. Maşını saxlayın, namazımı qılım. Komandir yenə də onun sözlərinə əhəmiyyət verməyərək, yolu davam etməyi əmr etdi. Azacıq getmişdik ki, yolun kənarında böyük kölgə salmış, altından arx axan bir ağacın yanında maşın xarab oldu. Sürücü nə qədər çalışsa da, maşını işə sala bilmədi.

Seyid mənə dedi: İndi ki, maşın dayanıb, qoyun mən namazımı qılım. Mənə görə saxlamadınız, heç olmasa nə qədər ki, maşın dayanıb qoyun namazımı qılım. Komandirim vəziyyəti belə gördükdə namaz qılmaq üçün ona icazə verdi. Seyid maşından düşüb həmin arxda dəstəmaz aldı və namaza başladı. Elə gözəlliklə namaz qılırdı ki, həm komandir, həm də mən onun namaz qılmağına heyran olmuşduq. Elə ləzzət və eşqlə Allaha ibadət edirdi ki, heç elə bil sürgünə gedən adam deyil. Çox rahat və azad insanlar kimi görünürdü. Onun namaz qılmağı komandirimin qəlbinə təsir göstərmişdi. Bunu ondan başa düşdüm ki, komandirimin ona qarşı münasibəti dəyişmişdi. Artıq ona bir söz deyə bilmirdi. Seyid namazı qılıb qurtardıqdan sonra gəlib maşında əyləşdi. Sürücü bu vaxta qədər hər nə edirdisə, maşını işə sala bilmirdi. Amma seyid əyləşdikdən sonra elə bir dəfə açarı

vurdu və maşın işə düşdü. Seyid dedi: İndi sürə bilərsiniz, daha dayanmayacaq.

Onun dediyi kimi də oldu, maşın təyin olunmuş yerə qədər bizi apardı və xarab olmadı. Həmin seyid ömrünün axırına qədər nə qədər imkanı varsa namazı vaxtından keçməyə qoymayıb. Bir dəfə də ixtiyarı öz əlində olmayanda Allah ona kömək etdi.

Hədislərdə belə nəql olunmuşdur ki, hər kəs namazı vaxtlı-vaxtında qılarsa, Allah-təala şeytanın həmin şəxsə qarşı olan cürət və cəsarətini alar. Yəni şeytan həmin şəxsdən çəkinər və ona yaxın düşməyə cəsarəti azalar. Həmçinin hədislərdə nəql olunmuşdur ki, hər kəs namazı vaxtlı-vaxtında qılarsa, cənab Əzrayıl(ə) onun canını alarkən kəlmeyi-şəhadəti ona təlqin edib dilinə gətizdirər.

Əlbəttə ki, Allah-təala Öz bəndəsinə kömək olar. Bir şərtlə ki, bəndə də Ona sarı qədəm götürməli, çalışmalı və əlindən gələn qədər zəhmət çəkməlidir. Həmçinin insan hər gün öz əməllərinin hesab-kitabını çəkərsə, qalan işləri Allah-təala onun üçün asan edib ona yardım edəcək. Ən əsası budur ki, insan həmin işləri görməkdə qarşısına məqsəd qoyub qərar qəbul etsin.

## Mühasibənin faydaları

Burada çox yaxşı olar ki, mühasibə bəhsinə bir mətləbi də əlavə edək. Həmin mətləb bundan ibarətdir ki, insanın öz-özü ilə hesab-kitab çəkməsinin faydası nədir? Yəni əgər insan bütün əməllərini qarşısına qoyaraq hesab-kitab etsə və əməllərini düzəltsə, bu işin ona nə kimi faydası ola bilər? Mühasibənin insan üçün bir neçə faydası vardır. Onun faydalarından biri odur ki, insan nəfsinə aldanmaz. Yəni

mühasibə edən insan nəfsin kələyindən və hiyləsindən amanda qalar.

Həm Quran ayələrində, həm hədislərdə, həm digər kitablarda, həm də ötən bəhslərimizdə dəfələrlə oxumuşuq ki, insan hər hansı bir iş görmək istəsə, hər hansı bir mənəvi məqama yüksəlmək istəsə, işlərində müvəffəq olmaq üçün və insan üçün təyin olunmuş hədəfə çatmaq üçün mütləq nəfsini sındırmalıdır. Öz nəfsini sındırmayan, yaxud onunla mübarizə aparmayan, nəfsini sındırmaq istəməyən insan izzətin və səadətin üzünü belə görməyəcək. Belə bir insan bu dünyanın adamıdır.

Bu məsələyə nikbin yanaşası olsaq və əgər insan yüzfaizlik bir mövcuddursa, onun əlli faizi mənəvi, əlli faizi isə maddidir. Halbuki nəfsi istəklərinə itaət edən insanlar Quran baxımından mənəvi cəhətdən çox aşağı səviyyədə dayanır. Hətta o dərəcədədirlər ki, Quran nəfsinin qulu olan insanı heyvandan daha alçaq bir varlıq kimi tanıtdırır. Buna görə də insan nəfsinin barəsində tədbir görməli, onunla mübarizə aparıb qələbə çalmaq üçün ilk növbədə onunla hesab-kitab aparmalıdır. Əgər insan öz nəfsi ilə hesab-kitab aparmasa, axırda nəfsi həmin şəxsin kürəyini yerə vuracaq.

Adətən, insanın yaşayışı da hesab-kitabladır. Məsələn, əgər insan bazarda, idarədə, hansısa şərikli bir işdə bir-biri ilə hesab-kitab etməsə, axırda tərəf müqabili onun ixtiyarında olanları əlindən alar və onu kənarlaşdırar. Bu halın baş verməməsi üçün və işin aqibətinin belə bir yerə çatmaması üçün insan həmişə işlərində dəqiq olmalıdır. Nəfs də eynilə belədir. Əgər insan öz nəfsi ilə əvvəlcədən hesab-kitab aparmasa, nəfsi güclənəcək və axırda onu yıxmaq mümkün olmayacaqdır. Buna görə də insan həmişə nəfslə mübarizə aparmalı və hər gün onunla hesablaşmalıdır. Nəfsilə mübarizə aparan şəxs heç bir vaxt onun kök

atmasına yol verməməlidir. Belə olduqda insan nəfsinin şərindən və hiyləsindən amanda qalar.

قَالَ عَلِيّ(ع): مَن تَعاهَدَ نَفسَهُ بِالْمُحَاسَبَة اَمِنَ فِيهَا الْمُدَاهَنَة

-İmam Əli (ə) buyurur: “Kim öz nəfsinin hesabına yetişsə, onun(nəfsin) kələk və hiylələrindən amanda qalar.”[1]

Həzrət Əli(ə) bu hədisdə başa salır ki, hər kəs öz nəfsi ilə hesab-kitab aparsa, bu hesab-kitabın faydası belə olar ki, insan nəfsinin hiylələrindən amanda qalar. Digər bir hədisdə belə oxuyuruq:

قَالَ عَلِيّ(ع): مَن حَاسَبَ نَفسَهُ عَلَى العُيوبِ وَقَفَ عَلَى عُيُوبِهِ وَ اَحَاطَ بِذُنُوبِه وَاستَقَالَ الذُّنُوب وَ اَصلَحَ العُيُوب

-İmam Əli(ə) buyurur: "Öz nəfsini sorğu-sual edən şəxs eyiblərindən agah olar, günahlarını başa düşər, (yaxşılıq etməklə) onların əvəzini ödəyər və eyiblərini aradan götürər."[2]

Bu hədis bizə öyrədir ki, nəfslə hesab-kitab çəkən şəxs öz eyiblərindən agah olar, etdiyi günahları başa düşər və çalışar ki, həmin günahları bir daha təkrarlamasın və qəlbini həmişə pak və təmiz saxlasın. Nəfslə hesab-kitab aparmağın digər bir faydası belədir ki, insanın xoşbəxt olmasına səbəb olar. Yəni xoşbəxtliyin qapısının açarı məhz nəfslə hesab-kitab çəkməkdədir.

قَالَ عَلِيّ(ع): مَن حَاسَبَ نَفسَهُ سعِد

---

[1] Mizanül-hikmə, hədis-3849.
[2] Mizanül-hikmə, hədis-3850.

-Həzrət Əli(ə) buyurur: "Öz nəfsinin hesabına yetişən şəxs xoşbəxt olar."[1]

Hər kəs nəfsi ilə hesab-kitab çəkməsə, xoşbəxtlik evinə necə daxil ola bilər? Halbuki bu qapının açarı nəfslə hesab-kitab etməkdədir. Məsələn, bir insan qırx yaşında tövbə edib Allah yoluna qədəm qoyur. Onun yaşından həddi-büluğ dövrünü çıxdıqdan sonra yerdə qalan hissəsinin hesabını da verməlidir. Qılmadığı namazların qəzasını qılmalı, tutmadığı orucların qəzasını tutmalıdır. Bir sözlə desək, qəza olmuş əməllərini bərpa etməlidir. Belə deyil ki, insan bir ömür səhv yol getdikdən sonra peşman olsun, lakin geri qayıtmasın.

Məsələn, Lənkərana getmək istəyən bir sürücü üzü Qubaya tərəf hərəkət edir. Yolun yarısında başa düşür ki, səhv gəlib. Bu sürücü nə etməlidir? Yolu səhv getdiyi üçün peşman olub olduğu yerdə dayanmalıdır, yoxsa peşman olduqdan sonra geri hərəkət etməlidir? Aydın məsələdir ki, yolu səhv gedən şəxs başa düşdükdən sonra səhv getdiyi yolu qayıdıb gəlməlidir. Beləliklə, əgər bir insan ömrünün yarısında düz yolda olmadığını başa düşüb peşman olarsa, nə etməlidir? Sadəcə peşmançılığın insana faydası olmaz. Gərək həmin müddət ərzində yerinə yetirmədiyi vacib əməlləri yerinə yetirsin. Bunun üçün keçmiş günlərin hesabına yetişməlidir. Özü üçün proqram hazırlayıb həm bu gündən etibarən yerinə yetirməli əməlləri, həm də etmədiyi əməlləri yerinə yetirməlidir. Əgər iyirmi beş il namaz qəzası varsa, qərar qəbul edib hər gün bir günün qəzasını da qılsın. Öz-özünə fikirləşsin ki, görəsən bundan sonra iyirmi beş il yaşayacaq, ya yox. Bunun üçün gündə iki günün qəza namazını qılmalıdır. Allaha ümid bağlayıb təvəkkül edərək şəri borclarını yerinə yetirməlidir. Lakin bir məsələ də onu

---

[1] Mizanül-hikmə, hədis-3854.

narahat etməlidir ki, birdən qəzaların hamısını qılıb qurtarmağa ömür vəfa etmədi. Bu kimi fikirlərlə başlayıb keçmişdə etmədiyi vaciblərini yerinə yetirməlidir. İnsanın bu düşüncə və hərəkətinə mühasibə deyilir. Yəni insan öz nəfsi ilə hesab-kitab çəkir və nöqsanlarını aradan qaldırmağa çalışır. Belə olmamalıdır ki, günü-günə satıb, qəzalarının fikrində olmasın.

İnsan doğru yolu tapıb etdiyi əməllərdən və günahlardan peşman olduqdan sonra mütləq keçmişdəki nöqsanlarını düzəltməlidir. Əgər o, bu işlərə əhəmiyyət verməsə, əməlləri yerinə yetirməkdə səhlənkarlıq etsə, bu, çox pis şeydir. Məsələn, birisi tanış bir adamdan iki ay müddətinə qaytarmaq şərtilə min manat borc istəyir. Ona həmin pulu verirlər. Lakin üstündən dörd-beş ay keçməsinə baxmayaraq, o, pulu qaytarmır. Borcu qaytarmamaq iki cür olur. Biri budur ki, həqiqətən də imkanın yoxdur və əlinə düşdükcə qaytarmağa cəhd göstərirsən. Borc verən şəxs görsə ki, pulu alan insan borcu qaytarmaq üçün çalışır və əlindən gələni edir, onu çox incitməz. İkincisi isə borc alıb qaytarması üçün qətiyyən narahat olmur və etinasızlıq edir. Əlinə pul düşdükcə aparıb başqa yerlərdə xərcləyir, amma borcunu qaytarmağı heç vecinə də almır. Borcu qaytarmaqda etinasızlıq etmək çalışıb qaytarmaqdan daha ağırdır. Bura görə insan istər maddi, istərsə də mənəvi borcları qaytarmaqda nigarançılıq çəksin. Əgər bir insanın iyirmi il qəza namazı varsa, əlini qulağının dibinə qoyub etinasızlıq etməməlidir. Bunun üçün çalışmalı, qəzaları üçün vaxt ayırmalı və bu işə ciddi şəkildə yanaşmalıdır. Belə olduqda əgər ömür vəfa etməsə, Allah-təala Öz mərhəmətini həmin şəxsdən əsirgəməz.

Buna görə də insan həmişə özündən hesab-kitab çəkməlidir. Bütün əməllərini qarşısına qoyub əyər-əskiyini düzəltməlidir. Cahillik dövründə əldə etdiyi haram pulların

hesabını, yerinə yetirmədiyi vaciblərin hesabını çəkməli, kiminsə haqqı boynunda qalıbsa, onunla halallaşmalıdır. Kimin haqqını yeyibsə, aparıb qaytarmalı və üzr diləməlidir. Bir sözlə desək, həm camaatın, həm də Allahın haqqını ödəmək üçün hesab-kitab aparmalı və əməli surətdə də yerinə yetirməlidir. Belə olduqda insan xöşbəxtliyin açarını əldə edə biləcək.

Mühasibənin faydalarından biri də qiyamət gününün zillətindən nicat tapmaqdır. Yəni hər kəs dünyada hesab-kitabını düzəltsə, qiyamət günü xar olmaz. Quranın ayələrinə əsasən, qiyamət günü bəzi insanlar təəssüfdən əllərini çeynəyəcək. Onlar dünyada olan zaman qiyamətin qopacağına və hesab-kitab olacağına inanmırdılar. Elə bilirdilər ki, bütün bunlar yalan imiş. Amma qiyamət gününü gördükdə sonra çox peşman olacaq və təəssüfdən əllərini çeynəyəcəklər. Dünyada öz nəfsi ilə hesab-kitab çəkən insan qiyamət günü çətinliyə düşməyəcək. Çünki artıq öz hesab-kitabını düzəltmiş və özünü sorğu-suala tam hazır vəziyyətə çatdırmışdır. Belə olduqda qiyamət gününün hesab-kitabı onun üçün çox asan olacaqdır.

## Qiyamət gününün sualları

Burada çox yaxşı olar ki, qiyamət gününün sualları barədə azacıq da olsa söz açaq. Bilməliyik ki, qiyamət günü insandan necə sorğu-sual olunacaq və əvvəlcə nəyin barəsində soruşulacaq. Əlbəttə, qeyd etməliyəm ki, bu barədə çoxlu Quran ayələri və hədislər mövcuddur. Hamısını bu mövzumuza sığışdırmaq mümkün olmadığından onlardan bir neçəsinə işarə edəcəyik. Həm də bu barədə söhbət açası olsaq, gərək ilk növbədə qiyamətin özü barədə geniş bəhs

edək. Əsas bəhsimizdən kənar düşməmək üçün sadəcə bir neçə cümlə ilə izah etməyimiz kifayət edər. Hədislərdə belə nəql olunur ki, insan dünyasını dəyişdiyi gündən onun qiyaməti başlanır. Lakin qiyamətin müxtəlif mərhələləri vardır. Həmin mərhələlərdən biri bərzəxdir ki, insanın ruhu ora pərvaz edir. Qəbirdə insandan müəyyən suallar soruşulacaq. Qiyamət günü isə bütün ölənlərin hamısı qəbirlərdən qalxıb sorğu-sual olunmaq üçün məhşərə gətiriləcək. Qiyamət günündə müxtəlif dayanacaqlarda sorğu-sual aparılacaq. Biz burada insandan ilk növbədə hansı məsələdən və hansı əməldən soruşulacağı barədə söz açmaq istəyirik.

İnsan dünyasını dəyişən zaman qəbirdə aparılacaq sorğu-sualda insanın əməlindən yox, əqidəsindən soruşulacaq. Əgər diqqət etsəniz görərsiniz ki, meyiti qəbirə qoyduqdan sonra onun üçün müstəhəb olaraq təlqin oxunur. Həmin təlqində də heç bir əməldən ad çəkilmir. Qəbirdə yalnız əqidə məsələləri ilə bağlı söhbət aparılır. İnsan rəbbi, peyğəmbəri, imamı, kitabı, qibləsi və s. əqidə prinsipləri ilə bağlı sorğu-sual edilir. Qəbirdə insanın əməlindən sorğu-sual olunmamasının səbəblərindən biri budur ki, hələ o insanın əməli sona çatmayıb. İnsan dünyasını dəyişən kimi ixtiyarı əlindən çıxır. Öz-özlüyündə heç bir iş görə bilmir. Lakin dünyada olan zaman hansısa xeyirxah, yaxud pis işin təməlini qurub gedibsə, həmin işlər onun üçün hesab olunur. Mümkündür ki, insan dünyadan köçəndən sonra onun övladı xeyir bir əməli onun üçün göndərmiş olsun. Həmçinin körpü tikdirmiş, su quyusu qazdırmış, ağac əkmiş, alim övladlar böyütmüş bir insan dünyadan getdikdən sonra da həmin savablar onun üçün göndərilir. Nə qədər ki, insanlar və heyvanlar onun qazdığı quyunun suyundan istifadə edirlər və əkdiyi ağaclardan bəhrələnirlər, onların hamısının savabı həmin şəxsin hesabına yazılır. Mümkündür ki, onun övladı

həqiqi alim olub, bir neçə şagird də hazırlaşdırsın. Onların bu əməllərinin savabı da onun üçün yazılır.

Həmçinin pis işlərin, şeytani əməllərin və nifaqın təməlini qoyub gedibsə, insanlar nə qədər ki, onun qurduğu işləri görürlər, qiyamətə qədər onların cəzasından da həmin şəxsə pay düşür. Deməli, əməllər tam qurtarmadığı üçün qəbirdə insan əməllərindən sorğu-sual olunmur. Orada yalnız insanın etiqadından soruşulur. Çünki insan hansı əqidə ilə dünyadan gedirsə, gördüyü heç bir iş qəbirdə onun əqidəsinə təsir göstərə bilməyəcək. Məsələn, müşrik halda dünyadan gedibsə, əkdiyi ağaclar və digər xeyirxah işlər onun əqidəsini dəyişməyəcək. Ölməklə insanın etiqad və əqidəsi də qurtarır, əməlləri isə davam edir.

Qiyamət gününə gəldikdə isə müxtəlif mənzil və dayanacaqlarda müxtəlif suallar soruşulacaq. Qurani-Kərimdə bizim üçün qiyamətin mərhələləri və sualları çox gözəl şəkildə açıqlanıb bəyan olunmuşdur. Əlbəttə, bir daha qeyd etməliyəm ki, bütün bunlar çox uzun söhbətlərdir ki, bu barədə xüsusi bir mövzu açıb geniş bəhs etmək olar. Burada bilməyimiz çox yaxşı olar ki, qiyamət günü bizdən ilk növbədə haradan başlanacaq və hansı suallar barədə soruşulacaq.

Qiyamət gününün sahibi şəxsən Allahın Özü olacaq. Qiyamət günündə heç bir peyğəmbərin, imamın və övliyanın ixtiyarı yoxdur. Kimə ixtiyar veriləcəksə, Allah ona ixtiyar verəcək. Yəni orada ixtiyar sahibi yalnız Allahın icazə verdiyi şəxslər olacaqlar. Allah öz haqqını istədiyi kəsə verəcək. Heç bir kəs irad tuta bilməz ki, nə üçün Allah ixtiyar və haqqını kiməsə verir? Hakimi mütləq Allahın Özüdür və kimə icazə və izn verirsə, bu Onun haqqıdır. Dünyada bir insan öz malından kiməsə pay ayırırsa, kim onun qarşısını kəsə bilər? Kim ona deyə bilər ki, nə üçün filan malını qonşuya verirsən? Mal onundur və özü bilər ki,

kimə verir. Odur ki, qiyamət günü başlandıqda Allah Öz haqqını kiməsə verə bilər. İlk növbədə peyğəmbərlərə ümmətlərinə şəfaət etmək üçün imkan verəcək. Şəhidlərə şəfaət etmək üçün icazə veriləcək. Həmçinin təqvalı və imanlı alimlərə şəfaət etmək üçün imkan yaradılacaq.

Hədislərdə belə nəql olunmuşdur ki, bir alimlə bir abid cənnətə getmək istəyərlər. Abidi cənnətə yola salarlar, amma alimi saxlayarlar. Alim deyər: Bəs məni nə üçün cənnətə buraxmırsınız. Deyərlər: Çünki sən alimsən. Dünyada sənin millətin, ümmətin və ardınca düşənlər olub. Sənə onlara şəfaət etmək üçün icazə verilir. Onlara şəfaət etdikdən sonra birlikdə cənnətə daxil olun.

Əlbəttə, bu, o alimlər barədədir ki, elmi ilə yanaşı, təqvalı, nurani və elminə əməl etmiş olsunlar. Bu məsələ hoqqabaz, hiyləgər, nəfsinin düşkünü, elmini dünyasına vasitə etmiş və təqvasız alimlərə aid deyil. Alim odur ki, öz elminə əməl etsin, Allahdan qorxsun, təqvalı olsun. Belə alimlərin bir damla mürəkkəbi şəhidin qanından üstündür. Belə alimlərdən birini hansı qəbiristanlıqda dəfn etsələr, Allah onun ehtiramına xatir həmin qəbiristanlıqda dəfn olunanların hamısını bağışlayar. Həmçinin qiyamət günü belə bir alimə öz əhlinə şəfaət etməyə imkan veriləcək.

Odur ki, qiyamət gününün sahibi olan Allah müəyyən kəslərə şəfaət etmək üçün icazə və ixtiyar verəcək. Bütün şəfaət edənlərin başında Xanım Fatimeyi Zəhra(s.ə) olacaq. Cənnətin də ixtiyarını Həzrət Əliyə(ə) verəcək. Əli(ə) kimdən razıdırsa, Allah da razıdır. Həzrət Əlinin(ə) adlarından biri də “cənnətlə cəhənnəmi ayırandır.”

Allah-təala “Saffat” surəsinin 24-cü ayəsində buyurur: “Qiyamət günü insanlar sirat körpüsündən keçərkən bir nida eşidiləcək:

وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ

-Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar.”

Həzrət Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulallah, orada nə soruşulacaq? Peyğəmbər(s) buyurdu: "Qiyamət günü mənimlə Əli(ə) sirat körpüsünün üstündə dayanacağıq. Körpünün üzərindən keçən hər bir kəslə söhbət edəcək və ondan Əlinin(ə) vilayəti barədə soruşacağıq."

Yəni hər kimsədə Əlinin(ə) vilayəti varsa, körpüdən keçmək üçün icazə vərəqəsi qazanacaq. Hər kəs Əlinin(ə) vilayətini qəbul etməyibsə, ona cənnətə getmək üçün icazə verilməyəcək. Deməli, qiyamət günü insandan soruşulacaq ilk sual Həzrət Əlinin(ə) vilayəti barədə olacaq.

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): اَوّلُ مَا يُسأَلُ عَنهُ العَبدُ حُبُّنَا اَهلَ الْبَيت

-Qiyamət günü bəndələrdən soruşulacaq ilk sual biz əhli-beytin məhəbbətidir.[1]

قَالَ الصَّادِقُ(ع): اِنَّ اَوَّلَ مَا يُسأَلُ عَنهُ العَبد اِذَا وَقَفَ بَينَ يَدَيِ اللهِ جَلَّ جَلالُه عَن الصَلَوَاتِ الْمَفرُوضَه وَ عَنِ الزَّكَاة الْمَفْرُوضَه وَ عَنِ الصِّيَامِ الْمَفرُوض وَ عَنِ الْحَجِّ الْمَفرُوض وَ عَن وِلايَتِنَا اَهلَ الْبَيت فَإِن اَقَرَّ بِوِلايَتِنَا ثُمَّ مَاتَ عَلَيهَا قُبِلَت مِنهُ صَلاتُه وَصَومُهُ وَ زَكَاتُهُ وَ حَجُّهُ

-İmam Sadiq(ə) buyurur: “Bəndə Allah-təala qarşısında dayanan zaman ondan soruşulacaq birinci sual vacib namazlar, vacib zəkat, vacib oruc, vacib həcc və biz Əhli-beytin vilayəti barədə olacaq. Əgər bizim vilayətimiz və

[1] Mizanül-hikmə, hədis-3855.

məhəbbətimizi etiraf edərək bu dünyadan gedərsə, namazı, orucu, zəkatı və həcci qəbul olunacaq.”[1]

قَالَ الصَّادِقُ(ع): بُنِيَ الإِسلامُ عَلى خَمسَة اَشيَاء: عَلَى الصَّلاة وَالزَّكاة وَالْحَجّ وَالصَّوم وَالوِلايَة

قَالَ زُرارَة: فَأَيُّ ذَلِكَ اَفضَل؟ قَالَ: اَلوِلايَةُ اَفضَل لِأَنَّهَا مِفتَاحُهُنَّ وَ الوَالِي هُو الدَلِيلُ عَلَيهِنَّ.

-İmam Sadiq(ə) buyurdu: "İslam beş sütun üzərində möhkəmlənib: namaz, zəkat, oruc, həcc və vilayət. Zürarə soruşdu: Bunlardan hansı daha üstündür? İmam(ə) buyurdu: Vilayət daha üstündür. Çünki vilayət o birilərinin açarıdır. Və vilayət sahibi onlara yol göstərən və dəlildir."[2]

Qiyamət günü bu əsas suallardan əlavə, ümumi nemətlər barədə də sorğu-sual aparılacaq. Allah-təala “Təkasür” surəsinin 8-ci ayəsində belə buyurur:

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

-Sonra da həmin gün (Allahın əta etdiyi) nemətlər barədə mütləq sorğu-sual olunacaqsınız!

İmam Sadiqdən(ə) bu ayənin mənasını soruşduqda Həzrət(ə) belə cavab verdi:

تُسأَل هَذِهِ الأُمَّة عَمَّا أَنعَمَ الله عَلَيهِم بِرَسُولِ الله(ص) ثُمَّ بِأَهلِ بَيت عَلَيهِمُ السَّلام

[1] Mizanül-hikmə, hədis-3856.
[2] Biharul-ənvar, 82-ci cild, səh.234.

-Allahın bu ümmətə Peyğəmbər(s) və Əhli-beytə xatir verdiyi bütün nemətlərdən sorğu-sual olunacaq. (Yaxud Peyğəmbər(s) və Əhli-beyti başda olmaqla bütün nemətlər barədə bu ümmətdən sorğu-sual ediləcək.)

Həmçinin qiyamət günü insanın ömrü, cavanlığı, yığdığı mal-dövləti, qulağı, gözü, qəlbi və s. nemətlər barədə soruşulacaq.

قَالَ رَسُولُ اللهِ(ص): لَا تَزُولُ قَدَما عَبدٍ يَومَ القِيَامَة حَتّى يُسأَل عَن اَربَعَ: عَن عُمرِهِ فِيمَا اَفنَاهُ وَ شَبَابِهِ فِيمَا اَبلاهُ وَ عَن مَالِهِ مِن اَينَ كَسَبَهُ وَ فِيمَا اَنفَقَهُ وَ عَن حُبِّنَا اَهلَ البَيت(ع).

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü insan qədəm götürmək istədikdə ondan 4 məsələ barədə soruşacaqlar: 1.Ömrünü harada keçirdiyini; 2.Cavanlığı necə keçirdiyini; 3.Var-dövləti, malı haradan qazanıb hara sərf etdiyini; 4.Əhli-beytin məhəbbətini."

İmam Sadiq(ə) "İsra" surəsinin 36-cı ayəsi barədə belə buyurur:

"إِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤَادَ كُلُّ أُولئِكَ كَانَ عَنْهُ مَسْؤُولاً" قَالَ: يُسأَلُ السَّمعَ عَمَّا يَسمَع وَالبَصَر عَمَّا يَطرُف وَالفُواد عَمَّا عَقَدَ عَلَيهِ

-Qulaq, göz və ürəyin hər biri sorğu-suala tutulacaqdır.(Qiyamət günü) qulaqdan eşitdikləri, gözdən ətrafında gördükləri, qəlbdən nəyə bağlandığı (məhəbbət bəslədiyi) barədə sorğu-sual ediləcək.[1]

Peyğəmbərdən(s) belə nəql olunur ki, qiyamət günü hər kəs öz sevdiyi ilə gələcək. Yəni kim nəyi, yaxud kimi sevirsə, qiyamət günü onunla birgə məhşərə gətiriləcək.

[1] Mizanül-hikmə, hədis-3867.

Digər hədislərdə nəql olunur ki, hətta insan əgər bir daşa məhəbbət bağlayarsa, qiyamət günü həmin daşla birgə məhşərə gətiriləcək. Həmin gün haqqa məhəbbəti olan haqq ilə, batilə məhəbbəti olan isə batillə məşhur olacaq.

Ənəs ibn Malik deyir: “Günlərin birində bir nəfər köçəri ərəb Peyğəmbərin(s) hüzuruna gəldi və ərz etdi: Ya Rəsulallah, qiyamət nə vaxt olacaq? Elə bu zaman azan verildi. Namaz vaxtı yetişdiyi üçün Peyğəmbər(s) ona cavab vermədi və qalxıb namaza başladı. Namaz qurtardıqdan sonra Həzrət(s) üzünü camaata tutub buyurdu: Qiyamət barədə soruşan kim idi? Həmin ərəb dedi: Ya Rəsulallah mən idim. Həzrət(s) ondan soruşdu: Qiyamət üçün özünə nə hazırlamısan? Ərəb dedi: Namazım, orucum, Sənə və Əhli-beytinə olan məhəbbətim. Bundan başqa əlimdə bir şey yoxdur. Həzrət Peyğəmbər(s) buyurdu: "Hər kim kimi sevirsə, qiyamətdə də onunla olacaq."

Ənəs ibn Malik deyir: “İslam gəldikdə insanlar nə qədər sevinmişdilərsə, Peyğəmbərin(s) bu kəlamını eşitdikdə onlar daha çox sevindilər.”[1]

## Qiyamət günü barəsində sorğu-sual aparılmayacaq nemətlər

Qeyd olundu ki, qiyamət günü insanın bütün əməllərindən və ona verilən bütün nemətlərdən sorğu-sual ediləcək. Lakin bir sıra istisna hallar vardır ki, bəzi əməllər barədə insandan hesab soruşulmayacaq. Məsələn, bir müəllim dərs deyir və ilin axırında tələbələrdən imtahan götürür. Kim müəllimin imtahan götürməsinə qarşı etiraz edə bilər? Allah-təala

---

[1] Mizanül-hikmə, hədis-3204.

insanlara müxtəlif nemətlər vermişdir və qiyamət günü verdiyi bütün nemətlər barədə sorğu-sual edəcək. Amma bir neçə nemət vardır ki, Allah-təala onları istisna edir. Burada çox yaxşı olar ki, həmin nemətlərlə tanış olaq:

1.Qiyamət günü Allah yolunda xərclənən puldan, yeməkdən və s. əməllərdən sorğu-sual edilməyəcək. Əgər bir insanın bütün ömrü, malı, cavanlığı və ona verilən başqa nemətlər Allah yolunda sərf olunarsa, qiyamət günü həmin şəxsdən sorğu-sual olunmaz. Hər kəs Allah yolunda hər nə qədər xərcləyərsə, xərclədiyi miqdar barədə ondan soruşulmayacaq. Əlbəttə, qeyd olunmalıdır ki, həmin şəxsin qazancı halal yolla əldə edilmiş olsun. Haram qazanc və gəlirin Allah yolunda paylanmasına savab verilməz. Qiyamət günü insanın halalından sorğu- sual aparılacaq, haramına isə əzab veriləcək.

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّ نَعِيمٍ مَسئُولٌ عَنهُ يَومَ القِيَامَةِ اِلّا مَا كَانَ فِى سَبِيلِ اللهِ تَعَالى

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü Allah yolunda xərclənən və sərf olunan nemətlərdən başqa, bütün digər nemətlər barədə sorğu-sual olunacaq.”[1]

2.Qiyamət günü barəsində sorğu-sual olunmayan nemətlərdən ikincisi Həcc yolunda xərclənib sərf olunan pul və maldır. Məsələn, bir nəfərə Həcc ziyarəti vacib olur. Pasportunu götürüb Həcc ziyarətinə getmək üçün qeydiyyatdan keçməyə hazırlaşır. Bu yolda hər nə qədər pul xərcləyirsə, hətta taksiyə pul verirsə və Həccə gedib qayıdana qədər xərclədiyi pullar barədə sorğu-sual olunmayacaq. Əlbəttə, həmin xərclərin hamısı halal olmalı

---

[1] Mizanül-hikmə, hədis-2857.

və halal işlər üçün sərf edilməlidir. Hətta Həcc ziyarətindən kiməsə sovqat və ya hədiyyə gətirilmiş olsa, həmin xərclərdən də sorğu-sual olunmayacaq. Ona "Hacı" desinlər deyə Həccə gedən insanın ziyarəti qəbul olunmaz və onun bu yolda xərclədiyi də hesab-kitab olunar. Həcc çox mühüm məsələlərdəndir. Bu ziyarəti edən insan mütləq onun hər bir əməlinə də dəqiq riayət etməlidir. Əgər insan həqiqətən xalis niyyətlə və sırf Allahın əmrini yerinə yetirməkdən ötrü Həccə gedərsə, qiyamət günü onun bu yolda xərclədiyi pullar barədə hesab-kitab aparılmayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّ نَعِيمٍ مَسئُولٌ عَنهُ صَاحِبُهُ اِلّا مَا كَانَ فِي سَبِيلِ الْحَجّ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü Həcc yolunda xərclənən və sərf olunan nemətlərdən (mallardan) başqa bütün nemətlər barədə sorğu-sual olunacaq."[1]

3.Qiyamət günü cihad yolunda xərclənən pullar və mal barədə sorğu-sual olunmayacaq. Əgər insan cihad yolunda pul xərcləyib, ömür sərf edibsə, qiyamət günü xərclədiyi həmin puldan və sərf etdiyi həmin ömürdən sorğu-sual olunmayacaq. Bu şərtlə ki, onun həmin əməli ixlasla və sırf Allaha xatir olmuş olsun. Cəbhəyə gedərkən Allahdan başqa heç bir kəsi niyyətində tutmasın.

İmam Səccad(ə) buyurur: "İki nəfər (öz dinini, namusunu, vətənini və torpağını) qorumaq üçün cəbhəyə yola düşür. Onlardan biri sırf Allaha xatir, Onun əmrini yerinə yetirmək üçün niyyət edir. Digəri isə niyyət edir ki, döyüşdə şöhrət qazansın və adını tarixə qəhrəman kimi yazdırsın. Onlar eyni cəbhədə döyüşür və təsadüfən ikisi də müharibədə həlak

[1] Mizanül-hikmə, hədis- 2858.

olurlar. Biri cənnətə, o biri isə cəhənnəmə daxil olur. Cəhənnəmə gedən deyir: İlahi, axı biz ikimiz də bir yerdə evdən çıxıb döyüşə getmişdik. Hər ikimiz eyni cəbhədə həlak olmuşuq. Nə üçün onu cənnətə, məni isə cəhənnəmə atırsan? Allah-təala buyurur: Çünki o, yalnız mənə xatir niyyət edib döyüşə getdi. Amma sən qəhrəmanlıq naminə, adın camaat arasında dillər əzbəri olması üçün getdin. Hər ikiniz arzu və istəyinizə çatdınız. Sən həlak oldun, adın tarixə qəhrəman kimi yazıldı və camaat səni bir döyüşçü kimi tanıdı. Sən özünü o qiymətə satdın və həmin qiyməti də qazandın. Amma o, yalnız və yalnız Mənə xatir döyüşüb şəhid oldu. Buna görə də onun qiymətini Mən Özüm verəcəyəm".

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّ نَعِيمٍ مَسئُولٌ عَنهُ صَاحِبُهُ اِلّا مَا كَانَ فِى غَزوٍ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü cəbhədə xərclənən və sərf olan nemətlərdən (mallardan) başqa bütün nemətlər barədə sorğu-sual olunacaq."[1]

4.Qiyamət günü barəsində sorğu-sual olunmayan nemətlərdən biri də "bismillah" deyib yeyilən nemətlərdir. Yəni insan süfrədə əyləşdiyi zaman "bismillah" deyib yeməyə başlayarsa, "Bismillah" sözünün hörmətinə xatir həmin süfrədə yeyəcəyi bütün nemətlərdən sorğu-sual olunmayacaq.

قَالَ عَلِيّ(ع): مَن ذَكَر اسمَ اللهِ عَلى الطَّعَام لَم يُسأَل عَن نَعِيم ذَلكَ الطَّعام اَبدًا

---

[1] Mizanül-hikmə, hədis-2858.

-Həzrət Əli(ə) buyurur: “Hər kəs xörək yeyən vaxt Allahın adını çəkərsə, heç vaxt o təamın neməti barədə sorğu-sual olunmayacaq.”[1]

Məlum məsələdir ki, süfrənin və yeməyin ən əsas şərti halal olmasıdır. Əgər insanın yediyi halal olmasa, nə qədər “bismillah” desə də xeyri olmayacaq. Lakin halal süfrə kənarında əyləşib Allahın adını çəkərək yeməyə başlasa, həmin kəlmənin hörməti xatirinə yediyi yeməklər barədə sorğu-sual olunmayacaq. Çünki “bismillah” kəlməsi Allahın adıdır.

[1] Mizanül-hikmə, hədis-2859.

## Buşr Hafinin hekayəsi

Buşr Hafi İmam Museyi Kazimin(ə) zamanında yaşayan imkanlı bir şəxs idi. Onun sərvəti başından aşırdı. O, əvvəllər çox pis və azğın bir insan olmuşdu. Elə bir günah yox idi ki, etməsin. Hər gün öz evində musiqi çaldırar və rəqqasələr oynadardı. Lakin sonda Allahın ən sevimli bəndələrindən birinə çevrildi. Onun hekayəsi belədir:

-Günlərin birində yolla gedərkən gözü yerdə palçığa bulaşmış kağız parçasına sataşdı. Əyilib həmin kağızı yerdən götürdü. Diqqətlə baxıb gördü ki, onun üzərində “Bismil-lahir-Rəhmanir-Rəhim” kəlməsi yazılıb. Kağızı evə aparıb palçığını yuyub təmizlədi və öpüb pak bir yerə qoydu. Həmin gecə yatıb bir yuxu gördü. Yuxuda ona dedilər ki, sən Allahın kağız üzərinə yazılmış adını palçığa bulaşmağa qoymadın. Hörmət və ehtiramla onu götürüb evə apardın, təmizlədin və pak yerdə saxladın. Sənin bu əməlinə görə biz də sənin ruhunu təmizləyib nicat verəcəyik. Səhər yuxudan ayıldı və həmişəki kimi eyş-işrət, çalıb oynamağa başladı. Onun evində çalınan musiqinin səsi küçəyə çıxırdı. Qulluqçu evin zibillərini yığıb aparıb atmaq üçün küçəyə çıxdı. Qapıdan təzəcə aralanmışdı ki, çox nurani bir seyidlə qarşılaşdı. Həmin seyid qulluqçudan soruşdu: Bu evin sahibi ağadır, yoxsa quldur? Qulluqçu dedi: Əlbəttə ki, ağadır. Həmin seyid buyurdu: Görünür, əgər qul olsaydı, ağasının icazə vermədiyi işləri görməzdi. Bu sözləri deyib yoluna davam etdi. Qulluqçu zibilləri atıb evə qayıtdı. Buşr onun nə üçün gec gəldiyini soruşduqda, o dedi: Yolda bir nəfər nurani seyidlə qarşılaşdım. O, məndən bu evin sahibinin ağa, yaxud qul olduğunu soruşdu. Mən də dedim ki, evin sahibi ağadır. O, mənə dedi: Görünür, əgər qul olsaydı, ağasının icazə vermədiyi işləri görməzdi. Buşr bu sözləri eşidən kimi

sanki yuxudan ayıldı. Sözlər onun qəlbinə böyük təsir göstərdi. Tez yerindən qalxıb ayaqyalın küçəyə çıxdı və həmin seyidin arxasınca qaçmağa başladı. Yaxınlaşdıqda gördü ki, həmin seyid Musa ibn Cəfərdir(ə). Salamlaşıb ərz etdi: "Ey Allahın höccəti, mən Allahdan və səndən üzr istəyirəm. Bəli, mən Allahın qulu olmuşam və indi də Onun quluyam. Sadəcə öz bəndəliyimi unutmuşdum. Sizin qarşınızda tövbə edirəm və Allahdan günahlarımın bağışlanmasını diləyirəm."

Buşr Hafi həmin gündən etibarən bütün günahlardan əl çəkdi və Allahın ən yaxşı bəndəsinə çevrildi. Onun ləqəbi ona görə Hafi qoyuldu ki, ayaqyalın İmamın(ə) ardınca qaçıb üzr dilədi və tövbə etdi.

## Qiyamət gününün hesabını asanlaşdıran amillər

Qiyamət günü bəzi insanların hesabını yüngül, bəzilərinin hesabını isə çətin tutacaqlar. Burada ilk növbədə axtarış aparıb görək ki, insanın hesabını asan və yüngül tutmağın mənası nədir? Sonra isə hesabı yüngülləşdirən amillərlə tanış olarıq.

Ümumiyyətlə, hesab-kitab çəkmək iki cür olur. Həyatda hər bir insan bu iki cür hesab-kitabdan istifadə edə bilər. Məsələn, bəzən insan evdə və yaxud idarədə işçilərlə yüngülvari hesab çəkir, bəzən də elə olur ki, müəyyən işləri çətin tutur. Qiyamət günündə də insanların hesab-kitabı belə olacaq. Bəzilərindən yüngülvari sorğu-sual edib buraxacaqlar. Bəzilərindən isə çox çətinliklə və ciddi şəkildə hesab alınacaq. Burada çox yaxşı olar ki, qiyamət günü insanın hesabının asan və çətin olmasının mənası ilə tanış olaq.

قَالَ رَسُولُ اللَهِ(ص): كُلُّ مُحَاسَبٍ مُعَذَّبٌ. فَقَالَ لَهُ قَآئِلٌ: يَا رَسُولَ اللَهِ! فَأَيْنَ قَوْلُ اللَهِ عَزَّوَجَلَّ: فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا؟! قَالَ(ص): ذَاكَ الْعَرْضُ؛ يَعْنِي التَّصَفُّحَ!

-İmam Baqir(ə) buyurur: "Allahın Rəsulu (s) buyurdu: "Haqq-hesabı aparılan şəxs əzab çəkəcək." Bir nəfər Həzrətə(s) ərz etdi: "Ey Allahın Rəsulu! Bəs, Allah-təalanın bu sözü necə olsun: "….haqq-hesabları asan olacaq." Allahın Peyğəmbəri(s) buyurdu: "Bu təqdim etmək və vərəqləməkdir." (Yəni sorğu-sual deyil.)

Deməli, qiyamət günü hesab-kitabın asan çəkilməsi insanın əməl dəftərini vərəqləyib özünə qaytarmaqdır. Yəni onun əməlləri barədə çox dərinə getmədən, gözucu baxmaqla yola salmaq mənasındadır. Əgər insanın bütün əməllərini dəqiqliklə yoxlasalar və ondan hər bir incəliyə qədər sorğu-sual etsələr, əlbəttə ki, o, əzaba məhkum olar. Məsələn, məktəbdə müəllim şagirddən ciddi şəkildə imtahan götürmək istəsə, ona elə suallar verər ki, çaşbaş qalıb bildiklərini də yadından çıxarar. Amma şagirddən yüngülvari imtahan aldıqda, göz yumaraq kitabı vərəqləyib bir iki sual soruşmaqla kifayətlənər. Qiyamət günündə də Allah-təala bəzi insanlardan beləcə hesab çəkəcək. Yəni əslində bu hesab çəkmək deyil.

قَال رَسُولُ اللهِ(ص): اِنَّ الْحِسَابَ اليَسِير هُو الإثَابَة عَلَى الْحَسَنَات وَالتَّجَاوُز عَنِ السَّيِّئَات. وَ مَن نُوقِشَ فِي الْحِسَاب عُذِّبَ

-Həzrət Peyğəmbər(s) buyurdu: "(Qiyamət günü hesab-kitabın asan olmasının mənası budur ki,) yaxşı əməllərinə savab veriləcək, günahlarına isə göz yumulacaq. Amma hər

kəsin sorğu-sualı ciddi şəkildə alınarsa, mütləq əzaba düçar olar."[1]

Odur ki, biz dualarımızda belə münacat edirik: "İlahi, qiyamət günü bizdən Öz kərəm və rəhmətinlə hesab-kitab çək. Ədalətinlə bizi sorğu- suala çəkmə. Çünki Öz ədalətinlə bizdən hesab alsan, biz bu imtahandan çıxa bilməyəcəyik."

Qiyamət günü hesab-kitabın asan çəkilməsinin bir mənası da belədir: "Qiyamət günü bütün insanlar qəbirlərdən ayağa qalxacaq. Mömin insan qəbirdən qalxarkən kənarında bir kölgənin olduğunu görəcək. Həmin kölgə addım-addım onu izləyib çətin anlarda ona təsəlli və ürək-dirək verəcək. Qiyamət günü çox dəhşətli və qorxulu bir gün olduğu üçün həmin kölgə Allahın mömin bəndəsinə yardım göstərəcək."

قَال الصَّادِق(ص): إِذَا بَعَثَ اللَّهُ الْمُؤْمِنَ مِنْ قَبْرِهِ خَرَجَ مَعَهُ مِثَالٌ يَقْدُمُ أَمَامَهُ كُلَّمَا رَأَى الْمُؤْمِنُ هَوْلًا مِنْ أَهْوَالِ يَوْمِ الْقِيَامَةِ قَالَ لَهُ الْمِثَالُ لَا تَفْزَعْ وَ لَا تَحْزَنْ وَ أَبْشِرْ بِالسُّرُورِ وَ الْكَرَامَةِ مِنَ اللَّهِ عَزَّ وَ جَلَّ حَتَّى يَقِفَ بَيْنَ يَدَيِ اللَّهِ عَزَّ وَ جَلَّ فَيُحَاسِبُهُ حِسَاباً يَسِيراً

-İmam Sadiq(ə) buyurur: "Allah-təala (qiyamət günü) mömini qəbirdən qaldıran zaman qəbirdən bir kölgə də onunla birgə qalxacaq və addım-addım onu izləyəcək. Qiyamətin vəhşətli anlarını gördükdə həmin kölgə ona (təsəlli verərək) deyəcək: "Qorxma və qəmgin olma, səni şadlıq və Allahın mərhəməti ilə müjdələyirəm." Hesab-kitaba gəldikdə isə Allah-təala onun hesabını asanlaşdırar.[2]

[1] Mizanül-hikmə, hədis-3870.
[2] Mizanül-hikmə, hədis-3881.

Qiyamət günü elə bir gündür ki, onun əzəmət və qorxusundan uşaqların saçı ağaracaq. Mömin qiyamət səhnəsini gördükdə kənarında olan kölgə onu narahat olmağa qoymayacaq. Hesab-kitab olunan dəqiqəyə qədər hər bir çətin məqamda ona təsəlli verəcək. Sorğu-sual zamanı isə həmin möminin kitabını gözucu vərəqləyib özünə təqdim edəcəklər. Beləliklə, o günün sorğu-sualından asanlıqla keçib gedəcək.

İndi isə burada baxıb görək, qiyamət günü hansı insanın hesab-kitabı asan olacaq? Başqa sözlə desək, hansı əməllər səbəb olar ki, qiyamət günü insanın hesab-kitabını asanlaşdırar? Burada çox yaxşı olar ki, Peyğəmbər(s) və məsum imamların kəlamından istifadə edərək həmin amillərlə tanış olaq.

## 1. Sileyi-rəhm

Qiyamət günü insanın hesab-kitabını asanlaşdıran amillərdən biri "sileyi-rəhm" etməkdir. "Sileyi-rəhm" odur ki, insan öz qohum-əqrəbasına baş çəksin, onlardan hal-əhval tutsun. Yəni qohumluq əlaqəsini kəsməsin. Hər kəs qohum-əqrəbasına baş çəksə, onları yad etsə və onlarla mehriban olub yaxşılıq etsə, qiyamət günü həmin şəxsin hesab-kitabını asan tutarlar.

قَالَ الصَّادِقُ(ع): اِنَّ صِلَةَ الرَّحِم تُهَوِّنُ الْحِسَابَ يَومَ القِيَامَة. ثُمَّ قَرَأَ: الَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ سُوءَ الحِسَابِ.

-İmam Sadiq (ə) buyurur: "Sileyi rəhm qiyamət gününün hesabını asanlaşdırar." Sonra bu ayəni oxudu: "O kəslər ki, Allah-təala birləşməyinə əmr verdiyi şeyləri birləşdirir, öz

Rəbblərindən qorxur və (qiyamət günündə) hesabın çətinliyindən ürəklərində xof vardır.”[1]

## 2. Qane olmaq

Qiyamət günü insanın hesabını yüngülləşdirən amillərdən ikincisi dünya malından halal və az miqdara qane olmaqdır. Yəni Allah-təala insana dünyada nə verirsə, ona qane olub naşükürlük etməsin. İnsanın malın azlığından xoşu gəlməməsinə baxmayaraq, bu, onun xeyrinədir. Belə ki, azın hesab-kitabı da asan olar.

قَالَ رَسُولُ اللَهِ(ص): شَيئَان يَكرَ هُهُمَا اِبنُ آدَم: يَكرَهُ الْمَوت وَالْمَوتُ رَاحَةٌ لِلمُؤمِن مِنَ الْفِتنَة وَيَكرَه قِلَّةَ الْمَال وَ قِلَّةُ الْمَال اَقَلُّ لِلحِسَابِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Adəm övladının iki şeydən xoşu gəlmir, halbuki hər ikisi onun xeyrinədir. Onlardan biri ölümdür ki, ölüm möminin rahatlığıdır. İkincisi isə malın azlığıdır ki, onun azlığı hesabın az olmasına səbəb olar.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): اِقنَع بِمَا اُوتِيتَهُ يَخِفَّ عَلَيکَ الْحِسَابُ

Digər bir hədisdə Peyğəmbər(s) belə buyurur: “Sənə verilən hər bir şeyə qane ol ki, səninlə haqq-hesab ediləndə işin asan olsun.”[3]

[1] Mizanül-hikmə, hədis-3869.
[2] Mizanül-hikmə, hədis-3880.
[3] Mizanül-hikmə, hədis-3871.

## 3. Xoşəxlaq və xoşrəftar olmaq

Qiyamət günü insanın hesab-kitabını asanlaşdıran amillərdən üçüncüsü xoşəxlaq və xoşrəftar olmaqdır. Yəni hər kəsin rəftarı, əxlaqı gözəl olarsa, hesab-kitabı da yüngül olar.

قَالَ رَسُولُ اللهِ(ص): حَسِّن خُلقَكَ يُخَفِّفِ اللهُ حِسابَكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əxlaqını gözəl et ki, Allah-təala sənin hesabını yüngül etsin."[1]

Ümumiyyətlə, xoşrəftar olan insanı hamı sevər. Xoşrəftar olmaq Allahın insana xüsusi inayətidir. Xoşrəftar insan dünyadan gedən zaman onun qəbrinin torpağı tez qazılıb hazır olar. Peyğəmbərin(s) dövründə bir nəfər dünyasını dəyişmişdi. Onun üçün külünglə qəbir qazırdılar. Lakin torpaq çox bərk olduğundan qəbir qazmaq çox çətin oldu. Peyğəmbər(s) buyurdu: "Qəbirin belə çətin qazılmasına təəccüb edirəm. Çünki dünyasını dəyişən şəxs çox xoşəxlaq və xoşrəftar bir insan idi."

## 4-6. Yaxşılıq etmək, sileyi-rəhmi kəsməmək və bağışlamaq

Qiyamət günü insanın hesabını asanlaşdıran amillərdən dördüncüsü məhrum edən kəsi məhrum etməmək, beşincisi sileyi-rəhmi kəsən şəxslə əlaqəni qırmamaq və altıncısı pislik edəni əfv etməkdir. Bu üç amil bir hədisdə gəldiyi üçün həmin hədisə diqqət yetirək:

[1] Mizanül-hikmə, hədis-3874.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاثٌ مَن كُنَّ فِيهِ حَاسَبَهُ الله حِسَابًا يَسِيرًا وَ أَدخَلَهُ الجَنَّةَ بِرَحْمَتِهِ. قَالُوا وَ مَا هِيَ يَا رَسُولَ اللهِ؟ قَالَ(ص): تُعطَى مَن حَرَمَك، وَ تَصِلُ مَن قَطَعَكَ وَ تَعفُو عَمَّن ظَلَمَكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kimdə üç xüsusiyyət olsa, Allah onun hesab-kitabını yüngülləşdirər və cənnətə daxil edər. Soruşdular: Ya Rəsulallah, onlar hansıdır? Peyğəmbər(s) buyurdu: Səni məhrum etmiş (yaxşılıq etməyən) kəsi (sənə işi düşdükdə) məhrum etməyəsən. Sileyi-rəhmi kəsmiş qohumunla sileyi-rəhmi kəsməyəsən. Sənə pislik və zülm edəni bağışlayasan."[1]

## Sorğu-sualsız cənnətə daxil olanlar

Beləliklə, Allah-təala qiyamət günü insanlardan etdiyi əməllərinə görə sorğu-sual edəcək. Lakin bəzi əməllərin sahibi olan şəxslərin hesabı yüngül və asan olacaq. Yuxarıda bu barədə müəyyən qədər söhbət etdik. Bu bəhsimizdə isə yaxşı olar ki, sorğu-sualsız cənnətə, yaxud cəhənnəmə gedən insanlar barədə söhbət edək. Yəni baxıb görək, hansı insanlardan, ümumiyyətlə, sorğu-sual olunmayacaq. İlk növbədə hesabsız-kitabsız və sorğu-sual olunmadan cənnətə gedənlərdən söz açaq. Yəni hansı əməllərin sahiblərini sorğu-sual olunmadan cənnətə aparacaqlar. Bu barədə həm Quran ayələrindən, həm də bir çox hədislərdən istifadə etmək olar. Nümunə üçün bir neçə ayə və hədisə diqqət yetirək.

[1] Mizanül-hikmə, hədis-3882.

## 1. Hər bir işdə ixlaslı olub səbir edənlər

Qiyamət günü qəbirdən qalxan kimi birbaşa cənnətə daxil olan kəslərin bir qismi hər bir işi Allaha xatir ixlasla yerinə yetirərək bu yolda səbir edən kəslərdir. Yəni Allaha xatir gördüyü işlərdə səbir edənlərdir. Allah-təala onlara həm bu dünyada, həm də axirətdə gözəl mükafat verəcəkdir. “Zumər” surəsinin 10-cu ayəsində belə buyurulur:

قُلْ يَا عِبَادِ الَّذِينَ آمَنُوا اتَّقُوا رَبَّكُمْ لِلَّذِينَ أَحْسَنُوا فِي هَذِهِ الدُّنْيَا حَسَنَةٌ وَأَرْضُ اللَّهِ وَاسِعَةٌ إِنَّمَا يُوَفَّى الصَّابِرُونَ أَجْرَهُم بِغَيْرِ حِسَابٍ

-(Mənim bəndələrimə) de: “Ey Mənim iman gətirmiş bəndələrim, Rəbbinizdən qorxun (təqvalı olun)! Bu dünyada (əməl və etiqadda) yaxşılıq edənlər üçün (həm dünyada, həm də axirətdə) gözəl mükafat vardır. Allahın yeri genişdir (əgər bir yerdə dindarlıq edə bilməsəniz, başqa bir yerə hicrət edin). Şübhəsiz, səbrlilərin mükafatları saysız-hesabsız və kamil şəkildə veriləcəkdir.”

قَالَ عَلِيّ(ع): مَن عَمِلَ لِلّهِ تَعَالى أَعطَاهُ أَجرَهُ فِى الدُّنيَا وَالآخِرَة وَكَفَاهُ الْمُهِمَّ فِيهِمَا، وَقَد قَالَ اللهُ تَعالى: "يَا عِبَادِ الَّذِينَ آمَنُوا اتَّقُوا رَبَّكُمْ لِلَّذِينَ أَحْسَنُوا فِي هَذِهِ الدُّنْيَا حَسَنَةٌ وَأَرْضُ اللَّهِ وَاسِعَةٌ إِنَّمَا يُوَفَّى الصَّابِرُونَ أَجْرَهُم بِغَيْرِ حِسَابٍ"، فَمَا أَعطَاهُمُ اللهُ فِى الدُّنيَا لَم يُحَاسِبهُم بِهِ فِى الآخِرَة.

-Həzrət Əli(ə) buyurur: ”Hər kim əməllərini sırf Allaha xatir (ixlasla) yerinə yetirərsə, Allah-təala ona həm dünyada, həm də axirətdə elə bir əcr verər (mərhəmət edər) ki, hər iki dünyada olan mühüm işləri üçün kifayət edər. Necə ki, Allah-təala buyurur: “Ey Mənim iman gətirmiş bəndələrim,

Rəbbinizdən qorxun (təqvalı olun)! Bu dünyada (əməl və etiqadda) yaxşılıq edənlər üçün (həm dünyada, həm də axirətdə) gözəl mükafat vardır. Allahın yeri genişdir (əgər bir yerdə dindarlıq edə bilməsəniz, başqa bir yerə hicrət edin). Şübhəsiz, səbrlilərin mükafatları saysız-hesabsız və kamil şəkildə veriləcəkdir." Allah-təala dünyada bu insanlara əta etdiyini, qiyamət günü hesaba çəkməz.[1]

Əgər bir insanın pak və xalis niyyətinə, təmiz əməllərinə görə Allah- təala ona bu dünyada hər nə verirsə, qiyamət günü həmin verdiyi heç bir şey barədə sorğu-sual etməyəcək. Bu insan qiyamət günü hesab-kitabsız cənnətə daxil olacaq. Çünki bu insan dünyada ixlaslı olmasına səbr etmişdir. Yəni bütün işlərini Allaha xatir görməsi üçün səbr etmişdir. Buradan görünür ki, ixlası və saf niyyəti qoruyub saxlamaq elə də asan iş deyil. Hər kəs Allaha xatir gördüyü işlərdə səbr edərsə, Allah-təala dünya və axirətin xeyrini həmin şəxsə inayət edər. Məsələn, bir nəfər süpürgəni götürüb məscidi süpürür. Lakin camaat elə başa düşür ki, oranı başqası süpürüb. Buna görə də başqasının ölənlərinə rəhmət oxuyurlar. Əgər məscidi süpürən səbr edib bu işin üstünü açmasa, etdiyi əməl sırf Allaha xatir olmuşdur. Yox, əgər dillənib desə ki, "məscidi filankəs yox, mən süpürmüşəm" deməli, Allaha xatir gördüyü işdə səbr etməmişdir. Həmçinin böyük-böyük işlər də belədir. Sırf Allaha xatir görülən işi bir özü bilməlidir, bir də Allah. Etdiyi əməllərdə niyyətinə Allahdan başqa heç bir kəsi qatmamalı və səbir etməlidir.

Tarixə nəzər saldıqda ixlaslı insanlar barədə kifayət qədər məlumat toplamaq olar. Həzrət Əli(ə) həm ixlasın, həm də səbrin bariz nümunəsi idi. Xəndək müharibəsi İslamın ən

[1] Mizanül-hikmə, hədis-3883.

ağır müharibələrindən biri idi. Müsəlmanlar Mədinənin ətrafını qazıb, düşmənin hücumunun qarşısını almaq üçün onun içərisini odunla doldurmuşdular. Düşmən ordusu xəndəyə yaxınlaşdı. Əmr ibn Əbdəvid bir neçə atlı ilə xəndəyin bu tərəfinə keçdi. Müsəlmanların qarşısında dayanıb meydana döyüşçü tələb etdi. Peyğəmbər(s) üzünü müsəlmanlara tutaraq buyurdu: "Onun cavabını kim verə bilər? Qoşundan səs çıxmadı. Həzrət Əli(ə) ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) buyurdu: "Ya Əli, sən gözlə!" Həzrət Peyğəmbər(s) bir də üzünü qoşuna tutub buyurdu: "Aranızda onunla vuruşacaq kimsə varmı?" Yenə də heç bir kəsdən səs çıxmadı. Yenə Əli(ə) irəli çıxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Peyğəmbər(s) buyurdu: "Əli, sən əyləş!" Həzrət Peyğəmbər(s) üçüncü dəfə üzünü qoşuna tutub buyurdu: "Aranızda onunla vuruşacaq kimsə varmı?" Yenə də heç bir kəs cavab vermədi. Əli(ə) üçüncü dəfə ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) Əlini(ə) çağıraraq öz əmmaməsini başından açıb Əlinin(ə) başına bağladı və belə dua etdi: "İlahi, Ühüd döyüşündə Həmzəni məndən aldın. Amma bu döyüşdə Əlini(ə) məndən alma."

Bu duadan sonra Əli(ə) meydana daxil olub, Əmr ibn Əbdəvidlə üz-üzə dayandı. Bütün tarixi mənbələrdə yazırlar ki, Həzrət Peyğəmbər(s) orada belə buyurdu: "İmanın hamısı ilə küfrün hamısı üz-üzə dayanıb."

Həzrət Əli(ə) Əmr ibn Əbdəvidlə üz-üzə dayandıqda psixoloji cəhətdən ona təsir göstərmək üçün soruşdu: "Sənin adın nədir və sən kimsən? Əmr dedi: Heç düşünməzdim ki, mənim adımı kimsə bilməsin. Mənim adım Əmr ibn Əbdəviddir. Bəs sənin adın nədir: Həzrət Əli(ə) buyurdu: Mənim adım Əli ibn Əbu Talibdir. Əmr dedi: Mən səni Əbu Talibin evində cavan vaxtlarında bir dəfə görmüşəm. Amma

mən səni öldürmək istəmirəm. Çünki sənin atanı tanıyırdım. Əli(ə) buyurdu: Amma mən səni öldürmək istəyirəm. Sonra Həzrət(ə) ona buyurdu: Eşitmişəm ki, bir gün sən Məkkədə olanda Kəbə evinin pərdəsindən tutub öz-özünlə əhd-peyman bağlamısan. And içmisən ki, hər kəs səndən üç istək istəsə, ən azı bu üç istəyin birini həmin şəxsə verəcəyəm. Əmr dedi: Bəli, bu doğrudur. Həzrət(ə) buyurdu: Mən səndən onları istəyə bilərəmmi? Əmr dedi: Sözünü de. Həzrət(ə) buyurdu: Səndən birinci istəyim budur ki, müharibədən əl çəkib gəldiyin yolla geri qayıdasan. Əmr dedi: Sənin bu istəyin mümkün olan bir şey deyil. Həzrət Əli(ə) buyurdu: İkinci istəyim budur ki, İslamı qəbul edəsən. Çünki İslam həm sənin dünyanı, həm də axirətini səadətə yetirər. İslam dinini qəbul etsən, izzətə çatarsan. Əmr dedi: Bu istəyini də qəbul etməyəcəyəm. Üçüncü istəyini de. Həzrət(ə) buyurdu: Mən piyada, sən isə atlısan. Atdan aşağı en.

Əmr ibn Əbdəvid Əlinin(ə) bu sözündən bərk hirsləndi. Çünki onsuz da atdan yerə düşəcəkdi. Əlinin(ə) bu sözünü təhqir kimi qəbul edib atdan endi və hirslə bir zərbə vuraraq atının ayaqlarını kəsib dedi: İndiyə qədər heç bir kəs məndən belə şeylər istəməmişdi. Bu sözü deyəndən sonra hücuma keçdi. Qılıncı qaldırıb möhkəm bir zərbə endirdi. Həzrət Əli(ə) özünü müdafiə etmək üçün qalxanını başı üzərinə qaldırdı. Lakin Əmrin vurduğu möhkəm zərbə qalxanı sındırıb Əlinin(ə) başını yaraladı. Amma Əli(ə) özünü itirmədən fürsətdən istifadə edib onun ayaqlarını kəsdi. Əmr yerə yıxıldı. Həzrət Əli(ə) ucadan Allahu Əkbər dedi. Toz-torpağın içində hamı onun səsini eşitdi. Bu zaman Peyğəmbər(s) buyurdu: "Əli qələbə çaldı."

Döyüşənlər tozun içində görünmürdülər. Bütün müsəlmanlar həyəcan içində döyüşün nəticəsini gözləyirdilər. Lakin Əli(ə) Əmri yerə yıxdıqdan sonra döyüş uzun çəkdi.

Bu anda Peyğəmbərin(s) yanında olan müsəlmanlar, o cümlədən Ömər ibn Xəttab Həzrətdən(s) soruşdu: “Ya Rəsulallah, nəyə görə Əli(ə) işi bu qədər yubadır? Nəyə görə onun başını kəsmir?” Həzrət Peyğəmbər(s) buyurdu: “Sakit! Gələr, onun özündən soruşarsan.” Bir az keçəndən sonra Əlinin(ə) təkbir - “Allahu Əkbər” səsini eşitdilər. Bildilər ki, artıq Əmrin işini bitirmişdir. Sonra Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, Əmri öldürdüm.” Peyğəmbər(s) soruşdu: “Ya Əli, nə üçün onu yerə yıxdıqdan sonra işi bu qədər yubatdın? Əli(ə) ərz etdi: Ya Rəsulallah(s), mən Əmri yerə yıxıb başını kəsmək istədikdə, o, iki təhqiredici iş gördü. Əvvəlcə məni söydü, sonra da üzümə tüpürdü. Mən onun bu hərəkətlərindən çox əsəbiləşdim. Əgər o anda onun başını kəssəydim, qəzəbimə (şəxsi hisslərimə) görə kəsmiş olacaqdım. Buna görə də meydanda bir az  var-gəl edib gəzişdim. Hirsim tamamilə soyuduqdan sonra gəlib niyyət edərək (Qürbətən iləllah) onun başını kəsdim. Həzrət Peyğəmbər(s) orada buyurdu:

ضَرْبَةُ عَلِيٍّ يَوْمَ الْخَنْدَقِ أَفْضَلُ مِنْ عِبَادَةِ الثَّقَلَيْنِ

-Əlinin(ə) Xəndək döyüşündə düşmənə vurduğu bir qılınc zərbəsi (qiyamətə qədər) bütün cinlərin və insanların ibadətindən üstündür.”

## 2. Allahın itaətində olarkən və günahlardan çəkinərkən səbir edənlər

Qiyamət günü hesab-kitabsız cənnətə daxil olan insanlardan bir dəstəsi də o kəslər olacaqlar ki, dünyada Allahın itaətində olanda və günahlar qarşısında səbir edənlərdir. Yəni Allah-təala onlara hər nə əmr edibsə, səbir edərək yerinə yetirmiş, hər nədən çəkindiribsə, səbir edərək həmin işlərdən çəkinmişlər. Ümumiyyətlə, Allahın əmrlərini

yerinə yetirməkdə insanın səbrə ehtiyacı var. Əgər insan Allahın itaətində səbir etməsə, Onun əmrlərini yerinə yetirə bilməz. Məsələn, oruc tutmaq Allahın əmrinə itaət etmək deməkdir. Oruc tutan adam səbirli olmalıdır. Çox insan orucluq vaxtında ola bilsin ki, səbirdən çıxaraq dözümsüzlük edərək su içir, yaxud siqaret çəkir. Çox insan Allaha itaət edərkən səbir edə bilmir. Həcc ziyarətinin əməllərinə diqqət yetirdikdə görürük ki, insana bu yolda möhkəm səbir lazımdır. Oranın istisi və qəriblik bir tərəfdən, Minada yatmaq, Ərəfatda qalmaq, şeytana daş atmaq, təvafın sıxlığı və s. əməllər də digər tərəfdən insanı sıxa bilər. Əgər insan bütün bunların qarşısında səbir etməsə, Allahın itaətindən çıxa bilər. Həmçinin xüms məsələsində insan il ərzində zəhmətlə qazandığı pulun beşdə birini şəri vergi olaraq verməlidir. Bu da insan üçün çətin məsələlərdəndir ki, əgər insan bu yolda səbir etməsə, Allahın itaətindən çıxmış olar. İlahi hökmlərin hamısında insana səbir lazımdır. Əgər insan səbir etməsə, hökmləri yerinə yetirə bilməz. “Əmr be-məruf” Allahın vacib etdiyi əməllərdən biridir və insan bu işi görmək üçün böyük səbrə malik olmalıdır.

İnsan Allahın əmrlərinə itaət etməyin qarşısında səbirli olduğu kimi, gərək Onun çəkindirdiyi əməllərin qarşısında da səbir etsin. Yəni günahla qarşı-qarşıya çıxdıqda səbir edib Allaha xatir həmin günahdan vaz keçməlidir. Əgər bu yolda səbirli olmasa, günah onu özünə cəlb edəcək. Əgər insan günahla qarşı-qarşıya gəldikdə səbir edib həmin günahı etməsə, Allah-təala həmin şəxsə hesab-kitabsız əcr inayət edər.

İbn Sirin parça satan cavan bir oğlan idi. Onun gözəl və nurani üzü var idi. Hər gün küçələrdə parça satmaqla öz başını dolandırırdı. Günlərin birində bir məhəllədən keçərkən bir qadın onu səslədi. İbn Sirin onun yanına getdi. Qadın ona dedi: “Gəl gedək bizə, mən səndən çoxlu

miqdarda parça alacağam.” İbn Sirin o qadının evinə gəldi. İçəri daxil olan kimi, qadın arxadan qapını bağladı. İbn Sirin başa düşdü ki, tələyə düşüb. Qadın ona dedi: “Mən səndən parça almağı bəhanə edib səni bura gətirdim. Neçə vaxtdır ki, mənim gözüm sənə düşüb. Axır ki, bu fürsətdən istifadə edib səni bura gətirdim. Sən gərək mənimlə yaxınlıq edəsən. Əgər etməsən, səni buradan heç bir yerə buraxmayacağam.” İbn Sirin gördü ki, bu tələdən heç cür çıxış yolu tapa bilməyəcək və ona Allah-təaladan başqa heç bir kəs nicat verə bilməyəcək. Çünki daxildən nəfsin istəyi, zahirdən də həmin qadının xahişi onu günaha çəkirdi. Ona görə də ürəkdən Allaha pənah apardı və dedi: “İlahi, mənə bu günahın tələsindən yalnız və yalnız Sən nicat verə bilərsən.” Elə bu anda onun fikrinə nəsə gəldi. O, qadına dedi: “Yaxşı, mən səninlə razılaşaram. Amma icazə ver, mən ayaqyoluna gedim, ondan sonra səninlə istədiyini edəcəyəm.” Qadın ona icazə verdi. İbn Sirin ayaqyoluna girərək orada olan natəmizliyi götürüb paltarına sürtdü. Sonra gəlib qadının qarşısında durdu. Qadın onu bu vəziyyətdə görüb iyrəndi və qapını açıb evdən qovdu. İbn Sirin qaça-qaça gəlib şəhərin girəcəyində bir bulağın kənarında durdu. Paltarını çıxarıb yumamışdan əvvəl Allaha şükür edərək belə dedi: “İlahi, mənim paltarım murdar oldu, lakin fəxr edirəm ki, Sən mənim ruhumu çirklənməyə qoymadın. Şükürlər olsun Sənə!”

Allah-təala İbn Sirinin bu işinə görə ona istədiyini verdi. Bundan əlavə, ona elə bir qüvvə vermişdi ki, onun vasitəsilə yuxu yozurdu.

قَالَ الإِمَامُ السَّجَّاد(ع): إِذَا جَمَعَ اللَّهُ الْأَوَّلِينَ وَ الْآخِرِينَ يُنَادِي مُنَادٍ أَيْنَ الصَّابِرُونَ لِيَدْخُلُوا الْجَنَّةَ بِغَيْرِ حِسَابٍ. قَالَتِ الْمَلائِكَةُ لَهُم: –

مَن اَنتُم؟ قَالُوا: اَلصَّابِرُون .قَالُوا: وَمَا كَانَ صَبرُكُمُ؟ قَالُوا: صَبَرنَا عَلَى طَاعَةِ اللّه, وَصَبَرنَا عَن مَعصِيَةِ اللّه

-Qiyamət günü Allah bütün insanları bir yerə cəm edəndə carçı fəryad edər: Səbir edənlər hardadırlar? Onlar sorğusuz cənnətə daxil olacaqlar. Bir dəstə ayağa qalxacaq. Mələklər soruşacaq: Siz kimsiniz? Onlar deyəcəklər: Səbir edənlərik. Mələklər soruşacaq: Siz nə üçün səbir etmisiniz? Onlar deyəcəklər: Biz Allaha itaət etmək məsələsində səbirli olduq və günahlar qarşısında da səbir etdik.[1]

### 3. Allah yolunda cihad edənlər

Allah yolunda döyüşən, öldürülən və əzab-əziyyət çəkən insanlar qiyamət günü sorğu-sualsız cənnətə daxil olacaqlar. Ümumiyyətlə, Quranda Allah yolunda cihad edib döyüşənlər barədə bir çox ayələr vardır. Allah-təala mücahid insanların məqamını yüksəldəcək. “Nisa” surəsinin 95-ci ayəsində mücahidlər barədə belə oxuyuruq:

فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

-Allah cihad edənlərə (evdə) oturanlardan daha böyük mükafatla üstünlük əta etmişdir.

Hədislərdə belə nəql olunmuşdur ki, qiyamət günü şəhidlər nurdan ata minib peyğəmbərlərin qarşısından keçərək sorğu-sualsız cənnətə gedəcəklər. Onlara haradan gəlib, hara gedirsiniz deməyə heç bir kəsin ixtiyarı olmayacaq. Lakin burada bir məsələ vurğulanmalıdır ki, əgər şəhidin boynunda camaatın haqqı qalıbsa, mütləq

[1] Mizanül-hikmə, hədis-3884.

qaytarılmalıdır. Şəhidin qohum-əqrəbası onun boynunda qalan camaatın haqqını ödəməlidir.

Bəzi hədislərdə də deyilir ki, boynunda camaatın haqqı qalmış bir insan Allah yolunda şəhid olarsa, onun boynundan həmin haqq götürülmür. Bir sıra hədislərdə də qeyd olunur ki, Allah suda boğularaq şəhid olanların boynunda qalmış həmin haqqı bağışlayır. Şəhidlərin məqamları da bir-biri ilə fərqli olur, yəni şəhidlərin hamısı eyni dərəcədə olmurlar. Şəhid olmalarından asılı olaraq müxtəlif dərəcələrdə qərar tuturlar. İmam Səccad(ə) buyurur: "Allah-təala cənnətdə əmim Əbülfəzlə(ə) elə bir məqam verib ki, bütün şəhidlər həmin məqamı arzulayacaq və həsrətlə baxacaqlar."

Odur ki, Allah yolunda cihad edən, öldürülən və əziyyətə düşən möminlər qiyamət günü sorğu-sualsız cənnətə daxil olacaqlar.

قَالَ رَسُولُ اللّهِ(ص): يَقُولُ اللّه تَعَالى: اَى عِبَادِيَ الَّذِينَ قَاتَلُوا فِى سَبِيلِي, وَقُتِلُوا وَ اُوذُوا فِى سَبِيلِي, وَجَاهَدُوا فِى سَبِيلِي, اُدخُلُوا الْجَنَّة, فَيَدخُلُونَهَا بِغَيرِ عَذابٍ وَ حِسَابٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala mənə buyurdu: Ey Mənim yolumda döyüşən, öldürülən, əziyyətə düşən və cihad edən bəndələrim! Daxil olun cənnətə! Onlar əzabsız və sorğu-sualsız cənnətə daxil olarlar."[1]

## 4. Dostluqları Allaha xatir olanlar

Qiyamət günü hesab-kitabsız və sorğu-sualsız cənnətə daxil olan insanlardan bir dəstəsi o kəslərdir ki, onlar

---

[1] Mizanül-hikmə, hədis-3889.

dünyada bir-birini Allaha xatir sevər və çox istəyərlər. Yəni onların bir-biri ilə dostluğu yalnız Allaha xatir olduğu üçün sorğu-sualsız cənnətə gedəcəklər. Dünyada insanların çoxunun dostluğu qarşılıqlı bəhrələnmə niyyəti ilə olur. Hamımız dəfələrlə şahidi olmuşuq ki, bir nəfər digəri ilə müəyyən amillərə görə dostluq edir. Əgər ona bir yaxşılıq edirsə, öncədən qarşılığını düşünür və ondan əvəzini umur. Belə bir dostluq Allaha xatir olan dostluq sayılmır. Hər bir kəs niyyətində Allahdan başqa heç kəsi və heç nəyi nəzərdə tutmadan biri ilə dostluq edərsə və ona sırf Allah xatirinə məhəbbət bəsləyərsə, sorğu-sualsız cənnətə gedəcək.

قَالَ الإِمَام زَينَ العَابِدِين(ع ): اِذَا جَمَعَ اللّٰهُ عَزَّوَجَلّ اَلأَوَّلِينَ وَالآخِرِين, قَامَ مُنَادٍ فَنَادَى يُسمِعُ النَّاس فَيَقُول: اَينَ الْمُتَحَابُّونَ فِى اللّٰهِ؟ قَالَ: فَيَقُومُ عُنُقٌ مِنَ النَّاس فَيُقَالُ لَهُم: اِذهَبُوا اِلَى الْجَنَّة بِغَيرِحِسَابٍ

-İmam Səccad(ə) buyurur: “Qiyamət günü Allah bütün insanları bir yerə cəm edəndə carçı ayağa qalxıb elə fəryad edər ki, bütün insanlar onun səsini eşidər. Carçı deyər: Haradadır (dünyada) bir-birini Allaha xatir sevənlər? Elə bu anda bir dəstə insan ayağa qalxacaq. Onlara deyiləcək: Gedin sorğu-sualsız cənnətə daxil olun.”[1]

## Sədrai və Ayətullah Kuhistaninin əhvalatı

[1] Mizanül-hikmə, hədis-3888.

Sədrai Rəşt şəhərinin böyük alimlərdən biri idi. O, ömrünün axır illərində başına gəlmiş bir əhvalatı belə nəql edir:

-İllərin birində Məkkə ziyarətinə getmişdim. Mənim Kuhistani adlı böyük bir ustadım var idi. Həm alim, həm arif, həm də görkəmli ustadlardan biri idi. O, Məşhəd şəhərində yaşayırdı. Onun xəstə olduğunu eşitmişdim. Təsadüfən Ərəfatda bir nəfərlə rastlaşdım. Həmin şəxs Kuhistaninin həkimi idi. Ondan ağanın halını soruşdum.

Həkim dedi: Sonuncu dəfə onu müayinə edəndə halı çox pis və qorxulu idi. Mən həkimin bu sözlərini eşitdikdə çox narahat oldum. Ərəfatda ibadət və dualarımla məşğul olmağa başladım. Ərəfə duasını oxuyarkən ustadımın xəstəliyi yadıma düşdü. Onunla heç bir bağlılığımız və qohumluğumuz yox idi. Sadəcə o, böyük bir ustad, mərifət və ürfan əhli olduğundan onun xətrini çox istəyirdim. Ona qarşı xüsusi məhəbbətim var idi. Ərəfə duasının ortasında xüsusi hala  düşdüyüm bir vaxtda onun şəfa tapması üçün dua edib Allaha yalvarmağa başladım. Nə qədər dua etdiyimi bilməsəm də, onu bildim ki, artıq ürəyimə rahatlıq gəldi. Hiss etdim ki, inşallah, Allah ona şəfa verər.

Həcc ziyarətinin əməllərini yerinə yetirib qurtardım. Sonra hacılarla birgə öz ölkəmizə qayıtdıq. Mənim Rəşt şəhərində bir bağım var idi. Həmin bağı satmaq fikrinə düşmüşdüm. Bir nəfər müştəri ilə görüşüb bağı ona göstərdim. Amma hələ alver etməmişdik. Sadəcə razılığa gəlmək istəyirdik. Bir neçə gündən sonra həmin müştəri mənə öz fikrini bildirəcəyini söylədi. Belə oldu ki, işimlə əlaqədar Məşhəd şəhərinə gedəsi oldum. Namaz vaxtına az qalmış Gövhərşad məscidinə gedib ibadətlə məşğul olmağa başladım. Azacıq keçmişdi ki, bir nəfər nurani ağsaqqal kişi içəri daxil oldu. Ətrafında bir neçə nəfər də var idi. Onlar onun əlindən tutub yeriməkdə kömək edirdilər. Ətrafımda

əyləşənlərdən onun kim olduğunu soruşdum. Mənə dedilər ki, Ayətullah Kuhistanidir. Mən neçə illər onu görmədiyim üçün çox dəyişilmişdi. Tez ayağa qalxıb onunla salamlaşdım və əllərindən öpməyə başladım. O, həmin insandır ki, Ərəfatda Allahıma üz tutub ona dua etmişdim. Bundan heç bir kəsin xəbəri yox idi.

Ayətullah Kuhistani əlini çiynimə qoyub buyurdu: "Ağayi Sədrai, Ərəfatda etdyin duaların gəlib mənə çatdı." Onun bu sözlərini eşidən kimi bədənimə soyuq tər gəldi. Çünki ona dua etdiyimdən heç bir kəsin xəbəri yox idi. Sonra o mənə buyurdu: "Ağayi Sədrai, şah verən hədiyyəni nə üçün satırsan?"

Dedim: Ağa, nə şah? Mənim şahdan acığım gəlir. O, mənə heç nə hədiyyə verməyib.

Dedi: Mən onu demirəm. O, şah deyil ki. O, şahlıq adını oğurlayıb. Mən İmam Hüseyni(ə) nəzərdə tuturam. Həqiqi şah odur.

Soruşdum: Hansı hədiyyəsini deyirsiniz?

Dedi: Yadındadırmı, iyirmi yaşında Kərbəla ziyarətinə getmişdin?

Dedim: Bəli, ağa. Yadımdadır.

Dedi: Yadındadırmı üzünü İmam Hüseynin(ə) mübarək sərdabəsinə qoyub belə dua etdin: Ya Hüseyn(ə) mənə elə bir inayət et ki, qoca vaxtımda həmin inayətin süfrəsində öz başımı dolandırım və ona-buna möhtac qalmayım.

Dedim: Bəli, belə bir dua etmişəm.

Dedi: Satmaq istədiyin bağ İmam Hüseynin(ə) sənə olan həmin inayətidir. Nə üçün onu satırsan?

Ayətullah Kuhistaninin bütün bunları bilməsi və danışması məni heyran etmişdi. Onun əllərindən öpüb sağollaşdım. Məşhəd şəhərində görəcəyim işləri görüb Rəştə qayıtdım və bağı satmaq fikrindən daşındım.”

Bu əhvalatı danışmaqda məqsədim odur ki, min qardaşa və dosta Allaha xatir dua etmək çox sirlərin üstündən pərdə götürər və insanın dünyasına və axirətinə fayda verər. Hər kəs mömin qardaşına həqiqi məhəbbəti olarsa və bu dostluq və məhəbbətin arxasında Allah niyyətindən başqa heç bir niyyət olmazsa, həmin şəxs qiyamət günü hesab-kitabsız cənnətə daxil olacaq.

## 5. Bəla əhli olanlar

Qiyamət günü hesab-kitabsız və sorğu-sualsız cənnətə daxil olan insanlardan bir dəstəsi o kəslərdir ki, onlar dünyada bəla əhli olublar. Yəni dünyada həmişə müxtəlif bəlalarla üzləşmişlər. Bu dünyada həmişə bəlakeş və cəfakeş olduqları üçün qiyamət günü onlardan sorğu-sual etmədən cənnətə daxil olacaqlar. Bir şərtlə ki, insan bütün bu bəla və cəfaların içində düzgün seçim etsin və Allaha itaətsizlik etməsin. Bəla insan üçün bu dünyada bir imtahandır. Əgər bir insan bütün bu bəlaların sınaqlarından yaxşı çıxa bilsə, qiyamət günü onun üçün divan qurulmaz və hesab-kitab aparılmaz.

Əlbəttə, bu dünyada Allah-təala insanı müxtəlif imtahanlara sala bilər. Yəni insan mal-dövlətlə, aclıqla, xəstəliklərlə, övladla, şəhvətlə və cürbəcür işlərlə imtahan oluna bilər. Bəzi insanlar həyatda yaxşı və dürüst insan olmasına baxmayaraq, ola bilər ki, bu sınaqlardan çıxa bilməsin. Bəzən mömin olmasına baxmayaraq, vəziyyət azacıq dəyişdikdə, yaxud əziyyətlə üz-üzə gəldikdə insan həmin imtahanın öhdəsindən gələ bilmir.

Asudə vaxtlarda, adi şəraitdə möminlik etməyi hamı bacarar. Lakin çətinliklər, bəla və imtahanlar zamanı imanı qoruyub saxlamaq böyük hünər və yüksək iman tələb edir. Möminlərin imanları müxtəlif dərəcələrdə olduğu üçün, onların tutumu da müxtəlifdir. Məsələn, bir cavan oğlanın çiyninə otuz kiloqram yük qoyduqda onu rahat daşıya bilir. Hətta yüz kiloqram yükü də müəyyən yerə çatdıra bilir. Amma ona gücü çata biləcəyindən artıq yükləsələr, dizləri əsər və yıxılıb yükü yerə atar. Çünki onun tutumunun həddi vardır. Həmçinin möminlərin imanlarının da tutumu fərqlidir. Allah-təala hər bir insanı öz tutumundan artıq yükləmir. İnsanın qarşısına imtahan çıxırsa, insan istəsə

həmin imtahandan üzüağ çıxa bilər. Beləliklə, hər kəs bütün bu bəla və imtahanlardan üzüağ çıxa bilsə, qiyamət günü ondan sorğu-sual aparılmaz.

قَالَ الإِمَامُ الصَّادِق(ع): اِنَّ اَشَدَّ النَّاسِ بَلاَءً الْأَنْبِيَاءُ ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ثُمَّ الْأَمْثَلُ فَالْأَمْثَلُ

-İmam Sadiq(ə) buyurur: “Dünyada ən çətin bəlalar peyğəmbərlərin, sonra vəsilərin, sonra yuxarıdan aşağıya doğru onlara tabe olanların başına gəlir.”[1]

Quran ayələrinə və tarixə nəzər saldıqda görürük ki, insanların içərisində ən çox bəla və imtahanla üzləşən peyğəmbərlər olmuşlar. Məsələn, Yunis Peyğəmbərin(ə) neçə müddət balığın qarnında yaşaması, Həzrət İbrahimin(ə) müxtəlif macəraları, Əyyubun(ə) xəstəliyə düçar olması və digər peyğəmbərlərin müxtəlif bəlalarla qarşılaşması onlar üçün ən böyük imtahanlar idi. Allah-təala Əyyub Peyğəmbəri(ə) bir çox bəlalarla imtahan etdi. Əyyub bütün bəlalarda səbirli olaraq bu imtahanlardan üzüağ çıxdı. O, peyğəmbərlərin içərisində səbri ilə məşhur olan peyğəmbər idi. Həmçinin peyğəmbərlərin vəsiləri və imamlarımız da bəlalar qarşısında səbirli olmuş və ən ağır imtahanlardan çıxmışlar. Məsələn, İmam Hüseynin(ə) həyatına nəzər saldıqda görürük ki, Həzrət(ə) başdan-başa bəla və imtahanların içərisində idi. Biz çox vaxt sadəcə onun Aşura günü çəkdiyi bəlalardan söz açırıq. Halbuki Həzrət(s) 57 il ömür sürmüş və ömrü boyu müxtəlif bəla və sınaqlarla üz-üzə olmuşdu. İmam Hüseyn(ə) buyurmuşdu: “Çox istərəm bəlanı mən, çox istər bəla məni.”

---

[1] Üsuli-kafi, 2-ci cild, səh. 252.

Həzrət(ə) başına gələn bəla və müsibətləri gülərüzlə qarşıladı. Başına gələn hər bir hadisədə narahat olmur, səbir edib bütün bəlalara dözürdü. Hətta Aşura günü axır saatlarda övladlarının, səhabə və qardaşının şəhid olmasına, bir neçə saatdan sonra isə özünün ox atəşinə tutulmasına, başının kəsilməsini bilməsinə baxmayaraq, bütün bu bəlaları gülərüzlə qarşılayırdı. Vəziyyət ağırlaşdıqca və ölüm anları yaxınlaşdıqca İmam Hüseyn(ə) daha çox şad görünürdü. İmamla(ə) çiyin-çiyinə döyüşənlər müharibənin şiddətli vaxtında narahat olduqda Həzrətin(ə) mübarək camalına baxıb təsəlli tapır və ürəkləri buz kimi sərin olurdu. Əgər Əyyubun(ə) gördüyü və çəkdiyi bəlaları, etdiyi səbri İmam Hüseynlə(ə) müqayisə etsək, sanki ibtidai məktəb tələbəsi ilə universitet müəlliminin fərqi kimidir:

*Əyyuba deyin, səbri Hüseyndən gəl öyrəş,*
*Gəl məktəbinə tifli dəbistan əvəzində.*

Ümumiyyətlə, peyğəmbərlər və məsum imamlar ömrü boyu bəla və sınaqlarla qarşılaşmışlar. Hər kəs onlara nə qədər yaxın olsa, onları sevsə, bir o qədər də bəla və müsibətlərlə sınağa çəkiləcək. İnsan Peyğəmbər(s) və imamlardan nə qədər uzaq düşsə, bir o qədər də bəla və imtahanlardan uzaq düşəcək. İnsanın imanı bəla və sınaqlar zamanı aydınlaşır. Çünki insan nə qədər bəla və sınaqlarla qarşılaşsa, imanı bir o qədər də möhkəmlənəcək.

قَالَ أَمِيرُ الْمُؤْمِنِينَ عَلِيّ(ع): لا تَفرَح بِالغِنَاءِ وَ الرَّخَاء وَ لا تَغتَمَّ بِالفَقرِ وَ البَلاءِ فَإِنَّ الذَّهَبَ يُجَرّبُ بِالنَّارِ وَ الْمُؤمِن يُجَرَّب بِالبَلاءِ

-Həzrət Əli(ə) buyurur: “Sərvət və rahatlığa görə fərəhlənmə, kasıblıq və bəlalara görə qəm yemə. Çünki qızıl atəşlə, mömin isə bəla ilə imtahan olunar.”[1]

Allaha iman gətirən insanın imanı bəla və imtahanlar qarşısında bəlli olar. Rahatlıq və asayişdə mömin olmaq çox asandır. Amma bəlalarla üzləşdikdə, çətinliklərə düşdükdə büdrəmək imanın zəifliyinin əlamətidir. Dildə Allaha iman gətirmək çox asandır. Amma əməldə sınaq və çətinliklərlə qarşılaşarkən imanı qorumaq daha mühümdür. Allaha iman gətirən bilməlidir ki, bir zaman qış günlərində gündüzlərin qısa olduğu bir vaxtda oruc tutmaq asandırsa, yay vaxtı günlərin uzandığı fəsildə də oruc tutmaq lazımdır. Allaha iman gətirən bilməlidir ki, sübh vaxtı şirin yuxudan oyanıb namaz qılmaq lazımdır. Həmçinin bütün hallarda, çətinliklərdə və sınaqlar qarşısında başa düşməlidir ki, ilahi vəzifələri yerinə yetirməlidir. İman artıqca bəlalar da artır. Mömin bütün bu bəlalardan üzüağ çıxmağı bacarmalıdır. Mömin o zaman tanınar ki, qarşısına çıxan çətinliklərdən, bəla və imtahanlardan çıxa bilsin.

قَالَ الإِمَامُ الكَاظِم(ع): مَثَلُ الْمُؤْمِنِ مَثَلُ كَفَّتَيِ الْمِيزَانِ كُلَّمَا زِيدَ فِي إِيمَانِهِ زِيدَ فِي بَلَائِهِ لِيَلْقَى اللَّهعَزَّ وَ جَلَّ وَ لَا خَطِيئَةَ لَهُ

-İmam Kazim (ə) buyurur: “Mömin tərəzinin iki gözünə oxşayır. İmanı artdıqca bəlaları və çətinlikləri artar ki, Allahın hüzuruna gedəndə əməl dəftərində heç bir xəta və günah olmasın.”[2]

---

[1] Ğürərül-hikəm, 99-cu cild, hədis-1716.
[2] Biharul-ənvar, 67-ci cild, səh. 243.

İnsanın Allaha olan imanı çoxaldıqca bəla və müsibətləri də çoxalır. Əgər bu bəlalara dözüb səbir etsə, imtahanlardan yaxşı çıxa bilsə, həqiqi mömindir. Yəni mömini bəla ilə qarşılaşdıqda tanımaq olar. Əgər bəndə Allahı sevirsə, sevdiyi qədər bəla və imtahanlara mübtəla olar.

قَالَ الإِمَامُ البَاقِر(ع): يُبتَلَى الْمَرءُ عَلَى قَدرِ حُبِّهِ

-İmam Baqir(ə) buyurur: "Hər bir insan sevdiyi qədər bəlaya düçar olar."

Yəni hər bir insanı sevgisi qədər imtahana çəkərlər. Çünki sevgisini sübut etmək üçün bu imtahanlardan çıxmalıdır. Hədislərdə belə nəql olunur ki, məhəbbət oddur. Hər kəsin qəlbinə düşsə, yandırıb yaxar. Hər nə qədər çox olsa, bir o qədər də çox yandıracaq. İnsanda nə qədər iman varsa, bir o qədər də bəla və imtahan olacaq.

قَالَ الإِمامُ الباقرُ(ع): إِذ جَاءَهُ رجُلٌ فَقَالَ: وَاللّه، إِنّي لَاُحِبُّكُم أهلَ البَيتِ : فاتَّخِذْ لِلبَلاءِ جِلْبَابًا؛ فواللّه إِنَّهُ لَأَسْرَعُ إِلَينَا وَ إِلى شِيعَتِنا مِنَ السَّيلِ فِي الوَادِي، وبِنا يَبْدأ البَلاءُ ثُمَّ بِكُم ، وبِنا يَبْدأ الرَّخاءُ ثُمَّ بِكُم.

-Bir nəfər İmam Baqirin(ə) hüzuruna gəlib dedi: “And olsun Allaha ki, mən siz əhli-beyti sevirəm. İmam Baqir(ə) buyurdu: Elə isə bəlanı qarşılamaq libasını əyninə geyin. (Özünü bəlaların qarşısında dayanmaq üçün hazır et). And olsun Allaha ki, bəla və çətinliklər bizə və bizim ardıcıllarımıza dağlardan axan seldən daha sürətlə çatır. Bəla bizdən başlayıb sonra sizə gəlir. Rifah və asayiş də bizdən başlayıb sonra sizə çatır.”

Həyatımızda elə insanların şahidi oluruq ki, yüzcə manatın qarşısında imandan çıxır. Yəni kiçik bir məbləğin

qarşısında dözə bilməyib imtahandan kəsilir. Əgər bu məbləğ qarşısında imtahandan üzüağ çıxa bilsə, daha yüksək məbləğlə imtahan olunacaq. Elə insanlar var ki, Allah yolunda bircə söyüş eşitməyə hazır deyil. Yəni Allah yolunda kiminsə onu təhqir etməsinə dözə bilmir. İstəyir ki, heç bir kəs ona söz deməsin və Allah yolunda çətinliyə düşməsin. Belə iman saxlamağa nə var ki? İmanlı insan imtahan və sınaqlardan çıxdıqdan sonra mömin olduğunu sübut edir.

İmanın, sevgi və məhəbbətin elə yüksək mərhələləri vardır ki, bizim tutumumuza uyğun deyildir. Həmin mərhələləri dərk etmək üçün imanın yuxarı mərhələlərinə çatmaq lazımdır. Elə mərhələlər vardır ki, biz onu dərk edə bilmirik. Çox nadir insanlar tapılar ki, o mərhələni fəth etmiş olsunlar.

قَالَ عليٌّ(ع): لَو أحَبَّني جَبلٌ لَتَهافَتَ .

-Həzrət Əli(ə) buyurur: “Əgər dağ mənə “səni sevirəm” desə, yerindən oynayar və toza dönər.”

Beləliklə, bu dünyada bəla əhli olanlar, cəfakeş möminlər qiyamət günü sorğu-sualsız cənnətə daxil olacaqlar. Çünki onlar Allahın göndərdiyi bütün bəla və sınaqlar qarşısında dözüb səbir etmiş, heç bir çətinlik onu imanından döndərə bilməmişdir.

قَالَ رَسُولُ اللّه(ص): اِذَا نُشِرَتِ الدَّوَاوِين وَنُصِبَتِ الْمَوازِين لَمْ يُنْصَب لِأَهلِ البَلاءِ مِيزانٌ, وَلَم يُنشَر لَهُم دِيوانٌ, ثُمّ تَلا هَذِهِ الآيَة: (إِنَّمَا يُوَفَّى الصَّابِرُونَ أَجْرَهُم بِغَيْرِ حِسَابٍ...)

-Həzrət Peyğəmbər(s) buyurur: “Divan və məhkəmələr hazırlanacağı və tərəzilərin qurulacağı zaman bəla əhlinə divan hazırlanmayacaq və tərəzi qurulmayacaq. Sonra bu

ayəni oxudu: “Şübhəsiz, səbrlilərin mükafatları saysız-hesabsız və kamil şəkildə veriləcəkdir.”[1]

Həyatımızda bəla və müsibətlərə səbir edən insanlarla çox rastlaşmışıq. Elə möminlərin şahidi olmuşuq ki, müharibə zamanında övladlarının şəhid olmasına səbir edib, bu müsibəti gülərüzlə nuş etmişlər.

İran-İraq müaribəsində o qədər belə insanların şahidi olmuşuq ki, ata öz balasının cənazəsinin üzərində dayanıb xeyir-dua verirdi. Tanıdığım bir mömінin oğlu şəhid olmuşdu. Öz oğlunun cənazəsinin kənarında dayanıb belə dyirdi: “Oğlum, səni qanına qəltan halda görüb elə şad oldum ki, bəy otağında görsəydim belə sevinməzdim. Oğlum, mən ömür boyu Kərbəla şəhidləri üçün ağlayıb göz yaşı tökmüşəm. Allah sənin üzünü ağ etsin ki, mənim nəslimin qanını Kərbəla şəhidlərinə qatdın. Bala, atan səndən razıdır.”

Müharibə vaxtında bizim şəhərdə bir kişinin altı oğlu var idi. Beş oğlu müharibədə şəhid oldu. Beşinci oğlunun məclisində camaat dağılışandan sonra sonuncu qalan oğlu ilə zarafatlaşırdılar. Sonuncu oğlu qardaşlarından yaşca böyük idi. Oğul atasına deyirdi: “Bu dəfə sənin növbəndir. Sən də gedib qardaşlarıma qoşulsan, onlar darıxmazlar.” Ata isə deyirdi: “Xeyr, bu dəfə də sənin növbəndir. Get, şəhid ol, sənin də şəklini o biri qardaşlarının şəklinin kənarına qoyum və sənin də savabını aparım, sonra gəlib sizə qoşularam.”

## 6. Xəlvətdə günah etməyənlər

Qiyamət günü sorğu-sualsız cənnətə daxil olanlardan bir dəstəsi aşkarda olduğu kimi, xəlvətdə (gizində) də Allahdan

---

[1] Mizanül-hikmə, hədis-3890.

qorxub günah etməyənlərdir. Əgər bir insan xəlvətdə də aşkarda olduğu kimi, Allahı başı üzərində nəzarətçi və mələklərin əməllərini yazdığını düşünüb günah etməsə, qiyamət günü sorğu-sual olunmadan cənnətə daxil olacaq. Allah-təala belə insanlara həm dünyanın, həm də axirətin yaxşılıqlarını inayət edər. Hər bir insan ən əsas şəhvətlə bağlı olan hadisələrdən və şəhvət tələsindən salamat çıxa bilsə, Allah-təala bu dünyada həmin şəxsə mütləq xüsusi bir mənəviyyat inayət edər.

Allah rəhmət etsin Şeyx Rəcəbəliyə. O, nə müctəhid idi, nə də böyük alim idi. Sadəcə bir dərzi idi. Lakin mənəviyyat aləmində tanınmış bir şəxsiyyət olmuşdu. Çox böyük şəxsiyyətlər və alimlər onun mənəviyyat dərsində iştirak etmişdilər. Onun bəzi şagirdləri dərsində iştirak etmək üçün yalvarıb, icazə almışlar. Çünki hər adamı öz dərsinə buraxmırdı. Onun şagirdlərindən biri deyir:

-Mən Şeyxdən çox xahiş etdim ki, dərsində iştirak etmək üçün mənə icazə versin. Lakin o, heç cür razılıq vermirdi. Mənim ondan əl çəkmədiyimi görüb dedi: Dərsimdə iştirak etmək istəyirsənmi?

Dedim: Bəli.

Dedi: Elə isə ilk növbədə get atandan halallıq al, sonra gələrsən. Çünki atan səndən razı deyildir.

O vaxtlar atam məndən küsülü idi. Evə gedib atamın qarşısında diz çökdüm. Yalvarıb halallıq almağa başladım. Nəhayət, onun razılığını əldə edə bildim. Sonra Şeyxin dərsinə yollandım. Şeyx məni görən kimi çağırıb yanında əyləşdirdi və dedi: “İndi mənim dərsimdə iştirak edə bilərsən.”

Həmin gündən sonra onun dərsində iştirak edirdim. Cavanlığımın ən çılğın vaxtları idi. Bir gün yaxın qohumlarımdan birinin evinə getmişdim. Evdə onların qızından başqa heç kəs yox idi. Ola bilsin ki, işlə əlaqədar

harasa getmişdilər. Qız məni evə dəvət etdi. Onun dəvətini qəbul edib içəri keçdim. Çox gözəl və yaraşıqlı bir qız idi. O, qapıları bağlayıb mənə dedi: “Bu evdə yalnız ikimizik. Valideynlərim isə bu tezliklə gəlməyəcək. Bizim yaxınlıq etməyimiz üçün əla fürsət yaranıb.”

Mən gördüm ki, çox böyük tələyə düşmüşəm. Nə edəcəyimi bilmirdim. Elə bu an diqqətimi Allaha yönəldib ürəyimdə yalvarmağa başladım. Dedim: “İlahi, mən Sənin qarşında günah etmək və Sənin əmrindən çıxmaq istəmirəm. Mən Sənin razılığını pozub ayaq altına atmaq istəmirəm. Söz verirəm ki, bu günaha düçar olmayacağam. Səndən xahişim budur ki, bu işin müqabilində məni Özün tərbiyə et.” Allahla bu münacatı edib, qapını açdım və özümü çölə atdım. Şeytanın mənim üçün qurduğu zəncirli tələni qırdım. Həmin gündən sonra içimdə nuraniyyət hiss etməyə başladım. Allah-təala mənim bərzəx gözümü açdı. Qiyamət günü insanların hansı qiyafədə olacaqlarını indidən görürdüm. Yəni insanlara baxdıqda onların həqiqi və iç üzlərini görürdüm. Bir gün evdən çıxıb küçə ilə gedirdim. Yolda yüzdən çox adamla rastlaşdım. Onlardan cəmi bir neçəsini insan surətində gördüm. Ondan başqa hamını müxtəlif qiyafələrdə görürdüm. Allah-təala məni xüsusi olaraq tərbiyə edirdi. Belə bir dərəcəyə çatmışdım ki, hətta günahın fikrini belə etmirdim. Yəni heç bir vaxt günah barədə belə düşünmürdüm.

Günlərin birində beynimə bir günah fikri düşdü. Amma o günahı etmədim. Sadəcə olaraq beynimdən keçdi. Yolda gedərkən, dəvə karvanı ilə rastlaşdım. Tacirlər digər şəhər və ölkələrdən dəvələrə yük vurub şəhərə gətirirdilər. Mən onların yanından keçəndə dəvələrdən biri mənə təpik atdı. Cəld tərpənməsəydim həmin təpik məni yamanca tutacaqdı. Evə gedib hey öz-özümə fikirləşərək dedim: “İlahi, bu nə olan iş idi? Nə üçün dəvə mənə təpik atdı? Ey mənim

Allahım, bu nə sirrdir belə?” Gecə yatıb yuxuda gördüm ki, bir nəfər mənə dedi: Dəvənin sənə təpik atması, beynində fikirləşdiyin həmin günahın cavabı idi. Dedim: Axı mən həmin günahı etmədim. Sadəcə fikrimdən keçirdim. Dedi: Dəvə təpiyi də sənə dəymədi ki. Sadəcə təpik atdı.

Odur ki, əgər insan xəlvətdə, hətta tək olan zaman Allahı yad edib günahdan çəkinərsə və heç vaxt günah etmək fikrinə düşməzsə, Allah- təala hətta bu dünyada da həmin şəxsə xüsusi mənəviyyat inayət edər, qiyamət günü onlardan hesab-kitab almaz.

## 7. Aza qane olanlar

Qiyamət günü sorğu-sualsız cənnətə daxil olan insanların bir qismi dünyada (dünya malından) aza qane olanlardır. Yəni əgər insan bu dünyada halal və az ruzi qazanıb bununla da kifayətlənsə, hesab- kitabsız cənnətə gedəcək. Həyatımızda və tarixdə belə insanlara çox rast gəlmək olur. Hətta bəzilərinin halal mal-dövləti olmasına baxmayaraq, az yeməyə qane olurlar.

Nümunə olaraq Həzrət Seleymanın(s) həyatına nəzər saldıqda görürük ki, bütün aləm ixtiyarında olmasına baxmayaraq, bir tikə çörəklə qane olurdu. Allah-təala bütün insanları, cinləri, heyvanları, küləyi, bəzi mələkləri və s. onun ixtiyarında qoymuşdu. Hər gün minlərlə insan onun süfrəsində əyləşib yemək yeyirdi.

Günlərin birində göstəriş verdi ki, bütün qoşunlar gəlib onun qarşısından keçsinlər. Bütün insanlar, heyvanlar, cinlər və s. onun əmrilə gəlib sarayın qarşısından keçdilər. Süleyman sarayda öz çəliyinə söykənib onlara tamaşa edirdi. Birdən bir nəfər cavan oğlanın otağa daxil olduğunu gördü. Süleyman ona dedi: “Sənə kim icazə verib ki, bu otağa daxil olmusan? Cavan oğlan dedi: Mənə ev yiyəsi icazə verib.

Süleyman  təəccübləndi. Əgər ev yiyəsi mənəmsə, mən sənə icazə verməmişəm. Bir də soruşdu: Sənə kim icazə verdi ki, bu evə daxil olmusan? Cavan oğlan yenə həmin cavabı verdi: Mənə ev yiyəsi icazə verib. Süleyman üçüncü dəfə soruşanda bildi ki, həmin oğlan cənab Əzrayıldı. Ondan soruşdu. Bu dəfə gəlməkdə məqsədin nədir? Əzrayıl dedi: Bu dəfə səni aparmağa gəlmişəm. Üç dəfə nəfəs almağa imkanın var. Süleyman dedi: İcazə verirsən əyləşim yerdə? Əzrayıl dedi: Xeyr.” Əzrayıl Süleymanı elə həmin halda - çəliyə söykəndiyi halda canını aldı. Bu hadisənin üstündən on saat keçdi. Camaat gördü ki Süleyman elə olduğu kimi,yəni əsaya söykənmiş halda dayanıb. Şayiələr başlandı.

Bəziləri Süleymanın Allah, bəziləri onun cadugər olmasını iddia etdilər. İnsan bu qədər belə bir halda dayana bilməz və s. kimi cürbəcür sözlər yarandı. Bir sıra mömin insanlar dedilər ki, belə sözləri danışmağa və şayiələr  düzəltməyə ehtiyac yoxdur. Azacıq səbir edin, bir azdan hər şey aydınlaşar. Süleyman on saat həmin halda qaldıqdan sonra Allah-təala bir qarışqanı məmur etdi ki, gedib Süleymanın əsasının altını ovsun. Qarışqa gəldi və əsanın altını ovdu, Süleyman yerə yıxıldı.

Bütün bu cah-cəlal, əzəmət sahibi olan Süleyman öz əlinin zəhməti ilə qazandığını yeyirdi. Hər gün saray mətbəxində minlərlə insanın yeməyini bişirib camaatı yeməyə çağırırdı. Gündə minlərlə insan onun süfrəsində əyləşib yemək yeyirdi. Amma özü qamışdan səbət, zənbil toxuyub satdırar və onun gəliri ilə dolanardı. Camaat onun süfrəsində isti xörəklər yeyər, amma özü isə bir tikə quru çörəklə kifayətlənərdi. Allahın peyğəmbəri olduğu üçün bilirdi ki, az yeməklə kifayətlənməlidir. Allahın razılığını qazanmaq üçün hər bir işə razı olurdu.

Odur ki, haramlara tərəf cəhd etməyib, dünyada aza qane olanlar qiyamət günü sorğu-suala çəkilmədən cənnətə daxil

olarlar. Həm xəlvətdə günahdan çəkinən, həm də dünya malından az miqdarla kifayətlənənlər barədə olan hədis belədir.

قَالَ رَسُولُ اللهِ(ص): اِذَا كَانَ يَومَ القِيَامَة انبت اللّه لطائفة من امتي اجنحة , فَيَطِيرُونَ مِن قُبُورِهِم اِلَى الْجِنَان يَسرَحُونَ فِيهَا ويتنعمُون كَيفَ شَاؤُوا, فَتقُولُ لَهُم الْمَلائِكَة: هَل رَأَيتُم حِسَابًا؟ فَيقُولُونَ: مَا رَأَينَا حِسابًا, فَيَقُولُونَ: هَل جُزتُم عَلى الصِّراط؟ فَيقُولُونَ: مَا رَأينَا صِراطاً, فَيَقُولُونَ لَهُم: هَل رَأَيتُم جَهَنَّم؟ فَيَقُولُونَ: مَا رَأَينَا شَيئًا, فَتَقُولُ الْمَلائِكَة: مِن اُمَّةٍ مَن اَنتُم ؟ فَيَقُولُونَ: مِن اُمَّة مُحَمّد(ص). فَيَقُولُونَ: نَشَدنَاكُم اللّه, حَدِّثُونَا مَا كَانَت اَعمَالكُم فِي الدُّنيَا؟ فَيَقُولُونَ: خِصلتَان كَانَتَا فِينَا, فَبَلغنَا اللّه هَذهِ الْمَنْزِلَة بِفَضلِ رَحْمَتهِ, فَيَقُولُونَ: وَمَا هُمَا؟ فَيَقُولُونَ: كُنّا اِذَا خَلونَا نَستَحيِ اَن نَعصِيَه, وَنَرضَى بِاليَسِير مِمَّا قَسَم لنَا, فَتَقُولُ الْمَلائِكَة : يَحِقُّ لَكُم هَذا

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü baş verən zaman Allah-təala mənim ümmətimdən iki dəstə insana qanad verəcək. Onlar qəbirlərindən qalxıb birbaşa cənnətə uçacaq və orada istədiyi nemətlərdən istifadə edib bəhrələnəcəklər. Mələklər soruşacaq: Siz hesab-kitabı gördünüzmü? Deyəcəklər: Biz hesab (sorğu-sual) görmədik. Mələklər soruşacaq: Siz siratdan keçdinizmi? Deyəcəklər: Biz heç siratı da görmədik. Mələklər soruşacaq: Siz cəhənnəmi gördünüzmü? Deyəcəklər: Biz heç bir şey görmədik. (Qəbirdən uçub birbaşa cənnətə gəldik.) Mələklər soruşacaq: Siz hansı peyğəmbərin ümmətisiniz? Deyəcəklər:

Biz Məhəmməd Peyğəmbərin(s) ümmətiyik. Mələklər deyəcək: Sizi and veririk Allaha, deyin görək dünyada hansı əməlin sahibi olmusunuz ki, Allah sizə bu məqamı nəsib edib? Deyəcəklər: Bizim dünyada iki xüsusiyyətimiz olduğuna görə Allah-təala Öz kərəm və rəhməti ilə bizə bu məqamı nəsib edib. Mələklər deyəcək: Onlar hansı xüsusiyyətlərdir? Deyəcəklər: Biri budur ki, xəlvətdə olarkən Allahı yad edib Onun qarşısında günah etməkdən həya edirdik. İkincisi isə dünya malından aza qane olurduq. Mələklər deyəcək: Cənnətin bu nemətləri nuş olsun sizə."[1]

## Sorğu-sualsız cəhənnəmə daxil olanlar

Ötən bəhslərimizdə qiyamət gününün sorğu-sualı barədə müəyyən qədər söhbət etdik. Qeyd olundu ki, bəzi insanların hesab-kitabı asan olacaq, bəzi insanlar isə müəyyən əməllərin sahibi olduğu üçün sorğu- sualsız cənnətə daxil olacaqlar. Bu bəhsimizdə sorğu-sualsız cəhənnəmə daxil olan insanlar barədə söhbət açacağıq. Görəsən hansı insanları sorğu-sual olunmadan cəhənnəmə aparacaqlar? Bu barədə olan ayə və hədislərdən çox söhbət etmək olar. Lakin əsas mövzumuzdan kənara düşməmək üçün onlardan bir neçəsinə diqqət yetirək. Baxaq görək, hansı insanlar sorğu-sual edilmədən cəhənnəmə gedəcəklər.

### 1.Müşrik (və kafir)

Qiyamət günü sorğu-sualsız cəhənnəmə gedən insanlardan bir dəstəsi dünyada Allahı qəbul etməyən və ya qəbul edib Ona şərik qoşanlardır. Kimliyindən asılı

[1] Mizanül-hikmə, hədis-3891.

olmayaraq hər kəs Allahın vəhdaniyyətini müstəqil şəkildə qəbul etməsə, o şəxs ya kafir, ya da müşrik sayılır. Qiyamət günü belə insanlar sorğu-sual olunmayacaq və birbaşa cəhənnəmə göndəriləcək.

قَالَ رَسُولُ اللّهِ(ص): اِنَّ اللّهَ عَزَّوَجَلّ يُحَاسِبُ كُلَّ خَلق اِلّا مَن اَشرَكَ بِاللّهِ فَإِنَّهُ لا يُحَاسَب يَومَ القِيَامَة وَ يُؤمَر بِه اِلَى النَّار

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala yalnız Allaha şərik qoşanlardan başqa bütün insanlarla hesab çəkəcək. Qiyamət günü onların (müşriklərin) sorğu-sual olunmadan cəhənnəmə atılmaları əmr olunacaq."[1]

قَالَ رَسُولُ اللّهِ(ص): اِعلَمُوا عِبَادَاللّه اِنَّ اَهلَ الشِّرك لا تُنصَب لَهُمُ الْمَوازِين وَلا تُنشَر لَهُم الدَّوَاوِين. اِنَّمَا يُحشَرُونَ اِلى جَهَنم زُمَرًا. وَ اِنَّمَا نُصِبَ الْمَوازِينَ وَ نُشِرَ الدَّواوِين لِأَهلِ الإِسلام

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Allah bəndələri, bilin ki, şirk əhli üçün tərəzilər qoyulmayacaq və divanlar açılmayacaq. Onları qrup şəklində birbaşa (tərəzi və divan açılmadan) cəhənnəmə sürükləyəcəklər. Çünki tərəzinin qurulması və divanın açılması İslam əhlinə aiddir."[2]

Bu hədisdən açıq-aydın görürük ki, əgər qiyamət günündə tərəzilər qurulub, divanlar açılacaqsa, bu, İslam əhli üçün olacaq. Qeyd olundu ki, bəzi möminlər hesab-kitab olunmadan cənnətə gedəcək, bəzi möminlərin sorğu-sualı asan olacaq. İslam dünyasına daxil olan hər bir kəs üçün qeyd olunan istisna halları çıxmaq şərti ilə tərəzilər

---

[1] Mizanül-hikmə, hədis-3892.
[2] Mizanül-hikmə, hədis-3893.

qurulacaq və sorğu-sual olunacaqdır. Amma Allahı qəbul etməyən və ya Onun vəhdaniyyətinə şərik qoşanlar üçün hesab-kitab səhnəsi qurulmayacaq və Allahın əmri ilə birbaşa cəhənnəmə aparılacaqlar.

Burada bir mətləbi nəzərinizə çatdırmaq istərdim. Şirkin və küfrün mənasını Allah-təala Quranda bizim üçün bəyan etmişdir. Şirkin nə olduğunu İslam Peyğəmbəri(s) açıqlayıb məna etmişdir. Bu məsələ belə deyildir ki, hər kəs şirki öz düşündüyü kimi məna edib ağlına gələn sözü danışsınlar. Yəni heç bir kəsə ixtiyar verilməyib ki, şirki öz düşündüyü kimi məna edib camaatı müşrik hesab etsin. Şirkin nə olduğunu Peyğəmbər(s) və imamlar bizə başa salıblar. Hətta Peyğəmbərin(s) dövrundə və ondan sonra yaşayan səhabələr də şirkin nə olduğunu çox gözəl bilirdilər. Hazırda onların Peyğəmbərdən(s) nəql etdiyi hədislər əlimizdədir. Peyğəmbərin(s) qəbrini ziyarət etməyi şirk bilənlər İslamın buyurduqlarına deyil, öz fikir və düşüncələrinə istanad edirlər. Halbuki Peyğəmbərdən(s) sonra bütün səhabələr Həzrətin(s) qəbrini ziyarət etmişlər. Peyğəmbərin(s) qəbrini ziyarət etməyi şirk bilənlər axır vaxtlarda peyda oldular. Onların sözləri İslami deyil, siyasi xarakter daşıyır. Dini söhbətlər əhli-sünnə və şiələrin əllərində olan kitablardadır. Firqəsindən asılı olmayaraq bütün İslami kitablarda şirkin mənasını çox aydın və dəqiq şəkildə şərh etmişlər. Odur ki, əgər şirkdən söhbət açılırsa, hər yerindən duran ağzına gələni danışmaqla İslamla bağlı məsələləri öz düşündüyü kimi insanlara çatdırmağa və onların arasında öz düşündüyünə əsaslanaraq hökm etməyə ixtiyarı yoxdur. Əgər belə bir hal yaranmış olsa, İslam aləmində düşmən əli ilə yaranmış bir bəladır. Din barədə belə bir hal yarandıqda İslam alimləri həmin məsələnin həllini düşünməlidirlər. Bütün bu məsələlər İslama aid olduğu üçün firqəsindən asılı olmayaraq bütün müsəlmanlar əl-ələ verib bir ailə kimi

qarşıya çıxan hər hansı bir məsələni özləri həll etməlidirlər. Bunun başqalarına heç bir aidiyyəti yoxdur.

Əgər müsəlmanların öz arasında hansısa bir ixtilaf yaranırsa, yenə də bunun başqalarına aidiyyəti yoxdur. Yəni müsəlmanların işinə qeyri müsəlmanın qarışmağa haqqı çatmır. Hər bir insan öz ailəsini digər ailələrin qarşısında müdafiə etdiyi kimi, müsəlmanlar da vəhdət yaradıb öz dindaşlarını müdafiə etməlidirlər. Hər bir ailədə müəyyən məsələlər qarşıya çıxdığı kimi, ola bilsin ki, müsəlmanların da içində elə bir problem yaranmış olsun. Hər ailə öz problemini özü həll etdiyi kimi, müsəlmanlar da öz problemini özləri həll etməlidirlər. Bunun qeyri müsəlmanlara aidiyyəti yoxdur və heç bir kəsin müsəlmanların işinə qarışmağa ixtiyarı çatmır.

## 2. Yolunu azmış və zalım rəhbər

Qiyamət günü sorğu-sualsız cəhənnəmə daxil olan insanlardan bir dəstəsi yolunu azmış və zalım rəhbərlərdir. Əgər bir insan bir dəstə insana, bir millətə, yaxud böyük bir xalqa rəhbərlik etsə, yolunu azmız və zülmkar olsa, Allah-təala qiyamət günü həmin şəxsi sorğu-sualsız cəhənnəmə atacaq.

## 3. Yalan danışan ticarətçi

Alveri yalan danışmaq və fırıldaq işlətməklə baş tutan tacirlər qiyamət günü sorğu-sual olunmadan cəhənnəmə gedəcəklər. Əlbəttə, burada qeyd etmək lazımdır ki, belə deyil ki, kimsə bir yerdə bir nəfər tacirin yalan danışdığını gördükdə hökm irəli sürsün və onun sorğu- sualsız cəhənnəmlik olduğunu iddia etsin. Dəfələrlə bunu qeyd etmişəm ki, heç kəs heç kimin barəsində hakimlik etməməlidir. Çünki hökm Allahındır və qiyamət gününün

sahibi də odur. Kimi bağışlayıb, kimi bağışlamamaq Onun Özünə aid olan bir məsələdir. Biz burada sadəcə hədis və rəvayətlərdən əldə olunan əsaslara görə söhbət edirik. Əgər bir tacir bütün ticarətini yalan və fırıldaqla qurub alver edirsə, qiyamət günü onu sorğu-sual etmədən cəhənnəmə aparacaqlar.

**4. Zinakar qoca**

Qiyamət günü dünyada zinakar olan qocaları sorğu-sual olunmadan cəhənnəmə göndərəcəklər. Yəni qoca yaşlarında zinadan əl çəkməyən, tövbə etmək istəməyən insanı hesab-kitabsız cəhənnəmə aparacaqlar. Qeyd etdiyimiz ikinci, üçüncü və dördüncü dəstə sorğu- sualsız cəhənnəmə gedən insanlar barədə olan hədis belədir:

قَالَ الإِمَامُ الصَّادِق(ع): ثَلاثَةٌ يُدخِلُهُمُ الله النَّار بِغَير حِسَاب... اِمَامٌ جَائِر وَتَاجِرٌ كَذُوب وَ شَيخٌ زَانِ

-İmam Sadiq (ə) buyurur: ”Üç nəfəri Allah-təala sorğu-sualsız cəhənnəmə aparacaq: Yolunu azmış və zalım rəhbəri, yalan danışan taciri və zinakar qocanı.”[1]

Həmçinin aşağıdakı xüsusiyyətə malik olan dəstələr qiyamət günü sorğu-sual olunmadan cəhənnəmə gedəcəklər:

**5. Təkəbbürlülük edən mülkədarlar;**

**6. Paxıl alimlər;**

**7. Simic sərvətlilər.**

[1] Mizanül-hikmə, hədis-3894.

قَالَ رَسُولُ اللهِ(ص): سِتَّةٌ يَدخُلُونَ النَّار بِغَيرِ حِسَاب: اَلأُمَراء بِالْجَورِ وَالدَّهَاقِين بِالكِبرِ وَ التُّجَّار بِالكِذب وَ العُلَماء بِالْحَسَد وَ الأَ غنِيَاء بِالبُخلِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Altı dəstə altı xasiyyətə görə sorğu-sualsız cəhənnəmə gedəcək. Əmirlər (rəhbərlər) zülm etdiklərinə görə, ərəblər (qəbilə və nəsil) təəssübkeşliyinə görə, mülkədarlar təkəbbürə görə, tacirlər xəyanətə görə, sərvətlilər simicliklərinə görə və alimlər paxıllıqlarına görə."[1]

## Qiyamət günü hesab-kitabın çətinliyi

Qeyd olundu ki, qiyamət günü bir dəstə insan sorğu-sualsız cənnətə, bir dəstə insan isə sorğu-sualsız cəhənnəmə gedəcək. Həmçinin qeyd etdik ki, bir dəstə insandan sorğu-sual olunacaq, amma onlarla çox asan və yüngül hesab çəkərək cənnətə göndərəcəklər. Yuxarıda bu barədə lazımi qədər söhbət etdik. Burada bəhsimizə əlavə olaraq qiyamət gününün sorğu-sualının çətin olması barədə də söz açmaq yaxşı olar. Baxaq görək ki, görəsən qiyamət günü hansı insanların sorğu-sualı çətin olacaq? Söhbətimizi "Rəd" surəsinin 18-ci ayəsi ilə davam etdirək. Allah-təala bu ayədə belə buyurur:

---

[1] Mizanül-hikmə, hədis-3895.

لِلَّذِينَ اسْتَجَابُواْ لِرَبِّهِمُ الْحُسْنَى وَالَّذِينَ لَمْ يَسْتَجِيبُواْ لَهُ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لاَفْتَدَوْاْ بِهِ أُوْلَئِكَ لَهُمْ سُوءُ الْحِسَابِ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ

-Özlərinin Rəbbinə (Onun çağırışına müsbət) cavab verənlər üçün gözəl aqibət və gözəl mükafat vardır. Ona (Onun çağırışına müsbət) cavab verməyən kəslər (isə), əgər (axirət günü) yer üzündə olan şeylərin hamısı və həmçinin onun (digər bir) misli onların olsa, hamısını özlərinin nicat tapmaları üçün fəda etməyə razı olarlar. Hesabatları pis olacaq kəslər onlardır (onların heç bir xeyir əməlləri qəbul deyil və heç bir günahları da bağışlanmayacaqdır). Onların yerləri cəhənnəmdir və ora çox pis bir qalacaq yeridir!

Ayədən açıq-aydın görürük ki, dünyada Allahın çağırışına əhəmiyyət və müsbət cavab verməyənlər qiyamət günü çox çətin sorğu-suala tutulacaqlar. Çıxılmaz vəziyyətdə olduqlarını gördükdə deyərlər ki, kaş dünyanın hamısı bizim olaydı və onu verib burada  canımızı qurtaraydıq. Onlar elə başa düşürlər ki, qiyamətin hesab-kitabı bu dünyadakı kimi olacaq. Elə güman edirlər ki, pul ilə özlərini qiyamətin çıxılmaz vəziyyətindən qurtara biləcəklər. Əgər bütün dünyanın hamısı onların olsaydı belə qiyamət günü sorğu-sualdan qaça bilməyəcəklər. Onların hesabı çox çətin olacaq və cəhənnəmə gedəcəklər.

“Rəd” surəsinin 21-ci ayəsində belə oxuyuruq:

وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ سُوءَ الحِسَابِ

-Və o kəslər ki... özlərinin Rəbbindən çəkinir və (qiyamətdəki) hesabın çətinliyindən qorxurlar.

Bu ayə möminlər barəsindədir ki, Allah-təala burada onların xüsusiyyətlərindən ikisini bəyan edir. Birincisi,

möminlər bu dünyada Allahdan qorxub çəkinər, ikincisi, qiyamət gününün hesab-kitabının çətinliyindən qorxarlar.

İmam Sadiq(ə) bu ayənin açıqlamasında belə buyurur: “Yaxşılıq və pisliklərinin dəqiq, hərtərəfli hesabı aparılacaq.”

Yəni dəqiqliklə hesab-kitab olunan kəslər hesabdan yaxşı çıxmayacaqlar. Hər kəsdən dəqiq və çətin hesab alınarsa, qiyamət gününün hesabından qurtarmayacaq. Əgər Allah-təala bizimlə lütf və mərhəməti əsasında hesab-kitab çəkərsə, oradan nicat tapmağımıza ümid yaranar. Yox, əgər ədaləti ilə hesab-kitab aparsa, heç birimiz oradan salamat qurtara bilməyəcəyik.

Günlərin birində Məkkədə İmam Museyi Kazim(ə) ilə Harun ər-Rəşidin yaxşı bir söhbəti düşdü. Məntiqli və elmi müzakirələr əsasında Harun soruşdu: “Ey Peyğəmbər(s) övladı, din nədir? Dini mənim üçün şərh et. İmam Museyi Kazim(ə) müxtəlif rəqəm və ədədləri saymağa başladı. Harun məsxərə ilə gülüb dedi: Mən sizdən din barədə soruşuram, siz isə mənim üçün rəqəmləri sayıb hesablayırsınız? İmam buyurdu: Sən bilmirsənmi ki, din başdan-başa hesab deməkdir? Dini başa düşmək istəyirsənsə, ilk növbədə hesab-kitabı başa düşməlisən.”

İmam Museyi Kazim(ə) ona bu sözləri deməklə başa salmaq istəyir ki, Allaha itaətsizlik edən, Onun qarşısında tüğyan edən insanın hesabı çox dəqiq və çətin olacaq. Harunun barəsində din hesab kitabdır. İmam bu sözlərdən sonra “Ənbiya” surəsinin 47-ci ayəsini oxudu:

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ

-Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç kəsə heç

bir şəkildə zülm olunmayacaq və onların haqlarından kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa belə, onu (tərəziyə) gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir.

Heç kəs elə başa düşməsin ki, qiyamət günü kiməsə zülm olunacaq. Belə düşünənlər çox yanlış bir fikirdədirlər. Çünki qiyamət günü insanın bütün əməlləri ölçüləcək və onun əsasında mükafat və cəza tətbiq olunacaq. Hər kəs zərrə qədər yaxşı iş görübsə xeyrini, pis iş görübsə ziyanını çəkəcək. Deməli, əgər insana mükafat veriləcəksə, öz əməllərinin əsasında veriləcək. Əgər cəza veriləcəksə, o da öz əməllərinin müqabilində olacaq.

Günlərin birində bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mənə öyüd-nəsihət verin. Peyğəmbər(s) ətrafında olan səhabələrə buyurdu: Onun üçün Quran ayələri oxuyun. Səhabələrdən biri həmin kişi üçün “Zəlzələ” surəsini oxumağa başladı. Surənin sonunda bu ayələrə çatdıqda: "Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir." Həmin kişi diqqətlə qulaq asıb dedi: Ya Rəsulallah, mənə kifayətdir. Əgər dünyada zərrə qədər yaxşı, yaxud pis iş etdiyimi qiyamət günü görəcəyəmsə, bu mənə bəs edər. Bundan artıq moizə istəmirəm. Çünki bu özü mənim üçün ən möyük moizə, öyüd və nəsihətdir.”

Əbu Süleyman Darainin şagirdlərindən biri deyir: “Əbu Süleyman dünyadan getmişdi. Bir ildən sonra onu yuxuda gördüm. Ondan vəziyyət və hal-əhvalını soruşdum. O mənə dedi: Dünyada olarkən, bir gün Babus-səğir qəbiristanlığının kənarından keçirdim. Bir nəfər orada dəvənin üstündə yük aparırdı. Mən onun sahibinə demədən əlimi atıb həmin yükdən kiçik bir ağac qırıntısı götürdüm. Həmin ağac qırıntısından balaca bir çöpü ayırıb dişlərimi təmizlədim.

Burada indiyə qədər həmin əməlimin hesab-kitabından qurtara bilmirəm.”

## Şadlıq və narahatlıq anları

İnsanın bu dünyada etdiyi bütün əməllər - gəzməyi, yeməyi, əl-ayağının hərəkəti və hətta yatmağı belə yazılıb qeydə alınır. Qiyamət günü insan dünyada hər an etdiyi əməllərinin əvəzini görəcək.

Həzrət Peyğəmbər(s) buyurur: “Hər bir insana qiyamət günü ömrünün hər anı üçün otaqlar açılacaq. O cümlədən otaqlardan birində nur, şadlıq və rahatlıq görəcək. İnsan həmin otağı gördükdə, o qədər sevinəcək ki, əgər həmin şadlığı bütün cəhənnəm əhlinin arasında bölüşdürsələr, heç bir qəm-qüssələri qalmaz və cəhənnəm odunu unudarlar. Soruşacaq: Bu nə otaqdır belə? Deyəcəklər: Bu dünyada Allaha ibadət etdiyin anların otağıdır.

İkinci otaq çox qorxulu, əzablı və qaranlıq otaqdan ibarət olacaq. İnsan həmin otağı gördükdə elə qorxub vəhşətə düşəcək ki, əgər onun qorxusunu və vəhşətini bütün cənnət əhlinin arasında bölüşdürsələr, (cənnət əhli) həmin qorxu və vəhşəti görüb cənnətin nemətlərindən aldığı ləzzəti unudarlar. Soruşacaq: Bu hansı otaqdır belə? Ona deyəcəklər: Bu dünyada günah etdiyin anların otağıdır.

Üçüncü otağı insana göstərdikdə baxıb görəcək ki, adi boş otaqdır. Orada nə qəm-qüssə, nə də şadlıq görəcək. Soruşacaq: Bəs bu hansı otaqdır? Deyəcəklər: Bu dünyada vaxtını boş keçirdiyin anların otağıdır. Həmin anlarda sən boş gəzirdin, yatırdın və mübah işlər görürdün. Dünyada günah və savab etmədiyin anların otağıdır.

Bunu gördükdə insan təəssüf edib peşman olacaq. Öz-özünə deyəcək: Nə üçün mən ömrümü hədər yerə sərf etdim? Allah-təala “Təğabun” surəsinin 9-cu ayəsində belə buyurur: "Məhz o gün bir-birini (qarşılıqlı) ziyana uğratma günüdür."

## Cənnət qapılarının münafiqlərin üzünə bağlanması

Əgər Allah-təala Öz ədaləti ilə qiyamət günü insandan hesab-kitabı çətin alası olsa, oradan heç bir kəs üzüağ çıxa bilməyəcək. Xüsusilə münafiqlər barəsində bir çox hədis və rəvayətlər nəql olunmuşdur ki, onların hesabı və cəhənnəm əzabı çox çətin olacaq.

İbn Abbas deyir: “Münafiqlər sirat körpüsünün üstünə çıxdıqları zaman oradan cəhənnəmə düşəcəklər. Cəhənnəmin yuxarısından cənnətə bir qapı açılacaq. Cəhənnəm məmuru münafiqləri səsləyib deyəcək: Ey münafiqlər, gəlin bu qapıdan cənnətə girin. Münafiqlər uzun illər min mir əzab-əziyyətlə həmin qapıya tərəf irəliləyəcəklər. Ora çatdıqları zaman cənnətə girmək istədikdə həmin qapı bağlanacaq və digər yerdən açılacaq. Münafiqlər yenə də min bir əzab-əziyyətlə uzun illər yol gedib həmin qapıya çatdıqda, o da bağlanıb digər bir yerdən açılacaq. Əbədi olaraq münafiqlərə cəhənnəmdə belə əzab veriləcəkdir. Allah-təala onları bu şəkildə məsxərəyə qoyub ələ salacaq. “Bəqərə” surəsinin 15-ci ayəsinin mənası elə budur: “Allah da (qiyamətdə) onları ələ salacaqdır. (İndi) kor-koranə dolandıqları azğınlıqlarında onlara möhlət verir və (azğınlıqlarını) gücləndirir.”[1]

## Axirət gününə hazırlıq

İnsana bu dünyada müəyyən müddət ömür verilmişdir. Hər bir insan bu ömrü yaşayıb qurtarmalıdır. Ömür qurtardıqdan sonra etdiyi əməlləri də özü ilə aparır. Qiyamət

[1] Biharul-ənvar,1-ci cild, səh. 301.

günü elə bir gündür ki, ana öz balasından qaçacaq. O günün vəhşət və qorxusundan uşaqların saçı ağaracaq. Belə bir gün üçün insana bu dünyada verilmiş ömrünü orada dərdinə dəyən əməllərlə keçirməlidir. Elə bir iş görməməlidir ki, onun üçün qiyamətin hesab-kitabı çətinləşsin və cəhənnəmə düşsün. İmam Sadiq(ə) İncilin bəzi surələrindən oxuyub bizim üçün bəyan etmişdir. O cümlədən İncilin 25-ci surəsini belə şərh edir:

يَابْنَ آدَمَ! أَكْثِرْ مِنَ الزَّادِ فَإِنَّ الطَّرِيْقَ بَعِيدٌ بَعِيدٌ وَجَدِّدِ السَّفرِينَةَ فإِنَّ البَحْرَ عَمِيقٌ عَمِيقٌ وَ خَفِّفِ الْحَمْلَ فَإِنَّ الصِّراطَ دقِيقٌ دَقِيقٌ وَ أَخْلِصِ الْعَمَلَ فَإِنَّ النَّاقِدَ بَصِيرٌ بَصِيرٌ وَ أَخِّرْ نَوْمَكَ إِلَى الْقَبْرِ وَ فَخْرَكَ إِلَى الْمِيْزانِ وَ شَهْوَتَكَ إِلَى الْجَنَّةِ وَ رَاحَتَكَ إِلَى الآخِرَةِ

-Ey Adəm övladı, (axirətə və səadətə çatmaq üçün) çoxlu azuqə topla. Çünki səfər yolun uzaqdır, çox uzaq. Gəmini yaxşı təmir et ki, dərya dərindir, çox dərin. Bu yolda dərdinə dəyməyən artıq yükləri kənara at (günahlardan çəkin) və özünü yüngülləşdir ki, yol çox dəqiqdir, dəqiq (incə və nazikdir). Əməlini xalis et (əməl və rəftarın ixlasla olsun) ki, hesab alanlar səni görürlər. (Çox) yatmağı kənara qoy ki, qəbirdə çox yatacaqsan (bu dünyada çox yatma və yatmağı qəbir üçün saxla). Fəxr etməyi qiyamət günü tərəzi üçün saxla (elə bir iş gör ki, tərəzi və hesab-kitab zamanı sevinib fəxr edəsən). İstək və meyllərini cənnət üçün saxla.

## Qiyamət günü Həzrət Əlinin(ə) xalis şiələri sorğu-sual olunmayacaq

Bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: “Ey Peyğəmbər(s) övladı, bəzi ayələri oxuduqda görürük ki, qiyamətin sorğu-sualının çox çətin olduğu bəyan edilir. Bəzi ayələri oxuduqda isə görürəm ki, qiyamət gününün hesabı asan olacaq. Bəzi ayələrdə hesab-kitabın olacağını, bəzi ayələrdə isə hesab-kitab olunmayacağını görürük. Mən bu ayələrdən necə bir nəticəyə gələ bilərəm?”

İmam Sadiq(ə) buyurdu: “Allah-təala “Əraf” surəsinin 6-cı ayəsində belə buyurur:

فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ

-Odur ki, şübhəsiz, Biz həm peyğəmbərlərin göndərildiyi kəslərdən (“Bizim peyğəmbərlərimizə nə cavab verdiniz?” deyə) soruşacağıq, həm də peyğəmbərlərdən (“Mənim tapşırdıqlarımı çatdırdınız, ya yox və sizin dəvətinizə nə cavab verdilər?” deyə) soruşacağıq.”

“Ər-Rəhman” surəsinin 39-cu ayəsində isə belə buyurur:

فَيَوْمَئِذٍ لَّا يُسْأَلُ عَن ذَنبِهِ إِنسٌ وَلَا جَانٌّ

-Həmin gün insan və cinlərin heç birindən günahı barəsində (bir şey) soruşulmayacaqdır.”

İmam Sadiq(ə) bu ayələri oxuduqdan sonra buyurdu: "Kimlərdən sorğu-sual olunacağı bəllidir. (Münafiqlər, fasiqlər, yolunu azanlar və s.) Amma qiyamət günü sorğu-sual olunmayan kəslər isə Əlinin(ə) və imamların xalis şiələridir. Onlar hesab-kitabsız cənnətə daxil olacaqlar."

Ümumiyyətlə, Həzrət Əlinin(ə) xalis və saf şiələri qiyamət günü Həzrətlə(ə) məşhur olacaq və Kövsər hovuzunun kənarında bir yerə cəmləşəcəklər. Bu barədə bir çox hədis və rəvayət nəql olunmuşdur. O cümlədən:

قَالَ رَسُولُ اللهِ(ص): يَا عَلِيّ اَنتَ وَ شِيعَتُكَ عَلى الْحَوض. تَسقُونَ مَن أَحبَبتُم وَ تَمنَعُونَ مَن كَرِهتُم

-Həzrət Peyğəmbər(s) Əli(ə) və onun şiələri barədə belə buyurur: "Ya Əli, sən və sənin şiələrin hovuzun kənarında olacaqsınız. Sizi sevənləri ondan içirdəcək, düşmənlərinizə isə ondan içməyi qadağan edəcəksiniz."

## Kövsər nədir?

Bəhsimizə əlavə olaraq bir mətləbi də diqqətə çatdırmaq istərdim. Quranın bir neçə ayəsinə və Peyğəmbərin(s) nurani kəlamlarına əsasən qəbul etmişik ki, Kövsər qiyamətdə danılmaz bir məbhəsdir. Quranın surələrinin birində Allah-təala İslam Peyğəmbərinə(s) belə buyurur: "(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik."

Kövsərin nə olduğu barədə iki əsas fikir qeyd olunmuşdur. Onun mənalarından biri Xanım Fatimeyi Zəhranın(s.ə) mübarək vücududur ki, Allah-təala Peyğəmbərə(s) əta etmişdir. Bu ayənin nazil olma səbəbi belədir ki, düşmənlər Peyğəmbərin(s) oğlan övladı olmadığı üçün ona tənə vurub, Həzrətə(s) sonsuz deyirdilər. Yəni onlar elə başa düşürdülər ki, insanın nəsli yalnız oğlan övladından davam edib arta bilər. Allah-təala "Kövsər" surəsini nazil etməklə Peyğəmbərə(s) təsəlli verir və bu nemətin qarşılığında namaz qılıb Allaha şükür etməyi və dəvə qurban kəsməyi göstəriş veirir. Həmçinin bildirir ki, həqiqətən, (sən sonsuz və nəsilsiz deyilsən), sənin düşməninin özü sonsuzdur və nəsli kəsilmişdir.

Kövsərin ikinci mənası isə hovuz mənasındadır. Həmin hovuz ki, qiyamət günü Peyğəmbər(s), Əli(ə) və onları sevib

itaət edən insanların hamısı o hovuzun kənarına cəmləşəcək və bir-birini görəcəklər. Oranın proqramının nə olduğu başqa bir söhbətdir. Amma Peyğəmbər(s) və Əhli-beyti(ə) sevənlərin hamısının ora cəmləşməsi müxtəlif hədislərdə nəql olunmuşdur. Bu barədə olan hədisləri şəxsən İslam Peyğəmbərindən(s) dəfələrlə eşidib nəql etmişlər. Hətta Həzrət(s) dünyadan gedərkən belə Quran və Əhli-beyti(ə) təkidlə ümmətinə tapşırdı. Quran və Əhli-beyt(ə) Kövsər hovuzunda Peyğəmbərə(s) qovuşanadək bir-birinin ayrılmaz hissələridir. Həmçinin Peyğəmbər(s) təkidlə göstəriş vermişdir ki, heç bir kəs onları bir-birindən ayırmağa cəhd göstərməsin. Hər kəs onları bir-birindən ayırmağa cəhd etsə, yolunu azmışdır. Peyğəmbərin(s) bu hədisini İslam aləmində firqəsindən asılı olmayaraq bütün kitablar qeyd etmişlər.

Ənəs ibn Malik deyir: "Bir gün Peyğəmbəri(s) çox şad halda gördüm. Yaxınlaşıb Həzrətin(s) belə sevinc içində olmasının səbəbini soruşduq. Həzrət Peyğəmbər(s) buyurdu: Elə indicə Allah-təala mənə bu surəni nazil etdi:

بِسمِ اللهِ الرَّحمن الرَّحِيم. إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ. إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

-Bağışlayan və mehriban Allahın adı ilə. (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl, (ona təkbir deyərək) əllərini boğazına qədər yuxarı qaldır (yaxud dəvə qurbanı kəs!). Həqiqətən, (sən sonsuz və nəsilsiz deyilsən), sənin düşmənin özü sonsuz və nəsli kəsilmişdir.

Sonra Peyğəmbər(s) buyurdu: Bilirsinizmi Kövsər nədir? Ərz etdik: Xeyr, ya Rəsulallah. Həzrət(s) buyurdu: O, elə bir bulaqdır ki, Allah- təala onun xeyir-bərəkətini mənə vəd etmişdir. O bulaq həmin hovuzdur ki, qiyamət günü mənim ümmətim onun kənarına cəmləşəcək. O hovuzun kənarında

ulduzların sayı qədər camlar vardır. Qiyamət günü mən həmin hovuzun kənarında olarkən ümmətimdən bir dəstə insan yanıma gələcək. Mən Allaha belə ərz edəcəyəm: İlahi, bunlar mənim ümmətimdəndirlər. İcazə verirsənmi onlar da bu sudan içsinlər? Allah- təala buyurar: Onlar dünyada səndən sonra əhli-beytinlə çox pis rəftar etdilər və çox acı hadisələr törətdilər. Onlara bu sudan içmək qadağandır.”[1]

Kövsər barədə olan ikinci rəvayət belədir: “Kövsər” surəsi nazil olduqdan sonra Peyğəmbər(s) bu surəni ümməti üçün oxudu. Həzrət Əli(ə) dedi: Ya Rəsulallah, Allah sənə Kövsər əta etdi. Onu bizim üçün bəyan et. Peyğəmbər(s) buyurdu: Ya Əli(ə) Kövsər elə bir arxdır ki, Allahın ərşinin altından cərəyan edir. Onun suyu süddən ağ, baldan şirindir. Onun qumları (üstündən axdığı qumlar) mərcan və yaqutdandır.” Peyğəmbər(s) bir qədər danışdıqdan sonra gözləri yaşardı və ağlamağa başladı. Səhabələr Peyğəmbərin(s) bu halını gördükdə onlar da ağladılar. Sonra Peyğəmbər(s) əlini Həzrət Əlinin(ə) çiyninə qoyub buyurdu:

يَا عَلِي وَاللهِ مَا هُوَ لِى وَحدِى وَ اِنَّمَا هُوَ لِى وَ لَكَ وَ لِمُحِبِّيكَ مِن بَعدِى

-Ya Əli(ə) o (Kövsər hovuzu) təkcə mənim üçün deyil. O həm mənim, həm sənin, həm də məndən sonra səni sevənlər üçündür.”

Bu barədə olan üçüncü rəvayət belədir: “Hicrətin yeddinci ilində Xeybər qalaları Həzrət Əlinin(ə) vasitəsilə fəth olunduqdan sonra Peyğəmbər(s) Əlini(ə) tərif və təhsin etdi. Sonra belə buyurdu:

---

[1] Məcməül-bəyan.10-cu cild, səh.549 (“Səhihi-Müslim”dən nəql etməklə).

يَا عَلِيّ، لَو لا إِنِّ اَخافُ أَن يُقَالَ فِيكَ مَا قَالَتِ النَّصَارَى فِى الْمَسِيح، لَقُلتُ اليَومَ فِيكَ مَقالاً لا تَمُرّ بِمَلأٍ مِنَ الْمُسلِمِين اِلاّ اَخَذُوا تُرابَ نَعلَيكَ وَفَضلَ وُضُوئِكَ يَستَشفُونَ بِهِ. وَلكن حَسبُكَ اَن تَكُونَ مِنِّى وَاَنَا مِنكَ تَرِثُنِى وَأَرِثُكَ...

وَ اِنَّكَ اَوَّلُ مَن يَرِدُ عَلَىَّ الْحَوض وَ اِنَّكَ عَلَى الْحَوض خَلِيفَتِى... وَ اِنَّهُ لا يَرِدُ عَلَىَّ الْحَوضَ مَبغِضٌ لَكَ وَلا يَغِيبُ مُحِبٌ لَكَ غَدًا عَنِّى حَتّى يَرِدَ عَلَىَّ الْحَوضَ مَعَكَ يَا عَلِيّ

-Ya Əli, əgər ümmətimin Məsihin ümməti kimi sənin barəndə yanlış yola düşəcəyindən qorxmasaydım, sənin haqqında elə sözlər deyərdim ki, hər bir müsəlman sənin nəleynlərinin altından çıxan torpağı gözlərinə təbərrük üçün üzlərinə sürtər, dəstəmazından axan suyuna əllərini tutub təbərrük üçün üzlərinə çəkərdilər. (Sənin fəzilətin barədə) təkcə bunu deməklə kifayətlənirəm ki, sən məndənsən və mən də səndənəm. Mən səndən irs aparıram. Sən də məndən irs aparırsan... Kövsər hovuzunda mənim yanımda olan ilk şəxs sən olacaqsan. Sən (dünyada mənim xəlifəm olduğun kimi) Kövsər hovuzunun kənarında da mənim xəlifəm olacaqsan... Səninlə düşmən (sənə qarşı qəzəbli) olanlar o hovuzda mənim yanımda olmayacaqlar. Səni sevənlər səninlə birgə həmin hovuzun kənarında mənim yanımda olacaqsınız."

Həzrət Əli(ə) bu sözləri eşitdikdən sonra səcdəyə gedib Allaha şükür etdi.[1]

## Hansı insanlar Kövsər hovuzunun kənarında olacaq?

Yuxarıda Kövsərin mənaları ilə tanış olduq və bildik ki, onun bir mənası da qiyamət günündə olan hovuzdur. Onun necə bir hovuz olduğunu biz bilmirik. Amma müxtəlif hədis və rəvayətlərə əsasən, onun əlamət və nişanlarını təxmin edirik. Hədislərdə belə nəql olunmuşdur ki, hər bir kəs onun suyundan içsə, heç bir vaxt susuz olmayacaq. Onun necə olduğunu biz tam dərk edə bilmirik. Zahiri mənasını isə hədislərdən başa düşürük ki, onun suyu süddən ağ və baldan şirindir. Çünki bizim üçün dünyada baldan şirin və süddən ağ bir şey görünməyib. Buna görəm də hədis və rəvayətlər başa düşəcəyimiz dərəcədə onun mənasını bizim üçün açıqlamışlar. Yəni əgər Kövsər hovuzunu bizim düşüncəmiz qədər başa salmaq lazım gəlirsə, süddən ağ və baldan şirin anlamı ilə başa salırlar. Onun həqiqətinin nə olduğunu bəlkə də ola bilsin elmimiz daha çox inkişaf etdikdə və yaxud öz gözlərimizlə onu gördükdən sonra dərk edə bilək. Hər halda hədis və rəvayətlər bizim başa düşəcəyimiz dərəcədə Kövsərin necə bir hovuz olduğunu bəyan etmişlər. Həmçinin Kövsərin çox mühüm bir şey olduğunu Quranın ayələrindən də öyrənə bilirik. Allah-təala “Kövsər” surəsində Peyğəmbərə(s) buyurur: "(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl, (ona təkbir deyərək) əllərini boğazına qədər yuxarı qaldır (yaxud dəvə qurbanı kəs!)."

---

[1] Mizanül-hikmə,9-cu cild, səh.4388. Biharul-ənvar, 37-ci cild, səh.272.

Bu ayədən görürük ki, Kövsər o qədər böyük nemətdir ki, Allah- təala onun qarşılığında Peyğəmbərə(s) şükür etmək üçün namaz qılmağı və dəvə kəsməyi göstəriş verir.

Burada bilməyimiz yaxşı olar ki, insan hansı şərtlərin əsasında həmin sudan içməyə nail ola bilər. Yəni o sudan içmək istəyən insan hansı əməllərə və hansı şərtlərə riayət etməlidir?

Əgər burada desək ki, Kövsər hovuzundan Əlini(ə) sevənlər istifadə edəcək, bu məsələ üstübağlı qalır. Bu məsələnin üstünü açmaq üçün elə hədislər vardır ki, o hədislərə müraciət etməklə məsələni tam aydınlaşdırmaq olar. Əgər Əlini(ə) sevməklə insan həmin hovuzun kənarında Peyğəmbərin(s) yanında olacaqsa, bəs Əliyə(ə) məhəbbətin mənası nədir? Əgər biz Əlini(ə) sevməyin mənasını başa düşürüksə, deməli, həmin sudan içmək bizə də nəsib olacaq.

Hədis və rəvayətlərdə belə nəql olunur ki, Əlinin(ə) adını zikr etmək ibadətdir. Həmçinin Əlinin(ə) üzünə baxmaq da ibadətdir. Səhabələr deyirlər: "Bir gün Məaz ibn Cəbəl Əliyə(ə) elə baxırdı ki, sanki onu birinci dəfə görürdü. Soruşdular: Ey Məaz, nə üçün Əliyə(ə) belə baxırsan? Məaz dedi: Məgər Peyğəmbərdən(s) eşitmədinizmi ki, Əlinin(ə) camalına baxmaq ibadətdir? Əgər bunu bilirsinizsə, bəs nə üçün mənə belə bir sual verirsiniz?"

Deməli, Əlinin(ə) adını zikr etmək və onun camalına baxmaq ibadət sayılır. Bu məsələ çox aydındır. Amma Əlini(ə) sevməyin mənası hər kəsin başa düşdüyü sevgi deyil. Onu sevməyin xüsusi mənası vardır. Bizə daha çox həmin sevginin mənası lazımdır. Əgər bu sevginin mənasını başa düşsək, o zaman deyə bilərik ki, Əlini(ə) sevənlər həmin hovuzun suyundan sirab olacaqlar. Yaxud belə deyə bilərik ki, həmin mənanı başa düşsək, o zaman deyə bilərik ki, biz Əlini(ə) sevirik. Təkcə dildə qurban olum, sevirəm deməklə insan sevgisini sübut edə bilməz.

Peyğəmbər(s) və Əhli-beyti(ə) sevməyin ümumi mənası bir çox hədislərdə nəql olunmuşdur. O cümlədən Peyğəmbər(s) buyurmuşdur: “Hər kim bizi sevirsə, bizim kimi əməl etməlidir.” Deməli, əgər Peyğəmbəri(s) seviriksə, onun kimi də əməl etməliyik. Məsələn, o, necə namaz qılırdısa, biz də elə namaz qılmalıyıq. O, hər nə buyurursa, ona riayət etməliyik. Əgər bir insan namaz qılmırsa və Əlini(ə) sevdiyini iddia edirsə, onun iddiası boş sözlərdən başqa bir şey deyil. Əlini(ə) sevən hər kəs özünü ona oxşatmalıdır.

Burada incə bir mətləbə də işarə etmək istəyirəm. Allah-təala yer üzündə xəlifə təyin edir. Sual oluna bilər ki, Allahın xəlifəsi kimdir? Cavab belədir ki, hər kəsdə Allahın sifət və xüsusiyyətləri varsa, deməli o, Allahın yer üzərindəki xəlifəsidir. Allah kəramətlidir və əgər bəndə də kəramətli olsa və Allahın digər xüsusiyyətlərini özündə cəmləşdirə bilsə, deməli Onun xəlifəsidir. Peyğəmbər(s) və imamlar Allahın sifətlərini özlərində vücuda gətirmişdilər. Buna görə də Allah-təala onları yer üzündə insanlara xəlifə təyin etmişdi.

Beləliklə, hər kəs Əlini(ə) sevirsə, gərək əxlaqı, hərəkətləri, ibadətləri, imanı, qüdrəti və s. əməlləri də onun kimi olsun. Bir sözlə desək, hər bir cəhətdən özünü ona oxşatmalıdır. Belə olduqda bilinər ki, həqiqətən bu insan Əlini(ə) sevir. İmam Sadiq(ə) bu barədə belə buyurur: “Öz hərəkətlərinizlə bizə zinət olun. Bizim abrımızı aparacaq işləri görməyin.”

İndi isə burada öyrənmək lazımdır ki, Həzrət Əlinin(ə) hansı hərəkətlərini özümüzə örnək götürməklə ona olan sevgimizi sübut edə bilərik? Başqa sözlə desək, hansı əməllərə görə Kövsər hovuzunun kənarında Əlinin(ə) əlindən həmin suyu içə bilərik? Çünki hədislərdə nəql olunur ki, Əli(ə) Kövsər hovuzunun kənarına gələn kəslərlə bir-bir görüşəcək və öz əli ilə onlara həmin sudan içirəcək.

## Kövsər hovuzundan istifadə etməyin şərtləri

Əbu Əyyub Ənsari deyir: "Bir gün Həzrət Peyğəmbərin(s) yanında əyləşmişdik. Bir nəfər Peyğəmbərdən(s) Kövsər hovuzu barədə soruşdu. Peyğəmbər(s) buyurdu: Allah-təala peyğəmbərlər arasında təkcə mənə bu imtiyazı bəxş etmişdir. Allah-təala məndən başqa heç bir peyğəmbərə Kövsər əta etməyib. Kövsərin suyu süddən ağ, baldan şirindir. Oranın ab-havası çox ətirlidir. Onun üzərindən axdığı qumlar dürr və yaqutdandır. O sudan istifadə etməyin şərtləri bunlardır."

### 1. Niyyətin xalis olması

Buradan görürük ki, insan üçün niyyətin xalis olması çox önəmli məsələdir. Əgər insanın niyyəti xalis olmasa, Kövsər hovuzunun suyundan məhrum olacaq. Hər bir əmələ başladıqda ilk öncə niyyət olmalıdır. Namaz, oruc, həcc və s. ibadətlərin hamısının əvvəlində niyyət dayanır. Hər hansı ibadət niyyətsiz yerinə yetirilərsə batildir. Buradan məlum olur ki, niyyət çox mühüm bir məsələdir. Niyyət odur ki, insan gördüyü işi kimi üçün gördüyünü öz qəlbində bilsin. Onu dilə gətirmək bir o qədər də mühüm deyil. Ən əsası insanın qəlbində niyyət edib həmin əmələ başlamasıdır. Beləliklə, niyyəti xalis və təmiz olan insan Kövsər hovuzunun suyundan içmək şansı əldə edə biləcək.

### 2. Qəlbin saf və pak olması

Kövsər suyundan içməyin ikinci şərti insanın qəlbinin təmiz və pak olmasıdır. İnsanın qəlbi elə bir mənbədir ki, bütün bədən üzvləri ondan sərçeşmə alır. Qəlb bir bulağa bənzəyir ki, onun suyu necədirsə, ondan çəkilən arxlar və götürülən sular da eynilə onun kimidir. Əgər bir mənbəyin suyu şirindirsə, ondan borular vasitəsilə evlərə çəkilən sular da şirin olar. Yox, əgər mənbəyin suyu şor olsa, ondan evlərə çəkilən sular da şor olacaq. İnsanın qəlbi də elə bir mənbədir ki, bütün bədən üzvlərinin hərəkəti onun necəliyindən xəbər verir. Əgər göz haram şeylərə baxmırsa, deməli qəlbin istəyi belədir. Əgər insanın əlləri, ayaqları düzgün hərəkət edirsə və həddi aşmırsa, deməli qəlb istəyir ki, onlar düzgün hərəkət etsin. Əgər insanın dili yalan danışmırsa, söyüş söymürsə, qeybət etmirsə və s. günahlara mürtəkib olmursa, bu, qəlbin təmizliyinin nişanəsidir. Hər hansı bir insan namaz qılmasa, haram yeməklər yesə, haram içkilər içsə, günah işlər görsə və qəlbinin təmiz olduğunu iddia etsə, həmin şəxs yalançıdır. Çünki əgər onun qəlbi təmiz olsaydı, heç bir vaxt yalan danışmaz, haram yeməklər yeməz və heç bir günah işlətməzdi. Əgər bir məhəllədə evlərdə su kranını açarkən şor su gəlirsə, deməli əsas anbardakı su şor olduğu üçün evlərə də şor su gəlir. Ola bilməz ki, mənbə şor olsun, amma ondan evlərə çəkilən su şirin gəlsin.

Odur ki, hər kəs Həzrət Əlinin(ə) əlindən Kövsər suyu içmək istəyirsə, mütləq qəlbini təmizləyib saflaşdırmalıdır. Çünki qəlbi saf olmayan insana Kövsər suyu nəsib olmayacaq.

## 3. İmkansızlara əl tutmaq

Kövsər suyundan içməyin şərtlərindən biri maddi imkan olan halda imkansızlara əl tutmaqdır. Əgər insanın imkanı

çatırsa, çox yaxşı olar ki, imkansızların qapısını da tanısın. Yəni əlindən gələn qədər onlara köməklik göstərsin. Belə olduqda insan Kövsər suyundan içmək imkanı əldə edə bilər.

## 4. Borcluları sıxışdırmamaq

Kövsər suyundan içməyin dördüncü şərti borc verdiyin insanı sıxışdırmamaqdır. Yəni əgər bir insan borc pul üçün sənin qapına gəlirsə, imkan olan halda ona borc verirsən. Həmin şəxs borcu vaxtında qaytara bilmədiyi üçün onu sıxışdırmamalısan. Belə ki, həmin şəxsin həqiqətən də borcu qaytarmağa imkanı çatmır. Əgər borclu şəxs bilərəkdən və imkan olduğu halda borcunu qaytarmaq istəmirsə, Allahın qəzəbinə düçar olacaq. Burada söhbət imkanı olmayan borcludan gedir ki, əgər borc verən kəs onun imkansızlığını nəzərə alıb sıxışdırmasa, Kövsər suyundan içə biləcək.

## 5. Peyğəmbərin(s) vəsi və canişininə itaət etmək

Kövsər suyundan içməyin şərtlərindən biri Peyğəmbərin(s) yer üzündə təyin etdiyi xəlifə və vəsisinə itaət etməkdir. Həzrət Peyğəmbər(s) buyurur: “Kövsər suyundan içməyin şərtlərindən biri mənim vəsiimə (naibimə) təslim olmaqdır. Çünki mənim vəsiim onun tərəfdarı olmayanlara Kövsər suyundan verməyəcək.”[1]

Odur ki, hər bir müsəlman Peyğəmbərin(s) vəsisini tanımalı, ona təslim olmalı, əmrinə itaət etməli, sözlərinə qulaq asmalı, onunla daim əlaqə saxlamalı və salam göndərməlidir. Belə olduqda qiyamət günü insan onun mübarək əlindən Kövsər suyunu alıb içə biləcək.

---

[1] Biharul-ənvar, 8-ci cild, səh.27.

Həzrət Əli(ə) buyurur: “Qiyamət günü mən və itrətim Peyğəmbərin(s) hüzurunda, Kövsər hovuzunun kənarında olacağıq. Dünyada bizə itaət edən, sözlərimizə qulaq asıb onlara əməl edən hər bir kəsə şəfaət edəcəyik. Həm də onların özləri şəfaət etməyə haqq qazanacaqlar. Beləliklə, Kövsər hovuzunun kənarında bizim görüşümüzə gəlmək üçün çalışın. Bu yolda bir-birinizi ötməyə cəhd edin. Biz orada düşmənlərimizə Kövsər suyundan içməyi haram edəcək, dostlarımıza isə o sudan içirəcəyik. Hər kəs Kövsər suyundan içərsə, bir daha susuz olmayacaq.” [1]

## 6. Namaza qeyri-ciddi yanaşmamaq

Kövsər suyundan içməyin şərtlərindən biri də namaza çox əhəmiyyət vermək və ona qeyri-ciddi yanaşmamaqdır. Hər kəs dünyada namaza əhəmiyyət verməsə və ona qeyri-ciddi yanaşsa, həm Kövsərin suyundan içə bilməyəcək, həm də Peyğəmbərin(s) şəfaəti həmin şəxsə şamil edilməyəcəkdir.

İmam Baqir(ə) buyurur: “Peyğəmbər(s) dünyadan köçən zaman vəsiyyət edərkən son anlarında belə buyurdu: “Namaza qeyri-ciddi yanaşan kəslər məndən deyildir. And olsun Allaha, namaza qeyri-ciddi yanaşanlar hovuz kənarında mənə qovuşmayacaqlar.”

Namaz hər bir müsəlman üçün çox əhəmiyyətlidir. Odur ki, həm namazın vaxtı, həm də camaatla qılınması böyük əhəmiyyət kəsb edir. Əgər ətrafdakı məscid və hüsey-niyyələrdə camaat namazı qılınırsa, evdən çıxıb camaat namazında iştirak etmək lazımdır. Bundan əlavə, namazı vaxtlı-vaxtında qılmaq zəruridir. Namazın vaxtını ötürmək yaxşı hal deyil. Namazın vaxtını ötürmək ona qeyri-ciddi yanaşmaq kimi bir şeydir.

[1] Nurun-səqəleyn,5-ci cild, səh.181.

İmam Həsən Əskərinin(ə) yaxın dostlarından biri deyir: “Günlərin birində Həzrətin(ə) evinə getmişdim. Gördüm ki, əlində kağız və qələm tutub məktub yazır. Elə bu zaman azan deyildi. İmam(ə) əlindəki kağız və qələmi kənara qoyub namaza başladı. Mən də iqtida edib onunla birgə namaz qıldım. Namazı qurtardıqdan sonra gəlib həmin kağız və qələmi götürdü və məktubun davamını yazmağa başladı.”

Namazın əhəmiyyətli olduğunu Peyğəmbər(s) və imamlar bizə belə öyrətmişlər ki, insanın əlində hər nə qədər mühüm iş olursa-olsun, azan deyilən vaxt bütün işləri kənara qoyub namazını qılmalıdır. Namaz elə bir mühüm məsələdir ki, imanla küfrün arasındakı sərhəddir. Namaz İslamın üzü və möminin ədəbidir. Namaz möminin meracıdır. Mömin namaz qılarkən sanki meraca gedir. Buna görə də namaza qeyri-ciddi y yanaşmaq olmaz. İnsan özünü namaza hazırlaşdırmalı, azandan qabaq namaz üçün görüləcək tədarükü yerinə yetirməlidir. Hətta çox yaxşı olar ki, azan deyilməzdən əvvəl bir neçə dəqiqə səccadənin üstündə əyləşib namazın vaxtının daxil olmasını gözləsin. Çünki namazı gözləməyin özü də ən yaxşı ibadətlərdən biridir. Namazın vaxtının daxil olmasını gözlədikdə həmin anlar insan üçün yazılır və heçə getmir.

Odur ki, hər kəs namaza əhəmiyyət versə və ona qeyri-ciddi yanaşmasa, Allah-təala Kövsər hovuzunun suyundan içməyi ona nəsib edər.

## 7. Haram içkilərdən çəkinmək

Kövsər suyundan içməyin şərtlərindən biri haram içkilərdən çəkinməkdir. Əgər insan qarnını haram yeməklərlə doldursa, heç vaxt onun üçün təyin olunmuş məqsədə çata bilməz. Əgər maşına benzin əvəzinə palçıqlı su töksələr, o maşın yeriyərmi? Benzin əvəzinə palçıqlı su tökülmüş maşın

insanı heç bir məqsədə çatdıra bilməz. Həmçinin qarnını haramla dolduran insan mənəviyyat aləmində heç bir məqsədə çatmaz. Yemək və içmək o zaman insanda nuraniyyət yaradar ki, təmiz və halal olsun. Lazım deyil ki, insanın yeməyi rəngarəng olsun. Az da olmuş olsa təki halal yeməklər olsun. Əgər bir insan maşına benzin əvəzinə palçıqlı su töksə, maşın işə düşməyəcək. Kənarda dayanıb öz-özünə fikirləşəcək ki, görəsən bu maşın nə üçün işə düşmür? Məgər bilmirmi benzin əvəzinə palçıqlı su tökəndə maşın yeriməz? Məgər insan bilmirmi ki, haram yeməklər onun mənəviyyat və nuraniyyətini pozub dağıdır?

Məlumdur ki, insanda nuraniyyətin yaranmamasının və dualarının qəbul olunmamasının ən əsas səbəbi haram yeməklər və içkilərdir. Hər bir günah insanın ruhunda öz təsirini mütləq göstərməlidir. Hədislərdə deyilir ki, insanın ayağına dəyən bir daş belə onun hansısa bir günahının nəticəsidir. Hətta insan günah fikrə düşsə və onu eləməsə belə həmin günah fikri onun qəlbinə öz təsirini göstərəcəkdir. Xüsusilə haram içkilər içən insan həm cəzalanacaq, həm də Kövsər suyundan içə bilməyəcək. İmam Baqir(ə) Peyğəmbərin(s) son anlarında bu barədə buyurduğu hədisi belə nəql edir: "Məstedici içkilər içən kəs məndən deyildir. Haram içkilər içən kəs Kövsər hovuzunun kənarında mənə qovuşmayacaq."[1]

## 8. Camaat üçün su çəkdirmək

Hər kəs Allaha xatir su quyusu qazsa və ya su arxı çəkdirib camaata bağışlasa, Kövsər suyundan içmək şansı əldə edə bilər. Peyğəmbər(s) və Əhli-beyt(ə) bu işin yolunu bizə öyrətmişlər. Məsələn, Həzrət Əli(ə) bir qəsəbədən

---

[1] Biharul-ənvar, 83-cü cild, səh.9.

keçərkən gördü ki, orada camaatın istifadəsi üçün su quyusu yoxdur. Həzrət(ə) orada axtarış aparıb müəyyən bir yerdə quyu qazdı. Oradan gözəl su çıxdı və Həzrət(ə) həmin quyunu düzəltdirib məntəqə əhalisinə bağışladı. Sonra həmin quyunun suyu ilə dəstəmaz alıb iki rükət namaz qıldı. Namazı qılıb qurtardıqdan sonra belə dua etdi: "İlahi, mənim yeməyim də, iş görməyim də sənə xatirdir. Bu quyunu Sənə xatir qazıb bəndələrinə ehsan etdim. Sonra Sənə xatir onun kənarında namaz qılıb ibadət etdim."

Odur ki, hər bir insan ömründə camaatın su ehtiyacını quyu qazmaqla, su çəkdirməklə ödəyə bilsə, Kövsər suyundan içmək şansını əldə edə bilər.

## 9. Oruc tutana iftar vermək

Kövsər suyundan istifadə etməyin şərtlərindən biri də budur ki, hər kəs oruc tutan adama iftar versə, Allah-təala Kövsər suyunu həmin şəxsə nəsib edər. Həzrət Peyğəmbər(s) bu barədə belə buyurur: "Hər kəs oruc tutan adamı doyursa, Allah-təala onu Kövsər suyu ilə sirab edər."

## 10. İmamların qəbrini ziyarət və təmir etmək

Kövsər suyundan içməyin onuncu şərti isə imamların qəbrini ziyarət və təmir etməkdir. Hər kəs hər hansı bir imamın qəbrini ziyarət etsə və yaxud oranı təmir etsə, Allah-təala həmin şəxsi Kövsər suyu ilə sirab edib doyurar. Peyğəmbərdən(s) bu barədə olan hədis belədir:

-Həzrət Peyğəmbər(s) Əliyə(ə) belə buyurdu: "Ya Əli, hər kəs imamların qəbrini ziyarət etsə və məqbərələrini təmir etsə, onlara xüsusi şəfaətim nəsib olar və hovuz kənarında mənə qovuşarlar. İmamların qəbrini ziyarət etənləri tənqid edib qınayanlar mənim ümmətimin ən şər adamlarıdır. And

olsun Allaha, mənim şəfaətim onlara nəsib olmayacaq və mənim hovuzuma qovuşmayacaqlar."[1]

Həzrət Peyğəmbərin(s) həyatına diqqət yetirdikdə görürük ki, Həzrət(s) qəbirlərin ziyarətinə gedər, orada Allaha dua edər və şəhidlər üçün ağlayıb göz yaşı tökərdi.

Əbu Davud Rəbiədən və Rəbiə Təlhə ibn Übeydullahdan belə bir rəvayət nəql edir: “Bir gün Peyğəmbər(s) Ühüd şəhidlərinin qəbrini ziyarət etmək qərarına gəldi. Biz də Həzrətə(s) qoşulub onunla getdik. Ühüd şəhidlərinin qəbiristanlığına çatdıqda Peyğəmbər(s) buyurdu: Bu qəbirlər bizim səhabələrimizin və dostlarımızın qəbirləridir. Bunlar bizim din qardaşlarımızın qəbridir.”[2]

## Müraqibət

Ötən bəhslərdə qeyd olundu ki, peyğəmbərlər müəyyən məqsədlər əsasında insanlar üçün göndərilmişlər. Onların əsas məqsədlərindən biri irqindən asılı olmayaraq bütün insanları saflaşdırmaqdan ibarət olmuşdur. Həmçinin qeyd olundu ki, insanın saflaşmasının və ruhunun paklaşmasının müəyyən amil və səbəbləri vardır ki, peyğəmbərlər həmin amilləri insanlara öyrətmişlər. Yuxarıda həmin amillərin onu barədə lazımi qədər söhbət etdik. Qeyd olundu ki, həmin amillərdən birincisi və ən önəmlisi tövbədir. Tövbə insanın saflaşması üçün ən mühüm məsələ və amillərdəndir. Ümumiyyətlə, insanı saflaşdıran amillərə diqqət yetirsək görərik ki, tövbə onların hamısından öndə qərar tutur. Yəni

---

[1] Biharul-ənvar, 100-cü cild, səh.121.

[2] Sünəni-ibn Davud, 2-ci cild, səh.218 (Həcc kitabı, hədis-2043)

sıra etibarı ilə götürsək, insan ilk növbədə tövbədən başlamalıdır. Bu haqda geniş söhbət etdik və tövbədən öncə və sonra riayət olunası məsələlərdən də bəhs etdik. Eyni zamanda tövbədən sonra riayət olunası üç məsələ barədə ətraflı söz açdıq. Tövbədən sonra riayət olunası məsələlərdən biri röyət, ikincisi riayət, üçüncüsü mühasibə və dördüncüsü müraqibətdir. Biz bunların üçündən söz açdıq. Bu bəhsimizi isə tövbədən sonra riayət olunası dördüncü məsələ ilə davam etdiririk.

## Müraqibətin birinci mənası

Tövbədən sonra riayət olunası dördüncü məsələ müraqibətdir. Müraqibət hər bir insana lazım olan məqam və əməldir. Müraqibət rəqib sözündən götürülərək "güdmək" və "göz altında saxlamaq" mənasını ifadə edir. Dini və əxlaq nöqteyi-nəzərindən müraqibətin iki əsas mənası vardır. Hər iki mənanı bilmək insan üçün çox önəmlidir. Müraqibətin birinci mənası budur ki, insan həmişə onu göz altında saxlayıb nəzarət edənlərin olduğunu bilməlidir. Yəni insan həmişə yadında saxlamalıdır ki, gözə görünməyən qüvvələr tərəfindən bütün hərəkətləri nəzarət altında saxlanılır və yazılır. Əgər insan yanında olan və gözə görünməyən qüvvələrin onun hərəkətlərini qeydə aldıqlarını bilib başa düşsə, günah etməyə xəcalət çəkər. Əgər insan onu güdənlərdən və nəzarət edənlərdən xəcalət çəksə, heç vaxt tövbəni pozmaz. İnsan üçün tövbədən sonra riayət ediləsi məsələlərdən biri də məhz müraqibətdir. Əgər insan müraqibətə riayət etməsə, tövbənin həqiqətinə çata bilməyəcək. Əgər insan onun əməllərini güdən və yazanların olduğunu başa düşməsə, hər zaman demək olar ki, tövbəsini sındıra bilər. İnsan keçmişdəki günahlarından etdiyi tövbəni

qoruyub saxlamaq üçün mütləq həmin məsələlərə riayət etməlidir.

Burada sual oluna bilər ki, insanın əməllərini güdən və nəzarət altında saxlayanlar kimlərdir? Əlbəttə, bu barədə keçmiş bəhslərimizdə müəyyən qədər söhbət etmişik. Xatırlatmaq üçün bəhsimizə uyğun olaraq həmin mətləblərdən bir neçəsini qeyd edək. Baxaq görək, bizim əməllərimizə kimlər nəzarət edir.

1.İnsanın əməllərinə və bütün hərəkətlərinə nəzarət edən birinci kəs Allahdır. "Əhzab" surəsinin 52-ci ayəsində belə oxuyuruq:

وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ رَّقِيبًا

-Allah həmişə və hər bir şeyə nəzarət edəndir.

Bu ayədə görürük ki, Allah-təala nəinki insanlara, hətta hər bir şeyə nəzarət edir. Elə bir şey yoxdur ki, Onun nəzarətindən kənarda qalmış olsun. "Nisa" surəsinin 1-ci ayəsində belə oxuyuruq:

إِنَّ اللّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا

-Həqiqətən, Allah daim sizə nəzarət edir.

Həmçinin "Ələq" surəsinin 14-cü ayəsində oxuyuruq:

أَ لَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

-Məgər bilmir ki, Allah (onun bütün əməllərini) görür?!

Bu ayələrdə Allah-təala hər bir şeyə nəzarətçi olduğunu və hər bir şeyi gördüyünü bəyan edir. İnsan bütün bunları başa düşüb dərk etməlidir ki, Allah-təala daim onun üzərində nəzarətçidir.

Hədislərdən belə nəql olunur ki, insan günah edərkən iki haldan kənarda deyil. Biri budur ki, insanın onun başı üzərindəki nəzarətçinin mövcudluğuna, Allahın onun bütün əməllərinə şahid olmasına əqidə və inamı yoxdur. Belə bir

əqidədə olmaq küfrün nişanəsidir. Yəni əgər bir insan Allahın onu gördüyünü inkar edirsə və qəbul etmirsə, bu küfrdür. Əgər bir insan Allahın onun bütün əməllərini gördüyünə əqidə və inamı olduğu halda günah edirsə, Allaha qarşı çox böyük hörmətsizlik edir. Allaha inamı olan, Allahın onun bütün əməllərini gördüyünə etiqadı olan bir insan günah edirsə, ən azı Ona qarşı böyük hörmətsizlik və ədəbsizlik etmişdir. "Yunis" surəsinin 61-ci ayəsində belə oxuyuruq:

وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُو مِنْهُ مِن قُرْآنٍ وَلاَ تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلاَّ كُنَّا عَلَيْكُمْ شُهُودًا إِذْ تُفِيضُونَ فِيهِ وَمَا يَعْزُبُ عَن رَّبِّكَ مِن مِّثْقَالِ ذَرَّةٍ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاءِ وَلاَ أَصْغَرَ مِن ذَلِكَ وَلا أَكْبَرَ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ

-Hər hansı halda və işdə olsan, Onun tərəfindən Qurandan hər hansı bir hissəni oxusan və (boynunda ilahi vəzifə olan siz bəndələr) hər nə iş görsəniz, ona məşğul olduğunuz zaman Biz orada hazır və sizə şahidik. Və nə yerdə, nə göydə zərrə ağırlığı qədər də bir şey sənin Rəbbin(in zat, qüdrət və elminin əhatəsin)dən gizli deyildir. Və ondan (zərrədən) nə kiçik, nə böyük bir şey yoxdur ki, aşkar kitabda (əşyaların həqiqətlərinin əks olunduğu və Allah dərgahına yaxın olanların gözləri önündə aşkar olan bir lövhədə) qeyd edilməmiş olsun.

İnsanın elə bir əməli yoxdur ki, Allah dərgahında yazılıb qeydə alınmasın. Heç bir şey Ondan gizli deyildir. Özü də bütün insanların hər bir hərəkəti saniyə və anına qədər kitabda yazılıb qeydə alınır. Allah insanın bütün əməllərinə şahid və nəzarətçidir. Buna görə də insan həmişə yadında saxlamalıdır ki, Allah onun bütün əməllərini görür. Belə

olduqda günah etmək istərkən Allahın onun başı üzərində nəzarətçi olduğunu dərk edib günahdan çəkinər.

Tarixi mənbələrdə yazırlar ki, bir arif insan Məkkə səfərinə yola düşür. Qədim zamanlarda mexaniki nəqliyyat vasitəsi olmadığı üçün təbii ki, at və ya dəvə ilə səfərə çıxardılar. Günlərlə, aylarla yol getdikləri üçün gecələr müxtəlif məntəqə və mənzillərdə gecələməli olurdular. Həmin şəxs gecələrin birində bir məntəqədə gecələməli oldu. Orada bir çobanla rastlaşdı ki, çoxlu sayda qoyunu var idi. O, çobana dedi: “Bu qoyunlardan birini mənə sata bilərsənmi? Çoban dedi: Bu qoyunlar mənim deyil. Mən bir ağanın quluyam ki, onun qoyunlarını otarıram. Onun icazəsi olmadan qoyunları kiməsə sata bilmərəm. Qonaq dedi: Sən qoyunun birini mənə sat, ağan soruşanda deyərsən ki, o qoyunu canavar apardı. Çoban dedi: Axı mənim iki ağam var. Biri qoyunları mənə tapşırandır. O birisi isə həmişə başımın üzərində mənə nəzarətçi olan ağamdır. Qoyunları mənə tapşıran ağama yalan danışa bilərəm. Amma həmişə məni görən ağama bəs nə cavab verərəm? Qonaq çobanda olan bu imanı görüb gözləri yaşla doldu. O, bu sözləri çobanı yoxlamaq üçün deyirdi. Çobanın Allaha olan bu imanına görə dedi: İndi ki, sən bir ağanın qulusan, mən səni ondan alıb azad edirəm. Çoban bu sözləri eşidib sevindi. Həmin şəxs ona müəyyən məbləğdə pul da verib dedi: Bu pulu al və get özünü azad elə. Çoban ona çox minnətdarlıq və təşəkkür etdi. Qonaq dedi: Həmişə başının üzərində olan ağanın adı səni azad etdi. Ümid edirəm ki, axirətdə də səni azad edəcək.”

Əgər insan həmişə onun başı üzərində ağası və mövlası olduğunu başa düşsə, heç bir vaxt günah etməz və azad insan olar. Allah həmişə insanın mövlası və ağasıdır. İnsanın heç bir əməl və hərəkəti Ondan gizli deyil. Tarixə nəzər saldıqda görürük ki, müşriklər öz bütlərini müsəlmanlara göstərib

deyərdilər: “Bu bütlər bizim mövlamız və ağamızdır.” Peyğəmbər(s) müsəlmanlara buyurdu: “Nə üçün onlara cavab vermirsiniz? Dedilər: Ya Rəsulallah, onlara necə cavab verək? Həzrət(s) buyurdu: Onlar öz bütlərinə mövla və ağa deyirlər, siz də deyin ki, Allah bizim ağamız və mövlamızdır.”

2. İnsanın bütün əməllərinə nəzarət edən ikinci qüvvə Allahın təyin etdiyi gözətçi mələklərdir. Onlar gecə-gündüz bizim bütün əməllərimizə şahid və nəzarətçidirlər. Quranda “Qaf” surəsinin 17-18-ci ayələrində Allah-təala bu mələklər barədə bizə belə xəbər verir:

إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ. مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

-(Yada sal) o zaman(ı) ki, (insanın düşüncə və əməllərini) qəbul edən o ikisi (o iki mələk) onun sağında və solunda oturub qəbul edirlər. Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

Biz eşitmişik ki, bu mələklər insanın sağında və solunda əyləşib onun əməllərinə nəzarət edir və yazırlar. Əlbəttə ki, bunu Quran ayəsinə istinad edərək öyrənmişik. Onlar daim insana nəzarət edirlər. Onlar elə məmurlardır ki, heç bir vaxt yuxulmaz və heç vaxt nəyisə gözdən qaçırmazlar. Hədislərdə nəql olunmuşdur ki, onlar növbə ilə işləyirlər. Gecənin öz mələkləri, gündüzün isə öz mələkləri var. Sübh namazı vaxtında onlar dəyişib növbəsini digər iki mələyə təhvil verirlər.

Bir nəfər deyir: “Günlərin birində Həzrət Əli(ə) ayaqyoluna gedərkən qapıda dayanıb müəyyən sözləri dedikdən sonra içəri keçdi. Oradan çıxdıqdan sonra mən Həzrətdən(ə) soruşdum: Ya Əmirəlmöminin, siz ora daxil

olmazdan öncə kiminlə söhbət edirdiniz? Halbuki sizin kənarınızda heç bir kəsi görmədim. Həzrət(ə) buyurdu: Mənim yanımda həmişə nəzarətdə olan iki mələk var. Mən onlara dedim ki, ey Ətit, ey Rəqib, mən sizdən həya etdiyimə görə xahiş edirəm mənimlə içəri daxil olmayasınız. Sizə söz verirəm ki, orada sizin kağız və qələminizə ehtiyac olan bir iş görməyəcəyəm. Onlar mənimlə razılaşıb bayırda gözlədilər. Onlarla belə bir şərt kəsib içəri daxil oldum. Oradan çıxdıqdan sonra yenə də mənə qoşuldular.

"İnfitar" surəsinin 11-12-ci ayələrində oxuyuruq:

وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ. يَعْلَمُونَ مَا تَفْعَلُونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər vardır). Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.[1]

İnsan elə düşünməməlidir ki, onun əməllərini görən yoxdur. Elə başa düşməsin ki, heç kəs ona nəzarət etmir və əməllərini qeydə almır. Biz bunu görməsək də, hiss etməsək də onlar həmişə var və daim bizim üzərimizdə nəzarətçidirlər. Həzrət Əli(ə) "Kumeyl" duasında münacat edərək deyir:

اِلَهِي وَ سَيِّدِي وَمَولاي، فَأَسئَلُكَ... اَنْ تَهَبَ لِى فِى هذِهِ اللَّيْلَةِ وَفِى هَذِهِ السّاعَةِ كُلَّ جُرْمٍ اَجْرَمْتُهُ، وَكُلَّ ذَنْبٍ اَذْنَبْتُهُ، وَكُلَّ قَبِيحٍ اَسْرَرْتُهُ، وَكُلَّ جَهْلٍ عَمِلْتُهُ، كَتَمْتُهُ اَوْ اَعْلَنْتُهُ اَخْفَيْتُهُ اَوْ اَظْهَرْتُهُ، وَكُلَّ سَيِّئَةٍ اَمَرْتَ بِاِثْباتِهَا الْكِرامَ الْكَاتِبِينَ الَّذينَ وَكَّلْتَهُمْ بِحِفْظِ ما يَكُونُ مِنِّى

[1] İnfitar, 10-12.

وَجَعَلْتَهُمْ شُهُوداً عَلَيَّ مَعَ جَوارِحي، وَكُنْتَ اَنْتَ الرَّقيبَ عَلَيَّ مِنْ وَرائِهِمْ، وَالشّاهِدَ لِما خَفِيَ عَنْهُمْ.

-Ey mənim Allahım, ağam və mövlam... Bu gecə və bu saat mənim etdiyim bütün xətaları, mürtəkib olduğum bütün günahları, gizlində etdiyim bütün pis əməlləri, xəlvətdə və ya aşkarda, gizlində və ya zahirdə etdiyim bütün nadanlıqları, mənə müvəkkil etdiyin mələklərin məndən yazdığı bütün günahları bağışlayasan. O günahlar ki, mənim bütün əzalarımı onlar üçün şahid qərar vermisən, Sən də onların arxasında gözətçi olmusan, onlardan gizli olan günahlara şahid olmusan, amma öz rəhmətinlə onları gizlətmisən, öz fəzlinlə üstünü örtmüsən.

Odur ki, əgər insan onun bütün əməllərinə nəzarət edənlərin və Allahın da həm nəzarətçilərə, həm də bəndələrinə nəzarətçi olduğunu başa düşsə günah edərmi? Hədislərdə nəql olunur ki, insanın hər bir günahının altında bir tövbə yazılarsa, Allah həmin şəxsi bağışlayar. İnsanın nəfsi bir tərəfdən, şeytan da digər tərəfdən insanı həmişə haqq yoldan azdırmağa çalışır. Bəzən insan nafsinə aldanıb bir neçə dəqiqə günaha mürtəkib olur. Günahdan sonra səhv iş gördüyünü anlayır və tövbə edir. Bəzi böyük şəxsiyyətlər dua edərkən belə deyirlər: "İlahi, mən Səninlə düşmənçilik ucbatından günah etməmişəm. Mən şeytana və nəfsimə aldanıb günah etmişəm. Mənim günahımı bağışla."

İnsan üçün müəyyən olunmuş gözətçi mələklərin xüsusiyyətlərindən biri də odur ki, insan günah, yaxud savab iş görməzdən əvvəl bu işdən xəbər tuturlar. Yəni insanın niyyətinin pis və yaxşı olduğunu bilirlər. Abdullah ibn Musa ibn Cəfər belə bir rəvayət nəql edir:

سَأَلتُهُ عَنِ الْمَلَكَين هَل يَعلَمَانِ بِالذَّنبِ اِذَا اَرَادَ العَبدُ اَن يَفْعَلَهُ اَوِ الْحَسَنَةَ؟ فَقَالَ: رِيحُ الكَنِيف وَ رِيحُ الطِيب سَواءٌ؟ قُلتُ: لا. قَالَ: اِنَّ العَبدَ اِذَا هَمّ بِالْحَسَنَة خَرَجَ نَفَسُهُ طَيِّبَ الرِّيح فَقَالَ صَاحِبُ اليَمِين لِصَاحِبُ الشِّمَال قُم فَاِنَّهُ قَد هَمَّ بِالْحَسَنَة فَاِذَا فَعَلَهَا... وَ اِذَا هَمَّ بِالسَّيِّئَة خَرَجَ نَفَسُهُ مُنتِنَ الرِّيح فَيَقُولُ صَاحِبُ الشِّمَال لِصَاحِبُ اليَمِين قِف فَاِنَّهُ قَد هَمَّ بِالسَّيِّئَة فَاِذَا فَعَلَهَا...

-Atamdan bu iki mələk barədə soruşdum: İnsan günah və ya yaxşı iş görmək fikrinə düşdükdə həmin mələklər hiss edirlərmi? Həzrət(ə) buyurdu: Pis şeyin qoxusu ilə yaxşı şeyin qoxusu eynidirmi? Dedim: Əlbəttə ki, eyni deyildir. Həzrət(ə) buyurdu: Bəndə yaxşı iş görmək fikrinə düşdükdə onun nəfəsindən gözəl iy gələr. Elə olduqda sağda əyləşən mələk solda əyləşən mələyə deyər: Sən uzaqlaş. Çünki bunun işi mənlikdir. Həmin bəndə iradə etdiyi yaxşı işi gördükdə onu qeyd edib yazar. İnsan günah iş görmək fikrinə düşdükdə isə nəfəsindən pis iy gələr. Belə olduqda sol tərəfdə əyləşən mələk sağda əyləşən mələyə deyər: Sən dayan, bunun işi mənimlədir. Əgər həmin şəxs günah işi görsə, solda əyləşən mələk onun etdiyi əməli qeydə alıb yazar.[1]

İmam Sadiqin(ə) səhabələrindən biri belə rəvayət edir: “Bir gün Həzrətin(ə) hüzurunda idik. Mən Həzrətdən(ə) soruşdum: Ey Allahın Höccəti, Allahın insanların bütün əməllərinə hakim və şahid olduğu bir halda nə üçün bu iki mələyə bizim əməllərimizi yazmağı tapşırmışdır?

[1] Üsuli-kafi, 4-cü cild, səh.162.

قَالَ الصَّادِقُ(ع): اِستَعبَدَهُم بِذَلِکَ وَجَعَلَهُم شُهُودًا عَلَی خَلقِهِ لِيَكُونَ العِبَادُ لِمُلازِمَتِهِم اِيَّاهُم اَشَدُّ عَلَی طَاعَةِ الله مُوَاظِبَةً وَ عَن مَعصِيَتِهِ أَشَدَّ اِنقِاضاً. وَ كَم مِن عَبدٍ يَهِمُّ بِمَعصِيَةٍ فَذَکَر مَكانَهُمَا فَارعَوی فَكَفَّ فَيَقُول رَبِّي يَرانِي وَ حَفَظَتِي عَلى بِذَلِک تَشهَد.

وَاِنَّ اللهَ بِرَئفَتِهِ وَ لُطفِهِ وَكَّلَهُم بِعِبَادِهِ، يَذبُونَ عَنهُم مردةَ الشَّيطان وَ هَوامَ الأَرض وَ آفاتٍ كَثِيرَة مِن حَيثُ لا يَرونَ بِإِذنِ الله، اِلی ان يجيء اَمرالله عَزّوَجَلّ.

-İmam Sadiq(ə) bu sualın cavabında belə buyurdu: “Allah-təala bu işi mələklərə tapşırmaqla onlar üçün ibadət təyin etdi. (Yəni bu iş onların Allaha ibadətidir. Allahın əmr etdiyi hər bir işi yerinə yetirmək ibadətdir.) Allah bu mələkləri bəndələrinə şahid qərar verərək onların əməllərini yazmağa məmur etdi ki, insan onların şahid olduğunu bilib Allaha ibadət etməkdə daha ciddi olsunlar və günahla qarşılaşdıqda (mələklərin nəzarətçi olduğunu bilib) həya edərək çəkinsinlər. Belə işlər dəfələrlə baş vermişdir ki, bəndə günah etmək fikrinə düşdükdə ona nəzarət edənlərin olduğunu xatırlayıb həmin günah fikrindən daşınır və öz-özünə deyir: Allahım məni görür və məni qoruyan mələklər isə şahiddirlər.”

Allah Öz mərhəmət və lütfü ilə həmin mələkləri vəkil etdi ki, şeytanları bəndələrindən uzaqlaşdırsınlar. Hətta bu mələklər bəndələri Allahın izni ilə bir sıra canlıların

ziyanlarından və bir çox bəlalardan saxlamaq üçün məmur olunmuşlar.[1]

Beləliklə, əgər insan onun başı üzərində Allahın və mələklərin nəzarətçi olduğunu başa düşsə, həmin şəxs islah və pak ola bilər. Bu müraqibətin ikinci mənasıdır ki, tövbədən sonra insan həmişə bunu düşünməli və yadda saxlamalıdır. Müraqibət insanın nuraniyyətə, səadətə, hidayətə və paklığa çatmasında çox böyük rola malikdir. Buna görə də əgər insan harada olmasından asılı olmayaraq, ona nəzarətçilərin olduğunu başa düşsə, ona müxtəlif qüvvələrin baxmasına və əməllərinin yazılmasına sidq ürəkdən imanı olsa, həmin şəxsin demək olar ki, paklaşmasına yol açılmışdır. Adətən, insanlar günah edərkən, çirkin işlər görərkən və pis hərəkətlərə yol verərkən özlərini tək hiss edirlər. Yəni ona nəzarət edənləri və əməllərini yazıb qeydə alanları unudurlar. Əgər insan bilsə ki, onun bütün hərəkətlərinə nəzarət var, heç vaxt günaha əl atmaz. Əgər insan başa düşsə ki, qiyamət günü onun əməllərinin hamısı açılacaq və dünyada gördüyü bütün işlərin kitabı film kimi mələklərin, peyğəmbərlərin və imamların gözü qarşısında açılacaq, onda günah edərmi? Qiyamətin adlarından biri "sirlərin açılacağı gün"dür. O gün insanın dünyada gördüyü bütün işlərinin üstündən pərdələr götürüləcək. Orada hamı bir-birinin həqiqi üzünü görəcək. Biz dünyada insanları olduğu kimi tanımırıq. Əgər biz əli Quranlı, həmişə dəstəmazlı, ibadət əhli olan nurani bir insan görürüksə, qiyamət günü onun həqiqi simasını görəcəyik. Ola bilsin ki, həmin şəxsin nuraniyyəti bizim gördüyümüzdən daha çox imiş. Həmçinin ola bilsin ki, bir insanı zahirdə çox yaxşı bir insan kimi tanıyaq. Amma

[1] Təfsiri-nümunə, 26-cı cild, səh.226.

sirlərin və iç üzlərin açıldığı qiyamət günündə onun necə olduğu məlum olacaq. Qiyamət günü günahkarların həqiqi üzləri açıldıqda onların hər biri günahına uyğun olaraq bir heyvanın surətini alacaq. Dünyada hər bir günah sahibini qiyamət günü hamı üzlərindən tanıyacaq. Dünyada çox az insanlar tapılar ki, mənəviyyat aləmində irəli getmiş, nuraniyyət sayəsində insanların həqiqi üzünü və qiyafəsini görmüşlər.

Ayətullah Ağa Camal Xonsari Nəcəf şəhərində otuz ildən artıq İmam Əlinin(ə) hərəmində camaat namazı qılmışdı. Həzrət Əlinin(ə) hərəminin xadimi onun barəsində belə bir hadisəni danışır:

-Bir gün gecə yarısı gördüm ki, Ayətullah Xonsari Həzrət Əlinin(ə) qəbrinin yanına gəlib dayandı və işarə ilə söhbət etdi. Mən yalnız onun sözlərindən bir cümləni eşitdim ki, deyirdi: "Ya Əmirəlmöminin, istəmirəm, al məndən." Mən çox təəccübləndim. Çünki 30 ildən artıq idi ki, İmam Əlinin(ə) hərəmində xadim işləyirdim. Bu otuz ildə gündə yüzlərlə insan Həzrətin(ə) qəbrinin kənarında dayanıb deyərdilər: Ya Əli(ə), filan istəyimi ver mənə. Lakin Ayətullah Xonsarinin "Ya Əli(ə), al məndən, istəmirəm" - deməsi məni çox təəccübləndirdi. Ayətullah Xonsari getmək istəyərkən ona yaxınlaşıb bunun sirrini soruşduqda o, heç bir söz demədi. Mən çox xahiş etdim və dedim: Əgər bunun sirrini mənə deməsən, ürəyimdə qalacaq. Ona Həzrət Əlinin(ə) pak ruhuna and verdim ki, bunun sirrini mənə desin. Ayətullah Xonsari buyurdu: Mən bunun sirrini sənə deyərəm. Lakin nə qədər mən sağam, heç kəsə bu barədə bir kəlmə belə demə. Mən ona söz verdim ki, heç kəsə bir kəlmə də deməyəcəyəm. O, mənə buyurdu: "Allah mənə Həzrət Əlinin(ə) vasitəsilə çox məqamlar inayət edib. Onlardan biri budur ki, mən onun vasitəsilə insanların iç üzünü və daxili qiyafəsini görürəm. Sizin bu dünyada gördüyünüz insanların

çoxunu mən insan qiyafəsində görmürəm. Evimdə bir süfrə kənarında oğlanlarım, qızlarım, nəvələrim, dostlarımla əyləşəndə onların hərəsini bir sifətdə görürəm. Məsələn, biri it, biri pişik, biri meymun və s. kimi sifətlərdə görürəm. Mənim ürəyim buna dözmür və çox əziyyət çəkirəm. Mən bu hala dözə bilmədiyim üçün Həzrət Əlinin(ə) yanına gəlib bu halı məndən almasını istədim."

Qiyamət günündə o qiyafə və surətləri hamı görəcək. Çünki qiyamət günü həm gözlərdən pərdələr götürüləcək, həm də bütün sirlərin üstü açılacaq. Bu dünyada belə bir halı yalnız Allahın ən yaxın dostları və bəndələri uzun illər ibadət və itaət etdikdən sonra görə bilərlər. Bu dünyada hər insana bu məqam verilməz. Mərhum Rəcəb Əli Xəyyat deyirdi: "Mən evdən çıxıb bazara gedərkən yolda və bazarda çox az insan görürdüm. Qalanları isə gözümə müxtəlif qiyafə və surətdə görünürdü."

Odur ki, əgər insan onun əməllərinə şahid olanların, etdiklərini yazanların və həmişə ona nəzarət edənlərin olduğunu bilsə, heç bir vaxt günah etməz. Belə olduqda həmin insanın qəlbi nurla dolar və insaniyyət mərhələsinin uca məqamını əldə edə bilər.

3. İnsanın bütün əməl və hərəkətlərinə nəzarət edən üçüncü qüvvə İslam Peyğəmbəridir(s) ki, şəxsən Allah-təala ona bu işə icazə vermişdir. Hədis və rəvayətlərə əsasən həftədə iki dəfə bütün insanların əməlləri Həzrətə(s) təqdim olunur. Həzrət Peyğəmbər(s) bütün insanların əməllərinə baxıb nəzarət edir. Bu məsələ barədə "Tövbə" surəsinin 94-cü ayəsində oxuyuruq:

وَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَرَسُولُهُ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ

-Sizin əməllərinizi tezliklə Allah və Onun Peyğəmbəri görürlər. Sonra gizlini və aşkarı bilənə tərəf qaytarılacaqsınız. Beləliklə, O, sizi etdiklərinizdən xəbərdar edəcəkdir.

"Tövbə" surəsinin 105-ci ayəsində belə oxuyuruq:

وَقُلِ اعْمَلُواْ فَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَرَسُولُهُ وَالْمُؤْمِنُونَ

-Və de: "İstədiyinizi edin ki, tezliklə əməlinizi Allah, Onun Peyğəmbəri və möminlər (əməllərinizin dünyadakı şahidləri) görürlər."

Birinci ayədə bəyan olunur ki, sizin əməllərinizi Allah və Peyğəmbər(s) görür. İkinci ayədə bir söz də əlavə edərək belə buyurur: "Sizin əməllərinizi Allah, Onun Rəsulu(s) və möminlər görürlər."

Bu ayədə Allah və Rəsulunun(s) bizim əməllərimizə şahid olduqlarını bilirik. Görəsən, burada qeyd olunan möminlər kimlərdir?

İmam Baqir(ə) bu ayəni oxuduqdan sonra belə buyurdu: "Ayədə işlənən möminlər sözündə məqsəd (Peyğəmbərin(s) naibləridir. Onların hamısının başçısı) Əli ibn Əbu Talibdir(ə)."

Peyğəmbərdən(s) sonra Allahın yer üzündə insanlar üçün təyin etdiyi imamların hər biri öz əsrində Peyğəmbərin(s) ümmətinin əməllərinə nəzarət edirlər. Bütün insanların əməllərinin hesabını onların hüzuruna gətirirlər. Onlar da bütün ümmətin əməl dəftəri ilə maraqlanırlar. Hazırda həftədə iki dəfə əməl dəftərlərimiz dövrümüzün imamı olan Həzrət Mehdiyə(ə.c.) təqdim olunur.

Davud Riqqi adlı bir nəfər deyir:

-Mən Məkkə ziyarətinə getmişdim. Həmin il orada İmam Sadiqlə(ə) görüşdüm. Həzrət(ə) məni görən kimi elə bir söz buyurdu ki, məni təəccüb götürdü. Müqəddiməsiz olaraq mənə belə buyurdu: "Ey Davud, keçən cümə axşamı sənin

əməllərini mənə təqdim etdilər. Mən sənin əməllərinlə tanış oldum. Orada gördüm ki, sən əmin oğlu filankəsə sileyi rəhm etmisən. Sənin bu əməlini oxuduqda sevindim. Sənin bu əməlin onun əcəlinin tezləşməsində böyük rolu olacaq."

Ətrafdakılar İmamın(ə) bu sözlərindən bir şey başa düşə bilmədilər. Davud onlara dedi: "Mən İmamın(ə) sözlərini çox gözəl başa düşdüm. Çünki bu işin səbəbkarı mənəm. Bu iş mənim barəmdə olduğu üçün Həzrət(ə) mənə xəbər verdi. Mənim bir əmim oğlu var. O, Əhli-beytin(ə) düşmənlərindən biridir. Eşitmişdim ki, bu axır vaxtlarda çox pis vəziyyətə düşüb və yaman günə qalıb. Onun maddi vəziyyəti çox ağırlaşmışdı. Mən Məkkəyə yola düşməzdən əvvəl Allah rizası üçün ona bir şey göndərdim. Özüm onun yanına gedə bilmədiyim üçün bir nəfərlə onun üçün müəyyən qədər (pul və ya ərzaq) yolladım. Bu gün Məkkədə İmam Sadiqlə(ə) görüşdükdə yaxşı bir iş gördüyümü mənə xəbər verdi."

Beləliklə, insan yəqin bilməlidir ki, Allah-təala, Onun Peyğəmbəri(s) və məsum imamlar bütün əməlləri görürlər. Buna görə də əgər bir insan başa düşsə ki, Allah, Peyğəmbər(s) və imamlar onun bütün əməllərinə nəzarət edirlər, o zaman günah edərmi?

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ أَعمَالَكُم تُعرضُ عَلَيَّ كُلَّ يَومٍ. فَمَا كَانَ مِن حَسَنٍ اِستَزَدتُ اللهَ لَكُم. وَ مَا كَانَ مِن قَبِيحٍ اِستَغفَرتُ اللهَ لَكُم

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər gün sizin əməlləriniz mənə təqdim olunur. Sizin əməllərinizin yaxşı olduğunu gördükdə, Allahdan onları (yaxşı əməllərinizi) daha çox etməyi diləyirəm. Yox, əgər günah işlərinizin şahidi olduqda, Allahdan sizin üçün bağışlanmaq istəyirəm.[1]

[1] Mizanül-hikmə, 9-cu cild, hədis-14389.

## Müraqibətin ikinci mənası

Müraqibətin ikinci və əsas mənası budur ki, insan özü öz əməlinə və nəfsinə müraqib olsun. Yəni insan həmişə öz əməllərinə qoruqçu və keşikçi olmalıdır. Alimlər müraqibətin ikinci mənasına dair belə misal çəkmişlər:

-Ana öz balasına müraqib və gözətçi olduğu kimi, insan da eləcə öz əməllərinə gözətçi olmalıdır. Ana iki-üç yaşlı uşağını heç vaxt gözdən qoymur. Çünki uşağı gözdən qoyduqda və nəzarətsiz buraxdıqda uşaq bir anın içində özünü təhlükəyə ata bilər. Uşaq hara getdiyini bilmir. Onu azacıq nəzarətsiz qoyduqda eyvana çıxıb oradan aşağı baxar və başı üstə yerə düşə bilər. Buna görə də ana öz balasının arxasınca gəzib ona müraqib olduğu kimi, insan da gərək öz-özünə nəzarətçi və gözətçi olsun. Hədislərdə bizə bunu təkid etmişlər. Buyurmuşlar ki, ağlınız nəfsinizin üzərində gözətçi olsun. İmkan verməyin ki, nəfsiniz sizi istədiyi yerə sürükləsin.

قَالَ عَلِيٌّ(ع): اِجعَل مِن نَفسِكَ عَلَى نَفسِك رَقِيبًا وَاجعَل لِآخِرَتِكَ مِن دُنيَاكَ نَصِيبًا

İmam Əli(ə) buyurur: "Özün tərəfindən özünə nəzarətçi, gözətçi təyin et və öz dünyandan axirətin üçün bəhrə götür."[1]

Bu barədə böyük İslam alimlərinin və ariflərin çox sifariş və tövsiyələri vardır. Onlar da insanın öz-özünə nəzarətçi

---

[1] Mizanül-hikmə, hədis-7403.

olduğunu təkidlə bizə tapşırmışlar. Mərhum Əllamə Təbatəbayinin şagirdlərindən biri deyir:

-Usdadımız tez-tez bu cümləni bizim üçün təkrar edərdi. Səadət və xoşbəxtliyin toxumu müraqibətdir. Müraqibət insanın bostanda əkdiyi bir toxuma bənzəyir, arif və təqvalı insanlar onun yetişib bəhrə verməsi üçün həmişə onu nəzarətdə saxlayar və qoruyarlar. Əgər müraqibət olmasa, insanın zikr etməsinin, gecə namazı qılmasının və digər əməllərinin faydası olmaz. Yəni insan özünü günahdan saxlaya bilməsə, öz üzərində nəzarətçi olmasa, etdiyi ibadətlər ona fayda verməyəcək. Çünki zikr və ibadətin insana o zaman faydası olar ki, insan günaha düşməsin.

Digər bir yerdə alimlər belə bir misal da çəkirlər. Dərmanın xəstəyə o zaman faydası olar ki, özünü ona ziyan verən işlərdən və yeməklərdən saxlasın. Məsələn, həkim bir xəstəni müayinə etdikdən sonra ona yağlı və duzlu şeyləri yeməyi qadağan edir və onun üçün müəyyən dərmanlar yazır. Xəstə həm duzlu və yağlı yeməklər yeyir, həm də həkimin yazdığı dərmanlardan istifadə edir. Belə olduqda həmin dərmanların onun xəstəliyinə heç bir faydası olmayacaq. Çünki həkimin əsas göstərişinə əməl etməmiş, yağlı və duzlu yeməklər yemişdir. Dərman həmin xəstəyə o zaman təsir edər ki, xəstə dərmanlardan istifadə etməklə yanaşı, özünü yağlı və duzlu yeməklərdən də saxlasın.

## Nəfsi saxlamaq üçün onu cəzalandırmaq

Bu bəhsimizə incə bir mətləbi də əlavə etməyimiz yaxşı olardı. Həmin mətləb budur ki, insana öz nəfsini nəzarətdə saxlamaq üçün öz-özünü cəzalandırmağa icazə verilmişdir. Məsələn, bir insanın dili qeybət etməyə adət edir. Öz-özünə

fikirləşir ki, mən nə vaxta qədər onun-bunun qeybətini qılacağam? Qarşısına məqsəd qoyur ki, əgər bir də dilimə qeybət gəlsə, üç gün oruc tutmaqla özümü cəzalandıracağam. Və yaxud yalan danışmamaq üçün insan özünə söz verir ki, əgər bir də dilimə yalan gəlsə, özümü cəzalandırmaq niyyəti ilə bir gün su içməyəcəyəm. Yaxud əgər naməhrəmə baxsam, beş saat günəşin isti şüaları altında əyləşib özümü cəzalandıracağam.

Odur ki, insana öz-özünü nəzarətdə saxlamaq üçün nəfsini cəzalandırmağa icazə verilir. Bu barədə bir çox hədis və rəvayətlər vardır ki, nümunə üçün bir neçəsinə diqqət yetirək.

قَالَ عَلِيٌّ(ع): نِعْمَ العَونُ عَلى أَسَرِ النّفسِ وَكَسْرِ عادَتِها التّجوُّعُ

-Həzrət Əli(ə) buyurur: "Çox yaxşıdır ki, insan nəfsini pis adətlərdən və günahlardan təmizləmək üçün (onu cəzalandıraraq) özünü ac saxlasın."[1]

Təlhə deyir: "Bir gün Həzrət Peyğəmbər(s) bir ağacın altında əyləşmişdi. Hava çox isti və yandırıcı idi. Həzrət Peyğəmbər(s) ətrafa göz gəzdirdikdə gördü ki, bir nəfər paltarlarını çıxarıb və qızmar günün altında çılpaq bədənini daşlara sürtür. Sinəsini qızmar daşlara sürtərək öz-özünə belə deyirdi: "Dad bu dünyanın əzabını. Bil ki, cəhənnəmin əzabı bundan daha şiddətlidir." Elə bu halda birdən gözü Peyğəmbərə(s) sataşdı. Peyğəmbər(s) onu yanına çağırıb soruşdu: Sən nə edirsən belə? Həmin şəxs dedi: Ya Rəsulallah, nəfsim məni aldatmışdı. (Bir günaha düşmüşdüm. Bu hərəkəti etməklə özümü cəzalandırmaq istəyirəm.) Özümü cəzalandırmaq üçün bundan başqa bir çarə tapa bilmədim. Peyğəmbər(s) buyurdu:

[1] Ğürərül-hikəm, səh.320, hədis-7408.

اَمَا لَقَد فُتِحَت لَكَ اَبوَابُ السَّماء وَبَاهَى اللهُ عَزّوَجَلّ بِكَ الْمَلائِكَة.

ثُمَّ قَالَ(ص) لِأَصحَابِه: تَزَوَّدُوا مِن اَخِيكُم

-Göyün rəhmət qapıları sənin üzünə açıldı. Allah-təala mələklərin arasında səninlə fəxr edir. Sonra üzünü səhabələrə tutub buyurdu: Gedin qardaşınızdan azuqə toplayın. (Nəfsinizlə mübarizə etməyi öyrənin). Səhabələr onun yanına gəlib dedilər: Bizə dua et."[1]

## Şeyx Bəhainin əhvalatı

Günlərin birində Şeyx Bəhai özünü cəzalandırmaq üçün belə bir qərar qəbul etdi ki, qırx gün ürəyi istədiyi yeməklərdən yeməsin. Səhər yolda gedərkən burnuna kəlləpaça yeməyinin iyi dəydi. Ətrafda olan yeməkxanaların birində xaş və kəlləpaça bişirirdilər. Səhər yeməyini yemədiyi üçün öz-özünə fikirləşdi ki, gedib orada həmin yeməkdən yesin. Birdən yadına düşdü ki, qırx gün sevdiyi yeməklərdən yeməyəcəyinə söz verib. Sonra bir neçə addım atıb, geri qayıtmaq istədi. Yenə də fikrindən daşındı. Bu minvalla bir neçə dəfə yeməkxanaya tərəf getdi və geri qayıtdı. Elə bu an cavan bir oğlanla toqquşdu. Həmin oğlanın papağı yerə düşdü. Oğlan papağını yerdən götürüb ona dedi: “Şeyx, sənin nəfsin səndən kəlləpaça istəyir, bəs mənim papağımın günahı nədir?”

Şeyx Bəhai deyir: “Öz-özümə təəccübləndim ki, bu oğlan haradan bildi ki, mənim ürəyim kəlləpaça yemək istəyir? Çünki o, qiyafə və görkəmindən nə alimə, nə də zahid insanlara oxşayırdı. Ona bir söz demədim və xahiş etdim ki,

[1] Mizanül-hikmə,5-ci cild, səh. 2126. Hədis-7439.

məni bir neçə gün evində qonaq saxlasın. O, mənimlə razılaşdı. Birlikdə onun evinə getdk. Həmin gün gecə oldu. Gecəyarısı gördüm ki, ev sahibi yuxudan oyanıb otaqdan çıxdı. Mən də qalxıb yavaş-yavaş onun ardınca getməyə başladım. Ancaq istəmirdim ki, onu izlədiyimi bilsin. Həyətə düşüb qapıdan küçəyə çıxdı. Küçənin o biri tərəfində kiçik bir bağa daxil oldu. Dəstəmaz alıb səccadəsini yerə saldı və eşqlə ibadət etməyə başladı. Mən qapının arxasında dayanıb ona baxırdım. Birdən gördüm ki, sübh namazına az qalıb. Tez geri qayıdıb otağa daxil oldum və yerimə girdim. Oğlan evə qayıdıb sübh namazını otaqda qıldı. Mən də qalxıb namaz qıldım və sonra əyləşib bir az söhbət etdik. Sonra gətirib süfrə açdı. Yemək əsnasında mənə dedi: Şeyx, səhər yeməyini yeyəndən sonra gedə bilərsən. Dedim: Qonağa belə deməzlər. Qonağın üç gün qalmağa ixtiyarı var. Oğlan dedi: Bu, yerində rahat yatan qonağa aiddir, sənə yox. Gecəyarısı ev yiyəsinin arxasınca gəzən qonağa bu da çoxdur. Yeməyini ye və çıx get."

Odur ki, əgər insan öz-özünə nəzarət edə bilsə, danışığında, yeməyində, baxmağında və s. hərəkətlərində diqqətli olsa, öz hesabını qoruyub saxlaya bilsə, insanlığa və mənəviyyat aləminə çata bilər.

## Nəfsin saflaşmasına və ruhun paklaşmasına mane olan amillər

Qeyd etdik ki, peyğəmbərlər müəyyən məqsədlərə görə insanlar üçün gəlmişlər. Onların əsas məqsədlərindən biri insanların ruhunu paklaşdırıb bunun yollarını öyrətməkdir. Həmçinin qeyd olundu ki, insan bir sıra amillər vasitəsilə ruhlarını paklaşdıra bilərlər. Bu mövzunun davamı olaraq

çox yaxşı olar ki, insanın ruhunun paklaşmasına mane olan amillərlə də tanış olaq. Biz bilməliyik ki, ruhun paklaşmasının yolu üzərində müəyyən maneələr vardır. Təzkiyə meydanına daxil olmaq və ruhunu saflaşdırmaq istəyən insan mütləq bu yolda olan maneələri aradan qaldırmalıdır. Əks təqdirdə təzkiyəyə və saflaşmağa nail ola bilməyəcək. İnsanın öz qarşısında olan maneəni aradan qaldırmadan məqsədə çatması qeyri-mümkündür. Bəzən onun qarşısında elə amillər olur ki, təzkiyəyə, saflaşmağa və təqvaya çatmağa mane olur. Nümunə üçün burada həmin maneələrdən bir neçəsi ilə tanış olaq.

## 1. Pis dostlarla oturub-durmaq

İnsanın təzkiyə olunmasının və ruhunun saflaşmasının qarşısını alan amillərdən biri pis dostlarla oturub-durmaqdır. Ümumiyyətlə, insan kiminlə dost olması və oturub-durması barədə yaxşı düşünməlidir. Çünki insanın daxilində fitri və pisxoloji xüsusiyyətlər vardır. Psixoloqlar insanın xüsusiyyətlərindən biri barədə maraqlı bir fikir irəli sürmüşlər. Onlar demişlər: “İnsan ruhunun əsas özünəməxsus cəhətlərindən biri budur ki, onun daxilində həmrənglik hissi vardır.” Yəni insan özündən asılı olmayaraq həmişə özünü kiməsə bənzətmək istəyir. Bu xüsusiyyət insanın daxilində olan qeyri-iradi bir hissdir. Bu, böyüklərlə müqayisədə uşaqlarda daha çox və tez-tez görünür. Böyüklərin uşaqlara nisbətən ağlı çox olduğuna görə həmin hissi büruzə vermirlər. Lakin uşaqlarda bu halı tez-tez müşahidə etmək mümkündür.

Məsələn, uşağın atası öz ayaqqabılarını cütləyib rəfə qoyur. Uşaq da ayaqqabılarını çıxarıb atasının ayaqqabılarının yanına qoyur. Yaxud qız uşaqları xoşlayırlar ki, analarının ayaqqabılarını geyməklə özlərini onlara bənzət-

sinlər. Ata evdə namaz qılarkən uşaq da möhürü yerə qoyaraq atasının yanında dayanır və onun hərəkətlərini təkrarlayır.

Həmçinin bəzi insanların kiməsə daha çox məhəbbəti olduqda özlərindən asılı olmayaraq özlərini ona oxşatmağa çalışırlar. Mənim bir dostum var idi. O, böyük alimlərdən birini çox sevirdi. Həmin alim əslən lənkəranlı idi. Dostum həmişə onun moizə və dərslərində əyləşib ona qulaq asırdı. Həmin alim çox yaşlı olduğu üçün tez-tez "bəli" sözünü işlədirdi. Bu sözü ona görə tez-tez deyirdi ki, əvvəlki fikrini tamamlayıb izah etsin. Mənim dostum isə onu çox sevdiyindən ixtiyarsız olaraq onun kimi danışmaq istəyirdi. O da bizimlə söhbət edərkən tez-tez "bəli" sözünü təkrarlayırdı. Biz onu başa salırdıq ki, ustad çox qoca olduğu üçün bu sözü təkrar edir və bununla sözü-sözə calamağa çalışır. Sən cavan oğlansan və danışığın da səlisdir. Nə üçün "bəli" sözünü tez-tez işlədirsən. O da bizə "Özümdən asılı deyil" – deyirdi.

Bəzi alimlər bu xüsusiyyətin fitri olmasını qəbul etmirlər. Əsas sözümüz bundadır ki, bu məsələ fitri olsa da, olmasa da insanda belə bir xüsusiyyət var ki, öz dostundan, yoldaşından və ustadından da təsirlənir. Buna görə də insan həm yaxşı insanlarla, həm də pis insanlarla oturub-durduqda onların təsiri altına düşə bilir. İnsanda belə bir hal və xüsusiyyətin olduğuna görə, Quran bizə kiminlə oturub-durmaqda diqqətli olmağa çağırır. Bunu bilib sonadək riayət etmək isə heç şübhəsiz, insanın təzkiyə olunmasıl və paklaşması üçün çox mühüm məsələdir. Bu baxımdan məsələyə düzgün yanaşılmaması və oturub-durduğun adamların fərqinə varmayanlar sonda peşmançılıqla qarşılaşacaqlar. Allah-təala "Furqan" surəsinin 27-29-cu ayələrində belə buyurur:

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا. يَا وَيْلَتَى لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا. لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنسَانِ خَذُولًا

-Və (yada sal) o gün(ü) ki, zalım öz əllərinin arxasını çeynəyərək deyəcək: "Kaş peyğəmbərlə birlikdə (mən də Allaha tərəf gedərək) bir yol tutaydım." "Vay olsun mənə! Kaş (mənim azmağıma səbəb olan) filankəsi (özümə) dost tutmayaydım." "Həqiqətən, o, Allahın zikr edilərək xatırlanması (və ya Peyğəmbər və Quranın həqiqəti) mənə çatdıqdan sonra o (həmin dost) məni ondan (zikrdən, Peyğəmbərdən və Qurandan) yayındırdı. Şeytan insanı həmişə xar edib və (indi də) edir.

Pis dostlarla oturub-durmaq insanı bədbəxtliyə sürükləyər. Onlar elə bir oda bənzəyərlər ki, insanı yandırıb kül edərlər.

قَالَ عَلِيٌّ(ع): اِيَّاكَ وَ مُعَاشرَةَ الأَشرَار فَإِنَّهُم كَالنَّار مُباشِرَتُهَا تُحرِق

-Həzrət Əli(ə) buyurur: "Şər insanlarla yoldaşlıq etməkdən çəkinin. Onlar od-alov kimidirlər. Belə insanlarla yoldaşlıq etmək və ünsiyyətdə olmaq insanı yandırar."[1]

Pis və şər insanlarla yoldaşlığın sonu təkcə bununla bitmir. Hər kəs pis insanlarla yoldaşlıq etsə və ünsiyyətdə olsa, camaat həmin şəxs barədə də yaxşı fikirləşməz.

قَالَ عَلِيٌّ(ع): مُجَالَسَةُ الأَشرَار تُورِث سُوءَ الظَّنِ بِالأَخيَار

-Həzrət Əli(ə) buyurur: "Şər insanlarla oturub-durmaq camaatın sənin barəndə pis fikirləşməsinə səbəb olar."[1]

---

[1] Ğürərül-hikəm, 2-ci cild, səh. 289.

Yəni məsələn, əgər bir insan içki içən deyilsə o zaman onun içki ilə bağlı yerlərdə nə işi var? Əgər bir insan içki içən deyilsə, içki içənlərlə nə üçün oturub-durur? Əgər bir insan narkoman deyilsə, bəs nə üçün narkomanlarla oturub-durur? Əgər insan bu kimi insanlarla oturub- dursa, camaat da onu həmin adamlardan biri kimi qəbul edəcəklər. Haramxorluq edən insanlarla oturub-duranı camat da haramxor hesab edər. Yaxşı bir insan günahkarlarla oturub-durduqda, yaxud onlarla yoldaşlıq etdikdə hamı onu günahkar bilər. Xüsusilə mömin insana yaraşmaz ki, şər, günahkar və fasiq insanlarla oturub-dursun.

قَالَ عَلِيٌّ(ع): لَا يَنْبَغِي لِلْمَرْءِ الْمُسْلِمِ أَنْ يُوَاخِيَ الْفَاجِرَ فَإِنَّهُ يُزَيِّنُ لَهُ فِعْلَهُ وَ يُحِبُّ أَنْ يَكُونَ مِثْلَهُ وَ لَا يُعِينُهُ عَلَى أَمْرِ دُنْيَاهُ وَ لَا أَمْرِ مَعَادِهِ وَ مَدْخَلُهُ إِلَيْهِ وَ مَخْرَجُهُ مِنْ عِنْدِهِ شَيْنٌ عَلَيْهِ

-Həzrət Əli(ə) buyurur: “Müsəlmana heç yaraşmaz ki, günahkar və fasiq insanla yoldaşlıq və qardaşlıq etsin. Çünki fasiq insanlar öz (çirkin və pis) əməllərini zinətləndirər və bəzəyərlər ki, həmin müsəlman da onlar kimi olsun. Nə dünya işlərində, nə də axirət işlərində ona köməkləri dəyməz. Fasiq və pis insanın evinə gəlib-getməsi sənin mənəviyyatını korlayar.”[2]

Şeytanın işlərindən biri budur ki, həmişə günah və şər işləri insanın gözündə gözəlləşdirməyə və insanı o işləri görməyə sövq etdirsin. Şeytan həmişə çalışar ki, Allahın bəndələrini Allahdan ayırıb, özü kimi etsin. Özü Allaha səcdə etmədiyi üçün səcdə edən bəndələri də haqq yoldan

[1] Müvəffəqiyyət rəmzi, səh. 181.
[2] Üsuli-Kafi, 4-cü cild, səh. 454.

sapındırmağa çalışar. Hədislərdə nəql olunur ki, insanın əməllərindən səcdə qədər şeytanın belini sındıran bir əməl yoxdur. İnsan səcdə edərkən şeytan ah-nalə edib deyər: "Vay olsun mənə, mən səcdə etmədim fasiq və mürtəd oldum. Amma adəm övladı səcdə edib Allaha yaxın oldu." Buna görə də Allaha səcdə edənlərdən acığı gələr və bəndələri özü kimi etməyə çalışar. Fasiq insanlar da həmişə şeytanın hiyləsindən istifadə edib onunla yoldaşlıq edəni özünə tərəf çəkər. Necə deyərlər, cəhənnəmə gedən özünə dost axtarar.

قَالَ الصَّادِقُ(ع): لَا يَنْبَغِي لِلْمَرْءِ الْمُسْلِمِ أَنْ يُوَاخِيَ الْفَاجِر وَلاَ الأَحْمَقَ وَلا الْكذّابَ

İmam Sadiq(ə) buyurur: “Müsəlmana heç yaraşmaz ki, fasiq, axmaq və yalançı insanlarla yoldaşlıq edib onlarla ünsiyyət yaratsın.”[1]

Həmçinin İmam Sadiq(ə) üç dəstə insandan uzaq gəzməyi tövsiyə edərək belə buyurur:

اِحذَر مِنَ النَّاسِ ثَلاثَة: اَلْخَائِن وَالظَّلُوم وَالنَّمَّام، لِأَنَّ مَن خَانَ لَكَ خَانَكَ وَمَن ظَلَمَ لَكَ سَيَظلِمُكَ وَمَن نَمَّ إِلَيكَ سَيَنَمّ عَلَيكَ

-Üç dəstə insandan çəkin! Xain, zalım və söz gəzdirən. Çünki sənə görə xəyanət edən, (bir vaxt kiməsə görə) sənə də xəyanət edər. Sənə görə kiməsə zülm edən, (bir vaxt kiməsə görə) sənə də zülm edər. Sənə görə xəbərçilik edən (bir gün kiməsə görə) səndən də başqasına xəbər aparar.[2]

---

[1] Üsuli-Kafi,4-cü cild, səh. 454.
[2] Tühəfül-üqul, səh. 329.

قَالَ رَسُولُ اللهِ(ص): لا تُجَالِسُوا شَارِبَ الْخَمر وَ لا تُزَوِّجُوهُ وَ لا تَتَزوَّجُوا اِلَيهِ وَ اِن مَاتَ فَلا تُشَيِّعُوا جَنَازَتَهُ، اِنَّ شَارِبَ الْخَمر يَجِئُ يَومَ القِيَامَة مُسوَدًّا وَجهُه

-Həzrət Peyğəmbər(s) buyurur: "İçki (şərab) içənlə oturub-durmayın. Ondan qız almayın və ona qız verməyin. Əgər ölsə onun cənazəsinin müşayiət olunmasında iştirak etməyin. Qiyamət günü içki (şərab) içən insanın üzü qapqara olduğu halda məhşərə gələcək."[1]

Həzrət Peyğəmbər(s) bu hədisdə bizə başa salır ki, həm içki içən insanlarla oturub-durmaq insanın təzkiyə olunmasına mane olur, həm də onun gördüyü bu işin pis olduğunu özünə başa salmaq lazımdır. Onunla bütün əlaqələri kəsmək lazımdır ki, qoy səhvini başa düşüb etdiyi işdən çəkinsin. Həmçinin içki aludəçisi olan insan dünyadan gedərkən onun cənazə və dəfn mərasimində iştirak etməməkdə məqsəd digər içki aludəçilərini bu işdən çəkindirməkdir. Qoy digər içki içənlər də onun aqibətini görüb əməllərindən çəkinsinlər.

Eləcə də bidət edən insanlarla oturub-durmaq və ünsiyyət yaratmaq da insanın nuraniyyətini əlindən alar və onu təzkiyə olunmağa qoymaz.

قَالَ الصَّادِقُ(ع): لَا تَصْحَبُوا أَهْلَ الْبِدَعِ وَ لَا تُجَالِسُوهُمْ فَتَصِيرُوا عِنْدَ النَّاسِ كَوَاحِدٍ مِنْهُمْ. قَالَ رَسُولُ اللَّهِ صلى الله عليه و آله: الْمَرْءُ عَلَى دِينِ خَلِيلِهِ وَ قَرِينِهِ

[1] Müvəffəqiyyət rəmzi, səh. 187.

-İmam Sadiq(ə) buyurur: “Bidət edənlərlə həmsöhbət və dost olmayın. Çünki camaatın gözündə onlardan hesab olunarsınız. Həzrət Peyğəmbər(s) buyurmuşdur: İnsan öz dostunun tayı və dindaşı olar.”[1]

Odur ki, hər kəs nəfsinin saflaşması və ruhunun paklaşmasını istəyirsə, gərək oturub-durduğu və ünsiyyət yaratdığı dostlarını tanısın. Elə insanlarla dostluq etməsin ki, onun mənəviyyatının və saflaşmasının qarşısında mane olsunlar. Əgər insan günahkarlarla oturub-dursa, onların təsiri altına düşər və ruhunun paklaşmasına nail ola bilməz.

## Dostluğun meyarı və hədləri

Gördüyünüz kimi, dünyada insanlar bir-biri ilə dostluq əlaqələri yaradırlar. Hamı bilir ki, bu dostluq münasibətlərinin çoxu müəyyən məqsədlər üçün yaradılır. Lakin bütün bu dostluqların çoxu qiyamət günü düşmənçiliyə çevriləcək. Allah-təala “Zuxruf” surəsinin 67-ci ayəsində dostluğun meyarı haqda belə buyurur:

الْأَخِلَّاء يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

-Həmin gün (dostluq amilləri güclənəcək) təqvalılardan başqa (dünya) dostlar(ı) bir-birilərinə düşmən olacaqlar. (Çünki onların dostluq amilləri həmin gün düşmənçilik amilinə çevriləcəkdir.)

Qiyamət günü təqvalı insan dünyada dostluq etdiyi insanı gördükdə, ona qarşı məhəbbəti daha da artacaq. Çünki həmin dost dünyada onu təqvaya, ibadətə, izzətə, şərafətə, insaniyyətə və həqiqətə tərəf yönəldirdi. Qiyamət günü

[1] Müvəffəqiyyət rəmzi, səh.186. Üsuli-Kafi, 3-cü cild, səh.453.

yalnız Allaha xatir olan dostluqlar fayda verəcək. Ondan başqa bütün dostluqların hamısı düşmənçiliyə çevriləcək.

قَالَ الصَّادِقُ(ع): اَلا كُلُّ خُلَّةٌ كَانَت فِي الدُّنيَا فِي غَيرِ اللهِ عَزّوجَلّ فَإِنّهَا تَصِيرُ عَداوَةً يَومَ القِيَامَة.

-İmam Sadiq(ə) buyurur: "Dünyada Allahdan başqa niyyətlə qurulmuş bütün dostluqlar qiyamət günü düşmənçiliyə çevriləcək."[1]

Biz bu dünyada çox insanların bir-biri ilə olan dostluğunu görmüşük. Bəzən biri digəri ilə işinin xatirinə dostluq əlaqəsi yaradır. Görürük ki, insanlar nələrin əsasında və hansı məqsədlərə görə kimlərlə dostluq əlaqəsi yaradırlar. Elələri vardır ki, on il əvvəlcədən kiminləsə dostluq əlaqəsi yaradıb onun evinə get-gəl edirlər. Bilirlər ki, on ildən sonra ondan bir keçəcəyi və xahişi olacaq. Bunun üçün həmin şəxslə öncədən dostluq əlaqəsi yaradır.

Dostluğun şərti və hədləri vardır. Hər kəs dostluğun şərtlərinə əməl edib, onun hədlərinə riayət edərsə, bu dostluğun insana faydası olacaq.

قَالَ الصَّادِقُ(ع): اَلصَّدَاقَة مَحدُودةٌ، ومَنْ لَمْ تَكُن فِيه تِلكَ الحُدُود، فَلا تَنسبه إِلى كَمَالِ الصَّدَاقَة

أَوَّلُهَا: أَن تَكُونَ سَرِيرَتُهُ وَعَلانِيَتُهُ لَكَ وَاحِدَة،

وَالثَّانِيَة: أَن يَرى زَينَكَ زَينَهُ، وَشَينَكَ شَينَهُ،

وَالثَّالِثَة: أَن لا يُغَيِّرَهُ عَلَيكَ مَالٌ وَلا وِلايَةٌ،

---
[1] Təfsiri-nümunə,12-ci cild, səh.111.

وَالرَّابِعَة: أَنَ لا يَمنَعَكَ شَيئاً مِمَّا تَصِلُ إِلَيهِ مَقدِرَتَهُ،

وَالْخَامِسَة: أَن لا يُسَلِّمُكَ عِندَ النّكبَات.

-İmam Sadiq (ə): "Dostluğun hədləri var. Kim onların hamısına, ya da bir neçəsinə malik olsa dostdur, əks-halda onu özünə əsla dost bilmə:

Birincisi, zahirdə və batində sənə qarşı eyni münasibətdə olsun;

İkincisi, sənin abrını öz abrı, sənin eybini və rüsvayçılığını öz eybi və rüsvayçılığı bilsin;

Üçüncüsü, sərvət və məqam onun sənə qarşı münasibətini dəyişməsin;

Dördüncüsü, əlindən gələn köməyi səndən əsirgəməsin;

Beşincisi, çətinliklərdə səni tənha qoymasın."[1]

Həzrət İsa Peyğəmbər(ə) yaxşı dostun əlamətləri barədə həvarilərlə söhbət edərkən həvarilər soruşdular: "Ey Allahın Peyğəmbəri, biz kimlərlə oturub-duraq? Həzrət İsa(ə) buyurdu: O kəslərlə oturub-durun ki, onu gördükdə Allahı xatırlayasınız. O kəslərlə oturub-durun ki, onun danışığı və məntiqi sizin əməlinizi (ibadətinizi) artırsın. O kəslərlə oturub durun ki, onun əməlinə baxdıqda, sizin axirətə olan rəğbətinizi artırsın."[2]

## Tarixdə dostların və ustadların müsbət təsiri

---

[1] Müvəffəqiyyət rəmzi, səh.182. Xisal, səh. 250.

[2] Üsuli-Kafi,1-ci cild, səh. 48.

Tarix boyu şahidi olmuşuq ki, dostlar, qardaşlar, ustadlar öz dostlarına və şagirdlərinə böyük təsir göstərmişlər. Onların göstərdiyi təsir illər ötdükdən sonra öz nəticəsini büruzə vermişdir. Ustadın və dostun kiçik bir hərəkəti bəzi insanlara elə təsir göstərmişdir ki, sonralar həmin təsir böyük cəmiyyətlərdə öz nəticəsini təzahür etdirmişdir. Nümunə üçün həmin insanlardan bir neçəsinin həyatına qısaca nəzər yetirək.

## Ömər ibn Əbdül Əzizin əhvalatı

Ömər ibn Əbdül Əziz Bəni-Üməyyənin hakimlərinin arasında ən yaxşısı idi. Onun yaxşı olması Əhli-beytə(ə) hörmət etməsi idi. Çünki Əhli-beytlə(ə) düşmənçilik edənlərin hamısı şəxsi məsələlərə görə idi, İslama görə yox. Şəxsi mənfəət, vəzifə və bu kimi şeylərə görə Əhli-beytlə(ə) düşmənçilik edirdilər. Onlar camaat arasında Əhli-beyti(ə), xüsusilə Həzrət Əlini(ə) söyməyi adət etmişdilər. Bu işin banisi Müaviyə və Əmr ibn As idi. Cəmiyyətdə elə bir vəziyyət yaratmışdılar ki, Əlinin(ə) adı gələndə hamı onu söyürdü. Belə ki, uşaqlar yenicə dil açmağa başladıqda onlara ilk növbədə Həzrət Əlini(ə) söyməyi öyrədirdilər. Müaviyə Həzrət Əli(ə) ilə şəxsi mənfəətlərinə görə olan düşmənçiliyindən vəziyyəti bu yerə gətirib çıxartmışdı. Camaatın ürəyində Həzrət Əliyə(ə) qarşı çox böyük kin-küdurət yaratmışdılar. Ömər ibn Əbdül Əziz hakim olduqdan sonra camaatın Əliyə(ə) qarşı söyüş söyməsini yığışdırmaq barədə düşünüb-daşındı. O istəmirdi ki, kimsə Əliyə(ə) qarşı nalayiq sözlər işlətsin. Bunun üçün belə bir məntiqlə işə başladı. Onun yəhudi bir tanışı var idi. Bir gün həmin yəhudini çağırıb dedi: "Cümə günü hamı namaz qılmaq üçün

məscidə toplaşdıqdan sonra sən münasib bir vaxtda ayağa qalxıb mənə deyərsən: Sənin qızınla ailə qurmaq istəyirəm.[1]

Mən deyəcəyəm: Sən yəhudisən və mən isə müsəlmanam. İslam şəriətinə görə müsəlmanın yəhudiyə qız verməsi haramdır.

Sən deyərsən: Əgər belədirsə, onda bəs nə üçün Peyğəmbər(s) öz qızını Əliyə(ə) verdi.

Mən deyəcəyəm: Əli müsəlman idi, yəhudi deyildi.

Sən deyərsən: Əgər müsəlman idisə, bəs nə üçün Əməvilər və Şam camaatı onu söyürlər?

Sən bura qədər mənimlə danışarsan. Qalan işləri isə mən özüm həll edəcəyəm."

Onlar belə bir plan qurub ayrıldılar. Nəhayət, cümə günü oldu. Hamı cümə namazı qılmaq üçün məscidə toplaşmışdı. Ömər ibn Əbdül Əziz də gəlib sırada əyləşdi. Həmin yəhudi münasib bir vaxtda ayağa qalxıb ona dedi: "Ey Ömər, mən sənin qızına elçi düşmüşəm. Sənin qızınla ailə qurmaq istəyirəm."

Ömər dedi: "Sən yəhudisən, mən isə müsəlmanam. İslam şəriətinə görə müsəlmanın yəhudiyə qız verməsi haramdır.

Yəhudi dedi: Əgər belədirsə, onda bəs nə üçün Peyğəmbər(s) öz qızı Zəhranı(s.ə) Əli ibn Əbu Talibə verdi?

Ömər dedi: Əli(ə) müsəlman idi, yəhudi deyildi. Əli(ə) Peyğəmbərə(s) ilk iman gətirənlərdən idi.

Yəhudi dedi: Əgər müsəlman idisə, bəs nə üçün Əməvilər və Şam camaatı onu söyürlər?"

Məsciddə əyləşənlərin hamısı onların bu söhbətini diqqətlə dinləyirdilər. Yəhudi axırıncı sualı verdikdə Ömər

---

[1] O zamanlar belə bir adət var idi. Əgər bir nəfər kiminsə qızı ilə ailə qurmaq istəsəydi, camaatın toplaşdığı bir məkanda və ya məsciddə ayağa qalxıb onun qızına elçilik edərdi.

ibn Əbdül Əziz üzünü camaata tutub dedi: “Camaat indi növbə sizindir. Bu yəhudinin cavabını siz verin.”

Hamı bir-birinin üzünə baxıb susdular. Çünki yəhudiyə deməyə heç bir kəsin sözü yox idi. Əgər Əli(ə) müsəlmandırsa, bəs nə üçün onu söyürsünüz? Ömər ibn Əbdül Əziz bu kimi məntiqlə yavaş-yavaş camaatın ağzını yumdu və hərəkətə başladı. Camaat tədricən Həzrət Əlini(ə) söyməyi tərgitdi.

Ömər ibn Əbdül Əziz deyir: “Mən Əliyə(ə) hörmət etməyi öz müəllimimdən öyrənmişəm. Kiçik yaşlarımda məktəbə gedirdim. Bir gün dərsdə uşaqlardan biri Həzrət Əlini(ə) söydü. Müəllimim ona acıqlanıb dedi: Düzgün iş görmürsən. Sən nə üçün Əlini(ə) söyürsən? Həzrət Əli(ə) belə sözlərə layiqli insan deyil. Siz belə sözlər danışmayın. Belə danışıqlar sizin özünüz üçün təhlükəlidir. Əli(ə) Peyğəmbərin(s) həm əmisi oğludur, həm də onun kürəkənidir. Həzrət Əli(ə) Allahın höccəti, Peyğəmbərin(s) vəsisi və müsəlmanların imamıdır. Peyğəmbər(s) Qədr-xumda onun əlini qaldırıb buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.”

Müəllimin bu sözləri mənim yadımda qaldı və qəlbimə təsir göstərdi. Hakimiyyətə çatdıqdan sonra onun sözlərini icra etməyə başladım və Əliyə(ə) qarşı söyüş söyənlərin ağzını yuma bildim.”

## Müaviyə ibn Yezidin əhvalatı

Məlun Yezidin iki oğlu var idi: birinin adı Müaviyə, ikincisinin adı isə Xalid idi. Kiçik Müaviyənin bir müəllimi var idi. Onun adı Ömərül-Məqsus idi. O, Əhli-beytin(ə) aşiqi idi. Üzdə bunu aşkar etməsəydi belə, ürəyində həmişə Əhli-beytə(ə) qarşı sevgisi var idi. Həm Həzrət Əlinin(ə)

şiələrindən idi, həm də Müaviyə və Yezidə qarşı çox böyük nifrəti var idi. Yezidin oğlu Müaviyə onun şagirdi idi. O, Müaviyəni gözəl tərbiyə etmişdi. İslam əqidəsini və şəriətin hökmlərini öyrədərək, onun əqidəsini düzəltmiş, Əhli-beytin(ə) həqiqətini ona başa salmışdı. Yezidin bu işdən xəbəri yox idi. Sadəcə elə başa düşürdü ki, adi məktəb dərslərini ona öyrədir.

Müaviyənin iyirmi yaşı olarkən Yezid öldü. Camaat yığışıb Müaviyəni vəzifə başına gətirdilər və hamı ona beyət etdi. Müaviyə qırx gün xilafət kürsüsündə əyləşib heç bir söz danışmadı və susdu. Bu qırx gündə atasının babası, öz babası və atasının gördüyü işlər barədə mükəmməl şəkildə araşdırma apardı. Araşdırma apardıqdan sonra özünü iki yolun üstündə görüb seçim qarşısında qaldı. Ya ata-babasının getdiyi yolu tutub zülm etməyə davam etməli, ya da bu xilafətdən imtina edib haqq-həqiqət yolunu tutub, Peyğəmbər(s) və Əhli-beytə(ə) qoşulmalı idi. O, həmin qırx günün içərisində öz nəfsi ilə mübarizə aparıb qələbə çaldı. Qırx gün tamam olduqdan sonra tanınmış şəxsiyyətlərin hamısını məscidə dəvət etdi. Hamı yığışdıqdan sonra özü minbərə çıxıb Allaha həmdü-səna və Peyğəmbərə(s) salam-salavat göndərdikdən sonra dedi: “Camaat, mənim babam Əbu Süfyanın oğlu Müaviyə xilafətdə elə bir şəxsiyyətlə müxalifətçilik etdi ki, o, xilafətə bütün insanların hamısından daha çox layiq idi. Onun İslamda rolu hamıdan çox olmuşdur. Onun elmi, şücaəti, cəsarət və qüdrəti hamıdan daha artıq idi. O, elə bir insan idi ki, Peyğəmbərə(s) ondan yaxın insan olmayıb. O, həm Peyğəmbərin(s) əmisi oğlu, həm də kürəkəni idi. O, Peyğəmbərin(s) övladları Həsən və Hüseynin atası idi. Mənim babam Müaviyə belə bir şəxsiyyətlə müxalifətçilik edib, onunla müharibə etdi. Siz, ey camaat, bütün bunları bilə-bilə Əlini(ə) yox, babam Müaviyəyə kömək edib onu müdafiə etdiniz. Babam bütün

bu cinayətləri törətdikdən sonra ölüb cəhənnəmə vasil oldu. Hazırda etdiyi əməllərin cəzasını çəkərək öz əməllərindən asılı vəziyyətdədir.

Ondan sonra növbə atam Yezidə yetişdi. Yezid də xilafətə layiq olmadığı halda kürsüyə əyləşdi. O, nəfsinin quluna çevrilib Allahla düşmənçilik etməyə başladı. Peyğəmbərin(s) Əhli-beytinə qarşı olmazın zülmlər etdi. Onun hakimiyyəti çox az bir müddətdə başa çatdı. Üç il hakimiyyət kürsüsündə əyləşdi və onun hər bir ili böyük cinayətlərlə yaddaşlarda qaldı. Hazırda o da cəhənnəmə vasil olub və öz əməllərindən asılı vəziyyətdədir.”

Söhbətin bu yerində onu ağlamaq tutdu. Məsciddə əyləşənlərin hamısı təəccüblə ona baxırdı. Onun belə danışacağını heç bir kəs təsəvvürünə belə gətirmirdi.

Sonra yenə də üzünü camaata tutub dedi: “Camaat, mən sizin günahınızı boynuma götürə bilmərəm. Siz özünüz bilərsiniz ki, bu hakimiyyəti kimə tapşırırsınız. Mən beyətimi sizdən götürüb, xilafət kürsüsünü tərk edirəm.”

Bu sözlərdən sonra məsciddə aləm bir-birinə dəydi. Mərvan ibn Həkəm bunu gördükdə ayağa qalxıb Müaviyəyə etiraz etdi. Müaviyə ona baxıb çox acı cavabla dedi: “Rədd ol, itil buradan. Sən mənim din və imanıma hiylə, kələk yolu ilə daxil olmaq istəyirsən? Hiylə yolu ilə məni dinimdən çıxarmaq istəyirsən? Mən sizin xilafətinizdən heç bir şirinlik görməmişəm ki, onun acılığına da hazır olum. Əgər bu xilafətin xeyri varsa, atama bədbəxtlikdən savayı bir şey qalmadı. Əgər bu xilafət bədbəxtlikdən başqa bir şey deyilsə, o zaman atama çatan bədbəxtlik bütün ailəmizə bəs edər.”

Bu sözləri deyib minbərdən aşağı düşdü və məclisi tərk etdi. Nanəciblərdən bir neçə nəfər Ömərül Məqsusu axtarıb tapdılar. Ona dedilər ki, sən Müaviyənin müəllimi olmusan və bütün bu oyunları sən bizim başımıza açdın. Sən ona belə tərbiyə vermisən ki, o, xilafətdən boyun qaçırdı.

Sonra onlar torpağı qazıb onu diri-diri basdırdılar.Yezidin oğlu Müaviyəni isə zəhərləyib öldürdülər. Camaat yığışıb Müaviyənin qardaşı Xalidə beyət etdilər. Xalidin yaşı az olduğu üçün hakimiyyəti hələlik Mərvana tapşırdılar. Mərvan müvəqqəti olaraq hakimiyyət başına keçdi. Hakim olduqda Yezidin arvadı (Xalidin anası) ilə evləndi. Mərvan yeddi-səkkiz aylıq hakimiyyətindən sonra yavaş-yavaş Xalidin əleyhinə təhqiramiz sözlər danışır və camaatda ona qarşı nifrət yaratmağa çalışırdı. Yəni harada olurdusa, Xalid barədə pis fikirlər irəli sürürdü. Beləcə onun əleyhinə plan qururdu ki, camaat onu hakimiyyətə gətirməsin.

Bir gün Xalidin anası onu çox narahat halda görüb səbəbini soruşdu. Xalid əhvalatı anasına danışdıqda qadın bərk qəzəbləndi. Günlərin birində Mərvan axşam evə gəldi və gördü ki, Xalidin anası çox gülərüz və xoşhaldır. Soruşdu: "Xalid mənim barəmdə sənə nəsə deyib? Qadın dedi: Xeyr, Xalid həmişə səndən razılıq edir və səni tərifləyir."

O, bu sözləri ona görə deyirdi ki, Mərvan həmin gecə rahat yatsın. Mərvan yatdıqdan sonra Xalidin anası qulluqçuları çağırıb onun otağına girdi. Qulluqçulara tapşırdı ki, onun üstünə çıxıb əl-ayağını möhkəm tutsunlar. Özü də yastığı götürüb onun üzünə basdı və boğub öldürdü.

Bu əhvalatları danışmaqda məqsədim odur ki, Bəni-Üməyyə öz cinayətləri yolunda bir-birinin canına düşdülər. Onlar öz cinayətlərinin ucbatından pis günə qaldılar. Nə dünyanı əldə edə bildilər, nə də axirətlərini qazana bildilər. Hər iki dünyadan məhrum qalıb bədbəxt oldular. Amma Yezidin oğlu Müaviyə fikirləşib öz taleyini həll etdi və xoşbəxtlər cərgəsinə qoşuldu. Başa düşdü ki, əgər bu hakimiyyəti əlində saxlasaydı, mütləq ata-babasının yolunu gedib zülm etməkdə davam edəcəkdi. On-on beş ildən sonra o da ata-babası kimi cəhənnəmə vasil olacaqdı. Buna görə də

qırx gün fikirləşib haqq yolunu tapdı və səadətə qovuşdu. Tarixlər boyu ona rəhmət oxunacaq və axirət günündə də fateh insanlardan biri olacaqdır. Onun səadətə qovuşması bir müəllimin gözəl tərbiyəsinin təsiri altına düşməsi ilə bağlı idi və illər keçdikdən sonra həmin təsir öz nəticəsini verdi.

Beləliklə, əgər bir insan səadət yolunu tapmaq istəyirsə, ruhunu təmizləmək istəyirsə, mütləq oturub-durduğu insanların kim olduğunu bilməlidir. Əvvəl dost olduğu insanların kimliyini öyrənməli, onu tanımalı və sonra onunla dostluq etməlidir. Çünki həyatda dostların hər bir insana böyük təsiri vardır.

## 2. Günah fikrə düşmək və günah olan yerlərdə iştirak etmək

İnsanın saflaşmasına mane olan və onun ruhunun paklaşmasının qarşısını alan amillərdən ikincisi günah fikrə düşməkdir. Ümumiyyətlə, ruhun xüsusiyyətlərindən biri budur ki, insan mənəvi məclislərdə iştirak edərkən müəyyən qədər müsbət təsir altına düşür. Mənəvi məclislərdə iştirak etdikcə insan yavaş-yavaş mənəviyyata doğru yönəlir. Maddi və günah məclislərində iştirak etdikdə isə belə məclislər insana mənfi təsir göstərərək onu günaha, şəhvətə, nəfsə və mənəviyyatsızlığa tərəf çəkir. Saflaşmaq və paklaşmaq, heyvaniyyətdən çıxıb insanlığın həqiqi mənasını başa düşmək istəyən hər bir kəs bunu da bilməlidir ki, həm günah olan məclislərdən uzaqlaşmalı, həm də günah fikri beynindən çıxarmalıdır. İnsan beyninə günah fikir gəldikdə dərhal onu başından çıxarmalıdır. Əgər insan günah fikri başından çıxarmasa, o, yavaş- yavaş həmin adamı günaha sövq edəcək.

Burada çox yaxşı olar ki, ilk növbədə günahın insana təsiri barədə qısaca məlumat verək. Ümumiyyətlə, hər bir

günah insana iki cür mənfi təsir göstərir. Onlardan biri axirəti, digəri isə dünyəvi təsirdir. Günahın insana verdiyi axirəti ziyan və təsir budur ki, qiyamət günü insana həmin günaha görə əzab veriləcək. Məsələn, əgər bir insan haram iş görürsə, qiyamət günü onu bu əməlinə görə cəzalandıracaqlar. Bundan əlavə, insanın həmin haram işi etdiyinə görə dünyada da öz təsirini göstərməlidir. Günahın dünyəvi təsiri iki cür olur. Bir təsir fiziki və maddi, digər təsir isə ruhi, mənəvi və tərbiyəvi təsirdir. Əlbəttə, qeyd etməliyəm ki, bütün günahlar insana eyni cür təsir göstərmir. Yəni müxtəlif günahların müxtəlif təsirləri olur. Məsələn, hər kəs qohum-əqrəbası ilə əlaqəsini kəssə və sileyi-rəhm etməsə, qiyamət günü əzaba düçar olması öz yerində, dünyada olan fiziki təsiri isə ömrünün azalmasına gətirib çıxarar. Valideynini incitmək böyük günahlardandır. Bu günahın dünyada iki xüsusiyyəti vardır. Onlardan biri budur ki, valideyni incidən insanın maddi vəziyyəti günbəgün ağırlaşar. İkinci xüsusiyyəti isə ömrünün azalmasına səbəb olar.

İçki içmək haram əməllərdən biridir. Onun da həm axirəti, həm də dünyəvi təsiri vardır. Axirəti təsir insanı əzaba düçar edər, dünyəvi və fiziki təsir isə insanı sərxoş edər. Bundan əlavə, içki içmək yavaş-yavaş insanın mənəviyyatını əlindən alıb onu küfrə tərəf çəkər. Hədislərdə belə nəql olunur ki, içki aludəçisi olan insan dünyadan gedərkən küfr halında gedər. Çünki içkinin dünyada olan mənəvi təsiri insanı küfrə tərəf çəkməkdir. Həmçinin yalan, təkəbbür, oğurluq, böhtan, qeybət və digər başqa günahların da özünəməxsus təsirləri vardır ki, mütləq insana öz təsirini göstərməlidir.

## Xeyir və şər niyyətli olmağın insana təsiri

Deməli, biz bildik ki, hər bir günahın müxtəlif təsirləri vardır. Həm dünyada olan fiziki və mənəvi təsiri, həm də axirətdə əzabla nəticələnəcək təsiri. Hər kəs günah iş görsə, mütləq onun təsiri altına düşməlidir. Çünki günahın xüsusiyyəti insanı öz təsiri altına salmaqdır. Burada sual oluna bilər ki, əgər bir insan günah etmək fikrinə düşsə və o günahı etməsə, yenə də insana təsir göstərirmi? Cavab olaraq deyə bilərik ki, günah barədə fikirləşmək və günah niyyətində olmaq da insana xüsusi təsir göstərir. Ümumiyyətlə, hər bir fikrin və niyyətin insana xeyri və ziyanı vardır. Əgər insan xeyir bir işi niyyət etsə və əməldə onu yerinə yetirə bilməsə belə bu niyyətin həmin şəxsə xeyir və xoş təsiri olacaq. Həmçinin şər bir işin niyyətində olmaq, hətta o işi əməldə etməsə də belə insana ziyanı vardır. Şəxsən İslam Peyğəmbəri(s) bu barədə belə buyurur: "Hər kəs xeyir bir işi niyyət etsə və əmədə həmin işi yerinə yetirməkdə üzrlü olsa, onun bu niyyətinin savabı həmin xeyir işi görənlərin savabı qədərdir. (Yəni həmin xeyir işi görənlərin savabına şərikdir.)

Təbuk döyüşü İslam tarixində müsəlmanların ən ağır döyüşlərindən biri idi. Bu müharibədə maddi vəziyyət o qədər ağırlaşmışdı ki, bir xurma dənəsini üç nəfərin arasında bölüşdürüb yeyirdilər. Hava çox isti və xurmanın yetişən vaxtları idi. Müsəlmanlar əllərində olan köhnə və qurd basmış xurmalarla başlarını dolandırırdılar. Belə bir halda döyüş başlandı. Bir dəstə müsəlman döyüşdə iştirak etmək üçün Mədinədən çıxa bilmədilər. Bir dəstə müsəlman isə Peyğəmbərlə(s) gəlsələr də, yolun yarısından geri qayıtdılar. Bir dəstə isə yarı yoldan qayıtmaq fikrinə düşmüşdülər. Lakin imanları və vicdanları buna yol vermədiyi üçün Peyğəmbəri(s) tək qoymadılar. Onlar Peyğəmbərlə(s) birgə

bu müharibədə döyüşəcəklərinə qərar verdilər. Mədinədə olan bir dəstə müsəlman isə çox mühüm və üzrlü səbəblərə görə Peyğəmbərlə(s) birgə həmin döyüşdə iştirak edə bilmədilər.

Döyüş meydanına gedərkən Peyğəmbər(s) yolda səhabələrinə belə buyurdu: "Mədinədə bir qrup mömin vardır ki, onlar bütün əməllərdə (aclıq çəkməkdə, ağır səfərlərdə, çətin anlarda) bizimlə şərikdirlər. Səhabələrdən bəzisi təəccüblə dedilər: Ya Rəsulallah, bu necə ola bilər? Onlar bizimlə necə şərik ola bilərlər? Peyğəmbər(s) buyurdu: Onlar üzrlüdürlər. Onların niyyətləri bizimlə birgə döyüşə gəlmək idi. Lakin üzrlü səbəblərə görə Mədinədə qalmalı oldular. Onlar xeyir və xoş niyyətlərinə görə bizimlə şərikdirlər. (Allah-təala bu müharibədə bizə verdiyi savabdan onlara da verəcək.)"

Cabir ibn Abdullah Ənsari Peyğəmbərin(s) ən yaxın səhabələrindən biri idi. O, İslam aləmində çox tanınmış və məşhur bir insandır. Ərbəin günü İmam Hüseynin(ə) qəbrini ziyarət edən ilk insan Cabir olmuşdur. Ətiyyə ibn Ovfi deyir: "İmam(ə) şəhid olduqdan sonra ərbəin günü Cabir ibn Abdullahla birgə Kərbəlaya gəldik. Cabirin ömrünün axır illəri idi. Qocaldığından onun gözləri tutulmuşdu. Mən onun əlindən tutub Fərat çayının kənarına gətirdim. Cabir orada ziyarət qüslü etdikdən sonra İmam Hüseynin(ə) qəbrinin yanına gəldik. Cabir orada əyləşərək əllərini İmamın(ə) qəbrinin üstünə qoyub, üç dəfə "Ya Hüseyn" deyərək səsləndi. Sonra dedi: "Ya Hüseyn, dost öz dostunu səslədikdə cavab verməzmi? Sonra öz-özünə dedi: Ey Cabir, o, sənə necə cavab verə bilər ki, halbuki başını bədənindən ayırıblar."

Cabir İmamın(ə) qəbri üstündə bu kimi söhbətlər edib o qədər ağladı ki, qəşş edib özündən getdi. Mən onun üzünə su

səpib onu ayıltdım. Cabir özünə gəldikdən sonra şəhidlərin qəbirlərinə baxıb dedi:

اَلسَّلامُ عَلَيكُم أَيَّتُهَا الاَروَاحِ الَّتِي حَلَّت بِفَنَاءِ الْحُسَين(ع) وَأَنَاخَت بِرَحلِهِ وَأَشهَدُ أَنَّكُم أَقَمتُمُ الصَّلاة وَ آتَيتُم الزَّكَاة وَ أَمَرتُم بِالْمَعرُوف وَ نَهَيتُم عَنِ الْمُنكَر وَجَاهَدتُم الْمُلحِدِين وَعَبَدتُمُ اللهَ حَتَّى أَتَاكُمُ اليَقِين وَالَّذِي بَعَثَ مُحَمَّدًا بِالْحَقِّ نَبِيًّا لَقَد شَارَكنَاكُم فِيمَا دَخَلتُم فِيهِ.

-Salam olsun siz pak ruhlara ki, Hüseynin(ə) yanında şəhid oldunuz. Şəhadət verirəm ki, siz namaz qıldınız, zəkat verdiniz, əmr be-məruf və nəhy əz münkər etdiniz, pis insanlarla cihad etdiniz və ölənə qədər Allaha itaət və ibadət etdiniz. And olsun Məhəmmədi(s) məbus edən Allaha ki, biz də sizin daxil olduğunuz (aid olduğunuz, etdiyiniz) işə şərik idik.

قَالَ عَطِيَّةُ: فَقُلْتُ لِه: يا جَابِرٍ وَكَيْفَ وَ لَمْ نَهْبِطْ وَادِياً وَلَمْ نَعْلُ جَبَلًا وَلَمْ نَضْرِبْ بِسَيْفٍ، وَالْقَوْمُ قَدْ فُرِّقَ بَيْنَ رُؤوسِهِمْ وَأَبْدَانِهِمْ وَأُوتِمَتْ أَوْلَادُهُمْ وَأَرْمَلَتِ أزواجهم.

-Ətiyyə deyir: “Ona dedim: Ey Cabir! Biz əziyyət çəkmədik, qılınc vurmadıq! Bu insanların başları bədənlərindən ayrılıb, ailələri tənha qalıb, uşaqları yetim qalmışdır. Necə ola bilər ki, biz əcr və savabda onlara şərik olaq?”

فَقَالَ لِي: يَا عَطِيَّةُ، سَمِعْتُ حَبِيبِي رَسُولَ اللَّهِ (صلى الله عليه وآله) يَقُولُ: «مَنْ أَحَبَّ قَوْماً حُشِرَ مَعَهُمْ، وَمَنْ أَحَبَّ عَمَلَ قَوْمٍ أُشْرِكَ

فِي عَمَلِهِمْ»، وَالَّذِي بَعَثَ مُحَمَّداً بِالْحَقِّ نَبِيّاً إِنَّ نِيَّتِي وَنِيَّةَ أَصْحَابِي عَلَى مَا مَضَى عَلَيْهِ الْحُسَيْنُ (عليه السلام) وَأَصْحَابُهُ

-Cabir mənə dedi: “Ey Ətiyyə! Mən öz iki qulağımla Allahın Rəsulundan(s) eşitmişəm ki, buyurub: “Hər kim bu camaatın əməlini sevsə, o əməlin savabında onlarla şərikdir”. Sonra dedi: “Ey Ətiyyə! Rəsulullah(s) buyurdu: “Mənim də əshabımın niyyəti – Hüseynin (ə) və əshabının həmin niyyətidir.”

Bu hadisədən açıq-aydın görürük ki, hər kəs savab bir işdə niyyət etsə və üzrlü səbəbdən orada iştirak edə bilməsə, onlarla şərikdir. Bu hədisi Cabir ibn Abdullah kimi böyük bir səhabə nəql edir. Cabir İslam aləmində böyük və tanınmış bir şəxsiyyətdir.

Həmçinin əgər insan günah işdə niyyət etsə və ya həmin günahın icra olunmasına razı qalsa, deməli, həmin günahda şərikdir. Nümunə üçün bu barədə olan Quran ayələrinin birinə diqqət yetirək.

Saleh Peyğəmbərin(ə) qövmü onun dəvəsinin ayaqlarını kəsdi. Onlardan bir nəfər bu işi görmüşdü, lakin Allah-təala onların hamısını məhv etdi. “Şüəra” surəsində Saleh Peyğəmbərin(ə) qövmü barədə belə buyurulur:

فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ  فَأَخَذَهُمُ الْعَذَابُ إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

-Amma onlar (dəvəni) tutub kəsdilər, sonra da (əzab qorxusu ilə) peşman oldular. Artıq əzab onları yaxaladı (hamı məhv oldu). Şübhəsiz ki, bunda (Salehin bu

hekayətində) bir ibrət vardır. Halbuki onların əksəriyyəti iman gətirmədi.[1]

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də bu barədə belə buyurur:

قَالَ عَلِيٌّ(ع): اَيُّهَا النَّاس إِنَّمَا يَجْمَعُ النَّاسَ الرِّضَا وَ السَّخَطُ وَ اِنَّمَا عَقَرَ نَاقَةَ ثَمُودَ رَجُلٌ وَاحِد فَعَمَّهُمُ اللهُ بِالْعَذَابِ لَمَّا عَمُّوهُ بِالرِّضَا

- Camaat! Həqiqətən, günaha razı olmaq və Allaha ibadət etməkdən acığı gəlmək camaatı bir yerə toplamışdır. Səmud tayfasından yalnız bir nəfər dəvənin ayaqlarını kəsib onu öldürmüşdü. Lakin Allah onların hamısını əzaba düçar etdi.

Çünki onlar bu işə (dəvəni öldürməyə) razı idilər.

İmam Hüseynin(ə) ziyarətnaməsini oxuyarkən bu mövzuya rast gəlmək olur:

لَعَنَ اللهُ اُمَّةً قَتَلَتكَ لَعَنَ اللهُ اُمَّةً ظَلَمَتكَ لَعَنَ اللهُ اُمَّةً سَمِعَت بِذلِكَ فَرَضِيَت بِهِ

-Allah səni öldürənlərə lənət etsin. Allah sənə zülm edənlərə lənət etsin. Allah lənət etsin o kəslərə ki, sənə edilən bu zülmü eşidib, bu işə razı olublar.

Kərbəlada Şimr İmam Hüseynin(ə) başının üzərində dayanıb Həzrətin(ə) başını kəsmək istəyir. Hər kəs bu hadisəni görür, eşidir və səsini çıxarıb etiraz etmirsə, yaxud dinmirsə, Şimrlə eyni dərəcədədir. Çünki Şimrin bu hərəkətinə razı olanlar onunla eynidirlər.

Həmçinin hər kəs Kərbəlada və ya başqa bir yerdə çadır yandıranların, baş kəsənlərin və zülm edənlərin etdikləri cinayətlərə susub razı qalsalar, onlarla şərikdirlər. Bu

---

[1]. Şüəra, 157-158.

məsələni Quran bizim üçün açıq-aydın bəyan etmişdir. Qurani-Kərim Səmud tayfasını misal gətirərək bildirir ki, yalnız bir nəfər dəvənin ayaqlarını kəsib onu öldürmüşdü. Lakin Allah onların hamısını əzaba düçar etdi. Çünki onlar da bu işə razı idilər.

Bu məsələni deməkdə məqsədim odur ki, əgər insanın niyyəti xeyirdirsə, həmin xeyir işin baş tutmasında şərikdir. Yox, əgər insan şər bir işin niyyətini edirsə, həmin şər işi görənlərlə şərik və bərabərdir.

## Günah fikrə düşməyin insana təsiri

Günah elə bir şeydir ki, ilk növbədə insanın fikrinə gəlir. Sonra isə yavaş-yavaş həmin günah əməli etməyi qərara alır. Yəni insan birdən- birə günaha düşmür. Əvvəlcə günah fikrinə düşür, əgər həmin günahı başından çıxarmasa, yavaş-yavaş ona tərəf gedir. Günah fikrə düşmək iki cürdür. Biri budur ki, bəzən günah ixtiyarsız halda insanın fikrinə və ürəyinə gəlir. Burada insanın heç bir günahı yoxdur. Çünki ixtiyarsız bu hal baş vermişdir və yavaş-yavaş bu fikri başından çıxartmalıdır. İkincisi isə budur ki, insan niyyət edərək günah fikrə düşür. Yəni günah bir işi fikrinə gətirir və yavaş-yavaş onu həyata keçirməyə hazırlaşır. Əgər həmin şəxs o niyyət etdiyi və fikrinə gətirdiyi günahı etsə, onun üçün günah yazılacaq. Yox, əgər təsadüfən həmin günaha düşməsə, onun üçün həmin günahı yazmayacaqlar. Məsələn, bir nəfər bir günah etmək fikrinə düşür və maşına minib həmin günahı icra etmək üçün yola düşür. Yolda maşın qəzaya düşür və onun əl-ayağı sınır. Beləliklə, fikrində tutduğu günaha çata bilmir. Onun niyyətində tutduğu günaha əli çatmadığı üçün daha həmin şəxsə günah yazılmır. Bunun

mənası odur ki, daha qiyamət günü həmin şəxsə əzab verilməyəcək. Lakin həmin günah fikri dünyada insana öz təsirini mütləq göstərməlidir. Yəni günah fikrə düşmək (nə qədər ki, insan həmin günahı etməyib) axirətdə əzaba düşməsinə səbəb olmaz, amma dünyada olan ruhi, tərbiyəvi, maddi, mənəvi və ictimai təsirləri mütləq özünü göstərir.

قَالَ الصَّادِقُ(ع): اِنَّ الْمُؤمِن لَيَنوِى الذَّنبَ فَيُحرَمِ الرِّزق

-İmam Sadiq(ə) buyurur: "Mömin günah fikrə düşdükdə ruzisi azalır."[1]

İmam Sadiq(ə) bu hədisdə günah fikrə düşməyin insana maddi təsirindən söz açır. Deməli, günah fikrə düşmək (hərçənd onu etməsə belə) insanın ruzisinin azalmasına səbəb olur. Digər bir hədisdə günah fikrə düşməyin ictimai təsiri haqda belə oxuyuruq:

قَالَ عَلِيٌّ(ع): مَن دَخَلَ مَداخِلَ السَّوءِ اُتُّهِمَ، وَ مَن وَقَفَ نَفسَهُ مَوقِفَ التُّهَمَة فَلا يَلُومَنّ مَن أَساءَ بِهِ الظَّنَّ

-Həzrət Əli(ə) buyurur: "Hər kim pis və günah olan yerlərə daxil olsa, (hərçənd həmin günah işi etməsə belə) ittihamla üzləşəcək. Özünü töhmət və bədgümanlıq hədəfinə çevirən şəxs ona bədgüman olanları məzəmmət etməməlidir."[2]

Həzrət Əli(ə) bu kəlamı ilə bizə başa salır ki, hər kəs günah etmək fikrinə düşsə və əli həmin günaha çatmasa belə, artıq cəmiyyətə öz təsirini göstərmişdir. Məsələn, bir nəfər araq alaraq içmək üçün evinə aparır. Yolda onu maşın vurur, əlindəki araq düşüb sınır və özünü də xəstəxanaya aparırlar.

---

[1] Biharül-ənvar, 83-cü cild, səh.358.
[2] Mizanül-hikmə, 2-ci cild, səh. 632.

Həmin şəxsə günah yazılmır, lakin nə qədər insan onun araq alıb apardığını görür. Həmin şəxs  arağı içməsə də belə camaat onu içki içən kimi tanıdı. Onlar nə bilsinlər ki, həmin araq alanı yolda maşın vuracaq və araq şüşəsi əlindən düşüb sınacaqdı. Arağı alıb evdə içmək fikrinə düşməsi isə camaatın onu içki içən kimi tanımasına səbəb olur. Yaxud bir nəfər günah törədilən yerə getsə, həmin günah işə mürtəkib olmasa da belə camaat onu da həmin günahda ittiham edəcəkdir. Əgər günah etmirdisə, orada nə işi var idi? Əgər bu işi görən deyilsə, bəs nə üçün orada həmin işi görənlərlə  oturub-durur?

Qətl hadisəsi baş verdikdə istintaq zamanı və məhkəmədə həmin qatili dindirməklə yanaşı, onun dost-tanışlarını da dindirirlər. Hər kim o qatillə oturub-durubsa, onları da bir-bir çağırıb sorğu-suala tuturlar. Çünki hər kəs şər insanla oturub-durursa, onun barəsində də elə fikirləşmək olar. Bu, günah barədə fikirləşməyin ictimai ziyanıdır. Bundan əlavə, günh etmək niyyətinin insana və cəmiyyətə tərbiyəvi təsiri də vardır. Həzrət İsa Peyğəmbər(ə) öz ümmətinə moizə edərkən belə buyurdu:

إِنَّ مُوسَى نَبِيَّ اللهِ أَمَرَكُم أَن لا تَزنُوا وَأَنَا آمِرُكُم أَن لا تُحَدِّثُوا أَنفُسَكُم بِالزِّنَا فَضلاً أَن تَزنُوا؛ فَإِنَّ مَن حَدَّثَ بِالزِّنَا كَانَ كَمَن أَوقَدَ فِي بَيتٍ مُزَوَّقٍ فَأَفسَدَ التَّزَاوِيقَ الدُّخَان وَ إِن لَمَ يَحتَرِق الْبَيت.

-Camaat, həqiqətən, Həzrət Musa(ə) sizə dedi ki, zina etməyin. Mən isə sizə deyirəm ki, hətta zina etməyi fikrinizə belə gətirməyin. Çünki zina etmək barədə fikirləşmək, içində

od qalanmış evə bənzəyər ki, od evi yandırmasa belə onun tüstü və hisi evin içini qaraldıb onu bərbad vəziyyətə salar.[1]

Nəticədə görürük ki, hər kəs nəfsini saflaşdırmaq və ruhunu paklaşdırmaq istəyirsə, iki şeydən çəkinməlidir. Biri budur ki, günah olan yerdə oturmamalı, ikincisi isə günah fikrini başından çıxarmalıdır.

قَالَ عَلِيٌّ(ع): فِكْرُكَ فِي المَعْصِيَةِ يَحْدُوكَ عَلَي الوُقُوعِ فيها

-Həzrət Əli(ə) buyurur: "Sənin günah barədə fikirləşməyin səni həmin günaha düçar olmağa məcbur edər."[2]

قَالَ عَلِيٌّ(ع): إذا أَبْصَرَتِ العَيْنُ الشَّهْوَةَ عَمِيَ القَلْبُ عَنِ العاقِبَةِ

-Həzrət Əli(ə) buyurur: "Göz şəhvətə (günaha) baxdığı zaman qəlbin gözü kor olub aqibəti görməz."[3]

## 3.Allahın kitabını (haqq-həqiqəti) gizlətmək və ayələri ucuz satmaq

İnsanın saflaşmasının və ruhunun paklaşmasının qarşısını alan maneələrdən üçüncüsü Allahın kitabını və haqq-həqiqəti gizlətmək və Allahın kitabını ucuz qiymətə satmaqdır. Əgər bir insan Allahın kitabını qəbul edibsə, deməli, onun içində olan bütün ayələri qəbul etmişdir. Yəni Quranın hər bir ayəsinə özü istədiyi kimi deyil, Quran istədiyi kimi əməl etməlidir. Belə olmamalıdır ki, insan Quranı qəbul etdikdən sonra onun ayələrini ürəyi istədiyi

---

[1] Biharül-ənvar, 14-cü cild, səh. 331.
[2] Xodsazi, səh.109.
[3] Xodsazi, səh.109.

kimi, yaxud özünə sərf etdiyi kimi əməl etsin. Hər kəs Quran ayələrini öz istədiyi kimi təhlil elib, özünə sərf etdiyini söyləsə və əməl etsə, bu insan saflaşmaz, əksinə, özü üçün cəhənnəm odunu qazanmış olar. Hər kəs ruhunu saflaşdırmaq istəyirsə, Allahın kitabını gizlətməməli və onu olduğu kimi söyləməlidir. Öz maddi mənfəətinə görə Quran ayələrinin mənasını dəyişdirib camaata söyləmək və ya özünə sərf etdiyi kimi ona əməl etmək çox acınacaqlı bir nəticə verəcəkdir. Allah-təala "Bəqərə" surəsinin 174-cü ayəsində belə buyurur:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلَ اللّهُ مِنَ الْكِتَابِ وَيَشْتَرُونَ بِهِ ثَمَنًا قَلِيلاً أُولَئِكَ مَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ إِلاَّ النَّارَ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Şübhəsiz, Allahın kitabdan nazil etdiyini (öz mənafelərinə görə camaat üçün haram etdikləri şeylərin halal olması barəsindəki ayələri) gizlədən və beləliklə də azacıq bir qazanc əldə edən kəslər qarınlarına oddan başqa bir şey daxil etmirlər (onların gizlətdikləri və ya əldə etdikləri həmin qazanc axirətdə od yemək şəklində zahir olacaqdır). Həmçinin Allah qiyamət günü onlarla danışmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu ayədə Allah-təala açıq-aydın şəkildə bəyan edir ki, Allahın nazil etdiyini gizlədən və bu yolda qazanc əldə edən kəslər heç bir vaxt paklaşmayacaq. Çünki bu əməl (Allahın nazil etdiyi ayələri gizlətmək) insanın ruhunun saflaşmasına çox böyük maneədir. Əgər bir insan haqq-həqiqətin üstünə pərdə çəkərsə, necə paklaşa bilər? Öz yolunun qarşısını bağlayan insan məqsədinə necə çata bilər? Halbuki məqsədə catmaq istədiyi yolu öz bağlamışdır.

Ümumiyyətlə, insan fitrətən həqiqət axtaran və haqpərəst bir varlıqdır. Övlad məhəbbəti insanın qəlbində fitri olduğu kimi, bu məsələ də onun daxilində fitridir. İnsana övladını sevməyi kim öyrətmişdir? Heç kəs insana övladı sevməyi öyrətməyib. Bu, Allahın insanın fitrətinə daxil etdiyi bir hissiyyatdır. Həmçinin haqpərəstlik və həqiqəti axtarma prinsipi də insanın daxilində fitri olan məsələlərdən biridir. Burada sual oluna bilər ki, bəs nə üçün bəzi insanların həqiqətdən xoşu gəlmir? Bu sualın cavabını bir sualla cavablandırmaq olar. Həmin sualın qarşısında sual oluna bilər ki, övladı sevmək insanın fitri hissidirsə, bəs nə üçün cahillik dövründə bəziləri öz övladlarını öldürürdülər? Bu məsələnin səbəbi odur ki, digər böyük və başqa fitri amillər insanda olan həmin fitri hissi vurub sıradan çıxarır. Bəli, övladı sevmək insanın fitrətinə aid bir məsələdir. Lakin bir zamanlar insanlar nadanlıq və cahillik ucbatından həmin fitri hisslərini digər fitri hissə qurban etmişdilər. Elə başa düşürdülər ki, qız uşaqlarını diri-diri basdırmaqla öz abırlarını qorumuş olacaqlar. Abır da insanın fitri məsələlərindəndir. Adamlar camaat arasında üzüqara olmamaları üçün bu cinayəti törədirdilər. Elə bir zaman olub ki, insanlar iki fitri məsələ ilə qarşı-qarşıya qaldıqda, birini mühüm hesab edərək digərini ona qurban vermişlər. Şəhvət və iman da insanın fitri məsələləridir. Bəzən biz görürük ki, insan öz şəhvət hissi ilə elə mübarizə aparıb onu aradan qaldırır ki, elə bil həmin şəxsdə əsla şəhvət hissi yoxdur. Bu, heç bir kəsə təəccüblü gəlməsin. Tarix boyu belə insanların çox şahidi olmuşuq. Həzrət Yusif(ə) şəhvəti ilə mübarizədə elə qalib oldu ki, şəhvətini tamamilə məğlub etdi. Yusif imanının sayəsində şəhvətini üstələyə bildi.

Məmun Harun ər-Rəşidin oğlu idi. O, deyirdi ki, mən Musa ibn Cəfər(ə) kimi imama hörmət etməyi atam Harundan öyrənmişəm. Bir gün gördüm ki, İmam Musa ibn

Cəfər(ə) bizə gəldi. Atam ona çox böyük hörmət bəsləyərək Həzrəti(ə) yuxarı başda əyləşdirdi və özü də onun qarşısında çox ədəblə əyləşdi. İmam(ə) gedəndə yenə də atam onu çox böyük hörmət və ehtiramla yola saldı və qardaşım Əminə dedi ki, get və İmamı(ə) qapılarına qədər yola sal.

Bu hadisənin üstündən bir müddət keçəndən sonra atamdan soruşdum: “Ata, sənin əyləşdiyin bu xilafət məqamı kimindir?” Atam dedi: “Bütün bu səltənət və xilafətin hamısı Musa ibn Cəfərindir(ə)”. Dedim: “Ata, onda bəs nəyə görə bu xilafəti öz sahibinə vermirsən?” Atam dedi: “Oğul, mal-dövlət və vəzifəpərəstlik çox şirin olur. Mən bilirəm ki, Musa ibn Cəfər(ə) Allahın höccətidir və insanların imamıdır. Lakin bu mal-dölvətdən və səltənətdən əl çəkmərəm. Əgər bilsəm ki, sənin də mənim səltənət və hakimiyyətimdə gözün var, səni də öldürərəm.”

Tarix boyu bu kimi hadisələrin şahidi olmuşuq. Dəfələrlə rast gəlmişik ki, şahlar taxt-tacını əldən verməmək üçün öz oğlanlarını belə öldürmüşlər.

Qeyd olundu ki, insanlar fitrətən həqiqət axtaran və haqpərəstdirlər. Haqq-həqiqətlə müxalifətçilik edənlər əsl həqiqətdə insanların fitrəti ilə müxalifətçilik etmişlər. Fitrət insanı və cəmiyyəti inkişafa, tərəqqiyə və yüksək mərhələlərə çatdıran bir amildir. Buna görə də əgər bir insan başqa bir insanın fitrəti ilə mübarizə aparırsa, deməli bütün cəmiyyətin inkişafına qarşı çıxır. Buradan görürük ki, bu məsələ çox mühüm və əsasdır. O qədər mühümdür ki, Quran heç bir məsələ barədə belə ifadələr bəyan etməmişdir. Məsələn, “Bəqərə” surəsinin 159-cu ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ

-Həqiqətən (Muhəmmədin-səlləllahu əleyhi və alihi və səlləm-peyğəmbərliyi və kitabı barəsində) nazil etdiyimiz aydın dəlillər və hidayətləri kitabda (Tövrat və İncildə) insanlara bəyan etməyimizdən sonra, (onları) gizlədən kəslər, məhz onlardır. Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər!

Əgər İslam Peyğəmbəri(s) zühur etdiyi zaman o dövrün (yəhudi və nəsrani) alimləri həqiqəti açıb söyləsəydilər və haqqın üzərinə pərdə çəkməsəydilər, hazırda bütün insanların hamısı İslam bayrağının altında vəhdət yaradıb problemsiz və rahatlıqla həyat sürərdilər. Lakin onlar haqq-həqiqəti gizlətməklə böyük xəyanətə əl atdılar və milyardlarla insanı bədbəxtliyə sürüklədilər. Böyük bir xəyanət və cinayət olduğuna görə Allah-təala onların barəsində bu ayələri nazil etdi və həm Özü, həm də bütün lənət oxuyanlar onlara lənət oxuyurlar. İslamdan sonra da haqq-həqiqəti gizlətməklə müsəlmanların başına belə oyun açdılar. Əgər Peyğəmbərdən(s) sonra hamı bir yerə toplaşıb həqiqəti Həzrətin(s) buyurduğu kimi açıb söyləsəydilər, indi milyonlarla insan bədbəxt olmazdı. Onlar Peyğəmbərin(s) gətirdiyi ilahi hökmləri və qaydaları onun buyurduğu kimi yox, özlərinə sərf etdiyi kimi söylədilər. Dedilər: "Düzdür, Peyğəmbər(s) belə buyurub, "amma...". Peyğəmbərin(s) buyurduqlarının axırına "amma" sözünü əlavə edib, ardınca istədikləri və özlərinə sərf edən sözləri camaata çatdırdılar. Əgər onlar Peyğəmbərin(s) sözlərini olduğu kimi camaata çatdırıb, haqq-həqiqəti gizlətməsəydilər, hazırda bütün müsəlmanlar bir bayrağın altında və bir yumruq kimi möhkəm yaşayacaqdılar. Belə olsaydı heç bir müsəlman ölkəsinin heç bir problemi qalmayacaqdı.

Buna görə də haqq-həqiqəti olduğu kimi demək və Quranın ayələrini gizlətməmək insan cəmiyyəti üçün çox mühümdür. Hər kəs həqiqətin üstünə pərdə çəkib Allahın

nazil etdiyi kitabın ayələrini ört- basdır etsə, həm Allah ona lənət edər, həm də bütün lənət oxuyanların hamısı ona lənət oxuyar. Təkcə Quran ayələri deyil, bir çox hədislərdə də bu məsələyə rast gəlirik. Nümunə üçün həmin hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): مَن سُئِلَ عَن عِلمٍ يَعلَمُهُ فَكَتَم, لُجِمَ يَومَ القِيامَة بِلُجَامٍ مِن نَّار

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir şəxsdən bildiyi bir mətləb soruşulduqda o, cavab verməkdən boyun qaçırsa (və həqiqəti gizlətsə), qiyamət günü atəşdən olan ip onun boynuna atılacaq (ağzına oddan noxta vurulacaq)."[1]

Həzrət Əlidən(ə) soruşdular: "Ya Əmrəlmöminin, İblis və Firondan başqa ən şər insan kimdir? Həzrət Əli(ə) buyurdu:

اَلعُلَماءُ اِذَا فَسَدُوا, هُمُ الْمُظهِرُونَ لِلاَبَاطِل, اَلكَاتِمُونَ لِلحَقَائِق, وَ فِيهِم قَالَ اللهُ عَزَّوَجَلّ: أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللاَّعِنُونَ

-İblisdən və Firondan sonra ən pis və şər insan camaat arasında fəsad törədən alimlərdir. Onlar puç və batil məsələlərlə camaatı aldadır, haqq-həqiqətləri isə gizlədərlər. Bu həmin insanlardır ki, Allah-təala onların barəsində buyurur: "Məhz onlardır Allahın lənətlədiyi və həmçinin (bütün) lənət oxuyanların lənətlədiyi kəslər!"[2]

Deməli, hər kəs camaat arasında batil işləri rəvac verərək haqqın üzərinə pərdə çəkərsə, Allah və bütün lənət oxuyanların hamısı ona lənət oxuyar. Burada lənət oxuyanlarda məqsəd bütün varlıqlardır. Elminə əməl edən

---

[1] Təfsiri-nümunə,1-ci cild. səh.551.
[2] Təfsiri-nümunə,1-ci cild. səh.551.

alim üçün bütün canlıların hamısı Allahdan məğfirət və bağışlanmaq dilədiyi kimi, haqq-həqiqəti gizlədən və Allahın ayələrinin üstünə pərdə çəkən alimlərə də lənət oxuyarlar.

قَالَ رَسُولُ اللَّهِ(ص): وَ إِنَّ الْمَلَائِكَةَ لَتَضَعُ أَجْنِحَتَهَا لِطَالِبِ الْعِلْمِ رِضًا بِهِ وَ إِنَّهُ يَسْتَغْفِرُ لِطَالِبِ الْعِلْمِ مَنْ فِي السَّمَاءِ وَ مَنْ فِي الْأَرْضِ حَتَّى الْحُوتِ فِي الْبَحْرِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, mələklər (Allahın razı olduğu) elm[1] əldə edənlərə razılıq əlaməti olaraq qanadlarını onlar üçün açarlar. Göyün və yerin məxluqatı, hətta dənizdəki balıqlar da elm öyrənənlər üçün Allahdan bağışlanmaq diləyərlər."[2]

Ayə və hədislərdən açıq-aydın görürük ki, hətta dənizdə üzən balıqlar təqvalı alim üçün Allahdan bağışlanmaq dilədiyi kimi, təqvasız və həqiqəti gizlədən alimlər üçün də lənət oxuyarlar. Sonrakı ayədə Allah-təala onlar barədə belə buyurur:

أُولَئِكَ الَّذِينَ اشْتَرَوُاْ الضَّلاَلَةَ بِالْهُدَى وَالْعَذَابَ بِالْمَغْفِرَةِ

-Hidayət bahasına azğınlığı və bağışlanmaq müqabilində əzabı satın almış kəslər onlardır.

Görürük ki, nəfsini saflaşdırmaq və ruhunu paklaşdırmaq istəyən insan heç bir vaxt zülm etməz, azğınlığa düşməz və həqiqəti heç vaxt gizlətməz. Nəfsini təmizləmək və ruhunu paklaşdırmaq istəyən insan özünün və yaxınlarının xeyrinə

---

[1]Burada elmdə məqsəd insanın imanını saxlayan, dünya və axirətinə fayda verən və Allahın razılığına səbəb olan elmdir.
[2]Təfsiri-nümunə,1-ci cild, səh.552.

və ziyanına olsa da belə haqqı deməlidir. “Nisa” surəsinin 135-ci ayəsində belə oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُونُواْ قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاء لِلّهِ وَلَوْ عَلَى أَنفُسِكُمْ أَوِ الْوَالِدَيْنِ وَالأَقْرَبِينَ

-Ey iman gətirənlər, (bütün işlərinizdə) hətta özünüzün, ya ata-ananızın, yaxud yaxınlarınızın ziyanına olsa da belə həmişə və tam şəkildə ədalətə əsaslananlardan və Allaha görə şahidlik edənlərdən olun (həqiqəti gizlətməyin).

قَالَ الإِمَامُ الكَاظِم(ع): قُلِ الْحَقّ وَ اِن كَانَ فِيهِ هَلاكُكَ فَإِنَّ فِيهِ نَجَاتُك... وَ دَعِ البَاطِل وَ اِن كَانَ فِيهِ نَجاتُكَ فَإِنَّ فِيهِ هَلاكُكَ

İmam Kazim(ə) buyurur: "(Zahirdə) Sənin məhvinə səbəb olsa da haqqı de. Çünki (həqiqətdə) sənin nicatın ondadır… və batildən imtina et, hərçənd sənin nicatın onda olsa belə. Çünki (əslində) sənin məhvin ondadır."[1]

قَالَ الصَّادِقُ(ع): ثَلاثَةٌ اَقرَبُ الْخَلقِ اِلَى اللهِ عَزَّوَجَلّ يومَ القِيَامَة حَتّى يفرغ مِنَ الْحِسَاب... وَ رَجُلٌ قَالَ الْحَقَّ فِيمَا عَلَيهِ وَ لَهُ

İmam Sadiq(ə) buyurur: “Qiyamət günü insanlar sorğu-sual olunduqdan sonra Allaha hamıdan yaxın üç dəstə insan olacaq... Onlardan biri istər əleyhinə (ziyanına), istərsə də lehinə (xeyrinə) olmuş olsun, həmişə haqqı deyən insandır.”[2]

Beləliklə, Allah-təala bizə təkidlə göstəriş verir ki, Qurana iman gətirdikdən sonra onun bütün ayələrinə ehtiram

---

[1] Mizanül-hikmə , 2-ci cild, səh.467, hədis-1232.
[2] Mizanül-hikmə, 2-ci cild, hədis-4110.

göstərməli və haqqı olduğu kimi deməlisiniz. Belə olmamalıdır ki, insan maddi xeyir və ziyanına görə ayələrin mənasını öz bildiyi kimi deyib haqqı gizlətsin. Quranın bütün ayələrinə ehtiram olunmalıdır və olduğu kimi camaata çatdırılmalıdır. Hər kəs Quran ayələrini oxuyub öz bildiyi kimi əməl etsə və haqq-həqiqəti gizlətsə, Quran onlara lənət oxuyar. Hədislərdə nəql olunur ki, o qədər Quran oxuyanlar vardır ki, Quran onlara lənət oxuyur. Qurana hörmət bəsləyən onun buyurduqlarına əməl etməlidir. Hər kəs Quranı oxuyub onu müqəddəs bilirsə, mütləq onun hökmlərinə və buyurduqlarına əməldə riayət etməlidir.

İbn Tulun keçmiş zamanlarda Misirin hökmdarlarından biri idi. O, dünyasını dəyişəndən və dəfn olunduqdan sonra bir Quran oxuyana pul verirlər ki, bir neçə gün onun qəbrinin üstündə Quran oxusun. Bir neçə gündən sonra görürlər ki, Quran oxuyan daha onun qəbrinin üstünə gəlmir. Onu axtarıb tapdıqdan sonra soruşurlar: "Bəs nə üçün Quranı yarımçıq qoyub getmisən? Həmin şəxs deyir: Xahiş edirəm, mənimlə işiniz olmasın. Mən bundan sonra İbn Tulunun qəbrinin üstündə Quran oxumayacağam. Gedin, başqa Quran oxuyan tapın. Ona dedilər ki, bunun səbəbini bizə deməsən, əlimizdən rahatlıqla canını qurtara bilməyəcəksən. O dedi: Gecə yuxuda İbn Tulunu gördüm. Mənə dedi ki, xahiş edirəm, daha mənim üçün Quran oxuma. Çünki hər ayəni oxuduqda burada məni vurub soruşurlar ki, bu ayəyə nə üçün əməl etmirdin? Oxuduğun hər bir ayə barədə məndən sorğu-sual edirlər və əzabım artır".

Allahın kitabı insanlar üçün nur və hidayətdir. Elə bir kitabdır ki, insanın həm bu dünyasına, həm də axirət dünyasına fayda verir. Buna görə də insan ona qarşı hörmətsizlik etməməli, ayələrini oxuyub əməl etməli və onun həqiqətini gizlətməməlidir. Quranın insanın həyat və taleyində çox böyük təsiri vardır. Quran insanın insaniyyət

proqramıdır ki, Allah-təala onu Öz bəndələrinə mərhəmət etmişdir.

İntizam Kəşmiri adlı böyük bir alim deyir: "Günlərin birində Xorasanda Ayətullah Şeyx Həsənəli İsfahaninin yanına gedib bir məsləhət istədim. Ayətullah Şeyx Həsənəli böyük alim və ariflərdən biri idi. Böyük müctəhidlər ona çox böyük ehtiram göstərirdilər. Ona dedim ki, ağa, mən gecə namazı qıla bilmirəm. Çox yorğun olduğum üçün gecə yatıram, yalnız sübh namazına dura bilirəm. Amma ürəyim istəyir ki, durub gecə namazı da qılım. Xahiş edirəm, mənə elə bir şey öyrədin ki, Allah məni gecələr ibadət etməkdə müvəffəq etsin. Şeyx Həsənəli azacıq sükut etdikdən sonra buyurdu: "Hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxusan, gecə namazına dura biləcəksən."

Mən ona təşəkkürümü bildirib evə qayıtdım. "Yasin" surəsinin yarısını əzbərdən bilirdim. Bir neçə gün oxuyub həmin surəni tam əzbərlədim. Hər gün sübh namazından sonra işə gedərkən yolda gedə-gedə bir dəfə "Yasin" surəsini oxuyurdum. Bir müddət beləcə davam etdim. Lakin yenə də gecə namazına müvəffəq ola bilmədim. Günlərin birində işlə əlaqədar Xorasana getdim. Hava həm yağışlı, həm də soyuq idi. Görüşəcəyim adamın qapısına getdim. Qapını nə qədər döydümsə, açan olmadı. Öz-özümə dedim: Göəsən mən gecənin bu vaxtında hara getsəm yaxşı olar. Birdən yadıma düşdü ki, Şeyx Həsənəlinin evinə gedim, həm də onun mənə göstərdiyi tapşırığın təsiri olmadığını deyib giley-güzarlıq edərəm. Şeyxin qapısına çatdıqda gördüm ki, evin işıqları yanır və qapı da açıqdır. Həyətə daxil olduqda gördüm ki, evdə məclis təşkil olunub və içəridə xeyli adam vardır. Şeyxin əyləşdiyi otaqda adam çox idi. Hava soyuq olduğuna görə qapını örtmüşdülər. Dəhlizdə isə bir neçə nəfər əyləşib onun söhbətinə qulaq asırdı. Mən də dəhlizdə əyləşib onun sözlərini dinləməyə başladım.

Şeyx söhbət əsnasında söhbəti dəyişib bir söz dedi. O, mənim dəhlizdə əyləşdiyimi görmürdü. Amma onun bu sözü sanki mənə aid idi. Dedi ki, bəli, bəli. Bəziləri gəlib məndən gecə namazına müvəffəq olmaq üçün məsləhət istəyirlər. Mən onlara deyirəm ki, hər gün sübh namazından sonra bir dəfə "Yasin" surəsini oxu. Onlar da gedib "Yasin" surəsini dəstəmazlı və üzü qibləyə əyləşdiyi halda oxumaq əvəzinə, yol gedə-gedə, işləri ilə məşğul ola-ola oxuyurlar. Elə başa düşürlər ki, yol gedə-gedə, iş görə-görə "Yasin" surəsini oxuduqda gecə namazına dura biləcək. Bir ildən sonra da Məşhədə başqa bir iş üçün gəlir və işi alınmır. Dünya işinin alınmadığını görüb, yenə də mənim yanıma gəlir və axirət işinin alınmadığı da yadına düşərək giley-güzarlıq etmək istəyir. Diqqət lazımdır. Diqqət lazımdır. Diqqət lazımdır.

Şeyx bu sözləri deyib yenə də əvvəlki söhbətini davam etməyə başladı. Mən onun sözlərindən öz payımı götürdüm və başa düşdüm ki, diqqətsizlik üzündən gecə namazına müvəffəq ola bilməmişəm.

## 4. Haram ticarət və haram yeməklər

İnsanın nəfsinin saflaşması və ruhunun paklaşmasının qarşısını alan amillərdən dördüncüsü haram alver və haram yeməklərdir. Yəni nəfsin saflaşması ilə məşğul olan və ruhunu paklaşdırmaq istəyən hər bir kəs mütləq özünü haram ticarətlərdən və haram yeməklərdən saxlamalıdır. İnsan bu yolda çox çalışmalı və boğazından haram tikələrin keçməsinə heç bir yolla icazə verməməlidir. Əgər insanın boğazından haram yemək və içməklər keçsə, mütləq həmin tikələr içəridə öz təsirini insana göstərəcək. Məsələn, insan kiçik bir dərman həbini yedikdə həmin həb insanın daxilində yavaş-yavaş öz işini mütləq görəcəkdir. Kiçik bir dərmanın və azacıq bir zəhərin insanın daxilində öz təsirini qoyduğu

kimi, eləcə də haram yeməklər də insanın ruhuna öz mənfi təsirini göstərəcəkdir.

Əgər bir insan mənəviyyat aləmində pərvaz etmək istəyirsə, yüksək məqamlara, mənəvi dərəcələrə çatmaq istəyirsə, heç bir vaxt boğazına və qarnına haram yeməklərin keçməsinə razı olmaz. Allah-təala bir gecənin içində İslam Peyğəmbərini(s) meraca apardı. Merac etmək istəyən insan qarnına haram tikə keçməsinə razı olarmı? Böyük və əzəmətli bir təyyarə havaya qalxıb buludların üstündən uçur. Onun benzin çəninin içinə su tökməyə icazə verərlərmi? Pilota onun benzin çəninin içinə benzindən savayı başqa bir şey tökməyə icazə verərlərmi? Əgər benzin çəninin içinə təmiz benzindən əlavə, başqa bir maye də töksələr, həmin təyyarə heç bir vaxt uça bilməz.

Əgər bir insan göylərə pərvaz etmək istəyirsə, mənəviyyat aləmində yüksəklərə qalxmaq istəyirsə, mütləq qarnını da haramlardan gözləməlidir. Namaz mömininin meracıdır. İnsan elə yüksəklərə pərvaz edə bilər ki, heç bir quş həmin ucalıqları fəth edə bilməz. Həzrət Əli(ə) buyurur: "Mən göyün yollarını yerin yollarından daha yaxşı tanıyıram." Çünki Həzrət Əli(ə) hər gün göylərə pərvaz edirdi. Allah-təala Adəmə buğda yeməyi qadağan etmişdi. Həzrət Əli(ə) buyurur: “Allah təkcə Adəmə buğda yeməyi qadağan etdi, lakin mən ömrümün axırına qədər dilimə buğda vurmadım. Halbuki Allah mənə buğdanı qadağan etməmişdi.”

Odur ki, əgər insan özünü paklaşdırıb, insaniyyətin yüksək məqamlarını fəth etmək istəyirsə, mütləq qarnını haram yeməklərdən saxlamalı və ibadət nəticəsində göylərə pərvaz edib təmizlənməlidir. Məsnəvi deyir: “Yağışın suyu göydən yerə tökülərkən tərtəmiz pak və şəffaf olur. Həmin su yerə tökülərək yeri dirildir. Amma özü torpağa bulaşıb çirklənir. Həmin su bir daha pak və təmiz olması üçün

buxarlanıb göyə qalxmalıdır. Onun təmiz, şəffaf və pak olmasının bircə yolu göyə qalxmaqdır.

Hər bir mömin eynilə yağışın suyuna bənzəyir. Sübh yuxudan oyandıqdan və cəmiyyət içinə daxil olduqdan sonra hər bir insanın ona bir cür təsiri olacaq. Əgər ruhunun təmizlənməsini istəyirsə, gərək gecə oyanıb göylərə pərvaz etsin. Möminin pərvazı isə Allaha ibadət və səcdə etməsidir. Əgər bir insan Allah qarşısında səcdə etmirsə, namaz qılmırsa, necə pərvaz edə bilər? Mömin gecələr Allah qarşısında tövbə, səcdə və ibadət edərək merac edib paklanır. Səhər yenə də cəmiyyət içinə daxil olur və çirklənir. Gecə yenə də özünü saflaşdırmaq üçün merac edir. Möminin bu dünyada işi belə olmalıdır. Həkim və cərrah əməliyyat otağına girərkən əllərinə əlcək, əyninə ağ xalat geyinib ağzını bağlayır. Əməliyyat qurtardıqdan sonra otağına keçib əlcəkləri və xalatını çıxarır. Əl-üzünü yuduqdan sonra yenə həmin palataya gəlir. Aşpazlar müxtəlif məclislər üçün mətbəxdə yemək bişirərkən növbənöv ərzaqlardan istifadə edərək xörək bişirirlər. Əllərini soğana, yağa, ətə və s. kimi müxtəlif ərzaq növlərinə vururlar. Həmin ərzaqların iyi onun paltarlarına və bədəninə hopur. Xörək hazır olduqdan sonra gedib əynindəki paltarları çıxarır, yaxşı-yaxşı yuyunur və təmiz paltarlar geyinib həmin məclisə gəlir.

İnsanın ruhu da eynilə buna bənzəyir. Gündüz camaat arasında olarkən, müxtəlif yerlərdə gəzərkən, danışarkən, ora-bura baxarkən cürbəcür xəta və günahlara yol verdikdə onun ruhu çirklənib qaralır. Hədislərdə belə nəql olunur ki, hər bir günah insanın qəlbinə duşən qara ləkədir. Əgər insan həmin qara ləkəni qəlbindən təmizləməsə və yeni günahlar etdikcə həmin qara ləkələr artır. Əgər insan günahın qarşısını almasa, günahlar onun qəlbini bütünlüklə əhatə edər və həmin qəlbin sahibi bir daha xoşbəxtliyin üzünü görməz. Bunun əlacı yalnız ondadır ki, insanın qəlbinə ləkə düşən

kimi onu tövbə, ibadət və səcdə etməklə təmizləsin və artmağa qoymasın. Əgər insanın qəlbi gündüzlər günah nəticəsində çirklənirsə, onun çarəsi gecələr tövbə və ibadətlə məşğul olmaq, mənəviyyat aləminə pərvaz etməkdir. Əgər insan gecə yatıb yuxuya qalsa, sabah həmin günahlar ikiqat çoxalacaq. Həm dünənin günahı, həm də bu günün günahı üst-üstə yığılacaq.

Gecələr ibadət etmək, meraca qalxmaq, mənəviyyatını çoxaltmaq, özünü təmizləmək istəyən insan heç bir vaxt qarnına haram yeməklərin keçməsinə yol verməz. Əgər bir insanın boğazından haram keçsə, gecə yuxudan oyana bilməz və həmin mənəviyyatı əldə edə bilməz. Haram yeyən insan heç vaxt eşqlə ibadət edə bilməz.

قَالَ رَسُولُ اللَّهِ(ص): لا يُكَلّمهُم الله يَومَ القِيَامَة وَ لا يُزَكِّيهِمْ... رَجُلٌ بَايَعَ رَجُلًا بِسِلْعَتِهِ بَعْدَ الْعَصْرِ فَحَلَفَ بِاللَّهِ عَزَّ وَ جَلَّ لَقَدْ أُعْطِيَ بِهَا كَذَا وَ كَذَا. فَصَدَّقَهُ فَأَخَذَهَا وَ لَمْ يُعْطِ فِيهَا مَا قَالَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah qiyamət günü üç nəfərlə danışmayacaq və onları paklaşdırmayacaq... onlardan biri o kəsdir ki, bir malı satmaq üçün yalandan Allaha and içir ki, bu malı filan qiymətə almışam. Alıcı da ona inanıb həmin malı alır. Halbuki satıcı həmin malı and içdiyi qiymətə almamışdır.”[1]

Əgər bir insan belə alver edə-edə və yalandan and içərək camaatı aldadıb malını satırsa, eləcə də bu yolla pul qazanıb yemək yeyirsə, Allah-təala bu cür insanı paklaşdırmaz və qiyamət günü onunla danışmayacaq. Haram ticarətlə məşğul olan insan heç bir vaxt nəfsini saflaşdırmayacaq. Ticarətin

[1] Mizanül-hikmə, 5-ci cild, səh. 2200.

qayda-qanununu Allah-təala Quranda müxtəlif ayələrdə bizə bəyan etmişdir. O cümlədən “Nisa” surəsinin 29-cu ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن تَرَاضٍ مِّنكُمْ

-Ey iman gətirənlər, qarşılıqlı razılıq əsasında olan ticarət istisna olmaqla öz aranızda bir-birinizin mallarını haqsız yerə *(şəriət və qanuna zidd yollarla)* yeməyin.

Bu ayədə Allah-təala bizə başa salır ki, ticarət edərkən halal yollarla alver etmək lazımdır. Ticarətdə yalan danışmağa və haqsız yerə bir-birinin malını yeməyə icazə verilmir. İnsan yalnız halal və təmiz yolla ticarət etməlidir. Tarixə nəzər saldıqda görürük ki, Peyğəmbər(s) və imamların əksəriyyəti ticarətlə məşğul olmuşlar. Onların heç biri ticarətdə əyri yola düşməmişlər. Yəni əsl ticarət etməyin yolunu öz hərəkətləri ilə bizə başa salmışlar. İnsan ticarətdə heç bir vaxt harama yol verməməlidir. Allah-təala hər bir insana ruzisini halal yolla əldə etməyi tövsiyə edib. Hər bir kəs Allahın onun üçün təyin etdiyi ruziyə razılaşmayıb haram yollara əl atarsa, Allah-təala onu özbaşına buraxar. Hər kəs Allahın təyin etdiyi halal ruziyə qane olmayıb, haram yollara əl atarsa, Allah-təala onu öz işlərində başlı-başına buraxar. Belə olduqda həmin şəxsin başı bu yolda daşdan-daşa dəyər. Haram yolla çoxlu pul əldə etsə də, etməsə də belə yenə günah və haramın içində boğulub batır və neçə-neçə insanı aldadaraq onların haqqını boynuna götürür. Əgər insan halal yolla çalışıb halal ticarətlə məşğul olsa, Allah-təala onun üçün müəyyən etdiyi ruzini yetirəcək.

## Dolanışığı təmin etmək üçün çalışmaq vacibdir

Burada bilməyimiz çox yaxşı olar ki, kimlərə ticarət etmək və dolanışığı təmin etmək vacib olur? Şəriət baxımından maddi imkanı olan, məsələn, atasından bağlar, pullar və s. qalan şəxsə ticarət etmək vacib deyildir. Əgər o, alver etmək istəsə, heç bir maneəsi yoxdur. Şəriət baxımından bu insana alver etmək vacib deyildir. Lakin ticarətdən savayı başqa bir gəlir yeri olmadığına və onun öhdəsində olan şəxslərin, eləcə də özünün dolanışığına görə, onların yeməyini, geyməyini və s. təmin etmək üçün alverlə məşğul olması vacibdir. Məsələn, bir kişi ailə qurursa, həyat yoldaşının yeməyi, içməyi, geyməyi və s. təminatı məsələsi ona aiddir. Əgər həmin kişinin ticarətdən savayı başqa bir gəlir yeri olmasa, o zaman alver etmək ona vacib olur. Bir kişi özünü və ailəsini ticarət vasitəsilə tam təmin edirsə, öhdəsinə düşən vacibi yerinə yetirmişdir. Əgər bundan artıq qazanıb müstəhəb işlər görmək istəyirsə, həmin ticarət ona müstəhəb olacaq. Çünki vacibləri yerinə yetirmək üçün lazımınca ticarət etmişdir. Qısaca desək, həddindən artıq ticarət etmək müstəhəbdir. Ticarətdən savayı başqa heç bir gəliri olmayan insana o zaman ticarət vacib olur ki, özünü və ailəsini tam təmin edə bilsin. Tam təmin etdikdən sonra artıq ticarət edib qazanması müstəhəbdir. Məsələn, ikiotaqlı ev ona və ailəsinə kifayət edir. Əgər iki otaq da əlavə etmək istəsə, bu onun üçün vacib yox, müstəhəbdir. Yəni vacibatdan əlavə otaqlarını genişləndirmək üçün alver edib daha çox qazanması müstəhəbdir. Həmçinin kiməsə kömək etmək, məhəlləyə su çəkdirmək, ehsan süfrəsi açmaq məqsədi ilə ticarət edib daha çox qazanması müstəhəbdir.

Ümumiyyətlə, alver etmək çox böyük savab işlərdəndir. Hər kəs halal ruzi dalınca gedib alverlə məşğul olarsa, Allah-təala həmin şəxsə Öz bərəkətini nazil edər. Hədislərdə belə

nəql olunur ki, halal ticarətlə məşğul olan insanların ibadətləri digər insanların ibadətlərindən üstündür.

# HARAM TİCARƏT
# (Murdar şeylərin alveri)

## Şərab

Elə alverlər var ki, Allah-təala onların alış-verişini haram buyurmuşdur. Halal alverin nə olduğunu hamı yaxşı bilir. Burada çox yaxşı olar ki, alveri qadağan olunmuş şeylər barədə kifayət qədər məlumatımız olsun. Əgər bizim alveri haram edilmiş həmin şeylər barədə dəqiq məlumatımız olsa, onda qalan şeylərin alınıb-satılmasının halal olduğunu biləcəyik.

1) Zatən (öz-özlüyündə) murdar olan şeylərin alqı-satqısı.

Alqı-satqısı haram olan şeylərin ən birincisi murdar olan şeylərdir. Yəni qan, donuz, şərab və s. kimi hər hansı murdar bir şeyin alqı-satqısı haramdır. Məsələn, insanın qanı öz-özlüyündə murdar və nəcisdir. Əgər bir insan qanı alver məqsədi ilə satsa haramdır və onun gəliri də haramdır. Amma bir nəfərin qana ehtiyacı olduqda, ona qan vermək yaxşı bir işdir və bu zaman qanın əvəzində müəyyən bir məbləğ almağın eybi yoxdur.

Yaxud donuz kimi bəzi murdar heyvanların alqı-satqısı da haramdır. Donuz elə bir heyvandır ki, onun ətini nə qədər suya çəksələr də pak olmaz. Zatən murdar olduğuna görə də onun alveri haramdır.

Həmçinin məstedici içki və mayelərin alveri də haramdır. Çünki məstedici içkilər öz-özlüyündə murdardır. Onların hər birinin xüsusi adı olmasına baxmayaraq, ümumi adı məstedici içki, yaxud şərabdır. Şərab həm murdardır, həm də alqı-satqısı haramdır. Ondan qazanılan pul da haramdır. Bu barədə bir çox ayə və hədislər vardır ki, nümunə üçün bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللَّهِ(ص): لَعَنَ اللهُ الْخَمرَ وَ عَاصِرِهَا وَ غَارِسَهَا وَ شَارِبَهَا وَ سَاقِيَهَا وَ بَايِعَهَا وَ مُشتَرِيَهَا وَ آكِلَ ثَمَنِهَا وَ حَامِلَهَا وَ الْمَحمُولَةَ اِلَيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah şəraba, onu düzəldənə, onun (meyvəsini məhz o iş üçün) əkib-becərənə, onu içənə, onu paylayana (içirdənə), onu satana, onu alana, onun pulunu yeyənə, onu daşıyana və yükləyənə lənət etsin."[1]

Həzrət Peyğəmbərin(s) şərabın haram olmasını belə təkidlə buyurması onu bildirir ki, insan mütləq bu işdən çəkinməlidir. Bəziləri deyirlər ki, şərabın insana çox mənfəəti vardır. Yəni onun alqı-satqısında insan maddi mənfəət götürür. Peyğəmbərin(s) zamanında da bu sözləri deyirdilər. Lakin Allah-təala "Bəqərə" surəsinin 219-cu ayəsini nazil etməklə onların ağzını bağladı.

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا

-Səndən şərab və qumar barəsində soruşurlar, de: "O ikisində böyük günah və insanlar üçün *(maddi)* mənfəətlər vardır və onların günahı mənfəətlərindən böyükdür."

Bütün Şərq və Qərb alimləri şərabın mənfi təsirləri haqda çoxlu kitablar yazmışlar. Onlar içkinin insanın bədəninə olan pis təsirlərindən və insanın ömrünün azalmasına səbəb olmasından bəhs etmişlər. Hətta elmi təcrübələrə əsaslanaraq şərabın dünyaya gələn yeni nəsillərə çox böyük və mənfi təsir göstərməsindən söz açmışlar. Əgər uşağın atası, yaxud

---

[1] Mizanül-hikmə, 4-cü cild, səh.1544.

anası içki içən olsa, uşaq dünyaya gəldikdən sonra onun təsirləri özünü büruzə verəcəkdir.

Həmçinin içki içən insanların ailəsində mövcud olan pis rəftarlar və onların ictimai zərərləri haqda kifayət qədər fikirlər söyləmişlər. Əlbəttə, bu barədə geniş bəhs etmək olar. Ancaq bizim əsas söhbətimiz haram olan şərab barədədir ki, onun həm içilməsi, həm də alveri haramdır.

Ərəblər cahillik dövründə şərabı çox sevərdilər. Yəni ərəblərin əsasən üç şeyə daha çox marağı var idi. Onlardan biri şeir, ikincisi şərab, üçüncüsü isə müharibə kimi şər işlər idi. Şərabın haram olması barədə ayə nazil olduqda bu qadağa onlara çox pis təsir etmişdi. Onlar şərab içməyə aludə olduqlarından öz dilləri ilə deyərdilər: "Haram və qadağaların içərisində bizə ən çətin və ağır olanı şərab oldu."

O zamanlar, yəni cahillik dövründə insanlar özlərini içkisiz təsəvvür belə edə bilmirdilər. Bu artıq onların mədəniyyətinə çevrilmiş və adət halını almışdı. Odur ki, mövcud vəziyyət nəzərə alındı və İslam dini birdən-birə onlara qadağa qoymadı. Bu iş mərhələ-mərhələ təbliğ olundu və nəhayət, içkinin qadağan olunduğu elan edildi. Allah-təala ilk mərhələdə “Nəhl” surəsinin 67-ci ayəsini nazil etdi:

وَمِن ثَمَرَاتِ النَّخِيلِ وَالأَعْنَابِ تَتَّخِذُونَ مِنْهُ سَكَرًا وَرِزْقًا حَسَنًا

-Xurma və üzüm ağaclarının meyvələrindən (pak olmayan) məstedici mayelər, həmçinin gözəl və pak ruzi alırsınız.

Allah-təala ilk növbədə bu ayədə birdən-birə şərabı qadağan etmədi. Sadəcə onun pis olduğunu camaata başa saldı. Yəni yaxşı bir ruzinin müqabilində pis bir şeyin olduğunu bəyan etdi. Xurma və üzümdən həm pak şeylər düzəldirsiniz, həm də onlardan məstedici və pak olmayan şeylər alırsınız. Peyğəmbər(s) də Məkkədə bu cümlədən artıq onlara bir söz demədi. Sadəcə bu işin pis olduğunu

vurğuladı. Məkkədə içki və şərab barədə nazil olan ayə yalnız bu oldu. Bu ayədə hamıya eşitdirdi ki, İslam bu işi (meyvələrdən içki düzəldib içməyi) bəyənmir. Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət etdikdən və İslam cəmiyyətini yaratdıqdan sonra "Bəqərə" surəsinin 219-cu ayəsi nazil oldu:

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا

-Səndən şərab və qumar barəsində soruşurlar, de: "O ikisində (onlara mürtəkib olmaqda) böyük günah və insanlar üçün (maddi) mənfəətlər vardır və onların günahı mənfəətlərindən böyükdür."

Bu ayədə də hələ qəti haram və qadağan söhbəti açılmadı. Sadəcə şərabın maddi mənfəəti olmaqla yanaşı, onun böyük günah və ziyanlarını camaata başa saldı. Bu ayədə əvvəlkinə nisbətən şərabın pis olduğuna daha artıq təkid edildi. Bir müddət keçdikdən sonra isə, yəni üçüncü mərhələdə "Nisa" surəsinin 43-cü ayəsi nazil oldu:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَقْرَبُواْ الصَّلاَةَ وَأَنتُمْ سُكَارَى حَتَّىَ تَعْلَمُواْ مَا تَقُولُونَ

-Ey iman gətirənlər, sərxoş halda (sərxoşluğunuz aradan gedənə və) nə dediyinizi bilənə kimi namaza yaxınlaşmayın.

Bu ayədə möminlərə xitab edildikdən sonra bəyan olunur ki, namaz qılarkən məst halında olmayın. Bunun mənası o deyil ki, məst olmusunuzsa namazı sonra qılarsınız. Mənası belədir ki, namaz vacib olduğu üçün mütləq məstedici içkiləri kənara qoymalısınız. Bu mərhələdə məsələnin ciddi olduğuna təkid olunur. Dördüncü və sonuncu mərhələdə şərabın qəti qadağan olmasını bəyan edir. Allah-təala

“Maidə” surəsinin 90-cı ayəsində həm şərabın, həm də bir sıra əməllərin çox pis iş olduğunu insanlara başa salaraq belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.

Bu ayədə son nöqtəni qoyaraq sözü yekunlaşdırır və bütün bu sadalanan işlərdən çəkinmək barədə qətiyyətlə göstəriş verir. Əvvəlcə onların çirkin və murdar əməl olduğunu önə çəkir və sonra bu işlərin şeytanın ixtiralarından olduğunu açıqlayaraq bunlardan çəkinməyi əmr edir. Ayədə olan incə məqamlardan biri də budur ki, içkini gətirib bütpərəstliklə eyni sırada təqdim edir. Yəni günah və pislikdə onların ikisi də eyni dərəcədədir. Deməli, içki içən insanla bütpərəstin heç bir fərqi yoxdur. Həzrət Peyğəmbər(s) bu ayəyə istinad edərək belə buyurur:

شَارِبُ الْخَمرِ كَعَابِدِ الوَثَنِ

-Şərab içən insan bütpərəst kimidir.

Şərab tam şəkildə qadağan və haram olunduqdan sonra Allah-təala onun ziyanları barədə insanları xəbərdar etdi. Həmin ayədən sonrakı ayədə belə buyurulur:

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَن يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاء فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَن ذِكْرِ اللّهِ وَعَنِ الصَّلاَةِ فَهَلْ أَنتُم مُّنتَهُونَ

-Həqiqətən, şeytan şərab və qumarla (sizi onlara aludə edib onların düşkünü etməklə) aranızda düşmənçilik və kin salmaq və sizi Allahın zikrindən və namazdan saxlamaq istəyir. Belə isə əl çəkəcəksinizmi?

## Haram içkilərdən və haram yeməklərdən çəkinmək

İnsan haram alverlərdən çəkinməklə yanaşı, haram yeməklərdən də çəkinməlidir. Haram alverlərdən və haram içkilərdən biri məstedici mayelərdir. Çox təəssüflər olsun ki, bir çox müsəlmanlar cəmiyyətdə elə bir günaha mübtəla olmuşlar ki, haram içkiləri öz halal süfrələrinə qoymağa razı olurlar. Müsəlmanlar arasında süfrənin çox böyük hörməti vardır. Lakin bir çoxları süfrəyə olan bu hörməti sındıraraq, onun üstünə müxtəlif haramları da qoyurlar. Süfrənin hörməti budur ki, onun üstünə çörək, duz, su və müxtəlif halal yeməklər qoyulsun. Əgər bir mömin ayağını həmin süfrəyə qoyub onun üstündən keçsə, digər müsəlmanlar onun bu hərəkətinə çox pis yanaşırlar. Halbuki onun üzərinə qoyulan ayaq dəstəmazlı və pak bir möminin ayağıdır.

Digər tərəfdən bir möminin ayağının süfrənin üstünə qoyulmasına pis baxılırsa, bəs nə üçün həmin süfrənin üstünə haram içkilərin qoyulmasına adi yanaşırlar? Nə üçün Allahın haram etdiyi murdar şeylərin süfrəyə qoyulmasına pis baxmırlar? Elə bir murdar şey ki, Peyğəmbər(s) onun barəsində belə buyurur: “Əgər onun bir damlası su quyusuna düşsə və həmin quyunu torpaqla doldursalar, sonra isə həmin torpağın üstündə ot bitsə və heyvanlar həmin otu yesə, mən o heyvanların ətindən belə yemərəm.”

Belə olduqda bəs nə üçün müsəlmanlar bu murdar şeyi süfrələrinə qoymağa razı olurlar? Məgər içkinin haram olması barədə Quranda ayələr nazil olmayıbmı? Məgər içkinin nə qədər murdar və haram olduğu barədə Peyğəmbər(s) və imamlardan hədis nəql olunmayıbmı? Nə üçün müsəlmanlar belə bir haram və murdar bir şeyi öz halal süfrələrinə qoyurlar.

İngiltərədə yaşayan Bentam adlı Avropa alimi spirtli içkilər barədə belə yazır: “Dünya iki hissədən ibarətdir. Bir hissəsi şimal, bir hissəsi isə cənubdur. Dünyanın şimal hissələrində spirtli içkiləri içən insanlar sonda dardü-şüncəliliyə mübtəla olurlar və nəticədə onlar ağıllarını itirirlər. Dünyanın cənub hissəsində yaşayan və spirtli içkilər içən insanlar isə nəticədə dəli olurlar. Yəni spirtli içkilər şimalda yaşayan insanlara bir cür, cənubda yaşayan insanlara isə başqa cür təsir edir. İslamın ən üstün cəhətlərindən biri də budur ki, hələ min dörd yüz il bundan öncə bu məsələyə çox dəqiq münasibətini bildirib və həmin mayeni qadağan etmişdir. (İslam dini texnologiyanın və müxtəlif analizləri həyata keçirən cihazların olmadığı, elmin inkişaf etmədiyi bir zamanda spirtli içkilərin insana mənfi təsirlərini bəyan etmiş, onun insan üçün nə qədər zərərli olduğunu açıqlamış və ondan içtifadə etməyi qadağan etmişdir.)”

Bəli, belə bir zamanda İslam Peyğəmbəri(s) spirtli içkilər barədə  buyurmuşdur:

لا تُجَالِسُوا مَعَ شَارِبِ الْخَمر وَلا تَعُودُوا مَرضَاهُم وَلا تُشَيِّعُوا جَنَائِزَهُم وَلا تُصَلُّوا عَلى أَموَاتهُم فَإِنَّهُم كِلابُ أَهلِ النَّار، كَمَا قَالَ اللّه عَزَّ وَجَلَّ  "اِخْسَؤُوا فِيهَا وَلَا تُكَلِّمُونِ."

-Məstedici içki içənlərlə oturub-durmayın. İçki içən (içki aludəçisi olan) insan xəstələndikdə ona baş çəkməyin.

Öldükdə onun cənazəsini müşayiət etməyin. Onun cənazəsinə namaz qılmayın. Çünki onlar cəhənnəm itləridir. Necə ki, Allah-təala onların barəsində buyurur: “Orada zəlil vəziyyətdə susun və rədd olun, Mənimlə əsla danışmayın!”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ شَرِبَ الْخَمْرَ لَمْ تُقْبَلْ مِنهُ صَلاةٌ أَرْبَعِينَ لَيْلَةً، فَإِن عَادَ فَأَربَعِينَ لَيلَةً مِن يَومِ شَرِبَهَا، فَإِن مَاتَ فِي تِلكَ الأَربَعِين لَيلَةٍ مِن غَيرِ تَوبَةٍ سَقَاهُ الله يَوم القِيَامَة مِن طِينَةِ خَبالٍ

Digər bir hədisdə isə Peyğəmbər(s) belə buyurur: “Hər kəs şərab içsə, qırx gecə (və gündüz) namazı qəbul olunmaz. Qırx gün keçdikdən sonra bir daha içsə, yenə də qırx gün namazı qəbul olunmayacaq. Əgər bu qırx günün içərisində tövbə etmədən ölsə, Allah-təala qiyamət günü cəhənnəm əhlinin yaralarının suyunu torpağa qarışdırıb həmin şəxsə içirdəcək.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): وَ الَّذِي بَعَثَنِي بِالْحَقِّ نَبِيًّا إِنَّ شَارِبَ الْخَمر يَأتِي يَومَ القِيَامَة مُسوَدًّا وَجهُهُ يَضرِبُ بِرَأسِهِ الأَرضِ وَ يُنَادِي وَا عَطَشَاه

-Peyğəmbər(s) buyurur: “Məni peyğəmbərliyə haqq olaraq məbus edən Allaha and olsun ki, şərab içən insan qiyamət günü üzüqara  halda məhşərə gələcək. Başını yerə vuraraq nalə edib deyəcək: Yandım suzundan!”[3]

Bu qədər hədislərdən açıq-aydın başa düşürük ki, içki içmək çox pis işlərdəndir. Odur ki, çox yaxşı olar ki, insanlar

---

[1] Mizanül-hikmə, 4-cü cild, səh.1548.
[2] Mizanül-hikmə,4-cü cild, səh.1548.
[3] Mizanül-hikmə,4-cü cild, səh.1548.

bir-birini bu çirkin işdən çəkindirsinlər. Sağlam cəmiyyətin formalaşması üçün sağlam və nurlu insanlar lazımdır. Əgər cəmiyyətdə içki aludəçisi olan insanlar çoxalarsa, həmin cəmiyyət məhvə doğru gedər və mənəvi cəhətdən pis günə qalar. Buna görə də hər bir cəmiyyətdə yaşayan insanlar içki içənləri başa salmalı və onları bu çirkin işdən çəkindirməlidirlər.

## Şərab bütün günahların mənbəyidir

Burada sual oluna bilər ki, bəs nə üçün içkinin qadağan olunmasına bu qədər təkid edilmiş və içki içən barədə belə kəskin fikirlər buyurmuşlar? Bu sualın cavabı belədir ki, günahların hamısının əsası və mənbəyi spirtli içkilərdir.

قَالَ الصَّادِقُ(ع): إِنَّهُ مَن شَرِبَ جُرعَةً مِن خَمرٍ لَعَنَهُ اللهُ عَزَّوَجَلّ وَمَلائِكَتُهُ وَرُسُلُهُ وِالْمُؤمِنُون، فِإن شَرِبَهَا حَتىّ يَسكُرَ مِنهَا نُزِعَ رُوحُ الإِيمَان مِن جَسَدهِ وَرَكِبَت فِيهِ رُوحٌ سَخِيفَةٌ خَبِيثَةٌ مَلعُونَةٌ. فَيَترُكُ الصَّلاة عَيَّرَتُهُ الْمَلائِكَة وَ قَالَ اللهُ عَزّوَجَلّ عَبدِى كَفَرتَ وَ عَيَّرَتكَ الْمَلائِكَة سُوءة لَكَ عَبدِي

İmam Sadiq(ə) buyurur: "Hər kəs bir qurtum şərab içsə, Allah, mələklər, peyğəmbərlər və möminlər ona lənət oxuyar. Əgər ağlı başından çıxana qədər içsə, imanın ruhu onun bədənindən çıxar və pis, lənətlənmiş və xəbis ruh onun bədəninə girər. Sonra namazı tərk edər və mələklərin tənqid hədəfinə çevrilər. Allah-təala ona buyurar: Ey mənim bəndəm, kafir oldun və mələklərin tənqid hədəfinə çevrildin. Çox pis hala düşdün. Vay olsun sənin halına."

Sonra İmam Sadiq(ə) belə buyurdu: “And olsun Allaha, Allahın insanı bir an bu cür tənqid və məzəmmət etməsi, insan üçün min il əzab görməkdən daha ağırdır.”[1]

Şərab elə bir şeydir ki, onun azını içmək belə Allahın qəzəbinə səbəb olar. Şərab insanın ruhunu xarab edər. Bəziləri deyirlər ki, hərdən az miqdarda içməyin ziyanı olmaz. Lakin onun həm azı, həm də çoxu murdardır və içilməsi haramdır. Əgər şərabın bir damlası yekə bir su qabının içinə düşsə, onun içindəki su da murdar və haram olar.

Əmr ibn Hənzələ deyir: “Bir gün İmam Sadiqə(ə) dedim: Ey Allahın höccəti, mən hərdən şərabı suya qatıb içirəm ki, məni məst etməsin. İmam(ə) buyurdu: Belə olmaz. Şərabın həm azı, həm də çoxu murdar və haramdır. Əgər maye olan bir qabın içinə şərab tökülsə, gərək həmin qabı tamamilə boşaldıb paklayasan.”[2]

Şərab içmək haram və böyük günahlardandır. Hədislərdə belə nəql olunur ki, onu kiməsə içirtmək də haram və günahdır. Həmçinin belə nəql olunur ki, hər kəs kiçik bir uşağa azacıq da olsa şərab içirtsə, Allah-təala qiyamət günü ona həmin miqdarda cəhənnəm həmimi (qaynar su) içirdər. Həmim barədə həm hədislərdə, həm də Quranda bəhs olunub. “Yunis” surəsinin 4-cü ayəsində belə buyurulur:

وَالَّذِينَ كَفَرُواْ لَهُمْ شَرَابٌ مِّنْ حَمِيمٍ وَعَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يَكْفُرُونَ

-Kafirlər üçün küfrlərinin cəzası olaraq qaynar sudan ibarət içki və ağrılı bir əzab vardır.

---

[1] Böyük günahlar,1-ci cild, səh. 233.
[2] Böyük günahlar,1-ci cild, səh. 236.

Deməli, Allah-təala iki dəstəyə cəhənnəmin qaynar suyunu içirdəcəkdir. Onlardan biri kafirlər, digəri isə içki içənlərdir.

## Şərab qoyulan süfrə kənarında əyləşmək olmaz

Şərab elə pis bir şeydir ki, hətta bu içkinin qoyulduğu süfrənin kənarında əyləşmək belə möminlərə qadağan olunmuşdur. Əgər bir mömin əyləşdiyi süfrədə şərab olduğunu görsə, dərhal ayağa qalxıb oranı tərk etməlidir. Əgər əmr be-məruf edə bilərsə və sözünün kəsəri olarsa, oradakıları da başa salmalı və onları bu əməldən çəkindirməlidir. Yox, əgər onun sözünə məhəl qoyan olmayacağını bilsə, oranı tərk etməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): مَلعُونٌ مَلعُونٌ مَن جَلَسَ عَلَى مَائِدَةٍ يُشرَبُ عَليهَا الْخَمر

-Həzrət Peyğəmbər(s) buyurur: “Məlunun məlunudur o kəs ki, şərab içilən süfrə kənarında əyilir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن كَانَ يُؤمِنُ بِاللهِ وَاليَومِ الآخِرِ فَلا يَأكُل عَلى مَائِدَةٍ يُشرَبُ عَلَيهَا الْخَمر

Digər bir hədisdə Peyğəmbər(s) belə buyurur: “Allaha və axirət gününə imanı olan kəs şərab içilən süfrənin kənarında əyləşib yemək yeməz.”[2]

---

[1] Böyük günahlar,1-ci cild, səh. 237.
[2] Böyük günahlar,1-ci cild, səh. 237.

Sual oluna bilər ki, bəs nə üçün hətta içki içilən süfrənin kənarında əyləşmək belə qadağan olunmuşdur? Əgər bir nəfər içki içmirsə və kiməsə içki içirtmirsə, həmin süfrənin kənarında əyləşməyin nə ziyanı vardır? Bu sualın cavabında İmam Sadiqdən(ə) belə bir hədis nəql olunur:

قَالَ الصَّادِقُ(ع): لا تُجَالِسُوا شَارِبَ الْخَمرِ فَإِنّ اللَّعنَةَ اِذَا نَزَلَت عَمِيَت مَن فِى الْمَجلِس

-İçki içənlərlə (bir süfrə kənarında) əyləşməyin. Çünki əgər o an lənət və bəla nazil olsa, o məclisdəkilərin hamısına (içənə də, içməyənə də) dəyəcək.

Əgər bir yerdə günah iş görülürsə və günah etməyənlər onlara etiraz etməyərək sakit dayanırlarsa, Allah-təala bəla nazil etdikdə onların hamısını bəlaya düçar edər. Tarixi rəvayətlərə nəzər salanda görürük ki, Şüeyb Peyğəmbərin(ə) yüz min nəfərlik qövmü var idi. Həmin yüz min nəfərlik qövmün 40 mini günahkar, 60 mini isə ibadət edən idi. Lakin ibadət edənlər günahkarları günahdan çəkindirmir və onların əməllərini görüb susurdular. Allah-təala mələklərə onların hamısını məhv etmək əmrini verdi. Mələklər dedilər: "İlahi, o qövmün 60 min nəfəri Sənə ibadət edirlər. Allah-təala buyurdu: Onların ibadətlərinin faydası yoxdur. Çünki onlar günahkarları günahdan çəkindirmir və onların qarşısında susub bir söz demirlər."

## Şərab və dərman

Burada bir mətləbə diqqət yetirməyi zəruri hesab edirəm. Sual olunur ki, şərabdan dərman kimi istifadə etmək olarmı? Şəriət kitablarında bu suala ətraflı cavab verilmişdir. Şərabdan dərman kimi istifadə etməyin üç şərti vardır:

Birincisi budur ki, xəstəliyin şərabdan savayı başqa bir yolla əlacı olmasın. Yəni elə bir xəstəlikdir ki, yalnız və yalnız şərabla onun  müalicəsi mümkündür.

İkinci şərti budur ki, əgər xəstəlik şərabın köməkliyi ilə müalicə olunmasa, həmin xəstə ölə bilər.

Üçüncüsü isə budur ki, həmin xəstəliyin əlacının yalnız şərabda olduğu məlum olmuş olsun. Yəni əgər yalnız şərabla həmin xəstəlik aradan qalxacaqsa, o zaman ondan istifadə etməyin eybi yoxdur. Əgər tam yəqinləşdirilsə ki, həmin xəstəliyə yalnız şərab kömək edə bilər, onda şərabdan dərman kimi istifadə etməyə icazə verilir.

Deməli, əgər bir xəstənin xəstəliyində həmin üç şərt olarsa, o zaman zəruriyyət qarşısında qalıb onu şərabla müalicə etməyə icazə verilir. Müctəhidlər şəriət kitablarında həmin üç şərt barədə müfəssəl söz açmışlar. Hədislərə diqqət yetirdikdə isə görürük ki, Allah-təala haram şeylərə şəfa bəxş etməmişdir. Çünki şərab elə bir şeydir ki, onun olduğu bir məclisə və yerə mələklər daxil olmaz. Hədislərdə belə nəql olunur ki, mələklər bir sıra yerlərə daxil olmazlar. Onlardan biri də haram içkilər olan yerdir. Mələklərin olmadığı yerlərdə isə Allah-təala şəfa qərar verməz. Buna görə də insanın şərabdan hətta dərman kimi belə istifadə etməməsi daha yaxşı olar.

Tanıdığım dostlarımdan biri həkimə getmişdi. Onun ürəyi ilə bağlı problemi var idi. Həkimlərdən biri ona demişdi ki, araqla qoz ləpəsini qarışdır və içinə bəzi şeylər qat. Onu bir ay qaranlıq yerdə saxla. Bir aydan sonra hərdən bir qaşıq ondan istifadə etsən tədricən sağalacaqsan. Ürəyinin dərmanı yalnız bundadır. Şəriət baxımından da ona icazə verilmişdi. O, həkimin göstərdiyi kimi, azacıq araqla həmin şeyləri qarışdırıb iyirmi gün saxladı. İyirmi gündən sonra baxıb gördü ki,qarışıq həkimin dediyi hala gəlib çatıb. Həmin dərmana diqqətlə baxdıqdan sonra öz-özünə dedi: “İlahi,

mən ömrümdə şərab içməmişəm. Sənə xatir hu haram dərmandan vaz keçirəm. Sən Özün mənə şəfa ver.”

Dərmanı atdıqdan sonra yanıma gəlib dedi: “Ağa, mən həkimin tapşırdığı dərmanı düzəltdim. Dərman hazır olduqdan sonra Allahla öz aramda fikirləşib həmin dərmandan istifadə etmədim və çölə atdım. Öz- özümə dedim ki, inşallah, Allah Özü mənə şəfa verər.”

Bu hadisənin üstündən bir neçə gün keçmişdi ki, o, işlə əlaqədar olaraq Tehrana getməli oldu. Tehrana getdikdən iki gün sonra mənə zəng edib işlərinin düzəldiyini dedi. Sonra dedi ki, mən həkimə gedib müayinə olundum. Həkim mənə dedi: “Sənin ürəyində üç gün ərzində cərrahiyyə əməliyyatı aparılmalıdır. Əgər əməliyyat olunsan, xəstəliyin birdəfəlik sağalacaq.” Mən Bakıya qayıdım, yoxsa qalıb əməliyyat olunum? Ona dedim ki, sən əməliyyat olun, sağalandan sonra gələrsən. Orada qalıb əməliyyat olundu və sağaldı. Bir neçə gündən sonra yenə də iş yerinə qayıtdı.

Bu hadisəni danışmaqda məqsədim odur ki, o, Allahla öz arasında əhd bağladı ki, haram içkini dərman da olsa belə içməyəcək. Şəfasını isə Allahdan istədi və Allah da başqa bir yolla onun dərdinə əlac edib ona şəfa verdi. Əgər insan əlini Allahdan üzməsə, Ona ümid bağlayaraq hətta dərman olsa da belə haram mayelərdən əl götürsə, Allah-təala onu naümid qoymaz.

İbn Yəfur Kufədə yaşayan müsəlmanlardan biri idi. Günlərin birində o, İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: “Ey Peyğəmbər(s) balası, mən elə bir xəstəliyə düçar olmuşam ki, ağrılarım çoxaldıqda bir miqdar üzüm şərabı içirəm və bununla da ağrı kəsilir. İmam(ə) ona buyurdu: İçmə, haramdır. Bu, şeytanın hiyləsidir ki, sənin baş ağrından istifadə edib səni harama sövq edir. Sən onu içdikdən sonra şeytan həmin ağrıları sakitləşdirir. Əgər

şeytan sənin şərab içməyindən məyus olsa və görsə ki, daha içmirsən, o zaman baş ağrıların da sağalacaq.”

İbn Yəfur deyir: “İmamdan(ə) ayrıldıqdan sonra Kufəyə qayıtdım. Bir neçə gündən sonra yenə də ağrılarım başladı. Başımın ağrısı çox pis olurdu. Adətən, evdə bu halımı gördükdə mənə üzüm şərabı gətirirdilər. Yoldaşım mənim vəziyyətimi görüb bir miqdar şərab gətirdi. Mən ona dedim: Daha şərab içməyəcəyəm. Soruşdu: Nə üçün içmirsən? Dedim: İmam Sadiqdən(ə) bu məsələni soruşdum və Həzrət(ə) buyurdu ki, olmaz. Bu hadisədən sonra bir neçə gün ağrılara dözdüm. Yavaş-yavaş başımın ağrısı tamamilə keçdi və ömrümün axırına qədər bir daha başımda ağrı hiss etmədim.”

Əgər insan Allaha ümid bağlasa və haram içkilərdən dərman kimi də olsa belə içməsə, Allah-təala ona şəfa verər. Əlbəttə, bu o demək deyildir ki, hər kəs içkini tərgitdikdən sonra mütləq şəfa tapacaq. Ola bilsin ki, onun xəstəliyi bu haram içkinin içilib-içilməməsi ilə düzəlməsin. Ümumiyyətlə, şərab içmək haram işdir və insan sağalsa da, sağalmasa da şərabdan əl çəkməlidir. Əgər əl çəkməsə, günah və cəhənnəm odunu qazanar.

İmam Sadiqin(ə) böyük oğlu İsmayıl idi. O, atasından belə nəql edir: “Atam deyirdi ki, bir gün atam İmam Baqirə(ə) dedim: Bir miqdar pulum var. İstəyirəm ki, onu filankəsə verim və onunla şərikli iş quraq. Atam dedi: Oğlum, məgər bilmirsənmi ki, şərik olmaq istədiyin adam şərabxordur? Dedim: Atacan, möminlərdən eşitmişəm ki, o, içki içən adamdır. Atam dedi: Belə adamların barəsində möminlərin sözünə inan və bu işi görmə. Sonra “Nisa” surəsinin 5-ci ayəsini oxudu:

وَلاَ تُؤْتُواْ السُّفَهَاء أَمْوَالَكُمُ الَّتِي جَعَلَ اللّهُ لَكُمْ قِيَاماً

-Allahın sizin (yaşayışınız) üçün dayaq etdiyi mallarınızı (və yetimlərin mallarını) səfehlərə (və azyaşlı yetimlərin özlərinə) verməyin.

Sonra atam mənə buyurdu: Əgər belə adamlara pul versən və pulun arada itib batsa və ya onu qaytarmasa, özündən başqa heç kəsi danlamağa haqqın yoxdur.”

Odur ki, nəfsini saflaşdırmaq və ruhunu paklaşdırmaq istəyən hər bir kəs bu kimi şeyləri bilməli, həyatda çox diqqətli olmalı və əməldə bütün bunlara riayət etməlidir.

# HARAM TİCARƏT
# (Haram əşyaların alveri)

## Qumar və qumar alətləri

Ötən bəhslərdə nəfsin saflaşmasına və ruhun paklaşmasına mane olan amillər barədə söhbət etdik. Bunları da öyrəndik ki, murdar əşyaların həm alqı-satqısı, həm də yeyilib-içilməsi haramdır. Hər kəs bu işlərlə məşğul olsa, nəfsin saflaşdırılması mümkün olmayacaq. Murdar əşyaların alverindən əlavə, haram əşyaların da alqı-satqısı haramdır. Yəni ola bilsin ki, bir əşya öz-özlüyündə murdar olmasın, lakin həmin əşya haram olduğu üçün onun alveri də haramdır. Deməli, hər bir vasitənin mənfəəti haramdırsa, onun mənfəətini yemək də haramdır. Məsələn, buna qumar və qumar alətini misal çəkmək olar.

Qumar elə bir şeydir ki, müəyyən alətlərlə oynanılır. Elə qumar növləri də vardır ki, alət və vasitəsiz oynanılır. Hər hansı alətlərlə qumar oynanılırsa, onun mənfəəti də, yeyilməsi də haramdır. Burada qarşıya iki məsələ çıxır. Biri budur ki, şəriətdə qumar öz-özlüyündə haram olan əməllərdəndir. İkincisi isə qumar yolu ilə əldə olunan hər bir şey də haramdır. Əgər bu iki məsələni açıqlamaq istəsək, ilk növbədə qumarın özünün nə olduğunu bilməliyik. Ümumiyyətlə, qumar oynamağı dörd cür təsəvvür etmək olar:

1.Qumar oynamağın bir növü müəyyən qumar alətləri ilə və udub-uduzmaq şərti ilə oynanılan oyundur. Bildiyiniz kimi, qumarın müəyyən alətləri vardır. Həmin alətlər məhz qumar üçün nəzərdə tutulub düzəldilmişdir. Həmin alətlərlə yalnız qumar oynanıla bilir. Bunu daha aydın başa düşmək üçün bıçağa diqqət yetirək. Bir nəfər mətbəxdə istifadə

etmək üçün bazardan bıçaq alır. Əgər bir nəfər həmin şəxsə hücum etsə, həmin bıçaqla onu vura bilər. Əgər həmin bıçağı evdə və mətbəxdə istifadə etmək üçün alırsa halal, adam öldürmək üçün alırsa haramdır. Çünki bıçaqdan iki cür istifadə etmək mümkündür. Amma məhz qumar üçün nəzərdə tutulub düzəldilən alətin ikinci istifadəsi yoxdur. Onu yalnız qumar oynamaq məqsədi ilə düzəltmişlər. Həmin alətlərlə udub-uduzma şərti ilə oynanılırsa, buna şübhəsiz qumar deyilir və bu iş haramdır.

2.İkinci növü budur ki, qumara aid olan alətlərlə udub-uduzma şərti olmasa belə oynamaq haramdır. Yəni qumara məxsus və məhz qumar üçün düzəldilmiş alətlərlə elə belə (şərtsiz) oynamaq da olmaz. Bütün müctəhidlər də bunun haram olduğunu bəyan etmişlər.

3.Üçüncü növü budur ki, qumara aid olmayan alətlərlə şərt və udub-uduzmaq məqsədi ilə oynamaqdır. Məsələn, lobya, qoz və s. əşyaların vasitəsilə udub-uduzmaq üçün hansısa bir oyunu oynamaq. Lobya və qoz qumar aləti deyil, lakin udub-uduzma şərti ilə onların vasitəsilə oynanılsa haramdır.

4.Dördüncü növü isə belədir ki, qumar aləti hesab olunmayan və onda udub-uduzma şərti də yoxdur. Bu növ alətlərdən istifadə edib oynamağa icazə verilir.

Deməli, qeyd olunan üç növ alətdən istifadə etmək haram, dördüncü növ isə halaldır. Burada bir mətləb vardır ki, bəzi alətlər qumar aləti sayılmır və onunla udub-uduzmaq oyununa icazə vermişlər. O cümlədən at çapmaq və ox atmaq kimi alətlərdən istifadə etmək halal hesab olunur. Bunun incəliklərindən biri budur ki, insana və yaşadığı ölkəsinə mənfəəti vardır. Bu kimi yerlər istisna olmaqla, qeyd etdiyimiz üç növü isə haramdır.

Nəticə budur ki, harda udub-uduzmaq şərti varsa və harda qumar aləti varsa, onlarla oynamaq haram və bu oyunların

adına da qumar deyilir. Qumardan əldə olunan pul və ya başqa əşyalar da haramdır. Qumar barədə olan ayə və hədislərə diqqət yetirək:

قَالَ الإِمَامُ الْهَادِى(ع): كُلَّمَا قُومِرَ بِهِ فَهُوَ الْمَيسِر وَكُلُّ مَيسِر حَرَامٌ

-İmam Hadi(ə) buyurur: "Hər bir şeydə udub-uduzmaq şərti olsa qumardır. Bütün qumarlar isə haramdır."[1]

Allah-təala "Bəqərə" surəsinin 219-cu ayəsində belə buyurur:

يَسْأَلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ وَإِثْمُهُمَآ أَكْبَرُ مِن نَّفْعِهِمَا

-Səndən şərab və qumar barəsində soruşurlar, de: "O ikisində (onlara mürtəkib olmaqda) böyük günah və insanlar üçün (maddi) mənfəətlər vardır və onların günahı mənfəətlərindən böyükdür."

"Maidə" surəsinin 90-cı ayəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.

Haram içkilər bəhsində qeyd olunduğu kimi, bu bəhsdə də Allah- təala qumarla bütpərəstliyi bir yerdə tutaraq bizə bu çirkin işlərdən çəkinməyi göstəriş verir.

---

[1] Böyük günahlar,1-ci cild, səh. 252.

İmam Rzadan(ə) bu ayədə işlənən “meysir” sözü barəsində soruşduqda, Həzrət(ə) buyurdu: "Meysir həmin qumardır."[1]

Bu ayə nazil olduqdan sonra Peyğəmbərdən(s) “meysir”in nə olduğunu soruşduqda Həzrət(s) belə buyurdu: “Udulub-uduzulan hər bir şey, hətta nərd taxtası və qoz.”[2]

Həzrət Əlinin(ə) zamanında bir nəfər öz dostları ilə bir qoyun kəsdilər. Onu yeməzdən əvvəl aralarında söz düşdü ki, həmin qoyunu yeyə bilərlərmi? Qoyunun yiyəsi şərt kəsərək dostlara dedi: “Əgər bu qoyunu yeyə bilsəniz, halal xoşunuz. Əgər yeyə bilməsəniz, sizdən filan məbləğdə pul alacağam.”

Onların bu məsələsini Həzrət Əlidən(ə) soruşdular. Həzrət(ə) buyurdu: “Yeməkdə şərt olmaz. Yeməkdə kəsilən şərt batildir. Qoyunu yeyənlər istədikləri qədər yesin. Əgər hamısını yeyə bilməsələr belə, boyunlarına heç bir şərt düşmür. Az və yaxud çox yeməkdə şərt kəsmək batildir və onların öhdəsinə heç bir şey düşmür.” (Yəni udub- uduzmaq varsa, haramdır).[3]

## Qumar məclisində iştirak etməyin ziyanları

Burada sual oluna bilər ki, əgər bir insan özü qumar oynamırsa, qumar məclisində iştirak edə bilərmi? Bu sualın

---

[1] Mizanül-hikmə,10-cu cild, səh. 5040.
[2] Mizanül-hikmə,10-cu cild, səh. 5046.
[3] Böyük günahlar,1-ci cild, səh. 256.

cavabında demək olar ki, qumar oynanılan məclisdə əyləşmək və qumar oynayanlara tamaşa etmək də haramdır.

İmam Sadiq(ə) bu barədə belə buyurur:

1.Qumar məclisində əyləşmək haramdır;

2.Qumar oynayanlara tamaşa etmək haramdır;

3.Nəhy əz-münkər etmək məqsədilə qumar məclisini tərk etmək vacibdir;

4.Qumarbazlara salam vermək haramdır;

5.Qumarı kiməsə öyrətmək haramdır;

6.Qumar alətlərini evdə saxlamaq, almaq və satmaq haramdır;

7.Qumar məclisi Allahın qəzəbinə səbəb olan bir yerdir.

Bu cür yerlər hər an Allahın qəzəbinə tuş gələ bilər. Əgər Allahın qəzəbi (bəlası) həmin məclisə nazil olsa, oynayan da, oynamayan da qəzəbə (bəlaya) düçar olacaq.[1]

Digər bir hədisdə İmam Sadiq(ə) belə buyurur: "Allah-təala mübarək ramazan ayında üç dəstə insandan başqa hamını bağışlayar: Şərab içənləri, qumar oynayanları və müsəlmanlara qarşı kin-küdurət bəsləyənləri."[2]

## Qumar aləti gördükdə Yezidə lənət oxuyub, İmam Hüseynə(ə) salam göndərmək

Bəzi kitablarda qeyd olunmuşdur ki, insanın gözü qumar alətinə sataşdıqda İmam Hüseyni(ə) yad edib, Yezidə lənət oxuması müstəhəbdir. Bunun səbəbini İmam Rza(ə) belə açıqlayır:

---

[1] Böyük günahlar,1-ci cild, səh. 247.

[2] Böyük günahlar,1-ci cild, səh. 248.

-Kərbəla hadisəsindən sonra yaralı başları Şama apardılar. İmam Hüseynin(ə) mübarək başını teştin içinə qoyub Yezidin sarayına gətirdilər. Yezid göstəriş verdi ki, şadyanalıq süfrəsi açsınlar. Yezid həmin süfrədəki yeməklərdən yeyib şərab içirdi. Yemək yedikdən sonra isə onlar qumar oynamağa başladılar. Hər dəfə Yezid qumarda udarkən şərab badəsini götürüb bir az içir, qalanını isə teştə tərəf atırdı. Şərabı teştə tərəf atarkən İmam Hüseynin(ə) ata və anasının adını çəkib lağa qoyur və onlara hörmətsizlik edirdi.

Odur ki, Əhli-beyti(ə) sevən hər bir mömin heç vaxt nə qumar oynayar, nə də içki içər. Əgər Yezid kimi adamlar bu işi görmüşlərsə, kim razı olar ki, bu kimi əməllərlə onlara qoşulsun?

## Qumarın fəsad və ziyanları

Qumarın ziyanları barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Qumarın fərdi, ictimai, əxlaqi və s. ziyanları çoxdur.  Hətta Qərb və Şərq alimləri qumarın insan və cəmiyyət üçün nə qədər təhlükəli və ziyanlı olduğunu söyləmişlər. Amerika alimləri sübut etmişlər ki, cinayətlərin 30 faizində qumarın birbaşa rolu vardır. Cibgirlik, cinsi zorakılıq, əxlaqsızlıq, boşanmalar və intihar kimi cinayətlərdə qumarın rolu yetərincədir.

Qumar cəmiyyətdə insanların tənbəlliyinə və əyyaşlığına səbəb olur. Bundan əlavə, qumar oynayıb uduzan insanların əsəb sistemləri darmadağın olur və onda intiqam hissi baş qaldırır. Axırda belələri ya tərəf müqabilini öldürür, ya da özü intihar edir. Bütün bunlardan əlavə, qumarın insan və cəmiyyətə çox böyük və mənfi təsirləri vardır. Qumara aludə

olan insan ilk növbədə Allahı unudur və Onu zikr etməyi yaddan çıxarır.

قَالَ عَلِيٌّ(ع): كُلَّمَا أَلْهَى عَن ذِكرِاللهِ فَهُوَ مِنَ الْمَيسِرِ

-Həzrət Əli(ə) buyurur: "İnsanı Allahı yada salmaqdan qəflətdə saxlayan hər bir şey qumar sayılır."[1]

İmam Sadiq(ə) təkidlə buyurmuşdur: "İnsanın əlinə qumardan gələn gəlir haramdır. Soruşdular: Ey Allahın höccəti, uşaqlar yumurta döyüşdürərək udub-uduzurlar. Bunun hökmü nədir? İmam(ə) buyurdu: Haramdır."

İmam Sadiq(ə) bir gün xidmətçilərindən birinə pul verdi və yemək üçün yumurta almağı tapşırdı. Xidmətçi getdi və bir az keçəndən sonra əlində beş ədəd yumurta içəri daxil oldu. Həmin yumurtaları bişirdilər və İmam(ə) yumurta yeyəndən sonra xidmətçi pulu çıxarıb İmama(ə) verdi. Həzrət(ə) soruşdu: "Sən bu pulla yumurta almadınmı? Xidmətçi dedi: Ağa, mən getdim bazara və yumurta alıb qayıdanda gördüm ki, bir neçə nəfər yumurta döyüşdürürlər. Mən də onlara qoşuldum və onlardan beş yumurta uddum. Sonra aldığım həmin yumurtaları qaytarıb pulunu geri aldım. Evə gətirdiyim yumurtalar isə həmin udduğum yumurtalardır." İmam(ə) dərhal çölə çıxıb barmağını boğazına saldı və yediklərini qaytardı. Sonra isə gəlib həmin xidmətçiyə nəsihət etdi və belə işlərin haram olduğunu başa saldı.

Odur ki, həm qumar oynamaq, həm ondan əldə edilən gəlirlər, həm də qumar alətlərinin alqı-satqısı haramdır. Bu kimi işlərlə məşğul olmaq insanın ruhuna və mənəviyyatına mənfi təsir göstərir.

---

[1] Mizanül-hikmə,10-cu cild, səh. 5040.

# HARAM TİCARƏT

## Qəsb olunmuş malların alqı-satqısı

Alveri haram olan əşyalardan biri istifadədən düşmüş pullardır. Yəni əgər insan öz alverində təmiz pulların əvəzinə batil olub işdən düşmüş pulları xərcləsə, şübhəsiz ki, onun alveri haramdır. Həmn pulun gəliri də insana haramdır. Məsələn, qədim zamanlarda dinarla alver edirdilər. Yəni o vaxtın pul vahidi dinar və dirhəm idi. İllər keçdikdən sonra dinar meydandan çıxarıldı və əvəzində müxtəlif əskinaslar çıxdı. Əgər bir insan dövrün pullarının arasında vaxtı bitmiş pullardan alıcıya və yaxud satıcıya verərsə, haram iş görmüşdür və ondan gələn gəlir də haramdır.

Haram ticarətlərdən biri də insanın öhdəsində olan torpaq, ev və dükan kimi olan yerləri haram işlərə görə icarəyə verməkdir. Yəni öz ixtiyarında olan halal mülkünü elə bir adama verir ki, həmin şəxs orada (içki satmaq, qumarxana, sələmçilik və s.) haram işlərlə məşğul olacaq. Belə olduqda öz mülkünü həmin şəxsə vermək və onun gəlirindən də istifadə etmək haramdır.

Haram ticarətlərdən biri əxlaqsız və insanı yoldan çıxaran kitabların alveridir. Yəni insanı düz yoldan çıxaran kitabların alqı-satqısı haramdır və bu yolla qazanılan pullar da haram olur. Əlbəttə, bunlar barədə çox danışmaq olar. Sadəcə bəhsimizə uyğun olaraq biz bunları qısaca qeyd etdik ki, oxucular bu məsələdən də xəbərdar olsunlar. Demək olar ki, bütün şəriət kitablarında bu məsələlər barədə geniş şəkildə məlumat verilmişdir.

# Qəsb edilmiş mal

Haram alverlərdən biri budur ki, insan əgər qəsb olunmuş mülkdən, torpaq sahəsindən, geyim əşyalarından və s. hər nə əldə edirsə, onların hamısı haramdır. Qəsbin nə olduğu demək olar ki hamıya aydındır. Yəni onun adını hər kəs bilməsə də haram olduğunu hamı yaxşı bilir.

Qəsb odur ki, insan kiminsə malını, torpağını, evini və ixtiyarında olan hər hansı bir şeyi zülm yolu ilə əlindən alsın. Digər sözlə desək, qəsb odur ki, insan zülm ilə başqasının haqqına, ya malına sahib olsun.

Əgər bir insan qəsbin adını eşitməyibsə belə yaxşı bilir ki, kiminsə evini, mağazasını və s. zülm yolu ilə əlindən almaq haramdır. Qəsb olunmuş mülk və mal haramdır. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): لا يَحِلُّ لِامْرِئٍ أَنْ يَأْخُذَ مَالَ ◌َخِيهِ بِغَيْرِ حَقِّهِ وَذَلِكَ لِمَا حَرَّمَ اللَّهُ عَزَّوَجَلّ مَالَ الْمُسْلِمِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qardaşının malını nahaq yerə almaq heç bir müsəlmana rəva (halal) deyil. Çünki Allah müsəlmanın malını müsəlmana haram etmişdir.”[1]

Heç bir müsəlman icazəsiz digər müsəlmanın malını mənimsəyə bilməz. Allah-təala bu işi haram etmişdir. Çünki hər bir müsəlmanın hörmət və ehtiramını saxlamaq vacibdir. Hər bir müsəlmanın həm malı, həm canı, həm qanı və həm də abrı möhtərəmdir. Heç kəsin ixtiyarı yoxdur ki, müsəlmanın malına, canına, qanına və abrına toxunsun. Mömінin hörməti Allah yanında çox böyükdür. Həzrət Peyğəmbər(s) buyurur ki, möminin hörməti Kəbənin

[1] Mizanül-hikmə, 9-cu cild,səh.4322.

hörmətindən çoxdur. Kəbəyə hörmətsizlik etmək mümkün olmadığı kimi, möminə də hörmətsizlik etmək olmaz. Möminin sirrini açmağa və abrını aparmağa heç kəsin haqqı yoxdur. Şəriət baxımından möhtərəm sözünün mənası odur ki, heç bir müsəlmanın canına, malına, qanına, abrına və ona məxsus olanlara təcavüz etmək olmaz. Hər kəs icazəsi olmadan müsəlmanın malından istifadə edərsə, qəsbkardır.

قَالَ رَسُولُ اللهِ(ص): مَن اِقتَطَعَ مَالَ مُؤمِنٍ غَصباً بِغَيرِ حَقٍّ لَم يَزِلِ اللهُ مُعرِضاً عَنهُ، مَاقِتاً لِأَعمَالِهِ الَّتِي يَعمَلُهَا مِنَ البِرّ وَالْخَير لايُثبِتُها فِي حَسَنَاتِه حَتَّى يَتُوبَ وَيَرُدَّ الْمَالَ الَّذِي أَخَذَهُ اِلى صَاحِبه

-Həzrət Peyğəmbər(s) buyurur: “Kimsə müsəlmanın malını haqsız yerə qəsb edərsə, Allah həmişəlik ondan üz döndərər, gördüyü hər yaxşı işə qəzəblənər və tövbə edib götürdüyü malı sahibinə qaytarmayana qədər onları yaxşı işlər siyahısına salmaz.”[1]

Əgər bir insan kiminsə malını qəsb etsə, nə qədər ki, həmin şəxsin malını qaytarmayıb və ondan halallıq almayıb, Allah-təala həmin şəxsin hətta yaxşı əməllərini və tövbəsini belə qəbul etməz. Qəsb olunmuş malın tövbəsi “əstəğfirullah” deməklə qəbul olunmur. Qəsbkarın tövbəsi digər günahlara mürtəkib olanların tövbəsi ilə fərqlidir. Məsələn, bir nəfər naməhrəmə baxır və sonradan bu işin pis olduğunu başa düşüb Allaha tövbə edir. Allah da onun günahını bağışlayır. Lakin qəsbkarın tövbəsi odur ki, aparıb qəsb etdiyi malı yiyəsinə qaytarsın və onunla halallaşsın. Çünki qəsb etdiyi mal Allahın bəndəsinin malıdır. Allah-

[1] Mizanül-hikmə, 9-cu cild,səh. 4322.

təalanın onu bağışlaması üçün ilk növbədə həmin şəxs bəndənin haqqını özünə qaytarmalıdır.

Əgər insan uşaqlıqda, yaxud cahillik və nadanlıq vaxtlarında kiminsə malını mənimsəyibsə, çox yaxşı olar və vacibdir ki, həmin şəxsləri tapıb qəsb etdiyi malını özünə qaytarsın və ya onunla halallaşsın. Əgər bir zamanlar kiminsə malını, yaxud pulunu mənimsəyibsə, hazırda onun yiyəsini tapa bilmədikdə, həmin malın və ya pulun hazırkı dəyərini hesablayıb onun adından sədəqə və ehsan edə bilər.

قَالَ رَسُولُ اللهِ(ص): مَن غَصَبَ شِبرًا مِنَ الأَرضِ طَوَّقَهُ اللهُ مِن سَبعِ اَرَضِين يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim zülm ilə bir qarış torpağı qəsb edərsə, qiyamət günü Allah-təala ona yeddiqat yeri yükləyər. (Hər kim qonşusunun bir qarış torpağını qəsb edərsə, Allah-təala qiyamət günü yerin yeddinci qatında cəhənnəm atəşini halqa kimi boynuna bürüyər ki, cəhənnəmə daxil olsun.)"

قَالَ عَلِيّ(ع): وَاللهِ لَأَنْ أَبِيتَ عَلَى حَسَكِ السَّعْدَانِ مُسَهَّداً، أَوْ أُجَرَّ فِي الْأَغْلاَلِ مُصَفَّداً، أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أَلْقَى اللهَ وَرَسُولَهُ يَوْمَ الْقِيَامَةِ ظَالِماً لِبَعْضِ الْعِبَادِ، وَغَاصِباً لِشَيْءٍ مِنَ الْحُطَامِ، وَكَيْفَ أَظْلِمُ أَحَداً لِنَفْسٍ يُسْرِعُ إِلَى الْبِلَى قُفُولُهَا، وَيَطُولُ فِي الثَّرَى حُلُولُهَا

-Həzrət Əli(ə) buyurur: "And olsun Allaha ki, gecəni *(iti tikanları olan)* dəvətikanının üstündə oyaq keçirməyim və *(əl, ayaq və boynumun)* zəncirlə bağlanaraq öldürülməyim, mənim üçün qiyamət günü Allah və Peyğəmbərə, bəndələrin bəzilərinə zülm edib dünya malından bir şey qəsb etmiş halda qovuşmaqdan daha xoşdur. Sürətlə köhnəlməyə və

çürüməyə doğru gedən *(cavanlıq və güclülüyü çox tez qocalıq və zəifliklə əvəz olan)* və torpaq altında qalması uzun çəkəcək nəfsə görə kiməsə necə zülm edim?!”[1]

## Qəsbin digər məsələləri

Yuxarıda qəsb olunmuş mal barədə müəyyən qədər söz açdıq. Burada yaxşı olar ki, qəsblə bağlı olan digər məsələlərlə də tanış olaq.

1.Haqsız yerə müsəlmanların büdcəsindən (beytülmaldan) xərcləmək qəsb və qəsbkarlıqdır. Əgər bir insanın boynuna xüms gəlsə və malının xümsünü çıxarmasa qəsbkardır. Çünki xüms çıxarmaq ilahi əhkamın vaciblərindən biridir. Xüms ayrıldıqdan sonra beytülmala getdiyi üçün hər kəsin boynuna xüms gələrsə, onu çıxarmasa qəsb etmişdir. Yaxud hər kəsin boynuna xüms gəldikdə, onu ayırıb müctəhidin icazəsi olmadan özbaşına və öz bildiyi kimi xərcləsə, yenə də qəsbkardır.

2.Tələbkarın yanına qoyulan girovu onun haqqını ödəmədən çıxaran şəxs qəsbkardır. Yəni bir nəfər digərindən müəyyən məbləğ borc alır. Borc verən şəxs borcu qaytarana qədər onun maşınını girov istəyir. Borc alan şəxs razılaşıb maşını ona girov verir. Əgər onun borcunu qaytarmazdan əvvəl öz maşınını ondan götürsə, qəsbkar hesab olunur. Öz maşını olsa belə borcun müqabilində girov qoymuşdur və onu götürə bilməz.

Əgər insan hər hansı bir şeyi qəsb edibsə, mütləq onu sahibinə qaytarmalıdır. Mümkündür ki, həmin şəxs qəsb etdiyi əşyanı və mülkü satmış olsun. Belə olduqda həmin

[1] Nəhcül-bəlağə, 215-ci xütbə.

malın əsl sahibi ilə halallaşmalı və onun satdığı malının ya pulunu, ya da həmin malı qaytarmalıdır.

Əgər qəsb edilmiş şeydən mənfəət əldə edilsə, məsələn, qəsb edilmiş qoyundan quzu olsa, o mal da sahibinindir. Yaxud qəsb olunmuş maşınla müştəri daşısa, müştəridən aldığı pul da qəsb olunmuş hesab edilir və maşın sahibinə çatmalıdır. Yaxud bir mülkü qəsb etmiş şəxs onu icarəyə versə, icarədən götürdüyü pul da, mülk də öz sahibinə qaytarılmalıdır.

## Qəsb olunmuş yerdə və qəsb edilmiş paltarlarla namaz qılmaq batildir

Namazın şərtlərindən biri budur ki, qəsb edilmiş yerdə qılınmasın. Qəsb olunmuş yerdə qılınan namaz batildir. Həmçinin qəsb edilmiş xalçanın üstündə də namaz qılmaq batildir. O cümlədən qəsb olunmuş paltarlarla qılınan namaz da batildir.

Bütün bunlar hər bir müctəhidin izahlı şəriət məsələləri kitabında və həm də ətraflı şəkildə yzılmışdır ki, hər kəs istəsə, həmin kitablara müraciət edə bilər.

## Camaatın haqqına riayət etməyənlərin cəzası

Qiyamət günü hesabların ən ağırı camaatın haqqını qəsb edənlərin hesabı olacaq. Əgər insan bu dünyada günah edirsə, tövbə etdikdə Allah-təala həmin günahları bağışlayar. Lakin kiminsə malını və haqqını qəsb etmək tövbə etməklə həll olunmur. Qəsbkar mütləq qəsb etdiyini sahibinə

qaytarıb, onun halallığını əldə etməlidir. Buna görə də hər bir müsəlman bu məsələlərdə çox diqqətli olmalıdır. Çox yaxşı olar ki, möminlər heç olmasa gecə yatarkən bu barədə düşünsünlər. Bəlkə ola bilsin ki, uşaqlıqda, cavanlıqda, cahillik vaxtlarında kiminsə haqqı boynunda qalmış olsun. Yadına düşdükcə həmin şəxsləri tapıb onların haqqını geri qaytarsın. Əgər həmin şəxslər dünyadan gediblərsə, yaxud həmin insanları axtarıb tapa bilmirsə, onların əvəzinə həmin miqdar sədəqə və ehsan versin. Heç kəsin haqqını boynunda saxlamasın və bu işləri qiyamət gününə saxlamasın. Əgər insan bu dünyada çalışıb boynunda qalan camaatın malını qaytarmağa səy etsə, Allah da həmin şəxsə bu işdə yardımçı olar.

## Hacı Abbasağanın əhvalatı

Mən hərdən təbliğatçı kimi Urmiya şəhərinə gedirdim. Orada minbərə çıxıb camaat üçün söhbət edirdim. Günlərin birində minbərə çıxıb söhbət etdikdən sonra oranın imam-cüməsinin evinə getdim. Orada tanıdığım Hacı Abbasağa adlı bir nəfər mənim yanıma gəlib dedi: "Ağa, mən sənə çox təşəkkür edirəm. Allah səndən razı olsun. Məni böyük xəta-bəladan qurtarmısan. Soruşdum: Nə hadisə baş verib? Hacı Abbasağa dedi: Neçə gün bundan qabaq axşam minbərdə söhbət edirdin. Mən sənə diqqətlə qulaq asırdım. Sən söhbət əsnasında dedin ki, çox yaxşı olar ki, möminlər heç olmasa gecə yatarkən bu barədə fikirləşsinlər. Bəlkə ola bilsin ki, uşaqlıqda, cavanlıqda, cahillik vaxtlarında kiminsə haqqı boynunda qalmış olsun. Yadına düşdükcə həmin şəxsləri tapıb onların haqqını geri qaytarsın. Sənin bu sözlərin mənə çox təsir etdi. Gecə evə gəldim və öz-özümə fikirləşdim ki,

görəsən uşaqlıqda, cavanlıqda kiminsə haqqı mənim boynumda qalmayıb? Çox fikirləşdim, amma yadıma bir şey düşmədi. Elə bu fikirlərlə yuxuya getdim. Yuxuda tanıdığım Hacı Məhəmməd adlı bir şəxsi gördüm. Mənim onunla böyük ticarət işlərim olmuşdu. Kartof şirəsi çəkib çəlləklərə doldurar və dükanlara paylayardıq. Onunla birgə topdansatış işləri ilə məşğul idik. Bir neçə il bundan öncə rəhmətə getdi.

Dünən gecə o, mənim yuxuma gəlib dedi: Hacı Abbasağa, yadındadırmı bir gün mən sənin yanına gəlib birlikdə anbara getdik. Sənin anbarında yüz çəllək kartof şirəsi var idi?

Dedim: Bəli, yadımdadır.

Dedi: Yadındadırmı mən səndən onların hamısını aldım?

Dedim: Bəli, yadımdadır.

Dedi: Yadındadırmı, onların pulunun yarısını sənə verdim və dedim ki, maşın göndərərəm onları yükləyib mənim üçün göndərərsən və pulun qalanını sürücü ilə göndərərəm?

Dedim: Bəli, yadımdadır.

Dedi: Hacı Abbasağa, sən həmin çəlləkləri maşına yüklədin, lakin yer olmadığı üçün on çəllək anbarda qaldı. Sən dedin ki, onları sonra göndərərəm. Yadındadırmı?

Dedim: Bəli, yadımdadır.

Dedi: Hacı Abbasağa, bəs həmin on çəlləyi nə vaxt göndərdin? Deyəsən, onu göndərməyi unutmusan. Sənin mənə on çəllək kartof şirəsi borcun var.

Mən yuxudan ayılıb fikirləşməyə başladım. Gördüm ki, məsələ tamamilə Hacı Məhəmmədin söylədiyi kimidir. Mənim, həqiqətən də, ona on çəllək kartof şirəsi borcum qalmışdı. Yadımdan çıxdığına görə həmin on çəlləyi ona göndərməmişdim. Səhər tezdən Hacı Məhəmmədin dükanına yollandım. Onun dükanını oğlu işlədirdi. Əyləşib bir az hal-əhval tutduqdan sonra dedim: Gecə atanı yuxuda gördüm. O, mənə bir söz dedi və səhər yuxudan ayıldıqdan sonra baxıb gördüm ki, dedikləri düzdür. Mənim sizə on çəllək kartof

şirəsi borcum var. Oğlan dedi: Hacı əmi, belə sözlər ayıbdır. On çəllək kartof şirəsi nə olan şeydir ki, ona görə zəhmətə düşəsən. Mən onu sənə halal edirəm. Dedim: Yox, belə olmaz. Çünki Hacı Məhəmmədin övladı təkcə sən deyilsən. Sənin qardaşın və bacıların da var. Siz onun vərəsələrisiniz. Həmin çəlləklərin pulu nə qədər edirsə verəcəyəm. Yaxud o biri bacı-qardaşlarınla da söhbət edin və biz halallaşaq. Bu məsələ məni çox narahat edir. Allah atana rəhmət etsin, yuxuma gəlib məni bundan xəbərdar etdi. Əgər yadıma düşməsəydi, bu hesab-kitabımız qiyamətə qalacaqdı.

Sonra Hacı Məhəmmədin oğlu bacı və qardaşları ilə bu məsələni müzakirə etdilər və biz işləri yoluna qoyub halallaşdıq. Ağa, bütün bu hadisələr sənin moizəndən sonra baş verdi. Sənə çox minnətdarlığımı bildirirəm ki, məni böyük bir xətadan qurtardın."

Bu əhvalatı danışmaqda məqsədim odur ki, əgər bir insan boynunda qalan camaatın haqqını qaytarmağa çalışsa, Allah da bu yolda həmin şəxsə yardımçı olar. Hacı Abbasağa istəmirdi ki, kiminsə haqqı boynunda qalmış halda dünyadan getsin. Buna görə də gecə bu barədə fikirləşib yatdı və Allah-təala Hacı Məhəmmədi onun yuxusuna gətirməklə işlərini yoluna qoydu.

# HARAM TİCARƏT

## Vəqf olunmuş malların alqı-satqısı

Ticarətdə haram və qadağan olunmuş alverlərdən biri də vəqf olunmuş malların, əşya və mülklərin alqı-satqısıdır. Vəqf olunmuş malları alıb-satmağa heç bir kəsin icazəsi yoxdur. Hər kəs vəqf olunmuş malların alverini etsə, haram iş görmüşdür.

Vəqf odur ki, insan (torpaq sahəsi, mülk, pul, qab-qacaq s. əlində olan) öz malından niyyət edib bağışlayaraq vəqf etsin. Vəqf budur ki, insan öz malından bir əşyanı, mülkü və s. kimi şeyləri niyyət edib əqdini oxuyaraq bir şəxsə, məscidə, Hüseyniyyəyə və ya digər xeyir işlər olan yerlərə versin. Əgər hər kim müəyyən bir şeyi vəqf edirsə, bu artıq onun mülkündən çıxır və özü, hətta başqaları da onu bağışlaya, yaxud sata bilməzlər. Bir yerə vəqf olunan malı heç yerə aparmaq, satmaq və bağışlamaq olmaz. Lakin onun mənfəətindən ümumi şəkildə istifadə etmək olar.

Bir nəfər məscidə gəlir və görür ki, orada xalça yoxdur. Gedib bazardan bir xalça alır və gətirib həmin məscidə bağışlayaraq deyir ki, mən bu xalçanı məscidə vəqf etdim. Həmin məsciddə hər bir kəs o xalçanın üstündə namaz qıla və əyləşə bilər. Yəni məsciddə hamı həmin xalçadan istifadə edə bilər. Lakin o xalçanı həmin məsciddən çıxarıb başqa yerə aparmaq, satmaq, kiməsə bağışlamaq olmaz. Yaxud bir nəfər bir Hüseyniyyəyə neçə cild Quran vəqf edir. Həmin Quran kitablarını Hüseyniyyədə hamı oxuya bilər, amma heç kəs onu evinə aparıb oxuya bilməz.

Əgər bir insan yüz ədəd möhür alıb məscidə vəqf etsə, özü başda olmaqla heç kəs həmin möhürlərdən götürüb başqa yerə apara bilməz. Məsələn, bir nəfər mikrofon alıb

Hüseyniyyələrdən birinə vəqf edir. Həmin mikrofondan orada istifadə etməyə başlayırlar. Bir neçə saatdan sonra onu vəqf etdiyinə görə peşman olub, geri istəsə bu olmaz. Vəqf elə bir şeydir ki, onu etdikdən sonra artıq həmin şəxsin mülkiyyətindən çıxır. Həm onu vəqf edən, həm də başqaları onu vəqf olunduğu yerdən çıxarıb apara bilməzlər. Başqa sözlə desək, bir nəfər bir yerə bir əşyanı vəqf edir. Həmin əşya orada istifadəyə verildikdən sonra vəqf edən insan onu geri ala bilməz. Amma nə qədər ki, həmin əşyadan istifadə olunmayıb, onu geri qaytara bilər. Məsələn, bir nəfər öz mülkündən bir neçə hektar ayırıb məscid tikmək üçün vəqf edir. Camaata da tapşırır ki, gəlin burada məscid tikin. Bir neçə il üstündən keçir, amma orada məscid tikilmir. Həmin şəxs həmin yerdə özü üçün bina tikdirə bilər. Çünki vəqf olunduqdan sonra istifadə olunmadığı halda həmin vəqf olunan şeyi geri qaytara bilər. Lakin həmin yerdə məscid tikməyə başladıqda ilk külüng vurulduqdan sonra daha onu geri qaytara bilməz. Nə vəqf edənin özü onu qaytara bilər, nə də başqaları onu ala bilər.

Qurani-Kərimdə vəqf kəlməsi ilə, yəni bu adla ayə yoxdur. Lakin müxtəlif ayələrdə buna işarə olunmuşdur. Həm Quran ayələrində, həm də Peyğəmbərin(s) sünnəsində vəqf məsələsinə rast gəlmək olur. “Ali-İmran” surəsinin 92-ci ayəsində oxuyuruq:

لَن تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ وَمَا تُنفِقُواْ مِن شَيْءٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ

-Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz. Allah şübhəsiz ki, (Onun yolunda) xərclədiyiniz hər şeyi biləndir.

Bu ayədə incə bir məqama diqqət yetirək. Əgər insan kamil yaxşılığa nail olmaq istəyirsə, Allah yolunda ən

sevdiyi şeyləri infaq etməlidir. Məsələn, bir nəfərin evində bir neçə paltarı var. Onların bəzisi azacıq cırılmış, süzülmüş, bəzisi köhnəlmiş və bəzisi isə təzədir. Təzəni özü geyinir, köhnə və süzülmüş paltarı isə ehtiyacı olana vermək istəyir. Bu savab işdir, lakin ən mükəmməl yaxşılıq deyil. Ən gözəl və kamil yaxşılıq odur ki, insan ən çox sevdiyi malı ehsan etmiş olsun. Bu əməldə məqsəd odur ki, insan ürəyində öz nəfsi ilə mübarizə aparır. Mübarizə apardıqda isə qalib olmaq üçün gərək ən yaxşısını və sevdiyini ehsan edəsən.

Bu ayədə vəqf adı ilə söz işlənməmişdir. Amma insanın ürəyi sevdiyi ən yaxşı malı Allah yolunda ehsan etməyin özü vəqfdir. “Kəhf” surəsinin 46-cı ayəsində oxuyuruq:

الْمَالُ وَالْبَنُونَ زِينَةُ الْحَيَاةِ الدُّنْيَا وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ خَيْرٌ عِندَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ أَمَلًا

-Mal və övladlar dünya həyatının zinət və bəzəyidir. (Haqq etiqad, mənəvi fəzilətlər və yaxşı əməllər kimi) gözəl əbədilər isə sənin Rəbbinin yanında mükafat baxımından daha yaxşı və (dünya və axirətdəki nəticələrinə) ümid bəsləmək baxımından daha gözəldir.

Bu ayədə bəyan olunur ki, dünya həyatının bəzəyi mal-dövlət və övladlardır. Lakin axirətin bəzəyi əbədi olaraq həmişə qalan ən gözəl və saleh əməllərdir. İnsanın bu dünyada etdiyi yaxşılıqlar axirətdə mükafatla nəticələnəcək əməllərdir. Dünyanın malı fani və aradan gedəsidir. Lakin yaxşı əməllər əbədi qalandır.

Bir gün tanıdığım yaşlı bir insanla söhbət edirdim. Onun vaxtilə külli miqdarda mal-dövləti var idi. Axır vaxtlarda bütün mal-dövləti əlindən çıxmışdı. Oğlanlarının biri ilə yaşayırdı. O, mənə dedi: “Hamı bilir ki, vaxtilə mənim çoxlu mal-dövlətim var idi. Əlimdən çıxan bütün mal- dövlətimə görə bir zərrə də olsun narahat deyiləm. Soruşdum: Nə əcəb?

Dedi: Çünki əlimdə mal-dövlət olan vaxtlarda çoxuna əl tutub ehsanlar etmişəm. Kimin imkanı olmadığını görmüşəmsə, ona əl tutmuşam. Ehtiyaclı gördüyüm hər bir kəsə həmin mal-dövlətdən bir miqdar vermişəm. Əgər mən bu yaxşılıqları etməsəydim, indi mal-dövlətimin əlimdən çıxdığına görə çox peşman olardım. Yəqin bilirəm ki, ehsan etdiklərim itməyib. Onlar mənim axirət azuqələrim olaraq qalır. Buna görə də heç bir naratçılığım yoxdur."

Ayədə "Baqiyatus-salihat" kəlməsi işlənmişdir. Bütün yaxşı və saleh əməllərin demək olar ki, cəm formasıdır və vəqf də onlardan biridir. İnsan dünyadan getdikdən sonra əməllərini də özü ilə aparır. Lakin etdiyi yaxşılıqlar və vəqflər dünya durduqca durur, camaat ondan istifadə etdikcə qalır.

Quran ayələrindən əlavə, Peyğəmbərin(s) sünnəsində də dəfələrlə vəqfin şahidi olmuşuq. Peyğəmbərin(s) sünnəsi onun sözü, əməli və etiraflarıdır. Məsələn, bir əmələ baxıb susması həmin əməlin müsbət olduğunu bildirir. Peyğəmbərin(s) sözü dedikdə, yəni Həzrətin(s) hansısa bir hökmü dili ilə camaata başa salmasıdır. Peyğəmbərin(s) əməli dedikdə, Həzrətin(s) hər bir əməlidir. Peyğəmbərin(s) etiraf və təqdiri dedikdə, yəni bir müsəlman Peyğəmbərin(s) hüzurunda hansısa bir işi gördükdə Həzrətin(s) etiraz etməməsi onu təsdiqləmiş olur və sünnəsi hesab edilir. Peyğəmbərin(s) həm sözü, həm əməli, həm də təsdiqi bizim üçün sünnə və höccətdir.

قَالَ رَسُولُ اللهِ(ص): اِذا مَاتَ اِبنِ آدَمُ اِنقَطَعَ عَمَلُهُ اِلّا فِي ثَلاثَة:

صَدَقَةٍ جَارِيَة اَو عِلمٍ يُنتَفَعُ بِه اَو وَلدٍ صَالِحٍ يَدعُو لَه

-Həzrət Peyğəmbər(s) vəqf barədə belə buyurur: "Adəm övladı öldükdə üç əməldən savayı başqa bütün əməlləri kəsilir. Həmin üç əməl bunlardır:

1.Cariyə sədəqə. (Vəqfin bir növü olub, camaatın istifadəsi üçün ağac əkmək, su çəkdirmək və s. xeyir əməllərə deyilir.)

2.İnsanlara fayda verən elm. (İnsanın yazdığı faydalı kitablar və öyrətdiyi elmlər.)

3.Ona dua edən saleh və mömin övlad.

Deməli, insan dünyadan getdikdən sonra bu üç əməldən savayı başqa bütün əməllərin kitabı da bağlanır. Məsələn, əgər bir insan camaatın istifadəsi üçün bir ağac əkib vəqf edərsə, öləndən sonra nə qədər ki, camaat və digər canlılar həmin ağacın meyvə, yarpaq, kölgə və s. istifadə edirsə, savabı onu əkib vəqf edənə yazılır.

Müsəlmanlar Ühüd döyüşünə hazırlaşarkən yenicə İslamı qəbul etmiş bir yəhudi də Peyğəmbərə(s) qoşulub meydana getdi. Onun külli miqdarda mal-dövləti və torpaq sahələri var idi. Müharibəyə yola düşməzdən əvvəl belə bir vəsiyyət etdi: "Əgər bu döyüşdən sağ- salamat qayıtsam, nə edəcəyimi özüm bilərəm. Yox, əgər şəhid olsam, bütün mal-dövlətimin hamısının ixtiyarını Peyğəmbərin(s) ixtiyarına verirəm. Necə məsləhət bilərsə, eləcə də xərcləsin." O, həmin döyüşdə şəhid oldu. Onun bütün mal-dövlətini Peyğəmbərin(s) ixtiyarına keçirdilər. Peyğəmbər(s) də həmin mal-dövlətin hamısını məsləhət bildiyi yerlərə sərf edib xərclədi.

Peyğəmbərdən(s) sonra Əhli-beyt(ə) də vəqf etmişdir. O cümlədən Xanım Fatimeyi Zəhranın(s.ə) bağlarını vəqf etməsi barədə kifayət qədər yazmışlar.

Əbu Bəsir deyir: Günlərin birində İmam Baqirlə(ə) birlikdə idim. Həzrət(ə) bir bağlama gətirib onun içindən Xanım Fatimeyi Zəhranın(s.ə) vəsiyyətnaməsini çıxartdı və mənim üçün oxudu. "Bağışlayan və mehriban Allahın adı ilə. Bu, Məhəmmədin(s) qızı Fatimənin(s.ə) özünə məxsus olan bağları barədə vəsiyyətidir. O bağları Əli ibn Əbu

Talibin, o, dünyadan getdikdən sonra Həsənin, ondan sonra Hüseynin və ondan sonra hər birinin böyük oğlunun ixtiyarında qoyuram.”

Həzrət Əlinin(ə) həyatına nəzər saldıqda görürük ki, Həzrət(ə) dəfələrlə camaata vəqf etmişdir. Həzrət Əli(ə) həm vəqf barədə gözəl kəlamlar buyurmuş, həm də əməli surətdə camaata vəqflər etmişdir.  Həzrətin(ə) vəqf etməsi barədə bir nümunəni nəzərinizə çatdırıram.

Bir gün Həzrət Əli(ə) evə gələndə Qənbərdən evdə yeməyə nə olduğunu soruşdu. Qənbər dedi: “Duz və çörəyimiz var. Həzrət(ə) buyurdu: Gətir, bir tikə yeyək.” Qənbər duz-çörəyi gətirdi. Həzrət(ə) bir az duz-çörək yeyib ayağa qalxdı. Həmin vaxt camaat bir yerdə suyun olmadığı barədə Həzrətə(ə) xəbər vermişdilər. Həzrət(ə) həmin yerdə axtarış aparıb münasib bir yerdə su quyusu qazdı. Sonra kağız və qələm götürüb həmin quyunu məntəqənin əhalisinə vəqf etdiyini yazdı. Sonra quyunun suyu ilə dəstəmaz alaraq orada iki rükət namaz qılıb dedi: “İlahi, Sənə xatir yedim, qarnım doydu. Sənə xatir bu quyunu qazıb camaatın işinə yaradım. İki rükət namazı da Sənə xatir qılıb ibadət etdim”.

Həzrət Əli(ə) dəfələrlə belə işlər görmüşdü. Həmçinin camaatla birikdə Kufədə, Mədinədə və Bəsrədə məscidlər tikib vəqf etmişdir. Bundan əlavə, digər imamlarımız da bu kimi işlər görmüşlər. Məsələn, Mədinənin Nuhavə məntəqəsində İmam Həsənin(ə) bağları var idi.  Həzrət(ə) öz sağlığında həmin yerləri vəqf edib camaatın istifadəsinə verdi. Hazırda həmin yerlər qalır və deyilənlərə görə, Həzrət Əbülfəzlin nəslindən olan övladlardan orada yaşayanı da vardır.

O zamanlar camaat arasında belə bir qayda var idi ki, vəqf yalnız kasıblar üçün nəzərdə tutulurdu. Sonradan yavaş-yavaş vəqfin əhatə dairəsi genişləndikcə bu işin müxtəlif cəhətləri də meydana gəldi. Məsələn, məscidlərə,

imamzadələrə, məsum imamların hərəminə, mədrəsələrə bağışlanılan müxtəlif növ vəqflər vardır. İmam Rzanın(ə) hərəminə edilən vəqflərin əmlakı böyük bir dövlətin əmlakından çoxdur. Varlı və imkanlı insanlar çox böyük məbləğdə olan mülklərini həmin hərəmə vəqf etmişlər. Əgər birinin dörd evi vardısa, onun ikisini İmam Rza(ə) hərəminə vəqf edirdi.

Həmçinin demək olar ki, Qum şəhərində olan bütün torpaq sahələri, mədrəsə və məscidlər vəqf olunmuş yerlərdir. Orada dövlətin heç bir pulu yoxdur və bütün bunları camaat öz ixtiyar və istəkləri ilə mülk və mallarının bir hissəsini vəqf etmişlər. Elə adamlar var ki, ömrünün axırına qədər bütün gəlirlərinin 20 faizini Xanım Məsuməyə(s.ə) vəqf edərək sənədləri imzalamışlar. Orada müxtəlif hövzə və mədrəsələr vardır ki, onların çoxu vəqf olunmuş yerlərdir. Bəziləri mədrəsə tikdirib müəyyən şərtlərlə tələbələrə vəqf etmişdir. Məsələn, bir nəfər orada bir mədrəsə tikdirib vəqf etmişdi. Vəqf edərkən belə şərt kəsmişdi ki, heç bir tələbə həmin mədrəsədə üç gündən artıq qonaq saxlaya bilməz. Bunu bəlkə də ona görə etmişdi ki, tələbələrin işi yalnız elm öyrənmək olduğu üçün üç gündən artıq heç kəs onlara mane olmasın və dərslərini rahat oxuya bilsinlər. Hər halda müxtəlif növ və şərtlər əsasında vəqf etmək olar və bunun böyük savabı vardır.

Burada çox yaxşı olar ki, vəqf edənin şərtləri barədə qısaca məlumat verək. Çünki vəqf edən insanın bir neçə şərti vardır. Həmin şərtlərdən biri budur ki, vəqf edən insan ağıllı olmalıdır. Yəni dəli insan vəqf edə bilməz. İkinci şərti budur ki, vəqf edən insan həddi-büluğa çatmalıdır. Üçüncü şərti isə budur ki, öz istək və ixtiyarı ilə vəqf etmiş olsun. Yəni heç bir kəsin təhdid və qorxusu ilə və ya məcburiyyət qarşısında olmasın.

Vəqf barədə riayət olunması lazım olan məsələlərdən biri də budur ki, vəqf olunan mal həmişəlik olmalıdır. Yəni vəqf edən kəs deyə bilməz ki, mən filan şeyi müəyyən müddətə qədər vəqf edirəm. Hər kəs vəqfə müddət təyin etsə, batildir. Vəqf heç bir müddət olmadan birdəfəlik olmalıdır. Vəqf barədə olan digər məsələ budur ki, onunla bağlı müqavilə bağlandıqdan sonra fasilə vermək olmaz. Məsələn, bir nəfər deyir ki, mən bu xalçanı filan məscidə vəqf edirəm. Amma mən öləndən sonra aparıb həmin məscidə qoyarsınız. Yaxud filan əşyanı filan məscidə vəqf etdim. Bir ildən sonra aparıb ora qoyacağam. Belə vəqf etmək düzgün deyil.

Əlbəttə, qeyd olunanlar vəqfin şəriətlə bağlı məsələləridir və bu barədə şəriət kitablarında ətraflı şəkildə qeyd olunmuşdur. Vəqf çox böyük savabı olan ibadətlərdəndir. Vəqf edən insan axirəti üçün azuqə yığmış bir insandır. İnsan bu dünyaya axirətini abadlaşdırmaq üçün gəlmişdir. Axirəti abadlaşdırmaq isə insanın əməllərindən asılıdır. Allaha sidq ürəklə və təmiz niyyətlə ibadət etməyin savabı bu dünya və dünyada olanların hamısından daha çoxdur.

Günlərin birində Həzrət Süleyman(ə) xalçasına minib səyahətə çıxmışdı. Dərələrin birinin dibində bir nəfər abid Allaha ibadət edirdi. Başını göyə qaldırdıqda gördü ki, Həzrət Süleyman(ə) cah-cəlalla göydə uçur. Öz özünə dedi: "Sübhanallah, gör Allah-təala Davudun oğluna necə əzəmət bəxş etmişdir." Külək onun bu sözlərini Süleymanın(ə) qulağına çatdırdı. Süleyman(ə) xalçaya göstəriş verdi ki, dərənin dibinə ensin.  Xalça aşağı enib düz həmin abidin kənarında dayandı. Həzrət Süleyman(ə) abidə buyurdu: “Ey Allahın bəndəsi, əgər Allahın bəyənəcəyi dərəcədə bircə kəlmə “sübhanallah” desən, bu zikrin əzəməti Süleymanın bütün mülkünün əzəmətindən çox və üstündür.”

Ömür karvanı daim hərəkətdədir. İnsan hər an axirət dünyasına yaxınlaşır. Can bədəndən çıxdıqdan sonra onu

geri qaytarmaq mümkün deyil. Mümkün deyil ki, insan yenidən qayıdıb bircə kəlmə “La ilahə illəllah” zikrini desin. Hər nə deyibsə, hər nə edibsə, ölməmişdən qabaq edib. Öləndən sonra bütün ixtiyar onun əlindən alınır. Buna görə də insan nə qədər sağdır bacardığı qədər axirət üçün hazırlıq işləri görməlidir. Bu dünyada axirəti üçün nə əldə etsə, mütləq onun bəhrəsini görəcəkdir. Ömür insana verilmiş böyük bir fürsətdir. Bu fürsətdən yaxşıca istifadə etmək lazımdır. İnsan bu dünyada gördüyü hər bir vacib və müstəhəb işdə niyyət edib savab apara bilər. Vəqf və ehsan etmək də böyük savaba malik olan əməllərdəndir.

Bu bəhsin sonunda bir daha qeyd etmək istəyirəm ki, vəqf olunmuş əşyaları və mülkü heç bir kəs sata, başqasına bağışlaya və ya özü üçün apara bilməz. Hər kəs vəqf olunmuş əşyaların alqı-satqısı ilə məşğul olsa, haram iş görmüşdür. Əgər bir adam vəqf olunmuş bir şeyi alsa, yenə də haram iş görmüşdür. Əgər bir şeyin vəqf olduğunu bilməsə və onu alsa, bir ildən sonra onun vəqf olduğunu bilərsə, onu saxlaması da haramdır. Gərək şəriət yolu ilə öz məsələsini və nə edəcəyini müəyyənləşdirsin. Vəqf əşyaların alverini etməklə əldə olunan pullar da haramdır. Haram yeməklər müsəlmanın mənəviyyatını və paklığını korlayan ən böyük amillərdən biridir.

# HARAM TİCARƏT

## Alverdə hiylə və kələkbazlıq

Haram ticarətlərdən biri budur ki, insan alverdə hiylə işlədib yalan danışsın. Alqı-satqı ilə məşğul olan insanın alverdə yalan danışmağa, kələkbazlıq etməyə və pis malı yaxşı mala qarışdırıb satmağa haqqı yoxdur. Yəni insan alver edərkən hiylə işlətməməli, hoqqabazlıq etməməlidir. Hər kəs alverində kələkbazlıq edərsə, haram iş görmüşdür və ondan əldə edilən gəlirlər də haramdır. Məsələn, alverçi alıcıya bir malı göstərib digərini satsa, yaxud yaxşı malı pis mala qarışdırıb yaxşı mal adı ilə satsa, haram iş görmüşdür. Ümumiyyətlə, hər hansı bir alverdə insan kələkbazlıq etsə, onun alveri və qazancı haramdır. Bu barədə olan hədislərin bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ عَلِيٌّ(ع): اَلغَشُوشُ لِسَانُهُ حُلُوٌّ وَ قَلبُهُ مُرٌّ

-Həzrət Əli(ə) buyurur: “(Ticarətdə) kələkbazlıq edənin dili şirin, ürəyi isə acı olar.”[1]

Həzrət Əlinin(ə) bu kəlamından başa düşürük ki, kələkbaz alverçilər həmişə müştəri ilə şirin-şirin danışaraq onu aldadır və müştəriyə istədiyi malı deyil, başqasını (xarab, qarışıq və s. malı) satır.

Əgər bir alverçi öz əməli və müxtəlif vasitələrlə kələkbazlıq etsə, bu da haramdır. Məsələn, bir malı kölgədə qoymaqla onun eyiblərini gizlədir. Həmçinin bəzi malların üstünə işıq salmaqla onu müştərinin gözündə yaxşı göstərir. Əgər alverçi malını günün altında və ya kölgədə saxlamaqla

[1] Mizanül-hikmə,9-cu cild, səh.4314.

onu yaxşı göstərib pul qazansa haram iş görüb. Mal necədirsə onu alıcıya da olduğu kimi göstərmək lazımdır. Xoşuna gəlir alsın, xoşuna gəlmir almasın. Daha həmin malın müştərinin xoşuna gəlməsindən ötrü müxtəlif kələkbazlıqlardan istifadə etmək haramdır.

Günlərin birində İmam Museyi Kazim(ə) gördü ki, Hüşam ibn Həkəm kölgədə parça satmaqla məşğuldur. Ona yaxınlaşıb buyurdu:

يَا هُشَام اِنَّ البَيعَ فِى الظِّلِّ غِشٌّ وَ اِنَّ الغِشَّ لا يَحِلُّ

-Ey Hüşam, malı (müştərinin gözündə yaxşı göstərmək üçün) kölgədə satmaq kələkbazlıqdır. Kələkbazlıq isə haramdır.

Hüşam bu sözləri eşidən kimi dərhal malın yerini dəyişərək onu işıqlı yerə qoydu.[1]

Alverdə kələkbazlıqlardan biri odur ki, satıcı malın eyiblərini gizlətsin. Əgər bir alverçi satdığı malın eyiblərini gizlətməklə qazanc əldə etsə, haram iş görmüş və qazancı da haramdır. Malı satan mütləq onun eyiblərini də müştəriyə deməlidir. Bəzi satıcılar çox vaxt satdığı malın eyiblərini müştəridən gizlədirlər. Amma onlar bunu bilməlidirlər ki, haram iş görürlər.

Mən özüm həyatda dəfələrlə bu kimi hadisələrin şahidi olmuşam. Yaxın qohumlarımızdan biri bal satırdı. Günlərin birində yolum onun mağazasına düşdü. Bir az söhbət edib, hal-əhval tutduqdan sonra mənə dedi: "Yaxşı oldu ki gəldin. Sən burada mənim yerimdə əyləş, mən bir azdan gəlirəm. O getdikdən sonra bir nəfər müştəri içəri daxil oldu. Bal qablarına baxıb barmağı ilə birinə işarə edərək soruşdu: Bu balın kilosu neçəyədir? Balın qiymətləri piştaxtanın üstündə

---

[1] Mizanül-hikmə,9-cu cild, səh.4314.

olduğu üçün dedim: Beş yüz tümənə. Müştəri soruşdu: Bu bala şəkər tozu qatılıbmı? Dedim: Bəli. Müştəri üzünü çevirib mağazadan çıxdı. Bir az keçməmiş başqa bir müştəri içəri daxil oldu. Qiymətlərlə maraqlandıqdan sonra soruşdu: Bu bal təmizdirmi? Dedim: Xeyr. Müştəri bu sözü eşitdikdə çıxıb getdi. Bu minvalla bir neçə müştərini yola saldım. Nəhayət, mağaza sahibi gəlib vəziyyətin nə yerdə olduğunu soruşdu: Dedim ki, bir neçə müştəri gəlmişdi. Soruşdu: Bal sata bildinmi? Dedim ki, xeyr. Soruşdu: Nə üçün? Dedim: Biri məndən soruşdu ki, bu bala şəkər tozu qatılıbmı? Dedim: Bəli. Digəri gəlib soruşdu ki, bu bal təmiz baldırmı? Dedim: Xeyr. O da çıxıb getdi. Mağaza sahibi mənə baxıb dedi: Sən bu mağazada bir neçə gün işləsən, məni müflis edərsən. Mən dedim: Sənin pul qazanmağın üçün nəyə görə mən yalan danışmalıyam? Bir müştəri balın təmiz olub-olmadığını soruşduqda, sən nə cavab verirsən? O dedi: Müştəri məndən bala şəkər tozu qatıb-qatmadığımı soruşduqda mən ona demirəm ki, qatmamışam. Mən eynilə həmin baldan qablara doldurub piştaxtanın altına yığmışam. Müştəri balın təmiz olub-olmadığını soruşduqda belə deyirəm: Sənə bu baldan deyil, piştaxtanın altındakı baldan verəcəyəm. Amma qiymətlərində yüz tümən fərq vardır. Beş yüz tümənlik eyni balı altı yüz tümənə soruşan müştərilərə satıram. Yaxud deyirəm ki, sənə bu baldan yox, özüm yediyim baldan verəcəyəm. Halbuki özüm də həmin baldan yeyirəm.”

Vasilə ibn Əsqəin böyük bir həyəti var idi. Dəvə satanlar və alanlar onun həyətinə gəlib alver edirdilər. Onun öz oğlanları və adamları da dəvə alveri edirdilər.

Əbu Suba deyir: “Bir gün onun həyətinə gəlib bir dəvə aldım. Oradan çıxanda Vasilə məni görüb yaxınlaşdı. Aldığım dəvəyə baxıb soruşdu: Bu dəvəni nə üçün almısan?

Dedim: Həcc səfərinə getmək üçün.

Vasilə dedi: Bu kök dəvədir. Kök dəvələri adətən yemək üçün alırlar. Səfərə çıxmaq üçün isə arıq dəvə lazımdır. Sən bununla Həccə getsən, yolda səni incidəcək. Apar qaytar və səfərə çıxmaq üçün arıq və yaxşı dəvə al. Əgər orada səfərə çıxmaq üçün dəvə varsa versinlər, yoxdursa pulunu geri al.

Əbu Suba dəvəni aparıb qaytardı. Dəvə satan isə Vasiləyə yaxınlaşıb dedi: Sən mənim işlərimi xarab elədin.

Vasilə soruşdu: Nə üçün?

Dəvə satan dedi: Mən bilirdim ki, o, Həccə getmək üçün dəvə istəyir. Mən ona bu dəvəni satdım. Sən isə dəvənin eybini ona açıb dedin.

Vasilə dedi: Sən nə üçün belə iş görürsən? Gördüyün iş haramdır. Mən özüm Peyğəmbərdən(s) eşitmişəm ki, belə buyurur:

لا يَحِلُّ لِأَحَدٍ يَبِيعُ شَيئًا اِلّا بَيَّنَ مَا فِيهِ

-Hər kəs satdığı malın eybini deməyib, onu satsa halal deyil.”[1]

Odur ki, hər bir alverçi satdığı malın eybini alıcıya söyləməlidir. İstər alıcı həmin malı alsın, istər almasın. Nə üçün müştərini aldadıb ona eyibli və nöqsanlı mal satmalısan? Həmçinin malın gözəl görünməsi və ağır gəlməsi üçün onu islatmaq da kələkbazlıqdır. Hər kəs bu işi görsə, haram iş görmüşdür və onun qazancı da haramdır. Eyni zamanda pis malı yaxşı mala qarışdırıb yaxşı mal adı ilə satsan, yenə də haram iş görmüş hesab olunursan.

Günlərin birində Həzrət Peyğəmbər(s) Mədinə bazarına daxil oldu. Gördü ki, bir alverçinin piştaxtasının üstündə gözəl təam var. Satıcıya buyurdu: “Necə də gözəl təamdır. Elə bu zaman Cəbrayıl nazil olub ərz etdi: Ya Rəsulallah,

[1] Mizanül-hikmə, 9-cu cild, səh.4314.

Allah sənə vəhy edir ki, əlini bu təamın içərisinə salasan. Peyğəmbər(s) əlini onun satdığı təamın içərisinə salıb içini yuxarı çevirdi. Baxıb gördü ki, həmin təamın altı başqa cürdür. Sonra həmin alverçiyə buyurdu: Nə üçün müsəlmanlara kələk gəlib onlara xəyanət edirsən?”[1]

Digər bir rəvayətdə belə nəql olunur ki, bir gün Peyğəmbər(s) bazarda bir alverçidən soruşdu: “Necə alver edirsən? Həmin şəxs necə alver etdiyini söylədi. Allah-təala vəhy etdi ki, əlini həmin malın içərisinə salsın. Peyğəmbər(s) əlini həmin kisənin içərisinə saldı. Baxıb gördü ki, kisədəki malın üstü quru, altı isə nəmdir. Sonra üzünü satıcıya tutub buyurdu: (Ticarətdə) kələkbazlıq edən şəxs bizdən deyil.”[2]

Həmçinin bir gün Peyğəmbər(s) bazarda bir buğda satanın yanından keçirdi. Baxıb gördü ki, çox gözəl buğdadır. İrəli gəlib əlini buğda kisəsinin içinə saldı. Gördü ki, altdakı buğdalar nəmdir. Satıcıya buyurdu: “Bu nədir belə? Satıcı dedi: Ya Rəsulallah, mən eləməmişəm. Buğdaları yağış isladıb. Peyğəmbər(s) buyurdu: Yaş buğdaları üstə qoya bilməzdin ki, camaat onun yaş olduğunu görsün? Nə üçün quru hissəsini üstə, yaş hissəsini isə alta qoymusan. Bizə (müsəlmanlara) qarşı kələkbazlıq edən şəxs bizdən deyil.”[3]

Yuxarıdakı hədisləri nümunə üçün qeyd etdim ki, bu barədə məlumatımız olsun. Cəmiyyət içində hər bir alverçi bu məsələlərə diqqət etməlidir. Hər kəs bilməlidir ki, ticarətdə hər növ kələkbazlıq etmək haramdır. Kələkbazlıqla əldə olunan qazancı yemək də haramdır.

---

[1] Mizanül-hikmə, 9-cu cild, səh.4316.
[2] Mizanül-hikmə, 9-cu cild, səh.4315.
[3] Mizanül-hikmə, 9-cu cild, səh.4316.

## Ticarətdə kələkbazlığın acı nəticələri

Alverdə camaatı aldatmaq və kələkbazlıq etməyin həm mənəvi, həm dünyəvi və həm də axirəti baxımından ziyanları vardır. Hər kəs alverdə kələkbazlıq etsə və camaatı aldatmaqla mal sataraq pul qazansa, Allah-təala həmin şəxsin ruzisinin bərəkətini kəsər.

قَالَ رَسُولُ اللهِ(ص): مَن غَشَّ أَخَاهُ الْمُسلِم نَزَعَ اللهُ بَرَكَةَ رِزقِه وَ أَفسَدَ عَلَيهِ مَعِيشَتَهُ وَ وَكَلَهُ اِلَى نَفسِه

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs (alverdə) müsəlman qardaşını aldadıb ona kələk gəlsə, Allah həmin şəxsin ruzisinin bərəkətini kəsər, yaşayış və dolanışığını çətinləşdirər və onu özbaşına buraxar.”[1]

Bu hədisdə alver edən insanın kələkbazlığının ona vurduğu dünyəvi təsirlər bəyan olunmuşdur. Alverdə kələkbazlığın mənəvi təsiri isə Allahın qəzəbinə və mələklərin lənətinə düçar olmaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): مَن بَاعَ عَيبًا لَمَ يُبَيِّنُهُ لَم يَزَل فِي مَقتِ اللهِ وَ لَمَ تَزَل الْمَلائِكَة تَلعَنُهُ

[1] Mizanül-hikmə, 9-cu cild, səh.4316.

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bir malı satarkən onun eybini (alıcıya) deməsə, Allahın ondan acığı gələr və mələklər ona lənət oxuyar."[1]

Ticarətdə kələkbazlıq etməyin insana axirəti təsiri budur ki, Allah- təala bu işi görənləri qiyamət günü yəhudilərin cərgəsində məhşərə gətirər. Bunun hədisi isə belədir:

قَالَ رَسُولُ اللهِ(ص): مَن غَشَّ مُسلِمًا فِي شِراءٍ اَو بَيعٍ فَلَيسَ مِنّا. وَ يُحشَر يَومَ القِيَامَةِ مَعَ اليَهُود. لِأَنَّهُم أَغَشُّ الْخَلقِ لِلمُسلِمِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim alqı-satqıda kələkbazlıq edərək bir müsəlmanı aldatsa, bizdən deyil. Qiyamət günü yəhudilərlə birgə məhşərə gətiriləcək. Çünki alverdə müsəlmanlara qarşı bu işi ən çox yəhudilər etmişlər."[2]

Odur ki, hər bir insan alverində diqqətli olmalıdır. Məbada insan kiməsə kələk və hiylə yolu ilə bir şey satsın. Qeyd olunduğu kimi, bu çirkin işin insana həm mənəvi, həm dünyəvi və həm də axirəti təsirləri vardır. Əgər insan ticarətində Allaha təvəkkül edərək halallıqla alver etsə, Allah həmin şəxsə yardımçı olar və ruzisinə bərəkət verər. İnsan qorxmasın ki, birdən ruzisi azalar və ya alveri kasadlaşar. Əgər hər kəs düzgün və Allah istəyən kimi alver etsə, Allah-təala ona öz lütfünü inayət edər.

İbn Təyyar adlı bir şəxs İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: "Ey Peyğəmbər(s) övladı, bu axır vaxtlarda maddi vəziyyətim çox ağırlaşıb. Əvvəllər çox yaxşı alver edirdim

---

[1] Mizanül-hikmə, 9-cu cild, səh.4316.
[2] Mizanül-hikmə, 9-cu cild, səh.4316.

və vəziyyətim də yaxşı idi. Bu son vaxtlarda çox pis vəziyyətə düşmüşəm.

İmam(ə) buyurdu: Sənin dükanın varmı?

İbn Təyyar dedi: Bəli, böyük bir dükanım var idi. Orada alver edirdim. Vəziyyətim pisləşdikdən sonra həmin dükanı bağladım.

İmam buyurdu: Sən sabahdan get həmin dükanda əyləş. Səhər evdən çıxarkən iki rükət namaz qıl. Namazdan sonra belə dua et: "Ey mənim Allahım, Sənə təvəkkül edirəm və ruzimi səndən istəyirəm." Bu duanı etdikdən sonra get dükanı aç və orada əyləş. Qalan işləri Allah Özü qaydasına salacaq.

İbn Təyyar deyir: Səhər sübh namazını qıldıqdan sonra İmamın(ə) buyurduğu kimi, iki rükət namaz qılıb dua etdim. Sonra evdən çıxıb dükana getdim. Dükanı açıb oranı silib süpürdüm. Boş dükanın içərisində əyləşdim. Azacıq keçmişdi ki, bir nəfər parça satan dükana daxil olub dedi: Parçalarımı satmaq üçün dükanının yarısını mənə icarəyə ver. Mən onunla razılaşıb dükanın yarısını ona icarəyə verdim. Onun parçası çox olduğundan çoxlu müştəri gəlib onunla alver etdi. Bir neçə gün beləcə davam etdikdən sonra həmin şəxs mənə dedi: Gəl mən sənə parçalardan verim, sən də öz hissəndə sat, alver elə. Onunla razılaşdım və bu minvalla yaxşı və halal alver etməyə başladım. Haramlar qarşıma çıxdıqda onları özümdən uzaqlaşdırdım. İmamın(ə) bircə göstərişi ilə Allaha təvəkkül etdim və vəziyyətim çox yaxşılaşdı. Belə ki, bu ticarətlə özümə ev və minik aldım."

Odur ki, hər bir müsəlmana təkid olunur ki, alverində diqqətli olsun. Allaha təvəkkül edib işlərində harama yol verməsin. Ola bilsin ki, bu yolda insanın qarşısına müxtəlif çətinliklər və imtahanlar çıxmış olsun. Bununla belə, yenə də özünü haram işlər görməyə qoymasın. Allahın razı olduğu hər bir işdə Özü insana yardımçı olar. Əgər insan Allahın

razılığını kənara qoyaraq öz bildiyi kimi halal-harama riayət etməsə, Allah onu özbaşına buraxar. Belə olduqda insan həm dünyasını, həm də axirətini əlindən verər.

# HARAM TİCARƏT

## Tərəzidə və çəkidə aldatmaq

Haram ticarətlərdən biri də tərəzidə və ölçüdə müştərini aldatmaqdır. Bu tərəzi və ölçünü özünün xeyrinə və başqasının ziyanına istifadə etməkdir. Əgər bir insan alverində tərəzi və ölçüdə kiminsə haqqını kəssə, haram iş görmüşdür. Həm belə alverin özü, həm də ondan əldə olunan bütün qazanc haramdır. Quranda bu barədə bir sıra ayələrə rast gəlmək olur. “Mutəffifin” surəsinə diqqət yetirdikdə “bismillah”dan sonra gələn ilk ayədə birinci bu məsələyə toxunulur:

وَيْلٌ لِّلْمُطَفِّفِينَ. الَّذِينَ إِذَا اكْتَالُواْ عَلَى النَّاسِ يَسْتَوْفُونَ. وَإِذَا كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ. أَلَا يَظُنُّ أُولَئِكَ أَنَّهُم مَّبْعُوثُونَ. لِيَوْمٍ عَظِيمٍ. يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ

-Vay halına əskik satanların! O kəslər ki, özləri insanlardan ölçü ilə bir şey aldıqda onu tam ölçüb alarlar, onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu

əskildərlər. Məgər onlar güman etmirlərmi ki, (haqq-hesab üçün) dirildiləcəklər. Böyük bir gündə?! O gün bütün insanlar (haqq-hesab və mühakimə olunmaq üçün) aləmlərin Rəbbinin hüzurunda duracaqlar!

Təfsir kitablarında bu ayələrin nazil olma səbəbi barəsində belə yazmışlar: "İbn Abbas deyir: Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət etdiyi dövrdə Mədinə camaatının ticarət və alveri tamamilə başqa cür idi. Camaat tərəzidə və ölçüdə qətiyyən ədalətə riayət etmirdilər. Məsələn, bir kiloqram yerinə səkkiz yüz qram satırdılar. Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən bir müddət sonra Allah-təala bu ayələri nazil etdi. Həzrət Peyğəmbər(s) həmin ayələri camaat üçün oxudu və alverçilərin gördükləri bu işlərin pis olduğunu söylədi."[1]

Alverçi öz alverində çox diqqətli olmalı, tərəzidə və yaxud ölçüdə əskik çəkməməlidir. Əgər bu işi görsə, haram iş görmüşdür və camaatın haqqına girmişdir. Məsələn, bir alıcı satıcıdan buğdanın dəyərini soruşduqda o, "40 qəpikdir" - deyir. Alıcı ondan 10 kiloqram buğda alır və 4 manat pul verir. Buğdanı aparıb başqa tərəzidə çəkdikdə isə görür ki, satıcı 10 kiloqram buğdanın pulunu alsa da, ona 8 kiloqram buğda verib. Həmin satıcı tərəzidə alıcını aldadaraq onun haqqına müdaxilə etmişdir. Satıcının etdiyi bu alver və ondan əldə etdiyi gəlir haramdır.

Günlərin birində mağazadan 1 kiloqram ərzaq aldım. Satıcı mənə 1 kiloqram ərzağın yerinə yarımkiloluq ərzaq verdi. Həmin ərzağı əlimə götürdükdə hiss etdim ki, bu 1 kilo deyil. Ona dedim: "Sən nə üçün bu işi görürsən? Mənim üçün yarımkilonun elə bir mahiyyəti yoxdur. Amma yarımkilo əskik verməklə sənə də bir xeyir gəlməz.

---

[1] Təfsiri-nümunə, 26-cı cild, səh.243.

Yarımkilo nə məni kasıblaşdırar, nə də səni dövlətli edər. Amma sənin gördüyün bu iş yaxşı iş deyil. Ola bilsin ki, mən bunu sənə halal etmiş oldum. Hər gün yüzlərlə insanı belə aldatmaq onların haqqını tapdamaqdır. Qiyamət günü etdiklərinə görə cavab verəcəksən.

Mənə dedi: Mən səhərdən axşama qədər, isti və soyuğun altında əyləşib alver edirəm. Mənə qalan da elə həmin yarımkilolar olur.

Dedim: Sənin etdiyin bu işi alver hesab etmək olmaz. Sənin işin 1 kilo alıb, camaata həmin miqdar əvəzinə 800 qram satmaq deyil. Alver odur ki, sən bir malı gedib 5 manata alasan, onu gətirib mağazada 6 manata satasan. Hər halda sənin bu alverin haramdır. Belə alver etməzlər."

Tərəzi və ölçüdə az çəkib camaatı aldatmağın cəmiyyətə çox ziyanları vardır. Həzrət Peyğəmbər(s) buyurur: "Əgər bir cəmiyyətdə alverçilər tərəzidə az çəksə və ya az ölçsə Allah-təala həmin cəmiyyətin əkinlərinin bərəkətini götürər və onları qıtlığa düçar edər."

Tərəzidə 200 qram əskik çəkən kəs elə başa düşməsin ki, qabağa düşmüşdür. Xeyr, qətiyyən belə deyildir. Bunu da bilmək lazımdır ki, 200 qram az çəkib camaatı aldatdıqda, Allah-təala digər tərəfdən həmin şəxsin bərəkətini neçə bərabər azaldar. Cəmiyyətdə qıtlığın səbəbi də bu kimi işlərin nəticəsidir. Əgər insan ruzisinin bərəkətli olmasını istəyirsə, gərək çəkidə ağır çəksin. Tərəzidə əskik çəkmək bərəkəti azaltdığı kimi, çox çəkmək də bərəkəti artırar. Həzrət Peyğəmbər(s) təkidlə buyurmuşdur ki, çəkidə və ölçüdə (müştərinin xeyrinə) ağır çəkin və çox ölçün.

Süveyd ibn Qeys deyir: "Biz iki nəfər şərikli alver edirdik. Başqa şəhərlərdən parça gətirib Məkkədə satırdıq. Günlərin birində Həzrət Peyğəmbər(s) mağazamıza gəlib bizdən özü və ya ailəsi üçün parça alırdı. Bizim piştaxtamızın yanındakı piştaxtada bir nəfər baqqal da alver

edirdi. Peyğəmbər(s) gördü ki, həmin baqqal tərəzidə müştərilər üçün malı yüngül çəkir. Həzrət(s) ona buyurdu: “Müştərinin xeyrinə ağır çək.”

Günlərin birində Həzrət Əli(ə) bir qəssab dükanının yanından keçirdi. Kiçik bir qız uşağı həmin qəssabdan ət alırdı. Həzrət Əli(ə) oradan ötüb keçdikdə qızın səsini eşitdi. Qız belə deyirdi: “Ağır çək.” Həzrət Əli(ə) ayaq saxlayıb qəssaba buyurdu: “Onun üçün ağır çək. Tərəzidə (müştərinin xeyrinə) ağır çəkmək bərəkəti çoxaldar.”

Allah-təala həmişə Öz bərəkətini bəndələrinə nazil edir. Əgər Onun bərəkəti insanlara nazil olmasa, yaşamaq mümkün olmaz. İnsanlar da gərək öz ticarətlərində və əməllərində bərəkətin kəsilməsinə səbəb olan işləri görməsinlər. Əgər bir cəmiyyətdə bərəkət kəsilərsə və qıtlıq baş verərsə, bu, həmin cəmiyyətdə yaşayan insanların öz əməllərinin nəticəsidir.

Tərəzi və ölçüdə düzgün olmaq barədə “Şüəra” surəsinin 181-183-cü ayələrində belə oxuyuruq:

أَوْفُوا الْكَيْلَ وَلَا تَكُونُوا مِنَ الْمُخْسِرِينَ. وَزِنُوا بِالْقِسْطَاسِ الْمُسْتَقِيمِ.
وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءهُمْ وَلَا تَعْثَوْا فِي الْأَرْضِ مُفْسِدِينَ

-(Alış-veriş zamanı) tərəzi qabını dolu verin (ölçüdə düz olun). Ziyan vuranlardan olmayın. Düzgün tərəzi ilə çəkin. İnsanların mallarını əskik verməyin və yer üzündə fəsad törədən hərəkət etməyin.

Bu ayədən açıq-aydın görürük ki, hər kəs tərəzidə düzgün çəkmirsə və ölçüdə düzgün ölçmürsə fəsad törədən insan sayılır. Hər kəs fəsad törədən insanı tanımaq istəyirsə, Quran başa salır ki, onlar tərəzi və ölçüsü, həmçinin alveri düzgün olmayan adamlardır. “Ər-Rəhman” surəsinin 7-8-ci ayələrində ölçü barədə belə oxuyuruq:

وَالسَّمَاء رَفَعَهَا وَوَضَعَ الْمِيزَانَ. أَلَّا تَطْغَوْا فِي الْمِيزَانِ

-Göyü ucaltdı və (əqidə, əxlaq, əməl və xarici aləmdəki şeylərin hər birinin özünə münasib şəkildə ölçülməsi vasitəsi olan) qanun və mizanı qoydu (peyğəmbərlər vasitəsilə və insanların ağıllarına ilham etməklə öyrətdi). (Və əmr etdi) ki, ölçüdə həddi aşmayasınız.

Allah-təala bu ayələrdə ilk növbədə hər bir şeydə ölçü və hesab üzü qoyduğunu bəyan etdikdən sonra bizə də tərəzidə ədalətli olmağı və ölçüdə həddi aşmamağı əmr edir. Buradan belə başa düşülür ki, hər kəs ölçüdə düzgün olmasa, o, ədalətsiz insandır. Ədalətsiz insanın isə cəmiyyətdə şahidliyi, hakimliyi, pişnamazlığı və s. kimi əməlləri məqbul sayılmır.

## Halal ticarətin faydaları

Ticarətin insana bir çox fayda və mənfəətləri vardır. Hər kəs halal ticarətlə məşğul olsa, Allah-təala onun ruzisinə bərəkət verər, ağlını artırar və başqalarına möhtac qalmaz. Bu barədə bir çox hədis və rəvayətlər vardır ki, nümunə üçün bir neçəsinə diqqət yetirək.

قَالَ الصَّادِقُ(ع): اَلتِّجَارَةُ تَزِيدُ العَقل

-İmam Sadiq(ə) buyurur: “Ticarət ağlı artırar.”[1]

قَالَ عَلِيٌّ(ع): تَعَرَّضُوا لِلتِّجَارَات فَإِنَّ لَكُم فِيهَا غِنيً عَمَّا اَيدِى النَّاس وَ اِنَّ اللهَ عَزَّوَجَلَّ يُحِبُ الْمُحتَرِفَ الأَمِين

[1] Mizanül-hikmə, 2-ci cild, səh.610.

-Ticarət işləri ilə məşğul olun ki, ticarət sizi başqalarının malından ehtiyacsız edir. Allah-təala düz olan peşə sahibini sevir.[1]

Müəlla ibn Xüneys deyir: "Bir gün bazara gedirdim. Amma işə bir neçə saat gecikmişdim. Yolda İmam Sadiq(ə) məni görüb buyurdu: İzzətin ardınca getməyə tələs. (Ticarət mömininin izzəti sayılır və tacir sübh tezdən durmalı və bazara getməlidir)"[2]

Məaz deyir: "Bir gün İmam Sadiq(ə) mənə buyurdu: Ey Məaz, ticarət etməkdən yorulmusan, yoxsa ticarətə rəğbət və həvəsin azalıb?

Dedim: Ey Peyğəmbər(s) övladı, ticarətdən nə yorulmuşam, nə də həvəsdən düşmüşəm.

Buyurdu: Bəs nə üçün daha ticarətlə məşğul olmursan?

Dedim: Mən çoxlu mal-dövlət qazanmışam. Əgər ömrümün axırına qədər ticarətlə məşğul olmasam belə, yığdığım mal-dövlət mənə bəs edər.

Buyurdu: Ticarəti tərk etmə. (İnsan varlı olsa belə) ticarət etməmək ağlı zəiflədir. Öz əhli-əyalını firavanlıq içində saxla. Elə bir iş görmə ki, evi dolandırmaq üçün onlar (ailən) işləsin."[3]

## Halal ticarət etmək ibadətdir

[1] Mizanül-hikmə, 2-ci cild, səh.610.
[2] Mizanül-hikmə, 2-ci cild, səh.610.
[3] Mizanül-hikmə, 2-ci cild, səh.610.

Bir çox hədis və rəvayətlərdə halal ticarət etməyin fəzilət və üstünlükləri barədə söz açılmışdır. İnsan halal gəlir ardınca gedərsə, Allah-təala həmin şəxsin bu işini ibadət qərar verir. Yəni halal alverlə məşğul olmaq böyük ibadətlərdəndir.

قَالَ رسول اللهِ(ص): اَلعِبادَةُ سَبعُونَ جُزءً وَ أَفضَلُهَا جُزءً طَلَبُ الْحَلال

-Həzrət Peyğəmbər(s) buyurur: "İbadət yetmiş hissədir. Onun ən üstün hissəsi halal alver etməkdir."[1]

قَالَ رسول اللهِ(ص): اَلعِبادَةُ عَشَرَةُ أَجُزءٍ تِسعَةُ أَجزَاءٍ فِي طَلَبِ الْحَلال

Digər hədisdə belə buyurur: "İbadət on hissədirsə, doqquzu halal alver etməkdir."[2]

Həzrət İsa(ə) bir nəfərdən soruşdu: "Nə işlə məşğul olursan? Həmin şəxs dedi: Səhərdən axşama qədər yalnız ibadət və səcdə etməklə məşğulam. İsa(ə) soruşdu: Sənin dolanışığını kim təmin edir? Dedi: Qardaşım işləyir və məni də dolandırır. İsa(ə) buyurdu: Sənin qardaşın səndən çox ibadət edir. (Onun ibadətinin savabı sənin ibadətinin savabından daha çoxdur)"

Günlərin birində Həzrət İsa(ə) həvariləri ilə səyahətə çıxmışdı. Günorta vaxtı bir yerdə dayanıb camaat namazı qıldılar. Həvarilərdən biri dedi: "Ya İsa, bəs nahara nə yeyəcəyik?" Həzrət İsa(ə) dua etdi, Allah onlar üçün cənnətdən yeməklə dolu süfrə göndərdi. Hamı birlikdə

---

[1] Mizanül-hikmə, ibadətin növləri bölməsi.

[2] Mizanül-hikmə, ibadətin növləri bölməsi.

həmin süfrə kənarında əyləşib yedilər. Sonra süfrəni götürüb ağaca bağladılar və yollarına davam etdilər. Bir neçə gün səfərdə oldular və hər gün eyni qayda ilə namazlarını qılıb Allahın göndərdiyi cənnət nemətlərdən istifadə edirdilər. Yolda bir yerdə əyləşdikdən sonra həvarilərdən biri dedi: “Biz Allahın Peyğəmbəri(ə) ilə həmsəfər olmuşuq. Onunla birgə camaat namazı qılır və Allahın cənnətdən göndərdiyi ruzilərdən yeyirik. Görəsən dünyada bizdən üstün insan varmı? Digəri dedi: Əlbəttə ki, bizdən üstün insan var. Bizimlə birgə olmamasına baxmayaraq, ola bilsin ki, başqa bir yerdə bizdən də üstün Allahın xalis bəndəsi olmuş olsun.”

Beləcə, onların arasında mübahisə yarandı. Onlar bu məsələni çözmək üçün Həzrət İsanın(ə) yanına gəlib aralarında yaranmış mübahisəni danışdılar. Həzrət İsa(ə) buyurdu: “Sübh tezdən yuxudan oyanıb, namazlarını qılan və halal ticarətlə məşğul olmaq üçün evindən çıxıb halal alver edən hər bir kəsin fəziləti sizdən daha çoxdur.”

## Ticarətin əsas şərti

Ticarət və alverin bir neçə şərti vardır. Ən əsas şərtinə gəldikdə isə Allah-təala “Maidə” surəsinin 29-cu ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن تَرَاضٍ

-Ey iman gətirənlər, qarşılıqlı razılıq əsasında olan ticarət istisna olmaqla öz aranızda bir-birinizin mallarını haqsız yerə (şəriət və qanuna zidd yollarla) yeməyin.

Bu ayədə ticarətin əsas şərti önə çəkilərək bəyan edilir ki, alverdə hər iki tərəfin razılığı əsasdır. Yəni həm satıcı, həm də alıcı etdikləri alverə ürəkdən razı olmuş olsunlar. Məsələn, bir nəfər mağazada əyləşib müştəri gözləyir. Ürəyindən keçir ki, kaş bu çörəkləri almaq üçün müştəri olaydı. Evində çörək olmayan bir nəfər evdən çıxıb həmin dükana yollanır və deyir ki, kaş onun dükanında çörək olaydı. Əgər həmin şəxs gəlib onun dükanından çörək alsa, həm o razı qalacaq, həm də satıcı. Əgər həm alıcı, həm də satıcı etdikləri alverdə ticarətin bütün şərtlərinə riayət edərək razı qalsalar, buna "qarşılıqlı razılıq" deyilir.

Burada qeyd olunmalıdır ki, ticarətdə qarşılıqlı razılığa gəlməyin də əsas şərti vardır. Onun şərti budur ki, satıcı alverin hökmlərini və qayda-qanunlarını bilmiş olsun. Çünki ticarətin qaydasını və şəri məsələlərini bilmədən ticarət etmək düzgün deyildir. Məsələn, namazın, orucun və s. ibadətlərin əhkamını bilmək vacib olduğu kimi, ticarətlə məşğul olan insan da ticarətin əhkamını öyrənməlidir.

قَالَ عَلِيٌّ(ع): يَا مَعشَرَ التُّجَّار اَلفِقه ثُمَّ الْمَتجَر. اَلفِقه ثُمَّ الْمَتجَر. اَلفِقه ثُمَّ الْمَتجَر.

-İmam Əli(ə) buyurur: "Ey tacirlər! Ticarətin hökmlərini öyrənin və sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin, sonra ticarət edin! Ticarətin hökmlərini öyrənin, sonra ticarət edin!"[1]

## Ticarətin digər şərtləri

[1] Mizanül-hikmə, 2-ci cild, səh.612.

Ticarətin əsas şərtlərindən əlavə, bir neçə şərt də vardır ki, hər bir tacir bunları bilməlidir. Onları qısa şəkildə nəzərinizə çatdırıram:

1.Alverə başlarkən Allahın adını çəkib, Ondan xeyir-bərəkət istəmək;

2.Alverdə müştərilərə çətinlik yaratmamaq;

3.And içməmək;

4.Düz danışmaq;

5.Zülm etməmək;

6.İnsafla alver etmək;

7.Satdığı malı çəkisindən, ədədindən az verməmək;

8.Sələmçiliklə alver etməmək;

9.Alan adama malın eybini demək, satanda tərif etməmək.

## Ticarətdə düzgünlük

Alver edən hər bir ticarətçi öz alverində sədaqətli və düzgün olmalıdır. Hər kəs ticarətin bütün şərtlərinə riayət edərsə, alverdə öz sədaqətini göstərmişdir. Hər kəs alverində düzgün insan olsa, çox böyük imtiyazlar əldə edəcək. Bu barədə olan hədislərə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): اَلتَّاجِرُ الأَمِين الصَّدُوق الْمُسلِم مَع الشُّهَداء يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Doğru danışan və doğru əməl sahibi olan müsəlman tacir qiyamətdə şəhidlərlə bir yerdə olar."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلتَّاجِرُ الصَّدُوق تَحتَ ظِلِّ العَرش يَومَ القِيَامَة

[1] Mizanül-hikmə, 2-ci cild, səh.630.

-Həzrət Peyğəmbər(s) buyurur: “Doğru danışan tacir qiyamətdə ərşin kölgəsinin altında olacaqdır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلتَّاجِرُ الصَّدُوق لا يُحجَب مِن اَبوابِ الجَنّة

-Həzrət Peyğəmbər(s) buyurur: “Doğru danışan tacirin üzünə cənnətin heç bir qapısı bağlanmayacaq.”[2]

---

[1] Mizanül-hikmə, 2-ci cild, səh.630.
[2] Mizanül-hikmə, 2-ci cild, səh.630.

## Əməkdə və işdə düzgünlük

Bəhsimizə əlavə olaraq bir mətləbi də əziz möminlərin diqqətinə çatdırmaq istərdim. Yuxarıda qeyd olundu ki, hər hansı bir alverçi tərəzidə az çəksə və ya ölçüdə az ölçsə, haram iş görmüş və ondan əldə olunan qazanc da haramdır. İnsanların hamısı ticarətlə məşğul olmadığından bəziləri idarədə, bəziləri əkin-biçində, bəziləri müxtəlif sexlərdə işləyir, bəziləri isə fəhlə və yaxud işçi kimi hansısa idarədə çalışır. Hər bir insan bir yolla öz evinə pul qazanır. Qeyd edəcəyim mətləb budur ki, hər bir şəxs kimin işçisi sayılırsa, işlərində diqqətli olmalıdır. Məsələn, bir nəfər bir idarədə işçi kimi işləməyə başlayır. O, müdiriyyətlə razılığa gəlir ki, məsələn, səhər saat 9-dan axşam saat 18-dək işləyəcək və əvəzində hər ay müəyyən məbləğdə pul alacaq. Əgər həmin işçi icazəsiz işə bir neçə saat gec getsə, yaxud bir neçə saat tez çıxsa, bir sözlə desək, qərarlaşmış vaxtdan kəsərsə tərəzidə az çəkmiş adam kimidir. Çünki bu da bir növ ticarətdir ki, həmin şəxs öz vaxtını müəyyən məbləğin müqabilində satmışdır. Əgər satdığı vaxtdan kəsərsə, o zaman o, haram iş görmüş sayılır və ölçüdə, tərəzidə çəkini azaldan alverçilərlə eynidir.

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, iş görmək iki cürdür. Onlardan biri budur ki, insan bir işi müəyyən məbləğin müqabilində alır. Məsələn, ev təmir etdirmək istəyən bir şəxs usta çağırır. Usta ona deyir ki, mən filan məbləğin müqabilində sənin evini təmir edərəm. Evi neçə günə təmir edəcəyim məndən asılıdır. Mən evini təmir edib sənə təhvil verəcəyəm. Beləliklə, razılaşıb yola gəlirlər. Usta burada öz vaxtını satmır. Sadəcə işi boynuna götürür və nə vaxt hazır oldu o zaman da evi təhvil verəcəkdir. Usta istəsə

həmin işi on günə, istəsə on beş günə görə bilər. Çünki burada vaxt məsələsində heç bir şərt kəsilməyib.

İş görməyin ikinci növü isə belədir ki, insan öz vaxtını kiməsə satmış olsun. Məsələn, bir nəfər idarədə işləyir və idarədəki qaydalara uyğun hərəkət etməli, müəyyən olunmuş vaxtda isə orada olmalıdır. Həmin işçi idarədə olduğu müddətdə vaxtının bircə dəqiqəsini belə başqa işlərə sərf edə bilməz. Yalnız gündəlik vacib namazların vaxtından başqa. Çünki həddi-büluğa çatdıqdan ömrünün axırına qədər vacib namazların vaxtını Allaha satmışdır. İdarədə işləyən işçi namaz vaxtı istisna olmaqla idarə işlərindən başqa heç bir işlə məşğul ola bilməz. Həmçinin idarənin qayda-qanununa əsasən, məsələn, nahara yarım saat vaxt ayrılıbsa, gərək naharını həmin yarım saatın ərzində yesin və yenidən öz işlərinə davam etsin.

Rus mühəndislərindən biri fəhlə işlədirdi. Təsadüfən həmin fəhlələr müsəlman idilər. Bir neçə gündən sonra mühəndis gəlib görür ki, fəhlələr namaz qılırlar. Onlardan soruşur: Siz burada nə işlə məşğulsunuz? Fəhlələrdən biri deyir: Biz müsəlmanıq. Allah-təala bizə gündə on yeddi rükət namaz vacib edib. Harada olmağımızdan asılı olmayaraq, azan vaxtı olduqda mütləq namazımızı qılmalıyıq. Vaxtımızı cəmi beş on dəqiqə namaza sərf edib yenə də sizin işinizi görürük. Mühəndis əsəbiləşib deyir: Əgər sabahdan gəlib görsəm ki, yenə namaz qılırsınız, maaşınızdan kəsəcəyəm. Üstündən bir neçə gün keçdikdən sonra rus mühəndis günorta tikintiyə gəldikdə görür ki, həmin müsəlmanlardan biri yenə də namaz qılır. Bir söz deməyib ayın axırını gözləyir. Ayın axırında maaş verdikdə həmin namaz qılana daha çox pul verir və deyir: “Bir adam ki, Allahına satdığı vaxtını kəsmirsə, gördüyü bütün işlərində də vaxtını kəsib xəyanət etməz.”

Qum şəhərində olduğum müddətdə belə bir hadisə baş vermişdi. Bir ailədə kişi ilə arvad arasında söz-söhbət yaranmışdı. Onların iki qız uşağı var idi. Kişi arvadına təlaq verib boşamışdı. Mən onları tanıdığım üçün istəyirdim ki, onların arasında mehribançılıq yaradım və öz həyatlarını birgə sürməyə davam etsinlər. Onlardan xahiş etdim ki, bir gün bir yerdə əyləşib söhbət edək. Onlar mənimlə razılaşdılar. Bir neçə gün onlarla söhbət etdikdən sonra hər ikisini razı sala bildim. Allaha şükürlər olsun ki, onlar barışdılar və yenidən bir ailə olmağa razılaşdılar. Amma kişi arvada təlaq verdiyi üçün yenidən kəbin kəsmək lazım gəldi. Onların əqdini oxumaq üçün qonşuluğumuzdakı dəftər-xanaya müraciət etdik. Bura bir müctəhidin dəftərxanası idi və alimlərdən biri orada işləyirdi. Həmin alim həm də mənim ustadım idi. Dəftərxanaya gedib ona dedim ki, beş-on dəqiqə vaxt ayırıb bizə gəlsin və onların kəbinini kəssin. O, diqqətlə məni dinlədikdən sonra bir az fikirləşib dedi: "Məni üzürlü hesab edin. Heç bircə dəqiqə də buradan çıxa bilmərəm. Çünki mən burada işləyirəm və hər gün iki saatımı dəftərxananın işlərinə həsr etməliyəm. Bunun əvəzində isə mən pul alıram. Əgər mən bu iki saatda başqa bir işlə məşğul olsam, o zaman haram iş görmüş olaram. Əgər bu dəftərxananın sahibindən icazə alsanız, o zaman çıxa bilərəm. Yaxud işdən sonra gələrəm və biz məsələni həll edərik."

Mən gedib dəftərxananın sahibindən (həmin müctəhid-dən) onun üçün icazə aldım. O, icazə verdikdən sonra ustadı götürüb kəbin kəsmək üçün həmin kişi ilə arvadın yanına getdik. Əqdi oxuduqdan sonra onlara bir neçə kəlmə dua etdi. Həmin alim təqvalı, halal-harama riayət edən və nurani insan olduğu üçün bəlkə də onun nəfsinin bərəkəti və qəlbinin nuraniyyəti idi ki, həmin ailə indiyədək mehriban və gözəl həyat sürürlər.

Odur ki, əgər bir insan fəhləlik, idarə işçisi və s. işlərə öz vaxtını satırsa, həmin vaxt ərzində başqa işlər görməyə haqqı yoxdur. Yəni satdığı vaxtı kəsə bilməz. Əgər belə bir iş görmüş olsa, haramdır və başqa yerə sərf etdiyi müddətin əvəzində aldığı pul da haramdır.

## Haram yeməyin pis təsirləri

Ticarətdə və ya başqa bir işdə haram yollarla əldə edilmiş qazancı yemək haramdır. Ümumiyyətlə, haram yeməyin insana bir çox maddi və mənəvi ziyanları vardır. Haram yeməklər insanın ruhuna, mənəviyyatına, vücuduna və cisminə çox böyük təsirlər göstərir. Haram yeməyin insana olan birinci təsiri bərəkətinin kəsilməsinə səbəb olar. Yəni haram yeyən insanın malının bərəkəti kəsilər.

قَالَ الصَّادِقُ(ع): مَن كَسَبَ مَالاً غَير حلّ سَلَّطَ عَلَيهِ البِنَاء وَ الطِّين وَ الْماء

İmam Sadiq(ə) buyurur: “Hər kəs halal olmayan yolla qazanc əldə etsə, Allah-təala daşı (ev tikməyi), torpağı və suyu ona müsəllət edər.”[1]

Yəni, insan haram qazanc ardınca getsə, Allah-təala onun ömrünün və malının bərəkətini kəsər və başını daş, torpaqla elə qarışdırar ki, özünün də xəbəri olmaz.

Haram yeməyin insana olan ikinci ziyanı odur ki, Allah-təala həmin şəxslərin ibadətlərini qəbul etməz. Yəni haram yeməklər insanın ibadətlərinin qəbul olunmasına böyük maneələr yaradır. Mümkün deyil ki, insan haram yesin,

[1] Böyük günahlar, səh.389.

sonra da gəlib Allah qarşısında ibadət etsin. Haram yeyən insan hər nə qədər ibadət etsə, Allah onun ibadətini qəbul etməyəcək. İnsanın ibadətinin qəbul olunması üçün ilk növbədə özünü haramlardan təmizləməli, boynunda olan camaatın haqqını qaytarmalıdır. Əgər əynində haram paltar olarsa, həmin paltarla namaz qılsa qəbul olmaz. Buna görə də insan bütün bu məsələlərdə çox diqqətli olmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ لله مَلَكًا يُنَادِى عَلَى بَيتِ الْمُقَدَّس كُلِّ لَيلَةٍ مَن اَكَلَ حَرامًا لَم يَقبَلِ اللهُ مِنهُ صَرفاً وَ لا عَدلاً

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala bir qrup mələk yaratmışdır ki, onlar Beytül-müqəddəsdə (Qüdsdə) hər gecə car çəkib belə deyirlər: Hər kəs haram yesə, Allah-təala həmin şəxsin vacib və müstəhəb əməllərini qəbul etməz."[1]

Haram yeməyin insana olan ziyanlarından biri budur ki, hər kəs haram yesə, Allah və mələklər həmin şəxsə lənət oxuyar.

قَالَ رَسُولُ اللهِ(ص): اَوحَى اللهُ اِلَيَّ اَن أَنذِر قَومَكَ لا يَدخُلُوا بَيتًا مِن بُيُوتِى وَ لِأَحَدٍ مِن عِبَادِى عِندَ اَحَدٍ مِنهُم مَظلَمَةٌ فَإِنِّ اَلعَنُهُ مَا دَامَ قَائِمًا يُصَلِّى بَينَ يَدَى حَتَّى يرد تِلكَ الْمَظلَمَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala mənə belə vəhy etdi: Öz qövmünü (ümmətini) başa sal ki, bir-birinin haqqı boyunlarında olduğu halda mənim evimə (məscidə) daxil olmasınlar. Kim boynunda başqasının haqqı olan halda namaz qılarsa, həmin şəxsə lənət edərəm. Əgər tövbə edib

[1] Böyük günahlar,1-ci cild,səh.15.

başqasının haqqını qaytarmağa çalışsa, onun namazını qəbul edərəm."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اِذَا وَقَعَتِ اللُّقمَةُ مِن حَرامٍ فِی جَوفِ العَبد لَعَنَهُ كُلُّ مَلَكٍ فِی السَّمَواتِ وَ الأَرضِ

Digər hədisdə isə belə buyurur: "Bəndə bir tikə haram yedikdə və həmin haram onun qarnına daxil olan zaman göylərin və yerin bütün mələkləri ona lənət oxuyarlar."[2]

Haram yeməyin insana olan ziyanlarından biri budur ki, Allah-təala haram yeyən şəxsin dualarını qəbul etməz. Bu barədə olan hədislərə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَكَل لُقمةَ حَرام لَمَ تُقبَل لَه صَلاةُ اَربَعِین لَیلَة وَ لَمَ تُستَجَابُ لَهُ دعوة اَربَعِین صَباحاً

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bircə tikə haram yesə, onun qırx gecə-gündüz qıldığı namaz və etdiyi dualar qəbul olunmaz."[3]

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَحَبَّ اَن یُستَجَاب دُعائَه فَلیُطَیِّب مطعَمَه وَ مکسَبَه

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs dualarının qəbul olunmasını istəyirsə, yeməklərini və qazancını halal etsin. (Yəni halal yeməklər yesin.)"[1]

---

[1] Böyük günahlar,1-ci cild, səh.15.
[2] Böyük günahlar,1-ci cild, səh.15.
[3] Böyük günahlar,1-ci cild, səh.389.

Haram yeməklərin insana olan təsir və ziyanlarından biri də budur ki, insanın qəlbini paslandırıb qaraldar və insanın haqqdan üz döndərməsinə və imandan çıxmasına səbəb olar.

Şərik ibn Abdullah Mehdi Abbasinin xəlifəliyi dövründə yaşayırdı. Şərik ibn Abdullah təqvalı alimlərdən biri idi. Mehdi Abbasi istəyirdi ki, onunla yaxın münasibətlər yaratsın və onu özünə cəlb etsin. Qorxurdu ki, əgər Şərik ibn Abdullahı öz yanına çəkməsə, gedib elə bir işlər görər ki, onun hakimiyyətinə ziyan gələr. Bunun üçün hiyləyə əl ataraq onu yanına çağırtdırdı. Şərik ibn Abdullah öz-özünə dedi: "Allah bu işlərin axırını xeyir etsin. Xəlifə adamı xeyirliyə çağırmaz. Görəsən mənimlə nə işi var?" Bu sözləri deyib xəlifənin yanına getdi. Xəlifə ona çox böyük ehtiram göstərib söhbətə başladı. Mənim sənə çox böyük hörmət və məhəbbətim var. Səninlə daim yaxşı əlaqələrimizin olmasını istəyirəm. Bu gün sənə zəhmət verməkdə məqsədim budur ki, üç təklifimdən birini qəbul etməyini istəyirəm. Birinci təklifim budur ki, səni qazi təyin etmək istəyirəm. Şərik ibn Abdullah öz-özünə fikirləşdi ki, əgər həmin şəhərdə qazi olsa, bu zaman gərək xəlifənin dediklərini etsin. Belə olduqda ədaləti kənara qoymalı olacaq. Buna görə də xəlifənin bu təklifi ilə razılaşmayıb dedi: Mənim işlərim çox olduğuna görə qazilik vəzifəsini boynuma götürə bilmərəm. Xəlifə dedi: Onda mənim uşaqlarıma müəllimlik et və onların təlim-tərbiyəsi ilə sən məşğul ol. Şərik ibn Abdullah dedi: Təəssüflər olsun ki, mənim buna da vaxtım olmayacaq. Xəlifə onun razılaşmadığını görüb üçüncü təklifini irəli sürüb dedi: İndi ki, bu iki təklifimlə razılaşmadın, heç olmasa bir gün bir yerdə əyləşib yemək yeyək. Şərik ibn Abdullah onun bu təklifi ilə razılaşdı.

---

[1] Böyük günahlar,1-ci cild. səh.389.

Bir gün vaxt təyin edib bir süfrə kənarında əyləşdilər. Xəlifə aşpaza göstəriş vermişdi ki, yeməkləri çox ləzzətli və yağlı bişirsin. Süfrənin üstünə də hər cür naz-nemət düzülmüşdü. Şərik ibn Abdullah xəlifə ilə birgə yeməyə başladılar. Onun bığları yağlandıqdan sonra aşpaz uzaqgörən adam olduğu üçün yanındakılara dedi: Şərik ibn Abdullahın xəlifənin süfrəsində belə yemək yeməyindən başa düşürəm ki, o, gələcəkdə bir daha bu xoşbəxtliyin üzünü görməyəcək. Xəlifə onun imanını bir qarın yeməyə satın aldı. Onun işi bu gündən başlandı.

Hər şey aşpazın söylədiyi kimi oldu. Şərik ibn Abdullah həmin gündən sonra hərdən xəlifə ilə əyləşib yemək yeyirdi. İş o yerə gəlib çatdı ki, imanını əlindən buraxdı. Xəlifə onun üçün hər ay hədiyyə olaraq pul da ayırmışdı. O, hər ay saraya gəlib ona düşən hədiyyəni xəzinədardan alıb gedirdi. Haram yeməklər ona o qədər təsir göstərmişdi ki, axırda pulu alarkən xəzinədarı tələsdirib onunla höcətləşirdi. Bir gün xəzinədar ona dedi: Nə üçün məni sıxma-boğmaya salırsan? Xəlifə bu pulu sənə hədiyyə verir. Sən bizə buğda satmırsan ki, əvəzini belə tələb edirsən? Şərik ibn Abdullah ona baxıb dedi: Sən nə danışırsan? Buğda nədir? Mən sizə imanımı satmışam. Mən sizə çox qiymətli şey satmışam."

Odur ki, əgər bir insan boğazından haram keçməsinə icazə versə, həmin haram tikələr onu imandan çıxarar. Çünki haram yeməyin xüsusiyyəti budur ki, yavaş-yavaş insanın ruhuna təsir göstərərək onun imanını da əlindən alır.

Bəziləri elə təsəvvür edirlər ki, haram işlərlə məşğul olarlarsa, o zaman gəlirləri də çoxalacaq. Hədislərdə belə nəql olunur ki, Allah-təala insanın ruzisini halal yolla təyin etmişdir. Əgər bir insan buna qane olmayıb haram gəlirin ardınca getsə, onun gəliri və qazancı haramdan əldə olunacaq.

Günlərin birində Həzrət Əli(ə) məscidə gəldi. Məscidin həyətində bir nəfəri görüb buyurdu: “Mənim atımı bir neçə dəqiqə saxla, indi gəlirəm. Həzrət Əli(ə) məscidə girən kimi, həmin şəxs atın noxtasını oğurlayıb qaçdı. Həzrət Əli(ə) məsciddən çıxıb gördü ki, at özbaşına qalıb və noxtası da yoxdur. Həzrət(ə) əlində iki dirhəm pul tutmuşdu ki, zəhmət haqqı kimi həmin şəxsə versin. İşin bu yerdə olduğunu görüb nökərini çağırdı, pulu ona verib buyurdu: Get yaxınlıqdakı bazardan at üçün bir noxta al. Nökər pulu alıb bazara getdi. Noxta satanların yanından keçərkən gördü ki, İmamın(ə) atının noxtası da oradadır. Noxtanı oğurlayan tez bazara qaçıb noxtanı orada satmışdı. Nökər iki dirhəmi verərək həmin noxtanı alıb gətirdi və dedi: Ya Əmirəlmöminin(ə), bu elə sənin atının noxtasıdır. Gördüm ki, bazarda satırlar. Atı tapşırdığın adam noxtanı aparıb iki dirhəmə bazarda satmışdı. Həzrət Əli(ə) buyurdu: Onun bugünkü ruzisi iki dirhəm idi. Allah-təala onun ruzisini halaldan təyin etmişdi. O, buna dözməyib noxtanı oğurladı və aparıb satdı. Bu işi görməklə ruzisini haram yolla əldə etdi. Onun gördüyü bu haram iş, halal ruzisinin kəsilməsinə səbəb oldu.”

# HARAM TİCARƏT

## Rüşvətxorluq

Rüşvətə ticarət demək olmasa da insanın haram gəlirinə aid olduğu üçün əgər bir insan öz gəlirinə və puluna rüşvət yolu ilə əldə olunmuş pulları qarışdırıb o mallardan istifadə etsə, haram iş görmüşdür. Yəni rüşvət qarışmış pul və malları yemək haramdır. Rüşvətxorluq həmin haramlar-

dandır ki, insanın nuraniyyətini aradan qaldırar və insanı insaniyyət mərhələsindən tənəzzülə sürükləyər. Rüşvət barədə həm Quran ayələri, həm də Peyğəmbər(s) və imamların hədisləri vardır. Qurani-Kərimin "Maidə" surəsinin 60-61-ci ayəsində münafiqlər barədə söz açıldıqdan sonra 62-ci ayədə belə buyurulur:

وَتَرَى كَثِيرًا مِّنْهُمْ يُسَارِعُونَ فِي الإِثْمِ وَالْعُدْوَانِ وَأَكْلِهِمُ السُّحْتَ لَبِئْسَ مَا كَانُواْ يَعْمَلُونَ

-Onların çoxunun günah etmək, (başqalarının hüququna) təcavüzkarlıq etməkdə və haram yeməkdə tələsdiklərini görürsən. Onların həmişə etdikləri çox pisdir!

Burada iki mətləbi qısaca da olsa şərh etməyə ehtiyac duyuruq. Həmin mətləblərdən biri ayədə işlənmiş "ism və üdvan" kəlmələridir. Əgər hər hansı bir ayədə təkcə "ism" kəlməsi işlənərsə, günah və küfr mənasını ifadə edir. Bu, insanın şəxsi günahıdır. Əgər "ism" kəlməsinin yanında "üdvan" kəlməsi də işlənirsə, deməli başqalarının hüququna da təcavüzkarlıq etmək mənasındadır. Bu ayədə Allah-təala münafiqlərin həm "ism"də, həm də "üdvan"da çalışıb günaha mürtəkib olduqlarını bəyan edir. Yəni onlar həm özlərinə, həm də başqalarına və cəmiyyətə aid olan günahları etməkdə səy göstərirlər.

Ayədə olan ikinci mətləb isə "suht" kəlməsi barədədir ki, onlar haram yeməklərdə tələsirlər. "Suht" kəlməsi ərəb dilində "ağacın qabığını soymağa" deyilir. İkinci mənası "haram qazanc"dır. Yəni insanın haram qazanc və gəliri yeməsinə "əkli-suht" - "haram yemək" deyilir. Haram gəlir və haram yeməyin bir növü də rüşvətdir. Sual oluna bilər ki, nə üçün haram gəlirə və rüşvətə ərəb dilində "suht" deyilir? Cavab belədir ki, ağacın qabığını soyduqda ağac öz təravət və gözəlliyini itirdiyi kimi, hər bir cəmiyyətdə də haram

gəlir və rüşvət rəvac taparsa, həmin cəmiyyət öz gözəlliyini, şərafətini, nuraniyyət və mənəviyyatını itirər. Belə olduqda həmin cəmiyyətin insanları qabığı soyulan ağac kimi yavaş-yavaş çürüməyə başlayar.

Təkcə lüğətdə deyil, Peyğəmbər(s) də “suht”un mənasını müxtəlif hədislərdə bizim üçün bəyan etmişdir. Nümunə üçün həmin hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): يَا عَلِيّ مِنَ السُّحتِ: ١. ثَمَنُ الْمَيتَة ٢.ثَمَنُ الكَلب ٣.ثَمَنُ الْخَمر ٤. وَ مَهرُ الزَّانِيَة ٥.وَالرُّشْوَةُ فِى الْحُكم

-Həzrət Peyğəmbər(s) buyurur: “Ya Əli, murdar olmuş heyvanın ətini satmaqla əldə olunmuş qazanc, it satmaqla əldə edilmiş qazanc, şərab satmaqla əldə olunmuş qazanc, zinakar qadının zina etdiyinə görə əldə etdiyi qazanc və hökm və hakimlikdə rüşvət yolu ilə əldə olunan qazanc “suht”dur (haram yeməklərdir.)”[1]

قَالَ الصَّادِقُ(ع): مِن اَكلِ السُّحتِ اَلرَّشوَةُ فِى الْحُكم

İmam Sadiq(ə) buyurur: “Hakimlik və mühakimədən əldə olunan rüşvət haram yeməklərdəndir.”[2]

Burada qeyd etmək lazımdır ki, rüşvətin bir neçə növü vardır. İmam Sadiq(ə) bu hədisdə onlardan birinə işarə edərək buyurur ki, əgər hakim rüşvət alırsa, haram iş görmüşdür və həmin pulu yeməsi də haramdır. Bu məsələni rüşvətin növləri barədə söhbət edərkən izah edəcəyik.

---

[1] Mizanül-hikmə, 5-ci cild, səh.2076.
[2] Mizanül-hikmə, 2-ci cild, səh.2076.

## Rüşvətxorluqdan çəkinmək lazımdır

Hədislərə diqqət yetirdikdə görürük ki, rüşvət barədə çox söhbətlər olunmuşdur. Rüşvətin pis və haram olduğu barədə yetərincə hədislər də mövcuddur. Bütün müsəlmanlara bu əməldən çəkinmək təkidlə bildirilmişdir.

قَالَ الصَّادِقُ(ع): اَلرَّشَاءُ فِى الْحُكم هُو الكُفرُ بِالله

İmam Sadiq(ə) buyurur: "Mühakimə zamanı rüşvət almaq Allaha küfr etməkdir."[1]

قَالَ رَسُولُ الله(ص): اِيَّاكُم وَ الرِّشوَة فَإِنَّهَا مَحضُ الكُفر وَلا يَشُمُّ صَاحِبُ الرَّشوَة رِيحَ الْجَنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: "Rüşvət almaqdan çəkinin ki, həqiqətən, o, xalis küfrdür. Rüşvətxor cənnətin ətrini duymayacaqdır." [2]

قَالَ رَسُولُ الله(ص): لَعَن اللهُ الرّاشِى وَ الْمُرتَشِى وَ الرَّائِشَ الَّذِى يَمشِى بَينَـهُما

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah rüşvət verənə, rüşvət alana və onların arasında vasitəçi olana lənət etsin."[3]

## Rüşvətin növləri

---
[1] Mizanül-hikmə, 2-ci cild, səh.2076.
[2] Mizanül-hikmə, 2-ci cild, səh.2076.
[3] Mizanül-hikmə, 2-ci cild, səh.2076.

Yuxarıda qeyd olunan hədislərdə rüşvət barədə heç bir qaranlıq yer qoyulmayıb. Yəni Peyğəmbər(s) və imamlar açıq-aydın şəkildə hədislərlə rüşvətin haram, çirkin və pis əməl olduğunu bəyan etmişlər. Burada çox yaxşı olar ki, rüşvətin növləri ilə də tanış olaq. Qeyd olunduğu kimi, rüşvət üç növdən ibarətdir. Onun iki növü haram, bir növü isə halaldır.

## 1.Mühakimə zamanı alınan və verilən rüşvət

Rüşvətin birinci növü mühakimə zamanı hakimə verilən rüşvətdir ki, onu verən məsələni öz xeyrinə həll etmək istəyir. Məsələn, bir nəfərin işi məhkəməyə düşür. Onun taleyi hakimin əlindədir. Aparıb hakimə rüşvət verməklə boynundakı cinayətin üstünü ört-basdır etmək istəyir. Əgər hakim hökmü dəyişərsə, yaxud özü bu işi görməsə və həmin cinayətkara bu işin yolunu öyrətsə, bunun müqabilində aldığı pul rüşvətdir. Yəni hakimin nahaq insanı haqq çıxarmaq üçün ondan aldığı pul rüşvətdir və bu işi görməklə o, Allaha küfr etmişdir.

## 2.Haram işlərə yol tapmaq üçün alınan və verilən rüşvət

Rüşvətin ikinci növü budur ki, insan hakimə və yaxud vəzifəli bir şəxsə rüşvət verir. Rüşvətin bu növü hamıya aydındır. Rüşvət alan kəs də həmin insanın haram işlər gördüyünü bilir, lakin özünü görməməzliyə vurur. Cəmiyyətdə belə xəstəliklərə tez-tez rast gəlmək olur. Hamı bilir ki, yuxarıda oturanları baxım-görüm etməklə istədiyi haramlara yol tapmaq günah və haram işdir. Bu həmin məsələdir ki, Allah-təala “Bəqərə” surəsinin 188-ci ayəsində belə buyurur:

وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقًا
مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ

-Mallarınızı öz aranızda haqsız yerə yeməyin və camaatın mallarının bir qismini günah və haqsız yolla yemək üçün (əməlinizin haram olmasını) bilə-bilə onu (rüşvət kimi) hakimlərə tərəf yönəltməyin.

### 3. Halal rüşvət

Rüşvətin üçüncü yolu ilə bağlı bəzi hallar vardır ki, bu zaman halal sayılır. Bu o haldadır ki, insan öz haqqına nail olmaq üçün rüşvət verir. Əgər belə bir şərait qarşıya çıxsa, insan öz haqqına və hüququna çatmaq üçün ona kömək edə biləcək şəxsə pul verə bilər. Əgər haqqından və hüququndan artığını əldə etmək istəsə bu haramdır. Yaxud bir nəfər bir insana zülm edir. Zülm olunan şəxs bu zülmdən qurtarmaq üçün başqa imkanlı bir insana pul verməklə özünü həmin zülmdən xilas edir. Yəni başqa bir insanın köməyi nəticəsində bir zalımın zülmündən xilas olmaq üçün ona pul verə bilər.

Bir nəfər İmam Sadiqdən(ə) soruşdu: "Ey Allahın höccəti, mənim bir yaxın və hörmətli dostum bir məclisə daxil olur. Mən istəmirəm ki, o, aşağı tərəfdə əyləşsin. Yuxarıda əyləşənlərdən birinin cibinə müəyyən məbləğ basıram ki, yerini həmin dostuma versin. O da mənimlə razılaşıb ayağa qalxır və dostum gəlib orada əyləşir. Belə bir iş görməyim düzgündürmü? İmam(ə) buyurdu: Bu işin heç bir eybi yoxdur."

Sonra İmam Sadiq(ə) qeyd edərək buyurur ki, rüşvətin bu növü məkruhdur. Çünki belə rüşvət almaq insanın rüşvətxorluğa adət etməsinə səbəb olar.

Burada qeyd etmək lazımdır ki, insan yaxşı olar rüşvətin bu növündən də çəkinsin. Əgər insan bu işləri görməsə, canı daha rahat olar və kiminsə yanında üzüqara qalmaz. Həm də insan buna öyrəşdikcə yavaş-yavaş həmin işə adət edər.

## Rüşvətlə hədiyyənin fərqi

Cəmiyyətdə bir növ belə bir xəstəlik yaranmışdır ki, bəzən insanlar bir-birinə rüşvəti hədiyyə adı ilə verirlər. Sual oluna bilər ki, hədiyyə verməklə rüşvətin fərqi nədədir? Alimlər hədiyyə verib-almağı dörd qismə ayırmışlar. Burada yaxşı olar ki, hədiyyənin həmin qisimləri ilə tanış olaq.

1.Hədiyyə verməyin birinci qismi budur ki, insan dostluğu, ünsiyyət və məhəbbəti daha da möhkəmləndirmək məqsədi ilə öz dostuna hədiyyə aparır. Burada fərqi yoxdur ki, insan savab niyyət etmiş olsun, yaxud etməmiş olsun. Əgər savab niyyət edərsə, Allaha xatir deyib hədiyyə apararsa, həm dostluğunu və ünsiyyətini möhkəmləndirmiş olur, həm də Allah-təala həmin şəxsə əcr və savab verər. Yox, əgər yalnız dostluq naminə hədiyyə aparırsa və niyyət etmirsə, bunun da heç bir eybi yoxdur. Yəni haram iş görməmişdir. Axirət niyyəti etmədiyi üçün sadəcə savab qazanmır və günahı da yoxdur. Bu hədiyyə vermək növü halal və məqbuldur.

2.Hədiyyə verməyin ikinci qismi budur ki, insan hədiyyəni bu məqsədlə aparır ki, tərəf müqabili onun qarşılığında ona daha çox hədiyyə vermiş olsun. Bu məqsədlə hədiyyə aparmağın da heç bir haramçılığı yoxdur. Həm bu hədiyyəni vermək halaldır, həm də onun bərabərində daha çox hədiyyə vermək də halaldır. Burada bir incəliyi də qeyd etmək yerinə düşər. Məsələn, bir nəfər bu məqsədlə birinə hədiyyə verir. Hədiyyəni alan onun qarşılığında heç bir şey vermir. Bunun da heç bir eybi yoxdur. Çünki hədiyyəni alan verənə onun üçün hədiyyə gətirməsini xahiş etməyib. Aldığı az hədiyyənin qarşılığında çox hədiyyə verməyə də bilər. Amma yaxşı olar ki,

hədiyyəni alan ona imkan daxilində daha çox hədiyyə versin. Bu onun haqqıdır. İstəsə verə bilər, istəməsə də verməz.

İshaq ibn Əmmar İmam Sadiqdən(ə) soruşdu: “Bir nəfər kasıb adam mənə hədiyyə gətirir. Onun mənə hədiyyə verməkdə məqsədi budur ki, mən bunun əvəzində ona daha artıq hədiyyə verim. Mən həmin hədiyyəni ondan alıram, amma əvəzində heç bir şey vermirəm. Bu hədiyyə mənə halaldırmı? İmam(ə) buyurdu: Bəli, halaldır. Amma yaxşı olar ki, onun əvəzində sən də ona bir şey verəsən.”

3.Hədiyyənin üçüncü qismi budur ki, insan hansısa problemini həll etmək üçün və hədiyyə verdiyi insandan bu işdə ona kömək etməsi üçün hədiyyə verir. Belə bir hədiyyəni almağın iki növü vardır. Birincisi budur ki, həmin şəxsin problemi və nail olmaq istədiyi məsələ halaldırsa, həmin hədiyyəni ondan alıb işini yoluna qoymağın eybi yoxdur. İkinci növü isə budur ki, hədiyyə verənin düzələcək işi haram və nahaq olarsa, həmin hədiyyəni almaq da haramdır. Belə bir hədiyyəni həm almaq, həm də həmin insana nahaq işdə kömək etmək haramdır.

4.Hədiyyə alıb verməyin dördüncü qisminə gəldikdə isə haram və qeyri-məqbuldur. Təəssüflər olsun ki, cəmiyyətdə bu halların çox tez-tez baş verdiyinin şahidi oluruq. Məsələn, vəzifədə işləyən bir insanın nəzərini cəlb etmək və özünü ona yaxınlaşdırmaq, bundan istifadə etmək üçün verilən hədiyyə bu qisim hədiyyədir. Əgər həmin şəxs vəzifədə olmasaydı, onun üçün hədiyyə də aparılmayacaqdı. Belə ki, vəzifədə olduğu zaman onun üçün apardığı hədiyyəni vəzifədən kənarlaşdırıldıqdan sonra aparmazdı. Belə hədiyyələrin hamısı haram və qeyri-məqbuldur.

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “İnsanlar üçün bir zaman gələr ki, haram və rüşvəti hədiyyə adı ilə halal hesab edərlər.”

Həzrət Peyğəmbər(s) bir nəfəri zəkat yığmaq üçün Əzd qəbiləsinə göndərdi. Əzd qəbiləsi zəkatlarını yığıb hazır saxlamışdılar. Peyğəmbər(s) həmin şəxsə buyurdu: “O qəbilənin yanına get, zəkat verənlərin siyahısını və verdiklərini bir-bir yaz və mənə gətir.” Həmin şəxs Əzd qəbiləsinə getdi. Camaat Peyğəmbərin(s) nümayəndəsinin gəldiyini eşidib onun ətrafına toplaşdı. Bəzisi onun üçün müxtəlif hədiyyələr də gətirdi. O, camaatdan zəkatı alıb bir-bir adlarını yazdı. Sonra həmin hədiyyələri də götürüb Peyğəmbərin(s) hüzuruna gəldi. Camaatın ona verdiyi hədiyyələri isə ayırıb bir tərəfə yığdı.

Peyğəmbər(s) buyurdu: “Bunlar nədir?

O dedi: Ya Rəsulallah, bunlar həmin camaatın zəkatdan əlavə, şəxsən mənə verdiyi hədiyyələrdir.

Həzrət Peyğəmbər(s) buyurdu: Əgər mən səni nümayəndə göndərməsəydim və sən atanın evində əyləşdiyin halda yenə də sənə bu hədiyyələri verərdilərmi?

O dedi: Xeyr

Həzrət Peyğəmbər(s) buyurdu: Elə isə bunlar sənin deyil. Bütün bunların hamısı beytülmalındır.”

Sonra Peyğəmbər(s) belə buyurdu: “And olsun Allaha, hər kəs camaatdan haqsız yerə bir şey alsa, qiyamət günü onların hamısına cavabdehdir.”

قَالَ عَلِيّ(ع): وَاللهِ لَأَنْ أَبِيتَ عَلَى حَسَكِ السَّعْدَانِ مُسَهَّداً، أَوْ أُجَرَّ فِي الْأَغْلاَلِ مُصَفَّداً، أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أَلْقَى اللهَ وَرَسُولَهُ يَوْمَ الْقِيَامَةِ ظَالِماً لِبَعْضِ الْعِبَادِ، وَغَاصِباً لِشَيْءٍ مِنَ الْحُطَامِ، وَكَيْفَ أَظْلِمُ أَحَداً لِنَفْسٍ يُسْرِعُ إِلَى الْبِلَى قُفُولُهَا، وَيَطُولُ فِي الثَّرَى حُلُولُهَا

-Həzrət Əli(ə) buyurur: “And olsun Allaha ki, gecəni *(iti tikanları olan)* dəvətikanının üstündə oyaq keçirməyim və

*(əl, ayaq və boynumun)* zəncirlə bağlanaraq öldürülməyim, mənim üçün qiyamət günü Allah və Peyğəmbərə, bəndələrin bəzilərinə zülm edib dünya malından bir şey qəsb etmiş halda qovuşmaqdan daha xoşdur. Sürətlə köhnəlməyə və çürüməyə doğru gedən *(cavanlıq və güclülüyü çox tez qocalıq və zəifliklə əvəz olan)* və torpaq altında qalması uzun çəkəcək nəfsə görə kiməsə necə zülm edim?!”[1]

وَاللهِ لَقَدْ رَأَيْتُ عَقِيلاً وَقَدْ أَمْلَقَ حَتَّى اسْتَماحَنِي مِنْ بُرِّكُمْ صَاعاً، وَرَأَيْتُ صِبْيَانَهُ شُعْثَ الشُّعُورِ، غُبْرَ الأَلْوَانِ، مِنْ فَقْرِهِمْ، كَأَنَّمَا سُوِّدَتْ وُجُوهُهُمْ بِالْعِظْلِمِ، وَعَاوَدَنِي مُؤَكِّداً، وَكَرَّرَ عَلَيَّ الْقَوْلَ مُرَدِّداً، فَأَصْغَيْتُ إِلَيْهِ سَمْعِي، فَظَنَّ أَنِّي أَبِيعُهُ دِينِي، وَأَتَّبِعُ قِيَادَهُ، مُفَارِقاً طَرِيقِي، فَأَحْمَيْتُ لَهُ حَدِيدَةً، ثُمَّ أَدْنَيْتُهَا مِنْ جِسْمِهِ لِيَعْتَبِرَ بِهَا، فَضَجَّ ضَجِيجَ ذِي دَنَف مِنْ أَلَمِهَا، وَكَادَ أَنْ يَحْتَرِقَ مِنْ مِيسَمِهَا، فَقُلْتُ لَهُ: ثَكِلَتْكَ الثَّوَاكِلُ، يَا عَقِيلُ! أَتَئِنُّ مِنْ حَدِيدَة أَحْمَاهَا إِنْسَانُهَا لِلَعِبِهِ، وَتَجُرُّنِي إِلَى نَار سَجَرَهَا جَبَّارُهَا لِغَضَبِهِ! أَتَئِنُّ مِنَ الاَذَى وَلاَ أَئِنُّ مِنْ لَظىً؟!

-And olsun Allaha, *(qardaşım)* Əqili çox yoxsul və pərişan halda gördüm və məndən sizin buğdanızdan *(beytülmaldan)* bir batman istədi. Həmçinin onun uşaqlarını qəm-qüssədən tutqun rəngdə, toz-torpaqlı saçlarla gördüm, sanki üzləri mavi rənglə *(indiqo ilə)* qaraldılmışdı. Əqil öz istəyində təkid edərək sözünü təkrar edirdi və mən onun

---

[1] Nəhcül-bəlağə, 215-ci xütbə.

söhbətinə qulaq asırdım. Güman edirdi ki, mən öz dinimi ona sataraq öz yolumdan əl götürüb onun arxasınca gedəcəyəm *(hər nə desə yerinə yetirəcəyəm)*. Buna görə də onun üçün bir dəmir parçası qızdırıb bədəninə yaxınlaşdırdım ki, ibrət götürsün. O, qızarmış dəmir parçasının ağrısından xəstənin nalə etməsi kimi nalə edib fəryad qopardı və az qalmışdı ki, yansın. Ona dedim: Ey Əqil, analar matəmində ağlasınlar! İnsanın oynamaq üçün qızdırdığı dəmir parçasından nalə qoparırsan, amma məni qüdrətli Allahın qəzəbindən yandırdığı oda tərəf çəkirsən? Sən bu *(az)* əziyyətə görə nalə qoparırsan, amma mən cəhənnəm odundan fəryad qoparmayım?!

وَأَعْجَبُ مِنْ ذلِكَ طَارِقٌ طَرَقَنَا بِمَلْفوفَة فِي وِعَائِهَا، وَمَعْجُونَة شَنِئْتُهَا، كَأَنَّمَا عُجِنَتْ بِريقِ حَيَّة أَوْ قَيْئِهَا، فَقُلْتُ: أَصِلَةٌ، أَمْ زَكَاةٌ، أَمْ صَدَقَةٌ؟ فَذلِكَ مُحَرَّمٌ عَلَيْنَا أَهْلَ الْبَيْتِ. فَقَالَ: لاَ ذَا وَلاَ ذَاكَ، وَلكِنَّهَا هَدِيَّةٌ، فَقُلْتُ: هَبِلَتْكَ الْهَبُولُ. أَعَنْ دِينِ اللهِ أَتَيْتَنِي لِتَخْدَعَنِي؟ أَمُخْتَبِطٌ أَنْتَ أَمْ ذُوجِنَّة، أَمْ تَهْجُرُ؟ وَاللهِ لَوْ أُعْطِيتُ الأَقَالِيمَ السَّبْعَةَ بِمَا تَحْتَ أَفْلاَكِهَا، عَلَى أَنْ أَعْصِيَ اللهَ فِي نَمْلَة أَسْلُبُهَا جِلْبَ شَعِيرَة مَا فَعَلْتُهُ، وَإِنَّ دُنْيَاكُمْ عِنْدِي لاَهْوَنُ مِنْ وَرَقَة فِي فَمِ جَرَادَة تَقْضَمُهَا، مَا لِعَلِيّ وَلِنَعِيم يَفْنَى، وَلَذَّة لاَ تَبْقَى. نَعُوذُ بِاللهِ مِنْ سُبَاتِ الْعَقْلِ، وَقُبْحِ الزَّلَلِ، وَبِهِ نَسْتَعِينُ.

-Əqilin əhvalatından daha təəccüblüsü bir şəxsin[1] axşam, ağzıbağlı qabdakı hədiyyə ilə və nifrət edib barəsində bədbin olduğum, sanki ilanın tüpürcəyi və ya qusmağı ilə qatışdırılmış halva ilə yanımıza gəlməsidir. Ona dedim: Bu hədiyyədir, zəkatdır, yoxsa sədəqə? Zəkat ilə sədəqə biz əhli-beytə haramdır. Dedi: Sədəqə və zəkat deyil, hədiyyədir. *(Bu hədiyyəni gətirməkdə məqsədi batil olduğu və əslində onun hədiyyə adlandırdığı şey rüşvət olduğu üçün)* dedim: Anan matəmində ağlasın. Məni Allahın dininin yolu ilə gəlib aldadırsan? *(Məni bu yolla aldatmaq istədiyini)* dərk edib anlamırsan, yoxsa dəlisən və yaxud boş-boş danışırsan? Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlk edim, etmərəm. Həqiqətən, sizin dünyanız mənim yanımda çəyirtgənin ağzında çeynədiyi yarpaqdan da ucuz və dəyərsizdir. Əlinin əldən çıxan nemət və qalmayacaq ləzzətlə nə işi? Ağlın yuxuya getməsindən *(və onun dünyanın fitnə-fəsadlarını başa düşməkdən xəbərsiz qalmasından)* və sürüşmənin (və azğınlığın) çirkinliyindən Allaha pənah aparıram və (bütün hallarda) ancaq Ondan kömək diləyirəm.

Günlərin birində Həzrət Peyğəmbərə(s) xəbər verdilər ki, filan məntəqəyə təyin etdiyi vali camaatın verdiyi hədiyyələri qəbul edir. Peyğəmbər(s) onu çağırtdırıb buyurdu: "Sənin haqqın çatmadığı halda camaatın sənə verdiklərini hansı haqla qəbul edirsən?"

O dedi: "Ya Rəsulallah, mən rüşvət almamışam. Onları mənə hədiyyə gətirmişdilər."

---

[1] *Münafiq, ikiüzlü və İmam əleyhissalamın düşmənlərindən olan və Həzrətin(ə) də düşmən bildiyi Əşəs ibn Qeys nəzərdə tutulur.*

Peyğəmbər(s) buyurdu: “Əgər mən səni nümayəndə göndərməsəydim və sən atanın evində əyləşdiyin halda həmin camaat yenə də sənə bu hədiyyələri verərdilərmi?”

Sonra Peyğəmbər(s) göstəriş verdi ki, camaatın ona verdiklərini əlindən alsınlar. Camaatın verdiklərini ondan alıb beytülmala qoydular. Həzrət Peyğəmbər(s) onu işdən azad etdi.

# HARAM TİCARƏT

## Sələmçilik

Haram ticarət və alverlərdən biri də sələmçilikdir. Sələmçiliklə əldə olunan pulları yemək də haramdır. Sələmə ərəb dilində “riba” deyilir. Riba İslam aləmində ən böyük günahlardan biridir. İslamdan öncə də camaat arasında sələmçilik var idi.

Vill Durant Amerika yazıçılarından biridir. O, mədəniyyət və tarixlə bağlı 22 cildlik bir kitab yazmışdır. Həmin kitabda müxtəlif millətlərin mədəniyyətindən müfəssəl məlumatlar verilmişdir. O deyir: “Hətta İsa Məsihin miladından 4000 il əvvəl belə ildə 15%-dən 30%-ə dək camaat arasında sələmçilik işləri var imiş.”

Bütün dinlər sələmçiliyin haram olduğunu bəyan etmişlər. Məsələn, Allah-təala Tövratın 22-ci fəslinin 15-ci ayəsində belə buyurur: “Malınızdan Mənim bəndələrimə borc verdikdə onlarla sələmxorlar kimi rəftar etməyin və verdiyiniz borcun qarşılığında fayda almayın. (Borcun qarşılığında alınan mənfəət sələmdir.)”

İncildə də sələmçilik mütləq şəkildə haram buyurulmuşdur. İncilin (Luqa) 6-cı fəslinin 34-cü ayəsində belə

buyurulur: “Borc verdiyin zaman həmin borcun qarşılığında mənfəət umma və ondan xeyir götürmə. Belə (faizlə) borc vermək heç vaxt fəzilətə səbəb olmaz. Elə isə yaxşı işlər görün, borc verin, amma həmin borcun qarşılığında xeyir ummayın. Belə olduqda çoxlu savaba nail olacaqsınız.”

İslamda borc verməyin çox böyük savabı var. İnşallah, gələn bəhslərimizdə bu barədə ətraflı söz açacağıq. Acından ölənin birinə bir qarın yemək verməyin savabı çox olduğu kimi, birinə də müəyyən müddətə borc verməyin savabı ondan yetmiş bərabər çoxdur. Çünki birinə əvəzsiz yardım göstərmək yardım göstərilənin şəxsiyyətini aşağı salar və insanı tənbəlləşdirər. Amma müəyyən müddətə borc vermək insanın şəxsiyyətini sındırmaz. Belə deyil ki, yalnız kasıblar varlılardan borc alırlar. Xeyr, belə məqamlar da ola bilir ki, pullu insan pulludan borc alır. Məsələn, bir nəfər varlı insan evdən çıxır və uzaq bir səfərdə yadına düşür ki, evdən lazımınca pul götürməyib. Orada tanıdığı adamlardan evə qayıdana qədər müəyyən məbləğdə pul alır. Borc elə bir şeydir ki, insanın ehtiyacı üzündən irəli gəlir və mənası onun yoxsulluğuna dəlalət etmir.

Odur ki, insan birinə borc verdikdə onun həmin şəxsdən əvəzində xeyir və mənfəət götürməsi sələmdir. Əgər insan birinə qarşılıqsız və faizsiz borc verərsə, bunun savabı daha çoxdur.

## İslamda sələmçiliklə mübarizə

Sələmçilik bütün dinlərdə haram olduğu kimi, İslamda da bu əməlin haram olduğu bəyan edilmişdir. İslam dini zühur edən zaman və Həzrət Məhəmməd(s) peyğəmbərliyə təyin olunanda sələmçiliklə ən çox məşğul olanlar da ərəblər

idilər. Tarixçilər yazırlar ki, İslam dini zühur edən zaman həmin ölkədə sələmçilər çox idi.

Qeyd olunmalıdır ki, İslam dininin fasid, fasiq, pis və çirkin əməllərə qarşı xüsusi mübarizə üslubu vardır. Camaatın içində kök salmış pis adət-ənənələrlə xüsusi üslubda mübarizə edirdi. Yəni bəzi işlər var idi ki, İslam dini onları birdən-birə qadağan etmədi. Mərhələ-mərhələ camaatı bu işlərin pis olduğuna hazırladıqdan sonra məsələnin qadağan olduğunu bəyan edirdi. Bütpərəstlik kimi bəzi məsələləri birdəfəlik qadağan etmiş, bir sıra məsələləri isə mərhələ-mərhələ aradan qaldırmağa səy göstərmişdir. Yəni bütpərəstlik məsələsində zərrə qədər də olsun güzəştə yol verməmişdir. Amma şərab, qul alıb satmaq və bu kimi bəzi məsələləri birdən-birə deyil, addım-addım hər bir mərhələyə uyğun olaraq qadağan etmişdir.

Sələmçilik də bu məsələlərdəndir ki, İslam dini zühur etdikdən sonra mərhələ-mərhələ onu qadağan etdi. Çünki sələmçilik məsələsi həm ərəblərin, həm də başqa xalqların arasında dərin kök atmışdı. Bunun üçün Peyğəmbər(s) Allahın göstərişi ilə və müəyyən mərhələlərlə bu sahədə mübarizəyə başladı.

Birinci mərhələdə Peyğəmbər(s) camaatı moizə, öyüd-nəsihət edərək bu işin çirkin olduğunu onlara aşılayırdı. İstəyirdi ki, ilk növbədə bu məsələnin pisliyini qulaqlara çatdırsın. Allah-təala “Rum” surəsinin 39-cu ayəsində belə buyurur:

وَمَا آتَيْتُم مِّن رِّبًا لِّيَرْبُوَ فِي أَمْوَالِ النَّاسِ فَلَا يَرْبُو عِندَ اللَّهِ وَمَا آتَيْتُم مِّن زَكَاةٍ تُرِيدُونَ وَجْهَ اللَّهِ فَأُوْلَئِكَ هُمُ الْمُضْعِفُونَ

-Xalqın var-dövləti hesabına sərvətinizin artması üçün başqasına sələmlə verdiyiniz mal Allahın yanında artmaz və zəkatdan Allahın razılığını diləyərək verdiyinizdən isə

(mənfəət götürəcəksiniz). Bunu edənlər mənfəətlərini qat-qat artıranlardır.

Həzrət Peyğəmbər(s) bu ayəni camaat üçün oxuduqda istər-istəməz belə bir sual yaranırdı. Görəsən, necə ola bilər ki, insan öz malından zəkat verməklə malı arta bilir, amma sələm verdikdə insanın malı artmır? İnsanlarda bu kimi suallar yarandıqdan sonra Peyğəmbər(s) onları başa salırdı ki, siz elə təsəvvür edirsiniz sələmçiliklə məşğul olmaq mal-dövlətinizi artırar. Bu sizin ağlınıza gələn təsəvvürdən başqa bir şey deyildir. Əsla bu iş sizin sərvətinizi Allahın yanında artırmaz. Əsl həqiqət budur ki, siz yalnız zəkat verməklə Allahın razılığını əldə edər və verdiyiniz zəkatdan qat-qat artıq mənfəət əldə edə bilərsiniz. İlkin mərhələdə Allah-təala sələmdən söz açır, onun faydasız bir şey olduğunu bəyan edir və zəkatın mənfəətli bir şey olması ilə camaatı tanış edir.

İkinci mərhələdə isə yəhudiləri bir neçə məsələdə tənqid etdikdən sonra onların sələmçilik məsələsinə toxunaraq belə buyurur:

وَأَخْذِهِمُ الرِّبَا وَقَدْ نُهُواْ عَنْهُ وَأَكْلِهِمْ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ مِنْهُمْ عَذَابًا أَلِيمًا

-Eləcə də çəkindirilmələrinə baxmayaraq, sələm aldıqlarına və camaatın mallarını boş və nahaq yerə yemələrinə görə (həmin halal şeyləri onlara haram etdik). Biz onların kafirlərinə ağrılı bir əzab hazırlamışıq.[1]

Sələmçilik yəhudilərin ən pis adətlərindən biri idi ki, onlar bu işlə məşğul olurdular. Bu mərhələdə birinci

[1] Nisa,161.

mərhələdəki söhbətdən bir addım irəli keçir və bu işin çirkin olduğunu bir daha bəyan edir.

Üçüncü mərhələdə isə sələm məsələsini açıb qarşıya qoyur və onun bir növünü qətiyyətlə haram edir. Bununla camaata sələmin pozğun və çirkin bir iş olduğunu açıq şəkildə bəyan edərək "Ali-İmran" surəsinin 130-cu ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ الرِّبَا أَضْعَافًا مُّضَاعَفَةً وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Ey iman gətirənlər, artıq və bir neçə qat gəliri olan sələmi yeməyin və Allahdan qorxun, bəlkə nicat tapasınız.

Bu ayədə Allah-təala möminlərə xitab etdikdən sonra bu işin pis olduğunu bəyan edir, eyni zamanda artıq və bir neçə qat artıq olan sələmi yeməkdən çəkindirir. Artıq və bir neçə qat artıq sözünün mənasını daha aydın başa düşmək üçün bir misal çəkək. Məsələn, bir nəfər digərindən 1000 manat borc pul istəyir. Borc verən şəxs bu pulun qarşılığında ondan ayda 100 manat pul istəyir. Borc alan şəxs 1000 manat öz yerində qalmaq şərtilə əlavə olaraq ona ayda 100 manat verir. Yəni həmin min manatın faizini (sələmini) ödəyir. İş bu yerə çatır ki, beş ay həmin pulun faizini ödəyə bilmir. Sələmçi ona deyir: 1000 manat öz yerində qalmaqla, səndən əlavə olaraq 500 manat tələbim var. Səndə qalan əlavə 500 manatın da faizini ödəməlisən. Deməli, mənim səndə 1500 manat pulum var və sən hər ay mənə 150 manat faiz verməlisən. Əgər həmin şəxs yenə də beş ay pulu ödəyə bilmədikdə sələmçi ona deyir: İndi ki, pulu çatdıra bilmədin, mənim səndə artıq 2250 manat pulum var. Bu pulun faizi hər ay 225 manat edir. Sən gərək 2250 manat öz yerində qalmaqla əlavə olaraq hər ay mənə 225 manat faiz pul verəsən. Sələmçi bu hərəkəti ilə sələm verdiyi şəxsi hərtərəfli sıxır və pulunu ondan beləcə

alır. Yəni həm sərmayənin əslindən yeyir, həm də ondan gələn faizin üstünə faiz qoyub ondan alır. Quranın buyurduğu "artıq və bir neçə qat gəlir olan sələm" buna deyilir.

Sələmçi bu hərəkəti ilə sələm verdiyi insanı beləcə müflis edir və axırda məhkəmə yolu ilə ev-eşiyini də əlindən alır.

Sələmçilərin birindən soruşdular: "Siz sələm yeyənlərin ən çox sevindiyiniz vaxt hansı vaxtlardır? O dedi: Biz sələm verdikdə və həmin adam pulu qaytara bilmədikdə onun üstünə faiz gəlir. Bizə olan borcu o qədər çoxalır ki, daha qaytara bilmir. Onu məhkəməyə verib ev-eşiyini əlindən alırıq. Qış vaxtı onun arvad-uşaqlarının çöldə evsiz-eşiksiz soyuğun altında titrədiklərini gördükdə çox sevinirik. Onların pulumuzu qaytarmadıqda isə cəzalanmalarından daha çox xoşhal oluruq."

Sələmçilik çox pis işlərdən biridir. Allah-təala sələmi haram etmişdir. Bu elə bir böyük günahdır ki, Allah-təala Quranda şirkdən sonra sələmi önə çəkir və onun daha da pis bir iş olduğunu bəyan edir. Sələmçilik elə bir şeydir ki, bütün cəmiyyəti müflis və fasid edir.

Dördüncü mərhələdə isə sələmçilyin Allaha qarşı müharibə etmək olduğunu bəyan edir. Yəni hər kəs borc verib onun faizini istəsə, yəni sələmçilik etsə, bu insan Allah və Peyğəmbəri(s) ilə müharibə etməyə hazırlaşsın. Bu barədə "Bəqərə" surəsinin 275-ci ayəsində belə oxuyuruq:

الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لاَ يَقُومُونَ إِلاَّ كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ مِنَ الْمَسِّ ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ إِنَّمَا الْبَيْعُ مِثْلُ الرِّبَا وَأَحَلَّ اللّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا

-Sələm yeyən kəslərin (insanlar arasındakı) duruş və rəftarları şeytanın toxunaraq dəli etdiyi (davranışının

tarazlığını pozduğu) kəsin rəftarı kimidir. Bu onların "şübhəsiz, alış-veriş də sələm kimidir" demələrinə görədir. Halbuki Allah alış-verişi halal, sələmi isə haram etmişdir.

Bu ayədə sələm yeyən insanların rəftarının dəli insanların rəftarı kimi olduğunu bəyan edir. Əlbəttə, bu ayə barədə iki məna vardır ki, hər ikisi düzgün və yerli-yerindədir.

Onlardan biri budur ki, sələm yeyən kəslərin insanlar arasındakı duruşu və rəftarı şeytanın dəli etdiyi, davranışının tarazlığının pozulduğu, xeyir və şəri anlamayan adamın rəftarı kimidir. Bu adamlar xeyir və ziyanı, müsbət və mənfi işləri bir-birindən ayırd edə bilmirlər. Zahirdə qazandıqları mənfəətin onların xeyrinə olduğunu zənn edirlər, amma əsl həqiqətdə belə olmadığını anlamırlar.

قَالَ الصَّادِقُ(ع): آكِلُ الرِّبَا لا يَخْرُج مِنَ الدُّنيَا حَتَّى يَتَخَبَّطُهُ الشّيطَان

-İmam Sadiq(ə) buyurur: "Sələm yeyən yalnız şeytan onu dəli etdikdən sonra dünyadan köçər. (Yəni dünyada dəli insanlar kimi olub öz xeyirlərini anlamazlar.)"[1]

İkinci mənası isə budur ki, sələm yeyən insanlar qiyamət günü heç bir vaxt yol yeriyə bilməyəcəklər. Onlar ayağa qalxıb yerimək istədikdə gəzə bilməyib yerə yıxılacaqlar. Yəni Allah-təala qiyamət günü sələm yeyənləri bu halda məhşərə gətirəcək.

Həzrət Peyğəmbər(s) buyurur: "Meraca gedərkən müxtəlif dəstələrdən olan insanları gördüm. Həmin dəstələrdən birinin insanlarının qarnı o qədər böyük idi ki, yol yerimək üçün nə qədər çalışıb ayağa qalxmaq istədikdə

[1] Təfsiri-nümunə, 2-ci cild, səh.366.

yenə də yerə yapışırdılar. Cəbrayıldan(ə) soruşdum: Bunlar kimdir belə: Buyurdu: Bunlar sələm yeyənlərdir.”[1]

Açıq-aydın şəkildə görürük ki, Allah-təala sələmi haram edib və insanlara bu işdən çəkinməyi əmr edir. İlkin mərhələlərdə camaatın fikrini sələmçiliyin pis olduğuna tərəf yönəltdikdən sonra bu işi qəti olaraq qadağan edir. Yəni insanlar bu işin çirkin, pozğun və murdar bir əməl olduğunu camaata aşıladıqdan sonra “Bəqərə” surəsinin 278-ci ayəsində qətiyyətlə belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَذَرُواْ مَا بَقِيَ مِنَ الرِّبَا إِن كُنتُم مُّؤْمِنِينَ.

-Ey iman gətirənlər, Allahdan qorxun və əgər imanınız varsa, sələmin qalanından (sərmayədən artıq aldığınız miqdardan) əl çəkin.

Bu ayədə sələmçiliyi qəti şəkildə haram edir və bundan sonra heç bir kəsin sələm yeməyə ixtiyarı olmadığını bildirir. Deməli, hər kəs borc pul verib üstündə faiz alırsa, bu haramdır. Hər kəs sələmdən nə qədər pul götürürsə, hamısı haramdır və gərək aparıb qaytarsın. Sələmi yeyənin tövbəsi o zaman qəbul olar ki, aldığı bütün faizləri aparıb sahiblərinə qaytarsın.

“Bəqərə” surəsinin 278-ci ayəsi nazil olduqdan sonra Peyğəmbər(s) buyurdu: “Bu günə qədər hər kim sələmdən faiz alıbsa, onlar bağışlandı. Lakin bu saatdan sonra heç kəsin ixtiyarı yoxdur ki, sələm yesin və hər kimdə sələm pulu qalıbsa, onu almağa, tələb etməyə haqqı yoxdur. Verdiyi borcu ala bilər, amma faizini götürə bilməz. Sələm götürənlər də bunun faizini heç kəsə verməməlidir.” Sonra Peyğəmbər(s) belə buyurdu: “Cahillik dövründə verilən və alınan sələmlər ötüb keçdi. Bundan sonra kimin sələmdən

[1] Təfsiri-nümunə, 2-ci cild, səh.366.

tələbi varsa, onların hamısını ləğv etdim. Sələm tələbini götürdüyüm (faizini almağı qadağan etdiyim) ilk şəxs Abbas ibn Əbdülmüttəlibdir.”

Yəni Peyğəmbər(s) ilk növbədə bu qadağanı öz qohum-əqrəbasından başladı. Onun əmisi də cahillik dövründə sələmçiliklə məşğul idi. Bu ayə nazil olduqdan sonra Peyğəmbər(s) ilk olaraq bunu əmisi Abbasa qadağan etdi və onun timsalında bütün müsəlmanlara sələmçilikdən çəkinmək barədə göstəriş verdi.

فَإِن لَّمْ تَفْعَلُواْ فَأْذَنُواْ بِحَرْبٍ مِّنَ اللّهِ وَرَسُولِهِ وَإِن تُبْتُمْ فَلَكُمْ رُؤُوسُ أَمْوَالِكُمْ لاَ تَظْلِمُونَ وَلاَ تُظْلَمُونَ

-Və əgər belə etməsəniz (və sələmçiliyi davam etdirsəniz), onda Allah və Onun peyğəmbəri tərəfindən olan müharibəyə yəqin edin (yəqin bilin ki, belə bir müharibə sizə üz tutacaqdır, haqq hökumət və ya partlayış həddinə çatmış cəmiyyət onu sizdən geri alacaqdır). Tövbə etsəniz isə sərmayələriniz özünüzündür (aldığınız faizi geri qaytarın ki, belə olan surətdə) nə zülm edərsiniz, nə də zülmə məruz qalarsınız.[1]

Bu ayənin nazilolma səbəbi belədir: “Xalid ibn Vəlid adlı bir nəfər Peyğəmbərin(s) yanına gəlib dedi: Ya Rəsulallah, mənim atam Səqif qəbiləsinə sələm vermişdi. Amma onun gəlirini hələ almamışdı. Ölməmişdən qabaq vəsiyyət etdi ki, həmin sələmin faizini mən onlardan alım. Mən həmin pulları ala bilərəmmi?”

Belə bir halda Allah-təala bu ayəni nazil etdi. Allah-təala bu ayədə insanları başa saldı ki, əgər birinə sələm borc və yaxud biri ilə sələm alveri etmişsinizsə, sərmayəndən artığını

[1] Bəqərə, 179.

almaq olmaz. Yəni müəyyən şərt əsasında sələm borc vermisinizsə, sərmayəni ala bilərsiniz, amma onun faizini almaq haram və qadağandır.

Ayədəki xüsusi bir mətləbə diqqət yetirək. Həmin mətləb budur ki, hər kəs sələmçiliyi davam etdirərsə və onun haram olduğuna məhəl qoymazsa, onda Allah və Onun peyğəmbəri tərəfindən olan müharibəyə yəqin etsin. “Hucurat” surəsinin 9-cu ayəsi bu ayəni bizim üçün açıqlayır:

فَقَاتِلُوا الَّتِي تَبْغِي حَتَّى تَفِيءَ إِلَى أَمْرِ اللَّهِ

-Əgər onlardan biri digərinə təcavüz etsə, Allahın əmrinə qayıdana kimi həmin təcavüzkar dəstə ilə vuruşun.

Yəni təcavüzkar dəstə Allahın əmrinin qarşısında təslim olana qədər onlarla vuruşub mübarizə aparın. Sələmçilik cəmiyyətdə iqtisadi təcavüz olduğuna görə Allah-təala bu təcavüzkarlarla mübarizə etməyi vacib edir.

Günlərin birində bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: “Ey Allahın höccəti, möminlərdən biri borc verir və əvəzində sələm alır. Biz ona bu işin haram və qadağan olduğunu dedikdə o belə deyir: Bu, mənim üçün ana südü kimi halaldır.”

İmam(ə) buyurdu: “Əgər mənim imkanım olsaydı və əlim ona çatsaydı boynunu vurardım.”

Burada qeyd etmək lazımdır ki, İmam Sadiq(ə) şəriət hakimi olduğu üçün bu sözü buyururdu. Onun bu işi görməyə haqqı var idi. Əgər möminlərdən hər kəs bu işi görmək istəsə, şəriət hakimindən icazə almalıdır. Çünki şəriət hakiminin icazəsi olmadan bu işləri görmək olmaz. Odur ki, İmam Sadiq(ə) özü hakim olduğuna görə bu sözü buyurdu. Bundan əlavə, İmam(ə) belə deməklə həmin adamın gördüyü işin və söylədiyi sözün nə qədər pis olduğunu başa salır. Çünki o, müsəlman olduğu halda Allahın əmrindən çıxaraq sələmçilik etmiş, üstəlik Allahın

haramını halal etmişdir. İslamı qəbul edib müsəlman olduqdan sonra Allahın haramını halal edən, habelə İslamın hökmlərini dəyişən kəs təcavüzkardır və onunla mübarizə etmək lazımdır. Mübarizə dedikdə insanın fikrinə o gəlməməlidir ki, onunla yalnız müharibə aparmaq lazımdır. Mübarizənin bir neçə mərhələsi vardır ki, onlardan biri də təcavüzkar insanı danlayıb başa salmaqdır. Əgər başa düşməsə və çirkin əməlindən əl götürməsə, onu tənbeh etmək lazımdır.

Qeyd olunan ayə nazil olduqdan sonra Peyğəmbər(s) Məkkədəki nümayəndəsinə göstəriş verdi ki, əgər Bəni-Müğeyrə sələmçilikdən əl çəkməsə və bu çirkin əməlindən tövbə etməsə, onlarla vuruşun.

## Sələmçilik barədə hədislər

Sələm və sələmçilik barədə Peyğəmbər(s) və imamlarımızdan bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Bu hədis və rəvayətlərdə sələmçiliklə məşğul olmağın acı nəticələri, maddi və mənəvi ziyanlarından yetərincə söz açılmışdır. Burada çox yaxşı olar ki, həmin hədislərdən bir neçəsini nəzərinizə çatdırım.

قَالَ عَلِيٌّ(ع): لَعَنَ رَسُولُ اللهِ(ص) اَلرِّبَا وَ آكِلَهُ وَ بَايِعَهُ وَ مُشتَرِيَهُ وَ كَاتِبَهُ وَ شَاهِدَهُ

-Həzrət Əli(ə) buyurur: “Allahın Peyğəmbəri(s) sələmi, sələm yeyəni, sələm verəni, sələm alanı, sələm verənlə sələm

alanın arasındakı müqaviləni yazanı və onların arasında şahid olanı lənətləyir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَكَلَ الرِّبا مَلَأَ اللهُ عزّوجلّ مِن نارِ جهنَمٍ بِقدرِ ما اَكلَ و اِن اِكتَسَبَ مِنهُ مالاً لا يَقبلُ الله تَعَالَى مِنهُ شيئاً مِنْ عَمَلِه و لم يَزَل في لعنةِ اللهِ و الملائكةِ مَا كان عِندَهُ قيراطٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs sələm yesə, Allah-təala qiyamət günü onun qarnını yediyi sələm qədər cəhənnəm odu ilə doldurar. Hər kəs sələm qazanc əldə edərsə, Allah-təala həmin şəxsin heç bir əməlini (ibadət və yaxşı işlərini) qəbul etməz. Əgər sələmdən azacıq belə onun yanında (cibində, evində, malında) olmuş olsa, Allah və mələklər ardıcıl olaraq ona lənət oxuyar.”[2]

Ayələrdən və bu hədislərdən çox açıq şəkildə başa düşülür ki, sələmçilik haram əməllərdəndir. Bəzi hədislərdə bu işin daha pis və cəmiyyətdə çox çirkin bir iş olduğu bəyan edilmişdir.

قَالَ الصَّادِقُ(ع): دِرهَمُ رِبا اَعظَم عِندَ الله مِن سَبعِينَ زَنيَّةٍ بِذَاتِ مَحرمٍ فِي بَيتِ اللهِ الْحَرام

İmam Sadiq(ə) buyurur: “Bir dirhəm sələm Allahın yanında yetmiş dəfə öz (ana, bacı və s.) məhrəmləri ilə Allahın hörmətli evi Kəbədə zina etməkdən daha ağır günahdır.”[3]

---

[1] Böyük günahlar,1-ci cild, səh.430.
[2] Mizanül-hikmə, 4-cü cild, səh.1970.
[3] Mizanül-hikmə, 4-cü cild, səh.1970.

İmam Sadiq(ə) bu hədisdə sələmin cəmiyyətdə nə qədər pis olduğunu başa salır və insanlarda bu işə qarşı nifrət hissi oyadır. Kim öz məhrəmləri ilə Kəbə evində zina etməyə razı olar? Hətta müsəlman olmayan fasiq insanlara milyonlarla pul versələr, yenə də bu günahı etməzlər. Sələmçilik isə bu işdən daha ağırdır.

Bundan əlavə, sələm malın heç bir vaxt bərəkəti olmaz. Sələmçiliklə məşğul olanlar güman edirlər ki, onların mallarının bərəkəti var. Xeyr, əsla belə deyildir. Allah-təala "Bəqərə" surəsinin 276-cı ayəsində belə buyurur:

يَمْحَقُ اللّهُ الْرِّبَا وَيُرْبِي الصَّدَقَاتِ وَاللّهُ لاَ يُحِبُّ كُلَّ كَفَّارٍ أَثِيمٍ

-Allah sələmi məhv edir (sələmlə qazanılmış malın bərəkətini aradan aparır) və sədəqələri(n bərəkətini) artırır. Allah heç bir günahkar nankoru sevmir.

Zürarə deyir: "Bir gün İmam Sadiqə(ə) ərz etdim: Ey Allahın Höccəti, Allah-təala bu ayədə buyurur ki, sələmi məhv edib onun bərəkətini aradan qaldırar və sədəqələrin bərəkətini artırar. Lakin mən görürəm ki, sələmçilər bu işlə məşğul ola-ola mallarını artırırlar. Axı onlar bu işi görməklə çoxlu mal-dövlət qazanırlar. Mən bu ayənin mənasını başa düşmürəm."

İmam Sadiq(ə) buyurdu: "Sən qəbul etmirsənmi ki, sələm yeyən insanın bərəkəti azalır? Bundan da bərəkətsiz hansı bərəkətsiz mal ola bilər ki, insan bu yolla bircə dirhəm belə qazandıqda imanı, tövbə edib camaatın haqqını qaytardıqda isə malı əlindən gedər."[1]

İmam Sadiq(ə) bu ayəni çox gözəl şərh edərək buyurur ki, sələmçinin malı ona görə bərəkətsizdir ki, sələmdən bir dirhəm qazansa belə, imanını əlindən vermiş olur. Əgər

---

[1] Böyük günahlar,1-ci cild, səh.176.

camaatın pulunu qaytarıb tövbə edərsə, pulu əlindən gedir. Belə olduqda həmin haram işdə bərəkət olarmı?

## Sələmin mənası

Burada yaxşı olar ki, sələmin mənası barədə də söz açaq. Ümumiyyətlə, sələm iki cür olur. Biri alverdə olan sələmçilikdir ki, bu o birinə nisbətdə cəmiyyət arasında azlıq təşkil edir. İkincisi isə odur ki, birisi şərt kəsərək borc verir və onun faizini istəyir. Sələmin bu növü dörd qisimdən ibarətdir.

Birinci qisim sələm pulda, malın çəkisində və ədəddə verilən sələmdir. Məsələn, bir nəfər digərindən bir aylıq 1000 manat borc istəyir. Borc verən şəxs şərt kəsərək deyir ki, bir aydan sonra pulumu qaytardıqda səndən 100 manat da artıq pul alacağam. Və yaxud pulum səndə qaldığı müddətdə hər ay səndən 100 manat artıq pul alacağam.

Əgər insan borc verdikdə filan məbləğdə artıq pul alacağına dair şərt kəssə, bu sələmdir. Oxuduğumuz ayə və hədislər həmin şəxsə şamil ediləcək.

Burada təkcə puldan söhbət getmir. Ola bilsin ki, bir insan sələmə mal vermiş olsun. Əgər qaytardıqda daha çox alacağını şərt edərək borc mal vermiş olsa, bu da sələmdir. Məsələn, bir nəfər digərinə borca 100 kiloqram buğda verir. Deyir ki, bu buğdanı səndən aldıqda 10 kiloqram artıq buğda alacağam. Onun sələmə mal verməsi sələmə pul vermək kimi bir şeydir.

Həmçinin əgər bir insan ədəd sayı ilə kiməsə borc versə və onu qaytardıqda artıq alacağını yenə də şərt kəssə, bu da sələmdir. Məsələn, bir nəfərə 10 ədəd borca yumurta verir və deyir ki, mən səndən 11 yumurta alacağam.

Sələmin ikinci qismi belədir ki, borc pul verir və bu pulun sələmində pul yox, başqa bir şey alacağına dair şərt kəsir. Məsələn, bir nəfər digərinə 100 manat borc pul verib,

faizinin əvəzində onun paltarını yumasını şərt kəsir. Bu növ borc vermək də sələmdir.

Üçüncü qismində borc verib həmin borcun qarşılığında başqa cür mənfəət götürür. Yəni bir nəfər digərinə 1000 manat borc verir. Borcu qaytarmaq şərtindən əlavə, onunla belə bir şərt kəsir ki, borcu qaytarana qədər otaqlarından birini mənə ver, gedib orada yaşayım. Burada borc verən şəxs borcun qarşılığında həmin şəxsdən mənfəət götürmək üçün onun evində qalmasına dair şərt kəsir. Bu da haramdır və sələmin bir qismidir.

Dördüncü qisminə gəldikdə isə verdiyi bir şeyin əvəzində onun yaxşısını qaytarmağı şərt edir. Məsələn, bir nəfər digərindən borca 100 qram təmiz qızıl alır. Qızılı verən şərt kəsib deyir ki, bunu mənə qaytardıqda sırğa və yaxud qolbaq düzəldib qaytararsan. Belə borc verməyə də sələm deyilir.

Yuxarıda qeyd etdiyimiz qisimlər o zaman sələmçilik sayılır ki, borc verərkən bu kimi şərtlər qoyulsun. Yox, əgər arada şərt kəsilmirsə, bir nəfər digərindən borc alırsa və qaytardıqda öz könlü ilə təşəkkür əlaməti olaraq üstünə bir hədiyyə qoyub qaytarırsa, bunun heç bir eybi yoxdur. Çünki borc verən şəxs heç bir şərt qoymadan ona borc vermişdir. Şəriətdə müstəhəb əməllərdən biri budur ki, insan birindən borc aldıqda onu vaxtında qaytarsın və  qaytararkən üstünə bir hədiyyə qoyub versin.

## Sələmin icazə verildiyi hallar

Bir neçə insanın arasında olan belə şərtlər haram və sələmçilik sayılmır.

1.Onlardan biri ata ilə övlad arasında olan müamilədir. Yəni ata öz balasına müəyyən şərtlər əsasında pul və yaxud

digər əşyalar verə bilər. Həmçinin oğul da ata ilə belə şərtlər kəsə bilər.

2.İkincisi ərlə arvad arasında olan borc və müamilələrdir ki, həm kişi, həm də arvad bir-birinə müxtəlif şərtlər əsasında borc verə bilər.

3.Üçüncüsü isə müsəlmanın hərbçi kafirə borc verməsidir. Kafirlərin müxtəlif növləri olduğu üçün hər kafirlə bu müamiləni etmək olmaz. Yalnız hərbçi kafirdir ki, hər vaxt əlinə imkan düşdüyünü gördükdə müsəlmanlara ziyan vurmağa çalışır. Belə bir kafirə borc verib müxtəlif şərtlərlə ondan faiz almaq olar. Məsələn, hərbçi kafir bir nəfərin qapısına gəlib borc istədikdə, ona borc vermək olar və hər ay əvəzində hətta 200 faizini də almaq olar. Çünki həmin kafirin əlinə yaxşı imkan və fürsət düşərsə, o, müsəlmanlara ziyan vurmaq üçün addım atar.

## Allah yolunda borc vermək

Bizim ümumi mövzumuz peyğəmbərlərin gəlişinin məqsədi barədədir. Onların məqsədlərindən biri insanların nəfsinin saflaşdırılması ilə məşğul olub, ruhlarını paklaşdırmaqdır. Ötən bəhslərimizdə insanın ruhunu paklaşdıran amillər və insanın nəfsinin saflaşmasının qarşısını alan maneələrlə tanış olduq. Həmçinin qeyd olundu ki, insanın ruhunun təmizlənməsinin qarşısını alan maneələrdən biri haram yeməklərdir. Haram ticarətlər də bu bəhsə aid olduğundan onunla bağlı olan on bir məsələyə aydınlıq gətirdik. Bura qədər olan sonuncu söhbətimiz sələmçilik barədə olduğundan bir məsələni də əziz möminlərin nəzərinə çatdırmaq istərdim. Sələm insanın şərt kəsərək borc verib qarşılığında istədiyi pula və ya əşyaya deyilir. Əlbəttə, bu

barədə bir qədər öncə ətraflı şəkildə açıqlama vermişik. Sələmçilik borc məsələsinə aid olduğu üçün burada borc verilməsi və alınmasından müəyyən qədər söz açmağımız yaxşı olar.

Qeyd olunduğu kimi, İslamda faiz və mənfəət güdmək məqsədilə borc verməyin adına sələm deyilir. Lakin halal yolla borc verməyin özünə gəldikdə isə dinimiz insanları bu işə təşviq edərək həvəsləndirir. Allaha xatir kiməsə borc vermək ibadət sayılır. Allah-təala insanları yalnız Ona ibadət etmək üçün yaratmışdır. Ümumi götürdükdə ibadət iki hissədən ibarətdir. Bəzi ibadətlər maddi, bəzisi isə mənəvi ibadətlərdir. Namaz, oruc və bu kimi ibadətlərə mənəvi ibadətlər deyilir. Yəni insan bu ibadətləri yerinə yetirərkən əvəzində heç bir maddi xeyir götürmür və kiməsə maddi fayda da vermir. Lakin bəzi xüms və zəkat kimi olan ibadətlər isə maddi ibadətlərdir. İnsan namaz qıldıqda niyyət etdiyi kimi, xüms verdikdə də niyyət edib Allaha xatir verməlidir. Əgər insan öz malından ayırıb yoxsula versə və xüms niyyəti etməsə, onun boynundan xüms götürülmür. Yaxud ibadət niyyəti ilə yox, başqa niyyətlərə görə aparıb xüms verirsə, yenə də bu əməl onun boynundan götürülmür. Əgər insan il ərzində xərclədiyindən əlavə, qalan malının beşdə birini ayırıb Allahın əmrini yerinə yetirmək niyyəti ilə xüms verərsə, buna maddi ibadət deyilir.

Maddi ibadətlərdən biri də Allah yolunda ehtiyacı olana borc verməkdir. Məsələn, bir nəfər ehtiyac üzündən digərinin qapısına borc almaq üçün gedir. Əgər həmin şəxs ona Allah rizası üçün müəyyən müddətə borc verərsə, deməli ibadət etmişdir. İslamda və Quranda borcun adına “qərz” deyilir. Lüğətdə “qərz” kəsmək mənasını ifadə edir. Qayçıya isə “miqraz” deyilir. Miqraz da qərz sözündən götürülüb və kəsici alət mənasını ifadə edir. Sual olunur ki, bəs nə üçün borc verməyə “qərz” - “kəsmək” deyilir? Cavab

belədir ki, bunun mənası insanın ürəyində olan dünya məhəbbətini kəsib atmaqdır. Yəni insan halal zəhmətlə qazandığı pulu Allah yolunda infaq etməklə, yaxud kiməsə borc verməklə ürəyindəki dünyaya olan bağlılığı kəsmiş olur. Bəziləri demişlər ki, borc verməyə ona görə “qərz” deyilir ki, insan malının bir hissəsindən ayırıb kiməsə verir. Hər halda əgər bir insan kiminsə qapısına ehtiyac üzündən gəlib borc istəsə, həmin şəxs də “qurbətən iləllah” niyyəti ilə ona borc versə, Allaha ibadət etmişdir. Əgər başqa niyyətlə versə, ibadət sayılmır. Məsələn, insan namazı Allahdan başqa niyyətlə qılarsa, qəbul olunmadığı kimi, borcu da başqa niyyətlə verdikdə ibadət hesab olunmur. Borc vermək o zaman ibadət sayılır ki, insan sırf Allaha xatir niyyət edib həmin borcu vermiş olsun.

Quranda on üç dəfə borc vermək barədə müxtəlif ibarələrlə söz açılmışdır. Onun gözəlliyi bundadır ki, Quranda hansı yerdə borc vermək sözü işlənibsə, kənarında “gözəl” kəlməsi də işlənilir. Yəni borc verərkən gözəl borc verin. Gözəl borc dedikdə bu beş mənanı əhatə edir. Yəni hər kəs borc verirsə, onun gözəlliyi bu beş əmələ riayət etməkdədir.

**1.Mənfəətsiz və faizsiz borc vermək**

Borc verməyin gözəlliklərindən biri sələmsiz və faizsiz şəkildə verilən borcdur. İnsan birinə borc verərkən heç vaxt ondan əvəzini və yaxud faizini şərt qoymamalıdır.

**2.Allah rizası üçün borc vermək**

Gözəl borc verməyin ikinci mənası budur ki, insan birinə borc verərkən yalnız “qürbətən iləllah” niyyəti ilə Allah rizası üçün borc vermiş olsun. Əgər insan Allaha xatir borc verərsə, bu zaman gözəl borc vermişdir.

**3.Minnətsiz borc vermək**

Gözəl borc verməyin üçüncü mənası da minnətsiz şəkildə verilən borcdur. Yəni borc verərkən və yaxud verdikdən sonra həmin şəxsə minnət vurmamalıdır. Ümumiyyətlə, insan hər bir ibadətdə minnət qoyarsa, həmin ibadət batil olacaq.

**4.Abır və kəramətlə borc vermək**

Borc verməyin gözəlliklərindən dördüncüsü budur ki, insan birinə borc verərkən abır və kəramətlə vermiş olsun. Yəni borc üçün qapıya gələn insanın abrı ilə oynamamalı, onu get-gələ salmamalı, bir şəxsiyyət kimi kəramətli şəkildə ona borc verilməlidir.

**5.İstəklə borc vermək**

Gözəl borc verməyin mənalarından beşincisi isə budur ki, insan onu öz meyli və xoşu ilə vermiş olsun. Yəni məcburiyyət qarşısında borc verilərsə, bu insan üçün ibadət sayılmaz. Məsələn, borc verən deyir: “Filankəsin xətrinə, onun üzündən keçə bilmədiyim üçün və yaxud məcbur qaldığım üçün ona borc verdim.”

## Quran ayələrində borc verməyin faydaları

Qeyd etdiyimiz mənalar yaxşı və gözəl borc verməyin mənalarıdır ki, hər kəs bunlara riayət edərək birinə borc versə, Allaha ibadət etmişdir. Qeyd olunduğu kimi, Quranda borc vermək barədə bir sıra ayələr vardır. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək. Allah-təala “Bəqərə” surəsinin 245-ci ayəsində belə buyurur:

مَّن ذَا الَّذِي يُقْرِضُ اللّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً وَاللّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ

-Kim Allaha gözəl bir borc verməyə hazırdır ki, Allah (da) onu (qaytararkən) onun üçün neçə qat artırsın? (Ruzini) azaldan da, çoxaldan da Allahdır. Ona tərəf qaytarılacaqsınız.

Bu ayədə Allah-təala insanlara başa salır ki, hər kəs Allaha xatir kiməsə borc verirsə, həqiqətdə Allaha vermişdir. Allah-təala da bunun əvəzini neçə qat artıqlaması ilə artırar və əvəzini verər. İnsan elə təsəvvür etməsin ki, Allaha xatir kiməsə kömək etsə, birdən ruzisi azala bilər. Ruzinin azalıb-çoxalması da Allahın əlindədir.

Bu ayənin nazil olma səbəbi belədir: "Günlərin birində Peyğəmbər(s) səhabələrlə əyləşib söhbət edirdi. Peyğəmbər(s) onlara buyurdu: Hər kəs öz malından Allah yolunda sədəqə verib ehsan etsə, cənnətdə iki qatını ona qaytaracaqlar.

Əbu Dəhdah Ənsari dedi: Ya Rəsulallah, mənim iki bağım var. Mən həmin bağlardan birini Allah yolunda sədəqə versəm, mənə cənnətdə onun iki bərabərini verərlərmi?

Peyğəmbər(s) buyurdu: Əlbəttə.

Əbu Dəhdah dedi: Ya Rəsulallah, arvad-uşağım əgər həmin bağı Allah yolunda sədəqə etməyimə razı olsalar, onlar da cənnətdə mənə verilən həmin bağların içində olacaqlar?

Peyğəmbər(s) buyurdu: Bəli.

Əbu Dəhdah bu söhbətdən sonra ayağa qalxıb həmin bağa getdi. Qapını açıb gördü ki, həyat yoldaşı və uşaqlar orada işləyirlər. Özgə adamın bağının qapısında dayananlar kimi qapıda dayanıb onları səslədi.

Onlar dedilər: Nə olub?

Əbu Dəhdah dedi: Mən bu gün alver etmişəm və bu bağı Allah yolunda sədəqə vermişəm. Peyğəmbər(s) bu bağı kimə istəsə verə bilər. Əvəzində mənə cənnətdə iki bərabərini verəcək. Əgər siz də bu işə razı olsanız, cənnətdə həmin bağların içində mənimlə birgə olacaqsınız. Həyat yoldaşı bu sözləri eşidib dedi: Allah bu alveri mübarək etsin.”

Elə bu halda Allah-təala “Bəqərə” surəsinin 245-ci ayəsini Peyğəmbərə(s) nazil etdi:

مَّن ذَا الَّذِي يُقْرِضُ اللّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً وَاللّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ

-Kim Allaha gözəl bir borc verməyə hazırdır ki, Allah (da) onu (qaytararkən) onun üçün neçə qat artırsın? (Ruzini) azaldan da, çoxaldan da Allahdır. Ona tərəf qaytarılacaqsınız.

Borc vermək barədə Allah-təala “Maidə” surəsinin 12-ci ayəsində belə buyurur:

وَلَقَدْ أَخَذَ اللّهُ مِيثَاقَ بَنِي إِسْرَآئِيلَ وَبَعَثْنَا مِنهُمُ اثْنَيْ عَشَرَ نَقِيبًا وَقَالَ اللّهُ إِنِّي مَعَكُمْ لَئِنْ أَقَمْتُمُ الصَّلاَةَ وَآتَيْتُمُ الزَّكَاةَ وَآمَنتُم بِرُسُلِي وَعَزَّرْتُمُوهُمْ وَأَقْرَضْتُمُ اللّهَ قَرْضًا حَسَنًا لَّأُكَفِّرَنَّ عَنكُمْ سَيِّئَاتِكُمْ وَلأُدْخِلَنَّكُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ...

-Həqiqətən, Allah İsrail övladlarından əhd-peyman aldı. Biz onlardan (on iki qəbilə üçün) on iki nəfər başçı seçdik. Allah onlara dedi: “Şübhəsiz, Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, (gələcəkdə göndərəcəyim) peyğəmbərlərimə iman gətirsəniz, onlara ehtiramla kömək etsəniz və Allaha gözəl borc versəniz (mallarınızı Allah

yolunda xərcləsəniz), mütləq sizin günahlarınızı təmizləyər və sizi (binalarının və ağaclarının) altından çaylar axan cənnətlərə daxil edərəm.”

Allah-təala bu ayədə İsrail övladları ilə bağladığı əhd-peymandan söhbət açır. Sonra onlarla belə şərt kəsir ki, əgər namaz qılsalar, zəkat versələr, Peyğəmbərə(s) iman gətirsələr, onlara ehtiramla əllərindən gələn qədər kömək göstərsələr və Allah yolunda gözəl borc versələr, (Allah) həmişə onlarla olacaq. Belə olduqda Allah-təala nəticədə onların günahlarını təmizləyər və onları cənnətlərə daxil edər.

Həmçinin gözəl borc vermək barədə “Müzzəmmil” surəsinin 20-ci ayəsində belə oxuyuruq:

فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ عَلِمَ أَن سَيَكُونُ مِنكُم مَّرْضَى وَآخَرُونَ يَضْرِبُونَ فِي الْأَرْضِ يَبْتَغُونَ مِن فَضْلِ اللَّهِ وَآخَرُونَ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنْهُ وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَقْرِضُوا اللَّهَ قَرْضًا حَسَنًا وَمَا تُقَدِّمُوا لِأَنفُسِكُم مِّنْ خَيْرٍ تَجِدُوهُ عِندَ اللَّهِ هُوَ خَيْرًا وَأَعْظَمَ أَجْرًا...

-Elə isə (gecələr) Qurandan (sizə) müyəssər olanı oxuyun, namaz qılın, zəkat verin və Allaha gözəl bir borc verin. Özünüz üçün öncədən göndərdiyiniz xeyir əməli Allah yanında daha gözəl və mükafat baxımından daha böyük tapacaqsınız.

Bu ayədə Allah-təala möminlərə Quran oxumağı, namaz qılmağı, zəkat verməyi tövsiyə etdikdən sonra buyurur: “Allaha gözəl bir borc verin. Yəni Allah yolunda gözəl borc verin.”

Burada qeyd olunmalıdır ki, sələmçilikdə borc götürüb şərt əsasında onu qaytararkən üçtündə müəyyən məbləğ də qaytarılır. Əgər həmin borcu uzun illər qaytarmasa, uzun illər onun faizini verir, lakin həmin borc onun boynunda qalır. Lakin Allah yolunda borc verdikdə isə bunun əksinə olur. Allah-təala həmin borcu neçə qat insanın özünə qaytarır.

Əgər insan ölməmişdən qabaq (sağlığında) hər bir əməli axirət dünyasına göndərsə, öləndən sonra mütləq onları görəcəkdir. Əgər yaxşı bir iş görübsə, neçə bərabərini Allah-təala ona verəcəkdir. Heç kəs bu dünyanı tutub getməyəcək. Hər bir insan öz vaxtında dünyadan köçəcəkdir. Müvəqqəti dünyada axirət azuqəsi yığmaq lazımdır. İnsan əlindən gələn qədər çalışmalı və yaxşı əməlləri özündən öncə axirət dünyasına göndərməlidir ki, oranın çətinliklərindən narahat olmasın. Əgər insan axirəti üçün çalışmasa, yaxşı əməlləri ilə oranı abad etməsə, onun üçün çox çətin olacaq.

İmam Həsənin(ə) səhabələrindən biri onun yanına gəldi. İmam(ə) ondan soruşdu: “Necəsən? O, zarafatyana dedi: Nə mənim istədiyim kimidir, nə də Allahın istədiyi kimi. İmam(ə) təbəssümlə soruşdu: Necə yəni nə mənim istədiyim kimidir, nə də Allahın istədiyi kimi? O dedi: Ey Allahın höccəti, ona görə mənim istədiyim kimi deyil ki, bu dünyada istəklərimə çata bilmirəm. Ona görə Allahın istədiyi kimi deyil ki, məndən istədiyi ibadətləri layiqincə yerinə yetirə bilmirəm.

Sonra dedi: Ey Peyğəmbər(s) övladı, nə üçün mənim ölümdən xoşum gəlmir? Nə üçün ölümün adını eşitdikdə qorxuram və ölmək istəmirəm?

İmam(ə) buyurdu: İnsan öz malını sevir. Əgər mal bu dünyadadırsa, insan öz malının yanında qalmaq istəyir. Əgər insan həmin malları öncədən axirət dünyasına göndərsə, bu

zaman ölümdən qorxmaz. Çünki artıq həmin sevdiyi malları axirətə göndərmiş və onları görmək şövqündədir.”

İnsan elə düşünməsin ki, çoxlu mal-dövlət qazanmalı və Allah yolunda da çox xərcləməlidir. İnsan imkan daxilində lazım olan yerlərdə əlindən gələn qədər köməklik göstərsə, mütləq onun xeyrini görəcəkdir. Az pulu olan elə düşünməsin ki, varlılar pulları ilə cənnəti qazana bilərlər, amma o, qazana bilmir. Xeyr, hər kəs imkanı nə qədərdirsə həmin miqdarın dərəcəsi ilə hesablanıb ona veriləcək. Məsələn, bir nəfərin yaxşılıq etmək üçün 100 manata, digərinin isə 10 manata gücü çatır. Birinin 10 manatı var, digərinin 100 manatı. Hər ikisi yaxşılıq etmək istəyir. 10 manatı olan 1 manatını, 100 manatı olan 10 manatını Allah yolunda xərcləyir. Cənnətdə onların dərəcəsi eyni səviyyədə olacaqdır. Çünki hər ikisi malının onda birini Allah yolunda xərcləmişdir. Burada kasıbla varlının fərqi yoxdur. Savab dərəcəsi etibarilə hər ikisi eynidir.

## Hədislərdə borc verməyin faydaları

Qeyd olundu ki, Allaha xatir ehtiyacı olan bir insana borc vermək həm ibadətdir, həm də bu əməlin böyük savabı vardır. Əgər bir müsəlman ehtiyac üzündən digər bir müsəlmanın qapısına getsə, onu qapıdan əliboş qaytarmamaq müsəlmançılığın əsas şərtlərindən biridir. Yuxarıda borc vermək barədə oxuduğumuz ayələrdə bəhsimizə aid olan bir əsas mətləb var idi. Həmin mətləb gözəl borc verməkdən ibarətdir ki, yuxarıda bunun mənası ilə tanış olduq. Həzrət Əli(ə) həmin ayələr barədə belə buyurur:

فَقَدْ قالَ اللّهُ سُبْحانَهُ: «اِنْ تَنْصُرُوا اللّهَ يَنْصُرْكُمْ وَ يُثَبِّتْ اَقْدامَكُمْ» وَ قالَ تَعالى: مَنْ ذَا الَّذى يُقْرِضُ اللّهَ قَرْضاً حَسَناً فَيُضاعِفَهُ لَهُ وَ لَهُ اَجْرٌ كَريمٌ». فَلَمْ يَسْتَنْصِرْكُمْ مِنْ ذُلٍّ، وَ لَمْ يَسْتَقْرِضْكُمْ مِنْ قُلٍّ، اِسْتَنْصَرَكُمْ وَ لَهُ جُنُودُ السَّمواتِ وَ الْاَرْضِ وَ هُوَ الْعَزيزُ الْحَكيمُ، وَ اسْتَقْرَضَكُمْ وَ لَهُ خَزائِنُ السَّمواتِ وَ الْاَرْضِ وَ هُوَ الْغَنِىُّ الْحَميدُ، وَ اِنَّما اَرادَ اَنْ يَبْلُوَكُمْ اَيُّكُمْ اَحْسَنُ عَمَلاً. فَبادِرُوا بِاَعْمالِكُمْ تَكُونُوا مَعَ جيرانِ اللّهِ فى دارِهِ.

-Allah buyurur: “Əgər Allaha yardım göstərsəniz, O da sizə yardım göstərər və sürüşkənliklərdə qədəmlərinizi möhkəmləndirər *(və sizi çətinlik və giriftarçılıqdan qurtarar).*”[1] Həzrət(ə) həmçinin buyurur: “Kimdir o kəs ki, Allaha gözəl borc versin, Allah da onun əvəzini qat-qat artırsın. Onu həm də çox qiymətli bir mükafat gözləyir.”[2]

-Allah sizdən zillət və xarlığa görə yardım, malın azlığı və ehtiyac üzündən borc istəməyib. Göylərin və yerin qoşunları Ona məxsus və *(hamıya)* qalib və alim ola-ola O, sizdən yardım istəyib. Sizdən borc istəyib, halbuki göyün və yerin xəzinələri Onundur və O, ehtiyacsız və təriflənəndir.

-Onun yardım və borc istəməsi ona görədir ki, O, sizin hansı birinizin daha çox yaxşı işlər görməyinizi sınamaq istəyib. Belə isə Allahın evində *(cənnətdə)* Onun qonşuları *(gözəl əməl sahibləri)* ilə olmaq üçün yaxşı işlərə tələsin.

---

[1] Məhəmməd, 7.
[2] Hədid,11.

Həzrət Əli(ə) bu kəlamı ilə ayələri açıqlayaraq bildirir ki, Allah-təala bizdən ehtiyac üzündən borc istəmir. Heç bir kəs təsəvvür etməsin ki, Allah-təalanın kiməsə ehtiyacı olduğu və imkanının azlığı üçün borc istəyir. Onun heç bir şeyə ehtiyacı yoxdur və imkanı tükənməzdir. Bütün aləmlər, xəzinələr, yerin və göyün qoşunları Onun ixtiyarında olduğu halda bizdən borc istəyir və bu borcun əvəzində qat-qat çoxunu verəcəyini vəd edir. Allah-təala bunu ona görə edir ki, insanların hansı birinin daha çox yaxşı və gözəl işlər görməsini sınayır. Allah-təala bilir ki, kim daha çox yaxşı işlər görür. Allah-təala bu sözləri buyurmaqla kimin yaxşı işlər görüb-görməməsini sübut etmək istəyir. Bununla insanları imtahana çəkib, kimin yaxşı və kimin pis olduğunu ortaya çıxarır.

Yaxşı ilə pisi sübut etmək üçün imtahan və sınaq olmalıdır. Qaliblə məğlubu müəyyən etmək üçün mübarizə olmalıdır. Məsələn, sarı dəmirlərlə qızılı bir-birinə qarışdırdıqda heç bir kəs onları ayırd edə bilmir. Yalnız zərgərlər ona baxıb, məhək daşına sürtdükdən sonra qızılı dəmirlərdən ayırır və onun əyarını müəyyənləşdirirlər. Ola bilsin ki, dəmir bəzəklərin gözəlliyi qızılların gözəlliyindən yaxşı görünmüş olsun. Lakin onun qızıl olub-olmaması yalnız məhək daşına sürtdükdən sonra bilinir. Dəmir olduğu aydınlaşdıqdan sonra onun qiymətinin az olması da ortaya çıxır. Zərgər qızılları dəmirlərdən ayırdıqdan sonra əyarlarını da müəyyənləşdirib hər birini öz əyarına uyğun qiymətləndirir.

İnsanların da məhək daşı vardır. Nə qədər ki, insan məhək daşına çəkilib yoxlanmayıb, onun insanlığı boş sözlərdən başqa bir şeydir. Quru və boş sözlər danışmaq insanın insanlığını sübut etmir. Ona görə də Həzrət Əli(ə) buyurur: “Belə isə Allahın evində *(cənnətdə)* Onun qonşuları *(gözəl əməl sahibləri)* ilə olmaq üçün yaxşı işlərə tələsin.”

Deməli, görürük ki, insanın insanlığı yalnız yaxşı əməlləri ilə müəyyənləşir. İnsan yalnız yaxşı əməl sahibi olduqda cənnətdə Allahın qonşusu ola bilər. Ora elə bir yerdir ki, hər adamı buraxmazlar. Ora yalnız Allahın xalis möminlərinə icazə vardır. Həzrət Əli(ə) “Kumeyl” duasında cənnətdə Allahın qonşusu olmasını arzulayır və ağlayaraq Allahdan həmin məclisdə olmağı diləyir. Həzrət(ə) bu duanı oxuyarkən həmin yerə çatdıqda ağlaya-ağlaya belə münacat edir:

يا رَبِّ يا رَبِّ يا رَبِّ، قَوِّ عَلى خِدْمَتِكَ جَوارِحى وَاشْدُدْ عَلَى الْعَزيمَةِ جَوانِحي وَهَبْ لِيَ الْجِدَّ في خَشْيَتِكَ، وَالدَّوامَ فِي الاِْتِّصالِ بِخِدْمَتِكَ، حَتّى اَسْرَحَ اِلَيْكَ في مَيادينِ السّابِقينَ وَاُسْرِعَ اِلَيْكَ فِي الْبارِزينَ وَاَشْتاقَ اِلى قُرْبِكَ فِي الْمُشْتاقينَ وَاَدْنُوَ مِنْكَ دُنُوَّ الْمُخْلِصينَ، وَاَخافَكَ مَخافَةَ الْمُوقِنينَ، وَاَجْتَمِعَ فى جِوارِكَ مَعَ الْمُؤْمِنينَ.

-Ey mənim Rəbbim, ey mənim Rəbbim, ey mənim Rəbbim! Sənin xidmətində olmaq üçün mənim əzalarımı qüvvətləndir. Sənə bəndəlik əzmində olan mənim ürəyimi qüvvətləndir - möhkəmləndir. Səndən qorxmaq üçün mənə çalışqanlıq bəxş elə, Sənin xidmətinə bağlı olmaq üçün mənə davamiyyət ver, ta ki, keçmişləri meydanında, mübarizlər zümrəsində Sənin görüşünə tələsəm. Sənin qürbünə müştaq olanlar arasında müştaq olum, müxlislərin sənin dərgahına yaxınlaşdıqları kimi yaxınlaşım, yəqin əhlinin Səndən xoflu olduqları kimi xoflu olum. Sənin qonşuluğunda möminlərlə birgə olum.

Allah-təala cənnətdə olan bu qonşuluğuna hamını dəvət edir. Heç kəs deyə bilməz ki, Allah nə üçün məni ora dəvət etməyib? Allah-təala bütün insanların hamısını ən böyük

şəxsiyyətin vasitəsi ilə ora dəvət edib. Bu dəvəti qəbul etmək insanın öz işidir. Hər kəs bu dəvəti qəbul etsə, cənnətdə Allahın qonşusu olacaq. Hər kəs qəbul etməsə, həmin qonşuluqda möminlərin sırasına daxil ola bilməyəcək. Allah-təala insanları ora adi adamların və yaxud uşaqların vasitəsilə dəvət etmir. Yer üzünün ən şərafətli varlığı, aləmlərə rəhmət olan İslam Peyğəmbərinin(s) vasitəsilə dəvət edir. Elə bir insanın vasitəsilə dəvət edir ki, peyğəmbərlərin hamısı bir yerdə onun bərabəri ola bilməz. Çünki bütün peyğəmbərlər ilk növbədə onun nübüvvətini iqrar etmiş və bundan sonra öz peyğəmbərliklərini başlamışlar. Onlar nəinki İslam Peyğəmbərinin(s), hətta onun qızı Fatimənin(s.ə) mərifətini iqrar etdikdən sonra peyğəmbərliklərinə başlamışlar. Yəni hər bir peyğəmbər İslam Peyğəmbərinin(s) qızı Fatimənin(s.ə) mərifətini iqrar etdikdən sonra onun nübüvvəti kamala çatmışdır.

Odur ki, Allah-təala bütün insanları cənnətdə olan bu məqama İslam Peyğəmbərinin(s) vasitəsilə dəvət edir. Həzrət Əli(ə) münacat edərkən ağlaya-ağlaya Allahdan həmin məqama nəsib olmağı istəyir. Həzrət(s) bununla bizi başa salır ki, ora hər adamı buraxmazlar. Dəvət etməsinə baxmayaraq, hər adamı ora daxil olmağa qoymazlar. Çünki bu dəvətin içində ora qovuşmağın şərtləri vardır. Hər kəs bu şərtləri özündə yarada bilərsə, ora daxil olacaq. Buna görə də Həzrət Əli(ə) buyurur ki, Allahın evində *(cənnətdə)* Onun qonşuları *(gözəl əməl sahibləri)* ilə olmaq üçün yaxşı işlərə tələsin.

Bu dünyanın ömrü çox azdır. Dünyada beş və ya on gün yaşamaq, habelə bərbəzəklər insanı aldatmamalıdır. İnsan bu dünyada bacardığı qədər yaxşı işlər görməlidir ki, Allah-təala axirət günü ona feyz nəsib etsin.

Qeyd olundu ki, Allah yolunda borc verməyin çox böyük savabı vardır. Hər kəsin yalnız Allaha xatir və təmiz niyyətlə

borc üçün qapıya gələnə borc pul verməsi həm savabdır, həm də yaxşı ibadətlərdəndir. Bundan əlavə, hər kəs Allah yolunda bir möhtaca borc verərsə, elə bil Allaha borc vermişdir və qiyamət günü Allah-təala onun neçə bərabərini ona qaytarar.

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَقرَضَ اَخَاهُ الْمُسلِمِ كَانَ لَهُ بِكُلِّ دِرهَمٍ اَقرَضَهُ وَزنَ جَبَلِ اُحُدٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs müsəlman qardaşına borc verərsə, Allah-təala onun verdiyi hər bir dirhəmə Ühüd dağı qədər savab verir."[1]

قَالَ الصَّادِقُ(ع): مَا مِن مُسلِمٍ أَقرَضَ مُسلِمًا قَرضًا حَسَنًا يُرِيدُ بِهِ وَجهَ اللهِ اِلّا حَسَبَ اللهُ لَهُ أَجرَهَا كَحِسَابِ الصَّدَقَة حَتّى يَرجِع اِلَيهِ

-İmam Sadiq(ə) buyurur: "Hər bir müsəlman Allah rizası üçün öz müsəlman qardaşına gözəl borc verərsə, onu qaytarana qədər Allah- təala hər gün həmin şəxsə (borc verənə) sədəqə savabı yazır."[2]

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَقرَضَ مُؤمِنًا قَرضًا يَنتَظِر بِهِ مَيسُرَهُ كَانَ مَالُهُ فِى زَكَاةٍ وَ كانَ هُوَ فِى صَلاةٍ مِنَ الْمَلائِكَةِ حَتَى يُؤَدِّيه

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bir mömine borc versə və qaytarmağına imkanı olana qədər gözləsə, (verdiyi borc) qayıdana qədər Allah-təala həmin borcu onun üçün zəkat savabı yazar və mələklər ona dua edərlər.

---

[1] Vəsailüş-şiə c.13 səh.88
[2] Vəsailüş-şiə c.13 səh.87

Bu hədislərdən Allah yolunda borc verməyin nə qədər savablı olduğunu açıq-aydın görürük. Buna görə də hər bir müsəlman ehtiyacı olan insana Allah yolunda borc verərsə, bütün bu savabları əldə edə biləcək. Əgər insanın əlində imkanı olduğu halda borc üçün qapısına gələni əliboş qaytarsa, Allahın belə insandan xoşu gəlməz. Buna görə də imkan daxilində qapıya borc üçün gələni geri qaytarmamalıdır. Bu barədə də bir çox hədislər vardır ki, nümunə üçün bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): مَن شَكا اِلَيهِ اَخُوهُ الْمُسلِم فَلَم يُقرِضهُ حَرَّمَ اللهُ عَزَّوَجَلّ عَلَيهِ الجَنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs ehtiyac üzündən öz müsəlman qardaşına vəziyyətinin ağır olmasından şikayət etsə (borc istəsə) və həmin müsəlman qardaşı imkanı olan surətdə ona borc verməsə, Allah-təala cənnəti ona haram edər."[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن اِحتَاجَ اِلَيهِ أَخُوهُ الْمُسلِم فِى قَرضٍ وَ هُوَ يَقدِرُ عَلَيهِ فَلَم يَفعَل حَرَّمَ اللهُ عَلَيهِ رِيحَ الجَنَّة

-Peyğəmbər(s) digər bir hədisdə belə buyurur: "Hər kəs ehtiyac üzündən borc almaq məqsədilə müsəlman qardaşının yanına gəlsə və o, imkanı olan surətdə ona borc verməsə, Allah-təala cənnətin iyini belə həmin şəxsə haram edər."[2]

## Borc almamaq daha yaxşıdır

[1] Vəsailüş-şiə,13-cü cild, səh.88.
[2] Biharul-ənvar,103-cü cild, səh.138.

Burada borc barəsində olan bir mətləbi də əziz möminlərin diqqətinə yetirmək istərdim. Həmin mətləb budur ki, çox yaxşı olar ki, insan bacardığı qədər özünü saxlayıb borca düşməsin. Yəni dində borc üçün kiminsə qapısına getmək bəyənilmir. Çox yaxşı olar ki, insan son həddə qədər səbir edib borca düşməsin. Amma vəziyyətin tamamilə ağırlaşıb pisləşə biləcəyi təqdirdə borc almağın eybi yoxdur.

قَالَ رَسُولُ اللهِ(ص): اِيَّاكُم وَ الدَّين فَإِنَّهُ شَينُ الدِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Borc almaqdan çəkinin. Çünki borc almaq rüsvayçılıqdır."[1] (Yəni möhtac qaldığını kiməsə bildirmə.)

قَالَ عَلِيٌّ(ص): اِيَّاكُم وَ الدَّين فَإِنَّهُ هَمٌّ بِاللَّيل وَ ذُلٌّ بِالنَّهار

-Həzrət Əli(ə) buyurur: "Borc almaqdan çəkinin ki, o, gecənin qəmi və günüzün zəlilliyidir."[2]

Əbu Səid Xudri deyir: "Peyğəmbərdən(s) eşitdim ki, belə buyurdu: "Küfr və borcdan Allaha pənah aparıram. Bir nəfər dedi: Ya Rəsulallah,

küfr və borc bərabərdirmi? Peyğəmbər(s) buyurdu: Bəli."[3]

Həzrət Peyğəmbər(s) bu kəlamı ilə borc almağın yaxşı iş olmadığını vurğulayır. Yəni həqiqətdə küfrlə borc almaq ayrı-ayrı işlər olsa da pislikdə bərabərdir. Burada borc almaq

---

[1] Vəsailüş-şiə,13-cü cild, səh.77.
[2] Vəsailüş-şiə,13-cü cild, səh.77.
[3] Mizanül-hikmə, 4-cü cild, səh.1828.

küfr mənasında deyil. Küfr insanı narahat etdiyi kimi, borc almaq da insanı eləcə narahat edər.

قَالَ عَلِيٌّ(ص): كَثرَةُ الدَّينِ تُصَيِّرُ الصادِقَ كاذِباً والمنجِزَ مُخْلِفاً

-Həzrət Əli(ə) buyurur: “Çox borclu olmaq doğru danışanı yalançı və sözübütöv adamı sözündən çıxan edər.”[1]

---

[1] Mizanül-hikmə, 4-cü cild, səh.1828.

## Peyğəmbər(s) və imamların borc məsələsinə münasibəti

Ötən bəhslərimizdə borc vermək və borc almaq barədə müəyyən qədər söhbət etdik. Burada çox yaxşı olar ki, Peyğəmbər(s) və imamlarımızın həyatında onların bu məsələyə münasibətlərindən söz açaq. Çünki Peyğəmbər(s) və imamlarımızın həm sözləri, həm hərəkətləri və həm də bir işə münasibətləri bizim üçün höccət, dəlil və sübutdur.

Allah yolunda ehtiyacı olan bir müsəlmana borc verməyin savabı barədə danışdıq. Həmçinin borc almağın bəyənilməyən bir əməl olmadığını da vurğuladıq. Lakin bir insan ehtiyac üzündən başqa birisindən borc götürərsə, o, haram iş görməyib. Yəni dinimiz borc verməyi haram hesab etmir. Peyğəmbər(s) və imamlarımız bəzən ehtiyacı olan möminlərə borc verər, bəzən borcu olan möminlərin borcunu ödəyər, bəzən də özlərinin, yaxud başqalarının çətinliklərini həll etmək üçün borc alardılar.

قَالَ الإمامُ الكاظمُ (ع): مَن طَلَبَ هذا الرِّزقَ مِن حِلِّهِ لِيَعودَ بهِ عَلى نفسِهِ وعِيالِهِ كانَ كالمجاهِدِ في سبيلِ اللّه عزّ وجلّ ، فإن غَلَبَ عليهِ فَلْيَستَدِنْ عَلَى اللّه وعَلى رسولِهِ (صَلَّيَ اللهُ عَلَيهِ وَ آلِهِ) ما يَقوتُ بهِ عِيالَهُ

-İmam Kazim(ə) buyurur: “Özünün və ailəsinin təminatı üçün halal ruzi dalınca gedən şəxs Allah yolunda cihad edən kəs (mücahid) kimidir. Əgər o, bir qazanc əldə edə bilməsə,

Allaha və Onun peyğəmbərinə ümid edərək borc götürsün və ailəsinin yeməyini təmin etsin.”[1]

Bu hədisdən başa düşürük ki, insan çox ehtiyacı olduğu bir halda və ailəsini təmin etmək məqsədilə borc götürə bilər. Qeyd olunduğu kimi, bəzən imamlarımız da müəyyən səbəblərə görə borc götürürdülər. Nümunə üçün onların həyatından bəzi nümunələrə diqqət yetirək.

Rəvayət olunur ki, bir gün İmam Səccad(ə) dolanışığının çətin olduğunu görüb nökərinə buyurdu: “Mənim üçün on min dirhəm borc götür. İmkan əldə etdikdən sonra həmin borcu qaytararıq.”

Digər bir rəvayətdə İmam Baqirdən(ə) belə nəql olunur ki, Həzrət Əli(ə) dünyasını dəyişdikdə səkkiz yüz min dirhəm borcu var idi. İmam Həsən(ə) onun bağlarından birini beş yüz min dirhəmə, digər bağı isə üç yüz min dirhəmə satıb atasının borclarını qaytardı.

Həmçinin rəvayət olunur ki, İmam Hüseyn(ə) şəhid olarkən onun da borcu var idi. İmam Səccad(ə) Həzrətin(ə) bağını üç yüz min dirhəmə satıb onun borclarını ödədi.

Şəxsən İslam Peyğəmbəri(s) də bəzən ailəsini təmin etmək üçün borc götürərdi. Belə rəvayət olunur ki, günlərin birində Peyğəmbərin(s) evində yeməyə çörək yox idi. Peyğəmbər(s) qonşusunun qapısına gəlib ondan borca iyirmi batman arpa aldı. Bəziləri yazırlar ki, həmin qonşu hətta müsəlman da deyildi. Peyğəmbər(s) həmin arpanı evinə apardı və imkan əldə edən kimi qonşunun borcunu qaytardı

## Məsumların borc üçün qapılarına gələnlərlə rəftarı

[1] Mizanül-hikmə, 4-cü cild, səh.1828.

Qeyd olundu ki, məsumlar bəzi hallarda öz yaşayışlarını təmin etmək üçün borc götürürdülər. Bundan əlavə, hər kəs onların qapısına borc üçün gəlsəydi, onu əliboş geri qaytarmazdılar. Həmçinin bir müsəlmanın başqasına borclu olduğunu gördükdə onun borcunu da ödəyərdilər.

İmam Hüseynin(ə) zamanında ənsarlardan bir nəfər Həzrətin(ə) hüzuruna gəlib salam verdi. İmam Hüseyn(ə) salamın cavabını aldıqdan sonra onun əhvalını soruşdu. Həmin şəxs cavab verərkən İmam(ə) hiss etdi ki, bu kişi ehtiyac üzündən borc üçün gəlmişdir. Buna görə də onu qabaqlayıb buyurdu: “İstəyini dilinə gətirmə. Qoy sənin ehtiramın sınmasın. Sadəcə qələm və kağız götür yaz və mənə ver. Həmin şəxs kağız və qələm götürüb belə yazdı: Mənim filankəsə beş yüz dinar borcum var. Həmin şəxs borcunu tez-tez məndən tələb edir. Mənim hələ ki, həmin borcu qaytarmağa imkanım yoxdur. Xahişim budur ki, siz ondan mənim üçün bir neçə müddətlik möhlət alasınız. İmkan düzəldən kimi aparıb onun borcunu qaytararam.”

İmam Hüseyn(ə) kağızı ondan alıb oxudu. Oxuduqdan sonra o biri otağa keçib min dinar pul gətirdi. Pulları həmin kişiyə verib buyurdu: “Beş yüz dinarı aparıb borcunu verərsən, beş yüzünü də özün və ailən üçün xərcləyərsən.”

Məhəmməd ibn Abdullah adli bir şəxs deyir: “Mənim o qədər borcum var idi ki, ödəyə bilmədiyim üçün girinc olub qalmışdım. Borc verənlər də məni yaman sıxışdırırdı. Günlərin birində Mədinəyə İmam Museyi Kazimin(ə) yanına gəldim və vəziyyətin nə yerdə olduğunu ona söylədim. İmam Museyi Kazim(ə) evə gedib tez də qayıtdı. Nökəri yanında olduğu üçün ona buyurdu: Sən get buradan. Nökər getdikdən sonra İmam(ə) içində üç yüz dinar olan kisəni mənə uzatdı. Mən pulları ondan alıb bütün borclarımı ödədim və yaşayışımı düzəltdim.”

Üsamə ibn Zeyd Peyğəmbərin(s) səhabələrindən biri idi. Günlərin birində xəstələnmişdi. İmam Hüseyn(ə) onun əyadətinə getdi. Salam- kəlamdan sonra İmam(ə) ondan soruşdu: “Nə üçün səni belə qəmli görürəm? Üsamə dedi: Ey Allahın höccəti, mənim altmış min dirhəm borcum var. Xəstəliyim bir tərəfə, borclara görə çox narahatam. İmam(ə) buyurdu: Narahat olma, mən sənin borclarını ödəyərəm.

Üsamə dedi: Qorxuram ki, ölsəm camaatın haqqı boynumda qalacaq.

İmam(ə) buyurdu: Qorxma, sən ölməmişdən əvvəl mən sənin borclarını ödəyərəm.”

Bu söhbətdən sonra İmam(ə) onun bütün borclarını ödədi və onun üçün xəbər göndərdi ki, sənə verdiyim vədi yerinə yetirdim.

İmam Səccadın(ə) zamanında Məhəmməd ibn Üsamə adlı bir mömin xəstələnmişdi. İmam Səccad(ə) bir qrup mömin və ağsaqqallarla onun əyadətinə getdi. Salam-kəlamdan sonra Məhəmməd ibn Üsamə onlara dedi: “Mənim filan qədər borcum var. İmam Səccad(ə) buyurdu: Sənin borcunun üçdə bir hissəsini mən ödəyərəm. Məhəmməd dedi: Bəs qalanını necə ödəyərəm? İmam(ə) buyurdu: Hamısını mən ödəyərəm. Mən ona görə üçdə bir hissəsini dedim ki, bəlkə bu savaba qoşulmaq istəyən olsa, o da qoşulsun. İndi ki, belə oldu, sənin borclarının hamısını mən ödəyərəm.”

Buradan görürük ki, həm İslam Peyğəmbəri(s), həm də məsum imamların özləri də borc almış, ehtiyacı olanlara borc vermiş və başqa möminlərin borclarını və ehtiyaclarını belə ödəmişlər. Borc məsələsi İslamda çox gözəl bir işdir. İnsan üzünün suyu tökülməsin deyə bacardığı qədər kiminsə qapısına getməsə daha yaxşı olar. Əgər ehtiyac və dolanışığın çətinliyi ucbatından borc alarsa, heç bir eybi

olmaz. Həmçinin insan borc üçün qapısına gələnləri imkan olduğu halda əliboş geri qaytarmamalıdır.

## Borcu vaxtlı-vaxtında qaytarmağın əhəmiyyəti

İslam hədislərində dəfələrlə təkid olunmuşdur ki, insan borc götürdükdə onu vaxtlı-vaxtında sahibinə qaytarmalıdır. Ehtiyac üzündən qapıya borc üçün gələni əliboş geri qaytarmamaq təkid olunduğu kimi, borc alan şəxsə də təkidlə bildirilir ki, aldığı borcu qərarlaşdığı vaxtda sahibinə qaytarsın. İslam dini borcu hətta bir gün belə yubatmağa icazə verimir. Çünki insanın kimdənsə aldığı borc bir növ əmanətdir və əmanətə heç bir vəchlə xəyanət etmək olmaz. Əgər bir insan digərindən müəyyən vaxta qədər borc alırsa, həmin vaxt aparıb mütləq qaytarmalıdır. İnsan söz verdikdən sonra sözünə əməl etməməklə sözünün kəsərini itirməməlidir. Borcu vaxtında qaytarmamaq təkcə həmin şəxsin sözünü qiymətdən salmır. Bu elə bir şeydir ki, cəmiyyətdə də öz mənfi təsirini göstərir. Yəni borc alan şəxs borcu vaxtında qaytarmamaqla borc verən şəxsi bu savab işi görməkdən çəkindirir. Belə ki, borc verən şəxs borcu alanların əmanəti vaxtında qaytarmayacağını düşünüb özünə söz verir ki, bundan sonra daha heç bir kəsə borc verməsin. İslam dini borc verməklə insanların bir-birinin əlindən tutmasını istədiyi halda, borc alan şəxs vaxtında borcu qaytarmamaqla bu xeyir işin qarşısının kəsilməsinə səbəb olur.

Peyğəmbərin(s) zamanında müsəlmanlardan biri dünyasını dəyişdi. Onun ikicə dinar borcu var idi. Peyğəmbərə(s) onun dünyasını dəyişdiyini xəbər verdilər. Peyğəmbər(s) onun cənazə namazında iştirak etmədi.

Peyğəmbər(s) bu əməli ilə hamıya başa saldı ki, hər bir borclu insan mütləq borcunu qaytarmalıdır. Sual oluna bilər ki, Peyğəmbər (s) və bəzi imamlarımız dünyadan gedərkən borcu qalmışdı. Əgər Peyğəmbərin(s) həmin şəxsin cənazə namazında iştirak etməməsinin səbəbi bu idisə, bəs nə üçün dünyadan köçməzdən əvvəl borclarını qaytarmadı? Övladları həmin borcları nə üçün sonradan qaytardı?

Bu sualın cavabı belədir ki, Həzrət Peyğəmbərin(s) onun cənazə namazında iştirak etməməsinin iki səbəbi var idi. Səbəblərdən biri bu idi ki, Həzrət(s) bununla bütün müsəlmanlara başa salırdı ki, din insanın borclu halda dünyasını dəyişməsinə mənfi baxır. İkinci və əsas səbəbi isə bu idi ki, Peyğəmbər(s) həmin şəxsin imkanı olduğu halda borcunu qaytarmadığını bilirdi. Həzrət Peyğəmbər(s) bu hərəkəti ilə bütün müsəlmanlara başa saldı ki, imkanı olan halda borcu qaytarmamaq çox pis işdir.

قَالَ رَسُولُ اللهِ(ص): مَن يَمطُلْ على ذِي حَقٍّ حَقَّهُ وهُو يَقدِرُ على أداءِ حَقِّهِ فعلَيهِ كُلَّ يومٍ خَطيئةُ عَشّارٍ.

-Həzrət Peyğəmbər(s) başqa bir hədisdə belə buyurur: "Əgər bir şəxs öz borcunu ödəməyə imkanı olduğu halda, bu ödənişi yubadırsa, hər keçən gün (zorla) bac (xərac) yığanın (soyğunçuluq edənin) günahı onun üçün yazılar."[1]

Buna görə də insan aldığı borcu mütləq vaxtında qaytarmalıdır. Nə qədər tez qaytarsa, bir o qədər onun başının ucalığıdır. Bəlkə borc verən insan həmin gün öz işlərini hesab-kitab edib borc alanı gözləyir ki, pulu gətirsin. Borc verən borc alana inanıb və sözünü söz bilərək ona borc vermişdir. Borc alan əgər onu vaxtında qaytarmasa, sözünün

[1] Biharul-ənvar, 103-cü cild, səh.142.

etibarı itəcək. Belə olduqda arada olan insaniyyət və söz hörmətdən düşər.

قَالَ الصَّادِقُ(ع): اَلسُّراقُ ثَلاثَةٌ: مَانِعُ الزَّكَاة، وَمُستَحِلُّ مُهُورِ النِّسَاء، وَ كَذَلِكَ مَن اِستَدَانَ وَلَم يَنْوِ قَضَائَهُ

-İmam Sadiq(ə) buyurur: "Bu üç insan oğrudur: Zəkat (şəriətin nəzərdə tutduğu vergi) verməyən, (evləndikdə) qadınların mehriyəsini verməyən, habelə borc alıb qaytarmaq niyyətində olmayan kəs."[1]

Əbu Sümamə deyir: "Həcc ərəfəsində İmam Baqirin(ə) görüşünə getmişdim. Söhbət Həcc səfərindən düşdükdə dedim: Allah qoysa, mən də bu il Həcc ziyarətinə gedəcəyəm. Buna görə də hazırlıq işləri görürəm. Amma müəyyən qədər borcum var. Hələ onu qaytara bilməmişəm. Fikrimdə var ki, Həcc ziyarətindən sonra qaytarım."

İmam Baqir(ə) buyurdu: "Belə olmaz. Qayıt və (camaatın) borcunu qaytar. Allahın görüşünə boynunda kiminsə haqqı qalmayan halda get. Çünki mömin heç vaxt (əmanətə, borca) xəyanət etməz."[2]

Şəriət baxımından borcu yubatmaq günah işdir. Buna görə də insan aldığı borcu vaxtında qaytarmalıdır. Əgər işdi birdən imkan tapıb qaytara bilməsə, heç olmasa borc aldığı şəxsdən üzrxahlıq edib bir az da möhlət istəsin. Çıxılmaz vəziyyətdə qaldıqda ən azından heç olmasa zəng edib, bir neçə gün də möhlət ala bilər. Müctəhidlər borcu qaytarmamaq barədə öz risalələrində bu işin günah olmasını belə yazırlar: "Əgər tələbkar öz borcunu vaxtında tələb etsə,

---

[1] Biharul-ənvar,103-cü cild, səh.146.
[2] Vəsailüş-şiə,13-cü cild, səh.85.

borclu olan şəxs imkanı olduğu halda onu dərhal qaytarmalıdır. Əgər qaytarmasa və yubatsa, hər an günahkar sayılır.”

## Borcluya (borc alana) möhlət verməyin əhəmiyyəti

Savab və xeyirxah əməllərdən biri budur ki, borc verən şəxs borc verdiyi adamın imkansızlığını nəzərə alaraq ona möhlət versin. Yəni borc alan şəxs həqiqətən də əlindən gələn qədər çalışır ki, borcunu qaytarsın. Nə qədər çalışırsa, yenə də vaxtında çatdırmaq üçün imkan əldə edə bilmir. Bunun üçün çox narahatlıq keçirir. İslamın buyurduğuna əsasən, çox yaxşı olar ki, borc verən insan onun imkansızlığını nəzərə alaraq möhlət versin. Allah-təala “Bəqərə” surəsində borc barədə söhbət açdıqdan sonra 280-ci ayədə belə buyurur:

وَإِن كَانَ ذُو عُسْرَةٍ فَنَظِرَةٌ إِلَى مَيْسَرَةٍ وَأَن تَصَدَّقُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

-Əgər (borclu şəxs) sıxıntı və ehtiyac içində olsa, onda imkanı olana kimi ona möhlət vermək (sizin öhdənizdədir). Və sədəqə verməyiniz (borcu bağışlamaq) sizin üçün daha xeyirlidir, əgər bilsəydiniz!

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَنْظَرَ مُعْسِراً، كانَ لَهُ عَلَى اللهِ فِي كُلِّ يوْمٍ صَدَقَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs imkansız borcluya möhlət versə, Allah onun hər gününə sədəqə savabı yazar.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَرادَ أَنْ يُظِلَّهُ اللهُ فِى ظِلِّ عَرشِه يَومَ لا ظِلَّ إلاّ ظِلُّهُ فَلْيَنْظُر مُعْسِراً أَوْ لِيَدَعْ لَهُ عَن حَقِّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allahın ərşinin kölgəsindən başqa kölgə olmadığı bir gündə (qiyamət günündə) hər kəs Allahın ərşinin kölgəsində daldalanmaq istəyirsə, elə isə ona borcunu qaytara bilməyən imkansıza möhlət versin, yaxud haqqını (həmin borcu) ona bağışlasın.”[2]

Məhəmməd ibn Əbi Ümeyr İmam Museyi Kazimin(ə) şagirdlərindən biri idi. Onu Əbi Ümeyr ləqəbi ilə çağırardılar. Yəni o, daha çox bu ləqəblə tanınırdı. Öz-özlüyündə də çox təqvalı və möhtərəm bir şəxsiyyət idi. O, ticarətlə məşğul olur və parça alveri edirdi. Günlərin birində möminlərdən bir nəfər onun yanına gəlib bir aylıq on min dirhəm borc istədi. Əbi Ümeyr çıxarıb ona on min dirhəm borc pul verdi. Borcu qaytarmağın vaxtı yaxınlaşırdı. Həmin şəxsin isə borcu qaytarmaq üçün heç bir imkanı yox idi. Əbi Ümeyr də bilirdi ki, onun imkanı yoxdur.

Vaxt-vədə tamam olan kimi həmin şəxs Əbi Ümeyrin qapısını döydü. Əbi Ümeyr qapını açıb gördü ki, həmin şəxs ondan aldığı on min dirhəm borcu gətirib. Ayıq adam olduğu üçün ondan soruşdu: “Mən sənin kasıb bir insan olduğunu bilirəm. Həmçinin bilirəm ki, sən borcu bu tezlikdə imkan

[1] Biharul-ənvar,103-cü cild, səh.151.
[2] Biharul-ənvar,103-cü cild, səh.151.

edib qaytara bilməyəcəksən. Bu pulu haradan əldə etmisən? Bəlkə başqasından borc alıb gətirmisən? Bəlkə sənə miras çatıb? Həmin şəxs dedi: Xeyr, bunların heç biri deyil. Sənin yanında xəcalətli qalmamaq və borcumu vaxtında qaytarmaq üçün evimi satıb sənin pulunu gətirmişəm. Əbi Ümeyr dedi: And olsun Allaha, mən heç vaxt bu pulu səndən götürmərəm. Ağam İmam Sadiq(ə) buyurmuşdur ki, insan borcunu qaytarmaq üçün evini satmamalıdır. Düzdür, mənim özümün də bu pula ehtiyacım var. Amma onun bir dirhəmini belə səndən götürmərəm. Get, satdığın evi geri al və rahat yaşa."

Burada şəriətlə bağlı bir məsələni də möminlərin nəzərinə çatdırıram. Həmin məsələ budur ki, borc verən şəxs öz borcunu istəyə bilər, vaxtında qaytarmasını onun yadına sala bilər və vaxtında evinə gedib pulunu tələb edə bilər. Amma Məkkədə bu işi görə bilməz. Məsələn, fərz edək ki, Bakıda bir nəfərin sənə 100 manat borcu vardır. Məkkəyə gedərkən təsadüfən orada həmin şəxslə rastlaşdıqda həmin borcu ondan tələb edə bilməzsən. Şəriət bu işə qadağa qoyur. Hətta onu gördükdə yaxşı olar ki, ona heç salam da verməyəsən. Çünki ola bilsin ki, səni görüb borclu olduğuna görə xəcalət çəkər. Yaxşı olar ki, borc verən onun utanmaması üçün ona salam da verməsin.

قَالَ الرِّضَا(ع): إِن كَانَ لَكَ عَلى رَجُلٍ حَقٌّ فَوَجَدْتَهُ بِمَكَّة أَو فِي الْحَرَم، فَلا تُطَالِبهُ وَلا تُسَلِّم عَلَيهِ فَتَفزَعَهُ، إِلا أَن تَكُونَ أَعطَيتَهُ حَقَّكَ فِي الْحَرَم فَلا بَأس أَن تُطالِبهُ فِي الْحَرم

-İmam Rza(ə) bu barədə belə buyurur: "Əgər sənin bir nəfərdə haqqın (borcun) qalmış olsa, Məkkədə, yaxud Hərəmdə (Kəbə ətrafında) həmin şəxslə rastlaşdıqda borcu ondan istəmə və ona salam da vermə. Çünki o, səndən utana

və ya həyəcanlana bilər. Lakin Məkkədə (hərəmdə) ona verdiyin borcu elə oradaca almağın eybi yoxdur.”[1]

## Borcu yazmağın(qeyd etməyin) əhəmiyyəti

Borc barədə qeyd olunası mətləblərdən biri də budur ki, borc verib- alarkən onu bir müqavilə kimi qeyd etmək daha gözəldir. İnsan nə qədər yaxın qohumu da olmuş olsa belə borc alıb-verdikdə yazıb imzalamalıdır. Daha yaxşı olar ki, ədalətli şahidlər də bu məsələdə iştirak etsinlər. Allah-təala “Bəqərə” surəsinin 282-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا تَدَايَنتُم بِدَيْنٍ إِلَى أَجَلٍ مُّسَمًّى فَاكْتُبُوهُ وَلْيَكْتُب بَّيْنَكُمْ كَاتِبٌ بِالْعَدْلِ...

-Ey iman gətirənlər, (borc almaq və ya alver etməklə) müəyyən müddətə qədər bir-birinizə borclu olduqda, onu yazın. (Borc sənədini) sizin aranızda bir katib ədalətlə yazmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اَصنَافٌ لا يُستَجَابُ لَهُم. مِنهُم مَن اَدَانَ رَجُلاً دَينًا اِلى اَجَلٍ فَلَم يَكتُب عَلَيهِ كِتاباً وَلَم يَشهَد عَلَيهِ شَهورًا

-Həzrət Peyğəmbər(s) buyurur: “Bir neçə dəstə insanın, o cümlədən bir kəsə müddətli borc verən, amma onu qeyd etməyən, yaxud bir neçə şahid götürməyən kəsin duası (nifrini) müstəcəb olmaz.”[2]

---

[1] Biharul-ənvar,103-cü cild, səh.156.
[2] Mizanül-hikmə, 4-cü cild, səh.1830.

Həzrət Peyğəmbər(s) bu hədisdə bizə öyrədir ki, borc verərkən onu yazıb qeydə almaq lazımdır. Əgər yazıb müqavilə imzalamasalar, borc alan şəxs onun pulunu qaytarmadıqda onun (borc verənin) nifrin və qarğışı qəbul olunmaz. Çünki günahkar özüdür. Gərək borc alan şəxslə müqavilə imzaladıqdan sonra ona borc verərdi.

قَالَ الصَّادِقُ(ع): مَن ذَهَبَ حَقّهُ عَلَى غَيرِ بَيِّنَةٍ لَم يُوجَر

-İmam Sadiq(ə) buyurur: "Hər kəs bəyan etmədən (müqavilə bağlamadan) borc versə və onun haqqı (borcu) qayıtmasa, ona savab düşmür."[1]

Yəni borc verən insanın əlində müqavilə sənədi olmasa, ona savab verilmir.

Hər bir məsələdə, xüsusilə mövzumuzda olan borc məsələsində İslamın çox dəqiq və incə qanunları vardır. Əgər biz İslam dininin bütün qanunlarına və incəliklərinə dəqiqliklə riayət etsək, həm dünyamızı, həm də axirətmizi abad etmiş olarıq.

**5. İlahi əhd-peymanına qarşı etinasızlıq**

Bizim ən ümdə mövzu və bəhsimiz peyğəmbərlərin gəlməsinin məqsədidir. Bu barədə əvvəl çox söhbətlərimiz oldu. Qeyd olundu ki, onların məqsədlərindən biri insanların nəfsinin saflaşması ilə məşğul olub, onların ruhlarını təmizləməkdir. Ruhun paklaşmasına səbəb olan amillər barədə də ətraflı bəhs etdik. Həmçinin paklaşma və saflaşmanın qarşısını alan amillərin dördü ilə tanış olduq. Bu bəhsimizdə ruhun saflaşmasına mane olan və nəfsin paklaşmasının qarşısını alan beşinci amili nəzərinizə çatdırıram.

---

[1] Mizanül-hikmə, 4-cü cild, səh.1830.

İnsanın nəfsinin saflaşmasının qarşısını alan və ruhunun paklaşmasına mane olan amillərdən beşincisi vədəxilaf çıxmaqdır. Yəni hər kəs bağladığı əhd-peymanı sındırıb verdiyi sözün üstündə dayanmasa, saflaşa bilməyəcək və nuraniyyətə, paklığa çatmayacaqdır. Hər kəs verdiyi sözün üstündə dəqiq dayanıb bağladığı əhd-peymana sadiq olsa, ruhunu paklaşdırıb nəfsini saflaşdıra bilər. Allah-təala “Ali-İmran” surəsinin 77-ci ayəsində əhd-peyman barədə belə buyurur:

إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعَهْدِ اللّهِ وَأَيْمَانِهِمْ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لاَ خَلاَقَ لَهُمْ فِي الآخِرَةِ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Həqiqətən, öz əhd-peymanları və andları(nı - dini qəbul etmək barəsində olan əhd-peymanlarını və haqqa kömək üçün olan andlarını pozmaq) müqabilində ucuz bir qazanc (vəzifə və mal) əldə edən kəslərin axirətdə bir payları yoxdur. Həmçinin Allah onlarla danışmayacaq, Qiyamət günü onlara (rəhmət) nəzər(i) salmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu ayə barədə çox danışmaq olar. Ayə əsasən yəhudilər barədədir ki, Quran nazil olmamışdan əvvəl Tövratda və İncildə İslam Peyğəmbərinin(s) barəsində olan əlamətləri bilirdilər. Onlar İslam Peyğəmbərinin(s) gələcəyi və əlamətləri barədə məruzə və məqalələr yazmışdılar. Axırıncı Peyğəmbərin(s) əlamətlərini yazıb imzalamışdılar. İslam Peyğəmbəri(s) zühur etdikdən sonra həmin əlamətlər onda göründü. Peyğəmbərin(s) müxalifləri onun əlamət və nişanlarını yazıb imzalayanları incitməyə başladılar. Onlar müxaliflərin təzyiqlərini görüb yazıb imzaladıqlarını boyunlarından atmaq istədilər. Onlar dünyada rahat və asudə

yaşamaları üçün yazdıqlarını təkzib edib, sözlərinin üstündə durmadılar. Onlar stəyirdilər and içib desinlər ki, bu sözləri biz yazmamışıq. Hədis və rəvayətlərə əsasən, belə bu halda Allah-təala "Ali-İmran" surəsinin 77-ci ayəsini nazil edərək onları tənqid etdi və başa saldı ki, həqiqətən, öz əhd-peymanları və andları müqabilində ucuz bir qazanc (vəzifə və mal) əldə edən kəslərin axirətdə bir payları yoxdur.

Buna görə də insan əhd-peyman bağladıqdan sonra heç bir vəchlə öz peymanını sındırmamalıdır. Bu məsələni Quranın müxtəlif ayələrində oxumaq olar. "Maidə" surəsinin 1-ci ayəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَوْفُواْ بِالْعُقُودِ

-Ey iman gətirənlər, əhd-peymanlarınıza (nəzir, əhd və and içmək kimi özünüzlə olan peymanlara, müqavilə və digər sazişlər kimi camaatla bağladığınız peymanlara və dinin hökmlərinə riayət etməyi boynuna götürmək kimi Allahla olan peymanlara ki, bəzi şeylərin halallığına və haramlığına riayət etmək də bu qəbildəndir) vəfa edin.

"İsra" surəsinin 34-cü ayəsində belə buyurulur:

وَأَوْفُواْ بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كَانَ مَسْؤُولاً

-Allahla olan əhd-peymanınıza, yaxud sizin özünüzün bir-birinizlə olan əhd-peymanınıza vəfa edin. Həqiqətən (qiyamət günü) peymandan soruşulacaqdır (peyman sahibindən, ya canlandırılaraq peymanın özündən soruşacaqlar).

Allah-təala "Möminun" surəsinin əvvəllərində möminlərin nişan və əlamətlərini saydıqdan sonra 8-ci ayədə belə buyurur:

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Və o kəslər ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və (Allahın onlarla bağladığı, yaxud özləri öz aralarında bağladıqları və ya camaatla bağladıqları) əhd-peymanlarına riayət edirlər.

قَالَ رَسُولُ اللهِ(ص): أَقرَبُكُم غَدًا مِنّى فِى الْمَوقفِ أَصدَقُكُم لِلحَدِيث وَ أَداكُم لِلأَمَانَة وَ اَوفَاكُم بِالعَهدِ وَأَحْسَنُكُمْ خُلُقاً وَأَقْرَبُكُمْ مِنَ النَّاسِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü mənə ən yaxın olanınız düzgün danışan, əmanətə xəyanət etməyən, əhdinə vəfalı olan və xoşəxlaqlı olanınızdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن كَانَ يُؤمِنُ بِاالله وَاليَومِ الآخِرِ فَليَف اِذَا وَعَد

-Həzrət Peyğəmbər(s) buyurur: "Allaha və qiyamət gününə imanı olan kəs (hər zaman bağladığı) əhdinə vəfalı olmalıdır."[2]

قَالَ رَسُولُ اللهِ(ص): لا دِينَ لِمَن لا عَهدَ لَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əhdinə vəfa etməyənin dini yoxdur."[3]

Ayə və hədislərdən çox açıq şəkildə görürük ki, əhdə vəfasızlıq etmək və peymanı sındırmaq necə də pis işdir. Fərqi yoxdur ki, insan kiminlə əhd-peyman bağlayır. İnsan istər Allahla, istərsə də insanlarla bağladığı əhdi heç vaxt pozmamalıdır. Məsələn, əgər bir insan "La ilahə illəllah" -

---

[1] Biharul-ənvar, 77-ci cild, səh.156.
[2] Üsuli Kafi, 4-cü cild, səh.69.
[3] Mizanül-hikmə, hədis-22288.

deyirsə, deməli Allahla əhd-peyman bağlayır. Buna görə də çox diqqətli olmalıdır ki, bağladığı əhdə vəfasızlıq və etinasızlıq etməsin.

Əbu Heysəm adlı bir mömin Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, mənim işlərim çox olduğu üçün bir qulluqçuya ehtiyacım var. Mümkün olduqda mənə bir qul bağışlasanız, çox yaxşı olardı."[1] Peyğəmbər(s) imkan olduğu təqdirdə bu məsələni həll edəcəyinə söz verdi. Günlərin birində Peyğəmbərin(s) hüzuruna üç əsir gətirdilər. Peyğəmbər(s) həmin əsirlərin birini, bir möminə, digər əsiri başqa möminə verdi. Üçüncü əsir qalmışdı ki, Xanım Fatimeyi Zəhra(s.ə) atasının yanına gəlib dedi: "Ya Rəsulallah, mənim ev işlərim çox olduğuna görə işləri təkbaşına etmək mənim üçün çox ağırdır. Mənə də bir qulluqçu bağışla." Həzrət Zəhra(s.ə) bu sözü deyərkən Peyğəmbərin(s) Əbu Meysəmə verdiyi söz yadına düşdü və həmin qulu qızına yox, Əbu Heysəmə verdi. Sonra buyurdu: "Doğrudur ki, qızım Fatimə(s.ə) mənim yanıma gəlib qulluqçu istədi. Onun qulluqçuya daha çox ehtiyacı var idi. Amma mən Əbu Heysəmə söz verdiyim üçün həmin əsiri qızıma yox, ona (Əbu Heysəmə) verdim."

Görürük ki, Həzrət Peyğəmbər(s) əhdə vəfalı olmağı bizə təkidlə bildirir və öz əməli ilə də bunu sübuta yetirir. Sözün şərafəti budur ki, əməl də onu təsdiq etmiş olsun. Hər kəsin əməli sözlərini təsdiq etməsə, onun sözləri boş sözlərdən

[1] O zamanlar Peyğəmbər(s) müharibələrdən əsir düşənləri möminlərə паylayırdılar. Onlar həmin əsirləri qulluqçu kimi saxlayır və onların tərbiyəsi ilə məşğul olurdular. Boyunlarına hansısa bir günahın kəffarəsi gəldikdə həmin qulu azad etməklə günahlarını təmizləyərdilər.

başqa bir şey deyildir. Boş sözlərin də heç bir vaxt etibarı olmaz. Əhdə vəfalı olmaq imanın nişanələrindən biridir.

قَالَ عَلِيٌّ(ع): مِن دَلائِلِ الإِيمان اَلوَفَاءُ بِالعَهد

-Həzrət Əli(ə) buyurur: "Əhdə vəfalı olmaq imanın əlamət və nişanələrindəndir."[1]

İkinci xəlifənin zamanı Sasanilərin dövrünə təsadüf edirdi. O zamanlar böyük ölkələrdə yeddi şahdan biri Kəsra hesab olunurdu. Ona şahlar-şahı deyərdilər. Müsəlmanların qoşunu Əhvaz şəhərinə qədər gəlib çatmışdı. O vaxtlar Əhvazda Hurmuzan adlı bir şəxs şahlıq edirdi. Müsəlmanlar oranı da fəth edib hamısını əsir götürdülər. O cümlədən Hurmuzan şahı da əsir aldılar və onu ikinci xəlifənin yanına apardılar. Xəlifə müəyyən fərmanlar verdikdən sonra qərara aldı ki, əgər Hurmuzan İslamı qəbul etməsə, onu öldürsün. Hurmuzanı başqa əsirlərdən ayıraraq bir otaqda saxlayırdılar. Hurmuzan xəlifəyə dedi: "İmkan varsa göstəriş ver ki, içmək üçün mənə su gətirsinlər." Xəlifə nökərlərə su gətirməyi əmr verdi. Hurmuzan üçün taxta kasada su gətirdilər. Hurmuzan kasanı alıb baxdıqdan sonra xoşuna gəlmədi. Çünki həmişə büllur və şüşə qablarda su içirdi. Taxta kasa olduğu üçün onu qaytarıb dedi: "Mən bu kasadan su içmərəm." Xəlifə göstəriş verdi ki, onun üçün şahlara layiq qabda su gətirsinlər. Onun üçün yaxşı və gözəl bir qabda su gətirdilər. Elə bu zaman Həzrət Əli(ə) də ora gəldi. Hurmuzan həmin qabı dodaqlarına yaxınlaşdırıb geri qaytardı. Özü bilərəkdən bir neçə dəfə bu hərəkəti etdi. Xəlifə onun hərəkətlərini diqqətlə izlədikdən sonra elə başa düşdü ki, o, qorxusundan belə edir. Buna görə də ona dedi: "Narahat olma, nə qədər ki, o suyu içməmisən səni

[1] Mizanül hikmə, hədis-22289.

öldürməyəcəyəm.” Hurmuzan bu sözü eşidən kimi su qabını yerə atdı. Qab sındı və su yerə dağıldı. Xəlifə üzünü Həzrət Əliyə(ə) tutub dedi: “Ya Əli(ə), bəs indi mən nə edim? Həzrət Əli(ə) buyurdu: Sözünün üstündə dur və əhdinə vəfalı ol. Sən özün dedin ki, o, suyu içməyənə qədər səni öldürməyəcəyəm. Su yerə dağıldı və o da içmədi. Belə olduqda sən daha onu öldürə bilməzsən. Amma ondan vergi almaq olar.”

Hurmuzan Həzrət Əli(ə) ilə xəlifənin söhbət etdiyini görüb soruşdu: “Nə qərara gəldiniz.” Onlar həmin müzakirə etdikləri məsələni ona danışdılar. Hurmuzan bu sözləri eşitdikdən sonra üzünü xəlifəyə tutub dedi: “Mən indi hər şeyi başa düşdüm. Bir dində ki, bir kəlmə sözə görə insanların taleyi dəyişib yaxşılığa doğru gedirsə və həmin bir kəlmə söz verdikdə həmin söz olduğu kimi qalıb dəyişmirsə, belə bir dinin yolunda canımı da qurban verməyə hazıram.”

Sonra o, gəlib xəlifənin yanında əyləşdi və dedi: “İslamı qəbul etmək üçün nə iş görməliyəm.” Xəlifə ona kəlmeyi-şəhadəti başa saldı. O da kəlmeyi-şəhadətini deyib müsəlman oldu.

Hər bir insanın borcudur ki, nəticəsindən asılı olmayaraq verdiyi vədinə əməl etsin. Əhdə vəfalı olmaq, verilən sözə əməl etmək insanın insaniyyət və ilahi vəzifəsidir. Bu işin axırının necə qurtarmasından asılı olmayaraq, insan mütləq verdiyi sözə əməl etməli, əhd-peymanını heç bir vəchlə sındırmamalıdır.

Günlərin birində İmam Səccaddan(ə) soruşdular: “Bizim üçün İslamın şəriətini bir cümlə ilə izah edə bilərsinizmi?” İmam Səccad(ə) buyurdu: “Haqqı söyləmək, ədalətlə hökm vermək və əhd-peymana vəfalı olmaq.”

Hər bir müsəlmana əhdinə vəfa etməsi vacibdir. Bu elə bir əməllərdəndir ki, insanın ruhunu paklaşdırıb təmizləyər.

Əks təqdirdə insan onun üçün nəzərdə tutulmuş məqsədə (saflaşmağa) çata bilməyəcək.

**Allahın rəhmət və bərəkəti olsun sizlərə!**

# MÜNDƏRİCAT


QURANDA KİTAB ƏHLİNƏ XİTABLAR (YEDDİNCİ NÜMUNƏ)
Peyğəmbərlərin zəruriliyi ....................................................3
Nübüvvətin zəruriliyi və İslam Peyğəmbərinin(s) göndərilməsi ..............................................................5
İnsanın yaradılışında məqsəd..................................................6
Yolları tanımaq və düzgün seçim ..........................................9
Ağıl və hissiyyatın kifayət etməməsi....................................10
Üç mühüm mətləb ...............................................................13
Elm .......................................................................................13
Peyğəmbərlərin elmi mükəmməl elmdir ..............................27
Tərbiyəçi (əxlaq müəllimi) ..................................................28
Əxlaq elmdən yaranırmı? ....................................................29
Tərbiyənin ən gözəl yolu hansıdır? ......................................31
Peyğəmbərlər ən gözəl tərbiyəçidirlər...................................32
Qanun ...................................................................................37
İnsan ictimai məxluqdurmu? ................................................38
İnsanın qanunlara olan ehtiyacı ............................................40
Ən yaxşı qanunverici kimdir?................................................42
Lütf və mərhəmət üslubu ......................................................47
İnsanın təfsiri və tərifi ..........................................................51
Quranda lütf və mərhəmətin qaydası ....................................53

Hədislərdə lütf və mərhəmətin qaydası ................................61
Peyğəmbərlərin hədəfi .........................................................63
Allaha ibadət etməyə dəvət ..................................................63
Cəmiyyətdə ədalətin bərpası və icrası ..................................70
Həzrət Əlinin(ə) ədaləti .........................................................72
Həzrət Əlinin(ə) qardaşı ilə rəftarı ........................................72
Həzrət Əlinin(ə) qızı ilə rəftarı ...............................................74
Həzrət Əlinin(ə) Təlhə və Zübeyrlə rəftarı ............................75
Həzrət Əlinin(ə) oğru ilə rəftarı .............................................76
İnsanlar arasında hökm vermə və hakimlik ...........................80
Qiyamət günü ərşin kölgəsində daldalananlar........................83
Ədalətsiz hakimlik və nahaq (yalançı) şahidlik .....................86
İlahi maarif və paklaşmanın yolları .......................................88
Peyğəmbərlik və imamət vəzifəsi...........................................94
İnsanların paklaşdırılması Peyğəmbərin(s)
əsas işlərindəndir ................................................................ 102

NƏFSİ VƏ RUHU PAKLAŞDIRAN AMİLLƏR .............108
Mərifət ..................................................................................108
Təfəkkür və düşüncə ...........................................................116
Qəflət ...................................................................................122
Qəflətin nəticəsi ...................................................................123
Allah insanları qəflətdən çəkindirir ......................................124
İnsan bu dünyada ibrət almalıdır .........................................126
Hikmət .................................................................................130
Hikmətin mənası ..................................................................131
Hikmətin fayda və əlamətləri ...............................................133
Bəhlul danəndə və Harun ər-Rəşid ......................................135
İnsanda hikmət yaradan amillər ..........................................138
Hikmətli insanın əlamət və xüsusiyyətləri...........................142
Nəfslə mübarizə ...................................................................142
İxlas .....................................................................................146
Təqva ...................................................................................147

Az yemək və az danışmaq ....................................................148
Hikmətin fayda və nəticəsi ................................................150
Haqqa itaət etmək ............................................................153
Haqqı müdafiə etmək .......................................................160
Haqqı tanımağın meyarı ....................................................163
İmam Əli(ə) haqqın meyarıdır ..........................................164
İnsanın özünü tanıması .....................................................166
İnsanın əbədi olması .........................................................167
İnsan öz qiymətini bilməlidir .............................................170
İnsanın qiyməti ................................................................172
Haram qidalardan qorunmaq .............................................177
Gecələr namaz qılıb ibadət etmək ......................................181
Allahın qorxusundan ağlamaq ...........................................182
Ölümü xatırlamaq və Quran oxumaq .................................185
Tövbə ..............................................................................188
Nəsuh tövbəsi ..................................................................191
Nəsuh tövbəsinin izah ......................................................192
Tövbədən öncə riayət olunası mühüm məsələlər ................193
İntibah .............................................................................193
Zəcr ................................................................................195
Hidayət ............................................................................195
Tövbədən sonra riayət olunası mühüm məsələlər .............197
Röyət...............................................................................201
Riayət..............................................................................203
Mühasibə.........................................................................207
Həzrət İbrahim(ə) və Nəmrudun qızı ................................209
Nə üçün qəlbimiz darıxır və bir yerdə qərar tutmur? .........210
İslam Peyğəmbərinin(s) şirinliyi .......................................218
Mühasibə.........................................................................222
Mühasibənin növləri ........................................................224
Əməldən əvvəlki mühasibə ...............................................225
Üç növ divan və məhkəmə ...............................................226
İnsanın əməlləri onun niyyətindən asılıdır .........................229

Əməldən sonrakı mühasibə ..............................................232
Nəfsi ilə hesab-kitab edənlərə Allah və Peyğəmbərin(s) yardımı ...........................................................................238
Mühasibənin faydaları .......................................................242
Qiyamət gününün sualları ..................................................247
Qiyamət günü barəsində sorğu-sual aparılmayacaq nemətlər254
Buşr Hafinin hekayəsi ........................................................258
Qiyamət gününün hesabını asanlaşdıran amillər ................259
Sileyi-rəhm .........................................................................262
Qane olmaq ........................................................................263
Xoşəxlaq və xoşrəftar olmaq .............................................264
Yaxşılıq etmək, sileyi-rəhmi kəsməmək və bağışlamaq ....264
Sorğu-sualsız cənnətə daxil olanlar ...................................265
Hər bir işdə ixlaslı olub səbir edənlər ................................266
Allahın itaətində olarkən və günahlardan çəkinərkən səbir edənlər.............................................................................270
Allah yolunda cihad edənlər ..............................................273
Dostluqları Allaha xatir olanlar .........................................274
Sədrai və Ayətullah Kuhistaninin əhvalatı ..........................275
Bəla əhli olanlar.................................................................278
Xəlvətdə günah etməyənlər ...............................................284
Aza qane olanlar ................................................................287
Sorğu-sualsız cəhənnəmə daxil olanlar ..............................290
Müşrik (və kafir) ................................................................290
Yolunu azmış və zalım rəhbər............................................293
Yalan danışan ticarətçi .......................................................293
Zinakar qoca ......................................................................294
Təkəbbürlülük edən mülkədarlar .......................................294
Paxıl alimlər .......................................................................294
Simic sərvətlilər .................................................................294
Qiyamət günü hesab-kitabın çətinliyi ................................295
Şadlıq və narahatlıq anları .................................................298
Cənnət qapılarının münafiqlərin üzünə bağlanması ..........300

Axirət gününə hazırlıq ......................................................300
Qiyamət günü Həzrət Əlinin(ə) xalis şiələri sorğu-sual olunmayacaq ......................................................302
Kövsər nədir?......................................................303
Hansı insanlar Kövsər hovuzunun kənarında olacaq? ........307
Kövsər hovuzundan istifadə etməyin şərtləri ....................310
Niyyətin xalis olması ......................................................310
Qəlbin saf və pak olması ..................................................310
İmkansızlara əl tutmaq ......................................................311
Borcluları sıxışdırmamaq ..................................................312
Peyğəmbərin(s) vəsi və canişininə itaət etmək ..................312
Namaza qeyri-ciddi yanaşmamaq ........................................313
Haram içkilərdən çəkinmək ..............................................314
Camaat üçün su çəkdirmək ................................................315
Oruc tutana iftar vermək ....................................................316
İmamların qəbrini ziyarət və təmir etmək ..........................316
Müraqibət ..........................................................................317
Müraqibətin birinci mənası ................................................318
Müraqibətin ikinci mənası ..................................................331
Nəfsi saxlamaq üçün onu cəzalandırmaq ............................333
Şeyx Bəhainin əhvalatı ......................................................335
Nəfsin saflaşmasına və ruhun paklaşmasına mane olan amillər ..................................................................................336
Pis dostlarla oturub-durmaq................................................337
Dostluğun meyarı və hədləri ..............................................342
Tarixdə dostların və ustadların müsbət təsiri ....................345
Ömər ibn Əbdül Əzizin əhvalatı ........................................345
Müaviyə ibn Yezidin əhvalatı ............................................348
Günah fikrə düşmək və günah olan yerlərdə iştirak etmək 351
Xeyir və şər niyyətli olmağın insana təsiri ........................353
Günah fikrə düşməyin insana təsiri ..................................358
Allahın kitabını (haqq-həqiqəti) gizlətmək və ayələri ucuz satmaq ..................................................................................361

Haram ticarət və haram yeməklər .......................................371
Dolanışığı təmin etmək üçün çalışmaq vacibdir .................376

HARAM TİCARƏT
(Murdar şeylərin alveri)
Şərab .......................................................................................378
Haram içkilərdən və haram yeməklərdən çəkinmək ..........383
Şərab bütün günahların mənbəyidir ....................................386
Şərab qoyulan süfrə kənarında əyləşmək olmaz .................388
Şərab və dərman ..................................................................389

HARAM TİCARƏT
(Haram əşyaların alveri)
Qumar və qumar alətləri ......................................................394
Qumar məclisində iştirak etməyin ziyanları .......................397
Qumar aləti gördükdə Yezidə lənət oxuyub,
İmam Hüseynə(ə) salam göndərmək ..................................398
Qumarın fəsad və ziyanları .................................................399

HARAM TİCARƏT
Qəsb olunmuş malların alqı-satqısı ....................................401
Qəsb edilmiş mal ................................................................402
Qəsbin digər məsələləri .....................................................405
Qəsb olunmuş yerdə və qəsb edilmiş paltarlarla namaz
qılmaq batildir ....................................................................406
Camaatın haqqına riayət etməyənlərin cəzası .....................406
Hacı Abbasağanın əhvalatı .................................................407

HARAM TİCARƏT
Vəqf olunmuş malların alqı-satqısı ....................................410

HARAM TİCARƏT
Alverdə hiylə və kələkbazlıq .............................................419

Ticarətdə kələkbazlığın acı nəticələri ................................424

HARAM TİCARƏT
Tərəzidə və çəkidə aldatmaq ............................................427
Halal ticarətin faydaları ...................................................431
Halal ticarət etmək ibadətdir ..............................................432
Ticarətin əsas şərti ..........................................................434
Ticarətin digər şərtləri .......................................................435
Ticarətdə düzgünlük .........................................................436
Əməkdə və işdə düzgünlük ................................................437
Haram yeməyin pis təsirləri ................................................440

HARAM TİCARƏT
Rüşvətxorluq ...................................................................445
Rüşvətxorluqdan çəkinmək lazımdır .................................448
Rüşvətin növləri ...............................................................449
Mühakimə zamanı alınan və verilən rüşvət .......................449
Haram işlərə yol tapmaq üçün alınan və verilən rüşvət ......449
Halal rüşvət ......................................................................450
Rüşvətlə hədiyyənin fərqi ..................................................451

HARAM TİCARƏT
Sələmçilik ........................................................................457
İslamda sələmçiliklə mübarizə ..........................................459
Sələmçilik barədə hədislər .................................................467
Sələmin mənası ................................................................470
Sələmin icazə verildiyi hallar ............................................472
Allah yolunda borc vermək ...............................................472
Mənfəətsiz və faizsiz borc vermək ....................................474
Allah rizası üçün borc vermək ...........................................475
Minnətsiz borc vermək .....................................................475
Abır və kəramətlə borc vermək ..........................................475

İstəklə borc vermək ..........................................................475
Quran ayələrində borc verməyin faydaları .........................476
Hədislərdə borc verməyin faydaları ...................................480
Borc almamaq daha yaxşıdır .............................................478
Peyğəmbər(s) və imamların borc məsələsinə münasibəti ...479
Məsumların borc üçün qapılarına gələnlərlə rəftarı ...........490
Borcu vaxtlı-vaxtında qaytarmağın əhəmiyyəti .................492
Borcluya (borc alana) möhlət verməyin əhəmiyyəti ..........495
Borcu yazmağın(qeyd etməyin) əhəmiyyəti .......................498
İlahi əhd-peymanına qarşı etinasızlıq .................................499

**Müəllif:** Seyyid Əliəkbər Ocaq Nejad
**Tərtib edən:** Mehrab Xəlilov
**Redaktor:** Seyid Əliəsğər Behbudlu

Yığılmağa verilib: 01.15.2001, çapa imzalanıb 02.03.2012, çap növbəsi: birinci. Kagiz formatı 60x84 1/16 şərti çap vərəqi: 9.25 Tiraj: 300
Kitab "_____" poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.
Kitabın çap və s. hüquqları qorunur.